# ƏL-MURACİAT

## (MƏKTUBLAR)

***İMAMƏT - VİLAYƏT - XİLAFƏT***

**ƏLLAMƏ**
**SEYYİD ƏBDÜL-HÜSEYN ŞƏRƏFÜDDİN**
**MUSƏVİ**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:..................................................................Əl-Muraciat**
**Müəllif:...................Seyyid Əbdül-Hüseyn Şərəfüddin Musəvi**
**Nəşr edən:............................................................................Şəhriyar**
**Çap növbəsi:...........................................................................İkinci**
**Çap tarixi:...................................................................................2007**
**Tiraj:............................................................................................3000**

نام کتاب:.................................................................المراجعات
مولف:.......................................علامه سید عبدالحسین شرف الدین
ناشر:...........................................................................شهریار
تاریخ چاپ:..................................................................۱۳۸۶
نوبت چاپ:..........................................................................دوم
تیراژ.........................................................................۳۰۰۰

**964-5934-48-6**

# EY KİTABIM!

Müəllif dolğun mənalı şeri ilə kitaba xitabən deyir:

*“Ey mənim kitabım, yer üzündə seyr et və istədiyin yerə ayaq bas! Qoy oxucuların həmişə səni sevərək oxusunlar. Səndə məni qorxudan nə bir yalan, nə də heysiyyətinə nöqsan gətirəcək bihudə, dəlilsiz bir məsələ yoxdur.”*

## *KİTABIN MƏŞHUR MÜƏLLİFİNİ TANIYAQ*

Hər şəxsiyyət onda olan müəyyən tipik xüsusiyyətlərlə xarakterizə olunur. Başqasının şərhi-halını yazan şəxs isə onun bu kimi keyfiyyətlərini və elmi səviyyəsini göstərməklə şəxsiyyətini oxucuya tanıtdırır. Əgər onun əsərləri şəxsiyyətini aydınlaşdırırsa, artıq tərcümeyi-halını yazmaq maraqsız olar və o vaxt maraqlı ola bilər ki, onun haqqında bir sıra yeni, deyilməmiş maraqlı incəliklər verilsin.

“Əl-Müraciat” kitabı, demək olar, o yazıçı və böyük alimin tərcümeyi-halı və xasiyyətnaməsini əks etdirə bilən bir kitabdır. Bu kitab oxucuya İslam tarixi ilə bağlı müxtəlif bəhslərə aid geniş məlumat verməklə yanaşı müəllifin, fəsahət, bəlağət, qələmin səlisliyi, mübahisə vaxtı alicənablıq və ehtiramı gözləmək, diqqət, mübahisədə mətanət, xitab olunan və bəhs edən şəxsə tam ehtiram, mübahisələrin tənzimi və başqa xarakterik cəhətlərini aşılayır. Hər halda müəllifin başqa kitablarını da oxumaqla yuxarıda deyilənləri daha yaxşı duyacaqsınız.

Etiraf edirəm ki, bu böyük alimin şəxsiyyətində aradıqlarımı bu neçə səhifədə yazmaq çətindir. Çünki onun dünya görüşü, əxlaqı və insani dəyərləri bir dərya qədər geniş, kitabları, xüsusən bu kitabı ruhun dərinliklərinə vəsf olunmaz nur saçır.

* * *

## *HƏYATI*

Bu böyük alimin adı Seyyid Əbdül-Hüseyn Şərəfüddindir. Adı necə də şəxsiyyətinə münasibdir – Əbdül-Hüseyn. Çünki bütün ömrünü İslama, müsəlmanlara və onların düşmənləri ilə mübarizəyə sərf etmişdir. Şərəfüddindir, çünki dinə xüsusi şərəf gətirmişdir. Belə nümunəvi insanlara İslam aləmində az rast gəlinir.

Atası Şərif Yusif ibn Şərif Cavad ibn Şərif İsmayıl, anası Zəhra, Seyyid Hadi ibn Seyyid Məhəmməd Əlinin qızıdır ki, hər ikisi “Şərəfüddin” sülaləsinin böyüklərindən birinə mənsubdur.

O, 1290-cı hicri-qəməri (1869) ilində Kazimeyn şəhərində, elm və bilik üçün lazımı vasitələrin olduğu bir ailədə doğulmuş və mövcud imkan onun ixtiyarına bir müsəlman, bir İslam təbliğatçısı və aliminə lazım təminat və şəraiti ərməğan vermişdir. Nəcəf-Əşrəfdə məşhur alimlərin hüzurunda fiqh (şəriət əhkamları elmi) və üsul elmlərini öyrənmiş, habelə mərhum Seyyid Kazim Təbatəbai, Axund Xorasani, Fəthullah İsfahani, Şeyx Məhəmməd Taha Nəcəfi və Şeyx Həsən Kərbəlayidən lazımınca bəhrələnmişdir.

Bu böyük alim ilə fiqh və üsul elmini öyrənən başqa tələbələr arasındakı fərq bundan ibarət idi ki, o, yalnız elm öyrənməklə kifayətlənməmiş, dövrün ictimai-siyasi vəziyyətindən, İslam ümmətində baş verən hadisələrdən də xəbərsiz olmamışdır. Müsəlmanların çətinliklərinə şərik olmaq, onların aradan qaldırılması barədə daim düşünmək (bu kitab özü bir nümunədir), müəllifi narahat etdiyi məsələlərdən olmuş və özü müqəddimədə bu həqiqətə toxunmuşdur: “Şiə və sünni ixtilafları elə cavanlığımdan məni kədərləndirirdi və həmişə bir çarə ardınca idim.”

## *CƏBƏL-AMİLƏ SƏFƏRİ*

Seyyid Şərəfüddin Livanın cənubunda yerləşən Cəbəl-Amilə gələrkən onun 32 yaşı var idi və orada alimlər, böyük şəxsiyyətlər və camaat tərəfindən çox səmimiyyətlə qarşılanmışdı. Çox çəkməmiş Cəbəl-Amilin əhalisi başa düşürlər ki, artıq öz həqiqi rəhbərini tapmışlar. Elə buna görə də camaat ona qarşı hüsni-rəğbət göstərərək, islahat işlərində onunla həmkarlıq etməyə hazır olduqlarını elan edir və Şərəfüddin öz islahat işlərinə və zalımlarla mübarizəyə başlayır: dini möhkəmləndirmək, "əmr be məruf", "nəhy əz münkər" (yaxşılığa əmr etmə, pislikdən çəkindirmə), ruhanilər və xalq qarşısında təvazökarlıq, hakim rejim ilə mübarizə kimi işlərin əsasını qoyur.

Bu yolda təsirli, məzmunlu xitab və məruzələri ona böyük dayaq olur. Sözü də qələmi kimi hamını cəlb edir və aydın bəyanı ilə bir çox dəyərli ideyalarını damarlarda axan qan tək müsəlmanların canına yeridə bilir.

Ehtiyaclı-ehtiyacsız Şərəfüddinin sorağına gəlir, onun da qapısı hamının üzünə həmişə açıq – bir dəstə daxil olar, o biri dəstə çıxar, bir sözlə, onun evi ehtiyacların, kədər və müsibətlərin aradan qaldırılma mərkəzi, millətin pənahgahına çevrilir. Apardığı islahat işləri və mübarizəsi, xitab və məruzəsi, cəlbedici bəyanı, üzlərə qapısının açıq olması, xalqın müşküllərini yoluna qoyması, camaat ilə həmrəyliyi həqiqətdə onu millətin kamil bir rəhbərinə döndərir.

## *MÜSTƏMLƏKƏÇİLİKLƏ MÜBARİZƏ*

Şərəfüddin fəaliyyət göstərdiyi məntəqələrdə yalnız yerli müstəkbirlər və İslamın müxalifləri ilə deyil, müstəmləkəçiliklə də var gücü ilə mübarizə aparırmış. O cümlədən, Fransa müstəmləkəçiliyi əleyhinə və azadlıq uğrunda mübarizələrini göstərmək olar. Elə bu mübarizələr və müsəlmanları azadlıq uğrunda qiyama dəvəti Fransanı çətinliyə saldı və nəhayət, çıxış yolunu bu böyük alimin sui-qəsdində gördü. Buna görə də İbn Həllacı məcbur etdilər ki, evinə hücum edib onu öldürsün. Lakin Seyyidin köməkçiləri olmadığına baxmayaraq, bu gözlənilməz hücum nəticəsiz qaldı və görkəmli alimə zərər dəymədi.

Bu xəbərin yayılması ilə xalq ayağa qalxdı və istismar tərəfindən bu işi (sui-qəsd) öhdəsinə götürmüş kəsləri əzməyi o cənabdan tələb etdilər. Lakin, Şərəfüddin özünə xass nəcibliklə camaatı sakitliyə dəvət etdi. Bir-birinin ardınca meydana çıxan çətin hadisələr onu ailəsi və bir sıra mübarizlər ilə birlikdə Dəməşqə getməyə məcbur etdi. Fransa ordusu Seyyidin yolu üstündə pusqu qursa da məqsədinə nail olmadığı üçün onun Şəxurdakı evini yandırdı və Surdakı böyük mənzilini qarət etdilər. Ən dəhşətli hadisə bundan ibarət idi ki, o məşhur alimin çox nəfis və qiymətli kitabxanasını yandırdılar. Bu yanğında onun hələ əlyazma halında olan 19 cild kitabı da külə çevrildi.

Tez bir zamanda Dəməşqin alim və ziyalıları o böyük şəxsin ətrafına toplaşır və öz nitqləri ilə camaatı qarşılarındakı vəzifələri ilə tanış edir. O, bir çox nüfuzlu adamlarla birgə Fransa müstəmləkəçiliyinə qarşı müsəlmanların ictimai məsələləri barəsində danışıqlar aparır və nəhayət, müstəmləkəçiliyə qarşı ciddi toqquşmadan savayı bir yolun olmadığı qərarına gəlirlər. Toqquşmalar nəticəsində Fransa müvəffəqiyyət qazanaraq hərəkatın başçılarını tutub sürgünə göndərir. O cümlədən Şərəfüddini və hərəkatın digər başçılarını Fələstinə sürgün edir.

Fələstində bir neçə ay qaldıqdan sonra möhtərəm yazıçı Misirə gedir. Onun elmi, məzhəbi, ictimai-siyasi şəxsiyyəti tezliklə Misirin böyük alimləri, siyasətçiləri və ziyalılarını hər tərəfdən ona sarı çəkib gətirir.

Əlbəttə, bu o böyük alimin Misirə ilk gəlişi deyildi. Misir onu səkkiz il əvvəl tanıyırdı. Çünki o, 1908-ci (1329-cu hicri) ilin axırlarında o ölkəyə qədəm qoymuş və 1909-cu (1330 hicri) ili də orada qalmış və elə o zaman Misirin alim və elm xadimləri ilə elmi məclis və mübahisələri olmuşdu. Onun Əl-Əzhər universitetinin rektoru Şeyx Səlim Büşri arasındakı məktublaşmaları Əl-Müraciat kitabı şəklində müsəlmanlar üçün bir hədiyyə oldu.

O, 1917-ci (1338-ci hicri) ilin axırlarında Misirdən Fələstinə, Cəbəl-Amilə yaxın olan Ələm adlı bir kəndə mühacirət etdi. Qohumları, yaxın adamları, ailəsi, bütün yoldaşları və dostları onun yanına axışdılar. Ələmdəki evi də, Cəbəl-Amildə olduğu kimi, camaatın pənahgahına çevrildi və hər tərəfdən ora üz gətirdilər.

Fransa dövləti bir sıra müzakirələrdən sonra imam[1]Şərəfüddinin və başqa sürgün olunanların Cəbəl-Amilə qayıtmaları ilə razılaşdı və mübarizlərin heç birisinin təqib olunmayacağına söz verdi. Mərhum Şərəfüddin də arxayın olub Cəbəl-Amilə qayıtmağı qərara aldı. Lakin, yolda Beyrutda dayandı və elan etdi ki, mübarizlərin hamısı vətənə qayıtmayınca, o da Cəbəl-Amilə gəlməyəcək. Bütün sürgün olunmuş mübarizlər qayıtdıqdan sonra, o da vətənə yola düşdü.

Camaatın onu qayıtdığı gün necə qarşılamasını və onların şüarlarını təsvir etməkdə qələm və bəyan acizdir. Dəniz dalğasına bənzər insan dalğası uzaqdan Cəbəl-Amilə tərəf hərəkətdə idi. Şairlər şerlərilə, özləri və cəmiyyətin hisslərini şerə çəkmişdilər. Nəhayət, Seyyid öz əziz vətəninə daxil oldu. Sübhdən axşama qədər küçə və dalanlar cəmiyyətlə dolu idi. Natiqlər və şairlər camaatın hisslərini ifadə edirdilər. Əgər bütün o şer və dastanlar toplanarsa, elə özü Cəbəl-Amil üçün böyük tarixi, fikri və siyasi bir sənədə çevrilə bilər.

## *İSLAM DÜNYASINDAKI MÖVQEYİ*

İslam dünyasının dahi şəxsiyyətləri sırasında bir çoxlarının adı ilə bərabər Seyyid Şərəfüddinin də yeri xüsusi olaraq parlayır. Bütün İslam aləmi onu tanıyır və onun hörmətini saxlayır. O elə bir şəxsdir ki, hansı əsəri bir evə daxil olsa, oxuyanın “afərin”i ilə qarşılanır və onu öz müridlərinə çevirir.

Həqiqətən o, bütün ömrünü dinə, İslama və insanlara xidmət işinə həsr etmiş misilsiz şəxsiyyətdir.

## *ONUN YARADICILIQ HƏYATI*

Kitabın müəllifi haqqında dediklərimizə əsasən, siyasi və ictimai çətinliklər üzündən o, çox da mütaliə, təlif, tədqiq və s. kimi işlərlə məşğul ola bilməmişdir. Lakin, bütün bunlara baxmayaraq, bərəkətli həyatı dairəsində mütaliə və kitab yazmaq üçün də, vaxt ayırmışdı. O, hər gün bir neçə saat öz kitabxanasına gedər, bütün çətinlikləri unudar, mütaliə və tədqiqat aparardı. Bu yararlı saatlarından tədqiq və mütaliə əhli üçün qiymətli kitablar yadigar qoymuşdur. Belə adamların kənarından yalnız bir şəxsiyyət kimi ötüb keçmək olmaz.

Bu böyük mütəfəkkirin dərin yazılarını oxuyarkən adama elə gəlir ki, onun mütaliə və tədqiqatdan savayı başqa bir işi yox imiş, halbuki o, böyük çətinliklərlə əlbəyaxa idi. Bundan əlavə o, yalnız bir neçə kitab deyil, çoxlu kitablar yazmışdır ki, insanı təəccübləndirir. Təəccüb doğuran başqa cəhət bundan ibarətdir ki, onun kitablarından bir fəsil oxuduqda mövzuların, samballılığı və tədqiqin dərinliyi adamı valeh etməyə bilmir. Sanki o, bütün işlərində yalnız əbədi bir əsər qoymaq fikrində olmuşdur.

## *ƏSƏRLƏRİ*

1. «المراجعات» 2. «الفصول المهمة في تأليف الأمة» 3. «أجوبة مسائل موسي جار الله» 4. «الكلمة الغراء في تفضيل الزهراء» 5. «المجالس الفاخرة في ماتم العترة الطاهرة» 6. «ابو هريرة» 7. «بغية الراغبين» 8. «فلسفة الميثاق والولاية» 9. «ثبت الاثبات في سلسلة الرواة» 10. «مسائل خلافية» 11. «رسالة حول الرؤية» 12. «كتاب الي المجمع العلمي العربي بدمشق» 13. «الاجتهاد في مقابل النص»

[1] On iki məsumdan əlavə başqa yerlərdə “imam” sözü rəhbər, başçı, böyük mənasında işlənilir.

1. “Əl-Muraciat”. Onu təriflməyə ehtiyac yoxdur. Ərəb dilində dəfələrlə çap olunmuş bu kitab ingilis, ordu, fars, rus, türk dilinə də tərcümə edilmişdir.

2. “Əl-füsulul-muhimmə fi təlifil-ummə”. Onun qiymətli kitablarından biridir. Şiə və sünni arasında olan ixtilaflı məsələlər haqqında əqli və təhlili bəhsləri əhatə edir. 1327-ci hicri-qəməri ilində yazmış və ikinci dəfə əlavələrlə 1347-ci ildə çap olunmuşdur.

3. “Əcvibətu məsaili Musa Carullah”. Az həcmli və dolğun məzmunlu bir kitabdır. Adından məlum olduğu kimi, Musa Carullahın dediklərinə cavabdır.

Musa Carullah yazdığı bir kitabında şiə alimlərinin qarşısına iyirmi şübhəli məsələ qoymuş və belə fikirləşmişdir ki, şiə alimləri bu suallara cavab verə bilməyəcək. O suallardan bir neçəsi bunlardır: “Şiə, səhabələrin bəzilərini kafir hesab edir və onları lənətləyir; Quranın təhrif olunmasına inanır; cihadı haram sayır; müvəqqəti izdivac məsələsi və s.” Mərhum Şərəfüddin həmin kitabda bütün bu suallara maraqlı, qane edici və məntiqli cavablar vermiş və heç bir şəkk-şübhəyə yer qoymamışdır. Kitabın əvvəlindəki müqəddimə mübahisə edənləri vəhdətə dəvət edir və sonunda isə sual edən şəxsin şiə kitabları haqqında məlumatı olmaması sübuta yetirilir.

Bu kitab 1355-ci hicri-qəməri tarixdə Seyda şəhərində “İrfan” mətbəəsində çap olunmuşdur.

4. “Əl-Kəlimətul-qərra fi təfziliz-Zəhra (ə)”. Bu kitab “Füsulul-mühimmə” nin ikinci çapı ilə birlikdə nəşr olunmuşdur.

5. “Əl-məcalisül-faxirə fi matəmil-itrətit-tahirə”. Bu kitabda həzrət İmam Hüseynə (ə) saxlanılan yas mərasiminin fəlsəfəsi və “Təf” (Kərbəla) şəhidlərinin şəhadətə çatmasının sirri dəqiq surətdə izah olunmuşdur.

6. “Əbu Hüreyrə”. Bu kitab Əbu Hüreyrənin tərcümeyi-halını, yaşadığı dövrü, əlaqələrini, hədislərini, “Sihahi-Sittə”nin və onun hədislərini təhlil və saf-çürük edir.

7. “Büğyətür-rağibin”. Bu kitab onun ailəsinə məxsus olub Şərəfüddinin, görkəmli şəxslərin və ustadlarının şəcərə tarixini əks etdirir. Əslində, bu kitabda şəcərənin bütün şəxslərinin yaşadığı dövr araşdırılmışdır.

8. “Fəlsəfətül-misaq vəl-vilayə”. Öz mövzusuna aid nümunəvi bir risalədir.

9. “Səbtül-əsbat fi silsilətür-rüvat”. Bu kitab İslamın bütün məzhəblərindən başlayaraq İmamlara və Peyğəmbərə (s) qədər ustadların silsilə ilə şərhini yazmış və onların kitablarını xatırlatmışdır.

10. “Məsailun-xilafiyyə”. Bu kitabda beş məzhəb arasındakı bir sıra ixtilaflı fiqhi məsələlər araşdırılmışdır.

11. “Risalətün-hovlər-rivayə”. Öz mövzusuna aid bir risalədir.

12. “Kitabu iləl-məcməil elmiyyil-ərəbi bi-Diməşq”. Bu kitab Dəməşq Universitetinin rəisinin imamiyyə məzhəbinə mənsub etdiyi mövzu haqqında bəhsləri əhatə edir.

13. “Əl-ictihadu fi muqabilin-nəss”. Həzrət Peyğəmbərin (s) hədisləri qarşısında sünni rəhbərlərinin ictihadından 100 nümunə.

## *MƏHV OLUNMUŞ QİYMƏTLİ KİTABLARI*

Bu böyük alimin başqa kitabları dediyimiz kimi, düşmənin əlinə keçərək, kitabxanası ilə birgə yandırılmışdır ki, “Əl-kəlimətul-ğərra”nın haşiyəsində yazdığı kimi, aşağıdakılardan ibarət idi:

1. «شرح التبصرة» “Şərhut-təbsirə”.

2. «حاشية استصحاب» “Haşiyətu-istishab”.

3. «رسالة في منجزات المريض....» “Risalətun fi münəccəzatil-məriz”.

4. «سبيل المؤمنين» “Səbilul-muminin”.

5. «النصوص الجلية» "Ən nüsusul-cəliyyə".

6. «تنزيل الآيات الباهرة» "Tənzilul-ayatil-bahirə".

7. «تحفة المحدثين فيما اخرج عنه الستة من المضعفين» "Tuhfətül-muhəddisin fihə uxrucə ənhus-sittətü minəl muzəfin".

8. «تحفة الاصحاب في حكم اهل الكتاب» "Tuhfətul-əshab fi hokmi əhlil-kitab".

9. «الذريعة» "Əz-Zəriə".

10. «المجالس الفاخرة» "Əl-məcalisul-faxirə".

11. «مؤلفوالشيعة في صدرالإسلام» "Muəllifuş-şiə fi sədril-İslam". Bu kitabın bəzi fəsilləri İrfan jurnalının birinci və ikinci nömrəsində çap olmuşdur.

12. «بغية الفائز في نقل الجنائز» "Büğyətul-faiz fi nəqlil-cənaiz". Bu kitabın çox hissələrini İrfan jurnalı çap etmişdir.

13. «بغية السائل عن لثم الأيدي و الأنامل» "Büğyətüs-sail ən ləsmil-əydi vəl-ənamil".

14. «زكات الأخلاق» "Zəkatul-əxlaq". Onun bəzi fəsillərini İrfan jurnalı çap etmişdir.

15. «الفوائد والفرائد» "Əl-fəvaidu vəl-fəraid".

16. «حاشية علي الصحيح البخاري» "Səhih-Buxariyə haşiyə".

17. «حاشية علي الصحيح المسلم» "Səhih-Müslimə haşiyə".

18. «الأساليب البديعة في رجحان مآتم الشيعة» "Əl-əsalibul-bədiə fi rüchani məatimiş-şiə".

Sadalanmış kitablarına əsasən, bu böyük şəxsiyyət ərəb ədəbiyyatı, məntiq, tarix, hədis, təfsir, rical, üsul və kəlam elmləri haqqında geniş məlumata malik olmuşdur.

* * *

## *ƏXLAQİ SƏCİYYƏLƏRİ*

Qeyd etmək lazımdır ki, Şərəfüddin bir alim olmaqdan əlavə əxlaqi gözəlliklərinə xass xüsusiyyətlərə malik və rəzalətdən uzaq olub, alicənab, yumşaq xasiyyətli, geniş ürəkli, nüfuzlu bir şəxs idi. Hətta onu tanımayanlar belə istər-istəməz ona hörmət etməyə məcbur olurdu. Haqq uğrunda heç bir güzəştə getməzdi, yalnız haqqın tərəfini saxlayardı. Təvazökar bir insan olub, vücudunda daim insaf hökmranlıq edirdi. Buna görə də yoxsul və dövlətli, qohum və yadlar arasında heç bir fərq qoymaz, yalnız haqqı qoruyardı. Adamlara olan məhəbbəti haqqı yerinə yetirməyə mane olmurdu. O, təqvada, nəfs və qəlbin təmizliyində, haqq söz deməkdə qabaqcıl idi. Sadəlövh olmayıb uzaqgörən və iti huşa malik bir şəxs idi. Şücaətli olmaqla yanaşı, camaatın artıq sözlərinə qulaq asmaqdan, onlara diqqət yetirməkdən də yorulmaz və hirslənməzdi.

## *SƏFƏRLƏRİ*

1328-ci hicri-qəməri (1907) ildə Mədinəyə səfər etmiş və Peyğəmbəri-əkrəm (s) və imamların Mədinədəki müqəddəs "Bəqi" qəbiristanlığındakı qəbirlərini ziyarət etdi. O, 1329-cu ildə qeyd olunduğu kimi, Misirə getdi. Əlinizdəki bu kitab həmin səfərin məhsuludur. Çünki orada müəllif Misir alimləri, xüsusən Əl-Əzhər universitetinin rektoru Şeyx Səlim Büşri Maliki ilə bəhsləri nəticəsində bu qiymətli kitab meydana çıxmışdır.

1338-ci hicri ilində onun həmin dini-siyasi mühacirəti baş verdi ki, Dəməşqə, Fələstinə və Misirə səfərləri ilə nəticələndi və bütün bu ölkələrdə müsəlmanlara dini və elmi faydaları dəydi.

1340-cı ildə dəniz yolu ilə Məkkənin ziyarətinə nail olmuş və bu səfəri Ərəbistanın əmiri şah Hüseynin vaxtına təsadüf etmişdi. Onunla birlikdə bir dəstə dostları da həccə getmişdi. Həmin il həcc mərasimində çoxlu züvvar və müxtəlif İslam ölkələrindən çoxlu alimlər iştirak edirdi. Hörmətli müəllif isə onların hamısından daha səciyyəvi, daha yüksək mövqeyə malik idi. Bu birinci dəfə idi ki, bir şiə alimi Məscidül-Həramda namazda müsəlmanlara imam və pişnamaz dururdu.

Bəli, hörmətli Şərəfüddin Məscidül-Həramda ilk şiə alimi kimi bütün camaata pişnamaz olub, bu həcc o zaman müsəlmanların dillər əzbəri oldu. Şah Hüseyn onu çox ehtiramla qarşıladı və hətta o il Kəbəni də birgə yudular.

O, 1355-ci ildə imamları ziyarət etmək üçün İraqa gəldi və camaat tərəfindən çox böyük ehtiramla qarşılandı. Belə ki, Nəcəf, Kərbəla, Kazimeyn və Samirra şəhərlərində alimlər və bir sıra başqa böyük şəxsiyyətlər səmimiyyətlə onun pişvazına çıxdılar.

O, İraqdan sonra İrana səfər etdi və həzrət imam Rzanın (ə) ziyarətinə nail oldu. Bu səfərdə İranın Qum, Tehran və başqa şəhərlərini gəzib dolanarkən dövrün alimlərinin diqqətindən yayınmadı.

* * *

# MÜQƏDDİMƏ VƏ İTHAF

## *BU KİTAB NƏ ÜÇÜN VƏ NECƏ YAZILDI?*

“Bunlar bu gün yazılan səhifələr, yeni fikirlər deyil, iyirmi beş il bundan əvvəlin yazılarıdır. Bu gün parladığı kimi, elə o günlərdə mətbuatda parlamalı idi. Lakin bir sıra çətinliklər və böyük maneələr yolunun üstündə yaratdılar. Buna görə də müvəqqəti gözlərdən gizləndi. Lakin zamanın qəflətindən istifadə etməyə çalışırdı, pərakəndəliyini toplamaq və nöqsanlarını təkmilləşdirmək üçün, fürsət axtarırdı. Çünki hadisələr onun nəşrini təxirə saldığı kimi, sahmanını da pozmuşdu.

Bu haqda bir kitab yazmaq fikri çox-çox əvvəldən yaranmış və uzun bir keçmişi vardır. Bu fikir lap cavanlıq dövrünün əvvəlinə qayıdır ki, buludlar arasındakı şimşək kimi parlayıb, qanımı cuşa gətirdi. Həmişə diqqətimi bu yola yönəltmişdim ki, müsəlmanların arasında mövcud şər və pisliyin kökünü kəsim, həyata yeni nəzərlə baxaraq, bu pərdəni onların gözü qarşısından çəkim ki, riayəti hamıya vacib olan əsl dinə qayıtsınlar, sonra hamı Allahın ipindən yapışaraq, haqqın bayrağı altında elm və əməl səmtinə tələssin və din qardaşları bir-birinə dayaq olsunlar...”

# BİRİNCİ MƏKTUB

6 Zilqədə 1329

***1. Salam və dua.***

***2. Mübahisəyə icazə.***

1. Böyük alim (əllamə) Əbdül-Hüseyn Şərəfüddin Musəviyə salam və Allahın rəhmət və bərəkəti olsun!

Mən bundan əvvəl heç vaxt şiələrin vəziyyəti və mötəqid olduqları inanclarına dair məlumat əldə etmək fikrinə düşməmiş, adət-ənənələrinə də bələd olmamışam. Çünki xüsusi məclislərində olmamış, ölkələrində yaşamamışam. Amma çox istəyirdim ki, onların alimləri ilə mübahisədə iştirak edim, fikirləri, axtarışları və istəkləri haqda dərindən bəhs etmək üçün onların arasında olum. Tale mənə sənin dərya tək varlığını aşkar etdikdən sonra, dodaqlarımı elminin sərin suyu ilə islatdı. Allah bu ləzzətli su ilə xəstəliyimi sağaltdı, yanğımı söndürdü. Cəddin Mustafanın (s) "elm şəhəri"nə və onun qapısı atan Mürtəzaya (ə) and olsun ki, mən sənin ləzzətli çeşmənin yanğısöndürən şərbətindən daha ləzzətli başqa bir şərbət tapmadım.

Mən siz şiələr barəsində eşitmişdim ki, guya siz sünni qardaşlarınızdan uzaqlaşır, onlardan yan gəzir, təkliyə qapanmaqla guşənişinliyə üstünlük verirsiniz və s. Amma mən səni üzügülər, mübahisədə dəqiq, bəhs vaxtı həvəslə fikir yürüdən, sözdə lətif və mehriban, mücadilə (mübahisə) vaxtı qüdrətli, məclis qayda-qanunlarına riayət edən və təqdirə layiq bir insan kimi gördüm. Deməli, şiə məzhəbinə qulluq edənlər xoşsöhbət olur və onlarla oturmaq hər bir ədibin arzusudur.

2. Mən indi sizin elm dəryanızın ucsuz-bucaqsız sahilində dayanıb, özümü onun dalğalarına vurmaqla oradan qiymətli incilər əldə etməyə icazə istəyirəm. Əgər icazə verirsinizsə, uzun müddət sinəmdə qövr edən çətin və dolaşıq məsələlərdən başlayaq. Düzdür, ixtiyar sizindir, lakin mən mübahisədə səhvlərdən başlamayacaq və eyib axtarmaq fikrində də deyiləm –mən nə tənə vuranam, nə də onu camaat arasında yaymaq istəyirəm– sadəcə itmiş bir şeyi axtarıram, yalnız həqiqəti tapmaq üçün bəhs edirəm. Əgər həqiqət aşkar olsa, onun ardınca getmək zəruridir, əks-təqdirdə, şairin dediyinə əməl etməliyik: "Biz, özümüzünkünü bəyənirik, siz də özünüzünkünü, halbuki (həqiqət bir olduğu halda) fikirlərimiz müxtəlifdir."[1] İcazə verin, iki mübahisəli məsələni müzakirə edək:

1. Dində (həm üsul, həm də füruda) imamətin yeri və sübutu (yəni, məzhəb məsələlərində kimə müraciət edilməlidir).

2. Ümumi surətdə qeyd olunan imamət və müsəlmanlara rəhbərlik – yəni, Peyğəmbərin (s) xilafəti.

Mən açıq imza əvəzinə məktubumun sonunda ixtisarla "S" hərfini yazıram, siz də "Ş" hərfini yazın.[2] Lazım olan ehtiramı gözləməkdə buraxdığım hər cür səhv üçün əvvəlcədən bağışlanmağımı ümid edərək üzr istəyirəm. "S"

---

[1] «نَحْنُ بِما عِنْدَنا وَاَنْتَ بِما عِنْدَكَ راضٍ وَالرَّأيُ مُخْتَلِفُ»

[2] Yalnız mübahisəyə başlamaq üçün icazə istəməmiş, həqiqətdə mübahisənin mövzusunu da müəyyənləşdirmişdir. Bu isə onun mübahisədəki ədəb-ərkana riayət etməsini göstərir. Məktubdakı iki simvolik imza da gizli deyil, belə ki "S" onun sünni "Səlim" adına, "Ş" isə mənim şiə "Şərəfüddin" ləqəbimə işarədir.

## *İKİNCİ MƏKTUB*

6 Zilqədə 1329

***1. Dua və salama cavab.***

***2. Mübahisəyə icazə.***

1. Bizim mövlamız Şeyxül-İslama salam və Allahın rəhmət və bərəkəti olsun!

Məhəbbətlə dolu məktubunuz mənə çatdı, göstərdiyiniz lütf və mərhəmətə görə təşəkkür etməkdə dilim acizdir. Uzun illər keçsə də, bəzi vacib öhdəlikləri yerinə yetirmək mümkün deyildir.

Arzu və məqsədlərini mənə açdın, halbuki sən özün ümid gözləyənlərin qibləsi, pənah gətirənlərə nicat verənsən. Mən Suriyadan arzu atına minib, uzun məsafələrdən keçərək sənin elmindən bəhrələnmək, fəzilət yağışında islanmaq üçün qapına gəlmişəm və tezliklə, Allahın qoysa, arzu dolu ümidlə qayıdacağam.

2. Məndən mübahisə üçün icazə istəmisən. Mən bu icazəni sənə verdim, halbuki əmr və sahibi-ixtiyarsınız. İstədiyin şeyi soruş, nə istəyirsən de, fəzl, üstünlük, ədalətli qəzavət, haqqı batildən ayıran söz sənindir. Təşəkkür edirəm. “Ş”

## BİRİNCİ BƏHS

# *DİNİ RƏHBƏRLİK*
# *MƏZHƏBDƏ İMAMƏT*

## *ÜÇÜNCÜ MƏKTUB*

7 Zilqədə 1329

***1. Nə üçün şiə, müsəlmanların yekdil cümhur məzhəblərinə tabe deyil (ardınca getmir)?***

***2. Bu gün həmişəkindən daha çox birliyə möhtacıq.***

***3. Pərakəndəliyi yalnız cümhur məzhəbləri ilə birləşməklə aradan qaldırmaq olar.***

1. Mənim ilk sualım budur ki, nə üçün siz, müsəlmanların cümhur məzhəblərinə tabe olmursunuz, məqsədim üsuli-dində "əşairə" və fürui-dində dörd məzhəbdən biridir. Halbuki keçmişdən bəri saleh sələf etiqad və əməldə onların yolunu tutmuş, onları üstün bilmişlər. Bütün əsrlər boyu hamı bu fikrə mötəqid olmuşdur ki, əməldə onlara tabe olmaq lazımdır. Məzhəb başçılarının ədalət, ictihad, əmanət, paklıq, iffət, əxlaq gözəlliyinə malik olmalarında heç kimin şübhəsi olmamışdır.

2. Siz yaxşı bilirsiniz ki, bu gün bizim ülfət, ittihad və birliyə nə qədər çox ehtiyacımız var və İslam ümmətinin nizama salınması və birləşməsi sizin ümum müsəlmanların fikrinə tabe olmağınızla bağlıdır. Həmçinin yaxşı bilirsiniz ki, hələlik elə bir vəziyyətdəyik ki, din düşmənləri bizə qarşı qəlblərini kin və nifrət ilə doldurmuş, hər vasitə ilə bizi məhv etməyə çalışırlar. Onlar bu işi həyata keçirmək üçün müxtəlif planlar hazırlamış, daha da ayıq-sayıq olmuşlar. Lakin müsəlmanlar hələ də qəflət yuxusundadırlar. Elə bil ki, cəhalət və nadanlıq dəryasında əl-qol atır və düşmənlərə –özlərinə qarşı– kömək edirlər. Belə ki, öz vəhdət bayraqlarını parçalamış, firqələrə, dəstələrə bölünmüşlər. Bu firqələr də ki, biri o birisini yolu azmış sanır, başqa birisinin digərini görməyə gözü yoxdur. Beləliklə, it-qurd bizə tamah gözü ilə baxır, rahatca bizi ovlayırlar.

3. Məgər belə deyilmi? Allah sizi ittifaq və birlik yoluna hidayət etsin! Hər nə demək istəyirsən, buyur, de. Əmr et və arxayın ol ki, sözlərinə diqqətlə qulaq asacaq və onları yerinə yetirməkdə sənə tabe olacağam. Salam olsun sənə!

***"S"***

# *DÖRDÜNCÜ MƏKTUB*

8 Zilqədə 1329

***1. Şəri dəlillər Əhli-beyt məzhəbinə təqlid etməyi (tabe olmağı) vacib hesab edir.***

***2. Cümhur məzhəblərinə təqlid üçün bir dəlil yoxdur.***

***3. Müsəlmanlar ilk üç əsrdə cümhur məzhəblərini tanımırdılar.***

***4. Bütün əsrlərdə hər kəsin ictihada imkanı vardır.***

***5. Pərakəndəliyi Əhli-beytin ehtiramını saxlamaqla birləşdirmək olar.***

1. Üsuli-dində "əşairə", fürui-dində isə dörd məzhəbdən başqa məzhəbə tabe olmağımız nə firqələr və ayrı-ayrı qruplara xatir, nə də dörd məzhəb imamlarının (başçılarının) ictihadına, onların ədalət, əmanət, saflıq və elminin yüksəkliyinə şübhəyə görədir. Əksinə, bir çox şəri dəlillər vardır ki, bizi Peyğəmbər (s) Əhli-beytinin dininə təqlid etməyə vadar etmişdir. Biz o kəslərin məzhəbinə təqlid etmişik ki, Peyğəmbər ocağında böyümüş, evləri mələklərin gediş-gəliş yeri, qeybdən gələn vəhyin məkanı olmuş, Qurani-kərim orada nazil olmuşdur. Bu səbəbdəndir ki, fürui-din və dini əqidələrdə, fiqh, üsul və onun qaydalarında, maarif, hədis, Quran və əxlaq elmində onları örnək bilmişik. Bu yalnız dəlil qarşısında, yalnız İslam peyğəmbərinin qarşısında itaətin nəticəsidir ki, biz də elə bu yolu seçmişik. Ona və Əhli-beytinə salam olsun!

Əgər dəlillər bizə Peyğəmbərin (s) Əhli-beyti ilə müxalifət etməyə icazə versəydi, yaxud əməldə başqa məzhəblər kimi azad qürbət qəsdi (Allaha yaxınlaşma niyyəti) mümkün olsaydı, biz də hər hansı məzhəbə əməl edər, beləliklə, dostluq peymanı və qardaşlığı möhkəmləndirərdik. Lakin, qəti dəlillər möminin yolunu bağlayır və onunla istəkləri arasında fasilə yaradır.

2. Bundan əlavə, cümhur məzhəblərinin üstün olmasına heç bir dəlil yoxdur. Xatırladığınız dörd məzhəbin rəhbərlərinin ictihad, əmanət, ədalət və əzəmətindən əlavə, onlara təqlid etməyin zəruriliyinə dəlalət edən heç bir dəlil tapmadıq. Halbuki siz yaxşı bilirsiniz, əzəmət, ictihad, əmanət və ədalət yanlız onlara həsr edilməyib. Belə olan surətdə, onlara təqlid etməyin zəruriliyi necə mümkün ola bilər?

Güman etmirəm, elə bir şəxs tapılsın ki, onları elm və əməldə bizim imamlarımızdan üstün bilsin, yəni, onları pak imamlarımızdan, nicat gəmisi, ixtilaflarda əmin-amanlıq mərkəzi olan "Hittə qapısı", dinin hidayət bayraqdarları, Allah rəsulunun İslam ümməti arasında olan xələfləri və övladlarından üstün tutsun. Peyğəmbər (s) onların haqqında buyurmuşdur:

"Onlardan irəliyə keçməyin, yoxsa həlak olarsınız, onlara qoşulmaqdan çəkinməyin, yoxsa məhv olarsınız, onlara bir şey öyrətməyin, çünki onlar sizdən daha alimdirlər."

Amma siyasət elə gətirdi ki, başqaları irəli sürüldülər. Yaxşı bilirsən ki, İslamın əvvəlində siyasət nəyi tələb edirdi, amma hara yönəldi. Çox təəccüblüdür, buyurursunuz ki, keçmişdəki pak adamlar bu məzhəblərə inanmış, onları başqa məzhəblərdən üstün tutmuş, bütün əsrlər boyu onlar kimi əməl etmişlər. Məgər siz bilmirsiniz ki, keçmişdəki pak adamlar və onlardan sonra gələnlər –yəni, müsəlmanların yarısını təşkil edən Ali-Məhəmməd (s) şiələri– Əhli-beyt imamlarının məzhəbinə, Rəsulullahın "səqəleyn"inə (Quran və Əhli-beyt) həmişə sadiq qalmış və bu yoldan azacıq da olsa, dönməmişlər?! Onlar Əli (ə) və Fatimə (ə) zamanından, dörd məzhəb imamlarının, hətta onların atalarının da heç birinin olmadığı zamandan indiyədək bu yol ilə getmişlər. Bu yəqin ki, sizin üçün gizli deyildir.

3. Bundan əlavə, müsəlmanlar ilk üç əsrdə dediyiniz məzhəblərsiz yaşamışlar. Bu məzhəblər yaranan dövrlər hara, birinci, ikinci və üçüncü əsrlər hara! (İlk üç əsr ən parlaq əsrlər sayılır.) Çünki Əşəri 270-ci hicri ilində anadan olmuş və təqribən 335-ci ildə dünyadan getmiş, Əhməd Hənbəl 134-cü ildə anadan olmuş, 241-ci ildə vəfat etmiş, Şafei 150-ci ildə anadan olmuş, 204-cü ildə vəfat etmiş, Malik[1] 95-ci ildə dünyaya gəlmiş, 179-cu ildə dünyanı tərk etmiş və Əbu Hənifə 80-ci ildə doğulmuş və 105-ci ildə vəfat etmişdir.

Amma şiələr isə elə İslamın əvvəlindən Əhli-beytin məzhəbinə inanmışlar. Çünki ev əhli evdə olan hər şeyi daha yaxşı bilir. Şiə olmayanlar isə səhabələrin və tabe olduqları məzhəb alimlərinin rəftarlarına əməl etmişlər. Belə olan surətdə, hansı dəlilə əsasən müsəlmanlar –ilk 3 əsrdən sonra– bu məzhəblərə əməl etməli, əvvəllər hamının qəbul etdiyi məzhəbə isə əməl etməməlidirlər? Allahın kitabı ilə eyni sırada və eyni qiymətdə olan şəxslərdən – Peyğəmbərin (s) qiymətli səfirlərindən, onun “elm xəzinəsi”, “nicat gəmisi”, “rəhbərlər”, “aman” və “hittə qapısı”ndan niyə üz döndərməlidirlər?

4. Üç əsr hamının üzünə açıq olan ictihad qapısının müsəlmanların üzünə möhkəm bağlanmağının səbəbi nə idi? Bu yalnız özümüzü məhrum etmək, cahillik və nadanlıqdan başqa bir şeydirmi?

Kim bu həqiqəti – Rəsulullahın peyğəmbərlərinin ən üstünü, dinlərin ən kamili və ən yüksək səmavi kitaba sahib olması, dinin onun vasitəsilə kamilləşməsi, ona bol nemətin verilməsi, bütün keçmiş və gələcək elmlərin ona öyrədilməsi inancını qəbul etdikdən sonra “lakin, bütün bunlar dörd məzhəb sahiblərilə tamamlanmış, onlar bu bəxşişləri mənimsəmiş və heç kəsə başqa yolla onu əldə etməyə icazə verməmiş” – fikrini söyləyə bilər?! Guya, İslam dini, onun kitabı, Peyğəmbərin buyuruqları, əməlləri və sair aydın dəlillər onların (dörd məzhəbin) xüsusi əmlakı kimimi qeyd olunmuş və o fikirlərə müvafiq olanlardan əlavə heç kimə bu nemətləri əldə etməyə icazə verilməmişmi?! Məgər onlar peyğəmbərlərin varislərimi idilər? Yaxud, Allah vəsilik və imaməti onlaramı vermişdi? Keçmiş və gələcək elmləri yalnız onlaramı öyrətmişdi? Yaxud, dünyada heç kəsə bəxşiş edilməyən şeyləri onlaramı bağışlamışdı? Heç vaxt! Onlar da digər alimlər və elm xadimləri kimi hamını Ona tərəf dəvət edənlərdəndir və heç vaxt dəvət edənlər elm xəzinəsinin qapısını heç kimin üzünə bağlamazlar. Onlar bunun üçün yaranmamışlar ki, ağıl və zəkaları zindana salsın, camaatın gözünü bağlasınlar. Onlar ürəkləri susdurmaq, qulaqları kar etmək, gözlərdən pərdə asmaq, ağızlara qıfıl vurmaq, əlləri və boyunları zəncirləmək, ayaqlara qandal vurmaq üçün yaranmamışlar. Şübhəsiz, iftiraçılardan başqa heç kəs bunu onlara aid etməz. Onların öz sözləri bizim fikirlərimizin doğru olmasına şahiddir.

5. İndi doğrudan da müsəlmanların pərakəndəliyi barədə bəhsə başlamağımızın vaxtı çatmışdır. Məncə, bu iş şiənin öz məzhəbindən əl çəkib cümhurun dörd məzhəbinə meyl etməsi, yaxud sünnə əhlinin öz məzhəbindən əl çəkməsi demək deyil. Əvvəlki söhbətlərdən aydın olduğu kimi, şiəni öz məzhəbindən əl çəkməyə dəvət edən təkliflər dəlilsiz təkliflər, ümumiyyətlə, mümkün olmayan təkliflərdir.

Bəli, müsəlmanların birliyi və ittifaqı o vaxt mümkün olar ki, siz Əhli-beyt məzhəbini azad elan edəsiniz və onu digər məzhəblərdən biri biləsiniz ki, hər müsəlman ona əməl edə bilsin. Beləliklə, Şafei, Hənəfi, Maliki, Hənbəli məzhəblərinə təqlid edənlərin (ardıcılları) Ali-Məhəmməd (s) şiəsi haqda olan fikri, başqa məzhəb ardıcıllarına olduğu kimi olsun.

Bu da gizli deyildir ki, sünnilərin dörd məzhəbi arasındakı ixtilafları, onların şiələrlə olan ixtilaflarından az deyildir. Bu sözün ən aşkar şahidi sünni və şiələrin üsul və füru barədə

---

[1] İbn Xəlkan “Vəfəyatül-Əyan” kitabında yazır ki, “Malik üç il ana bətnində nütfə halında qalmışdır.”
İbn Qüteybədə “Maarif” kitabının 170-ci səh.-də “əshabi-rəy”i (fikir sahibləri) sayanda, Maliki də onlardan hesab etmiş, habelə neçə adamın adını da çəkərək öz gümanına əsasən, analarının hamiləlik müddəti adi müddətdən çox olduğunu göstərmişdir. Bunu “Maarif”in 198-ci səhifəsində qeyd etmişdir.

yazılmış minlərlə kitabıdır. Əgər belədirsə, bəs onda niyə sizinkilər müsəlmanlar arasında şayiə yayırlar ki, şiələr sünnilərə ziddir? Nə üçün demirlər ki, sünnilər şiələrlə ziddir? Nə üçün demirlər ki, bir dəstə sünnə əhli başqa bir dəstəyə ziddir. Əgər dörd məzhəbin olması mümkündürsə, nə üçün beşincisi mümkün olmasın? Necə ola bilər ki, dörd məzhəbin olması müsəlmanların ittifaqına səbəb olsun, amma elə ki, beşincisinə çatdı, ittifaqları dağılıb hərəsi bir səmtə yönəlsin (və bu iş onların parçalanmasına səbəb olsun)?!

Nə yaxşı olardı ki, siz bizi məzhəb vəhdətliyinə çağırdığınız vaxt, sünnilərin dörd məzhəbini də birliyə dəvət edəydiniz. Sünnə əhlinin dörd məzhəbi arasında ittihad yaratmaq sizlər üçün daha asan deyilmi? Məzhəb birliyinə dəvət etməyi niyə yalnız bizə aid edirsiniz?

Necə oldu ki, siz pərakəndəliyin səbəbini Əhli-beyt (ə) məzhəbinə tabe olanlarda gördünüz, amma məzhəbi, nəzəriyyəsi, təbiəti və istəkləri müxtəlif olan digər dörd məzhəb ardıcıllarını isə ürəkləri və məqsədləri birləşdirən amil hesab edirsiniz?

Sizin Peyğəmbər ailəsinə belə münasibət bəslədiyinizi təsəvvür belə etməzdim. Vəssalam.

***“Ş”***

# *BEŞİNCİ MƏKTUB*

9 Zilqədə 1329

***1. Deyilənlərə etiraf.***

***2. Müfəssəl dəlilin tələbi.***

1. Qiymətli məktubun çatdı. Geniş, fəsilləri kamil, anlamlı və yaxşı bir məktub idi. Qeyd olunan dəlillər möhkəmdir. Üsul və füruda cümhur məzhəblərinin ardınca getməyin vacib olmadığı bəhsin bəyanında deyilməmiş bir şey qoymamış, ictihad qapısının açıq olmasının sübutunda dəlilləri dolğunluğu ilə gətirmişsiniz.

Buna görə də məktubun, hər iki (dörd məzhəbə təqlid etməyin vacib olmaması və ictihad qapısının açıqlığı) məsələnin sübutu və dəlili nöqteyi-nəzərindən çox güclüdür, hər ikisi üçün gətirilən dəlillər doğru və anlaşıqlıdır, baxmayaraq ki, biz onları o qədər də açıq-aşkar tələb etməmişdik. Lakin özünüz bilən məsləhətdir.

Biz sizin sünni məzhəblərindən çəkinməyinizin səbəbini soruşmuşduq. Siz isə cavab vermisiniz ki, səbəbi yalnız şəri (şəriətdə olan) dəlillərdir, amma siz onları müfəssəl şəkildə sübut etməli idiniz. Buna görə də siz "kitab" (Quran) və sünnədən elə bir qəti dəlil gətirə bilərsinizmi ki, möminin yolu bağlanaraq, onunla istəkləri arasında hasar çəkilsin? Təşəkkür edirəm. Vəssalam.

***"S"***

# *ALTINCI MƏKTUB*

12 Zilqədə 1329

***1. Əhli-beytin ardınca getməyin vacibliyinə dair dəlil.***

***2. Əmirəl-möminin (ə) Əhli-beyt məzhəbinə dəvət edir.***

***3. İmam Zeynəlabidinin (ə) bu barədə sözləri.***

Siz –Allaha şükür– bir işarə ilə hər şeyi başa düşürsünüz və aşkar danışmağa ehtiyac yoxdur. Allah eləməsin ki, qəlbinizdə Əhli-beyt imamlarına qarşı şübhə olsun və ya ruhunuzda onları başqalarından əvvəl bilməkdə bir maneə əmələ gəlsin. Çünki onların şəxsiyyətləri olduqca aydındır – başqalarından üstündür və seçilirlər, keçmiş peyğəmbərlərin elminə Peyğəmbər (s) vasitəsilə varis olmuş, din və dünya əhkamlarını o həzrətdən almışlar.

1. Peyğəmbər (s) onları Allahın kitabı (Quran) ilə bir sıraya qoyaraq, ağıl sahiblərinə rəhbər, nifaq dəryasında tufan zamanı onları nicat gəmisi, düşmənçilik və biganəlik fırtınaları qalxan vaxt ümmət üçün əmin-amanlıq yeri, məğfirət qapısından daxil olmaq istəyənlər üçün “Hittə qapısı” və sarsıntı vaxtı ayrılığa yol verməyən pənah yeri etmişdir.

2. Əmirəl-möminin (ə) buyurmuşdur: “Hara, hansı tərəfə üz tutursunuz, haqqın bayraqları qaldırılmış, onun əlamətləri aşkar və hidayət çıraqları asılmışdır. Yolu itirmiş ikən, hara gedirsiniz? Nə üçün sərgərdansınız? Halbuki Peyğəmbərin (s) Əhli-beyti sizin aranızdadır. Onlar haq göstəriciləri, dinin bayraqdarları və doğru danışan dilləridir. Onları, Quranı qoruduğunuz ən yaxşı yerdə (ürəklərdə və pak qəlbinizdə) yerləşdirin, susuzlar kimi (sirab olmaq üçün) onların zülal çeşməsinə hücum edin.

Ey camaat, bu həqiqəti peyğəmbərlərin sonuncusundan öyrənin: “Bizdən kim ölsə, həqiqətdə ölməmiş, kim köhnəlsə, həqiqətdə köhnəlməmişdir.” Belə ki, bilmədiyiniz şeyi deməyin, çünki həqiqətlərin çoxu sizin inkar etdiyiniz şeylərdir və əleyhinə sübutunuz olmayan şəxsdən üzrxahlıq edin ki, elə onlardan biri mən özüməm. Məgər sizin aranızda “siqli-əkbər”ə (Quran) əməl edən,“siqli-əsğər”i (Əhli-beyt imamları) aranızda qoyan mən deyiləmmi?...”[1]

Yenə o həzrət buyurur: “Nəzərlərinizi Peyğəmbərinizin Əhli-beytinə tərəf yönəldin, onların getdiyi səmt ilə gedin, addımlarınızı onların ləpirlərinə qoyun. Onlar sizi hidayət yolundan kənara çıxarmaz və zillət mənzilinə sövq etməzlər. Sükut etsələr, siz də edin, qiyam etsələr, siz də edin. Onlardan qabaqda getməyin ki, yolu itirər və onlardan geridə qalmayın ki, həlak olarsınız.”[2]

Bir daha imam Əmirəl-möminin (ə) camaata xatırladır: “Onlar elmə həyat, nadanlığı məhv edir, səbirləri səni öz elmlərindən, zahirləri batinlərindən, sükutları məntiqlərindən agah edər. Haqqa zidd deyillər və ona qarşı çıxmazlar. Onlar İslamın dayağı və əmin-amanlıq pənahgahıdırlar. Onların vasitəsilə haqq öz yerinə qoyular, batil kökündən qopardılar. İlahi ayini onlar yaxşı bilir, onu yalnız eşidib başqalarına demək deyil, ona əməl edirlər. Belə ki, elmdən danışanlar çox, lakin onu dərk edənlər isə azdır.”[3]

Başqa bir xütbədə buyurur: “Onun (s) Əhli-beyti əhli-beytlərin ən yaxşısı, xanədanı xanədanların ən yaxşısı, vücudunun nəsil ağacları ağacların ən bəhrəlisidir. Allahın hərəmində kök atmış, səxavət və nəciblik diyarında dirçəlmişdir. Budaqları uzun, meyvələri boldur.”[4]

---

[1] Sübhi Saleh, “Nəhcül-bəlağə”, 87-ci xütbə.

[2] 97-ci xütbə.

[3] 239-cu kəlam.

[4] 94-cü xütbə.

Yenə İmam (ə) buyurur: “Biz Peyğəmbər (s) elminin şüarı, səhabələri, xəzinələri və qapılarıyıq. Evə isə yalnız onun qapısından daxil olmaq olar. Qapısından daxil olmayan isə oğru sayılır.”

Yenə həmin xütbədə Əhli-beyt haqqında sözünə belə davam edir: “Qurani-kərimin ayələri onlar haqqındadır və onlar Allahın xəzinələridir. Danışanda sözləri doğru, susanda heç kəs onlardan qabağa düşməz. Karvan başçısı karvandakılara yalan deməməli, onları agah etməlidir.”[1]

Yenə buyurur: “Siz tərəqqi və hidayəti yalnız onu tərk edəni tanıdıqdan sonra tanıyacaqsınız. Quranın hökm və şərtlərinə yalnız inkar olunandan sonra istinad edəcəksiniz və kimsə tərəfindən Qurana əhəmiyyət verilməyincəyə qədər ona əl vurmayacaqsınız. Belə isə, bunları öz əhlindən soruşun, o kəslərdən ki, elmi dirildən, cəhalət və nadanlığın məhvidirlər. Onlar o kəslərdir ki, hikmətləri biliklərindən, sükutları məntiqlərindən, zahirləri batinlərindən sizi agah edər. Onlar dinə zidd deyillər. Quran onlar üçün doğru şahid və səssiz natiqdir.”[2]

O həzrətdən bu haqda bir çox başqa aydın buyuruqlar da çatmışdır ki, aşağıdakıları misal çəkmək olar:

“Bizim vasitəmizlə cəhalət və azğınlıq qaranlıqlarından hidayət olundunuz və bizim köməyimizlə tərəqqi zirvəsinə qalxdınız, səadət səhəriniz vücudumuzun şüaları ilə işıqlandı.”[3]

“Ey camaat, özü əməl edən vaizin (moizə edənin) vücudunun çırağı şöləsilə vücudunuzun çırağını yandırın və içində zərrə qədər də çirk olmayan çeşmədən su götürün.”[4]

“Biz nübüvvət ağacı, onun dayağı, mələklərin gediş-gəliş yeri, bilik mədənləri, hikmət çeşmələriyik, dostlarımızı rəhmət gözləyir, düşmənlərimizi isə ilahi cəza.”[5]

“Haradadırlar o kəslər ki, yalandan və zalımcasına özlərini elmin dirəkləri xəyal edirdilər? Görsünlər ki, Allah bizə necə uca məqam bəxş etdi, onları isə necə xar və zəlil etdi, bizə rəhmət, onları isə məhrum etdi. Bizdən hidayət hər yana yayılır və idraklar nur alır. İmamlar və rəhbərlər Qüreyşdəndir. Onların silsilə budağı Haşimdən şaxələnir. İmamət başqalarına layiq deyil, rəhbər və yol göstərənlər onlardan savayı başqası ola bilməz.”

İmamlara zidd olanlar haqda belə deyir: “Onlar bu dünya həyatını seçdilər. Axirətdən əl çəkib, saf və içməli sudan imtina edərək, qoxumuş və çirkli suyu içdilər.”[6]

“Sizdən hər kəs Allah, Peyğəmbər (s) və Əhli-beytin məhəbbəti və onları tanıyaraq yatağında belə ölsə, şəhid sayılar, Allah ona əcr verər. Saleh əməllər fikrində olan adama Allah tərəfindən savab veriləcək. O, saleh niyyəti ilə Peyğəmbərin (s) Əhli-beyti ilə bir yerdə qılınc çəkib, cihad edən kəs kimidir.”[7]

“Biz insanların ən şərəfliləri və nəcibləriyik. Bayraq və əlamətlərimiz peyğəmbərlərin bayraq və əlamətləridir. Bizim firqəmiz “Allah firqəsi”dir. Üsyançı dəstə isə şeytan firqəsindəndir. Bizi düşmənlər ilə bərabər sayan kəs bizdən deyildir.”[8]

---

[1] 154-cü xütbə.

[2] 147-ci xütbə.

[3] 105-ci xütbə.

[4] 4-cü xütbə.

[5] 109-cu xütbə.

[6] 144-cü xütbə.

[7] 190-cı xütbənin axırı.

[8] Bu sözü çoxları nəql edib, o cümlədən İbn Həcər “Səvaiq” kitabının 142-ci səhifəsində “İmamların xüsusiyyətləri” babının sonunda nəql etmiş və bir sıra cəfəngiyat da söyləmişdir.

Behişt cavanlarının seyyidi, Peyğəmbərin (s) nəvəsi imam Həsən (ə) öz xütbəsində buyurur: “Bizim barəmizdə Allahdan qorxun, çünki biz sizin əmiriniz və başçılarınızıq.”[1]

3. İmam Səccad Əli ibn Hüseyn (ə) يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَكُونُواْ مَعَ الصَّادِقِينَ [2] “Ey iman gətirənlər, Allahdan qorxun və doğru olanlarla olun.” – ayəsini oxuyarkən, çoxlu dua edərdi. Bu dualar sadiqlərin (doğruların) və yüksək dərəcəlilərin məqamına çatmaq, onlara qoşulmaq arzusundan ibarət idi. Bu dualarda bidət qoyanların (dinə zid yeni qanun), yəni imamlardan və “nübüvvət ağacı”ndan uzaqlaşanların törətdiklərinə də işarə olunurdu. Məsələn, buyurur: “Başqaları bizim haqqımızda günah işlətdi, öz zidd əməllərini Quranın mütəşabeh (mənası oxşar və tam bəlli olmayan) ayələrinə əsaslandıraraq, onları istədikləri kimi şərh etdi və Peyğəmbərin (s) bizə münasibəti və haqqımızda söylədiyi şübhəsiz xəbər və hədisləri inkar etdilər.”; “Belə olduqda, bu millətin əlamət və nişanələri köhnəliyə meyl etdiyi və bu millətin biri-birilərini kafir adlandırdıqları surətdə, təfriqə və ixtilaflara alışdığı bir halda gələcək müsəlmanlar kimə pənah aparsınlar? Halbuki Allah-taala buyurur: “O adamlar kimi olmayın ki, pərakəndə oldular və aydın dəlillər və möcüzələr gətirildikdən sonra müxalifət etdilər.”[3] Bəs, Allahın dəlillərini çatdırmaq və əhkamları izah etmək üçün kimə inanmaq olar? Quran ilə bir sırada olan, yol göstərən imamlardan – o işıqlı çıraqlardan, Allahın öz bəndələrinə olan bu höccətlərdən başqa kimi tanıyır və inanılası kimsə varmı? Allah insanları höccətsiz (dəlilsiz) və sərbəst (başlı-başına) buraxmamışdır. Onları tanımırsınızmı? Məgər siz onları risalətin mübarək şəcərəsindən olan budaqlar və Allahın günah və çirkinliklərdən tər-təmiz etdiyi pak şəxslər bilmirsinizmi? Məgər Allahın höccətləri o kəslər deyildirmi ki, Allah onları hər cür afətdən (səhv addımlardan) uzaqlaşdırmış, onlara qarşı dostluq və məhəbbəti Quranda vacib bilmişdir?”[4]

Bunlar imam Səccadın (ə) sözləridir. Bu sözlərə və Əmirəl-mömininindən (ə) nəql etdiyim kəlamlara diqqət yetir! Görəcəksən ki, onlar şiə məzhəbini aydın şəkildə təcəssüm etdirmişlər. O iki böyük şəxsin sözlərindən bu bir nümunə idi və digər imamların da fikirləri eynilə belədir. Çünki onlar bir həqiqət əsasında birləşmişlər. Bir daha unutma ki, bizim bu haqda doğru xəbərlərimiz “mütəvatir”dir.[5] Vəssalam. “Ş”

---

[1] İbn Həcər “Peyğəmbərin vəsiyyətləri” babının sonunda onların haqqında “Əs-səvaiq” kitabının 137-ci səhifəsində nəql etmişdir.

[2] “Tövbə”, 119-cu ayə.

[3] “Ali-İmran”, 105-ci ayə.

[4] Bu sözlər İbn Həcərin “Əs-səvaiq” kitabının 11-ci babının 90-cı səhifəsində (Ali-İmran, ayə 103), yəni 1-ci fəsilin 5-ci ayəsində söylənmişdir.

[5] Eyni bir hədis bir çox mötəbər ravilərdən (rəvayətçilər) nəql olunduqda ona mütəvatir hədis deyilir.

# *YEDDİNCİ MƏKTUB*

13 Zilqədə 1329

***1. Quran və sünnədən dəlilin tələbi.***

***2. Əhli-beytin sözlərinə əsaslanmaq "dövrlə"[1] nəticələnir.***

1. Allah və Peyğəmbərin (s) kəlamlarından dəlil gətirin ki, Əhli-beytin ardınca getməyin vacibliyini sübut etsin və bu bəhsdə bizi Allah və Rəsuli-əkrəmin sözlərindən başqasının sözlərini qəbul etməkdə azad burax.

2. İmamlarınızın sözləri onlarla müxalif olanlar üçün dəlil ola bilməz. Çünki bildiyiniz kimi, bu haqda onların sözlərinə əsaslanmaq "dövr"lə nəticələnir. Vəssalam.

***"S"***

---

[1] Məntiq elmində bir qaydadır. Burada "S" deyir ki, imamların haqlılığını sübut etmək üçün elə onların öz sözlərinə əsaslanırsınız, halbuki onların sözlərinə sübut kimi əsaslanmaq, onların doğruluğunu kənar dəlillə sübut etdikdən sonra ola bilər və sizin bu işiniz "dövr"dür. (mütərcim)

# *SƏKKİZİNCİ MƏKTUB*

<u>15 Zilqədə 1329</u>

***1. İşarə etdiyimizdən qafil deyilik.***

***2. "Dövr"də səhv nəticə.***

***3. Səqəleyn hədisi.***

***4. Səqəleyn hədisinin mütəvatirliyi (şübhəsizliyi).***

***5. Əhli-beytə arxalanmayan şəxs yolunu itirmişdir (azmışdır).***

***6. Onların Nuhun gəmisinə, "Hittə qapısı"na bənzədilməsi və ümməti dini ixtilafdan qorumaları.***

***7. Burada Əhli-beytdən məqsəd kimlərdir?***

***8. Nə üçün onlar Nuhun gəmisinə və "Hittə qapısı"na oxşadılıblar?***

1. Mən məktubumun əvvəlində Peyğəmbərin (s) kəlamını elə-belə qeyd etməmişdim. Əgər bir az diqqət yetirsəydiniz, o hədis Əhli-beyt imamlarının ardınca getməyin vacibliyini açıq-aşkar göstərirdi. Peyğəmbər (s) onları Quran ilə bərabər tutaraq, bilik sahiblərinin başçıları qərar vermiş, onları nicat gəmisi, ümmətin əmin-amanlıq mərkəzləri və "Hittə qapısı"na bənzətmişdi. Bundan məqsəd Peyğəmbərdən (s) eyni məzmunda çatan doğru və düzgün xəbərlərə işarə idi ki, siz işarə və kinayədən sonra başqa bir izahata ehtiyacı olmayanlardansınız.

2. Beləliklə imamlarımızın sözlərini –dediyiniz kimi deyil– onlarla müxalif olanlara da mötəbər dəlil kimi bildirmək olar və artıq onların sözlərini dəlil gətirməklə "dövr" yaranmayacaqdır.

3. İndi isə Allah rəsulunun (s) sözlərinə diqqət edin. O həzrət bir gün cahil və agah olmayanları səsləyib, onlara müraciət edərək uca səslə buyurdu: «يا اَيُّهَا النّاسُ إنّي تَرَكْتُ فيكُمْ ما إنْ اَخَذْتُم بِهِ لَنْ تَضِلوُّا، كِتابَ الله وَ عِتْرَتي اَهْلَ بَيْتي» "Ey camaat, mən sizin aranızda elə bir şey qoyuram ki, əgər ondan yapışsanız, heç vaxt yolunuzu itirməyəcəksiniz: o, Allahın kitabı və Əhli-beytimdir."[1]

«إنّي تَرَكْتُ فيكُم ما اِنْ تَمَسَّكْتُم بِهِ لَنْ تَضِلّوُا بَعْدي كَتابَ اللهِ حَبْلٌ مَمْدُودٌ مِنَ السَّماءِ إلَي الاَرضِ وَ عِتْرَتي اهْلَ بَيْتي وَلَنْ يَفْتَرِقا حَتّي يَرِدا عَلَيَّ الْحَوْضَ فَانْظُرُوا كَيْفَ تُخَلِّفُوني فيهِما» "Mən aranızda elə bir əmanət qoyuram ki, əgər ondan möhkəm yapışsanız heç vaxt yolunuzu itirməyəcəksiniz. O, göylə yer arasında bir ip olan Allahın kitabı Quran və Əhli-beytimdir. Bu ikisi Kövsər hovuzu kənarında mənə çatmayınca bir-birindən ayrılmayacaqlar. Belə isə, diqqət edin, görün məndən sonra onlarla necə rəftar edəcəksiniz!"[2]

---

[1] Bu rəvayəti Tirmizi və Nisai Cabirdən nəql ediblər. Müttəqi Hindi də bu hədisi "Kənzül-Ümmal" kitabının birinci cildinin "Əl-İtisamu bil-kitabi vəs-sunnə" babının 44-cü səh.-də bu iki nəfərdən nəql etmişdir.

[2] Tirmizi bu hədisi Zeyd ibn Ərqəmdən nəql edir. Bu, "Kənzül-Ümmal" kitabının birinci cildinin 44-cü səhifəsindəki 874-cü hədisdir.

“Mən aranızda iki xəlifə qoyuram: göydən yerədək (və ya göy ilə yer arasında) uzanan Allahın kitabı və Əhli-beytimdir. Onlar hovuz (Kövsər) kənarında mənə çatmayınca heç vaxt bir-birindən ayrılmayacaqlar.”[1]

“Mən sizin aranızda iki qiymətli şey qoyuram: Allahın kitabı və Əhli-beytimi. Onlar hovuz kənarında mənə qovuşmayınca bir-birindən ayrılmayacaqlar.”[2]

“Mən, Pərvərdigar tərəfindən artıq dəvət almışam və tezliklə gedəcəyəm. Aranızda iki “siql” (iki ağır və qiymətli şey) qoyuram: Allahın kitabı və Əhli-beytimi. Allah kitabı göy ilə yer arasında uzanan bir ipdir. Lətif və agah olan Allah xəbər vermişdir ki, onlar Kövsər hovuzunun kənarında mənə çatmayıncaya qədər bir-birindən ayrılmayacaqlar. Baxın görün, məndən sonra onlarla necə rəftar edəcəksiniz!”[3]

Peyğəmbər (s) “həccətül-vida”dan qayıdan zaman Qədir-xuma yetişdikdə karvana əmr verdi ki, oranın böyük ağacları kənarında dayansınlar və ağacların altını təmizləsinlər. Sonra buyurdu:

“Mən dəvət olunmuşam və aranızdan gedəcəyəm. Mən sizin aranızda bir-birindən böyük olan iki qiymətli şey qoyuram: Allahın kitabı və Əhli-beytim. Baxın görün, onlarla necə rəftar edəcəksiniz! Onlar bir-birindən heç vaxt ayrılmayacaqlar.” Sonra buyurdu: «اِنَّ اللهَ عَزَّوَجَلَّ مَوْلايَ وَاَنَا مَوْلي كُلِّ مُؤمِنٍ» “Allah mənim sərvərim və başçımdır və mən də hər bir möminin sərvəriyəm.” Bu vaxt Əlinin əlindən tutub dedi: «مَنْ كُنْتُ مَوْلا هُ فَهذا وَليُّهُ ، اَللّهُمَّ وَالِ مَنْ والاهُ وَعادِ مَنْ عاداهُ...» “Mən hər kəsin sərvəriyəmsə, bu (Əli) onun vəlisidir. İlahi, onu sevəni sev və onunla düşmənçilik edənə düşmən ol...”[4]

Abdullah ibn Həntəb deyir ki, Peyğəmbər (s) “Cöhfə”də bizə xütbə söylədi və soruşdu: “Məgər mən sizin canınızdan sizə daha yaxın deyiləmmi? Dedilər: Bəli, ey Rəsulullah. Buyurdu: «اِنّي سائِلُكُم عَنِ اثْنَينِ: اَلْقُرآنِ وَ عِتْرَتي»[5] ə v naQur: məyəcəde bələt nəsizd yieş iki nəM Əhli-beytimi.”

---

[1] Bu hədisi Əhməd Hənbəl, Zeyd ibn Sabitdən iki doğru silsilə ilə nəql edib. Birinci vasitə “Müstənəd”in 5-ci cildinin 172-ci səh-də və ikincisi 189-cu səh-dədir. Təbərani “Kəbir” kitabında onu Zeyd ibn Sabitdən nəql etmişdir ki, həmin hədis “Kənzül-Ümmal”ın birinci cildinin 44-cü səhifəsindəki 873-cü hədisdir.

[2] Hakim “Müstədrək”in üçüncü cildinin 148-ci səhifəsində onu nəql edərək demişdir: “Bu hədis sənəd nöqteyi-nəzərindən “Şeyxeyn”in (Buxari və Müslim) şərtinə əsasən doğrudur. Amma özləri onu xatırlamamışlar və Zəhəbi “Təlxisi-Müstədrək” kitabında onu yazmış və etiraf etmişdir ki, “Şeyxeyn”in xəbər və hədisin məqbulluğunda lazım bildikləri şərtə görə bu hədis doğrudur.

[3] İmam Əhməd Hənbəlbu hədisi Əbu Səid Xidridən iki vasitə ilə nəql edib, birincisini “Müsnəd”in 17-ci və ikincisini 26-cı səhifəsinin sonunda söyləmişdir və yenə İbn Əbu Şeybə və Əbu Yəla və İbn Səd, Əbu Səiddən onu nəql etmişlər ki, bu həmin “Kənzül-Ümmal”ın birinci cildinin 47-ci səhifəsindəki 945-ci hədisdir.

[4] Bu hədisi Hakim “Müstədrək”in üçünci hissəsinin 109-cu səhifəsində Zeyd ibn Ərqəmdən məruf şəkildə nəql etmişdir. Bu hədis “Şeyxeyn”in hədisin məqbulluğunda lazım bildikləri şərtlərə əsasən doğru hədisdir. Lakin hədis geniş olduğuna görə onu nəql etməmişlər. Yenə Hakim onu başqa yolla Zeyd ibn Ərqəmdən “Müstədrək”in üçüncü cildinin 533-cü səh.-də söyləmiş və bu hədisin doğru olduğunu demişdir. Lakin Buxari və Müslim bu haqda bir şey yazmayıblar. Dedik ki, Zəhəbi onu “Müstədrək”in xülasəsində yazmış və bu sənədin doğru olduğunu demişdir.

[5] Bu hədisi Təbərani, “Nəbhani”nin “Ərbəin əl-Ərbəin” kitabında olduğu kimi nəql etmiş və habelə Süyutinin “Ehyaül-məyyit” kitabında yazılmışdır. Aydındır ki, Peyğəmbərin həmin günkü xütbəsi iki cümlə olmayıb. Çünki iki cümlə üçün “خطبنا” (bizə xütbə oxudu) təbir edilməzdi. Bu yalnız bir siyasət idi ki, hədis söyləyənlərin dilini bağladı və yazıçıların qələmini yazmaqdan məhrum etdi. Bizə isə o (söylənilməmiş söz dəryasından) bir qətrə və o toxumdan bir dənə də kifayətdir.

4. “Səqəleyn”dən möhkəm yapışmağın vacibliyinə hökm edən doğru hədislər mütəvatirdir və Peyğəmbərin (s) səhabələrindən iyirmi nəfərdən çoxu bunu nəql etmişlər. Peyğəmbər (s) bir çox yerdə bu həqiqəti bəyan etmişdir; Qədir-xumda “həccətül-vidada, Ərəfə günündə, Taifdən qayıdanda, Mədinədə öz minbərində, hətta öz evində xəstə yatdığı və səhabələr kənarında olduğu zaman: “Ey camaat, mən tezliklə ruhumu tapşıracaq və bu dünyadan gedəyəcəyəm. Üzrünüzü kəsəcək sözü sizə dedim. Agah olun, Allahın kitabı və Əhli-beytimi aranızda qoyuram.” Sonra Əlinin əlini qaldırıb dedi: «هَذا عَلِيٌ مَعَ القُرآنِ وَ القُرآنُ مَعَ عَلِيٍّ لايَفْتَرِقانِ حَتّي يَرِدا عَليَّ الْحَوْضَ» “Bu Əli Quran ilədir və Quran onunladır, onlar hovuz kənarında mənim yanıma gələnə qədər bir-birindən ayrılmayacaqlar.”[1]

Bunu bir qrup sünni alimləri də təsdiq edir. Hətta İbn Həcər “səqəleyn” hədisini nəql edəndən sonra belə deyir: “Agah ol ki, Quran və Əhli-beytdən möhkəm yapışmağın vacibliyini bildirən hədisin çoxlu sənədləri var və Peyğəmbərin (s) iyirmidən çox səhabələri tərəfindən nəql olunmuşdur.” Sonra deyir: “Bu hədisin bir çox silsilə sənədləri kitabın “on birinci şübhə” hissəsində keçdi. Onların bəzisində deyilir ki, Peyğəmbər (s) onu “həccətül-vida”da Ərəfə günündə, başqa birisində Mədinədə xəstə ikən otağının səhabələr ilə dolu olduğu vaxt, başqasında Qədir-xumda, daha başqa bir yerdə deyilir ki, Taifdən qayıdan zaman buyurmuşdur.” Yenə əlavə edir: “Bunlar bir-birinə zidd deyil, çünki o həzrətin bu və ya başqa hallarda bu həqiqəti təkrar etməsinin eybi yoxdur. Bu, onun Qurani-kərimin və pak Əhli-beytinin əhəmiyyətinə xatirdir.”[2]

İmamlar üçün elə bircə bu kifayətdir ki, heç bir yerdən batilin onlara yol tapa bilməməsi kimi Allah və Peyğəmbərin (s) nəzərində Quranla bərabər məqamda olsunlar. ( لا يَأْتِيهِ الْبَاطِلُ مِن بَيْنِ يَدَيْهِ وَلَا مِنْ خَلْفِهِ)[3]

Bunun özü müsəlmanları onların (Əhli-beyt) məzhəbinə itaət etməyə vadar edən aydın dəlildir. Çünki Qurandan başqa heç bir şeyi qəbul etmək istəməyən müsəlman kəs (“Allahın kitabı bizə bəs edər” – fikrini dəstəklədiyiniz halda), başqa bir şeyi Quranla bir sırada necə qoya bilər?

5. «اِنِّي تارِكٌ فيكُمْ ما إنْ تَمَسَّكْتُم بِهِ لَنْ تَضِلَوُا: كِتابَ اللهِ وَعِتْرَتِي» “Sizin aranızda elə bir şey qoyuram ki, əgər ondan möhkəm yapışsanız, heç vaxt yolunuzu azmayacaqsınız. Allahın kitabı və Əhli-beytim.”

Bu mənanı təsdiq edən daha dəqiq ifadə isə Təbəraninin nəql etdiyi Peyğəmbərin (s) “səqəleyn” hədisinin ardınca buyuruğudur: «فَلا تُقَدِّمُوهُما فَتَهْلِكُوا وَ لا تُقَصِّرُوا عَنْهُما فَتَهْلِكُوا وَ لا تُعَلِّموهُمْ فَاِنَّهُم اَعْلَمُ مِنْكُم» “Onlardan irəli keçməyin ki, həlak olarsınız və geri qalmayın ki, həlak olarsınız. Onlara heç nə öyrətməyin, çünki onlar sizdən biliklidirlər.”

İbn Həcər isə (bu qədər aydın dəlildən sonra) deyir: Peyğəmbərin (s) “Onlardan irəli keçməyin ki, məhv olarsınız və geri qalmayın ki, həlak olarsınız, onlara heç nə öyrətməyin ki, sizdən biliklidirlər.” – sözləri o vaxt həqiqi mənasını doğruldur ki, Əhli-beytdən hər biri özünü uca məqam və dini vəzifələrdə yüksək rütbəyə çatdırmış olsun.[4]

---

[1] İbn Həcərin “Əs-səvaiqül-Mühriqə” kitabının ikinci fəslinin sonu, 9-cu babın 75-ci səh.-də qırxıncı hədisdən sonra gələn fəslə müraciət edin.

[2] İbn Həcərin “Əs-səvaiqül-Mühriqə” kitabının 11-ci babının birinci fəslinin 89-cu səhifəsinin sonuna (“Saffat”, 24-cü ayənin təfsiri) müraciət edin.

[3] “Fussilət”, ayə 42

[4] “Əs-səvaiq” kitabının 135-ci səhifəsində “Peyğəmbərin vəsiyyətləri” babına müraciət edin və sonra ondan soruşun ki, nə üçün Əbül-Həsən Əşərini üsuli-dində və “dörd məzhəb fəqihləri”ni fürui-dində Əhli-beytdən

6. Müsəlmanları Əhli-beytə tərəf sövq edən səbəb, mömin bir insanı dini işlərdə onlara müraciət etməsinə məcbur edən dəlil, Peyğəmbərin (s) bu sözləridir: «اَلا إنَّ مَثَلَ اَهْلِ بَيْتي فيكُم مَثَلُ سَفينَةِ نُوْحٍ مَنْ رَكِبَها نَجا وَ مَنْ تَخَلَّفَ عَنْها غَرَقَ» “Bilin, mənim Əhli-beytim sizin aranızda Nuhun gəmisi kimidir, ona minən şəxs nicat tapar, geridə qalan qərq olar.”[1]

“Yalnız mənim Əhli-beytim sizin aranızda Nuhun gəmisi kimidir. Ona minən şəxs nicat tapar, ondan ayrı düşən qərq olar. Mənim Əhli-beytim sizin aranızda Bəni-İsrailin “Hittə qapısı” kimidir. Oradan daxil olan şəxs rəhmət qazanar.”[2]

«اَلنُّجُومُ أمانٌ لأهْلِ الأرْضِ مِنَ الْغَرَقِ وَ اَهْلُ بَيْتي أمانٌ لِأُمَّتي مِنَ الإخْتِلافِ (فِي الدّينِ) فَإذا خالَفَتْها قَبيلَةٌ مِنَ الْعَرَبِ (يَعْني فِي اَحكامِ اللهِ) اِخْتَلَفُوا فَصارُواحِزْبَ اِبْلِيس» “Ulduzlar yer əhlinə nur saçdığı kimi, Əhli-beytim də ümmətə (dində ixtilafdan qorumaq üçün) bir çıraqdır. Buna görə də ərəblərdən kim onlarla müxalif olsa, (mənası budur ki, Allah ehkamlarında) ixtilaf salmış, özləri isə İblisin firqəsinə qoşulmuşdur.”[3]

Ümmətin Əhli-beytə tabe olmağın vacibliyi və onlar ilə müxalifəti bundan ibarət idi və güman etmirəm ki, bütün lüğətlərdə və bəşərin dilində bu məna üçün bundan aydın sözlər tapılsın.”

7. Əhli-beyt dedikdə məqsəd ümumiyyətlə əimmədir (imamlar), yalnız evin içindəkilər deyildir. Bu mənzilət və məqam yalnız Allahın əmrini yerinə yetirən imamlara aiddir. Bu söz həm əql və həm nəql cəhətdən təsdiq olunur, belə ki, “cümhurun” bir sıra məşhur alimləri də bunu etiraf etmişlər. O cümlədən ibn Həcərin “Əs-səvaiqül-Mühriqə” kitabında belə deyilir: “Bəziləri demişlər ki, çox ehtimal ki, “əman” (əmniyyət) vasitəsi olan Əhli-beytdən məqsəd Əhli-beyt alimləridir və onların vasitəsilə insanlar hidayət olunur. Onlar ulduzlar kimidir ki, əgər onlar yer üzündə olmasalar, camaata əzab nazil olar.” Sonra deyir: “Bu (əmin-amanlıq) Məhdinin (ə) zühuru vaxtıdır. Çünki Məhdiyə (ə) aid hədislərdə oxuyuruq ki, İsa (ə) onun arxasında namaz qılacaq və (düşmənlərdən biri) Dəccal onun zamanında öldürüləcək, ondan sonra bir-birinin ardınca (zühura dəlalət edən) nişanə və əlamətlər aşkar olacaqdır.”[4] Başqa yerdə deyir: “Peyğəmbərdən soruşuldu ki, camaat Əhli-beytdən sonra öz yaşayışına necə davam edəcək? Həzrət buyurdu: Beli sınmış uzunqulaq kimi.”[5]

8. Siz yaxşı bilirsiniz ki, Əhli-beyti Nuhun gəmisinə oxşatmaqdan məqsəd odur ki, dini işlərdə hamı onlara pənah aparsın. Dinin füru və üsulunu pak imamlardan öyrənən şəxs

---

üstün tutursan? Nə üçün İmran ibn Həttan və Xəvaricdən onun kimilərini hədisdə onlardan (imamlar) üstün tutursan? Nə üçün Məqatili ibn Süleymanı (Allahın cisim olmasına inanan “murciə”lərdəndir) imamlardan üstün tutursan? Nə üçün “əxlaq”, “süluk” və ruhi dərmanlar elmində Məruf və onun kimiləri üstün bilirsən? Nə üçün Peyğəmbərin xilafət və vəkaləti üçün “Tövbə” surəsinin yeganə elan edəni olan qardaşını və vəlisini başqalarından aşağıda hesab edirsən? Nə üçün “əbnai-Vəzəğ”i xilafətdə Peyğəmbərin övladlarından qabaq bilirsən? Əhli-beytdən üz döndərən, bütün yüksək məqam və dini vəzifələrdə düşmənlərlə həmfikir olanın, “səqəleyn” və onun kimi doğru hədislərin qarşısında hansı üzrü vardır? Necə deyə bilər ki, mən Əhli-beytdən möhkəm yapışmışam və nicat gəmisinə minmişəm və Hittə qapısından daxil olmuşam?!

[1] Hakim “Müstədrək” kitabında 3-cü cildinin 151-ci səhifəsində Əbuzərdən nəql etmişdir.

[2] Təbərani “Övsət” kitabında bu hədisi Əbu Səiddən nəql etmiş və bu, Nəbhaninin “Əl-ərbəin” kitabının 216-cı səhifəsindəki (25-ci hədisin izahında gələn) 18-ci hədisdir.

[3] Hakim “Müstədrək” kitabının 3-cü cildinin 149-cu səh.də bu hədisi Abbasdan nəql etmiş və demişdir ki, hədis sənəd cəhətdən yaxşıdır, lakin Buxari və Müslim onu xatırlamamışlar.

[4] “Əs-səvaiq”, 11-ci bab, səh. 91, 7-ci ayənin təfsiri.

[5] Kitabın sonunda 143-cü səh.-də Peyğəmbərin (s) vəfatından sonra Əhli-beytin ağır vəziyyətindən bəhs edən babın sonuna müraciət edin. Biz İbn Həcərdən soruşuruq: Əhli-beyt alimlərinin belə məqamı olan bir halda, bəs siz hara gedirsiniz?

cəhənnəm əzabından nicat tapar, belə etməyən isə Nuhun tufanı vaxtı nicat tapmaq üçün dağa pənah aparan şəxsə bənzəyir ki, o, suda, bu isə cəhənnəmdə qərq olar. (Allaha pənah!)

Onların "Hittə qapısı"na oxşadılmasının səbəbi odur ki, Allah o qapını öz cəlalı, əzəmət və hökmü qarşısında itaət kimi müəyyənləşdirmişdi. Bu səbəbdən də (Bəni-İsrailin) bağışlanması və rəhmətə bais olurdu. Bu ümmətin arasında da Əhli-beytə (ə) itaət və təslim olmaq və Əhli-beyt imamlarının ardınca getmək Allahın hökmü qarşısında itaət və baş əyməyin bir cilvəsi kimi göstərilmiş və bunu İslam ümmətinin bağışlanma amili sayır. Budur onların "Hittə qapısı"na oxşadılmasının səbəbi. İbn Həcər bu hədis və misalları xatırlatdıqdan sonra, bənzətmənin səbəbini belə izah edir: "Onların Nuhun gəmisinə oxşadılmasının səbəbi odur ki, onları sevən, Allahın onlara verdiyi məqama təşəkkür olaraq təzim edən və onların alimlərinin hidayətindən faydalanan şəxs ixtilaf zülmətindən nicat tapar və belə əməl etməyən şəxs isə naşükürlük dəryasına düşüb, tufan girdabında həlak olar."[1]

"Onların "Hittə qapısı"na oxşadılmasının səbəbi isə budur ki, –istər bu qapı "Riha" qapısı olsun, istərsə Beytül-Müqəddəs qapısı– ora təzim ilə daxil olmaq bağışlanmağa səbəb olar. Allah-taala Peyğəmbər (s) Əhli-beytinin dostluğunu da bağışlanma amili etmişdir.

Əhli-beytə tabe olmağın vacibliyini bildirən, xüsusilə imamların öz dilindən nəql olan doğru hədislər mütəvatirdir. Yorucu olmasaydı, bu məsələni daha geniş şərh edərdik. Lakin bizim arzu və istəyimiz üçün bu qədər kifayətdir. Vəssalam

***"Ş"***

[1] "Əs-səvaiq", 11-ci bab, 7-ci ayənin təfsiri, səh. 91

## *DOQQUZUNCU MƏKTUB*

17 Zilqədə 1329

***Bu haqda daha çox hədisin tələbi.***

Qələmini azad burax və danlaqdan qorxma, qulağım səndədir. Açıq sinəm səndən elm və bilik öyrənməyə hazırdır və sakit və aramla səni dinləyirəm. Sənin dəlil və sübutların məni yenidən sevindirib, yorğunluğu ruhumdan sildi. Buna görə də, o mənalı sözlərindən, misilsiz hikmətlərindən mənə daha çox buyur. Çünki mən sənin sözlərində itirilmiş hikmətləri görürəm. Sözlərin qəlbimdə şəffaf sudan daha safdır. Mənim üçün çox danış, çox. Sənə yüz afərin. Vəssalam.

***"S"***

# *ONUNCU MƏKTUB*

<u>19</u> <u>Zilqədə</u> <u>1329</u>

***Bir sıra başqa hədislər.***

Məktubumu səmimiyyətlə oxuyub özünü ona tam hazırlamışdınsa, bu bir yenilik deyildir. Çünki sən çoxdandır ki, arzularımı və fəaliyyətimi müvəffəqiyyətə qovuşdurursan. Niyyəti pak, daxili aləmi gözəl, təvazökar, xoşxasiyyət, elmli və həlim adamın sözündə və qələmində haqq cilvələnər, əlində və dilində insaf və doğruluq aşkar olar.

"Çox de, çox!" deməklə məni nə qədər sənə təşəkkür etməyə və əmrinə qulaq asmağa vadar edibsən. Məgər bundan da artıq lütf və təvazökarlıq olarmı? Ləbbəyk! Ləbbəyk! (Gözüm üstə! Gözüm üstə!) Allaha and olsun ki, gözlərinə işıq verəcəyəm və diqqətlə dinlə!

1. Təbərani özünün "Kəbir" və Rafei "Müsnəd" kitabında İbn Abbasdan bir sıra sənədlərlə İslam Peyğəmbərindən (s) belə nəql edirlər: "Mənim kimi yaşamaq və ölmək, Allahın əbədi behiştində özünə əbədi yer seçmək istəyən şəxs Əlini məndən sonra özünə dost və vəli bilsin. Əlinin dostunu özünə dost bilsin, məndən sonra Əhli-beytimin ardınca getsin. Çünki onlar mənim itrətimdir, mənim vücudumun mayasından yaranıblar, elmimdən bəhrələniblər. Vay ümmətimdən o kəslərin halına ki, onların üstünlüyünü və fəzilətlərini təkzib edələr və mənimlə onlar arasındakı əlaqəni kəsələr! Allah mənim şəfaətimi onlara nəsib eləməsin!"[1]

2. Mətir, Bavərdi, İbn Cərir, İbn Şahin və İbn Məndə İshaq vasitəsilə Ziyad ibn Mütrəfdən nəql edirlər ki, Peyğəmbər (s) buyurubdur: "Mənim kimi yaşamaq və ölmək, Allahımın mənə vəd etdiyi əbədi behiştə daxil olmaq istəyən kəs məndən sonra Əli və onun övladlarını sevməlidir. Çünki onlar sizi heç vaxt hidayət qapısından kənar etməz və heç vaxt azğınlıq vadisinə salmazlar."[2]

3. Buna bənzər Zeyd ibn Ərqəmin hədisidir ki, Peyğəmbər (s) buyurub: "Mənim kimi yaşamaq və ölmək, Allahın vəd etdiyi əbədi behiştdə məskunlaşmaq istəyən şəxs, Əli ibn Əbu Talibi sevməlidir. O, heç vaxt sizi hidayətdən uzaqlaşdırmaz və heç vaxt yolunuzu azmağa qoymaz."[3]

---

[1] Bu hədisin sözləri eynilə "Kənzül-Ümmal"ın 6-cı cildinin 217-ci səh.-nin sonunda 3819-cu hədisdə deyilib və "Müntəxəbil-Kənz" kitabında da yazılıb. "Müsnədi-Əhməd"in 5-ci cildinin haşiyəsinin 94-cü səh.-də də vardır, bu fərqlə ki, «وَ رَزَقُوا فَهْمي وَ عِلْمي» — cümləsində «وَ عِلْمي» – sözü yazılmamışdır və bu tarixi səhvdir.

Və Hafiz Əbu Nəim özünün "Hilyə" kitabında və İbn Əbil-Hədid Misirdə çap olunmuş "Nəhcül-Bəlağənin şərhi"nin ikinci cildində 450-ci səh.də Əhməd ibn Hənbəldən "Müsnəd"in 449-cu səh.də və Mənaqibi Əli ibn Əbu Talibdən onun kimisini nəql etmişdir.

[2] Bu "Kənzul-Ümmal"ın 6-cı cildinin 155-ci səh.-dəki 2578-ci hədisdir ki, "Müntəxəbi-Kənzül-Ümmal" kitabında Əhmədin "Müsnəd" kitabının 5-ci cildinin haşiyəsinin sonuncu sətrində də nəql edilmişdir və İbn Həcər Əsqəlani onu ixtisarla Ziyad ibn Mütrəfin tərcüməsində "Əl-İsabə" kitabının 1-ci cildinin xatırlatmış və əlavə etmişdir ki, onun sənədində Yəhya ibn Yəla Müharibi vardır ki, zəif və sözü qəbul olunmaz bir şəxsdir. Lakin, İbn Həcərin bu sözləri təəccüb doğurur. Çünki Yəhya ibn Yəla Müharibi alimlər tərəfindən etimad qazanmış şəxsdir, belə ki, Buxari öz "Səhih"ində "Ümreyi-Hüdeybiyyə" rəvayətlərində və Müslim öz "Səhih"ində "hüdud" babında ondan hədis nəql etmişlər. Buxarinin fikrincə atasından və Müslimin fikrincə Qeylan ibn Camedən rəvayət eşitmişdir və Zəhəbi "Mizan" kitabında onun etimadlı olduğunu yəqin bilir və Qeysərani deyir ki, o, Buxari və Müslimin diqqət mərkəzindədir və həm də başqaları ondan dəlil gətirmişlər.

[3] Bu hədisi Hakim "Müstədrək" kitabının 3-cü cildinin 128-ci səh.-nin sonunda nəql etmiş və demişdir ki, sənəd nöqteyi-nəzərindən doğru hədisdir. Lakin Buxari və Müslim onu nəql etməmişlər və Təbərani "Kəbir"

4. Habelə Əmmar Yasirin hədisidir ki, “Peyğəmbər (s) buyurub: “Mənə iman gətirən və məni təsdiq edənləri Əli ibn Əbu Talibin vilayətinə tapşırıram. Onu özünə vəli hesab şəxs məni özünə vəli hesab edib və məni özünə vəli bilən şəxs, Allahı da sevmişdir. Ona kin bəsləyən də mənə kin bəsləmiş olar. Və mənə kin bəsləyən şəxs Allaha kin bəsləmiş olar.”[1]

5. Yenə Əmmar Yasirdən nəql olunmuşdur ki, Peyğəmbər (s) buyurub: “Ey Pərvərdigar, o kəs ki, mənə iman gətirib və məni təsdiq edibdir, Əli ibn Əbu Talibin vilayətindən əl çəkməməlidir, çünki onun vilayəti mənim vilayətimdir və mənim vilayətim Allahın vilayətidir.”[2]

6. Peyğəmbər (s) xütbələrinin birində buyurur: “Ey camaat! Fəzl, şərəf, məqam və vəlilik Allah rəsulunun və onun zürriyyəsinindir. Buna görə də yersiz və batil sözlər sizi yolunuzdan azdırmasın.”[3]

7. Yenə buyurmuşdur: “Ümmətimin hər bir dövründə Əhli-beytimdən olan adil və ədalətli adamlar vardır ki, onlar yolunu azmış şəxslərin təhriflərini, təxribatçı adamların dində icad etdikləri puç məsələləri, cahil adamların din haqqındakı səhv təsəvvürlərini inkar və məhv edərlər. Bilin ki, imamlar və sizin rəhbərləriniz Allah dərgahında seçilmiş adamlardır. Belə isə, diqqət edin, görün kimi Allah dərgahında özünüz üçün rəhbər və qabaqcıl seçirsiniz.”[4]

8. Peyğəmbər (s) yenə buyurmuşdur: “Əhli-beyt imamlarından qabağa keçməyin ki, həlak olarsınız və onlardan geri qalmayın ki, məhv olarsınız. Onlara öyrətməyin, çünki onlar sizdən daha çox agahdırlar.”[5]

9. Yenə buyurmuşdur: “Mənim Əhli-beytimi başın bədənə və gözlərin başa olan nisbəti kimi bilin. Çünki baş, gözlərin vasitəsilə idarə olunur.”[6]

10. Yenə buyurmuşdur: “Bizim Əhli-beytimizi sevin! Bizi sevən kəs (qiyamətdə) Allah ilə görüşdükdə, bizim köməyimizlə behiştə daxil olacaq və and olsun o Allaha ki, canım onun əlindədir. Bizim haqqımızı tanımayana əməlləri fayda verməyəcəkdir.”[1]

---

kitabında və Əbu Nəim “Fəzailus-Səhabə” kitabında onu yazmışdır və bu hədis “Kənzul-“Ümmal” kitabında 6-cı cildin, 155-ci səhifədəki 2577-ci hədisdir. “Müntəxəbül-Kənz” kitabında da yazılıb və “Müsnəd”in 5-ci cildinin 32-ci səhifəsinin haşiyəsinə müraciət edin.

[1] Təbərani “Kəbir” kitabında və İbn Əsakir öz tarixində bu hədisi nəql etmişlər. Bu hədis “Kənzül-Ümmal”ın kitabı hədislərindən 2571-ci hədisdir ki, 6-cı cilddə 154-cü səhifənin sonunda zikr olunmuşdur.

[2] Təbərani “Kəbir” kitabında bu hədisi “Məhəmməd ibn Əbu Übeydə ibn Məhəmməd ibn Əmmar ibn Yasirdən, o da atasından və əcdadı Əmmardan öyrənmiş və nəql etmişdir. Bu hədis “Kənzül-Ümmal”ın hədislərindən 2576-cı hədisdir ki, 6-cı cildin 155-ci səh.-də yazılmışdır.

[3] Bu sözü Əbu Şeyx uzun bir hədisdə nəql etmişdir. İbn Həcər “məvəddət” ayəsinin təfsirindəki məqsədlərdən dördüncüsünün sonunda 105-ci səh.-də bəhs etmiş və “Əs-səvaiq” kitabında söyləmişdir. Diqqətlə, oradakı dərin məqsəddən agah ol və o cümlədən, «فَلَا تَذهَبِينَ بِكُمُ الْأَباطيل» “yersiz və dəyərsiz sözlər sizi inhirafa aparmasın” – sözlərindən qafil olma.

[4] Molla öz “Sirə”sində bu hədisi yazıb və İbn Həcər “Əsəvaiq” kitabının 90-cı səh.-də «وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُونَ» ayəsinin (Saffat, 24) təfsirində zikr etmişdir.

[5] Təbərani onu “hədisi-səqəleyn”də və İbn Həcər “Əs-səvaiq” kitabının 11-ci babındakı ayələrdən dördüncü –«وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُونَ»– ayənin təfsirində, 89-cu səh.-də zikr etmişdir.

[6] Bir qrup hədis söyləyənlər bu hədisi “mərfu” şəkildə Əbuzərdən nəql etmişlər və İmamüs-Səbban “İsafur-rağibin” kitabında Əhli-beytin fəzilətləri haqqında və Şeyx Yusif Nəbhani “Əş-şərəfül-Müəyyəd” kitabının 31-ci səhifəsində və bir sıra başqa etimadlı şəxslər onu xatırlamışlar. Bu isə aşkar şəkildə onların xalqa başçılıq və rəhbərlik etməyini sübut edir və haqqa tərəf getməyin yalnız onların yolu ilə mümkün olduğunu aşkar edir.

11. Yenə buyurmuşdur: “Ali-Məhəmmədi (s) tanımaq oddan xilas olmaqdır. Ali-Məhəmmədi (s) sevmək və ona məhəbbət bəsləmək sirat körpüsündən keçid vəsiqəsidir. Ali-Məhəmmədin vilayəti əzabdan qurtuluşdur.”[2]

12. Yenə o həzrət buyurmuşdur: “Qiyamətdə adam hələ yerindən tərpənməyə macal tapmamış, ondan dörd şey soruşulacaq: ömrünü hansı yolda sərf etmiş, bədənini hansı yolda qocaltmış, var-yoxu hansı yolda xərcləmiş və bir də Əhli-beytimizin məhəbbəti.”[3]

13. Yenə Peyğəmbər (s) buyurmuşdur: “Bütün ömrünü (həcdə) “rükn” və “məqam” arasında dayanaraq namaz qılan və oruc tutan şəxs Ali-Məhəmmədə kin bəsləyərsə, odda yanacaqdır.”[4]

14. Və yenə Allahın rəsulu buyurmuşdur: “Ali-Məhəmmədin məhəbbəti ilə ölən şəxs şəhiddir. Agah olun, Ali-Məhəmmədin məhəbbəti ilə ölən şəxs bu dünyadan bağışlanaraq köçəcəkdir. Bilin ki, Ali-Məhəmmədin məhəbbəti ilə canını tapşıran şəxs bu dünyadan tövbəli gedəcəkdir. Agah olun ki, Ali-Məhəmmədin dostu olaraq ölən şəxs mömin və tam imanlı dünyanı tərk edəcəkdir. Bilin, Ali-Məhəmmədin dostu kimi ölən şəxsin ruhunu mələk behiştlə

---

[1] Təbərani “Övsət”, Süyuti “Ehyaul-Meyyit”, Nəbhani “Ərbəin” və İbn Həcər “Səvaiq” kitabında, həmçinin bir sıra sünni alimləri Əhli-beytə məhəbbət (sevmək) haqqında yazmışlar. Peyğəmbərin (s) «لا يَنفَعُ عَبداً عَمَلُه إلا بِمَعرفةِ حَقِّنا» “bizim haqqımızı tanımayana əməli xeyir verməz” – cümləsindəki sözlərə diqqət et! Soruş ki, Əhli-beytin haqqı nədir? O hansı haqdır ki, Allah onu işlərin doğru olması üçün şərt bilmişdir? Məgər onların əmrinə təslim və itaətdən başqa bir şeymidir, yaxud onların düz yolu ilə haqqa sarı getməkdən başqa bir məqsədmi güdülür? Hansı haqq nübüvvət və xilafətdən savayı belə bir böyük təsirə malik ola bilər? Təəssüflər olsun, biz elə bir millətin əlində giriftar olmuşuq ki, düşünməzdirlər. انا لله و انا اليه راجعون

[2] Qazi Əyaz bu hədisi 1327-ci il Məşhəd şəhərindəki “Astan” çapxanasında buraxılmış “Şəfa” kitabının 2-ci cildinin 40-cı səh.-nin əvvəlində “Əhli-beytə ehtiram və yaxşılıq etmək Peyğəmbərə (s) yaxşılıq və ehtiram deməkdir” fəslində nəql etmişdir.

Aydındır ki, onları tanımaqdan məqsəd şəxsləri tanımaq, onların adlarını, Peyğəmbər övladları olmasını bilmək deyil. Çünki Əbu Cəhl və Əbu Ləhəb də bunları bilirdilər, əksinə, məqsəd budur ki, onlar («اولوالامر») Peyğəmbərdən (s) sonra ixtiyar sahibidirlər. Bu barədə Peyğəmbər (s) buyurdu ki: “Zamanının imamını tanımadan ölən şəxs cahiliyyət (İslamdan əvvəl zamanda yaşayan) adam kimi ölmüş və onların “məhəbbət və vilayət”dən məqsədo vilayətdir ki, haqq əhli onu imamlar üçün lazım bilirlər. Bu da ki, son dərəcə aydındır.

[3] Əgər onlar Allah tərəfindən xüsusi mənsəbə malik olduqlarına görə mütləq itaət olunmağa layiq olmasaydılar, bu qədər onlara məhəbbət bəsləmək tövsiyə olunmazdı.

Bu hədisi Təbərani “mərfu” şəkildə “Ehyaul-Meyyit” kitabında İbn Abbasdan və “Ərbəin” kitabında Nəbhanidən və “cümhur”un bir sıra başqa alimlərindən nəql etmişlər.

[4] Təbərani və Hakim onu nəql etmiş, Nəbhaninin “Ərbəin”, Süyutinin “Ehyaul-Meyyit” və başqa kitablarda da yazılmışdır. Bu hədis, bir qədər bundan əvvəl haqqında danışdığımız “bizi tanımadan heç kəsin əməli ona fayda (xeyir) verməz” – hədisinə oxşardır və əgər onlara qarşı olan kin və qəzəb Allah və Peyğəmbərə (s) qarşı olan kin və qəzəb olmasaydı, (hətta daim “rükn” və “məqam” arasında ibadət etsələr də) daha “əməlləri faydasızdır” – demək olmazdı. Onlar (imamlar) Peyğəmbərin naibi və canişini olmasaydılar, bu məqama nail olmazdılar.

Hakim və İbn Həcər öz “Səhih”lərində Nəbhaninin “Ərbəin” və Süyutinin “Ehyaul-Meyyit”ində olduğu kimi, Əbu Səid Xidridən nəql etmişlər ki, Peyğəmbər buyurub: “Allaha and olsun ki, oda daxil olmaq istəyən adamdan başqa heç kəs biz Əhli-beytə kin bəsləməz.” Təbərani Nəbhaninin “Ərbəin” və Süyutinin “Ehyaul-Meyyit”ində olduğu kimi, imam Həsəndən (ə) nəql etmişdir ki, Müaviyə ibn Xədicə buyurdu: “Nəbadə biz Əhli-beytə kin və qəzəb bəsləyəsən! Çünki Peyğəmbər (s) buyurdu ki, bizə qarşı kin və paxıllığı özünə peşə edən şəxsi qiyamətdə odlu qamçı ilə Kövsər hovuzunun kənarından qovacaqlar.”

Və Peyğəmbər (s) xütbələrinin birində buyurub: “Hər kəs biz Əhli-beyti düşmən olub kin bəsləsə, Allah qiyamət günü onu “yəhudi” kimi dirildəcək.” Bu hədisi Təbərani “Övsət” və Süyuti “Ehyaul-Meyyit” və Nəbhani “Ərbəin” kitabında və başqaları yazmışlar.

müjdələyəcək, sonra Münkir və Nəkir ona müjdə verəcəklər. Agah olun, Ali-Məhəmmədin məhəbbəti ilə dünyadan köçənlər cah-calal və ehtiramla ər evinə daxil olan və behiştə gedən gəlinə bənzəyəcəklər. Bilin ki, Ali-Məhəmmədin məhəbbətilə dünyadan gedən şəxsin qəbrindən behiştə iki qapı açılacaq. Agah olun, Allah Ali-Məhəmmədin məhəbbətilə dünya ilə vidalaşan şəxsin qəbrini mələklərin ziyarətgahı olacaq. Yadda saxlayın, Ali-Məhəmmədin məhəbbətilə can verən şəxs Peyğəmbərin dini yolunda canını tapşırmış və agah olun, Ali-Məhəmmədin ədavəti ilə ölən şəxsin qiyamət günü alnında belə yazılmışdır: Allahın rəhmətindən məhrumdur.”[1]

O həzrət istəyirdi ki, bu həqiqətlər vasitəsilə bütün dilələri bu tərəfə yönəltsin. Bütün bu hədislərin xüsusilə Peyğəmbərin (s) pak Əhli-beytindən bizə çatan hədislərin məzmunu mütəvatirdir. Məlumdur ki, Allah tərəfindən kamil dəlillər olmasaydı, bu mərtəbə və məqam onlar üçün olmazdı. Bəli, əgər bunlar haqq yolunun şəfalı çeşməsi, əmr və nəhydə Peyğəmbərin (s) varisi, hidayətin canlı timsalı olmasaydılar, heç vaxt bu mərtəbə və məqamları olmazdı. Buna görə də onları sevənlər Allah və rəsulunu sevənlərdir. Onlara düşmən olan və kin bəsləyənlər isə Allah və rəsulunun düşmənidirlər. Peyğəmbər buyurmuşdur: “Pəhrizkar mömindən başqa bizi heç kəs sevməz və bədbəxt münafiqdən başqa heç kəs bizimlə düşmənçilik etməz.”[2]

Məşhur şair Fərəzdəq də onların haqqında belə demişdir:

«مِنْ مَعْشَرٍ حُبُّهم دِينٌ وَ بُغْضُهُمُ كُفْرٌ وَ قُرْبُهُمُ مُنْجي وَ مُعْتَصِمٌ»

“Onlara olan məhəbbət və dostluq din, düşmənçilik isə küfrdür. Onlarla birgə olmaq nicat tapmaq və (həlakətdən) qurtuluşdur.”

«اِنْ عُدَّ اَهلُ التُّقَي كانُوا اَئِمَّتَهُمْ اَوْ قيلَ مَنْ خيرُ اَهْلِ الْاَرْضِ قيلَ هُمُ»

“Əgər təqva və pəhrizkarlıq əhlinin say cəhətdən hesablamaq olsa, bunlar onların rəhbərləridir, əgər ən gözəl insanları yer üzündə axtarsan, deyərlər ki, bunlardır.”

Möminlərin əmiri Əli (ə) həmişə deyərdi: “Mən, pak əcdadım və Əhli-beytim, cavanlıqda adamların ən aqil və təmkinlisi, qocalıqda isə ən biliklisidir. Bizim vasitəmiz ilə Allah yalanı rədd edir, divanə və qurd (kimi) insanların dişlərini torpağa sürtür, sizi zəlil edib əsarətə salan müşkülləri həll edir və zəncirləri boynunuzdan açır. (Hər bir şey) bizimlə başlayır və bizimlə də qurtarır.”[3]

Bizə elə bu kifayətdir ki, Allah onları başqalarından üstün tutmuş, belə ki, onlara salam və salavatı namazın vacib bir hissəsi kimi bütün bəndələrinə vacib bilmişdir, yəni onlara salavat göndərmədən heç kəsin namazı Allah dərgahında qəbul deyildir. Namaz qılan istər “siddiq” olsun, ya “faruq”, zünnür” olsun, ya “zünnureyn” ya “zünnar”. Allahın buyurduğu vaciblərə itaət edən şəxs namaz qılarkən onlara salavat göndərməklə Allaha ibadət edir (“şəhadəteyn”i deməklə Allaha ibadət edən kimi). Bu elə bir məqamdır ki, ümmətin başçıları onu qəbul etmişlər və adlarını çəkdiyiniz cümhur məzhəblərinin başçıları ona itaət etmişlər. İmam Şafei bu barədə deyir:

«يا اَهْلَ بَيْتِ رَسُولِ اللهِ حُبُّكُمُ فَرْضٌ مِنَ اللهِ في الْقُرْآنِ اَنْزَلَهُ»

---

[1] Sələbi, Cabir ibn Abdullah Bəcəlidən “Kəbir” təfsirində “məvəddət” ayəsinin təfsirində Peyğəmbərdən onu nəql etmiş və Zəməxşəri “Kəşşaf” təfsirində həmin ayə ilə əlaqədar olmasını şübhəsiz məsələlərdən bilmişdir.

[2] Molla “Əs-səvaiq”in 14-cü ayəsinin məqsədlərindən ikinci məqsəddə gəldiyi kimi, bu hədisi nəql etmişdir.

[3] Bu hədisi Əbdül-Qəni ibn Səd “İzahül-İşkal” kitabında yazmışdır. Bu, “Kənzul-Ümmal”ın 6050-ci hədisidir ki, 6-cı cildinin 396-cı səhifəsinin sonunda onu xatırlamışdır.

«كَفاكُمْ مِنْ عَظيمِ الْفَضْلِ إنَّكُمُ مَنْ لَمْ يُصَلِّ عَلَيْكُمْ لاصَلوةَ لَهُ»[1]

“Ey Peyğəmbərin Əhli-beyti, sizi sevməyi Allah nazil etdiyi kitabında vacib etmiş; Sizə salavat göndərməyən şəxsin namazının qəbul olunmamağı isə sizin fəzl və üstünlüyünüzə kifayətdir.”

Hələlik Peyğəmbərin (s) pak hədisləri (Quranda buyurulan kimi) əsasında onlara itaət etməyin vacibliyinə dəlalət edən bu qədər dəlillər ilə kifayətlənirik. Quranda bu mənaya dəlalət edən aydən ayələr mövcuddur ki, onu sizin ağlınızın və aydın zehninizin şahidliyinə həvalə edirəm siz, bir işarə ilə onları duya bilirsiniz.” Vəssalam.

**“Ş”**

[1] Bu iki mədhedici şeri Şafei Peyğəmbərin (s) Əhli-beyti haqqında demiş və bir çox mötəbər alimlər şöhrət nöqteyi-nəzərindən onu məşhur və sübut olunmuş hesab edir və onun Şafeinin vasitəsilə yazıldığına şübhə etmirlər. O cümlədən İbn Həcər (إِنَّ اللّهَ وَمَلاَئِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ) “Əhzab” surəsinin 56-cı ayəsinin təfsirində “Əs-səvaiq” kitabının 88-ci səh.-də, Nəbhani “Əş-şərəfül-müəyyəd” kitabının 99-cu səh.-də, imam Əbu Bəkr Şəhabəddin “Rəşfətüs-sadi” kitabında və başqaları nəql etmişlər. Daha geniş izahat üçün “Əl-Qədir” kitabının 2-ci cildinin 302-ci səhifədən sonraya müraciət edin.

## *ON BİRİNCİ MƏKTUB*

20 Zilqədə 1329

***1. Xatırlanmış aydın hədislərdən heyrətə gəliş.***

***2. Cümhurun inandıqları ilə bu rəvayətlərin uyğun gəlməsindən qorxu.***

***3. Qurani-kərimin ayələri ilə dəlillər gətirilməsi xahişi.***

1. Qiymətli məktubunuzu oxumaq şərəfinə nail oldum. Elə bir məktub idi ki, haqq yolunu göstərmək üçün çox aydın, ondan istifadə etmək isə çox asandır. Elm və bilik quyusundan çəkdiyim tuluğu ağzına qədər doldurmusan və dağa bənzər yüksək vücudunun uca zirvəsindən dəlil və bürhanları sel kimi axıtmısan. Məktubuna nəzər salaraq uzun müddət onun ətrafında dərin fikrə daldım. Səni mübahisədə yorulmaz, elmi mübahisədə sabitqədəm, qüvvətli və rəvan bəyana malik bir şəxs kimi gördüm.

2. Sənin dəlillərin arasında özümü qərq etdikdə və gətirdiyin dəlilləri dəqiq şəkildə araşdırdıqda özümü qəribə bir döyüşdə hiss etdim. Dəlillərinə nəzər salırdım və onları mütləq (sübut olunmuş) hesab edirdim. Əhli-beyt imamlarına baxmaqla, onları Allah və Peyğəmbər (s) qarşısında elə bir məqamda görürdüm ki, görkəmləri və cəlalları qarşısında təvazökarlıq qanadlarını sərmək lazımdır.

Sonra cümhur, qiblə əhli və İslam ümmətinin əksəriyyətini müşahidə edərək onların Əhli-beyt əleyhinə, yəni bu dəlillərin zahirlərinin tələb etdiyi şeyin əleyhinə olduqlarını görürdüm. Vücudumda möhkəm bir çəkişmə əmələ gəlmişdi. Özümdə iki mövqe görürdüm. Biri məni bir tərəfdən dəlilə tabe olmağa çəkir, o biri isə müsəlmanların əksəriyyəti olan tərəfə sövq edirdi. Birincisi cilovunu sənin əlinə tapşırmış və səndən ayrılmır, ikincisi isə inadkarcasına özünü sizdən uzaqlaşdıraraq üsyan edirdi.

3. Bu üsyankar ruha qalib gəlmək üçün Qurandan kəskin dəlillər gətirməyə imkanın vardırmı? Belə ki, bu ayələr onun yolunu kəssin, Əhli-beyt tərəfə sövq etdirsin və onunla cümhur müsəlmanlarının nəzəriyyəsi arasında qəti sədd olsun. Vəssalam.

***"S"***

# *ON İKİNCİ MƏKTUB*

22 Zilqədə 1329

***Quran ayələrindən dəlillər.***

Allaha şükür olsun ki, siz Quran elmlərindən bolluca bəhrələnmiş şəxslərdənsiniz və onun aşkar və gizli cəhətlərindən agahsınız. Amma deməliyəm ki, məgər Quranın aşkar ayələri Peyğəmbərin (s) pak Əhli-beyti barədə nazil olan qədər başqaları haqqında da nazil olmuşdurmu?

Quranın aydın ayələri Əhli-beytdən savayı başqaları haqqında "Onlar günah və çirkinlikdən uzaqdırlar" – deyə hökm edirmi?[1] "Təthir" ayəsi kimin haqqında nazil olmuşdur?[2] Quran onlardan savayı kimləri sevməyi vacib hesab etmişdir?[3] Cəbrail "mübahilə ayəsi"ni onlardan savayı kimin haqqında gətirmişdir?[4]

«هَلْ اَتي هَلْ اَتي بِمَدْحِ سِواهُمْ لا وَ مَوْلي بِذِكْرِهِمْ حَلّاها»

Məgər "həl əta..." ayəsi onların haqqında nazil olmamışdırmı? Allaha and olsun ki, yalnız onlar haqqında buyurulmuşdur.[5] Məgər bunlar həmin "həblüllah" deyildirlərmi ki, Quran buyurur: وَ اعْتَصِمُواْ بِحَبْلِ اللهِ جَمِيعًا وَ لاَ تَفَرَّقُواْ "Allahın ipindən yapışın və ayrılmayın."[6] Məgər onlar

---

[1] "Təthir" ayəsinə işarədir. "Əhzab" surəsinin 33-cü ayəsində deyilir: إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا "Allah istəyir ki, siz Əhli-beytdən bütün pislikləri silsin və sizi tamamilə pak etsin."

[2] Xeyr, heç kəs üçün belə bir şey yoxdur və yalnız onlar bu xüsusiyyətləri ilə fərqlənirlər, bu barədə başqaları onlara qoşula bilməz və heç kəsdə belə bir tamah ola bilməz.

[3] Yox, bu Allahın yalnız onlara aid etdiyi fəzilətdir. Belə ki, buyurmuşdur: قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى وَمَن يَقْتَرِفْ حَسَنَةً نَّزِدْ لَهُ فِيهَا حُسْنًا إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ (Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm." ("Şura", 23)

[4] Heç vaxt! "Mübahilə" ayəsi yalnız onların haqqında nazil olmuşdur. Allah buyurur: فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْاْ نَدْعُ أَبْنَاءنَا وَأَبْنَاءكُمْ وَنِسَاءنَا وَنِسَاءكُمْ وَأَنفُسَنَا وأَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَةُ اللهِ عَلَى الْكَاذِبِينَ ("Ali-İmran", 61) "De, gəlin biz övladlarımızı, siz də övladlarınızı; biz qadınlarımızı, siz də qadınlarınızı; biz özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) yalvarıb yalançılara lənət etməsini diləyək."

[5] Əhli-beyt və düşmənləri haqqında Quranın 76-cı surəsi olan "Həl Əta" surəsinin nazil olmasına işarədir. "Təthir", "mübahilə", "əl-məvəddətə fil qurba" və "həl əta" ayələrini mütaliə edib və təfsirlərindən agah olmaq istəyənlər "Əl-kəlimətül-Qərra" kitabına müraciət etsinlər. Çünki bu kitab hər bir "xəstə" üçün şəfa və müxaliflərə cavabdır. (Qeyd etdiyimiz kimi, bu kitab "Əl-füsulul-Muhimmə" kitabının sonunda çap olunmuşdur ki, hamı onu əldə edə bilər.)

[6] Sələbi "Kəbir" təfsirində sənəd ilə Əban ibn Təğlibdən, o da İmam Sadiqdən (ə) nəql etmişdir ki, Həzrət deyib: "Yuxarıdakı ayədə (Ali-İmran, 103) "həblüllah"dan məqsəd bizik."

İbn Həcər bu ayəni onların haqqında nazil olmuş ayə hesab etmişdir və bu beşinci ayədir ki, "Əs-səvaiq" kitabının 11-ci babının birinci fəslində söylənmişdir və onun təfsirində yuxarıdakı mətləbi "Sələbinin" təfsirindən nəql etmişdir. İmam Şafei "Rəşfətüs-Sadi" kitabında demişdir:

«وَ لمّا رأيتُ الناس قَد ذَهبتْ بِهم مذاهبُهم في أبحُر الغَيّ و الجهل»

«ركبتُ علي اسم الله في سُفُن النجا وَ هُم أهلُ بَيت المصطفي خاتم الرُّسُل»

«و أمسَكتُ حبلَ اللهِ و هُوَ وِلاءُهُم كما قَد أُمِرنا بالتّمسّك بالحَبْل»

həmin sadiqlər deyildirlərmi? Allah buyurur: وَكُونُواْ مَعَ الصَّادِقِينَ "Sadiqlərlə olun."[1] Məgər onlar "siratullah" deyildirlərmi ki, Allah buyurmuşdur: "Pərakəndə yol ilə getməyin, yoxsa Allah yolundan saparsınız".[2] Məgər onlar "ülul-əmr" (rəhbərlər) deyillərmi? Allah buyurur: يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللهَ وَ أَطِيعُواْ الرَّسُولَ وَ أُوْلِي الأَمْرِ مِنكُمْ "Ey iman gətirən şəxslər, Allaha itaət edin, Peyğəmbərə və sizin özünüzdən olan rəhbərlərin əmrinə itaət edin."[3] Məgər onlar zikr əhli deyillərmi? Quran əmr edir: فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ "Əgər bilmirsinizsə zikr əhlindən soruşun."[4] Məgər onlar həmin möminlər deyillərmi ki, "Nisa" surəsinin 115-ci ayəsi o haqda belə buyurur: "Haqq aşkar olandan sonra Peyğəmbər ilə müxalifət edən və möminlərin yolundan savayı başqa bir yol ilə gedən şəxsi elə getdiyi yolla aparıb cəhənnəmə daxil edəcəyik."[5] Məgər onlar "Rəd" surəsinin 7-ci ayəsində deyildiyi kimi, Allah tərəfə "hidayət edənlər" deyillərmi? إِنَّمَا أَنتَ مُنذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ "Sən yalnız qorxudansan və hər bir qövmün (dəstənin) hidayətçisi vardır."[6] Məgər onlar "O kəslər ki, Allah onlara nemət bağışlayıb"-dan

---

"Camaatı məzhəb məsələsində azğınlıq dəryasında müşahidə etdikdə, mən Allahın adı ilə nicat gəmisinə mindim ki, həmin peyğəmbərlərin sonuncusu Mustafanın Əhli-beytidir. Allahın ipindən yapışdım ki, bu da onları sevməkdən başqa bir şey deyildir (ondan yapışmağa əmr olunduğumuz ikən).

[1] Ayədəki (Tövbə, 119) sadiqlər sözündən məqsəd düzgün və mütəvatir xəbərlərimizə görə Peyğəmbər və Əhli-beyt imamlarıdır. Hafiz Əbu Nəim və Müvvəffəq ibn Əhməd də bunu demişlər. İbn Həcər "Səvaiq"in 11-ci babının beşinci ayəsinin təfsirində 90-cı səh.-də imam Səccaddan hədis söyləmişdir ki, 6-cı məktubun sonunda qeyd etmişik.

[2] (Ənam, 153) İmam Baqir (ə) və İmam Sadiq (ə) həmişə buyurardılar ki, doğru yol sözündən məqsəd doğru imamdır və yollar sözündən məqsəd sizi Allah yolundan uzaqlaşdıran yolunu azmış rəhbərlərdir. Biz isə Allah yoluyuq.

[3] Siqətül-islam Küleyni doğru sənəd əsasında nəql etmişdir ki, Büreyd İcli İmam Sadiqdən (ə) bu ayədən məqsədin nə olduğunu soruşduqda, İmamın cavabı "Nisa" surəsinin 51, 53-cü ayələrinin müxtəsər şərhi ilə belə olmuşdur: «Məgər o kəsləri görmədin ki, (Allah) Kitabından faydaları var ikən (onlara hidayət ayələri nazil olmuş ikən), büt və tağuta iman gətirir və müşriklərə deyirlər ki, sizin yolunuz iman gətirənlərdən daha doğrudur." Belələri yolunu azmış rəhbər və atəşə dəvət edənlər haqda deyirlər: Onlar Ali-Məhəmməddən (s) artıq Allah yoluna hidayət olunmuşlar. Lakin, onlar o kəslərdir ki, Allah onları öz rəhmətindən uzaqlaşdırmış və Allahın öz rəhmətindən uzaqlaşdıran bəndəsinə bir köməkçi tapılmaz. Məgər onların hökumətdə (imamət və xilafətdə) paylarımı var? Əgər belə olsaydı, camaata heç bir hüquq verməzdilər. "Yoxsa camaat Allahın öz fəzlindən onlara (Peyğəmbər və Əhli-beyti) bağışladığı nemətlərəmi paxıllıq edirlər?" Biz o kəslərik ki, imamətə və Allahın bizə bəxş etdiyi rəhbərliyə görə şübhə və paxıllığa məruz qalmışıq – "Baxmayaraq ki, Ali-İbrahimə "kitab", hikmət və böyük səltənət verdik." Quran deyir: "Onlara peyğəmbərlər və imamlar göndərdik." Necə olur ki, Ali-İbrahimi qəbul edir, Ali-Məhəmmədi (s) isə inkar edirlər? "Onlardan bəzisi ona iman gətirdilər, bəzisi yoluna maneə yaratdılar, lakin cəhənnəmin şölələnən atəşi onlar üçün kifayətdir.»

[4] (Nəhl, 43; Ənbiya, 7) Sələbi özünün "Kəbir" təfsirində Cabirdən nəql edir ki, bu ayə nazil olanda Əli dedi: "Biz zikr əhliyik." Bu söz başqa imamlardan da nəql olunmuşdur. Əllamə Bəhreyni "Qayətül-Məram"ın 35-ci babında bu məzmunda iyirmidən çox doğru hədis nəql etmişdir.

[5] İbn Mərdəveyh nəql etmişdir ki, burada Peyğəmbər ilə müxalifət etmək və əziyyətdən məqsəd Əli (ə) ilə müxalifətdir. "Hidayətin" aydın olmasından məqsəd də Əlinin (ə) məqamıdır.

Əyyaşi öz təfsirində onu nəql etmiş və Əhli-beyt imamları təriqi ilə də bu məna aydın və ardıcıl çatmışdır ki, möminlərin yolu Əhli-beyt imamlarının yoludur.

[6] Sələbi öz "Kəbir" təfsirində bu ayənin altında İbn Abbasdan bir hədis nəql edir ki, deyir: bu ayə nazil olandan sonra Peyğəmbər (s) əlini Əlinin (ə) sinəsinə qoyub buyurdu: "Mən qorxudanam və Əli yol göstərəndir. Ey Əli, hidayət olunanlar sənin vasitənlə hidayət olunurlar."

Bu hədisi şərhçilər və Peyğəmbərin (s) xəbərlərini yazanların çoxu İbn Abbasdan nəql etmişlər. Məhəmməd ibn Müslim deyir ki, İmam Sadiqdən (ə) bu ayənin şərhini soruşduqda belə, buyurdu: "Hər bir imam öz

deyillərmi? “Həmd” surəsi yenə onlara işarə edərək buyurmuşdur ki, “Bizi doğru yola hidayət et, nemət verdiyin kəslərin yoluna.”[1] “Nisa” surəsinin 69-cu ayəsində buyurulur: “Allaha və Peyğəmbərə itaət edən kəs (qiyamət günü) Allahın onlara bol nemət verdiyi peyğəmbərlər, doğru danışanlar, şəhidlər və salehlər ilə bir yerdə olacaqlar.”[2] Məgər Allah onların vilayətini bütün ümmət üçün qərar verməyibmi? Məgər Peyğəmbərdən (s) sonra müsəlmanlara vilayət və hökumət etməyi onlara aid etməmişmi? Belə isə, bu ayəni oxu: “Başçınız və rəhbəriniz yalnız Allah, onun peyğəmbəri və o kəslərdir ki, iman gətiriblər, namaz qılır və rüku məqamında zəkat verirlər; o kəslər ki, Allahın, onun peyğəmbərinin və iman gətirmiş kəslərin vilayətini qəbul edərlər (qalibdirlər, çünki) Allahın firqəsi və qoşunu qalibdir.”[3]

Məgər Allah rəhmət və məğfirəti əyri yoldan dönən, iman gətirən, düzgün və layiqli iş görən üçün bu şərtlə qəbul etməmişdirmi ki, gərək onların vilayətində olsunlar? Çünki Taha surəsinin 82-ci ayəsində buyurur: “Şübhəsiz ki, Mən həm də tövbə edib iman gətirəni yaxşı işlər görüb, sonra da doğru yolu tutanı çox bağışlayanam!”[4]

Məgər onların vilayəti Allahın buyurduğu əmanət deyilmi: “Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik, onlar onu götürməkdən çəkindilər. Lakin insan onu qəbul etdi. Amma insan (özünə qarşı) zülmkar və çox cahildir.”[5] Məgər onların vilayəti həmin “silm” deyilmi ki, Allah ona bağlanmağı əmr etmişdir? Allah buyurur: “Ey iman gətirənlər hamınız “silmə” (sülh

---

dövrünün yol göstərənidir.” İmam Baqir (s) onun şərhində buyurmuşdur ki, “munzir” (qorxudan) Allahın rəsulu və “had” (hidayət edən) Əlidir (ə) və sonra əlavə etdi ki, bizim haqqımızdakı bu ayə qiyamətə qədər doğrudur.

[1] Sələbi “Kəbir”də “Fatihə” surəsinin təfsirində Əbu Büreydədən nəql etmişdir ki, “Siratəl-müstəqim”dən məqsəd Ali-Məhəmməddir (s) və Vəki ibn Cərrahın təfsirindən, Süfyan Suridən, Səudidən, İsbatdan və Mücahid İbn Abbasdan nəqs etmişdir ki, “bizi doğru yola hidayət et” ifadəsinin mənası bizə Ali-Məhəmmədin dostluq və məhəbbətini nəsib et, deməkdir.

[2] Sözsüz ki, Əhli-beyt imamları sadiqlərin, şəhidlərin və salehlərin qabaqcılları və böyüklərindəndirlər.

[3] Bütün müfəssirlərin fikri bu məsələdə eynidir. Əşairə imamlarından (başçılarından) olan Quşçi özünün “Təcridin şərhi” kitabında imamətə məhəbbət bəhsində etiraf etmişdir ki, bu ayə Əli (ə) haqqında rüku vaxtı sədəqə verərkən nazil olmuşdur. Nisai özünün “Səhih” kitabında onun Əli (ə) haqqında nazil olmasını Abdullah ibn Salamdan nəql etmişdir. “Maidə” surəsinin təfsirində “Sihahi Sittə”ni toplayan yuxrıdakı ayənin Əli (ə) haqqında nazil olduğunu nəql etmişdir. Sələbi də özünün “Kəbir” təfsirində onun Əmirəl-möminin haqqında nazil olmasını qəti hesab edir (şərhi veriləcək).

[4] İbn Həcər “Səvaiq” kitabının 11-ci babının 1-ci fəslində bəhs edərkən bu ayəni 8-ci ayə kimi gətirib deyir: “Sabit Bənani demişdir ki, “hidayət olunmuş”dan məqsəd, Peyğəmbərin (s) Əhli-beytinin vilayəti ilə hidayət olmuş deməkdir.” Yenə İbn Həcər deyir ki, bu söz imam Baqirdən (ə) də nəql olmuşdur. Sonra onların vilayəti vasitəsilə hidayət tapan şəxsin nicatı haqqında bir sıra rəvayət nəql etmişdir. İbn Həcər imam Baqirdən (ə) hədis nəql edərkən, o həzrətin Haris ibn Yəhyaya buyurduğu sözə işarə etmiş, belə ki, imam Baqir ona buyurmuşdur: “Ey Haris, məgər görmürsən ki, Allah tövbənin qəbulunu, imanı, doğru işi bizim vilayətimiz vasitəsilə hidayət olunmaq və haqqımızı tanımaqla şərtləndirmişdir. Bunlar olmadan heç bir bəndəyə iman, doğru iş və tövbə mənfəət verməz.” Sonra o həzrət cəddi Əmirəl-möminindən (ə) belə nəql etmişdir: “Əgər bir şəxs tövbə etsə, iman gətirsə və layiqli iş yerinə yetirsə, lakin bizim vilayətimizlə hidayət olmasa, bu işlər onu ehtiyacsız etməyəcək (ona mənfəət verməyəcəkdir).”

Hafiz Əbu Nəim buna oxşar hədisi Ovn ibn Əbu Cühəyfədən, o da Əlidən (ə) söyləmiş və Hakim (imam Baqir və imam Sadiqdən), Sabit Bənani və Ənəs ibn Malik buna oxşarını nəql etmişlər.

[5] “Əhzab”, 72. Ayənin mənası ilə tanış olmaq üçün “Təfsiri-Safi”yə “Təfsiri-Əli ibn İbrahim”ə Səduqun bu haqda imam Baqir, imam Sadiq və imam Rzadan (ə) və Əllamə Bəhreyninin “Qayətül-Məram” kitabının 115-ci babında sünnə əhli hədislərindən nəql etdiklərinə müraciət edin.

və barışığa) gəlin, Şeytanın ardınca getməyin."[1] Məgər onların vilayəti həmin "nəim" deyilmi ki, Allah) buyurub: ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ "Mütləq o haqda sorğu-sual olunacaqsınız.[2]

Məgər Peyğəmbər onların vilayətinin çatdırılması və təbliği üçün məmur olmamışdımı? Məgər bu haqda Allahın Peyğəmbərə buyurduğu əmr, bir növ hədəyə bənzəmirdimi? Allah buyurmuşdur: "Ey Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı təbliğ et (çatdır). Əgər çatdırmasan, rəsulluğunu yerinə yetirməmişsən. Allah səni camaatdan qoruyacaq."[3] Məgər Peyğəmbər "qədir" günü onun təbliğinə başlamadımı və uca səslə hamıya çatdırmadımı? Allah həmin gün ("Maidə", 3-cü ayə) nazil etdi: "Bu gün dininizi kamil etdim və nemətimi sizin üçün tamamladım və İslamı (əbədi) dininiz kimi qəbul etdim."[4] Məgər bilmirsən ki, Allah onların vilayətini açıq şəkildə inkar edən və Peyğəmbər ilə müxalifət edən şəxslə necə rəftar etdi? O şəxs uca səslə dedi: "Əgər bu haqq olub Sənin tərəfindəndirsə, onda göydən üstümüzə daş yağdır və ya bir ağır əzab bizə nazil et." Allah da onu göydən endirdiyi daşla "fil səhabələri"ni məhv edən kimi, yox etdi və o vaxt bu ayə nazil oldu: "O hacət istəyən kəs elə bir əzabın baş verməsini istəmişdir ki, kafirlər ondan müdafiə oluna bilməzlər."[5] Tezliklə camaat qiyamətdə onların vilayətilə bağlı sorğu-sual ediləcəklər. Saffat surəsinin 24-cü ayəsində deyilir: وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُونَ "Onları saxlayın ki, sorğu-sual ediləcəklər."[6]

Bu da təəccüblü deyildir ki, onların vilayətini hətta peyğəmbərlər elan etmək üçün göndərilmiş və Allahın höccət və canişinləri camaatı onunla tanış etməyə məmur olunmuşlar.

---

[1] "Bəqərə", ayə 208. Əllamə Bəhreyni "Qayətül-Məram" kitabının 224-cü babında doğru hədislərdən 12-sini nəql etmişdir ki, bu ayə Əli (ə) və onun övladlarıdan olan imamlar haqqındadır və onlardan savayı başqalarının ardınca getməyi inkar etmişdir. 223-cü babda demişdir ki, İsfahani Əməvi bir neçə təriq ilə onu Əlidən (ə) nəql etmişdir.

[2] "Təkasür", ayə 8. Əllamə Bəhreyni "Qayətül-Məram" kitabının 48-ci babında sünnə əhli təriqi ilə üç hədis nəql etmişdir ki, "nəim" həmin Peyğəmbər (s), Əmirəl-möminin və Əhli-beytin (ə) bəndələrə olan vilayət nemətidir və 49-cu babda şiə təriqi ilə bu barədə 12 hədis xatırlamışdır.

[3] "Maidə", 67. Peyğəmbərin (s) sünnə və xəbərlərini yazan sünni yazıçılarının çoxu nəql etmişlər ki, bu ayə Qədir-xumda Əli (ə) haqqında nazil olmuş, o cümlədən Vahidi "Əsbabun-Nüzul"da "Maidə" surəsinin təfsirində Əbu Səid Xidridən, Sələbi öz təfsirində iki təriq ilə, Həməveyni Şafei "Fəraidüs-Səmteyn"də müxtəlif təriqlərlə, həmçinin Əbu Hüreyrədən mərfu şəkildə, Əbu Nəim "Nüzulul-Quran"da iki təriqlə birini Əbu Rafedən, birini də Əməş və Ətiyyədən və "Qayətul-Məram"ın 37-38-ci bablarında 9 hədis sünni və 8 doğru hədis isə şiə təriqi ilə bu mövzu ilə bağlı zikr etmişlər.

[4] İmam Baqir (ə) və övladı İmam Sadiqdən (ə) çatmış səhih hədislərə əsasən, onlar həmin bu mənanın aşkar olduğunu bəyan etmişlər. Sünni təriqi ilə 6 hədis "mərfu" şəkildə Peyğəmbərdən (s) nəql olunmuşdur ki, bu mənanı aşkar yetirir. Onu müfəssəl şəkilfə "Qayətül-Məram" kitabının 39 və 40-cı babında oxuya bilərsiniz.

[5] Sələbi "Kəbir" təfsirində bu hadisəni müfəssəl nəql etmiş və misirli Əllamə Şəblənci onu "Nurül-Əbsar" kitabında Əli (ə) haqqında zikr etmişdir. Onun 71-ci səhifəsinə müraciət edin. Bu hadisə müxtəlif təriqlərlə nəql olunmuşdur. Hələbi "Sirə" kitabının 3-cü cildində "həccətül-vida"nın axırlarında və Hakim "Müstədrək" kitabında "Məaric" surəsinin təfsirində onu yazmışdır. "Müstədrək"in 2-ci cildinin 502-ci səhifəsinə müraciət edin.

[6] Deyləmi "Səvaiq" kitabında deyildiyi kimi, onu Əbu Səid Xidridən nəql etmişdir ki, Peyğəmbər (s) buyurub: Onlar Əlinin (ə) vilayəti ilə bağlı soruşulacaqlar." Vahidi də "Səvaiq" kitabında yazıldığı kimi, yuxarıdakı ayə haqqında belə rəvayət edir: "Onlar Əli və Əhli-beytin vilayətindən soruşulacaqlar." Sonra əlavə edir ki, Allah öz peyğəmbərinə əmr etmişdir ki, risalətin təbliği müqabilində Əhli-beytlə dostluqdan savayı başqa bir muzd istəmədiyini camaata başa salsın və ayənin mənası bundan ibarətdir ki, onlardan – Peyğəmbərin (s) tövsiyə və sifariş etdiyi kimi– Əhli-beyti sevmək barəsində soruşulacaq, əks-təqdirdə (əməl etmədikləri surətdə) təbiidir ki, cəzalarına yetişəcəklər. İbn Həcər "Səvaiq" kitabının 11-ci babında bu ayəni Əhli-beyt haqqında nazil olan ayələrdən hesab etmiş və onu dördüncü ayə kimi qeyd etmişdir.

Belə ki, deyilir: "Səndən əvvəl göndərdiyimiz peyğəmbərlərdən soruş."[1] Hətta bu elə şeydir ki, Allah elə "ələst" dövründən (ilk yaradılış dövrü) bu haqda əhd-peyman almışdır. Əraf surəsinin 172-ci ayəsində deyilir: "Allah insan övladı doğulmamışdan əvvəl ondan əhd-peyman aldı və onları özlərinə (bir-birinə) şahid etdi və (onlara dedi:) Mən sizin Rəbbiniz deyiləmmi? Dedilər: Bəli.";[2] "(Nəhayət) Adəm rəbbindən (nicat tapmaq üçün Əhli-beytin məqamına layiq bə'zi xüsusi) kəlmələr öyrənərək o kəlmələr vasitəsilə tövbə etdi. Doğrudan da, O (Allah) tövbələri qəbul edəndir, mərhəmətlidir."[3] Ənfal surəsinin 33-cü ayəsində buyurulur: "Nə qədər ki, sən onların arasındasan, Allah onlara əzab verməyəcək."[4]

Onlar Allah tərəfindən yer əhli üçün "aman" və Allaha yaxın olma vasitələridir. Onlar elə şəxslərdir ki, hamı onlara həsəd aparar. Allah bu haqda buyurur: "Yoxsa onlar Allahın öz ne'mətindən bəxş etdiyi şeylərə görə camaata (Peyğəmbər və Əhli-beyti) paxıllıqmı edirlər?"[5] Onlar elm əhlidirlər ki, Allah bu haqda buyurur: وَالرَّاسِخُونَ فِي الْعِلْمِ يَقُولُونَ آمَنَّا بِهِ "Elmdə sabitqədəmlər deyərlər: iman gətirdik."[6] Həmçinin bilməliyik ki, "əraf"dakılar onlardır və Allah buyurur: "Ərafda elə adamlar vardır ki, hamını simalarından tanıyırlar."[7] Onlar həmin sədaqətli və vəfalı adamlardır ki, Quran buyurur: "Möminlərdən elə adamlar vardır ki, Allahla

---

[1] "Zuxruf", 45. Bu haqda Haciz Əbu Nəimin "Hilyə" kitabında və Sələbi, Nişaburi və Bərqinin öz təfsirlərində nəql etdikləri kifayətdir. Eləcə də Həməveyni və başqa sünnə əhlinin nəql etdikləri, Təbərsinin "Məcməül-bəyan"da Əmirəl-mömininindən (ə) söylədiyi və "Qayətül-Məram"ın 44-45-ci babında yazılanlar maraqlananların xəstəliyini yox edir, susuzluğunu aradan qaldırır.

[2] Bu barədə Əhli-beyt (ə) hədisləri ayənin təfsiri üçün dəlil və yolgöstərəndir.

[3] "Bəqərə", 37. İbn Məğazili Şafei, İbn Abbasdan belə nəql etmişdir: "Peyğəmbərdən sual edildi ki, Adəmin öyrəndiyi və nəticəsində tövbəsinin qəbul olunduğu sözlər nə idi? Peyğəmbər buyurdu: Adəm Məhəmməd (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseynin (ə) məqamlarına xatir Allahı çağırdı. Sonra Allah onun tövbəsini qəbul etdi." Bu hədis şiə təriqi ilə də çatmışdır.

[4] İbn Həcərin "Səvaiq" kitabında bu ayənin təfsirinə müraciət edin. Bu ayə Əhli-beytin fəzilətləri haqqındakı ayələrdən yeddincisidir ki, 11-ci babında yazılmış və orada yuxarıdakı sözü etiraf etmişdir.

[5] İbn Həcər ona etiraf etmiş və bu ayəni ("Nisa", 54) Əhli-beyt haqqında olan ayələrdən bilmişdir ("Səvaiq", 11-ci bab, ayə 6). İbn Məğazili Şafei "Səvaiq"də yazıldığı kimi, imam Baqirdən (ə) nəql etmişdir ki, Həzrət buyurub: "Allaha and olsun ki, paxıllığa məruz qalmışıq." "Qayətül-Məram" kitabının 60-cı babında bu barədə 30 doğru və aydın hədis nəql olunmuşdur.

[6] Siqətül-islam Küleyni İmam Sadiqdən (ə) doğru sənəd əsasında nəql etmişdir ki, Həzrət buyurub: "Biz elə qövmük (sülalə) ki, Allah bizə itaət etməyi camaata vacib bilmişdir. Elmdə sabitqədəmlər bizik və yalnız həsədə məruz qalmışıq. Allah buyurub: "Və yaxud Allahın öz fəzlindən onlara bağışladığı üçünmü paxıllıq edirlər?" Şeyx Tusi onu "Təhzib" kitabında imam Sadiqdən nəql etmişdir.

[7] "Əraf", 46. Sələbi öz təfsirində bu ayənin şəni nüzulunda belə yazır: "Əraf sirat körpüsünün ən uca yeridir ki, Abbas, Həmzə, Əli və Cəfər Təyyar orada oturublar. Onlar dostlarını ağ üzlərindən, düşmənlərini isə qara üzlərindən tanıyırlar."

Hakim öz sənədlərinə əsasən, Əli (ə) haqqında belə nəql etmişdir: "Biz qiyamət günü behiştlə cəhənnəm arasında dayanacağıq, bizə kömək edənləri üzlərindən tanıyırıq və onları behiştə daxil edəcəyik. Bizimlə düşmənçilik edənləri də simalarından tanıyırıq." Salman Farsidən nəql olunur ki, Peyğəmbər (s) Əliyə (ə) buyurdu: "Sən və övladların olan canişinlərin, ərafda yerləşəcəksiniz." Bunu təsdiq edən hədis "Səvaiq"in 2-ci cildinin 9-cu babında deyildiyi kimi, Darü-Qütninin hədisidir ki, belə nəql etmişdir: "Əli (ə) Ömər ibn Xəttabın altı nəfərin arasında xilafəti müzakirəyə qoyduğu şəxslərə uzun nitq söyləyən vaxt dedi: Siz Allah, deyin görüm aranızda məndən başqa elə bir adam vardırmı ki, Peyğəmbər (s) ona buyurmuş olsun: Sən qiyamətdə behişt ilə cəhənnəmi bölüşdürənsən"? Dedilər: Allah bilir ki, yox." İbn Həcər deyir ki, eyni mənada Əntərənin imam Rzadan (ə) nəql etdiyi hədisdir ki, Peyğəmbər (s) Əliyə (ə) buyurub: "Ey Əli, sən behiştlə cəhənnəmi bölüşdürənsən. Qiyamət günü cəhənnəm oduna deyərsən: Bu biri məndəndir, o biri səndən." İbn Həcər deyir ki, İbn Səmmak nəql etmişdir: "Əbu Bəkr Əliyə (ə) dedi: Peyğəmbərdən eşitdim ki, Əlinin icazəsi olmadan heç kəs siratdan keçməyəcək."

bağladığı əhdlərinə vəfa edir, onlardan bir dəstəsi vəzifəsini başa çatdırıb (şəhid oldular), o biri dəstə isə gözləyir və onlarda (imanlarında) heç bir dəyişiklik baş verməz.”[1]

Onlar həmin zikr əhlidir ki, Allah onların barəsində buyurmuşdur: “Səhər-axşam onun zikrinə məşğul olarlar, o kəslər ki, ticarət, alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi gündən (qiyamət) qorxarlar.”[2] Onların evləri haqqında Allah buyurmuşdur: “O evlərdə ki, Allah orada öz adının ucalı şəkildə yad olunmasına icazə vermişdir.”[3] Allah “nur” ayəsində buyurur: “Allah göylərin və yerin nurudur. (Kainatı yaradıb ona nur verən, yer və göy əhlinə haqq yolu göstərən xaliqdir). Onun nuru, içində çıraq olan bir taxçaya (çıraqdana) bənzər; taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə, sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə (aləmin ortasında) olan mübarək bir zeytun ağacından yandırılır. (Şərqdə deyildir ki, günəş batdıqda, qərbdə də deyildir ki, günəş doğduqda qaranlıqda qalsın). Onun (zeytun ağacının) yağı özünə od toxunmasa da, sanki (haradasa) işıq saçır. O, nur üstündə nurdur. Allah istədiyini öz nuruna qovuşdurur. Allah (həqiqəti anlaya bilsinlər deyə) insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!”[4]

وَالسَّابِقُونَ السَّابِقُونَ أُوْلَئِكَ الْمُقَرَّبُون “Və öndə olanlar. Onlar (dünyada Allah yolunda, imanda, əməldə, xeyirdə öndə olduqları kimi, axirətdə də) öndədirlər! (Nə xoşbəxtdir onlar!)”[5] “Sadiqlər”, “şahidlər”[1] və “salehlər”dən məqsəd onlardır.

---

[1] “Əhzab”, 23. İbn Həcər “Səvaiq”in 5-ci cildinin 9-cu babında Əlinin (ə) vəfatı haqqında yazdığı yerdə deyir: Əli (ə) minbərdə ikən, haqqında danışılan ayənin mənasını soruşdular ki, cavab verdi: “Ey Allah, bizə rəhm et! Bu ayə mənim, əmim Həmzə, əmim oğlu Übeydə ibn Haris ibn Əbdül-Müttəlibin haqqında nazil olmuşdur. Übeydə “Bədr”də şəhid oldu, Həmzə “Ühüd”də və mən isə bu ümmətin ən daşürəklisini gözləyirəm ki, bu saqqalımı başımın qanına boyasın. Bu sifariş və peyman isə dostum Əbül-Qasim (s) ilə aramızda imzalanmışdır. Hakim “Məcməül-Bəyan”da deyildiyi kimi, Əmr ibn Sabitdən, o da Əbu İshaqdan, o da Əlidən (ə) belə nəql etmişdir: “Bu ayə bizim haqqımızda nazil olmuşdur. Mən isə gözləyirəm və məndə heç bir dəyişiklik baş verməmişdir.”

[2] “Nur”, 37. Mücahid və Yəqub ibn Süfyan, İbn Abbasın “Cümə” surəsinin 11-ci ayəsinin təfsirində “ticarət işləri qarşıya gələndə səni tək qoyarlar” – yazılan yerdə deyilir: Dihyə Kəlbi cümə günü Şam ticarətindən qayıdan zaman mal və yeməli şeylər gətirmişdi. “Zeyt” daşlarına çatıb təbil çalmaqla gəldiyini elan etdi. Camaatın hamısı onun ticarət karvanını görməyə getdi. Məsciddə Peyğəmbər (s) (minbərdə), Əli (ə), Həsən (ə), Hüseyn (ə), Fatimə (ə), Salman, Əbuzər və Miqdaddan başqa heç kəs qalmadı. Peyğəmbər buyurdu: “Allah məscidə bir nəzər saldı, əgər bunlar məsciddə olmasaydılar, Mədinə camaatı atəşdə yanardı, Lut qövmü kimi onların da başına daş yağardı və Allah bu ayəni yerdə qalanlar üçün nazil etdi: “Səhər-axşam Allahı zikr edirlər və ticarət onları aldatmır.”

[3] Sələbi “Kəbir” təfsirində Ənəs ibn Malik və Yeziddən nəql etmişdir ki, Peyğəmbər (s) bu ayəni oxuduqdan sonra, Əbu Bəkr ayağa durub soruşdu: “Ey Allahın rəsulu (s), bu ev ayədə deyilən evlərdəndirmi (Əli və Fatimənin evinə işarə etdi)? Peyğəmbər (s) buyurdu: Bu, o evlərin ən yaxşısıdır.” “Qayətül-Məram” kitabının 11-ci babında bu haqda həqiqət üfüqünü işıqlandıran 9 doğru hədis yazılmışdır.

[4] “Nur” surəsinin 35-ci ayəsinə işarədir. İbn Məğazili Şafei “Mənaqib” kitabında Əli ibn Cəfərdən nəql etmişdir ki, İmam Kazimdən (ə) soruşdum: “Mişkatdan məqsəd –onda çıraq və misbah var– nədir? Həzrət buyurdu: Mişkat (qəndil) Fatimə və misbah (çıraq) Həsən və Hüseyndir. Və parlaq ulduza bənzər “zücacə” isə İbrahim peyğəmbərin şəcərəsindən nurlanmış Fatimədir ki, ulduz kimi dünya qadınları arasında parlayır, “nə şərqlidir, nə qərbli” – nə yəhudidir, nə nəsrani. “Zeytunun parlamasına az qalıb” – vücudundan elm yağır, “od hələ ona çatmamış, nur ardınca nur” – yəni, imam ardınca imam vücuda gətirir “və istədiyi adamı öz nuruna qovuşdurur” – yəni, bizim vilayətə kimi istəsə hidayət edər.” Bu, Əhli-beytdən bir neçə təriqlə çatmış ayənin təfsiridir.

[5] “Vaqiə”, 10. İbn Həcərin “Səvaiq” kitabının 2-ci cildinin 9-cu babında, 29-cu hədisdə olduğu kimi, Deyləmi yazır ki, Ayişə, Təbərani və İbn Mərdəveyh İbn Abbasdan nəql etmişlər ki, Peyğəmbər (s) buyurub: “İlk irəlidə gedənlər üç nəfərdir: Musaya qoşulan Yuşə ibn Nun, İsaya qoşulan “Yasin Sahibi” və

وَمِمَّنْ خَلَقْنَا أُمَّةٌ يَهْدُونَ بِالْحَقِّ وَبِهِ يَعْدِلُونَ "Yaratdıqlarımız içərisində bir zümrə də vardır ki, onlar insanları haqq yola aparır, (haqqı rəhbər tutaraq onlar arasında) ədalətlə hökm edirlər." Bu ayə də Əhli-beyt və onların dostları haqda nazil olmuşdur.[2] "Cəhənnəm və behişt əhli bərabər deyillər, behiştdə olanlar nicat tapmışlardır."[3] Bu ayə Əhli-beytlə dost və düşmən olanlar barəsindədir. Və yenə Əhli-beytə müxalif və müvafiq olanlar haqda deyilir: "Biz iman gətirən və əməli saleh olanlarla yer üzündə fəsad törədənləri eyni cürmü mühakimə edəcəyik? Pəhrizkarlarla günahkarları eyni tuturuqmu?!"[4] Yenə bu iki firqə haqda deyilir: "Günahkarlar elə xəyal edirlər ki, onları iman gətirən və əməli saleh adamlarla bir səviyyədəmi görürük? Həyat və ölümləri birdirmi? Nə pis hökm edirlər!"[5] Yenə Əhli-beyt və onların şiələri haqda Quranda oxuyuruq: إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُوْلَئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ "İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır."[6] Yenə onların düşmənləri haqda deyilir: "Bu ikisi düşməndirlər ki, öz yaradanları haqda düşmənçiliyə qalxıblar. Buna görə də kafir olanlara oddan paltar geyindirərik və cəhənnəmin yanar istisi onların başına töküləcək."[7] Həmçinin

---

Məhəmmədə qoşulan Əli ibn Əbu Talibdir." Müvəffəq ibn Əhməd ibn Məğazili də İbn Abbasdan onu nəql etmişdir.

[1] "Nisa", 69. İbn Nəcər "Səvaiq" kitabının 2-ci cildinin 9-cu babının 30-cu hədisində deyildiyi kimi, İbn Abbasdan nəql edir ki, Peyğəmbər (s) buyurdu: "Siddiqlər və düzdanışanlar üç nəfərdir: "Həzqil" Fironun ailəsindən olan mömin şəxs, Həbib Nəccar "Sahibi-Yasin" və Əli ibn Əbu Talib." Habelə Əbu Nəim və ibn Əbu Leylidən nəql etmişlər ki, "Səvaiq"in 2-ci cildinin 9-cu babının 31-ci hədisində deyildiyi kimi, Peyğəmbər buyurub: "Doğrudanışanlar üç nəfərdir: "Ey camaat, göndərilmişlərin ardınca gedin" deyən, Həbib Nəccar mömini "Ali-Yasin", "Məni yaradan Allahdır" – deyən Həzqil "mömini Ali-Firon" və hamıdan əfzəl olan Əli. Əlinin "düzdanışan" və "haqqı batildən ayıran" olması haqqında doğru xəbərlər mütəvatirdir.

[2] "Əraf", 181. Müvəffəq ibn Əhməd, Əbu Bəkr ibn Mərdəveyhdən öz sənədinə əsasən, Əlidən belə nəql edir: "(İslam) ümməti 73 firqəyə bölünər. Behiştdə olan bir firqədən başqa hamısı od içindədir. Onların haqqında Allah buyurmuşdur: "Yaratdığım insanların içərisində elələri var ki, haqq tərəfə hidayət edirlər və qayıdışları ona tərəfdir." Onlar mənim şiələrimdir."

[3] "Həşr", 20. Şeyx Tusi "Əmali" kitabında doğru sənəd əsasında Əmirəl-möminindən nəql etmişdir ki, Peyğəmbər (s) bu ayəni tilavət edən zaman buyurdu: "Behişt əhli o kəslərdir ki, mənim itaətimdədir və məndən sonra Əlinin (ə) əmrinə itaət, vilayətinə etiraf edərlər. Soruşdular: Cəhənnəm əshabı kimlərdir? Həzrət buyurdu: Onun vilayətilə düşmənçilik edən, əhdi pozan və onunla döyüşə cəhd göstərənlər." Mərhum Səduq da bu hədisi Əlidən (ə) və Əbül-Müəyyid Müvəffəq ibn Əhməd, onu Cabirdən nəql edirlər ki, Peyğəmbər (s) buyurdu: "Canım ixtiyarında olan kəsə and içirəm ki, Əli (ə) və onun şiələri qiyamət günü nicat tapanlardır."

[4] "Sad", 28. Ayənin təfsirinə baxmaq üçün Əli ibn İbrahimin təfsirinə və ya "Qayətül-Məram" kitabının 81-83-cü babına müraciət edin.

[5] "Casiyə", 21. Bu ayə Həmzə, Əli, Übeydə haqqında "Bədr" döyüşündə Ütbə, Şeybə və Vəlid ilə qarşı-qarşıya dayanan zaman nazil olmuş, yəni iman gətirənlər Həmzə, Əli və Übeydə, günaha batmışlar isə Ütbə, Şeybə və Vəliddir. Bu haqda doğru hədislər vardır.

[6] "Bəyyinə", 7. Elə bircə bu kifayətdir ki, İbn Həcər etiraf etmiş: "Bu ayə onların haqqında nazil olmuşdur." və bu ayəni onların üstün və fəzilətlərini göstərən ayələrdən hesab etmişdir. "Səvaiq"in 1-ci cildində 11-ci babın ayələrindən 11-cisidir ki, Əhli-beyt haqqında zikr olunmuşdur. Bu ayə haqda "Füsulul-Muhimmə" kitabının "Sünnədə şiə üçün müjdələr" fəslində söylədiyimiz hədislərə müraciət edin ("Füsulul-Muhimmə", 7-ci fəsil, səh. 39, beşinci çap).

[7] Buxari "Səhih" kitabının 3-cü cildinin 107-ci səh.-də "Həcc" surəsinin təfsirində Əlidən (ə) nəql etmişdir ki, o həzrət demişdir: "Mən qiyamət günü Allah qarşısında düşmənlərimdən haqqımı tələb etmək üçün yalvaracaq ilk kəsəm." Buxari deyir: Qeys ibn İbad demişdir: Bu ayə "Bədr" döyüşü günü Əli (ə) və iki yoldaşı Həmzə və Übeydə və (onların qarşısına çıxan) Şeybə və iki yoldaşı Ütbə və Vəlid haqqında nazil olmuşdur. Həmin səhifədə Əbuzər nəql etmiş və o, and içmişdir ki, bu ayə Əli ilə iki yoldaşı və Ütbə ilə iki

onların və düşmənləri barədə yenə başqa ayədə deyilir: “Məgər mö’min kimsə ilə (Allahın itaətindən çıxmış) fasiq eynidirmi?! Əlbəttə, onlar eyni ola bilməzlər! İman gətirib yaxşı işlər görənləri etdikləri əməllər müqabilində qonaq qalacaqları (sakin olacaqları) Mə’va cənnətləri gözləyir. (Onlar orada Allahın əbədi qonaqları olacaqlar). Fasiqlərə gəldikdə isə, onların məskəni cəhənnəm odudur. Onlar hər dəfə oddan çıxmaq istədikdə yenə ora qaytarılacaq və onlara: "Dadın yalan hesab etdiyiniz cəhənnəm odunun əzabını!" – deyiləcəkdir.”[1] Hacıları su ilə sirab etmək və “Məscidül-Həram”ı bərpa etmək işində fəxr edənlər haqda Allah buyurur: “Hacıları su ilə sirab etmək və Məscidül-Həramı təmir və abad etmək işini Allaha və qiyamət gününə iman gətirən və Allah yolunda cihad edən kimi sanırsınız? Bunlar Allah qarşısında bərabər deyildirlər, Allah zülmkar şəxsləri hidayət etməz.”[2] Yenə də onların fədakarlıqları haqda Allah buyurur: وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ “İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır.”[3] Yenə buyurur: “Allah möminlərdən canlarını və mallarını alır ki, əvəzində behişti onlara bağışlasın. Onlar Allah yolunda vuruşurlar, öldürürlər və öldürülürlər. Bu, Tövratda, İncildə və Quranda yazılmış həqiqi və aydın vəddir. Öz əhd-peymanına Allahdan vəfalısı kim ola bilər?”; “Artıq siz bu müamilə (can və mal verib behişt almısınız) ilə özünüzə müjdə verin. Bu, hədsiz feyz, qələbə və nicatdır. ( Möminlər bu xüsusiyyətlərə malikdirlər:) Tövbə edən, abid, Allaha sitayiş edən, oruc tutan, rüku və səcdə edəndirlər. Onlar yaxşı işlərə dəvət edir və pis işlərdən çəkindirirlər. İlahi hüdudu hifz edən və öz mallarını gecə-gündüz, aşkar və gizli bağışlayan möminlərə müjdə ver ki, onların əcri Yaradanın yanında hifz olunur, onlar üçün qorxu yoxdur və qəm-kədər görməzlər.”[4] “Sidq”

---

yoldaşı haqqında “Bədr” döyüşündə qarşı-qarşıya duran vaxt nazil olmuşdur (“Səhih-Buxari”, “Ehyaut-Türasül-ƏrƏbu çapı”, 2-ci cild, 6-cı hissə, 123-cü səh.-də bu iki hədis nəql olunmuşdur).

[1] “Səcdə”, 18. Bu ayə sözsüz ki, Əmirəl-möminin və Vəlid ibn Üqbə ibn Əbu Muit haqqında nazil olmuşdur. Hədis söyləyənlər onu nəql etmiş və təfsirçilər onu aydınlaşdırmışlar. Əbül-Həsən Əli ibn Əhməd Vahidi ayənin mənası haqqında özünün “Əsbabun-nuzul” kitabında Səid ibn Cubeyrdən,o da İbn Abbasdan nəql etmişdir ki, Vəlid ibn Üqbə Əli ibn Əbu Talibə dedi: “Mənim nizəm səninkindən iti, dilim uzun və qoşunum səninkindən çoxdur. Əli ona buyurdu: Sakit ol, sən fasiqsən!” Və yuxarıdakı ayə nazil oldu ki, “mömin” sözündən məqsəd Əli (ə), “fasiq”dən məqsəd isə Vəlid ibn Üqbədir.

[2] “Tövbə”, 19. Bu ayə Əli, əmisi Abbas və Təlhə ibn Şeybə haqqında nazil olmuşdur. Təlhə deyirdi: “Mən Kəbənin sahibiyəm, açarı mənim əlimdədir, mən onun qapıçısıyam.” Abbas deyirdi: “Hacılara su çatdırmaq mənim öhdəmdədir” Əli (ə) isə buyururdu: “Bilmirəm siz nə deyirsiniz, amma mən altı ay hamıdan əvvəl Peyğəmbər (s) ilə namaz qılmışam və cihad adamıyam.” Allah yuxarıdakı ayəni nazil etdi. Bu, Vahidinin “Əsbabun-Nuzul” kitabında ayənin mənasına aid nəql etdiyi məsələdir. O, bu mənanı Həsən Bəsri, Şəbi və Qurtəbidən nəql etmiş, İbn Sirin və həmədanlı Mürrədən yazmışdır ki, Əli Abbasa buyurdu: “Peyğəmbərə qovuşmaq üçün nədən ötrü mühacirət etmirsən? Abbas cavabında dedi: Məgər mühacirətdən üstün iş mənim öhdəmdə deyilmi? Məgər mən Allah evinin hacılarına su vermirəmmi? Məgər Məscidül-Həramın təmiri və abadlaşdırılması mənim öhdəmdə deyilmi?” Bu vaxt yuxarıdakı ayə nazil oldu.

[3] “Bəqərə”, 207. Hakim “Müstədrək”in 3-cü cildinin 4-cü səhifəsində İbn Abbasdan nəql edir: “Əli canını satın qoydu və Peyğəmbərin paltarını əyninə geydi.” Hakim bu hədisin doğru olduğunu aydınlaşdırmış, hətta Buxari və Müslüm özləri onun nəql etmədiklərinə baxmayaraq doğru olmasına etiraf etmişlər. Hakim “Müstədrək”in həmin səhifəsində Əli ibn Hüseyndən (ə) bununəql etmişdir: “Allah üçün birinci canını satın qoyan şəxs Əli ibn Əbu Talib (ə) idi ki, Peyğəmbərin (s) yatağında yatdı.” Sonra Əliyə aid olan bir şeri nəql edir ki, əvvəli belədir:

«وَ قِيتُ بنفسي خيرَ مَن وَطَئ الحصا وَ مَن طافَ بالبيت العَتيق و بالحَجَر» “Yer üzərinə qədəm qoyub, Kəbəni təvaf və Həcərül-Əsvədi ləms edən ən yaxşı adamı canım ilə hifz etdim.”

[4] “Bəqərə”, 274; “Tövbə”, 111-112. “Əsbabun-Nuzul” yazanlar, hədisçilər və təfsirçilər İbn Abbasdan nəql etmişlər ki, الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُم بِاللَّيْلِ وَالنَّهَارِ سِرًّا وَعَلاَنِيَةً فَلَهُمْ أَجْرُهُمْ عِندَ رَبِّهِمْ وَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ – ayəsi (“Bəqərə”, 274) Əli ibn Əbu Talib haqqında nazil olmuşdur. Bu o vaxt idi ki, Əlinin dörd dirhəmi var idi. Onlardan

və doğrunu təsdiq edənlərə Allah şahiddir. Bu haqda oxuyuruq: " Özüylə "sidq" gətirən (Məhəmməd (s)) və onu təsdiq edənlər pəhrizkardırlar."[1] Bəli, onlar Allahın rəsulunun xalis "Rəht" qövmü və yaxın adamlarıdır ki, Allah inayətini onlardan əsirgəməmiş və buyurmuşdur: وَأَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ "Öz yaxın adamlarını qorxut." Həmin "yaxın adamlar"dır ki, Allah buyurmuşdur: وَأُوْلُو الْأَرْحَامِ بَعْضُهُمْ أَوْلَى بِبَعْضٍ فِي كِتَابِ اللَّهِ "Allahın kitabında bəziləri bəzilərindən üstündür." Quran nöqteyi-nəzərindən qohumların bəzisi digərlərindən üstün, qiyamət günü dərəcələri yüksək, Peyğəmbər dərəcəsinə layiq və nemətli behiştdə ona qovuşacaqlar. Aşağıdakı ayədə deyiləni sübut edir: "İman gətirib imanda övladları ardınca gedənlərin nəsillərini (cənnətdə) özlərinə qoşacağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs öz əməlinin girovundadır."[2]

Onlar elə bir haqqa sahibdirlər ki, Quran uca səslə onun ödənilməsinə əmr edir və deyir: وَآتِ ذَا الْقُرْبَى حَقَّهُ "Qohum və yaxın adamların haqqını ver." Onlar xüms sahibidirlər ki, onu yerinə yetirmədən zimmədən (öhdədə olan şey) xilas olmaq olmaz. Allah buyurmuşdur: "Agah olun, əlinizə düşən hər bir qənimətin xümsü Allahın, Peyğəmbərin və yaxın qohumlarınındır (Əhli-beytindir)."[3] Onlar "fəy" sahibləridir ki, Allah deyir: "Allah Öz Peyğəmbərinə (fəth olunmuş) məmləkətlərin əhalisindən (dinc yolla) verdiyi qənimət Allaha, Peyğəmbərə (ona (s) yaxın olan) qohum-əqrabaya, yetimlərə, yoxsullara və (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara) məxsusdur."[4] Bu həmin Əhli-beytdir ki, Allah onlara belə xitab etmişdir: إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا "Allah istəmişdir ki, siz Əhli-beytdən günahı uzaqlaşdırsın, sizi tamamilə pak və təmiz etsin."[5] Onlar "Ali-Yasin"dirlər ki, Allah onlara salam göndərir və buyurur: سَلَامٌ عَلَى إِلْ يَاسِينَ "Ali-Yasinə salam olsun."[6] Ali-Məhəmməd onlardır və Allah onlara salam göndərməyi bəndələrinə vəzifə bilərək buyurur: إِنَّ

---

birini axşam, o birisini gündüz, üçüncüsünü gizli və dördüncüsünü aşkar bağışladı. Bu vaxt yuxarıdakı ayə nazil oldu. Vahidi "Əsbabun-Nuzul" kitabında İbn Abbasdan, yenə Mücahiddən və sonra Kəlbidən əlavələrlə onu nəql etmişdir.

[1] "Zumər", 33. "Sidq" gətirmiş kəsdən məqsəd Allahın rəsulu (s), onu təsdiq edən kəsdən məqsəd Əmirəl-mömininindir (ə). Bu aydın məsələ imam Baqir, imam Sadiq, imam Kazim, imam Rza, İbn Abbas, Məhəmməd Hənəfi, Abdullah ibn Həsən, Zeyd ibn Əli ibn Hüseyn və imam Sadiqin övladı Əli ibn Cəfərin sözüdür. Əmirəl-möminin (ə) özü həmişə bu ayəni dəlil gətirərdi. İbn Məğazili özünün "Mənaqib" kitabında Mücahiddən nəql etmişdir ki, «الّذي جاءَ بالصِّدق» – ayəsindən məqsəd Məhəmməd (s) və «الّذي صَدّق به» – ayəsindən məqsəd isə Əlidir. Bu rəvayəti ibn Mərdəveyh və Əbu Nəim və başqaları nəql etmişlər.

[2] "Tur", 21. Hakim "Müstədrək"in 2-ci cildinin 468-ci səh.-də "Tur" surəsinin الحقنا بهم ذريتهم – ayəsi haqqında nəql etmişdir ki, Allah mömininin qohum və övladlarını əməldə özündən aşağı olmasına baxmayaraq özü ilə yüksəyə aparar. Sonra yuxarıdakı ayəni dəlil gətirmişdir.

[3] "Ənfal", 41.

[4] "Həşr", 7.

[5] "Əhzab", 33.

[6] "Saffat", 130. Sonuncu ayəni İbn Həcər "Səvaiq"in 11-ci babında yazmış və demişdir ki, ondan məqsəd Ali-Məhəmmədə salamdır. İbn Həcər yazır: Kəlbi də belə demiş və əlavə etmişdir ki, Fəxri Razi demişdir: "Əhli-beyt beş şeydə Peyğəmbərlə bir cərgədədir: 1) salamda: "السلام عليك ايها النبي"; "سَلَامٌ عَلَى إِلْ يَاسِينَ". 2) namazın təşəhhüdündə salavatda. 3) paklıqda: "طه" – yəni, "ey tahir, pak!"; "وَيُطَهِّرَكُمْ تَطْهِيرًا". 4) məhəbbətdə: "فَاتَّبِعُونِي يُحْبِبْكُمُ الله"; "قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى". 5) onlara sədəqə verilməyin haramlığında.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ "Allah və mələkləri Peyğəmbərə salam göndərirlər, ey iman gətirən şəxslər, siz də ona salam göndərin."[1] Hədislərin birində deyilir: "Ey Allahın peyğəmbəri, sənə "salam"ı bildik, buyur de, sənə "salavat"ı necə göndərək? Peyğəmbər buyurdu, belə deyin: «اَللّٰهُمَّ صَلِّ عَلي مُحَمَّدٍ وَ عَلي آلِ مُحَمَّدٍ» "İlahi, Məhəmmədə və Ali-Məhəmmədə salavat göndər (xeyir-bərəkət yetir)!" Bu hədisdən məlum olur ki, onlara salavat göndərmək bu ayədə əmr olunan salavatdır və buna görədir ki, alimlər bu ayəni Əhli-beytin şəninə nazil olan ayələrdən sayırlar. İbn Həcər "Səvaiq" kitabının 11-ci babında bunu onların barəsində nazil olan ayələrdən hesab edib.[2]

"Xoş hallarına",[3] yaxşı aqibətləri əbədi behiştdir və qapıları onların üzünə açıqdır. (Şair nə gözəl deyib:)

«مَن يُباريهِم وَ في الشّمس مَعني؟ مجهد متعب لمن باراها» "Kim onlarla müsabiqə edə bilər, halbuki günəşlə müsabiqəyə girmək istəyən çox çətin təsəvvürlə qarşılaşmışdır."

Onlar Allahın bəndələri arasında seçilmişlər, Allahın icazəsi ilə yaxşılıqlarda hamıdan irəli olanlar, Allahın kitabının varisləridir ki, Allah onların haqqında buyurmuşdur: "Sonra "Kitabı" bəndələrimizdən seçdiklərimizə (Məhəmməd (s) və Əhli-beyti) miras verdik. Bəndələrdən kimisi özünə zülm edər (imamları tanımayanlar), kimisi mö'tədil (pis əməlləri ilə yaxşı əməlləri bərabər) olar (onlar imamları sevənlərdir) və kimisi də Allahın izni ilə yaxşı işlərdə (başqalarını ötüb) irəli keçər (o, imamdır). Bu (Kitaba varis olmaq) böyük lütfdür!"[4]

Əhli-beytin fəzilətlərinə aid bu qədər ayə kifayətdir. İbn Abbas deyir ki, Əli ilə bağlı 300 ayə nazil olmuşdur.[5] Bir başqası deyir: Quranın iyirmi beş faizi Əhli-beyt haqqındadır. Bu heç də təəccüblü deyildir. Çünki Əhli-beyt və Quran bir şeyin bir-birindən ayrılmaz hissələridir. Sizə zikr etdiyim bu qədər aydın ayələrlə kifayətlənin.

«هُنّ أُمّ الكتاب» Bunlar Quranın möhkəm (mə'nası aydın, hökmü bəlli) ayələridir ki, onları asanlıqla məndən al və məhəbbətlə diqqət yetir. Onları sənə bəsirətli, agah şəxs verir ki, heç kəs səni bəsirət əhli kimi xəbərdar edə bilməz. Vəssalam.

**"Ş"**

---

[1] "Əhzab", 56. Buxari "Səhih"in 3-cü cildinin "Təfsirul-Quran" kitabının "إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ" babında, "Əhzab" surəsinin təfsirində və Müslüm "Səhih"in 1-ci cildində "əs-sələvat" kitabının "Peyğəmbərə salavat" babında bu sözü nəql etmiş və başqa hədisçilər onu Kəb ibn Ücrədən nəql etmişlər.

[2] Həmin babda onlar haqqında zikr olunmuş ayələrdən 2-ci ayədir ki, 87-ci səhifəyə müraciət edin.

[3] Sələbi özünün "Təfsiri-Kəbir"ində bu ayənin təfsiri barədə Peyğəmbərdən (s) belə nəql etmişdir: "Tuba behiştdə mənim evimdə yerləşən ağacdır və onun şaxələri behişt əhlinin üstünə sərilir. Bir nəfər ondan soruşdu: "Ey Allahın rəsulu, bu haqda səndən soruşduq, buyurdun ki, bu ağac Əlinin evindədir və şaxələri behişt əhli üzərinə sərilmişdir. Peyğəmbər (s) buyurdu: Məgər mənim evimlə Əlinin evi bir deyilmi?"

[4] ثُمَّ أَوْرَثْنَا الْكِتَابَ الَّذِينَ اصْطَفَيْنَا مِنْ عِبَادِنَا فَمِنْهُمْ ظَالِمٌ لِّنَفْسِهِ وَمِنْهُم مُّقْتَصِدٌ وَمِنْهُمْ سَابِقٌ بِالْخَيْرَاتِ بِإِذْنِ اللَّهِ ذَلِكَ هُوَ الْفَضْلُ الْكَبِيرُ "Fatir", 32. Mərhum Küleyni mötəbər sənədlə Salimdən belə nəql edir: "İmam Baqirdən "Fatir"in 32-ci ayəsi haqqında soruşdum. Buyurdu: "və kimisi də Allahın izni ilə yaxşı işlərdə (başqalarını ötüb) irəli keçər"-dən məqsəd imam, "kimisi mötədil olar" – sözündən məqsəd imamın haqqını tanıyan və "kimisi özünə zülm edər"-dən məqsəd o kəsdir ki, imamı tanımasın. Bu məzmunda imam Sadiq, imam Baqir və imam Rzadandan (ə) da nəql etmişlər. Bu rəvayəti Səduq və başqa şiə hədisçiləri nəql etmişlər və ibn Mərdəveyh onu Əlidən nəql etmişdir ki, deyib: "وَمِنْهُمْ سَابِقٌ بِالْخَيْرَاتِ" – sözündən məqsəd bizik." Bu haqda geniş şərh üçün "Tənzilul-Ayat" və "Qayətul-Məram" kitabına müraciət edin.

[5] İbn Əsakir, İbn Abbasdan nəql etmiş və "Səvaiq" kitabınının 3-cü fəslinin 9-cu babının 76-cı səhifəsində onu söyləmişdir.

## *ON ÜÇÜNCÜ MƏKTUB*

<u>23 Zilqədə 1329</u>

***Verilən qiyasın (müqayisə) nəticəsi ayələrin şəni-nüzulu haqqında söylənilən rəvayətlərin zəifliyini göstərir.***

Afərin sənin qələmindən çıxan dürlərə, ondan süzülən parlaq damlalara! Mərhəba! O qətrələrlə zinətlənmiş səhifələr, ona qarşı mübarizəyə qalxmaq istəyən şəxsin təfəkkür səthindən daha yüksək, ibarətləri eyib axtaran və nöqsan tutmaq istəyən kəsin nəzərindən daha uzaq, xətləri və səhifələri – hamısı birlikdə bir hədəfə doğru addımlayır və vərəqləri müəyyən məqsədə tərəf tələsirlər. Onları oxuyanın yalnız "afərin" və "əhsən" səsi ucalacaqdır.

Bu dəfə yazdıqlarınızdan elm seli axır, dalğaları çox ucadır. Möhkəm ayələr və dəlillər gətirməklə, öhdəndə olan vəzifəni yaxşı və nöqsansız yerinə yetirmiş və heç nəyi əsirgəməmişsən. Buna görə də sənin dəlillərini rədd etmək istəyən kəs inadkarlıq, alçaqlıq və pisliyə qədəm qoymuş olar, əsassız sözlərə əl atar, batil ikən inad edər, cahil və nadan adamlar kimi zorakılığa başlayar.

Bəzən etiraz oluna bilər ki, yuxarıdakı ayələrin nazil olma səbəbləri şiə mənbələrinə əsaslanandığını doğrudur. Sünnə əhli şiə rəvayətlərinə etimad etmir və onları əsas götürmür. Belə olan halda cavab nə olacaqdır? Meyliniz varsa, cavab verin. Təşəkkür edirəm. Vəssalam.

***"S"***

# *ON DÖRDÜNCÜ MƏKTUB*

24 Zilqədə 1329

***1. Yersiz etiraza cavab.***

***2. Beləlıri şiəlikdən agah deyildir.***

***3. Şiənin imtiyazı odur ki, hədisdə yalan danışmağı qəti haram bilir.***

1. Etiraz edənin dəlil və müqayisəsi batil və sübutun məntiqi şəkli "suğra" və "kubra" nöqteyi-nəzərindən səhvdir.

Amma "suğra"ya gələrkən, (bu ayələrin nazil olma səbəblərini rəvayət edənlər şiələrdir) müqəddimənin batilliyi aydındır, çünki o rəvayətləri yalnız biz yox, sünnə əhlinin etimadlı və etibarlı rəvayətçiləri də nəql etmişlər və onların rəvayətləri və mötəbər kitablarına əsasən bu sahədəki rəvayətçilərinin silsilələri şiələrinkindən çoxdur. Belə ki, bu haqda "Tənzilul-ayatil-bahirə fi fəzlil-İtrətit-tahirə" (Peyğəmbərin pak Əhli-beytinin fəzilətləri haqqındakı ayələr) adlı kitabda müfəssəl bəhs etmişik. Həmçinin "Qayətul-Məram" kitabına müraciət etsəniz kifayətdir.

"Kubra"ya gəldikdə isə (sünnə əhli şiə rəvayətçilərini etibarlı saymır və rəvayətlərindən dəlil gətirmirlər) onun da batil olması daha aydındır. buna şahid sünnə əhlinin rəvayətləri və hədis kitablarıdır ki, onların raviləri sırasında şiənin məşhur və tanınmış şəxsləri doludur. "Sihahi-Sittə" və başqa kitablar şiə rəvayətçilərindən hədis nəql etmişlər, halbuki onlara eyib tutub şiə, rafizi, müxalif, ifratçı və yoldan azan deyirlər. Əslinə qalanda Buxarinin ustadlarının bir neçəsi şiə olmuş, onları rafizi, ədavət axtaran kimi təqdim etsələr də, lakin Buxari və başqalarının fikrincə, bu eyiblər onların ədalətinə xələl gətirməmiş və məhz ona görə də "səhih" kitablarında xatircəmliklə onların rəvayətlərini olduğu kimi gətirmişlər.

Deyilənlərə əsasən, "Sünnə əhli şiə rəvayətçilərinin hədislərindən dəlil gətirmir" – deyənin sözü nə qədər mötəbərdir? Xeyr, heç vaxt!

2. Etiraz edənlər bilmirlər ki, həqiqətdə şiə Peyğəmbərin (s) pak Əhli-beytinin yolu əsasında addımlayır və onların nişan və əlamətlərini özündə qoruyur. Əgər həqiqətən agah olsaydılar, bilərdilər ki, şiə yalnız Əhli-beyt imamları ilə bir olmaq və yalnız onların qədəm qoyduqları yerə qədəm qoymaq istəyir. Buna görə də onların həmin rəvayətçilər misilsiz sədaqət və əmanətdən başqa bir tərifə layiq deyil və şiənin hədis söyləyən qəhrəmanlarının pəhrizkarlıqda və ehtiyatda tayları yoxdur və təqvada, ibadətdə, gözəl əxlaqda, ürək paklığında və cihadda bənzərini tapmaq mümkün deyildir. Gecə-gündüz gördükləri işin hesabını diqqətlə izləyən, (hədislərin) hifz və qeyd olunması işində mətanətlə çalışan rəvayətçiləri heç kəs qabaqlaya bilməz və həqiqətləri bir-birindən seçmək və rəvayətlərin doğru və yanlış işində diqqət və mötəbərliyi izləməkdə onlarla bir sırada ola biləcək şəxs tapılmaz.

Lakin belələrinin vəziyyətdən xəbərsiz olması onları qaranlıq gecədəki yolçu ya qaranlıq gecədə kor ata minmiş atlı kimi etmişdir. Elə buna görədir ki, siqətül-İslam Məhəmməd ibn Yaqub Kuleyni və Səduq – Məhəmməd ibn Əli ibn Babəveyh Qummi və ümmətin şeyxi və böyüyü Məhəmməd ibn Həsən ibn Əli Tusini (Nəsirəddin Tusi) ittiham edir və onların müqəddəs və pak kitablarını yüngül sayır. Halbuki, bu kitablarda Ali-Məhəmmədin (s) elm sərvəti əmanət kimi qorunur. Şiənin yer üzündəki nümunəvi şəxsləri və elm qəhrəmanları qiymətli ömürlərini camaatın nəsihəti və təbliğinə, insanların Allah, Allahın kitabı, Allahın Peyğəmbəri ilə tanışlığın təbliğinə və müsəlmanların imamları və rəhbərlərinin nəsihətlərini yetirməyə sərf etmişlər.

3. İstər yaxşı, istərsə də pis adamlar bu pak insanların nəzərlərində yalan söyləməyin nə hökm daşıdığından agahdırlar və onların (çap olunmuş minlərlə) kitabları və yazıları şahiddir ki, onlar yalançıları lənətləyir, elan edirlər ki, "hədis"də yalan danışmaq, oda daxil olmağa səbəb olan böyük günahdır və qəsdən yalan danışmaq haqqında bu kifayətdir ki, onu orucun batil olma səbəblərindən sayır və əgər Ramazan ayında yalan deyilsə, qəza və kəffarəyə səbəb olacaq, necə ki, orucu qəsdən batil edən başqa şeylərdə də hökm eynidir. Onların fiqh və hədis kitabları bu həqiqəti aydın bildirsə də, bəs, onları hədis söyləməkdə nə üçün müqəssir sayırlar? Halbuki, onlar yaxşılar və seçilmişlərdir. Gecələr yatmayıb ibadət etmiş, həmişə oruc tutmuşlar. Necə oldu ki, Ali-Məhəmmədin (s) ən yaxşı şiələri və onların dostları müttəhimdir, amma "Xəvaric", "Mürciə" və "Qədəriyyə" müttəhim deyillər? Bu açıq-aşkar zülm, qəbahət və alçaqlıq deyilmi? Zillət, zülm, pis aqibət, düşmənçilik və ədavətdən Allaha pənah aparırıq.

«وَ لا حَوْلَ وَ لا قُوَّةَ اِلا بِاللهِ الْعَلِيِّ الْعَظيمِ» Vəssalam.

**"Ş"**

# *ON BEŞİNCİ MƏKTUB*

<u>25</u> <u>Zilqədə</u> <u>1329</u>

***1. Haqqın parıltısı.***

***2. Sünnə əhlinin sübutlarının təfsiri haqqında xahiş və şiə rəvayətçilərini qəbul etmələri.***

1. Bu məktubun dəqiq tərtib olunmuş, aydın təbirli, həzmi asan, faydalı məsələlərlə dolu, məqsədə doğru, geniş əhatəyə və uzaq üfüqə malik olub mövzuları bir-birilə bağlı və aydın idi. Əvvəldən axıradək oxuyub diqqət yetirdim. Sənin müvəffəqiyyətin məktubun məzmunundan çox aydın duyulur və haqq sözlərindən nicat çeşmələri ardıcıl axırdı.

2. Lakin sünnə əhlinin şiə rəvayətçilərindən hədis nəql etdiklərini xatırlatdığın zaman ixtisarla keçərək, ondan müfəssəl danışmadın. Sünnə əhlinin mötəbər saydıqları şəxslərin adını çəkməyiniz, onların şiə olmaları haqqındakı yazılarını və kitablarından onlardan rəvayət nəql etdiklərini xatırlatmağınız yaxşı olardı.

İndi Haqqın əlamətlərinin aşkar olması və onun nurunun parlaması naminə bu işi yerinə yetirmək imkanınız varmı? Vəssalam.

***"S"***

# *ON ALTINCI MƏKTUB*

2 Zilhiccə 1329

***100 nəfər şiə rəvayətçisi sünnə əhlinin rəvayətçiləri arasında.***

Bəli, bu qısa fürsətdə sənin əmrinə müsbət cavab verərək bir qrup şəxsləri sizə təqdim edəcəyəm, amma təfsilatsız-milansız. Çünki bu iş bir məktuba sığışmaz. İndi isə onların və atalarının adlarına əlifba sırası ilə diqqət yetirin.[1]

## *"Əlif" (həmzə)*[2]

***1. Əban ibn Təğlib ibn Ribah, Kufi qarisi.***

Zəhəbi özünün "Mizanul-Etidal" kitabında onu xatırlamış və demişdir ki, Əban ibn Təğlib "M", "U" (ayn-vav) Kufi, xalis və möhkəm şiədir, lakin düzdanışandır. Düzdanışmağı bizim, bidəti isə özünün." Sonra demişdir: "Əhməd ibn Hənbəl, İbn Müin, Əbu Hatəm onu etibarlı hesab etmişlər." İbn Ədi də demişdir: "Şiəlikdə möhkəm və inadkardır." Sədi isə demişdir: "Yolunu azmış və bunu açıq-aşkar bildirmişdir." Bundan əlavə Zəhəbinin onun haqqında nəql etdiyi bir çox başqa fikirlər.

Zəhəbi onu o kəslərdən hesab etmişdir ki, Müslim və "Sünəni-Ərbəə"nin yazıçılarından Əbu Davud, Tirmizi, Nisai və İbn Macə ondan rəvayət nəql etmiş, belə ki, adının kənarında hədisinin məqbul olmasına dəlalət edən rəmz də vermişlər. Onun "Səhih-Müslim"də və "Sünəni-Ərbəə"də Həkəm, Əməş, Füzeyl ibn Əmrdən nəql etdiyi hədislər əlinizdədir. Həmçinin Müslimin fikrincə Süfyan ibn Üyeynə, Şöbə və İdris Ədi ondan hədis nəql etmişlər. O, 141-ci ildə vəfat etmişdir.

***2. İbrahim ibn Yəzid ibn Əmr ibn Əsvəd ibn Əmr Nəxəi Kufi.***

Anası Məlikə, Yəzid ibn Qeys Nəxəinin qızı, Əsvədin bacısıdır. İbrahim və Əbdür-Rəhman Yəzid ibn Qeysin oğulları, əmiləri Əlğəmə və Übəyy müsəlmanların etimadlı və sənəd üzrə mötəbər şəxslərindən hesab olunurlar. "Sihahi-Sittə"nin müəllifləri və başqaları onların rəvayətlərini və sözlərindən şiə olduqları halda nəql etmişlər. İbn Qüteybəyə gəldikdə isə özünün "Maarif" kitabının 206-cı səhifəsində onu şiə hesab etmiş və bu həqiqəti təkzibolunmaz və qəti bilmişdir.

O, "Səhih-Buxari" və "Səhih-Müslim"də anasının əmisi Əlğəmə ibn Qeysdən, Həmmam ibn Haris və Əbu Übeydə ibn Abdullah ibn Məsuddan, Übeydədən və dayısı Əsvəd ibn Yəziddən hədis nəql etmişdir. Siz "Səhih-Müslim"də dayısı Əbdür-Rəhman ibn Yəziddən və Səhm ibn Mincab, Əbu Müəmmər, Übəyd ibn Nəzlə və Abisdən nəql etdiyini görərsiniz. Və yenə "Səhih-Buxari" və "Səhih-Müslim" kitabında Mənsur, Əməş, Zübeydə, Həkəm və İbn Ovnun ondan rəvayət nəql etdiklərini mülahizə edə bilərsiniz. Həmçinin "Səhih-Müslim"də yazılmışdır ki, Füzeyl ibn Əmr, Müğirə, Ziyad ibn Küleyb, Vasil, Həsən ibn Abdullah, Həmmad ibn Əbu Süleyman və Səmmak ondan hədis nəql etmişlər.

---

[1] Bu məktub zərurət üzündən uzun olmasına baxmayaraq, elm əhli onu oxumaqdan yorulmayacaq, çünki hər bir elmsevərin axtardığı faydalara malikdir. Əgər başqaları onu oxumaqdan yorulsalar, onun bəzi hissələri ilə kifayətlənib17-ci məktuba keçə bilərlər.

[2] Rəvayətçilərin adları "ərəb əlifbası" tərtibilə verilmişdir. Belə ki, məsələn, "sad" və "sin" Azərbaycan qrafikasında "s" hərfi kimi yazılmasına baxmayaraq, bir-birindən fərqlənir. Diqqət edin! (mütərcim)

İbrahim 50-ci (hicri-qəməri) ildə anadan olmuş və 95 ya 96-cı ildə Həccacın ölümündən dörd ay sonra vəfat etmişdir.

### *3. Əhməd ibn Müfəzzəl ibn Kufi Həfri.*

Əbu Zərə və Əbu Həkim ondan hədis nəql etmiş və hədislərini dəlil gətirmişlər. Bu iki nəfər onun şiələr arasındakı mövqeyindən agah idilər. Əbu Hatəm ("Mizanul-Etidal" kitabında Əhmədin şərhi-halında yazıldığı kimi) belə deyir: "Əhməd ibn Müfəzzəl şiə başçılarından və olduqca düzdanışan adam idi."

Zəhəbi "Mizanul-Etidal" kitabında onun adını çəkmiş və Əbu Davud və Nisaiyə dəlalət edən rəmzi adının kənarında yazmış və beləliklə bu iki nəfərin onun sözlərinə etimad etdiklərinə və ondan dəlil gətirmələrinə işarə etmişdir.

"Səhih-Əbu Davud" və "Səhih-Nisai"də onun Suri, Əsbat ibn Nəsr və İsraildən nəql etdiyi hədisi tapa bilərsiniz.

### *4. İsmail ibn Əban Əzdi Kufi Bərraq, Buxarinin "Səhih"də ustadıdır.*

Zəhəbi "Mizanul-Etidal" kitabında onun adını çəkmiş və göstərmişdir ki, Buxari və Tirmizi öz "Səhih" kitablarında onun sözlərinə etimad etmiş və ondan hədis nəql etmişlər. O deyir: Yəhya və Əhməd ondan hədis öyrənmiş və Buxari demişdir: "O düzdanışandır." Və başqa birisi demişdir: "O, şiə məzhəbindəndir və şiə olmasını izhar edir." O, 286-cı hicri-qəməri ildə vəfat etmişdir, lakin Qeysərani onun 216-cı ildə vəfat etdiyini demişdir. Qeysərani və başqalarının da etiraf etdikləri kimi Buxari "Səhih" kitabında birbaşa ondan hədis nəql etmişdir.

### *5. İsmail ibn Xəlifə Mullai Kufi, künyəsi Əbu İsraildir və bununla məşhurdur.*

Zəhəbi "Mizanul-Etidal" kitabının "əl-Kuna" babında onun adını çəkmiş və demişdir: "İnadlı şiə olub, Osmanı kafir sayanlardandır." Çoxlu sözlər onun haqqında demişdir ki, bura onlardan danışmağın yeri deyil. Buna baxmayaraq Tirmizi öz "Səhih"ində və bir sıra başqa "sünən" yazıçıları ondan hədis nəql ediblər. Əbu Hatəm onun hədisini doğru hesab etmiş və tərifləmişdir. Əbu Zərə demişdir: "Düzdanışan adamdır və əqidəsində bir növ ifrata varmışdır." Əhməd demişdir: "Onun hədisini yazmaq lazımdır." İbn Müin deyib: "O, etimadlıdır." Fəlas demişdir: "Yalan əhli deyildir." Tirmizinin "Səhih"ində və başqalarında olanlara əsasən o, Həkəm ibn Üteybə və Ətiyyə Ufidən hədis söyləyir və İsmail ibn Ömər Bəcəli və o təbəqədən bir qrup alim və böyük şəxslər ondan hədis nəql edirlər.

İbn Qüteybə özünün "Əl-Maarif" kitabında onu şiə rəvayətçilərindən hesab edir.

### *6. İsmail ibn Zəkəriyya Əsədi Xələqani Kufi.*

Zəhəbi onun şərhi-halını "Mizanul-Etidal"da yazmış və demişdir: "İsmail ibn Zəkəriyya əl-Xələqani, kufəli, şiə və düzdanışandır." Və onu "Sihahi-Sittə"nin mötəbər saydıqları kəslərdən hesab etmişdir. Belə ki, adının kənarında rəmzə işarə etmişdir ki, mənası "Sihahi-Sittə"nin müəllifləri onu qəbul edirlər deməkdir. "Səhih-Buxari"də yazılanlara əsasən Məhəmməd ibn Suqə və Übeydullah ibn Ömərdən və "Səhih-Müslim"də yazılanlara əsasən Süheyl, Malik ibn Muğul və başqalarından hədis nəql etmişdir. Amma onun Asim Əhvəddən hədis nəql etdiyinin hər iki "Səhih"də mövcud olmasına şübhə yoxdur. Məhəmməd ibn Səbbah və Əbu Rəbi hər iki "Səhih"ə əsasən və Məhəmməd ibn Bəkkar "Səhih-Müslim"ə əsasən ondan hədis nəql etmişdir.

O, 174-cü hicri-qəməri ildə Bağdadda vəfat etmişdir. Onun şiə olması "məruf" və məşhurdur, hətta Tur tərəfdən Musanı səsləyən kəsin Əli ibn Əbu Talib olduğunu deməyi ona

mənsub etmişlər və demişdir ki, əvvəl və axır, zahir və batin Əli ibn Əbu Talibdir (ə). Doğrusu bu iftiraları yalançılar bu səbəbdən ona aid etmişlər ki, o, Əli şiəsi olmuş və onu başqalarından üstün tutmuşdur.

Zəhəbi “Mizanul-Etidal”da onun şərhi-halında bu batil sözləri nəql edəndən sonra deyir: “Bu sözlər Xələqaninin deyil, çünki bu, dinsiz və kafirlərin sözüdür.

### *7. İsmail ibn İbad ibn Abbas Taliqani Əbül-Qasim, “Sahib ibn İbad” adı ilə məşhurdur.*

Zəhəbi “Mizanul-Etidal”da onun adını çəkmiş və “D. T.” rəmzini adının kənarında yazmış və bununla bildirmişdir ki, İbn Davud və Tirmizi öz “Səhih”lərində ondan rəvayət nəql etmişlər. Sonra onun ədib, alim və şiə olduğunu demişdir.”[1]

Mən deyirəm onun şiə olmasına heç kəs şübhə etməmiş və buna görə də özü və atası “Ali Buyə”nin hakimiyyəti vaxtında cah-calala nail olmuşlar. Onun vəzirləri arasında ilk “sahib” adını o almışdır, çünki, uşaq vaxtından Müəyyədüd-dövlə onun yaxın yoldaşı və müsahibi olmuşdur. Buna görə də ona “sahib” adı verilmiş və bu ad ilə də məşhurlaşmışdır. O vaxtdan sonra vəzirlik vəzifəsinə çatan hər kəsə bu ləqəb verilirmiş.

O, Müəyyədüd-dövlə Əbu Mənsur ibn Rüknüd-dövlə ibn Buyənin baş vəziri idi və Müəyyədüd-dövlə 373-cü ilin Şəban ayında Qürqanda vəfat edən zaman Fəxrüd-dövlə adı ilə məşhur olan qardaşı Əbül-Həsən Əli hökumət başçısı olsa da həmin vəzifədə saxladı. Atası İbad İbn Abbas, Fəxrüd-dövlənin atası ilə yaxın və möhtərəm bir şəxs olduğu kimi, Sahib də onun yanında hörmətli, sözü keçən bir adam idi.

Sahib səfər ayının 24-də cümə axşamı (385-ci il) 59 yaşında Rey şəhərində vəfat etdiyi zaman bu şəhərin bazarı və mağazaları bağlandı, ümumi tətil elan olundu. Camaat onun sarayı qarşısına toplaşaraq cənazənin çıxarılmasını gözləyirdilər. Fəxrüd-dövlə, vəzirlər və qoşun başçıları hamı hazır idi və paltarlarını dəyişmiş, yas paltarı geymişdilər. Cənazənin saraydan çıxaran vaxt hamı birdən fəryad etdi və hörmət əlaməti olaraq yeri öpdülər. Fəxrüd-dövlə özü başqaları kimi dəfn mərasimində piyada gedirdi və bir neçə gün yas saxladı. Şairlər ölümünə mərsiyələr yazdılar, alimlər onu mədh etdilər. Nəhayət, ondan sonra gələnlər də onu tərifləmişlər.

Əbu Bəkr Xarəzmi deyir: “Sahib ibn İbad vəzirlik “ağuşunda” bəslənmiş, vəzirlik “yuvasına” get-gəli olmuş və “vəzirlik südünü” çox içmiş, onu atalarından irs almışdı. Əbu Səid Rüstəmi onun haqqında yazdığı şerdə dediyi kimi:

«ورث الوزارة كابراً عن كابر موصولة الاسناد بالاسناد»

«يروي عن العباس عبدا وزا رته و اسماعيل عن عباد»

“Sənədləri bir-birilə bağlı, vasitələri qırılmaz olan bir rəvayət kimi vəzirliyi böyük bir irs olaraq başqa bir böyükdən almışdır. İbad vəzirliyi Abbasdan, İsmail İbaddan irs almışdır.”

Sələbi “Yətimə” kitabında onun şərhi-halında yazır: “Hələlik onun elmi-ədəbi məqamının üstünlüyünü işıqlandıra biləcək söz tapa bilmirəm ki, onun səxavətdə və yaxşı əməllərdəki şöhrətini, özündə cəmlədiyi müxtəlif iftixarları açıb deyə bilsin. Bəli, belə sözlərə əlim çatmır, belə ki, qələmin yüksək əli onun ən aşağı fəzilət və məqamının üstünlüklərini yazmaqdan belə acizdir.” Sonra isə o, qələmi onun yaxşılıqları və xüsusiyyətlərini təsvir etmək üçün azad buraxmışdır (yəni hər nə gözəl xüsusiyyətləri varsa, onları qeyd etmişdir).

Sahibin qiymətli yazıları və əsərləri vardır ki, o cümlədən 7 cildlik əlifba sırası ilə tərtib olunmuş “Əl-Mühit” lüğət kitabını göstərmək olar.

---

[1] Zəhəbi “Mizanul-Etidal”da onun adını İsmail ibn Əban Qənəvi ilə İsmail ibn Əban Əzdi adlarının ortasında yazmışdır. Halbuki, bu səhvdir və şərhi-halında yazdıqları isə onun haqqında heç nəyi ödəmir.

Onun misilsiz kitabxanası var idi, (onu Samani sultanlarından olan Nuh ibn Mənsura bildirmişdir) belə ki, Nuh bir məktubda xahiş edir ki, Sahib onun məmləkətinə gəlib vəzirlik vəzifəsini qəbul etsin. O, bəhanə edərək deyir ki, ona lazım olan xüsusi kitablarını daşımaq üçün 400 dəvə lazımdır. Bu isə çox zəhmətli və çətin bir işdir.

Elə buradan kitabxanasının əzəmətini başa düşmək olar, yəni qiymətli olmayan kitablarını da nəzərə alsaq. Hələlik onun şərhi-halından bu qədər kifayətdir.

### *8. İsmail ibn Əbdür-Rəhman ibn Əbu Kərimə, Südəyy adı ilə məşhur olan müfəssir.*

Zəhəbi "Mizan" kitabında yazır: "Onu şiə biliblər." Sonra Hüseyn ibn Vaqid Mərvəzidən nəql etmişdir ki, Südəyy, Əbu Bəkr və Öməri söymüşdür. Bu vəsfinə baxmayaraq Suri, Əbu Bəkr ibn Əyyaş və bu təbəqədən bir çoxları ondan rəvayət nəql edirlər. Müslim və "Sünəni-Ərbəə" sahibləri də hədis nəql edir və rəvayətlərinə inanırlar. Əhməd ona etimad etmiş və İbn Ədi demişdir: "Düzdanışandır", Yəhya ibn Səid demişdir: "Mən elə bir adam görmədim ki, Südəyyin adını yaxşılıqdan savayı başqa cür çəksin." Sonra əlavə etmişdir: "Heç kəs onu yaddan çıxarmamışdır ki, rəvayətlərinə də əməl etməsin."

İbrahim Nəxəi, Südəyy Quranı təfsir edən zaman yanından keçəndə dedi: "Bu qövm təriqi ilə Quranı təfsir edir."(Yəni şiə məzhəbinə əsasən Quranı təfsir edir). "Mizanul-Etidal" kitabında Südəyyin şərhi-halına müraciət etsən bizim icmal halında dediklərimizi müfəssəl şəkildə tapa bilərsən. "Səhih-Müslim"də yazılanlara əsasən o, Ənəs ibn Malikdən hədis nəql etmişdir. "Sünəni-Ərbəə" və Müslimin yazdıqlarına görə Əbu İbad, Suri, Həsən ibn Saleh, Zaidə və İsrail ondan hədis söyləmişlər. Deməli o, bunların ustadıdır.

O, 127-ci hicri-qəməri ilində vəfat etmişdir.

### *9. İsmail ibn Musa Fəzari Kufi.*

Zəhəbinin "Mizan" kitabında gəldiyi kimi İbn Ədi deyir: "Şiəlikdə ifrata vardığını ona eyib tutmuşlar". Yenə də orada yazılana əsasən Hənnad və İbn Əbu Şeybə bizə irad tuturdular ki, nə üçün İsmailin yanına gedib-gəlirsiniz? Bizə deyirdilər: "Sələflərimizi söyən bu pozğunun yanında nə edirsiniz?" Buna baxmayaraq, İbn Xüzeymə və Əbu Ürbə ondan əxlaq öyrənmişlər və o, bu təbəqə arasında onların ustadı və Əbu Davud və Tirmizi kimi şəxslərdən olmuşdur. Bu da ona görədir ki, ondan hədis öyrənmişlər və öz "səhih"lərində ondan hədis gətirmişlər. Əbu Hatəm deyib: "O, düzdanışandır." Nisai deyib: "Onun hədislərinə əməl etməyin eybi yoxdur." Şərhi-halı haqqında dediklərimiz Zəhəbinin "Mizan" kitabında vardır. "Səhih-Tirmizi" və "Sünəni Əbu Davud"a əsasən o, Malik, Şərik və Ənəsin müsahibi Ömər ibn Şakirdən hədis nəql etmişdir.

O, 245-ci hicri-qəməri ilində vəfat etmişdir. O, Südəyyin qızının övladıdır. Bəzən bu məsələni inkar edirmiş. Allah daha yaxşı bilir.

## *"Ta"*

### *10. Təlid ibn Süleyman Kufi Ərəc.*

İbn Müin onun şərhi-halında demişdir ki, o, Osmanı söyən zaman Osmanın övladlarından və yaxınlarından bəzisi eşidib, ona ox atmış və beləliklə qıçı sınmışdır. Əbu Davud demişdir: "Rafizidir. Əbu Bəkr və Öməri söymüşdür." Bütün bunlara baxmayaraq Əhməd və İbn Nümeyr ondan hədis öyrənmiş, şiə olduğunu bildikləri halda hədislərini nəql etmişlər. Əhməd demişdir: "Təlid şiə olsa da, biz hədislərinə əməl etməkdə eyib görmürük. Zəhəbi "Mizan" kitabında adını çəkmiş və alimlərin onun haqqında dediklərini, bizim dediyimiz kimi,

xatırlamış, adının yanında Tirmizi rəmzini yazmışdır. O, "Səhih-Tirmizi"də olanlara əsasən Əta ibn Saib və Əbdül-Məlik ibn Ümeyrdən hədis nəql etmişdir.

## *"Sa"*

### *11. Sabit ibn Dinar, Əbu Həmzə Sümali adı ilə məşhurdur.*

Şiəlikdəki o, bir günəşə bənzəyir. "Mizan" kitabında adı gələrkən qeyd olunmuşdur ki, Əbu Həmzənin məclisində Osmanən adı çəkiləndə Əbu Həmzə soruşmuşdur ki, Osman kimdir? Əlbəttə, bu sual etinasızlıq və onu alçaltmaq tərzində deyilmişdir. Sonra nəql edir ki, Süleymani Əbu Həmzəni rafizilərdən bilib və Zəhəbi Tirmizi rəmzini Əbu Həmzənin adının kənarında yazmış və bununla da onun mötəbər bildiyi şəxslərdən olduğuna işarə etmişdir. Vəki və Əbu Nəim ondan hədis nəql etmiş və hədislərindən dəlillər gətirmişlər. "Səhih-Tirmizi"də müşahidə edəcəyiniz kimi o, Ənəs və Şəbidən və bu təbəqədən olanlardan hədis nəql etmişdir.

O, 150-ci hicri-qəməri ildə vəfat etmişdir. Allah rəhmət eləsin.

### *12. Süveyr ibn Əbu Faxtə Əbu Cəhm Kufi, Əbu Talibin qızı Ümmü Haninin qulamı.*

Zəhəbi "Mizan" kitabında adını çəkmiş və Yunis ibn Əbu İshaqdan nəql etmişdir ki, o, rafizidir. Süfyan və Şöbə ondan hədis öyrənmişlər. "Səhih-Tirmizi"yə əsasən o, İbn Ömər və Zeyd ibn Ərğəmdən rəvayət nəql etmişdir. O, imam Baqirin (ə) dövründə yaşamış və həzrətin vilayətinə istinad etməsi ilə məşhurdur. Onun qazi Əmr ibn Zər və İbn Qeys Masir və Səlt ibn Bəhram ilə, bu həqiqəti yetirən sərgüzəştləri vardır.

## *"Cim"*

### *13. Cabir ibn Yəzid ibn Haris Cöfi Kufi.*

Zəhəbi "Mizan" kitabında xatırlatmışdır ki, o, şiə alimlərindən biridir. Süfyandan nəql edir ki, Cabir deyirmiş: "Peyğəmbərin (s) elmi və biliyi Əliyə (ə) keçib, Əlidən Həsənə (ə) və habelə Cəfər Sadiqə (ə) qədər çatıb. Cabir imam Sadiqin (ə) dövründə yaşamışdır. Müslim öz "Səhih"inin əvvəllərində Cərrahdan nəql edir ki, Cabirdən eşidib ki, "Mən də imam Baqirdən (ə) 70 min hədis vardır ki, hamısı Peyğəmbərdəndir (s)."

Züheyrdən nəql edir ki, Cabir deyirmiş: "Hələ heç kəsə demədiyim 50 min hədis bilirəm." Sonra deyir: O, bir gün bir hədis nəql etdi və dedi: "Bu, 50 min hədisin biridir." Cabir hədis nəql edəndə (Zəhəbi "Mizan"da onun şərhi-halında yazdığı kimi) deyirmiş: "Vəsiyyül-övsiya mənə belə dedi." İbn Ədi ("Mizan"da şərhi-halında olduğu kimi) demişdir: "Ona irad tutulan eyiblərdən biri bu idi ki, o, Rəcətə (dünyaya qayıdış) inanırmış." Zəhəbi "Mizan"da onun şərhi-halında Zaidədən nəql edir ki, Cabir Cöfi rafizi idi və söyərdi.

Mən deyirəm bütün bunlara baxmayaraq Nisai və Əbu Davud onun hədislərini nəql etmişlər. "Səhih-Nisai" və "Səhih-Əbu Davud"un "səcdəyi-səhv" bablarına müraciət etsəniz hədislərini tapa bilərsiniz. Şöbə, Əbu Əvanə və bu təbəqədən bir çoxları ondan hədis öyrənmişlər. Zəhəbi "Mizan" kitabında "Əbu Davud" və "Tirmizi" rəmzini adının kənarında yazmış və bununla onların onu mötəbər saydıqlarına işarə etmiş və Süfyanın sözünə əsasən Cabir Cöfi hədis nəqlində pəhrizkar və təqvalı şəxs olmuşdur. Süfyan demişdir: "Mən ondan daha pəhrizkarını görmədim." Şöbə demişdir: "Cabir düzdanışandır... Hər zaman o, " انبأنا و

حدّثنا و سمعتُ” deyərkən ən etimadlı şəxslərdən sayılır.” Vəki demişdir: “Əgər hər şeydə şübhə etmişsinizsə də, Cabir Cöfinin doğru və etibarlı olmasında şübhə etməyin.” İbn Əbdül-Həkəm, Şafeidən eşitmişdir ki, Süfyan Suri Şöbəyə demişdir: “Əgər Cabir Cöfi haqqında nalayiq söz desən, mən də sənə deyəcəyəm.”

Cabir 127 və ya 128-ci ildə vəfat etmişdir. Allah rəhmət eləsin.

### *14. Cərir ibn Əbdül-Həmid Zəbbi Kufi.*

İbn Qüteybə “Maarif” kitabında onu şiə bilmiş, Zəhəbi “Mizan” kitabında adının kənarında rəmz yazmış və bununla işarə etmişdir ki, bütün “Sihah” yazanlar onun hədislərini nəql etmiş və mötəbər saymışlar. Zəhəbi onu tərifləmiş və demişdir: “Rey əhlinin alimi olub və düzdanışandır.” Bir çox kitablarda onun hədislərindən dəlil gətirilir. O, qeyd edir ki, onun mötəbər olması haqda hamı eyni fikirdədir. Onun Əməş, Müğeyrə, Mənsur, İsmail ibn Əbu Xalid və Əbu İshaq Şeybanidən nəql etdiyi hədislər “Səhih-Buxari” və “Səhih-Müslim”də vardır. Həmçinin Qüteybə ibn Səid, Yəhya ibn Yəhya və Osman ibn Əbu Şeybənin ondan nəql etdikləri rəvayətləri bu iki “Səhih”də mülahizə edə bilərsiniz.

O, 187-ci ildə 77 yaşında Reydə vəfat etmişdir. Allah rəhmət etsin.

### *15. Cəfər ibn Ziyad Əhmər Kufi.*

Əbu Davud onun haqda demişdir: “Düzdanışan və şiə məzhəblidir.” Cüzcani demişdir: “Yolundan və təriqətindən azmışdır.” İbn Ədi demişdir: “Layiqli şiədir.” Onun nəvəsi Hüseyn ibn Əli ibn Cəfər ibn Ziyad demişdir: “Cəddim Cəfər Xorasanda şiə başçılarından olub.”

Əbu Cəfər Dəvaniqi əmr vermişdi ki, Cəfəri onun yanına gətirsinlər. Beləliklə onu bir qrup şiə ilə, boyunlarına zəncir salıb onun yanına apardılar. Dəvaniqi onları zirzəmidə tikdirdiyi zindanlarda ömürlük həbs etdi.[1]

İbn Üyəynə, Vəki, Əbu Qəssan Mehdi, Yəhya ibn Bişr Həriri və İbn Mehdi ondan hədis öyrənmişlər. Deməli o, onların ustadıdır. İbn Müin və başqaları onu etimadlı bilmişlər. Əhməd demişdir: “Onun hədisləri doğrudur.”. Zəhəbi “Mizan” kitabında adını çəkmiş və bunları onun şərhi-halında yazmışdır. O, adının kənarında Tirmizi və Nisai rəmzini yazmış və bildirmişdir ki, onun hədislərini mötəbər sayırlar.

Onun Bəyan ibn Bişr və Əta ibn Saibdən və bu təbəqədən olan bir qrup başqalarından nəql etdiyi hədisləri “Səhih-Tirmizi” və “Səhih-Nisai”də oxuya bilərsən.

O, 167-ci ildə vəfat etmişdir.

### *16. Cəfər ibn Süleyman Zəbi Bəsri Əbu Süleyman.*

İbn Qüteybə özünün “Maarif” kitabının 206-cı səhifəsində onu şiə hesab etmiş və İbn Səd onun adını öz Rical kitabında çəkmiş və açıq şəkildə onu şiə və etibarlı adlandırmışdır. Əhməd ibn Miqdam onu rafizi kimi tanımışdır. İbn Ədi də demişdir: “Şiədir və mənim fikrimcə eybi yoxdur, hədislərini inkar etmirlər. Məncə tərifə layiqdir və hədislərini qəbul etmək lazımdır.” Əbu Talib deyir: Əhməddən eşitdim ki, deyirdi: “Cəfər ibn Süleyman Zəbinin eyib-nöqsanı yoxdur.” (rəvayətlərini qəbul etmək olar) Ona dedilər: “Süleyman ibn Hərb deyir ki, Cəfərin hədislərini yazmaq lazım deyil.” Cavab verdi: Yox, o bu işi inkar etmir. İş yalnız bundadır ki, Cəfər şiədir və Əlinin fəzilətləri haqqında hədislər söyləyir...”

---

[1] Ərəb ifadələrində «اشخص إليه في ساجور» yazılmışdır: “Sacur” ağacdan qayrılan boyunduruqdur ki, itin boynuna keçirərmişlər. Burada məqsəd odur ki, boynuna bənd salıb çəkirmişlər. Bəlkə də, lüğətdən istifadə olunduğu kimi, zəncir nəzərdə tutulub.

İbn Müin demişdir: “Əbdür-Rəzzaqdan bir söz eşitdim və beləliklə məzhəbinə aid dəlil gətirə bildim. O söz bundan ibarət idi ki, Əbdür-Rəzzaqa dedim: “Sənin ustadların Müəmmərə, İbn Cərih, Övzai, Malik və Süfyan hamısı sünnə əhli idilər, bəs sən bu məzhəbi (Əhli-beyt məzhəbini) kimdən öyrəndin? Cavab verdi: Cəfər ibn Süleyman Zəbi ilə görüşümüzdə mən onun fazil, əhli-hidayət və yaxşı bir insan olduğunu gördüm və bu məzhəbi (şiə məzhəbini) ondan öyrəndim.”

Mən deyirəm, Məhəmməd ibn Əbu Bəkr Məqdəminin fikri İbn Müinin fikrinin əksinə idi. Çünki o, inanır ki, Cəfər şiə məzhəbini Əbdür-Rəzzaqdan öyrənib, ona görə də həmişə onu qarğış edirdi və deyirdi: Kaş Əbdür-Rəzzaq öləydi, onu bir daha görməyəydim. Ondan başqa heç kəs Cəfəri azdırmadı və Cəfəri şiə etdi.”

Əqili, Səhl ibn Əbu Xədusədən nəql edir ki, Cəfərə dedim: “Eşitmişəm Əbu Bəkr və Öməri söyürsən?” Cavab verdi: Söymək ki, yox, amma istədiyin qədər kin və qəzəbim onlara var.”

İbn Həyyan “Siqat” kitabında Cərir ibn Yəzid ibn Harundan nəql edir: “Atam məni Cəfər Zəbinin yanına göndərdi ki, ona deyimsən Əbu Bəkr və Öməri söyürsən? Cavab verdi: Söyüş yox, amma ürəyimdə istədiyin qədər kin və qəzəb var!” Deməli, məlum olur ki, o rafizidir...”

Zəhəbi “Mizan” kitabında onun adını çəkmiş və dediklərimizi orada gətirib, nəhayət, açıq-aşkar yazmışdır: “O öz şiəliyində mömin alimlərdən idi.” Zəhəbinin dediyi kimi, Müslim öz “Səhih”ində onun rəvayətlərini mötəbər bilmiş, ondan hədis nəql etmişdir. Zəhəbi, Cəfərin şərhi-halında bu məsələyə işarə etmişdir.

Sabit Bənani, Cəd ibn Osman, Əbu İmran Cuni, Yəzid ibn Rəşk, Səid Cəriridən nəql etdiyi hədislər və Qütn ibn Nəsir, Yəhya ibn Yəhya, Qüteybə, Məhəmməd ibn Übeyd ibn Hisab, İbn Məhdi və Müsəddədin ondan nəql etdikləri hədislərini “Səhih-Müslim”də oxuya bilərsiniz. Elə o, “Yəzid Rəşk”dən, “Mütərrif”dən və “İmran ibn Hüseyn”dən bu hədisi nəql etmişdir: “Peyğəmbər bir dəfə Əlinin (ə) başçılığı ilə bir qoşun göndərdi və əsgərlərdən bəzisi Əlidən (ə) şikayət edəndə Peyğəmbər (s) buyurdu: Əlidən nə istəyirsiniz? Əli məndəndir və mən Əlidən. O, məndən sonra bütün möminlərin vəlisi olacaqdır.” Nisai bunu özünün “Səhih”ində yazmış və İbn Ədi onu “Səhih-Nisai”dən nəql etmişdir. Və Zəhəbi “Mizan”da Cəfərin şərhi-halında onu aydınlaşdırmışdır.

O, 178-ci il Rəcəb ayında vəfat etmişdir. Allah rəhmət eləsin.

### *17. Cəmi ibn Ümeyrə ibn Sələbə Kufi Teymi Teymullah.*

Əbu Hatəm “Mizanul-Etidal”da onun şərhi-halının axırında olduğu kimi onun adını çəkmiş və demişdir: “Kufəlidir, hədisləri doğrudur və əsilli, şərafətli və yaxşı şiələrdəndir.” İbn Həbban “Mizan”da olduğu kimi, adını çəkmiş və demişdir: “Rafizidir.”

Mən deyirəm: Əla ibn Saleh, Sədəqə ibn Müsənna və Həkim ibn Cübeyr ondan hədis söyləmişlər. Buna görə də o, bunların ustadı sayılır. Zəhəbinin “Mizanul-Etidal” kitabına əsasən Tirmizi onu yaxşı və gözəl şəxs kimi tərifləmişdir.

Cəmi ibn Ümeyrə “tabein”lərdəndir. O, İbn Ömər və Ayişədən hədis nəql etmişdir. Onlardan biri budur: İbn Ömər deyirmiş, eşitmişəm ki, Peyğəmbər (s) həmişə Əliyə (ə) buyurardı: «انت أخي في الدنيا و الآخره» “Sən bu dünyada və axirətdə mənim qardaşımsan.”

## *“Ha”*

### *18. Haris ibn Həsirə Əbu Nöman Əzdi Kufi.*

Əbu Hatəm Razi demişdir: “O əsil, şərafətli və yaxşı bir şiədir.”

O, “rəcət”ə mötəqid şəxs idi. İbn Ədi demişdir: “Onu etibarca zəif gördüyümə baxmayaraq rəvayətləri yazılır. O, Kufəni şiəlik atəşinə salanlardandır.” Zənic deyir: “Mən Cərirdən

soruşdum: Haris ibn Həsirəni görmüsən? Dedi: Bəli, böyük və vüqarlı bir qoca, sakit və dərin sükuta malik şəxsdir. Mühüm iş üstündə inadkardır.” Yəhya ibn Müin demişdir: “Düzdanışan, əqidəsində möhkəm və “xəşəbiyyə”lərdəndir (Muxtarın tərəfdarları).”

Suri, Malik ibn Muğul, Abdullah ibn Nümeyr və bu təbəqədən olan başqaları ondan hədis öyrənmişlər. O, onların ustadı və etimad etdikləri şəxs idi. Zəhəbi “Mizan” kitabında onun adını çəkmiş, sizə nəql etdiklərimin hamısını onun haqqında demişdir. Onun Zeyd ibn Vəhəb, Əkrəmə və bu təbəqədən olan başqalarından nəql etdiyi hədislər “sünən” kitablarında mövcuddur. Nisai, İbad ibn Yəqub Rəvacini vasitəsilə Abdullah ibn Əbdül-Məlik Məsudi, Haris ibn Həsirə və Zeyd ibn Vəhəbdən belə nəql edir: Eşitdim Əli (ə) deyirdi: Mən Allahın bəndəsi və onun rəsulunun qardaşıyam. Məndən başqa bu iddiada olan kəs yanacaqdır.” Haris ibn Həsirə, Əbu Davud Səbiidən və İmran ibn Həsindən belə nəql edir: “Mən Peyğəmbərin (s) yanında oturmuşdum və Əli (ə) də yanında idi. Peyğəmbər (s) bu ayəni oxudu: أَمَّن يُجِيبُ الْمُضْطَرَّ إِذَا دَعَاهُ وَيَكْشِفُ السُّوءَ وَيَجْعَلُكُمْ خُلَفَاء الْأَرْضِ “(Bütlər yaxşıdır) yoxsa əli hər yerdən üzülüb darda qalan birisi ona (Allah) dua etdiyi zaman onun duasını qəbul edən, (sizdən) şəri sovuşduran, sizi yer üzünün xəlifələri edən kimsə?...”[1] Əli (ə) birdən titrədi. Peyğəmbər (s) əlini onun çiyninə vurub dedi: «لا يُحبّك الا مؤمن و لا يُبغضك الا منافق الي يوم القيامة» “Səni qiyamətə qədər mömindən savayı heç kim sevməz, münafiqdən başqa heç kəs sənə kin bəsləməz.”

Bu hədisi Məhəmməd ibn Kəsir və başqaları Haris ibn Həsirədən nəql etmişlər. Zəhəbi, Nəfi ibn Harisin şərhi-halında həmin sənəd ilə bu hədisi nəql etmişdir. O, sənəddə Haris ibn Hərisədən bəhs edəndə deyir: “Düzdanışan və rafizidir.”

### *19. Haris ibn Abdullah Həmdani.*

Əmirəl-mömininin (ə) xüsusi səhabələrindən və tabeinlərin ən üstün şəxslərindən olub. Onun şiəlikdə vəziyyətini bəyan etməyə ehtiyac yoxdur. O, ilk şəxsdir ki, İbn Qüteybə öz “Maarif” kitabında onu şiə hesab etmişdir. Zəhəbi “Mizanul-etidal”da onu yad etmiş və etiraf etmişdir ki, tabeinlərin böyük alimlərindəndir. Sonra ibn Həyyandan belə nəql etmişdir: “O, şiəlikdə ifrata varmışdır.” Şiə olduğuna görə sünnə əhli onun haqqında böhtanlar və nalayiq sözlər demişlər. Buna baxmayaraq onlar etiraf etmişlər ki, o, fərayiz mühasibəsində (irs işində) ən yaxşı və ən bilikli alim olub. Harisin hədisləri “Sünəni-Ərbəə”də mövcuddur və Nisai şəxsiyyətlərə qiymət verməkdə ciddi olmasına baxmayaraq, Harisin hədislərini nəql etmiş, onu güclü və etimadlı hesab etmişdir.

O, şiə olduğu üçün təhqir olunmasına baxmayaraq cumhur (sünnə əhli) onun hədislərini bütün bablarda işlətmişdir. Şəbi onu təkzib etsə də, hədislərini nəql etmişdir. Zəhəbi “Mizanul-Etidal”da demişdir ki, Şəbi onu ləhcə və hekayətlərində təkzib edirdi, Peyğəmbər dən (s) olan hədislərdə yox. Zəhəbi özü “Mizan”da demişdir: “Haris elm və biliyi qoruyan peymanələrdən olub.” Sonra Məhəmməd ibn Sirindən belə nəql etmişdir: İbn Məsudun əshabələrindən beş nəfər elm öyrənmişdir ki, mən onlardan dörd nəfərini görmüşəm, lakin Harisi yox. Halbuki o, onların hamısından daha üstün və yaxşısı olmuşdur.” Əlavə etmişdir ki, Əlqəmə, Məsruq və Übeydədən hansı birinin daha bilikli və fazil olması ətrafında ixtilaf vardır.

Mən deyirəm ki, Allah müsəlmanların etimadlı şəxslərini Şəbini təkzib, xar və zəlil etmək üçün hakim edibdir. (Yəni alimləri öz mətin cavabları ilə Şəbinin Haris haqqında dediklərini təkzib etməyə dəvət edirəm.) Elə İbn Abdullah “Camiül-Bəyan”da bu mənaya işarə etmiş və

---

[1] “Nəml” surəsi, 62-ci ayə.

İbrahim Nəxəinin Şəbini açıq-aşkar təkzibini nəql etmişdir:[1] "Mən inanıram ki, Şəbi Haris ibn Həmdani haqqında dediyi "Haris mənə nəql etdi, amma o, yalançının biridir." – sözünün cəzasını çəkəcəkdir. İbn Əbdül-Birr demişdir: "Harisdən yalan söz eşidilməyib. Əliyə (ə) məhəbbət bəsləməkdə ifrata vardığı və onu hamıdan üstün tutduğu üçün ondan qəzəbləniblər və buna görə də Şəbi onu yalançı bilmişdir. Çünki Şəbi bu əqidədədir ki, Əbu Bəkr hamıdan biliklidir və müsəlman olan ilk şəxsdir, həmçinin Ömərin də başqalarından üstün olması fikrindədir...

Mən deyirəm Haris haqqında münasib olmayan (haram, haqsız) söz söyləyənlərdən biri Məhəmməd ibn Səiddir ki, "Təbəqat"ın altıncı cildində onun şərhi-halında demişdir: "Onun pis inam və əqidəsi var." O, şiə şəxsiyyətlərinin elm və əməlləri haqqında insafa riayət etmədiyi kimi, onun da haqqını əda etməkdə səhlənkarlıq etmişdir. Lakin ibn Səidin Haris barədə söylədiyi pis fikir və etiqad həmin Ali-Məhəmmədə sədaqət, onların məqam və mövqelərindən agah olmasıdır. Belə ki, İbn Əbdül-Birr, nəql etdiyimiz kimi, buna işarə etmişdir.

Haris 65-ci hicri-qəməri ildə vəfat etmişdir. Allah rəhmət eləsin.

### *20. Həbib ibn Əbu Sabit Əsədi Kahili Kufi.*

O, tabelərindəndir. İbn Qüteybə "Maarif" kitabinda və Şəhristani "Miləl və Nihəl"də onu şiə şəxsiyyətlərindən hesab etmişdir. Zəhəbi "Mizan"da adını çəkmiş, "Sihahi-Sittə" rəmzini adının kənarında yazmış və bununla da onun hədislərini qəbul etmələrinə işarə etmişdir. "Sihah" yazanların hamısı onun hədislərini nəql etmiş və demişlər ki, İbn Müin və bir çoxları ona etimad etmişlər.

Mən deyirəm Dulabi onu yalnız şiə olduğu üçün mötəbər hesab etməmişdir. Lakin, doğrusu, İbn Övnün əməli məni heyrətləndirmiş və vəhşətə salmışdır, belə ki, Həbibdə eyib axtarmaq üçün bir yol tapmadığından, naçar ürəyi eyib axtarmaq həvəsində olduğundan onu "əvər" (gözü kor) təbiri ilə yad etmişdir. Halbuki gözdəki nöqsan nöqsan deyil, nöqsan nalayiq sözlərdə və söyüşlərdədir.

Siz "Səhih-Buxari" və "Səhih-Müslim"də Həbibin Səid ibn Cübeyr və Əbu Vaildən nəql etdiyi hədisləri müşahidə edə bilərsiniz. Lakin onun Zeyd ibn Vəhəb haqqındakı hədisi yalnız "Səhih-Buxari"də mövcuddur."Səhih-Müslim"də o, Məhəmməd ibn Əli ibn Abdullah İbn Abbas, "Tavus", Zəhhak Məşriqi, Əbül-Abbas ibn Şair, Əbu Minhal Əbdür-Rəhman, Əta ibn Yəsar, İbrahim Səd ibn Əbu Vəqqas və Mücahiddən hədis nəql etmişdir. Onun haqqında Şəbi və Suri vasitəsilə söylənmiş hədislər "Səhih-Müslim" və "Səhih-Buxari"də mövcuddur. "Səhih-Müslim"də yazılanlara əsasən Süleyman Əməş, Həsin Əbdül-Əziz ibn Siyah və Əbu İshaq Şeybani ondan hədis nəql etmişdir.

Həbib hicri-qəməri ilə 119-cu ildə vəfat etmişdir.

### *21. Həsən ibn Həyy.*

Həyyin adı Saleh ibn Saleh Həmədanidir. Deməli, Həsən, Əli ibn Salehin qardaşıdır. Hər ikisi şiənin tanınmış şəxslərindən idi. Bu iki nəfər birlikdə anadan olublar (əkizdirlər), Əli bir qədər Həsəndən tez doğulub.

Heç kəs eşitməyib ki, Həsən onu adı ilə çağırsın, əksinə, həmişə ehtiram əlaməti olaraq künyəsi ilə səsləyib Əbu Məhəmməd deyərmiş və bunu İbn Səd "Təbəqat" kitabının altıncı cildində Əlinin şərhi-halında nəql etmişdir. Zəhəbi özünün "Mizanul-Etidal" kitabında hər

[1] Müasir zamanda beyrutlu Əllamə Əhməd ibn Ömər Məhməsaninin "Müxtəsəri camei bəyanil-elm və fəzlihi" kitabının 196-cı səhifəsində yazıldığı kimi.

ikisindən bəhs etmiş və Həsənin şərhi-halında demişdir: “O tanınmış şəxslərdən biri idi. Rəftarı şiə rəftarı idi.”

O, cümə namazını hökumət tərəfindən təyin olunmuş imamlarla qılmaz və zalım hökumətlərə qarşı qiyam etməyi lazım bilirdi.

İbn Səd “Təbəqat”ın 6-cı cildində onu xatırlayıb demişdir: “O, hədisdə etimad qazanmış, çoxlu hədis nəql etmiş və şiə məzhəbinə mötəqid olmuşdur.” İbn Qüteybə “Maarif” kitabında onu hədis əshabələrindən hesab etmişdir. “Maarif” kitabının axırında şiə şəxslərinin adını çəkəndə Həsəni onların sırasında yazmışdır. Müslim və “sünən” yazıçıları onun hədislərini nəql etmişlər. “Səhih-Müslim”ə əsasən Həsən, “Səmmak ibn Hərb”, “İsmail Südəyy”, “Əli ibn Cüd”, “Əhməd ibn Yunis” və bu təbəqənin başqa böyükləri ondan hədis öyrənmişlər. Zəhəbi “Mizanul-Etidal” kitabında onun şərhi-halında xatırladır ki, İbn Müin və başqaları ona etimad etmişlər və “Abdullah ibn Əhməd” atasından nəql edir ki, Həsən Şərikdən daha dəqiq və mətin idi. Zəhəbi xatırlatmışdır ki, Əbu Hatəm demişdir Həsən etimadlı, hafizəli və mətin idi.” Əbu Zərə demişdir: “Həsən özündə fiqh, ibadət və pəhrizkarlığı cəmləmişdi.” Nisai onu etimadlı bilmiş və Əbu Nəim demişdir: “Səkkiz yüz hədis söyləyəndən hədis yazmış və öyrənmişəm, lakin onların arasında “Həsən ibn Saleh” kimi fəzilətlisini görmədim.” Yenə demişdir: “Həsən ibn Saleh”dən başqa bir kəsi görmədim ki, ən azı bir məsələdə səhv etməmiş olsun.” Übeydə ibn Süleyman demişdir: “Məncə Allah Həsən ibn Salehə (bu qədər pak və saf olduğu üçün) cəza verməz.”

Yəhya ibn Əbu Bəkr, Həsən ibn Salehə dedi: “Meyyit qüslünu bizə şərh et. Həsən çox ağlamağın təsirindən onu izah etməyə qüdrəti olmadı.” Übeydullah ibn Musa deyir: “Mən Həsən ibn Salehə Quran oxuyarkən “kafirlərin cəzası barədə tələsmə...” – (Məryəm surəsi 84-cü ayə) cümləsinə çatanda birdən Həsən (qiyamətin cəzası qorxusundan) yerə yıxıldı. O, yerə sərilib xırıldayan inək kimi xır-xır edirdi. Qardaşı Əli onu qaldırıb, üzünü sildi, su səpdi və silkələdi (yavaş-yavaş təbii halına gəldi).” Vəki demişdir: “Həsən və Əli Salehin oğullarıdır. Bu iki nəfər və anaları gecəni üç hissəyə bölmüşdülər. Hər biri onun üçdə birində ibadət edirdi. Anaları vəfat etdikdən sonra onlar gecəni iki yerə böldülər. Əlinin vəfatından sonra Həsən bütün gecəni oyaq qalıb ibadət edərdi.” Əbu Süleyman Darani deyir: “Heç kəsi görmədim ki, (Allah və axirətdən) üzündəki xof və qorxu Həsənin üzündəki qədər aşkar olsun. O, bir gecə (namazda) “Nəbə” surəsini (axirətdən bəhs edir) deməyə başladı, huşunu itirdi və səhərə qədər onu tamamlaya bilmədi.”

O, 100-cü hicri-qəməri ilində dünyaya gəlmiş və 199-cu ildə dünyanı tərk etmişdir. Allah rəhmət eləsin.

### *22. Həkim ibn Üteybə Kufi.*

İbn Qüteybə açıq-aşkar demişdir: “O, şiədir və “Maarif” kiatbında onu şiə şəxsiyyətlərindən hesab etmişdir.

Buxari və Müslüm onun hidəslərindən dəlillər gətirmişlər. Onun Əbu Cüheyfə, İbrahim Nəxəi, Mücahzid, Səid Bin Cübeyrdən nəql etdiyi hədilsərini “Səhih Buxari” və “Səhih Müslüm” də tapa bilərsiniz.

Və yenə “Səhih Müslüm”də yazılanlara əsasən Əbdür-Rəhman ibn Əbu Leyla, Qasim ibn Müxeymərə, Əbu Saleh, Zərr ibn Abdullah, Səid ibn Əbdür-Rəhman ibn Əbza, Yəhya ibn Cəzzar, Nafe, Mövla ibn Ömər, Əta ibn Əbu Ribah, Əmmarə ibn Ümeyr, Ərak ibn Malik, Şəbi, Meyiun ibn Mehran, Həsən Ərəni, Müsəb ibn Səd, Əli ibn Hüseyndən hədis nəql etmişdir. “Səhih Buxari”yə əsasən yalnız Əbdül Məlik ibn Əbi Ğünyə ondan rəvayət nəql etmişdir. Lakin “Səhih Müslüm”ə əsasən Əməş, Əmr ibn Qeys, Həmzə Zəyyat, Məhəmməd ibn Həcadə, Mütərrif və Əbu Əvanə ondan hədis nəql etmişlər. o, 30 yaşında 115-ci hicri-qəməri ilində vəfat etmişdir.

### *23. Həmmad ibn İsa Cuhəni, “Cöhfə”də qərq olmuşdur.*

Əbu Əli özünün “Müntəhəl-Məqal” kitabında onu xatırlatmışdır. Həsən ibn Əli ibn Davud şəxsiyyətlərin şərhi-halına aid olan “Müxtəsər” kitabında onun şərhi-halını yazmışdır. Şəxsiyyətlərin siyahıları və “Möcəm” yazanların hamısı onu şiə alimi bilmişlər, hamı onu etimadlı, mətin bir şəxs və imamların əshabələrindən hesab etmişlər. O, imam Sadiqdən (ə) yetmiş hədis eşitmiş, amma iyirmidən artıq nəql etməmişdir. Onun elə kitabları vardır ki, şiə alimləri sənədlərlə daim ondan nəql edirlər.

Həmmad ibn İsa bir gün imam Kazimin (ə) hüzuruna nail olub həzrətə ərz etdi: “Sənə qurban olum, Allahdan istə ki, mənə bir ev, övrət, bir oğul, bir xadim və Həcci ömrümün bütün illərində əta etsin.” İmam (ə) əvvəl dedi: “Allahummə səlli əla Muhəmməd və Ali-Muhəmməd. Xudavənda! Ona bir ev, övrət, bir oğul, bir xadim və əlli dəfə Həcci əlli ildə mərhəmət et.” Həmmad deyir: “Əlli dəfə deyəndə başa düşdüm ki, ondan artıq yerinə yetirə bilmərəm. Hazırda qırx səkkiz ildir ki, hər il Həccə gedirəm. Bu da Allahın mənə verdiyi ev, o da pərdənin arxasında oturan övrətim, bu da oğlum, o da xadimim. Bunların hamısı Allahın mənə verdiyi ruzidir.”

O, bu sözdən sonra iki il də Həccə getdi və əlli dəfə Həcci tamam oldu. Bir ildən sonra yenə Əbül-Abbas Nofəli Qəsir ilə Həccə getdi. Ehram üçün (Cöhfədə) qüsl edən zaman sel gəlib onu apardı və qərq oldu.

Vəfatı 209-cu ildə oldu. Allah rəhmət eləsin.

O əslində Kufə əhli idi, lakin Bəsrədə yaşayırdı. Yetmiş ildən çox ömür sürmüşdür. Biz onun şərhi-halını “Müxtəsəril-Kəlam...” (“İslamın əvvəlində şiə müəllifləri haqda qısa söz”) kitabında yazmışıq. Zəhəbi onun hədislərini nəql etmiş, “sünən” yazıçılarına əlamət olaraq “T. Q.” işarəsini onun adının yanında yazmış və demişdir: “O, 208-ci ildə qərq oldu.” Bunu imam Sadiqdən (ə) rəvayət etmişdir. Sonra ona hücum edərək münasib olmayan məsələləri ona aid etmiş, beləliklə, hər kəs şiəliyinə görə onu zəif bilmiş və ona hücum çəkmişdir. Təəccüblüdür ki, Darü-Qütni onu zəif hesab etsə də, lakin özü onun hədislərindən dəlil gətirmişdir. كَذَلِكَ يَفْعَلُونَ Bəli, onların işi belədir.

### *24. Həmran ibn Əyən, Zürarənin qardaşı.*

Hər ikisi şiə məzhəbinin məşhur və tanınmış şəxslərindən olub, şəriət və Quranı bilən, Ali-Məhəmmədin (s) elm dəryası, qaranlıqda çıraqları və hidayət bayraqları idilər.

Bu iki nəfər imam Baqir (ə) və imam Sadiqə (ə) möhkəm bağlı olub, Ali-Məhəmməd (ə) imamlarının qarşısında yüksək məqama malik idilər. Lakin Həmran haqqında Zəhəbi “Mizanul-Etidal” kitabında yazmış və adının yanında “Q.” rəmzini qoymaqla “sünən” əshabələrindən onun xəbərlərini nəql edən şəxsə işarə etmişdir. Sonra əlavə etmişdir ki, o, Əbu Tüfeyl və başqalarından hədis nəql etmiş və Həmzə Quranı onun yanında öyrənmişdir. O, Qurana tam agah idi.” İbn Müin onun haqqında deyib: “Mühüm deyildir.” Əbu Hatəm deyib: “O, ustad və böyük şəxsdir.” Əbu Davud deyibdir ki: “O rafizidir...”

## *“Xa”*

### *25. Xalid ibn Müxəlləd Qətvani Əbu Heysəm Kufi.*

O, Buxarinin “Səhih” də ustadı və şeyxidir. İbn Səd onun şərhi-halını “Təbəqat”ın altıncı cildinin 283-cü səhifəsində yazmış və demişdir: “O, açıq şəkildə şiə olduğunu bəyan edirdi. O, 213-cü il Məhərrəm ayının ortalarında Məmunun hökmranlığı zamanı Kufədə vəfat etdi. Şiəlikdə ifrata varmış, bir neçə nəfər ondan hədis öyrənmiş və yazmışlar...” Əbu Davud onun haqqında demişdir: “Çox düzdanışandır, lakin şiədir.”

Cüzcani demişdir: “O, açıq və qorxmadan öz müxaliflərini pisləyir, özünün pis məzhəbi (şiə məzhəbi) haqqında hər yerdə açıq şəkildə danışır və onu müdafiə edirdi. Zəhəbi onun şərhi-halını yazmış və İbn Davud və Cüzcanidən nəql etdiyimizi qeyd etmişdir. Müslim və Buxari “Səhih”lərində yeri gəldikcə hədislərindən dəlillər gətirmişlər. Onun Müğeyrə ibn Əbdür-Rəhmandan nəql etdiyi hədisləri, “Səhih-Buxari” və Məhəmməd ibn Cəfər ibn Əbu Kəsir, Malik ibn Ənəs, Məhəmməd ibn Musadan nəql etdiyi hədisləri “Səhih-Müslimdə müşahidə edə bilərsiniz. Lakin Süleyman ibn Bilal və Əli ibn Müshərdən nəql etdiyi hədislər hər iki Səhihdə mövcuddur. Buxari heç bir vasitə olmadan öz “Səhih”inin müxtəlif yerlərində ondan hədis nəql etmiş və Məhəmməd ibn Osman ibn Kəramə vasitəsilə ondan iki hədis qeydə almışdır.

Müslim də Əbu Küreyb, Əhməd ibn Osman Udi, Qasim ibn Zəkəriyya, Ədi ibn Həmid, İbn Əbu Şeybə və Məhəmməd ibn Abdullah ibn Nümeyr vasitəsilə ondan hədis nəql etmişdir. “Sünən” yazıçılarının hamısı onun hədislərindən dəlil gətirmişlər və məzhəbindən də yaxşı agahdırlar.

## *“Dal”*

### *26. Davud ibn Əbu Ovf Əbül-Cəhaf.*

İbn Ədi demişdir: “O, elə şəxslərdən deyildir ki, mən hədislərindən dəlil gətirəm, çünki o, şiədir və bütün rəvayətləri Əhli-beytin fəzilətlərinə aiddir...”

Fikirləş və təəccüb et! Süfyan Suri, Süfyan ibn Üyeynə, Əli ibn Abis və bu təbəqədən olan başqa rəhbərlər ondan hədis öyrənəndən sonra, doğrusu Nasibilərin (xüsusi əqidəyə malik olan bir qrup Əhli-beyt düşmənləri) sözü Davuda nə zərər yetirə bilər? Əhməd və Yəhya onu etimadlı biliblər. Nisai demişdir: “Nöqsanı yoxdur.” Hatəm demişdir: “Hədis nəql etməkdə düzdür.” Zəhəbi “Mizanul-Etidal” kitabında şərhi-halını yazmış və haqqında dediklərimizi nəql etmişdir.

“Sünəni-Əbu Davud” və “Sünəni-Nisai”də Əbu Həzim Əşcəi, Əkrəmə və başqalarından nəql etdiyi hədisləri oxuya bilərsiniz.

## *“Zal”*

### *27. Zübeyd ibn Haris ibn Əbdül-Kərim Yami Əbu Əbdür-Rəhman.*

Kufəlidir. Zəhəbi “Mizanul-Etidal”da adını çəkmiş və demişdir: “O, tabeinlərdən və şiələrin etibarlı şəxslərindəndir.” Sonra Qəttandan belə nəql edir: “O, dəqiq şəxsdir.” “Cərh və tədil” elminin (ravilərin yaxşı və pisliklərini müəyyən edən elm) bir sıra alimlərinin onu etimadlı bildiklərini nəql etmişdir.

Əbu İshaq Cüzcani onun haqqında bir sıra yerli-yersiz sözlər demişdir (belə ki, onun və digər nasibilərin adəti belədir): “Bir dəstə Kufə əhlinin məzhəbi camaat xalq tərəfindən qəbul olunmur. (Halbuki onlar) Əbu İshaq, Mənsur, Zübeyd Yami, Əməş kimiləridir ki, Kufə hədis yazanlarının başçılarıdır. Lakin düzdanışan və sədaqətli olduqları üçün camaat məcbur qalıb onları hədisdə etimad edir, amma “mürsəl” şəkildə (sənəd və ya sənədin müəyyən hissəsi olmayan) nəql etdikləri hədislərinə gəldikdə dayanırlar (şübhə edirlər).

Mülahizə edirsiniz ki, nəhayət haqq onun öz dili ilə yerini tapmışdır – haqq həmişə ya insaflı adamın, ya da düşmənin dili ilə qorunur. Doğrusu, onlar İslamda hədis yazanların rəhbərləri olduqları halda hansı irad onlara ziyan yetirə bilər? Doğrusu, qapılarında dayanıb onların elm, fəzl süfrələrindən ummağa möhtac olan bir nasibi Allah rəsulunun “səqəleyn”inə, onun “Hittə qapısı”na, Həzrətdən (s) sonra yer əhlinin əmin-aman yerinə və onun ümmətinin nicat gəmisinə mötəqid olanların məzhəbini bəyənməyərsə, onda onlar da əlbəttə, belələrinə əhəmiyyət verməzlər. Şair yaxşı deyib:

«اِذا رَضِيَتْ عَنّي كِرامُ عَشيرَتي فَلا زالَ غَضْباناً عَلَيَّ لِئامُها» “Tayfamın səxavətli, möhtərəm adamları məndən razı qaldıqları halda, alçaq adamlarının mənə qarşı kin-küdurətindən bir qorxum yoxdur.”

“Sihah” və “sünən” yazanların hamısı onların hədislərindən dəlillər gətirəndən sonra daha Cüzcaniyə və onun kimilərə etina etməyəcəklər. “Səhih-Buxari” və “Səhih-Müslim” əlinizdədir, Zübeydin Əbu Vail, Şəbi, İbrahim Nəxəi və Səd ibn Übeydədən nəql etdiyi hədisləri oxuya bilərsiniz. Amma Mücahiddən söylədiyi hədis yalnız “Səhih-Buxari”də mövcuddur. “Səhih-Müslim”də və onun Mürrə Həmdani, Müharib ibn Disar, İmarə ibn Ümeyr və İbrahim Teymi haqqındakı rəvayətlərini görmək və mütaliə etməyə dəyər. Şəbi, Suri və Məhəmməd ibn Təlhənin ondan nəql etdikləri hədislər “Səhih-Buxari” və “Səhih-Müslim”də vardır. Yenə də Züheyr ibn Müaviyə, Füzeyl ibn Qəzvan və Hüseyn Nəxəinin ondan söylədikləri rəvayətləri “Səhih-Müslim”də tapmaq olar.

Zübeyd 124-cü ildə rəhmətə gedib.

### *28. Zeyd ibn Hübab Əbül-Həsən Təmimi Kufi.*

İbn Qüteybə “Maarif” kitabında onu şiə hesab etmişdir. Zəhəbi “Mizanul-Etidal” kitabında onun adını çəkmiş, Abid, Siğə və Səduq kimi vəsf etmişdir. Onun etimadlı olmasını İbn Müin və ibn Mədini tərəfindən nəql etmişdir. Əbu Hatəm və Əhməd onun düzdanışan olduğunu qeyd etmişlər. Yenə İbn Ədinin sözü ilə yazır: “Zeyd ibn Hübab ən pak kufəlilərdəndir ki, düzdanışan olmasına şübhə yoxdur.”

Mən deyirəm, Müslim onun hədislərindən dəlillər gətirmişdir. Onun Müaviyə ibn Saleh, Zəhhak ibn Osman, Qürrə ibn Xalid, İbrahim ibn Nafe, Yəhya ibn Əyyub, Seyf ibn Süleyman, Həsən ibn Vaqid, Əkrəmə ibn Əmmar, Əbdül-Əziz ibn Əbu Sələmə və Əfləh ibn Səiddən nəql etdiyi hədislər “Səhih-Müslim”də vardır. Yenə İbn Əbu Şeybə, Məhəmməd ibn Hatəm, Həsən Həlvani, Əhməd ibn Münzir, İbn Nümeyr, İbn Küreyb, Məhəmməd ibn Rafe, Züheyr ibn Hərb və Məhəmməd ibn Fərəcin ondan nəql etdikləri rəvayətləri orada görə bilərsiniz.

## *“Sin”*

### *29. Salim ibn Əbül-Cəd Əşcəi Kufi. Übeyd, Ziyad, İmran və Müslim qardaşları olub, atası Əbül-Cəddir.*

İbn Səd “Təbəqat”ın altıncı cildinin 203-cü səhifəsində onların hamısını xatırlamışdır. Müslimin şərhi-halında yazır: “Əbül-Cədin altı oğlu vardı ki, onlardan ikisi şiə idi, Salim və Übeyd. Onlardan ikisi də “mürciə” əqidəsini qəbul etmiş və iki nəfəri də Xəvaricin fikirlərinə

inanırdı. Atası həmişə onlara deyərdi: Oğullarım, nə olubdur ki, Allah aranızda ixtilaf salıbdır?[1]"

Bir dəstə böyük şəxsiyyətlər və alimlər Salim ibn Əbül-Cədin şiə olmasını aydın şəkildə qeyd etmişlər. İbn Qüteybə "Maarif" kitabının 206-cı səhifəsində onu şiə hesab etmişdir. Şəhristani "Miləl və Nihəl" kitabında onu şiə bilmişdir. Zəhəbi "Mizanul-Etidal" kitabında Salimi tabeinlərin etimadlı şəxsi hesab edərək xatırlamışdır ki, onun Nöman ibn Bəşir və Cabirdən nəql etdiyi hədisləri "Səhih-Buxari" və "Səhih-Müslim"də vardır.

Mən deyirəm ki, onun Ənəs ibn Malik və Küreybdən nəql etdiyi hədislərini "Səhih-Buxari" və "Səhih-Müslim"də vardır və bu da tədqiqatçılara gizli deyildir. Zəhəbi deyir: "Onun Abdullah ibn Əmr və İbn Ömərdən nəql etdiyi hədisləri "Səhih-Buxari"də müşahidə etmək olar.

Mən deyirəm ki, onun Ümmi Dərdadan nəql etdiyi hədisləri "Səhih-Buxari"də mövcuddur və "Səhih-Müslim"də Mədan ibn Əbu Təlhədən və atasından nəql etdiyi hədisləri görmək olar. Əməş, Qütadə, Əmr ibn Mürrə, Mənsur, Həsin ibn Əbdür-Rəhmanın ondan öyrəndikləri rəvayətlər "Səhih-Müslim" və "Səhih-Buxari"də mövcuddur. Onun Əlidən nəql etdiyi hədisləri Nisai və Əbu Davud öz "Sünən"lərində yazıblar.

O, 97-98-ci ildə Süleyman ibn Əbdül-Məlikin hökmranlığı dövründə vəfat etmiş və 100 yaxud 101-ci il Ömər ibn Əbdül-Əzizin hökmranlığı vaxtı vəfat etdiyi də deyilmişdir. Allah daha doğrusunu bilir.

### *30. Salim ibn Əbu Həfsə İcli Kufi.*

Şəhristani "Miləl və Nihəl" kitabında onu şiə hesab etmiş və Fəlas demişdir: "Zəifdir və şiəlikdə ifrata varmışdır..." İbn Ədi demişdir ki, Peyğəmbərin (s) Əhli-beyti haqqında ifrata vardığı üçün ona eyib tutublar, lakin mənim nəzərimdə eyibsizdir. Məhəmməd ibn Bəşir Əbdi deyir: "Salim ibn Əbu Həfsəni axmaq və uzun saqqallı gördüm, özü də necə! Deyirdi: Arzum budur ki, hər şeydə Əli əleyhissalamla şərik olam." Hüseyn ibn Əli Cöfi demişdir: "Salim ibn Əbu Həfsəni uzun saqqallı və axmaq gördüm. Həmişə deyirdi: Ləbbeyk, ey Nəsəli öldürən, ləbbeyk, ey bəni-Üməyyəni öldürən, ləbbeyk!" Əmr ibn Zərr Salim ibn Həfsəyə demişdi: "Sən Osmanı öldürübsən!" Cavab verdi: "Mən?" Dedi: "Bəli, çünki sən onun qətlinə razısan." Əli ibn Mədəni deyir: "Cərirdən eşitdim ki, deyirdi: Salim ibn Həfsəni tərk etdim (ondan uzaqlaşdım), çünki şiəliyi müdafiə edirdi." Zəhəbi şərhi-halını yazmış və dediklərimizi qeyd etmişdir. İbn Səd "Təbəqat" kitabının altıncı cildinin 234-cü səhifəsində onun şərhi-halını yazmış və nəql etmişdir ki, o şiə məzhəbinə mənsub, inadkar şəxs idi. Salim, Bəni-Abbasın zamanında Məkkəyə gedəndə "Ləbbeyk, ləbbeyk ey bəni Üməyyəni öldürən, ləbbeyk!" – deyərkən onun gur və uca səsi hər yeri bürümüşdü. Onun səsi Davud ibn Əlinin qulağına çatanda soruşdu: "O kimdir?" Dedilər ki, Salim ibn Həfsədir və əqidəsi və fikrindən onu agah etdilər.

Zəhəbi "Mizanul-Etidal"da onun şərhi-halında yazır: "O, Əbu Bəkr və Ömərə irad tutanlardan və tənqid edənlərin başçılarından idi. Buna baxmayaraq Süfyan Suri, Süfyan ibn Üyeynə və Məhəmməd ibn Füzeyl ondan hədis öyrənmişlər və İbn Müin ona etimad etmişdir.

O, 137-ci ildə vəfat etmişdir.

### *31. Səd ibn Tərif İskaf Hənzəli Kufi.*

---

[1] İbn Qüteybə də "tabein" babında onları yazmış və bu məsələni "Maarif" kitabının 165-ci səhifəsində qeyd etmişdir.

Səd ibn Tarifin şərhi-halını Zəhəbi yazmış və “T. Q.” əlamətini adının kənarında qeyd etməklə ondan hədis nəql edən “sünən” yazıçılarına işarə etmiş və Fəlasdan nəql etmişdir ki, o, zəifdir və şiəlikdə ifrata varmışdır.

Mən deyirəm: Amma şiəlikdəki ifratı Tirmizi və başqalarının ondan hədis nəql etmələrinə mane olmamışdır. Buna görə də Əkrəmə, Əbu Vail, Əsbət ibn Nübatə, İmran ibn Təlhə və Ümeyr ibn Məmundan nəql etdiyi hədisləri və habelə onun haqqında İsrail, Həban, Əbu Müaviyənin nəql etdiyi rəvayətləri “Səhih-Tirmizi”də oxuya bilərsiniz.

### *32. Səid ibn Əşvə.*

Zəhəbi “Mizanul-Etidal” kitabında onun haqqında demişdir: “Səid ibn Əşvə “Sh.–sad, ha” “X.” “M.” Kufənin qazisi, düzdanışmaqda məşhurdur.” Nisai demişdir: “O, eyibsizdir. Səid ibn Əmr ibn Əşvə, Şəbinin yoldaşıdır.” Cüzcani yazmışdır: “O, yolunu azmış, inadkar, şiəlikdə qatı ifrata varandır...”

Mən deyirəm: Buxari və Müslim öz səhihlərində hədislərinə istinad edirlər və onun Şəbidən nəql etdiyi hədis hər iki Səhihdə mövcuddur. Zəkəriyya ibn Əbu Zaidə və Xalid Həzza “Buxari” və “Müslim”də olan rəvayəti nəql ediblər. O, Xalid ibn Abdullahın hakimiyyəti zamanında vəfat etmişdir.

### *33. Səid ibn Xeysəm Hilali.*

İbrahim ibn Abdullah ibn Cüneyd deyir: “Yəhya ibn Müinə dedilər: Səid ibn Xeysəm şiədir. Onun haqqında fikriniz nədir? Cavab verdi: Şiə olsun! O, etimadlı adamdır.” Zəhəbi “Mizanul-Etidal”da onun adını çəkmiş, bu eşitdiyim sözləri həmin məzmunda İbn Müindən nəql etmişdir. “T.” və “N.” rəmzlərini adının yanında yazmaqla öz səhihlərində Səid ibn Xeysəmin hədislərindən nəql etdiklərinə işarə etmişdir.

Zəhəbi xatırlamışdır ki, o, Yəzid ibn Əbu Ziyad və Müslim Mollaidən rəvayət nəql etmiş və qardaşı oğlu Əhməd ibn Rəşid ondan rəvayət nəql etmişdir.

### *34. Sələmə ibn Fəzl Əbrəş, Rey şəhərinin qazisi.*

O, İbn İshaqın “Məğazi” (cənglər) kitabının rəvayətçisidir. Künyəsi Əbu Abdullahdır.

“Mizanül-Etidal”da Sələmənin şərhi-halında yazıldığı kimi, İbn Müin demişdir: “Rey əhlindən olan Sələmə Əbrəş şiə olmuş və bir çox kitablarda ondan rəvayətlər nəql etmişlər ki, onları qəbul etmək olar.” Əbu Zərə yenə “Mizan”da olduğu kimi, deyir: “Rey camaatı pis əqidəsinə görə onu sevmirdilər (ondan xoşları gəlmirdi).”

Mən deyirəm: Onu sevməməyin səbəbi, onların Peyğəmbərin Əhli-beyti haqqındakı pis fikir və əqidələri olmuşdur.

Zəhəbi “Mizanül-Etidal” kitabında onun haqqında yazmış və “Əbu Davud” və “Tirmizi” rəmzini adının yanında qeyd etməklə ona etimad edərək hədislərini öz kitablarında yazdıqlarını bildirmişdir. Zəhəbi deyir: “O, təqvalı və ibadətkar adam idi. O, 191-ci hicri-qəməri ilində vəfat etmişdir.”

O, İbn Müindən nəql edir ki, biz ondan bir çox məsələləri öyrənmiş və yazmışıq və onun “Məğazi” (cənglər) kitabından mükəmməl bir kitab yoxdur.

Zənic deyir: “Sələmədən eşitdim deyir: “Məğazi” kitabını iki dəfə İbn İshaqdan eşidib öyrəndim və “Məğazi”nin özü qədər ondan hədis öyrənib yazdım.”

### *35. Sələmə ibn Küheyl ibn Həsin ibn Kadih ibn Əsəd Xəzrəmi, künyəsi Əbu Yəhyadır.*

Sünni alimlərinin bir qismi, o cümlədən İbn Qüteybə “Maarif” kitabının 206-cı səhifəsində və Şəhristani “Miləl və Nihəl”in 2-ci cildinin 27-ci səhifəsində onu şiə şəxsiyyətlərindən hesab etmişlər. “Sihahi Sittə” yazanlar və başqaları hədislərindən dəlil gətirmişlər.

Buxari və Müslimə görə o, Əbu Cüheyfə, Süveyd ibn Qəflə, Şöbə və Əta ibn Əbu Ribahdan hədis eşitmiş və öyrənmişdir. Buxarinin fikrincə, o yalnız Cündəb ibn Abdullahdan və Müslimin fikrincə Küreyb, Zərr ibn Abdullah, Bükeyr ibn Əşəc, Zeyd ibn Kəb, Səid ibn Cübeyr, Mücahid, Əbdür-Rəhman ibn Yəzid, Əbu Sələmə ibn Əbdür-Rəhman, Müaviyə ibn Süveyd, Həbib ibn Abdullah və Müslim Bətindən hədis eşitmişdir. Müslim və Buxarinin fikrincə, Suri və Şəbi ondan rəvayət nəql etmişlər. Buxariyə görə yalnız İsmail ibn Xalid və Müslimə görə Səid ibn Məsruq, Əqil ibn Xalid, Əbdül-Məlik ibn Əbu Süleyman, Əli ibn Saleh, Zeyd ibn Əbu Ənisə, Həmmad ibn Sələmə və Vəlid ibn Hərb ondan hədis nəql etmişlər.

O, 121-ci hicri-qəməri ilinin Aşura günündə vəfat etmişdir.

### *36. Süleyman ibn Sürəd Xüzai Kufi.*

O, öz dövründə İraqın adlı-sanlı şiələrindən olmuşdur. Hamı onunla məsləhətləşirdi. Belə ki, İraq şiələri imam Hüseynə (ə) məktub yazarkən onun evinə toplaşmışdılar, O, “təvvabin” (imam Hüseynə (ə) yardım etmədiklərindən peşman olanlar) əmiri və sərkərdəsi, imam Hüseynin (ə) qanını (intiqamını) almaq istəyənlərdən idi. Dörd mindən ibarət imam Hüseynin (ə) intiqamını almaq istəyən bu qoşun 65-ci ilin rəbiüs-sani ayının ilk günündə “Nüxeylə”də düşərgə qurmuş və oradan Übeydullahın döyüşünə səfərbər edilmiş, “Əl-cəzirə” (Əlcəzair) ölkəsində onlarla üzləşmiş və qızğın döyüşdə hamı həlak olmuşdur. Süleyman özü “Eynül-Bərdə” mahalında Yəzid ibn Həsin ibn Nümeyrin oxu ilə şəhadət şərbətini içmişdir. Bu vaxt onun 93 yaşı var idi. Onun və Müseyyib ibn Nəcbənin başını Mərvan ibn Həkəm üçün göndərmişdilər.

Onun şərhi-halını İbn Səd “Təbəqat”ın altıncı cildində, İbn Həcər Əl-İsabənin birinci cildində, İbn Əbdül-Birr “İstiab”da və şərhi-hal yazanların hamısı onu xatırlamış və hamı ona fəziləti, dini və ibadətinə görə ehtiram etmişlər. O, yüksək xüsusiyyətlərə malik, xüsusi şərafət və məqamı olan bir şəxs idi və öz qəbiləsi arasında sözünün xüsusi təsiri vardı. Əmirəl-mömininin düşməni Hövşəbi “Siffeyn” döyüşündə qətlə yetirən də o idi.

O, Əhli-beyt (ə) düşmənlərini yollarını azmışlardan hesab edirdi.

Hədis yazanlar onun hədislərini nəql etmişlər. Onun Peyğəmbər (s) haqqındakı hədisləri vasitəsiz və ya Cübeyr ibn Mütəm vasitəsilə “Səhih-Buxari” və “Səhih-Müslim”də vardır.”Səhih-Müslim”də yazılanlara əsasən, Əbu İshaq Səbii və Ədi ibn Sabit ondan hədis nəql etmişlər. Süleyman bu iki kitabda yazılanlardan başqa Əmirəl-möminin (ə)”, İmam Müctəba (ə) və Übeyydən rəvayət nəql etmiş və bunlardan əlavə Yəhya ibn Yəmur, “Abdullah ibn Yəsar” və başqaları ondan hədis nəql etmişlər.

### *37. Süleyman ibn Tərxan Teymi Bəsri, Qeysin mövlası, rəhbəri, etimadlı və görkəmli şəxslərdən biridir.*

İbn Qüteybə “Maarif” kitabında onu şiə şəxsiyyətlərindən hesab etmiş və “Sihahi-Sittə”nin müəllifləri və başqaları hədislərindən dəlillər gətirmişlər. Onun Ənəs ibn Malik, Əbu Məcaz, Bəkr ibn Abdullah, Qütadə və Əbu Osman Nəhdidən nəql etdiyi hədisləri “Səhih-Buxari” və “Səhih-Müslimdə görə bilərsiniz. Bu saydıqlarımızdan əlavə, bir sıra başqa şəxslər haqqında da hədis nəql etmişdir.

“Səhih-Müslim” və “Səhih-Buxari”də yazılanlara əsasən oğlu Müəmmər, Şöbə və Suri ondan rəvayət söyləmişlər. “Səhih-Müslim”ə əsasən, bir qrup adamlar ondan hədis söyləmişlər.

O, 143-cü ildə vəfat etmişdir.

### *38. Süleyman ibn Qərm ibn Məa Əbu Davud Zəbbi Kufi.*

İbn Həssan –“Mizanul-Etidal”da Süleymanın şərhi-halında yazıldığı kimi– onu yad etmiş və demişdir: “O, ifrata varmış rafizi idi.”

Mən deyirəm: Əhməd Hənbəl onu etimadlı hesab etmiş və İbn Əli –“Mizan” kitabında Süleymanın şərhi-halının sonunda yazıldığı kimi– deyir: “Süleyman ibn Qərmin hədisləri yaxşıdır. O, Süleyman ibn Ərqəmdən çox üstündür.

Mən deyirəm: “Onun hədislərini Müslim, Nisai, Tirmizi və Əbu Davud “Səhih”lərində yazmışlar. Zəhəbi “Mizanul-Etidal”da onun şərhi-halını yazanda adının yanında onların rəmzlərini qoymuşdur. Siz “Səhih-Müslim”də Əbül-Cəvabın Süleyman ibn Qərm və Əməşin Peyğəmbərdən (s) “mərfu” şəkildə çatmış hədisini görə bilərsiniz. Həzrət buyurmuşdur: «المرء مع من احبّ» “İnsan o kəslə (qiyamətə gələcək) ki, onu sevsin.” Yenə onun “sünən” kitablarında “Sabit” və Ənəsdən Peyğəmbərdən (s) “mərfu” hədisi vardır ki, deyilir: «طلب العلم فريضةٌ علي كلّ مسلم» “Elm öyrənmək hər bir müsəlmana vacibdir.” Yenə o, Əməş, Əmr ibn Mürrə, Abdullah ibn Haris, Züheyr ibn Əqmər və Abdullah ibn Əmrdən belə nəql etmişdir: “Həkəm ibn Əbül-As Peyğəmbəri yamsılayaraq o həzrətin sözlərini Qüreyşə nəql edirdi. Peyğəmbər isə ona və qiyamət gününədək əmələ gələn bütün nəslinə lənət və nifrin etdi.”

### *39. Süleyman ibn Mehran Kahili Əməş Kufi.*

Şiələrin böyük şeyxlərindən və hədis yazan görkəmli şəxslərdən biridir. Sünnə əhlinin bir sıra başçıları onu şiə hesab etmişlərr. İbn Qüteybə “Maarif” kitabında, Şəhristani “Miləl və Nihəl”də və başqaları bu həqiqəti etiraf etmişlər.

Cüzcani, “Mizanul-Etidal” kitabında Zübeydin şərhi-halında yazıldığı kimi – deyir: “Bir dəstə Kufə əhlindən vardırlar ki, camaat onların məzhəblərinə sitayiş etmir və onlar hədis yazanların başçılarıdır.” Misal üçün Əbu İshaq, Mənsur, Zübeyd Yami, Əməş və yaşıdları və qohumlarını göstərmək olar ki, camaat (çarəsizlikdən) hədisdə doğru danışdıqları üçün onları qəbul etmişdilər!”

Bundan sonra onlar haqqında dediyi sözləri isə özünün axmaqlığına dəlalət edən sözlərdir. Lakin Peyğəmbərin (s) iki qiymətli əmanəti olan “səqəleyn”i özünə rəhbər bilənlər və o həzrətin yaxınlarına məhəbbət bəsləyənlərə bu yersiz iradlar ləkə gətirə bilməz. Nasibilərin onların məzhəbinə sitayiş edib-etməmələrinin bir qorxusu yoxdur. Bunu da deməliyik ki, nasibilər onları qəbul etməkdə yalnız doğru danışdıqlarına deyil, əksinə, onlara ehtiyaclı olduqları üçün dözməyə məcbur olublar. Çünki, əgər onların hədislərini rədd etsəydilər, peyğəmbərliyə aid bütün əsərlər məhv olardı. Belə ki, Zəhəbi “Mizanul-Etidal”da Əban ibn Təğləbin şərhi-halında bunu etiraf etmişdir.

Mən belə güman edirəm, Müğeyrənin dediyi “Kufə əhlini sizin Əbu İshaq və Əməş həlak etdi!” – sözləri yalnız buna görə idi ki, onlar şiə idilər. Əbu İshaq və Əməş Peyğəmbərin (s) elm dəryaları, dininin qoruyucuları olmuşlar. Əməşin həyatında onun əzəmət və böyüklüyünü əks etdirən gerçəkliklər çoxdur. O cümlədən:

1. İbn Xəllikan “Vəfəbatül-Əyan” kitabında onun şərhi-halında yazır: “Hişam ibn Əbdül-Məlik, Əməşin yanına bir qasid göndərir ki, Osmanın hünərlərivə Əlinin pisliklərini yazsın!” Əməş məktubu alıb onu qoyunun ağzına qoyandan sonra Hişamın elçisinə deyir: “Hişam ibn Əbdül-Məlikə de ki, sənin cavabın budur.” Elçi deyir: “Hişam and içib ki, əgər cavabsız qayıtsam məni öldürəcəkdir.” O, Əməşin dostları və qardaşlarından xahiş etdi ki, onu cavab yazmağa məcbur etsinlər. Çoxlu isrardan sonra o, belə yazdı: “Bismillahir-Rəhmanir-Rəhim. Əgər Osman bütün yer üzü əhlinin hünərlərinə malik olsa belə sənə onun faydası yoxdur və

əgər Əli (Allah eləməmiş) bütün dünyanın pisliyini qazansa belə sənə zərəri olmayacaqdır. Belə isə, özünə diqqət yetir və öz aqibətin haqda fikirləş. Vəssalam.”

2. İbn Əbdül-Birr[1] “Camiu bəyanil-elmi və fəzlih” kitabının “ Alimlərin digər alimlər haqqında sözləri” babında Əli ibn Xəşrəmdən belə nəql edir:

Fəzl ibn Musadan eşitdim ki, deyirdi: “Əbu Hənifə ilə Əməşin görüşünə getdik. Əbu Hənifə ona dedi ki, əgər sənə zəhmət olmasaydı, görüşünə daha çox gələrdim! Əməş cavab verdi: Allaha and olsun, sən öz evində də olsan mənə əziyyətdir, o da qalmış ki, üzünü görəm.”

İbn Xəşrəm deyir: “Fəzl dedi ki, onun evindən çıxan zaman Əbu Hənifə belə dedi: Əməş Ramazan ayında heç vaxt oruc tutmayıb. İbn Xəşrəm deyir: Fəzldən soruşdum: Əbu Hənifənin bu sözü deməkdə məqsədi nə idi? Fəzl cavab verdi: Məqsədi bu idi ki, o, səhər yeməyini Hüzeyfənin hədisinə əsasən yeyir.”

Mən deyirəm: Əksinə, o, bu ayəyə əməl edirdi: وَكُلُواْ وَاشْرَبُواْ حَتَّى يَتَبَيَّنَ لَكُمُ الْخَيْطُ الأَبْيَضُ مِنَ الْخَيْطِ الأَسْوَدِ مِنَ الْفَجْرِ ثُمَّ أَتِمُّواْ الصِّيَامَ إِلَى الَّليْلِ “...Sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib-için, sonra gecəyə qədər orucunuzu tamamlayın.” (“Bəqərə”, 187)

3. “Vəcizə” və “Biharul-Ənvar”da Həsən ibn Səid Nəxəi, o da Şərik ibn Abdullah Qazidən nəql edir ki, Əməş xəstə olanda onun yanına getdim (həmin xəstəlikdən vəfat etdi). Şəbrəmə, İbn Əbu Leyla və Əbu Hənifə də onun görüşünə gəlmişdilər. Halını soruşanda çox zəif olduğunu bildirdi və öz günah və səhvlərindən çox qorxub ağlamağa başladı. Əbu Hənifə üzünü ona tərəf tutub dedi: “Ey Əba Məhəmməd, Allahdan qorx, özünə gəl, halına diqqət yetir. Sən Əli (ə) haqqında hədislər deyərdin, əgər onlardan inkar etsən (dönsən), sənə yaxşı olar.” Əməş ona cavab verdi: Sən bunu mənə deyirsən? Sonra onu özündən kənar edib söydü ki, deməyə ehtiyac yoxdur.

O, –Zəhəbi “Mizanul-Etidal”da dediyi kimi– etimadlı və imanlı şəxslərdən biri olmuşdur. İbn Xəlləkan Vəfayətul-Əyanda şərhi-halında deyir: “O, etimadlı, fazil alim idi.” “Sihahi-Sittə”nin müəllifləri və başqaları hədislərindən dəlillər gətirmişlər. Onun Zeyd ibn Vəhəb, Səid ibn Cübeyr, Müslim Bətin, Şəbi, Mücahid, Əbu Vai, İbrahim Nəxəi və Əbu Saleh Zikrandan nəql etdiyi hədisləri və habelə Şəbi, Suri, İbn Üyəynə, Əbu Müaviyə Məhəmməd, Əbu Əvanə, Cərir və Həfs ibn Qiyasın ondan nəql etdikləri hədisləri “Səhih-Buxari” və “Səhih-Müslim”də mülahizə edə bilərsiniz.

Əməş 61-ci ildə anadan olmuş və 148-ci ildə vəfat etmişdir. Allah rəhmət eləsin.

## *“Şin”*

### *40. Şərik ibn Abdullah ibn Sənan ibn Ənəs Nəxəi Kufi, qazi (hakim) və imam.*

İbn Qüteybə onu şiə şəxsiyyətlərindən hesab etmiş və özünün “Maarif” kitabında şiə olduğunu təsdiq etmişdir. Abdullah ibn İdris –“Mizanul-Etidal”da Şərikin şərhi-halının sonlarında yazıldığı kimi– Allaha and içmişdir ki, Şərik şiədir. Əbu Davud Rəhavi, (“Mizanul-Etidal”da yazıldığı kimi) Şərikdən belə eşitmişdir: «عَلِيٌّ خَيْرُ الْبَشَر فَمَنْ اَبي فَقَدْ كَفَر» “Əli insanların ən yaxşısıdır və bu sözü qəbul etməyən kəs kafirdir.”[2]

---

[1] Əhməd ibn Ömər Məhməsani Beyrutinin bu kitabının müxtəsərinin 119-cu səhifəsinə müraciət edin.

[2] İbn Ədiy deyir: Kufə əhli olan Hüseyn ibn Əli Səkuni, Məhəmməd ibn Həsən Səkuni, Saleh ibn Əsvəd Əməşdən və Ətiyyədən bizə nəql etmişlər: “Cabirdən soruşdum ki, sizin aranızda Əlinin (ə) məqamı necədir? Cabir cavab verdi: O, insanların ən yaxşısıdır.”

Mən deyirəm: Onun məqsədi budur ki, o həzrət –şiənin əqidəsinə görə– Allahın rəsulundan sonra ən üstün insandır. Buna görə də Cüzcani onu (Şərik ibn Abdullah) yolundan azmış bir şəxs kimi vəsf etmişdir. Əlbəttə, onun Əhli-beyt (ə) tərəfə yönəlməsinə şübhə yoxdur. Şərik Əlinin xilafətinə mötəqid və onu nəql edənlərdəndir. “Mizanul-Etidal”da deyildiyi kimi, Əbu Rəbiə Əyadi, İbn Büreydədən, o da öz atasından “məruf” şəkildə belə nəql etmişdir: «لِكُلِّ نَبِيٍّ وَصِيٌّ وَوارِثٌ وَ إنَّ عَلِيّاً وَصِيّي وَ وارِثي» “Hər bir peyğəmbərin vəsi və varisi var, Əli də mənim vəsim və varisimdir.”

Şərik Əmirəl-mömininin fəzilətləri və hünərlərini yaymaqla Bəni-Üməyyənin burnunu ovmaq istəyirdi. Həriri “Dürrətül-Qəvvas” kitabında (İbn Xəlləkanın “Vəfayətül-Əyan” kitabında Şərikin şərhi-halında deyildiyi kimi) yazmışdır: “Şərikin Bəni-Üməyyədən olan bir dostu var idi. Bir gün Şərik imam Əli ibn Əbu Talibin (ə) fəzilətlərindən danışarkən əməvi dostu dedi: «نِعمَ الرّجل عليّ» Əli yaxşı adam idi. Bu sözdən Şərik hirsləndi və etiraz edərək dedi: Əli haqqında yalnız “O, yaxşı adamdır” – deməklə kifayətlənmək olarmı?”

İbn Əbu Şeybə (“Mizanul-Etidal”da Şərikin şərhi-halının axırlarında yazıldığı kimi) Əli ibn Həkimdən, o da Əli ibn Qadimdən belə nəql edir: “İtab bir kişi ilə Şərikin yanına gəlib ona dedi: Camaat deyir ki, sən xilafət məsələsində şübhə və tərəddüd edirsən. Şərik cavabında dedi: Ey axmaq! Şübhə nədir, halbuki Əli (ə) ilə birgə olub, qılıncımla əlimi onların (xəlifələrin) qanına boyamağı arzulamışam.”

Şərikin həyat tərzini araşdırmaq istəyən hər bir şəxsə onun Əhli-beyti sevməsi və Əhli-beyt dostlarından çoxlu rəvayətlər nəql etməsi məlum olar. Oğlu Əbdür-Rəhmandan –“Mizanul-Etidal”da onun şərhi-halında yazıldığı kimi– deyir: “Atam, Cabir Cöfidən on min məsələ və on min çətin, dolaşıq mətləb öyrənmişdir.” Abdullah ibn Mübarək (“Mizanul-Etidal”da yazıldığı kimi) deyir: Şərik Kufə alimlərindən olan Süfyandan daha çox savadlı idi. O, Əli (ə) ilə müxalifətdə olanların qəddar düşməni və onları çox pisləyirdi.” Əbdüs-Səlam ibn Hərb ona dedi: “Qardaşlardan biri ilə görüşmək istəyirsənmi? Dedi: Kimdir? Dedi: Malik ibn Moğul[1]. Cavab verdi: Əmmara eyib edən və onları kiçik sayan şəxs mənim qardaşım deyil.” Bir dəfə onun yanında Müaviyədən söz düşəndə kimsə onu həlim adam kimi vəsfləndirərkən, Şərik dedi: “Haqqı tanımayan, özünü onun qarşısında axmaqlığa vuran və Əli ibn Əbu Taliblə döyüşən şəxs həlim deyil.”[2]

Şərik o kəsdir ki, Asim, Zərr və Abdullah ibn Məsuddan “məruf” şəkildə rəvayət nəql etmişdir. Nəql etdiyi rəvayətlərdən birində Peyğəmbər (s) buyurmuşdur: “Müaviyəni mənim minbərimdə görən zaman onu öldürün.”[3] Onunla Məsəb ibn Abdullah Zübeyri arasında Mehdi Abbasinin hüzurunda mübahisə oldu, belə ki, (“Vəfayətül-Əyan”da Şərikin şərhi-halında nəql etmişdir) Məsəb ona dedi: “Sən Əbu Bəkr və Ömərə eyib tutan və onları tənqid edənlərdənsən...”

Mən deyirəm: Buna baxmayaraq Zəhəbi onu doğru hafiz və imam kimi vəsf etmişdir. O, İbn Müindən nəql edir ki, Şərik etimadlı və düzdanışandır və şərhi-halının sonunda demişdir ki, Şərik elmi qoruyanlardandır. İshaq Ərzəq ondan doqquz min hədis öyrənmişdir və Əbu Tövbə Hələbidən nəql edir ki, biz Rəmlədə idik, söhbət düşdü ki, hazırda ümmətin mərd adamı kimdir? Bir qrup adam dedi: İbn Ləhyə, başqa bir qrup Malikin adını çəkdilər. Bu sualı

---

Məhəmməd Əhməd Zəhəbi bu hədisi həmin sənədlə “Mizanul-Etidal”da Saleh ibn Əsvədin şərhi-halında nəql etmiş və onun qatı nasibi olmasına baxmayaraq, burada “məqsəd, dövrünün ən yaxşı insanıdır” – qeydindən əlavə heç bir şey deməmişdir.

[1] “Mizanul-Etidal”da onun şərhi-halında yazılıb.

[2] “Mizanul-Etidal” və “Vəfayətül-Əyan”da onun şərhi-halında yazılıb.

[3] Təbəri onu nəql etmiş və Zəhəbi “İbad ibn Yəqub”un şərhi-halında onu zikr gətirmişdir.

İsa ibn Yunis ilə bir-birimizə verdik. O dedi: Bu gün ümmətin mərd adamı Şərikdir. Şərik bu vaxt sağ idi.

Mən deyirəm: Şərikin hədislərini Müslim və "Sünəni-Ərbəə" yazıçıları nəql etmişlər. Siz onun Ziyad ibn Əlaqə, Əmmar Dəhni, Hüşam ibn Ürvə, Yəla ibn Əta, Əbdülməlik ibn Ümeyr, Əmarə ibn Qəqa, Abdullah ibn Şəbrəmədən nəql etdiyi rəvayətləri və İbn Əbu Şeybə, Əli ibn Həkim, Yunis ibn Məhəmməd, Fəzl ibn Musa, Məhəmməd ibn Saleh və Əli ibn Həcərin ondan nəql etdikləri hədisləri bu yazıçıların kitablarında oxuya bilərsiniz.

O, 95-ci ildə Xorasanda, ya da Buxarada doğulmuş və 177, yaxud 178-ci il Zilqədənin birinci şənbəsi Kufədə vəfat etmişdir.

### *41. Şöbə ibn Həccac Əbülvərd Ətki, Vasit əhli, Bəsrə sakini, künyəsi Əbu Bəstam.*

O, İraqda hədisçilərin tərcümeyi-halını tədqiq edən və araşdıran ilk şəxslərdəndir və zəif rəvayətçi və hədisçiləri qəbul etməzmiş. Sünnə əhlinin bir sıra başçı və rəhbərləri, o cümlədən İbn Qüteybə "Maarif" və Şəhristani "Miləl və Nihəl" kitabında onu şiə hesab etmişlər. "Sihahi-Sittə"nin müəllifləri və başqaları onun hədislərindən dəlil gətirmişlər. Onun hədisləri "Səhih-Buxari" və "Səhih-Müslim"də vardır. Bu iki kitabda Əbu İshaq Səbii, İsmail ibn Əbu Xalid, Mənsur, Əməş və bir çox başqalarından hədis nəql etmiş və Buxari və Müslimin fikrincə, Məhəmməd ibn Cəfər, Yəhya ibn Səid Qəttan, Osman ibn Cəbələ və başqaları ondan rəvayət nəql etmişlər. Allah rəhmət eləsin.

## *"Sad"*

### *42. Səsəə ibn Suhan ibn Həcər ibn Haris Əbdi.*

İbn Qüteybə "Maarif" kitabının 206-cı səhifəsində onu məşhur şiə şəxsiyyətləri arasında qeyd etmiş və İbn Səd "Təbəqat"ın altıncı cildinin 154-cü səhifəsində deyir: "O, Kufədə Əmirəl-mömininin (ə) ordusunda olub hərbi layihə və xəritələr üzrə xüsusi savada malik idi. O, bacarıqlı xətib və Əlinin (ə) əshabələrindən idi. O və qardaşları Zeyd və Seyhan "Cəməl" döyüşündə Əli (ə) və onun qoşunu ilə bir yerdə idilər. Seyhan Səsəədən əvvəl xətib və natiq olmuşdur, (xütbə və natiqlik vəzifəsi onun öhdəsində idi). "Cəməl" döyüşündə bayraq onun əlində idi. Şəhid olduqda,[1] qardaşı Zeyd bayrağı əlinə aldı və o da şəhid oldu. Bu vaxt Səsəə irəli gedib bayrağı əlinə aldı." İbn Səd yenə əlavə edir: "Səsəə Əlidən (ə) və Abbasdan nəql etmişdir. O, etimadlı şəxs idi, lakin az hədis söyləmişdir..." İbn Əbül-Birr "İstiab" kitabında demişdir: "O, Peyğəmbər (s) vaxtında müsəlman olmuş, lakin Peyğəmbər ilə görüşə bilməmişdir. O zaman onun yaşı az idi."

O, öz qəbiləsi Əbdü-Qeysin ağası və başçısı olub, gözəl danışıq qabiliyyətinə malik xətib, bacarıqlı natiq, ağıllı, rəvandilli, fazil bir dindar idi. O, Əlinin (ə) səhabələrindən sayılırdı. Yəhya ibn Müin deyir: "Səsəə, Zeyd və Seyhan, Suhanın övladları olub hamısı xətib və natiq idilər. Zeyd və Seyhan Cəməl döyüşündə qətlə yetirilmişlər. Sonra nəql edir: Ömər öz xilafəti dövründə bir çətinliklə üzləşdi ki, camaatın arasında ayağa qalxıb onun həlli üçün çıxış yolu istədi. Yeniyetmə cavan olan Səsəə ayağa qalxdı, sükutu pozaraq doğru və aydın çıxış yolunu göstərdi. Hamı onun dediyi ilə razılaşdı və onun fikrinə əsasən, iş gördülər."

Bu heç də təəccüblü deyil, çünki Suhanın oğulları ərəb başçılarından olub, fəzilətli və əzəmət qütbləri hesab olunurdular. İbn Qüteybə özünün "Maarif"[2] kitabının məşhur şəxslər

---

[1] O, "Əhli-Rəddə" döyüşündə ordunun əmirlərindən biri olmuşdur. Bunu İbn Həcər "Əl-İsabə" kitabının 1-ci cildində Seyhan ibn Suhanın adını çəkdiyi yerdə qeyd etmişdir.

[2] səh. 138.

babında onları əyanların əshabələri kimi vəsf edərək demişdir: "Suhanın oğulları Zeyd ibn Suhan, Səsəə ibn Suhan və Seyhan ibn Suhandan ibarətdir. Onlar Bəni Əbdi-Qeys qəbiləsindəndirlər. Amma Zeyd yaxşılardan idi. Bir hədisdə deyilir ki, Peyğəmbər (s) buyurub: "Zeyd əli kəsilən o yaxşı adam və Cündəbdən olmaz, necə Cündəb! Peyğəmbərə (s) ərz olundu: Necə oldu ki, yalnız bu iki şəxsi xatırladınız? Buyurdu: O ikisindən birinin əli otuz il özündən əvvəl behiştə gedəcək, o birisi isə elə bir zərbə vuracaq ki, o zərbə ilə haqq batildən ayrılacaq." O, əlavə edir: "O iki nəfərdən biri Zeyd ibn Suhandır ki, "Cəlula" döyüşündə əli kəsildi. O, "Cəməl" döyüşündə də Əlinin (ə) yanında idi və həzrətə ərz etdi: Ey Əmirəl-möminin (ə), mən bu dəfə özümü ölmüş görürəm. İmam ona buyurdu: Ey Əbu Süleyman, haradan bilirsən? Dedi: Yuxuda gördüm ki, kəsilmiş əlim göydən nazil olub, məni öz tərəfinə çəkib aparmaq istəyir. Əmr ibn Yəsribi onu bu döyüşdə şəhid etdi. Əmr onun qardaşı Seyhanı da "Cəməl" günü öldürdü."

Mən deyirəm: Peyğəmbərin (s) Zeydin əlinin digər bədən üzvlərindən əvvəl behiştə getməsi haqqında xəbər verməsi müsəlmanların fikrincə, nübüvvət əlaməti, İslamın möcüzələri və haqq əhlinin dəlillərindəndir. Zeydin şərhi-halını yazanlar bunu qeyd etmişlər. Şərhi-halı üçün "İstiab", "Əl-İsabə" və başqa kitablara müraciət edə bilərsiniz. Hədis yazanlar bu hədisi öz təriqi ilə nəql etmişlər. Deməli, Zeyd şiə olduğu üçün ona Peyğəmbər tərəfindən behişt müjdəsi verilmişdir. Vəl-həmdu lillahi rəbbil-aləmin.

Əsqəlani "Əl-İsabə"nin üçüncü cildində Səsəənin adını çəkmiş və demişdir: "O, Osman və Əlidən rəvayət nəql etmiş, "Süffeyn"də Əli ilə bir yerdə olmuşdur. O, natiq və fəsahətli bir şəxs idi. Onun Müaviyə ilə qarşıdurmaları vardır." Əsqəlani deyir: "Şəbi demişdir ki, mən xütbə və natiqliyi Səsəədən öyrənmişəm."[1] Əbu İshaq Səbii, Minhal ibn Əmr, Abdullah ibn Büreydə və başqaları ondan rəvayət nəql etmişlər. O, əlavə etmişdir ki, Əlai, Ziyadın xəbərlərindən yazır: Müğeyrə Müaviyənin əmri ilə Səsəəni Kufədən Əl-cəzirəyə (İraqın şəhərlərindən biri) yaxud Bəhreynə sürgün etdi və elə orada da vəfat etdi. Yenə qeyd edir ki, o, "ibn Kafan" adasına sürgün edilib və orada vəfat etmişdir (Əbuzərin Rəbəzədə dünyadan getdiyi kimi). Zəhəbi Səsəənin adını çəkmiş və demişdir: "Məşhur və etimadlı şəxs idi və İbn Səd və Nisai onun etimadlı olmasını nəql etmiş və adının yanında rəmz qoymuşlar ki, bu da Nisainin onun rəvayətlərindən dəlil gətirməsinə işarədir."

Mən deyirəm: Onun hədislərini nəql etməyənlər ona yox, özlərinə zülm ediblər: وَلَكِن كَانُوٓاْ أَنفُسَهُمْ يَظْلِمُونَ

## *"Ta"*

### *43. Tavus ibn Qeysani Xülani Həmədani Yəmani Əbu Əbdür-Rəhman.*

Anası farsdır, atası isə "Nümeyr ibn Qasit" qəbiləsindən Mövla Bəcir ibn Risan Himyəridir. Sünnə əhli onu qətiyyətlə şiə sələflərindən hesab etmiş, Şəhristani "Miləl və Nihəl"də və İbn Qüteybə "Maarif" kitabında onu şiə şəxsiyyətlərindən bilmişlər. "Sihahi-Sittə" əshabələri və başqaları onun hədislərindən dəlil gətirmişlər. İbn Abbas, İbn Ömər, Əbu Hüreyrədən nəql etdiyi hədislərini "Səhih-Müslim" və "Səhih-Buxari"də oxuya bilərsiniz. "Səhih-Müslim"də onun Ayişə, Zeyd ibn Sabit və Abdullah ibn Əmrdən nəql etdiyi hədisləri mövcuddur.

[1] "Mizanul-Etidal"da yazılmışdır ki, Şəbidən soruşdular: Nə üçün Əlinin əshabələrini söyürsən, halbuki elmi və biliyi onlardan öyrənmisən? Dedi: Kimdən? Dedilər: Harisdən, Səsəədən. Cavab verdi: Düzdür. Səsəə natiq idi, nitqi ondan, Haris hesabı bilirdi, ondan da hesabı öyrəndim."

Buxarinin fikrincə, yalnız Zəhri, Tavusdan hədis nəql edib və Müslimin fikrincə, yalnız bir sıra böyük şəxsiyyətlər ondan hədis söyləmişlər.

O, həccə gedən zaman Məkkədə "tərviyə"dən (Zilhiccə ayının yeddinci günü) bir gün əvvəl 104-cü, ya 105-ci ildə vəfat etmişdir. Abdullah ibn Həsən ibn Əmirəl-möminin (ə) onun cənazəsini camaatın izdihamı arasında çiynınə götürən gün çox əzəmətlə yad edilir. Camaat o qədər çox idi ki, əmmaməsi başından düşdü və əbası arxadan cırıldı.[1]

## *"Za"*

### *44. Zalim ibn Əmr ibn Süfyan Əbül-Əsvəd Duəli.*

Şiəlikdəki vəziyyəti, Əli, Həsən, Hüseyn və Əhli-beytin başqa şəxslərinə sədaqəti günəşdən də aydındır və bəyana ehtiyac yoxdur. Biz onun haqqında "Müxtəsərül-Kəlam"[2] kitabında müfəssəl bəhs etmiş və qeyd etmişik ki, onun şiəliyi elə bir həqiqətdir ki, heç kəs ona zidd çıxmamışdır. Buna baxmayaraq "Sihahi-Sittə"nin müəllifləri hədislərindən dəlil gətirmişlər. "Səhih-Buxari"də Ömər ibn Xəttabdan nəql etdiyi hədisləri oxuya bilərsiniz. "Səhih-Müslim"də Əbu Musa, İmran ibn Həsindən söylədiyi rəvayətləri oxumağa dəyər. Yəhya ibn Yəmurun ondan nəql etdiyi rəvayətlərini "Səhih-Müslim" və "Səhih-Buxari"də tapmaq olar. "Səhih-Buxari"də Abdullah ibn Büreydə və "Səhih-Müslim"ə əsasən, oğlu Əbu Hərb ondan rəvayət nəql edibdir.

O, 99-cu il Bəsrədə kütləvi "taun" xəstəliyindən 85 yaşında vəfat etdi. Allah rəhmət eləsin. O, Əmirəl-mömininindən (ə) öyrəndiyi əsas qaydalara riayət edərək "Nəhv elmi"nin əsasını qoydu. Biz onun şərhini "Müxtəsərül-Kəlam" kitabında vermişik.

## *"Eyn"*

### *45. Amir ibn Vaillə ibn Abdullah ibn Ömər Leysi Əbu Tüfeyl.*

Məkkə əhlindən olan Əbu Tüfeyl "ühüd" ilində anadan olmuş və ömrünün səkkiz ili Peyğəmbərin (s) dövrünə təsadüf edir. İbn Qüteybə "Maarif" kitabında "ifratçı rafizilər" bəhsində onu bu qrupun ilk şəxslərindən hesab edib xatırlamışdır ki, Muxtarın bayrağı onun əlində olmuş və səhabələrdən vəfat edən sonuncu şəxsdir. İbn Əbdül-Birr "İstiab" kitabının "künyələr" hissəsində demişdir: "O, Kufədə yaşamış və hər yerdə Əli (ə) ilə bir yerdə idi. Əli (ə) şəhid olduqdan sonra Məkkəyə getdi." Sonra yazır: "O fazil, ağıllı, hazır-cavab, fəsih danışan və Əlinin xalis şiələrindən idi." Sonra əlavə edir: "Bir gün Müaviyə Əbu Tufeyldən soruşdu: Sənin Əbül-Həsən dostun ilə əlaqən necədir? Cavab verdi: Musanın anasının Musaya olan əlaqəsi kimi, bu fərq ilə ki, Allahın dərgahında Əliyə (ə) qarşı olan vəzifəmi yerinə yetirərkən etdiyim təqsirlər üçün xəcalət çəkirəm və üzr istəməyə də utanıram. Müaviyə ona dedi: Sən Osmanı mühasirəyə alanların arasındaydınmı? Dedi: Xeyr, lakin orada idim. Müaviyə dedi: Bəs niyə ona kömək etmədin? Əbu Tüfeyl cavab verdi: Bəs sən niyə kömək etməyib onun ölümünü gözləyirdin? Halbuki Şam əhli ilə birgə və hamı da sənə tabe idi.

---

[1] Bu məsələni İbn Xəlləkan "Vəfayətül-Əyan"da Tavusun şərhi-halında söyləmişdir.

[2] İslamın əvvəllərində şiə müəllifləri və yazıçıları haqqında müxtəsər məlumat və şərhi-haldan ibarətdir.

Məqsədin nə idi? Müaviyə dedi: Məgər görmədinmi ki, mən (sonradan) onun qanını (intiqamını) almaq istəyirdim? Budur mənim köməyim. Əbu Tüfeyl cavab verdi: Bu söz Əxvəcəfin sözünə bənzəyir: «لَأَلْفيتُك بعد الموت تَندُبني و في حياتي ما زودتني زادا» "Görürəm ki, mən öləndən sonra mənə ağlayırsan, halbuki diriliyimdə heç bir köməyə hazır deyildin."

Zöhri, Əbu Zübeyr, Cəriri, İbn Əbu Həsin, Əbdül-Məlik ibn Əbcər, Qütadə, Məruf, Vəlid ibn Cəmi, Mənsur ibn Həyyan, Qasim ibn Əbu Bərədə, Əmr ibn Dinar, Əkrəmə ibn Xalid, Külsüm ibn Həbib, Fərat Qəzzaz və Əbül-Əziz ibn Rəfi ondan hədis nəql etmişlər. Onların bu hədisləri "Səhih-Müslim"də vardır. Orada Əbu Tüfeyl həcclə bağlı Allahın rəsulundan hədis nəql etmişdir ki, elə Peyğəmbərin (s) bir çox xüsusiyyətlərini açan odur. O, "namaz" və "nübüvvətin əlamətləri" haqqında Məaz ibn Cəbəldən və "qəza və qədər" haqqında Abdullah ibn Məsuddan rəvayətlər söyləmişdir. O, Əli (ə), Hüzeyfə ibn Üseyd, Hüzeyfə ibn Yəman, Abdullah İbn Abbas, Ömər ibn Xəttabdan hədis nəql etmişdir. Bu Müslimin hədislərini tədqiq edənlərin məlumatıdır. Onun "Səhih"ində olan hədislərin şəxslərinin sənədlərini tədqiq edənlər bunu yaxşı bilirlər.

Əbu Tüfeyl Məkkədə 100-cü ildə, ya neçə nəqlə əsasən, 102-ci, 107-ci və ya 110-cu ildə vəfat etmişdir. İbn Qeysərani onun ölümünün 120-ci ildə olduğunu demişdir. Allah rəhmət eləsin.

### *46. İbad ibn Yəqub İslami Rəvacini Kufi.*

Darü-Qütni deyir: "İbad ibn Yəqub düzdanışan şiədir." İbn Həyyan demişdir: "İbad ibn Yəqub rafizilərin əqidələrinə dəvət edənlərdən idi." İbn Xüzeymə deyir: "Bizə hədisdə etibarlı olan bir nəfər hədis nəql etdi ki, dinində günahkardır (yəni, İbad ibn Yəqub)."

İbad həmin kəsdir ki, Fəzl ibn Qasimin sənədi əsasında Süfyan Suridən, o da Zübeyddən, o da Mürrədən bu rəvayəti nəql etmişdir: "İbn Məsud bu ayəni belə oxumuşdur: «وكَفي الله المؤمنينَ القتالَ بعليّ» "Allah möminləri Əlinin (ə) vasitəsilə müharibədən xilas etdi." Yenə o aşağıdakı rəvayəti Şərikdən, o, Asimdən, o, Zərrdən və o da Abdullah ibn Məsuddan nəql etmişdir ki, Peyğəmbər (s) buyurmuşdur: "Müaviyəni mənim minbərimdə görsəniz onu öldürün." Bu rəvayəti Təbəri və başqaları da nəql etmişlər.

İbad həmişə deyərdi: "Hər kəs gündəlik namazında Ali-Məhəmmədin (s) düşmənlərindən uzaqlaşmasa, qiyamət günü onlarla (Ali-Məhəmmədin düşmənləri ilə) olacaqdır." Deyirdi: "Allah daha adildir ki, Əli (ə) ilə beyətdən sonra onunla vuruşan Təlhə və Zübeyri behiştə aparsın."

Saleh ibn Cəzrə deyir: "İbad ibn Yəqub Osmanı söyürdü və Əhvazlı Ubbad tərəfindən nəql etmişdir ki, İbad ibn Yəqub keçmişdəkiləri (yəni Əlinin haqqını qəsb edənləri) söyürdü."

Mən deyirəm: Bütün bu deyilənlərə baxmayaraq sünnə əhlinin imamları, o cümlədən Buxari, Tirmizi, İbn Macə, İbn Həzimə və İbn Davud ondan hədis və elm öyrənmişlər. Deməli o, onların ustadı və etimadlı bir şəxs olmuşdur. Əbu Hatəm onun adını çəkmiş (bu qrup ilə müxalifətdə olmasına və onları qəbul etməmək üçün bəhanə axtarmasına baxmayaraq) və demişdir: "Təvazökar və etimadlı bir şəxs olmuşdur." Zəhəbi "Mizanül-Etidal"da onun haqqında demişdir: "O, ifrat dərəcədə şiə və bidətçilərin başçılarındandır, lakin hədisdə sadiq və düzdanışandır." Bizim dediklərimizi onun şərhi-halında nəql etmişdir. Buxari "Səhih"inin "tövhid" hissəsində heç bir vasitə olmadan ondan hədis nəql etmişdir.

O, 250-ci ildə vəfat etmişdir. Allah rəhmət eləsin. Amma "dənizin qazıntısı" və onun suyunun cərəyanına aid Qasim ibn Zəkəriyya Mirtəzin onun haqqında dediyinin aydınca yalan olduğunu bilirik və alçaq şəxslərin möminlərə aid dedikləri sözlərdən Allaha pənah aparırıq: وَاللهُ الْمُسْتَعَانُ عَلَى مَا تَصِفُونَ

***47. Abdullah ibn Davud Əbu Əbdür-Rəhman Həmədani Kufi.***

O, Bəsrənin "Hərbtə" nahiyyəsinin sakini idi. İbn Qüteybə "Maarif" kitabında onu şiə hesab etmişdir. Buxari öz səhihində hədislərindən dəlil gətirmişdir. Onun Əməş, Hişam ibn Ürvə, İbn Cərihdən nəql etdiyi hədislərini orada görə bilərsiniz. "Səhih-Buxari"də yeri gəlmişkən Müsəd, Əmr ibn Əli və Nəsr ibn Əli ondan hədis nəql etmişlər.

O, 212-ci ildə vəfat etmişdir.

***48. Abdullah ibn Şəddad ibn Had (Had – Üsamə ibn Əmr ibn Abdullah ibn Cabir ibn Bəşir ibn Ətvarə ibn Amir ibn Malik ibn Leysdir) Kufi Əbül-Vəlid.***

O, Əmirəl-mömininin (ə) əshabələrindəndir. Anası Səlma, Ümeys qızı, Xəsəmi Əsmanın bacısıdır. Deməli o, Abdullah ibn Cəfər və Məhəmməd ibn Bəkrin xalası oğlu və Həmzə ibn Əbdül-Müttəlibin qızı Əmarənin ana tərəfdən qardaşıdır.

İbn Səd onu Kufədə yaşayan elm və fiqh əhli olan tabeinlərdən hesab etmiş və "Təbəqat"ın altıncı cildinin 86-cı səhifəsində onun şərhi-halında deyir: Abdullah ibn Şəddad bir qrup "qürra" (qarilər) ilə Həccaca qarşı qiyam etmişdi. Bu, Əbdür-Rəhman Məhəmməd ibn Əşəsin zamanında olmuşdur.

Abdullah "düceyl" günü döyüşdə öldürüldü. O, etimadlı fəqih, çoxlu hədis bilən bir şəxs idi.

Mən deyirəm: Bu döyüş 81-ci ildə baş verdi. "Sihahi-Sittə"nin müəllifləri və sünnə əhlinin başqa imamları Abdullah ibn Şəddadın hədislərindən dəlil gətirmişlər. İbn İshaq Şeybani, Məbəd ibn Xalid və Səd ibn İbrahim ondan hədis nəql etmişlər. Bunların ondan nəql etdikləri hədisləri bütün "Sihah" və "Məsanid" kitablarında vardır. Buxari və Müslimin fikrincə o, Əlidən (ə), Meymunə və Ayişədən hədis eşitmiş və öyrənmişdir.

***49. Abdullah ibn Ömər ibn Məhəmməd ibn Əban ibn Saleh ibn Ümeyr Qureyşi, ləqəbi Müşkdanə, Kufə əhlidir.***

O, Müslim, Əbu Davud, Bəğəvi və bu təbəqədən olan başqa bir qrupla eyni vaxtda yaşayanların ustadıdır. Əbu Hatəm deyir: "Çox düzdanışandır və şiə olduğu nəql olunubdur." Saleh ibn Məhəmməd Cəzrə deyir: "O, şiəlikdə ifrata varmışdır." Eyni təriflə də Abdullah ibn Əhməd atasından nəql etmişdir ki, Müşkdanə etimadlıdır. Zəhəbi "Mizanül-Etidal"da demişdir: "Çox düzdanışandır və çoxlu hədisləri vardır." İbn Mübarək, Dəravərdi və Təbəqədən hədis eşitmiş və Müslim, Əbu Davud, Bəğəvi və başqaları ondan hədis nəql etmişlər. O, adının yanında Əbu Davud rəmzini yazmaqla onun hədislərindən dəlil gətirmələrinə işarə etmiş, əvvəldə dediyimiz kimi, alimlərdən nəql etmişdir. Xatırlatmışdır ki, o, 239-cu ildə vəfat etmişdir.

Mən deyirəm: "Səhih-Müslim"də Əbdət ibn Süleyman, Abdullah ibn Mübarək, Əbdür-Rəhman ibn Süleyman, Əli ibn Haşim, Əbül-Əhvəs, Hüseyn ibn Əli Cöfi və Məhəmməd ibn Füzeyldən onun hədisləri vardır. Müslim "fitən" (fitnələr) fəslində heç bir vasitə olmadan ondan rəvayət nəql etmişdir. Əbül-Abbas Sərrac deyir: "O, 237, ya 238-ci ildə vəfat etmişdir."

***50. Abdullah ibn Ləhyəə ibn Üqbə Həzrəmi, hakim və Misir alimi.***

İbn Qüteybə "Maarif" kitabında onu şiə şəxsiyyətlərindən hesab etmişdir. İbn Ədi ("Mizanül-Etidal"da Ləhyəənin şərhi-halında yazıldığı kimi) deyir: "O, şiəlikdə ifrata varmışdır."

Əbu Yəla, Kamil ibn Təlhədən nəql edir: İbn Ləhyəə Həyy ibn Abdullah Məğafiridən, Əbu Əbdür-Rəhmən Həblidən, Abdullah ibn Əmrdən bizə hədis söyləmişdir ki, o hədisdə deyilir:

Allahın rəsulu (s) xəstə olan vaxt buyurdu: “Qardaşımı çağırın, mənim yanıma gəlsin. Əbu Bəkri çağırdılar. Peyğəmbər (s) üzünü ondan döndərdi. Sonra Əliyə (ə) xəbər verdilər. Peyğəmbər (s) Əlini yatağının yanına çağırdı və üstünə salınmış örtüyün altından onu qucaqladı. İmam (ə) onun yanından çıxanda ondan soruşdular: Peyğəmbər sənə nə dedi? Cavab verdi: Min elm qapısını mənə öyrətdi ki, hər birindən min qapı açılır.”

Zəhəbi “Mizanül-Etidal”da adını çəkmiş və kənarında “D. T. Q.” hərflərini yazmaqla rəvayətlərini nəql edən “sünən” və “əxbar” yazanlara işarə etmişdir. Siz onun hədislərini “Səhih-Tirmizi”, “Səhih-Əbu Davud” və “sünən” əhlinin başqa kitablarında tapa bilərsiniz.

İbn Xəlləkan “Vəfayətül-Əyan” kitabında onu xatırlamış və tərifləmişdir. Müslimin fikrincə, İbn Vəhəb ondan hədis söyləmişdir. Onun Yəzid ibn Əbu Həbibdən nəql etdiyi hədis “Səhih-Müslim”də vardır.

İbn Qeysərani “Əl-cəm beynə kitabəy-Əbi Nəsr əl-Kilabazi və Əbi Bəkr əl-İsfahani” kitabında Buxari və Müslimin yazdıqları şəxsiyyətlər sırasında İbn Ləhyəənin də adını çəkmişdir.

O, Rəbiüs-sani ayının ortalarında bazar günü 174-cü ildə vəfat etmişdir.

### *51. Abdullah ibn Meymun Qəddah, Məkkə əhli, imam Cəfər Sadiqin (ə) səhabələrindəndir.*

Tirmizi onun hədislərindən dəlillər gətirmişdir. Zəhəbi onu xatırlamış və Tirmizi rəmzini adının yanında yazmaqla ondan hədis nəql etmişdir və onun Cəfər ibn Məhəmməd və Təlhə ibn Əmrdən hədis nəql etdiyini nəzərə çatdırmışdır.

### *52. Əbdür-Rəhman ibn Saleh Əzdi Əbu Məhəmməd Kufi.*

Dostu və şagirdi Abbas Duri onun haqqında demişdir: “O, şiə idi.” İbn Ədiy onu xatırlamış və demişdir: “Şiəliyinə görə odda yandırıldı.” Saleh Cəzrə onun haqqında demişdir: “O, Osmanın şəxsiyyətinə toxunurmuş (eyib tutub, təhqir edirmiş).” Əbu Davud deyir: “O, əshabələrin eyibləri və ziddiyətləri haqqında kitab yazmış və pis adamdır.” Bununla belə Abbas Duri, imam Bəğəvi ondan hədis nəql etmiş, Nisai hədislərini söyləmişdir. Zəhəbi “Mizanül-Etidal”da adını çəkmiş və “N.” (Nisai) rəmzini adının yanında yazmaqla hədislərindən dəlillər gətirdiyinə işarə etmişdir. O, əvvəldən işarə etdiyimiz sözləri də nəql etmiş və xatırlamışdır ki, İbn Müin onu etimadlı hesab etmişdir.

O, 235-ci ildə vəfat etmişdir. Siz onun Şərik və bu təbəqədən olan başqaları haqqındakı hədislərini “sünən” kitablarında mülahizə edə bilərsiniz.

### *53. Əbdür-Rəzzaq ibn Həmmam ibn Nafe Himyəri Sənani.*

O, şiənin əyan və böyüklərindən və bu cəmiyyətin keçmişdəki ən layiqli və yaxşı şəxslərindən idi. İbn Qüteybə “Maarif” kitabında onu şiə adlandırmış və İbn Əsir onun vəfatını öz tarix kitabı “Əl-Kamil”də, 211-ci ilin hadisələrinin sonunda olduğunu yazmış[1] və demişdir: “Əbdür-Rəzzaq ibn Həmmam Sənani bu il vəfat etdi. O, Əhmədin şeyx və ustadlarından olub, şiə məzhəbinə inanırdı.” Müttəqi Hindi “Kənzül-Ümmal” kitabındakı 5994-cü hədisdən bəhs edərkən ondan söz açmış və onun şiə olduğunu təsdiq etmişdir.[2] Zəhəbi “Mizanül-Etidal” kitabında deyir: “Əbdür-Rəzzaq ibn Həmmam ibn Nafe imam Əbu Bəkr Himyəri Sənani böyükl və etimadlı kəslərdəndir.” Sonra şərhi-halını yazarkən deyir: “O, çoxlu əsərlər yazmışdır. Bilik xəzinələrindən biri olan “Əlcameül-Kəbir” onundur. Camaat

---

[1] 6-cı cild, səh. 137.

[2] 6-cı cild, səh. 39.

elm öyrənmək üçün uzaqdan və yaxından onun yanına gələrdi. O cümlədən Əhməd, İshaq, Yəhya, Zühəli, Rəmadi və Əbdin adını çəkmək olar. Sonra Abbas ibn Əbdül-Əzimin onu təkzib edən kəlamının nəqlinə çatanda onu rədd edir və əlavə edir: "Bu elə bir məsələdir ki, heç bir müsəlman, hətta başqa hafizlər də Abbas ilə müvafiq deyildirlər və elm imamlarının hamısı Əbdür-Rəzzaqın hədislərindən dəlillər gətirirlər." Sonra Təyalisidən bu kəlamı nəql etmişdir ki, İbn Müindən eşitdim deyirdi: "Bir gün Əbdür-Rəzzaqdan şiəliyini sübut edən bir söz eşitdim." Ona dedim: "Sənin ustadların Müəmmər, Malik, ibn Cərih, Əbu Süfyan" və Üzaidir ki, onlardan elm öyrənmisən. Hamısı sünnə əhlindəndirlər. Sən bu məzhəbi (şiə məzhəbini) kimdən öyrəndin? Dedi: Cəfər ibn Süleyman Zəbi ilə bizim görüşümüz oldu. Mən onun fazil, əsil hidayətçi və yaxşı bir adam gördüm və bu məzhəbi ondan öyrəndim."

Mən deyirəm: Əbdür-Rəzzaq bu sözü ilə şiəliyinə etiraf edir və onu Cəfər ibn Zəbidən öyrəndiyini bildirir. Amma Məhəmməd ibn Əbu Bəkr Müqəddəmi bu fikirdə idi ki, Cəfər ibn Zəbi Əbdür-Rəzzaqın vasitəsi ilə şiə olub (onun təsiri ilə) və həmişə Əbdür-Rəzzaqa bu işinə görə qarğış edirdi. "Mizanül-Etidal"da Cəfər ibn Zəbinin şərhi-halında yazıldığı kimi deyirdi: "Yox olsun Əbdür-Rəzzaq, ondan başqa Cəfəri heç kəs pozğun etmədi (yəni şiə məzhəbini ona öyrətdi)." İbn Müin Əbdür-Rəzzaqın sözlərindən çoxlu dəlillər gətirsə də, halbuki şiə olmasına etiraf etmişdir. Əhməd ibn Əbu Xeysəmə deyir[1]: İbn Müinə deyildi ki, Əhməd deyir: Abdullah ibn Musanın hədislərini qəbul etmək olmaz, çünki o şiədir. İbn Müin cavab verdi: And olsun o Allaha ki, Ondan başqa məbud yoxdur, Əbdür-Rəzzaq bu mənada Übeydullahdan yüz dəfə yüksəkdir və mən Əbdür-Rəzzaqdan Übeydullahdan eşitdiyimdən bir neçə dəfə artıq hədis öyrənmişəm." Əbu Saleh ibn İsmail Zərari[2] demişdir: Biz Sənada Əbdür-Rəzzaqın yanında idik. Bizə dedilər: "Əhməd, ibn Müin və başqaları Əbdür-Rəzzaqın hədislərini qəbul etmir, və ya bəyənmirlər, bu da onun şiəliyinə görədir. Bu xəbərdən çox qəmgin olduq. Öz-özümüzə dedik: Biz Əbdür-Rəzzaqdan elm və hədis öyrənmək üçün pul xərcləmişik, səfər əziyyəti çəkmişik, yorğunluqlara dözmüşük, axırda hamısı faydasız oldu. Sonra mən həcc zamanı hacılarla birlikdə Məkkəyə getdim, orada Yəhya ibn Müinlə görüşdüm. Bu məsələni ondan soruşdum. O, dedi: Ey Əbu Saleh, əgər Əbdür-Rəzzaq dinindən dönsə (mürtəd olsa) və İslamdan da çıxsa hədislərini rədd etməyəcəyəm."

İbn Ədi demişdir[3]: "(Əhli-beytin) fəzilətləri haqqındakı hədislərinə görə heç kəs onunla razılaşmır[4], (Əhli-beytdən) olmayanlara aid elə eyiblər və rəva olunmayan sözləri vardır ki, hamı onları inkar edir və onu şiə hesab edir."[1]

---

[1] "Mizanül-Etidal"da Əbdür-Rəzzaqın şərhi-halında yazıldığı kimi.
[2] Həmin.
[3] Həmin.
[4] İnsaflı adamlar bu fəzilətləri nəql etmiş və "Səhih"lərdə ondan fərəhlə danışmışlarsa da, amma nasibilər və xəvaric ona zidd çıxmış. Onların nəql etdikləri rəvayətlərə də qarşı misal Əhməd ibn Əzhərin rəvayətidir ki, hamı onu qəbul etmiş və mötəbər bilmişdir. O deyir: "Əbdür-Rəzzaq xəlvətdə bizə əzbərdən nəql etdi ki, Müəmmər mənə deyib: O, Zəhəbidən, o da Übeydullahdan, o da İbn Abbasdan eşidib ki, Peyğəmbər (s) Əliyə (ə) baxıb buyurdu: Sən həm bu dünyada, həm də axirətdə ağa və seyyidsən. Sənə kin bəsləyən mənə kin bəsləyib, sənin dostun Allahın dostu, düşmənin Allahın düşmənidir. Vay o adamın halına ki, sənə düşmən olsun!" Bu hədisi Hakim "Müstədrək"in 3-cü cildinin 128-ci səh.-də yazmış və demişdir ki, bu hədis "Şeyxeyn"in (Buxari və Müslim) şərtinə əsasən doğrudur. Yenə Əbdür-Rəzzaq Müəmmərdən, o, İbn Nəcidən, Mücahiddən, o da İbn Abbasdan eşidib ki, Fatimə atasına ərz etdi: "Məni yoxsul adamamı ərə verirsən? Allahın rəsulu buyurdu: Razı deyilsənmi? Halbuki Allah yer əhlinə nəzər saldı və onların arasında iki nəfəri seçdi: bir atanı, bir də ərini."
Mən deyirəm: Bu hədisi Hakim "Müstədrək"in 3-cü cildinin 129-cu səhifəsində Sərih ibn Yunisin vasitəsilə Əbdül-Həfs, Əməş, Əbu Saleh, o da Əbu Hüreyrədən "məruf" şəkildə nəql etmişdir.

Mən deyirəm: Bütün bunlara baxmayaraq Əhməd ibn Hənbələ belə deyildi[2]: “Hədisdə Əbdür-Rəzzaqdan yaxşısını görmüsənmi? Cavab verdi: Xeyr.”

İbn Qeysərani “Əl-Cəmu beynə ricalis-səhiheyn” kitabında, Əbdür-Rəzzaqın şərhi-halının sonunda imam Əhməddən sənəd əsasında yazır ki, Müəmmərin hədisinə görə camaat arasında ixtilaf düşəndə Əbdür-Rəzzaqın sözü üstün olurdu.

Məxləd Şəiri deyir: Mən Əbdür-Rəzzaqın yanında idim. Kimsə Müaviyədən söz açanda, Əbdür-Rəzzaq dedi[3]: Məclisimizi Əbu Süfyan oğlunun adını çəkməklə kəsafətli və üfunətli etmə.” Zeyd ibn Mübarək demişdir: “Əbdür-Rəzzaqın yanında idim. Bizim üçün İbn Hədsanın hədisini söyləyirdi. Ömərin Əli və Abbasa xitabən: “Sən (Abbas) qardaşın oğlunun mirasını istəyirsən və bu şəxs (Əli) arvadının atasının mirasını tələb etmək istəyir” – sözünə çatanda Əbdür-Rəzzaq (“Mizanül-Etidal”da onun şərhi-halında yazıldığı kimi) dedi: Bu axmağa baxın, deyir: “Qardaşın oğlu, atası.” Bir demir ki, Allahın rəsulu.”

Mən deyirəm: Bunlarla yanaşı sünnə əhlinin bütün alimləri ondan elm və hədis öyrənmişlər və onların hamısı istisnasız olaraq hədislərindən dəlil gətirmişlər. İbn Xəlləkanın “Vəfayətül-Əyan” kitabında onun şərhi-halında deyildiyi kimi, Allah rəsulundan sonra camaat elm və hədis öyrənmək üçün heç kəsin yanına Əbdür-Rəzzaqın yanına gedən qədər getməmişlər. “Vəfayətül-Əyan”da deyilir: “İslamın alim və rəhbərləri onun zamanında ondan rəvayət nəql ediblər, o cümlədən Süfyan ibn Üyəynəni göstərmək olar və Əbdür-Rəzzaq onun ustadlarından sayılır. Əhməd ibn Hənbəl və Yəhya ibn Müin və başqalarının da adını çəkmək olar.

Mən deyirəm: Onun hədislərini “Sihah” və “Məsanid” (rəvayətləri sənəd əsasında nəql olunan kitablar) kitablarının hamısında mülahizə edə bilərsiniz. Bu kitablar onun rəvayətləri ilə doludur.

O, 126-cı ildə doğulmuş, 20 yaşında təhsilə başlamış və 211-ci ilin Şəvval ayında vəfat etmişdir. Onun ömrünün 22 ili imam Sadiq (ə) dövrünə düşür.[4] O, imam Cavadın (ə) dövründə o həzrətin şəhadətindən 9 il əvvəl vəfat etmişdir[5]. Allah onu Əhli-beyt imamlarına qovuşdursun, belə ki, həqiqətən onların vilayətinə xalis əqidəsi olmuşdur.

### *54. Əbdül-Məlik ibn Əyən, Zürarənin qardaşı.*

Həmran, Bükeyr, Əbdür-Rəhman, Məlik, Musa, Zəris və Ümmül-Əsvəd – Əyənin övladlarının hamısı şiənin o dövrdəki layiqli və tanınmış adamlarından olmuşlar. Onlar xidmətlə dolu bir peymanə tək şəriəti qorumuş, atalarının məzhəb və yolu ilə gedən layiqli və səmərəli övladlar yetirmişlər.

Əbdül-Məlik haqda Zəhəbi “Mizanül-Etidal”da demişdir: Əbdül-Məlik ibn Əyən “X. M.” Əbu Vail və başqalarından hədis nəql etmişdir.” Əbu Hatəm demişdir: “Hədisdə səlahiyyətli adamdır.” İbn Müin deyir: “Mühüm adam deyil, sözlərinin əhəmiyyəti və dəyəri yoxdur.” Bir

---

[1] Nalayiq əməllər Müaviyə və tüğyan edən sitəmkar firqəsindən savayı başqalarında tapılmaz. Əbdür-Rəzzaq İbn Üyəynədən, o da Əli ibn Zeyd ibn Cəzandan, o da Əbu Nəzrədən, o da Əbu Səiddən mərfu şəkildə rəvayət edir ki, Peyğəmbər (s) buyurub: «اذا رايتم معاوية علي منبري فاقتلوه» “Müaviyəni mənim minbərimdə görən zaman onu öldürün.”

[2] “Mizanül-Etidal”da Əbdür-Rəzzaqın şərhi-halında yazıldığı kimi.

[3] “Mizanül-Etidal”da şərhi-halında yazıldığı kimi.

[4] İmam Sadiq (ə) 148-ci ildə 65 yaşında vəfat etmişdir.

[5] Çünki imam Cavad (ə) 220-ci il 25 yaşında şəhid olmuşdur. Əbdür-Rəzzaqın imam Baqirdən (ə) rəvayət nəql etməsi isə səhvdir. Çünki imam Baqir (ə) 114-cü ildə 57 yaşında, Əbdür-Rəzzaqın təvəllüdündən 12 il əvvəl vəfat etmişdir.

başqası demişdir: “O, düzdanışandır, lakin rafizidir.” İbn Üyeynə deyir: “Əbdül-Məlik bizə hədis nəql edərdi və rafizi idi.” Əbu Hatəm demişdir: “O, əsil şiələrdən idi, hədisi qəbul olunur.” Süfyan ibn Üyeynə və Süfyan Suri ondan hədis nəql etmiş və bir çoxları da öz kitablarında onun hədislərini yazmışlar.

Mən deyirəm: İbn Qeysərani “Cəmi beynə ricalis-səhiheyn” kitabında onu xatırlamış və demişdir: “Əbdül-Məlik ibn Əyən Həmranın qardaşı, Kufə əhli və şiədir. O, Əbu Vaildən, Buxarinin fikrincə, “tövhid” sahəsində və Müslimin fikrincə “İman” sahəsində hədis nəql etmişdir. Hər ikisinin fikrincə Süfyan ibn Üyəynə ondan hədis söyləmişlər.

O, imam Sadiqin (ə) zamanında vəfat etmişdir. İmam ona dua və Allahdan rəhmət tələb etmişdi. Əbu Cəfər ibn Babəveyh nəql etmişdir ki, imam Sadiq (ə) əshabələri ilə birlikdə Mədinədə onun qəbrini ziyarət etmişdir. Xoş halına və əldə etdiyi aqibət gözəlliklərinə.

### *55. Übeydullah ibn Musa Əbəsi Kufi, “Səhih” kitabında Buxarinin ustadı.*

İbn Qüteybə “Maarif” kitabında onu hədis əshablarından hesab etmiş və şiə olduğunu deyərək “Maarif”in “əl-firəq” babında bir sıra şiə şəxsiyyətləri sırasında onun da adını çəkmişdir. İbn Səd “Təbəqat”ın altıncı cildində onun şərhi-halını yazmış və şiə olduğunu təsdiq edərək demişdir: “O, şiə məzhəbi və onun doğruluğu haqda hədislər nəql etmiş, buna görə də bir çoxları onu “zəif” saymış və hədislərini qəbul etməmişlər. Əlavə etmişdir ki, o, Qurana möhkəm bağlı idi, həmişə onu tilavət edərdi və ondan bəhrələnərdi.

İbn Əsir “Kamil” kitabının altıncı cildinin 139-cu səhifəsində onun vəfatını 213-cü ilin sonları hesab etmiş və demişdir: “Übeydullah ibn Musa Əbəsi” fəqih və şiə idi. O, “Səhih”də Buxarinin ustadı və şeyxlərindəndir.” Zəhəbi “Mizanül-Etidal” kitabında onun adını çəkmiş və demişdir: “Übeydullah ibn Musa Kufə əhli, Buxarinin ustadı və zatən etimadlı şəxsdir, lakin şiədir və yolunu azmışdır.” Əbu Hatəm və İbn Müin ona etimad göstərmişlər. O, əlavə edir: “Əbu Hatəm demişdir: Əbu Nəim ondan daha mötəbərdir və Übeydullah İsrailə nisbətən onlardan daha etimadlıdır (çünki İsrail, Übeydullahın yanına gələrdi və ondan Quran öyrənərdi).” Əhməd ibn Abdullah İcli deyir: “Übeydullah ibn Musa Quran sahəsində alim və olduqca agahlardan biridir. Heç vaxt onu başını qaldıran və gülən görmədim.” Əbu Davud deyir: “Übeydullah Əbəsi yolunu azmış şiə idi.” Zəhəbi “Mizanül-Etidal” kitabında Mətər ibn Meymunun şərhi-halının sonunda onun haqqında yazmış və demişdir: “Übeydullah etimadlı şiədir və İbn Müin, Übeydullah ibn Musa və Əbdür-Rəzzaqdan şiə olduqlarını bildiyinə baxmayaraq, hədis və elm öyrənmişdir.” Əhməd ibn Əbu Xeysəmə, Zəhəbinin “Mizanül-Etidal”ında Əbdür-Rəzzaqın şərhi-halında yazıldığı kimi, deyir: İbn Müindən soruşdum: Deyirlər Əhməd deyir ki, Übeydullah ibn Musa şiə olduğu üçün hədisləri qəbul olunmur. İbn Müin cavab verdi: Ondan savayı məbud olmayan Allaha and olsun Əbdür-Rəzzaq şiəlikdə ondan yüz dəfə yüksəkdir və mən Übeydullahdan öyrəndiyimdən bir neçə dəfə artıq Əbdür-Rəzzaqdan bilik və hədis öyrənmişəm.”

Mən deyirəm: Sünnə əhli “Sihah” kitablarında Übeydullahın hədislərindən dəlillər gətirmişlər. Siz “Səhih-Buxari” və “Səhih-Müslim”də onun Şeyban ibn Əbdür-Rəhmandan nəql etdiyi hədisi oxuya bilərsiniz. Onun Əməş, Hişam ibn Ürvə, İsmail ibn Xaliddən nəql etdiyi hədisləri “Səhih-Müslim”də vardır. “Səhih-Müslim”də İsrail, Həsən ibn Saleh və Üsamə ibn Zeyddən söylədiyi hədislər oxunmağa layiqdir. Buxari heç bir vasitə olmadan və İshaq ibn İbrahim, Əbu Bəkr ibn Əbu Şeybə, Əhməd ibn İshaq Buxari, Məhmud ibn Qilan, Əhməd ibn Sureyc, Məhəmməd ibn Həsən ibn Əşkab, Məhəmməd ibn Xalid Zühəli və Yusif ibn Musa Qəttan vasitəsilə ondan hədis nəql etmişdir. Müslim Həccac ibn Şair, Qasim ibn Zəkəriyya, Abdullah Darəmi, İshaq ibn Mənsur, İbn Əbu Şeybə, Əbd ibn Həmid, İbrahim ibn Dinar və İbn Numeyr vasitəsilə ondan rəvayət nəql etmişdir. Zəhəbi “Mizanül-Etidal” kitabında deyir: “O, 213-cü ildə vəfat etmişdir.” Əlavə edir: “O, hədisdə təqva, ibadət və pəhrizkarlığa malik idi.

Mən deyirəm: O, Zilqədə ayının əvvəlində vəfat etmişdir. Allah rəhmət eləsin və qəbrini pak və müqəddəs etsin.

### *56. Osman ibn Ümeyr Əbu Yəğzan Səqəfi Kufi Bəcəli. Ona Osman ibn Əbu Zərə, Osman ibn Qeys və Həmid də deyirlər.*

Əbu Əhməd Zübeyri demişdir: O mömin idi və "rəcət"ə inanırdı. Əhməd ibn Hənbəl demişdir: "Əbu Yəğzan İbrahim ibn Abdullah ibn Həsənin qiyamında iştirak etmişdir." İbn Ədi deyir: "Onun məzhəbi qəbul ediləsi deyil. O, "rəcət"ə inanırdı, lakin (hədisdə) "zəif" olmasına baxmayaraq, etimadlı şəxslər ondan hədis nəql etmişlər."

Mən deyirəm: Onlar hər vaxt bir şiə hədisçisinə eyib tutmaq, onun məqam və qədrini azaltmaq istəyəndə "rəcət"ə etiqad məsələsini ona aid edirdilər. Buna görə də Osman ibn Ümeyri "zəif" bilmiş və İbn Müin də demişdir ki, onun sözünün dəyəri yoxdur. Lakin onun haqqında deyilənlər Əməş, Süfyan, Şöbə, Şərik və bu təbəqədən olan şəxslərin onun hədislərini öyrənməyinə mane olmamışdır. Əbu Davud, Tirmizi və başqaları hədislərini nəql etmiş və ondan dəlillər gətirmişlər. Onun Ənəs və başqalarından nəql etdiyi hədislərini oxuya bilərsiniz. Bu deyilənləri Zəhəbi "Mizanül-Etidal"da onun şərhi-halında yazmış və üləmanın onun haqqında dediklərini nəql edərkən adının yanında "D.T.Q." rəmzlərini yazmaqla onun hədislərini nəql edən "sünən" yazıçılarına işarə etmişdir.

### *57. Ədi ibn Sabit Kufii.*

İbn Müin deyir: "Şiədir. Şiəlikdə inadkar ifratçıdır." Darü-Qütni deyir: "Rafizidir və rafizilikdə ifrata varmışdır və etimadlıdır." Cüzcani demişdir: "Doğru yoldan (sünnə əhlinin getdiyi yoldan) azmışdır." Məsudi deyir: "Şiə sözü və əqidələrində, aydın danışıq və iradə möhkəmliyində Ədi ibn Sabitdən savayı bir kəs görmədim." Zəhəbi "Mizanül-Etidal"da onu yad etmiş və demişdir: "O, şiə alimi, onların doğru danışanı, qazi və məscidlərinin imamıdır. Əgər bütün şiələr onun kimi olsaydılar, şər və pislikləri az olardı." Sonra şərhi-halını davam etdirərək adları çəkilən alimlərin sözlərini nəql edir və onun etimadlı olmasını Darü-Qütni, Əhməd Hənbəl, Əhməd İcli və Əhməd Nisaidən söyləyərək "Sihahi-Sittə"nin müəlliflərinin rəmzini adının yanında yazmış və hədisdə onunla həmfikir olduqlarına işarə etmişdir. Siz "Səhih-Buxari" və "Səhih-Müslim"də onun Bəra ibn Azibdən, anasının cəddi Abdullah ibn Yəziddən, Abdullah ibn Əbu Ovf, Süleyman ibn Sürəd və Səid ibn Cübeyrdən nəql etdiyi hədisləri mülahizə edə bilərsiniz. Amma Zərr ibn Həbiş və Əbu Hazim Əşcəidən söylədiyi hədis yalnız "Səhih-Müslim"dədir. (Yeri gəlmişkən qeyd etmək lazımdır ki,) Əməş, Müsər, Səid, Yəhya ibn Səid Ənsari, Zeyd ibn Əbu Ənisə və Füzeyl ibn Qəzvan ondan rəvayət nəql etmişlər.

### *58. Ətiyyə ibn Səd ibn Cənadə Ufi Əbül-Həsən Kufi, məşhur tabeinlərdəndir.*

Zəhəbi "Mizanül-Etidal"da adını çəkmiş və Salim Muradidən nəql etmişdir ki, Ətiyy şiəliyə inanırdı. İbn Qüteybə "Maarif"də hədis səhabələrindən danışarkən onun nəvəsi Ufi Qazi, yəni Hüseyn ibn Həsən ibn Ətiyyədən bəhs edəndən sonra ondan söz açaraq demişdir: "Ətiyyə ibn Səd Həccacın zamanında din və şəriət bilənlərdən idi və şiəliyə inanırdı." O, "Maarif" kitabının "firqələr" babında şiə şəxsiyyətləri sırasında, yenə Ətiyyə ibn Ufini onlardan hesab etmişdir. İbn Səd "Təbəqat"ın[1] 6-cı cildində onu şiəlikdə nüfuzlu və sabitqədəm kimi təqdim etmişdir. Atası Səd ibn Cənadə imam Əlinin (ə) əshabələrindən idi. Kufədə olan zaman imam Əlinin (ə) yanına gəldi və ərz etdi: Ey Əmirəl-möminin! Mənim bir

---

[1] 212-ci səhifə.

oğlum olmuşdur, ona ad qoy. İmam buyurdu: "Bu Allah ətiyyəsidir (hədiyyəsidir)." Ona görə də Ətiyyə adlandı.

"Təbəqat"da İbn Səd deyir: "Ətiyyə, Əşəsin oğlu ilə birlikdə Həccaca qarşı mübarizəyə qalxdı. İbn Əşəsin orudusu məğlub olandan sonra Ətiyyə fars vilayətinə qaçdı. Həccac öz naibi Məhəmməd ibn Qasimə yazdı: Ətiyyəni çağır və ondan tələb et ki, Əliyə (ə) lənət etsin, əgər belə etməsə, onda ona dörd yüz qamçı vur və başını və saqqalını qırxdır. Həmin şəxs onu çağırdı və Həccacın məktubunu ona oxudu. Ətiyyə qulaq asmadı. Hakim ona dörd yüz qamçı vurdu, başını və saqqalını qırxdırdı.

Qüteybə Xorasanın valisi olan zaman Ətiyyə ora getdi. Ömər ibn Hübeyrə (İraqın valisi olan zaman) Ətiyyə ona məktub yazıb İraqa gəlməyə icazə istədi. O, icazə verdi. Ətiyyə Kufəyə gəldi və 111-ci ilə qədər Kufədə yaşadı.

İbn Səd deyir: "O, etimadlı şəxs idi və ondan qiymətli hədislər yadigar kimi qalmışdır."

Mən deyirəm: Onun nəvələri vardır ki, hamısı Ali-Məhəmməd (s) şiələrindəndir. Onların arasında fazil, ağıllı, zirək və görkəmli şəxslər vardır. Məsələn, Həfsə ibn Qiyasdan sonra Şərqiyyənin (Misirin şəhərlərindən biri) rəhbərliyini və qazilik işlərini öhdəsinə alan[1] Hüseyn ibn Həsən ibn Ətiyyəni göstərmək olar ki, sonra o, Mehdinin qoşununa köçürüldü və 201-ci ildə vəfat etdi. Həmçinin, Məhəmməd ibn Səd ibn Məhəmməd ibn Həsən ibn Ətiyyə Bağdadın[2] qazisi və hədisçilərindən idi. O, atası Səddən və əmisi Hüseyn ibn Həsən Ətiyyədən hədis nəql etmişdir.

Ətiyyə Ufinin şərhi-halına qayıdaq. Əbu Davud, Tirmizi onun hədislərindən dəlillər gətirmişlər. Bu iki şəxsin "Səhih"ində İbn Abbas və İbn Ömərdən nəql etdiyi hədislər vardır.

O, Əli ibn Həsəndən, atasından və behişt qadınlarının seyyidəsi Zəhradan da hədis nəql etmişdir. Oğlu Həsən ibn Ətiyyə, Həccac ibn Ərtat, Müsər, Həsən ibn Üdvan və başqaları ondan hədis nəql etmişlər.

### *59. Əla ibn Saleh Teymi Kufi.*

Əbu Hatəm onun adını çəkmiş ("Mizanül-Etidal"da şərhi-halında deyildiyi kimi) və onu xalis şiələrdən hesab etmişdir.

Mən deyirəm: Buna baxmayaraq Əbu Davud, Tirmizi onun hədislərindən dəlillər gətirmişlər və İbn Müin onu etimadlı saymışdır. Əbu Hatəm və Əbu Zərə deyiblər: "Hədislərinə əməl etməyin eybi yoxdur." Siz onun Yəzid ibn Əbu Məryəm, Həkəm ibn Üteybədən nəql etdiyi hədislərini "Səhih-Tirmizi" və "Səhih-Əbu Davud" və sünnə əhlinin başqa hədis kitablarında mülahizə edə bilərsiniz. Əbu Nəim, Yəhya ibn Bəkir və bu təbəqədən digər bir qrup ondan hədis söyləmişlər. Və ibn Əla məkkəli şair Əla ibn Əbil-Abbas deyildir, belə ki, şair Əla Süfyan ibn Üyəynə və Süfyan Surinin şeyx və ustadlarından və Əbu Tüfeyldən rəvayətlər nəql etmişdir. Buna görə də o, Əla ibn Salehdən əvvəl yaşamışdır. Bundan əlavə, Əla ibn Saleh Kufə əhli, şair Əla isə Məkkə əhlidir. Zəhəbi "Mizanül-Etidal"da hər ikisinin adını çəkmiş və nəql etmişdir ki, hər ikisi şiə şəxsiyyətlərindəndir. Şair Əlanın Əmirəl-möminin (ə) haqqında mədhləri vardır ki, onlar haqqı aşkar etməkdə kəskin və parlaq dəlillərdir. Onun imam Hüseyn (ə) haqqında mərsiyələri də vardır... Allah, Peyğəmbər (s) və möminlər buna görə ona minnətdardırlar.

### *60. Əlqəmə ibn Qeys ibn Abdullah Nəxəi Əbu Şibl, Yəzidin oğulları Əsvəd və İbrahimin əmisi.*

---

[1] İbn Qüteybənin "Maarif" kitabının 176-cı səhifəsində yazıldığı kimi.

[2] Bu məlumat babası Səd ibn Cənadənin "Əl-İsabə"nin 1-ci cildinin əvvəlində qeyd olunub.

O, Ali-Məhəmmədin övliyalarından idi. Şəhristani "Miləl və Nihəl" kitabında onu şiə adlandırmışdır. O, elə hədis başçılarındandır ki, Əbu İshaq Cüzcani adlarını çəkmiş və demişdir: "Bir qrup Kufə əhli var idi ki, camaat onların məzhəbinə (şiə olduqlarına görə) sitayiş etmirdi. Onlar Kufə hədisçilərinin başçıları idilər."

Əlqəmə və qardaşı Übeyy Əlinin (ə) əshabələrindən idilər və "Siffeyn" döyüşündə iştirak etmişdilər. Übeyy döyüşün qızğın çağında şəhid olmuşdur. Çox namaz qıldığı üçün ona "Übeyyüs-səlat" deyirdilər. Amma Əlqəmə qılıncını o zalım və üsyançıların qanı ilə sirab etdi. O həngamədə ayağı zədələndi. Deməli o, Allah yolu mücahidlərindən sayılır və son nəfəsə qədər Müaviyə ilə düşmən olaraq qaldı. Bir dəfə Əbu Bərdə, Əlqəmənin adını Müaviyənin hökmranlığı zamanında onun görüşünə gedəcək adamların sırasında yazdı. Əlqəmə razı olmayıb Əbu Bərdəyə məktub yazdı: "Adımı sil, adımı sil." Bu məsələni İbn Səd "Təbəqat" kitabının 6-cı cildində (57-ci səh.-də) onun şərhi-halında yazmışdır.

Sünnə əhli –onun şiə olmasından agah olmalarına baxmayaraq– onu ədalətli və əzəmətli saymışdır. "Sihahi-Sittə" əshabələri və başçıları onun hədislərindən dəlil gətirmişlər. Siz onun "Səhih-Buxari" və "Səhih-Müslim"də ibn Məsud və Əbu Dərda və Ayişədən nəql etdiyi hədislərini mülahizə edə bilərsiniz. Amma Osman və İbn Məsuddan söylədiyi hədislərini "Səhih-Müslim"də oxuya bilərsiniz. Qardaşı oğlu İbrahim Nəxəi ondan hədis nəql etmişdir ki, "Səhih-Buxari" və "Səhih-Müslim"də vardır. Yenə Əbdür-Rəhman ibn Yəzid, İbrahim ibn Yəzid və Şəbi ondan rəvayət söyləmişlər ki, "Səhih-Müslim"də mövcuddur.

O, 62-ci il Kufədə vəfat etmişdir. Allah rəhmət eləsin.

### *61. Əli ibn Bədimə.*

Zəhəbi "Mizanül-Etidal" kitabında adını çəkmiş və Əhməd ibn Hənbəldən nəql etmişdir ki, onun hədisləri yaxşı və onlara əməl olunmağa və dəlil gətirilməyə səlahiyyətlidir. O, şiə başçılarındandır. İbn Müindən nəql etmişdir ki, ona etimad bəsləmiş və demişdir ki, o, Əkrəmə və başqalarından hədis söyləmiş, Şöbə və Müəmmər ondan hədis nəql etmiş və adının yanında rəmz yazmaqla hədis kitablarını yazanların ondan hədis nəql etmələrinə işarə etmişdir.

### *62. Əli ibn Cəd Əbül-Həsən Cövhəri Bağdadi Mövla Bəni Haşim.*

O, Buxarinin ustadlarından biridir. İbn Qüteybə "Maarif" kitabında onu şiə şəxsiyyətlərindən hesab etmiş və ("Mizanül-Etidal"da şərhi-halında yazıldığı kimi) haqqında nəql olunmuşdur ki, o, bütün altmış ili bir gün oruc tutar, bir gün iftar edərmiş (yəni bir gündən bir oruc tutardı). İbn Qeysərani "Cəmi beyni ricalis-səhiheyn" kitabında onun adını çəkmiş və demişdir ki, Buxari öz kitabında ondan on iki hədis nəql etmişdir.

Mən deyirəm: O, 203-cü ildə 96 yaşında vəfat etmişdir.

### *63. Əli ibn Zeyd İbn Abdullah ibn Zəhir ibn Əbu Məleykə ibn Cəzan Əbül-Həsən Qürəşi Teymi Bəsri.*

Əhməd İcli onu xatırlamış və demişdir: "O, şiə məzhəbinə inanırdı." Yəzid ibn Zəri deyir: "Əli ibn Zeyd rafizidir."

Bununla belə Şöbə, Əbdül-Varis və bu təbəqədən olan tabein alimləri ondan hədis və elm öyrənmişlər. O, Bəsrənin üç fəqihindən biri olmuşdur. Artıq Qətadə, Əli ibn Zeyd və Əşəs Hədaninin hər üçünün kor olduğu zaman Həsən Bəsri vəfat edərkən, Əli ibn Zeyddən xahiş etdilər ki, onun yerinə keçsin). Bu onun fəzlinə xatir idi, çünki o, əzəmətdə elə bir mərhələyə çatmışdı ki, məclisində yalnız tanınmış, böyük şəxsiyyətlər otururdu və belə bir mövqe Bəsrədə bir şiə üçün nadir hallardan sayılırdı.

Zəhəbi "Mizanül-Etidal"da onun adını çəkmiş və dediklərimizi yazmışdır. Qeysərani "Cəmi beyni ricali-səhiheyn" kitabında şərhi-halını yazmış və xatırlamışdır ki, Müslim onun rəvayətlərini "Sabit Bənani" ilə birlikdə nəql etmişdir. O, Ənəs ibn Malikdən cihadaa aid rəvayətlər nəql etmişdir.

O, 131-ci ildə vəfat etmişdir.

### *64. Əli ibn Saleh, Həsən ibn Salehin qardaşı.*

Fəzilətlərindən bir qismini qardaşı Həsənin şərhi-halında yazdıq. O, qardaşı kimi şiə alimlərindəndir. Müslim və "Səhih"ində "büyu" (al-ver) fəslində onun hədislərindən dəlillər gətirmişdir. Əli ibn Saleh, Səlmə ibn Küheyldən, Vəki isə Əli ibn Salehdən hədis nəql etmişdir ki, hər ikisi şiələrdəndir.

O və qardaşı Həsən 100-cü ildə anadan əkiz doğulmuşlar.

O, 151-ci ildə vəfat etmişdir.

### *65. Əli ibn Qürab Əbu Yəhya Fəzari Kufi.*

İbn Həyyan deyir: "Şiəlikdə ifrata varmışdır."

Mən deyirəm: Buna görə də Cüzcani demişdir: "O, süqut etmişdir, sözü qəbul olunmur və Əbu Davud demişdir: Hədislərini söyləmirlər.

Amma İbn Müin və Darü-Qütni ona etimad etmiş və Əbu Hatəm demişdir: "Hədislərində nöqsan yoxdur." Əbu Zərə deyir: "Məncə o, düzdanışandır." Əhməd ibn Hənbəl deyir: "Düzdanışandır." Zəhəbi onu "Mizanül-Etidal"da yad etmiş və "cərh və tədil" imamlarının (alimlərinin) sözlərini eşitdiyi kimi, nəql etmiş və adının kənarında "S. Q." əlaməti qoymaqla "sünən" yazıçılarının onun hədislərindən dəlillər gətirmələrinə işarə etmişdir. O, Hişam ibn Ürvə və Übeydullah ibn Ömərdən hədis nəql etmişdir.

İbn Səd "Təbəqat" kitabının altıncı cildinin 273-cü səhifəsində adını çəkib demişdir: "İsmail ibn Rəca Osman haqqında Əməşin hədisini ondan nəql etmişdir.

O, 184-cü ilin başlanğıcında Harunun hökmranlığı zamanı Kufədə vəfat etmişdir.

### *66. Əli ibn Qadim Əbül-Həsən Xüzai Kufi.*

Əhməd ibn Fəratın ustadı olmuş, Yəqub Fəsai və bu təbəqədən bir qrup şəxslər ondan hədis söyləmiş və rəvayətlərindən dəlil gətirmişlər. İbn Səd "Təbəqat"ın altıncı cildinin 282-ci səhifəsində onu xatırlamış və aydınlaşdırmışdır ki, o, çox inadkar şiə olmuşdur.

Mən deyirəm: Elə buna görə Yəhya onu zəif hesab etmişdir. Amma Əbu Hatəm demişdir: "O düzdanışandır. Zəhəbi "Mizanül-Etidal"da onu yad etmiş, dediyim kimi, üləmanın onun haqqında dedikləri sözləri nəql etmiş və adının yanında rəmz qoymaqla Əbu Davud və Tirmizinin onun hədislərini nəql etdiklərinə işarə etmişdir. Bu iki şəxsin fikrinə görə o, Səid ibn Əbu Ərubə və Qətərdən hədis nəql etmişdir. Allah rəhmət eləsin.

### *67. Əli ibn Münzər Təraifi.*

Tirmizi, Nisai, İbn Said, Əbdür-Rəhman İbn Əbu Hatəm və bu təbəqədən olan başqalarının ustadıdır və ondan hədis söyləmiş və hədislərindən dəlillər gətirmişlər. Zəhəbi "Mizanül-Etidal"da adını çəkmiş və "T. S. Q." rəmzini adının yanında yazmaqla "sünən" yazanların onun hədislərini nəql etdiklərinə işarə etmişdir. O, Nisaidən nəql etmiş və təsdiq etmişdir ki, Əli ibn Münzər xalis şiə və etimadlıdır. İbn Əbu Hatəm demişdir: "O, düzdanışandır." O, İbn Füzeyl, İbn Üyəynə və Vəlid ibn Müslimdən hədis söyləmişdir. Buna görə Nisai şəhadət verir ki, o şiədir, sonra öz "Səhih"ində onun hədislərindən dəlil gətirmişdir. Deməli, nahaq söz danışanlar ibrət almalıdırlar.

İbn Münzər 256-cı ildə vəfat etmişdir. Allah rəhmət eləsin.

### *68. Əli ibn Haşim ibn Bərid Əbül-Həsən Kufi Xəzzaz Aizi.*

İmam Əhmədin şeyx və ustadlarındandır. Əbu Davud onu zikr etmiş və demişdir: "Etimadlı şəxs və şiədir." İbn Həyyan demişdir: "Əli ibn Haşim şiəlikdə ifrata varmışdır." Cəfər ibn Əban deyir: "Eşitdim İbn Nümeyr deyirdi: "Əli ibn Haşim şiəlikdə ifrata varmışdır." Buxari deyir: "Əli ibn Haşim və atası məzhəblərində ifrata varardılar."

Mən deyirəm: Buna görə Buxari onu tərk etmiş və hədislərini qəbul etməmişdir. Amma "sihah" yazanlardan beş nəfər başqası onun hədislərindən dəlil gətirmişlər. İbn Müin və başqaları ona etimad etmişlər. Əbu Davud onu "sabit" və etimadlı şəxslərdən hesab etmişdir. Əbu Zərə demişdir: "O, düzdanışandır." Nisai deyir: "Onun nöqsanı yoxdur və hədislərinə əməl etmək olar." Zəhəbi "Mizanül-Etidal" kitabında onun adını çəkmiş, bu deyilənləri onun haqqında nəql etmişdir." Xətib Bağdadi,[1] Əli ibn Haşimin şərhi-halında nəql etmişdir ki, Əli ibn Mədəni demişdir: "Əli ibn Bərid düzdanışan şiə idi." Xətib, Məhəmməd ibn Əli Acuridən belə nəql edir: "Əbu Davuddan Əli ibn Haşim ibn Bəridi soruşdum. O, dedi: Onun haqqında İsa ibn Yunisdən soruşdular, o, cavab verdi: O, şiələrdəndir. Onlar yalana yol verməzlər." Xətib həmçinin İbrahim ibn Yəqub Cüzcanidən də nəql edir ki, Haşim ibn Bərid və oğlu Əli ibn Haşim məzhəblərində ifrata varıblar.

Mən deyirəm: Buna baxmayaraq "Sihah" yazanlardan beş nəfəri onun hədislərindən dəlil gətirmişlər. Siz onun hədislərini "Səhih-Müslim"in "nikah" kitabında Hişam ibn Ürvədən və "istezan"da Təlhə ibn Yəhyadan söylədiyi hədisi mülahizə edə bilərsiniz. Yenə Əbu Müəmmər, İsmail ibn İbrahim və Abdullah ibn Ömər ibn Əbanın ondan nəql etdikləri hədisləri "Səhih-Müslim"də vardır. Əhməd Hənbəl və Əbu Şeybənin oğulları və bu təbəqədən bir dəstə Əli ibn Hişamın tələbələri ondan hədis nəql etmişlər. Zəhəbi deyir: "O, 181-ci ildə vəfat etmişdir." Zəhəbi əlavə etmişdir ki, o, Əhmədin vəfat edən ilk ustadıdır.

### *69. Əmmar ibn Ruzeyq Kufi.*

Süleymani onu rafizi adlandırmışdır. Belə ki, Zəhəbi "Mizanül-Etidal" kitabında Əmmarın şərhi-halında bunu aydınlaşdırmışdır.

Buna baxmayaraq Müslim və Nisai hədislərindən dəlillər gətirmişlər. Onun Əməş, Əbu İshaq Səbii, Mənsur və Abdullah ibn İsadan nəql etdiyi hədisləri "Səhih-Müslim"də vardır. Müslimin fikrincə, Əbül-Cəvab, Əbül-Əhvəs Səlam, İbn Əhməd Zübeyri və Yəhya ibn Adəm ondan hədis söyləmişlər.

### *70. Əmmar ibn Müaviyə ya İbn Əbu Müaviyə, ona İbn Xəbbab, bəzən İbn Saleh Duhəni Bəcəli Kufi də deyilir. Künyəsi Əbu Müaviyədir.*

O, şiə qəhrəmanlarından sayılır. Ali-Məhəmmədə (s) məhəbbət bəslədiyi üçün çoxlu əziyyətlər çəkmiş və Bişr ibn Mərvan onun ayaqlarını topuqdan kəsmişdir. O, Süfyan ibn Üyəynə, Süfyan Suri, Şərik və Əbarın ustadı olmuş, ondan hədis öyrənmiş və dəlillər gətirmişlər. Əhməd, İbn Müin, Əbu Hatəm və başqaları ona etimad etmişlər. Zəhəbi onu yad etmiş və dediklərimizi "Mizanül-Etidal"da şərhi-halında xatırlamış, şiə və etimadlı olduğunu aydınlaşdırmışdır. Açıq demişdir ki, Əqilidən başqa kimsənin onun haqqında əskik söz dediyini bilmir və şiəlikdən savayı başqa bir eyibi yoxdur.

O, 133-cü ildə vəfat etmişdir. Allah rəhmət eləsin.

---

[1] 12-ci cild, 116-cı səhifəyə müraciət olunsun.

### *71. Əmr ibn Abdullah Əbu İshaq Səbii Həmdani Kufi.*

"Maarif" kitabında İbn Qüteybə və "Miləl və Nihəl" kitabında Şəhristaninin aşkar dediyinə əsasən, o, şiə olmuş və hədis yazanların başçılarındandır. Nasibilər isə beləl追inin məzhəbini üsul və füruda yaxşı hesab etmirlər. Çünki onlar Əhli-beyt yolu ilə gedirlər və dinə aid hər bir şeydə onlara tabedirlər. Buna görə də Cüzcani –"Mizanül-Etidal"da Zəbidin şərhi-halında yazıldığı kimi–deyir: "Kufədə bir dəstə adam var ki, camaat onların dinini yaxşı hesab etmir. Onlar Kufə hədisçilərin başçıları və rəhbərləri – Əbu İshaq, Mənsur, Zübeyd Yami, Əməş və onların yaxınları və yaşıdlarıdır. Əgər camaat onları qəbul edirsə, bu yalnız onların hədisdə doğru danışmaqlarına xatirdir. Belə ki, əgər onlar "mürsəl" (kamil sənədi olmayan) hədisləri belə nəql etsələr camaat qəbul edər."

Mən deyirəm: Əbu İshaqın nəql etdiyi mürsəl hədislər nasibilərin qəbul etmədiyi – "Mizanül-Etidal"da yazıldığı kimi– Əmr ibn İsmailin Əbu İshaqdan nəql etdiyi rəvayətlərdir ki, Peyğəmbər (s) buyurmuşdur: "Əli elə bir ağacdır ki, mən onun gövdəsi, o isə şaxələridir. Həsən və Hüseyn (ə) meyvəsi, şiələr isə onun yarpaqlarıdır."

Müğeyrənin dediyi "Kufə əhlini Əbu İshaq və Əməş həlak edibdir." – sözünü yalnız buna görə deyiblər ki, onlar Ali-Məhəmmədin (s) xalis şiələrindən, Peyğəmbərin (s) hədislərinin qoruyucuları, elm dəryası və Allahın fərmanının icrasına can-başla hazır olanlardan idilər. "Sihahi-Sittə"nin müəllifləri və başqaları bu iki nəfərin hədislərindən dəlillər gətirmişlər. Siz Əbu İshaqın Bəra ibn Azib, Zeyd ibn Ərqəm, Harisə ibn Vəhəb, Süleyman ibn Sürəd, Nöman ibn Bişr, Abdullah ibn Yəzid Xətmi və Əmr ibn Meymunıdan nəql etdiyi hədislərini "Səhih-Müslim" və "Səhih-Buxari"də oxuya bilərsiniz. Şöbə, Suri, Züheyr və nəvəsi Yusif ibn İshaq ibn Əbu İshaqın ondan nəql etdikləri hədisləri bu iki səhihdə oxuyun.

İbn Xəlləkanın "Vəfayətül-Əyan"da onun şərhi-halında dediyinə əsasən o, Osmanın xilafətinin sonuna üç il qalmış dünyaya gəlmiş və 127, ya 128 və ya 129-cu ildə vəfat etmişdir. Yəhya ibn Müin və Mədaini demişlər: "O, 132-ci ildə vəfat etmişdir." Allah daha agahdır.

### *72. Ovf ibn Əbu Cəmilə Bəsri Əbu Səhl, əsli "Ərabi" olmamasına baxmayaraq Ərabi adı ilə məşhurdur.*

Zəhəbi "Mizanül-Etidal" kitabında onu xatırlayaraq demişdir: Həmişə ona Ovfus-Sidq (düzdanışan) deyərmişlər və deyilənə görə o şiə idi. Bir çoxları ona etimad ediblər." Sonra Cəfər ibn Süleymandan nəql etmişdir ki, o şiədir və Bəndardan nəql etmişdir ki, o rafizidir.

Mən deyirəm: İbn Qüteybə onu "Maarif" kitabında şiə şəxsiyyətlərindən hesab etmişdir. Ruh, Huzə, Şöbə, Nəzr ibn Şəmil, Osman ibn Heysəm və bu təbəqədən bir dəstə ondan hədis öyrənmişlər. "Sihahi-Sittə"nin müəllifləri və başqaları onun hədislərindən dəlil gətirmişlər. Onun Həsən, Səid, Əbül-Həsən Bəsri, oğulları Məhəmməd ibn Sirin və Səyyar ibn Səlamədən nəql etdiyi hədisləri "Səhih-Buxari"də vardır. Nəzr ibn Şəmildən nəql etdiyi rəvayətini "Səhih-Müslim"də görmək olar. Lakin Əbu Rəca Ətarudidən söylədiyi hədislərini "Səhih-Buxari" və "Səhih-Müslim"də müşahidə etmək olar.

O, 140-cı ildə vəfat etmişdir. Allah rəhmət eləsin.

## *"Fa"*

### *73. Fəzl ibn Dükeyn.*

Fəzl ibn Dükeyn (Dükeyn–Əmr ibn Əhməd ibn Züheyr Mollaidir) Kufəli və Əbu Nəim adı ilə məşhurdur. O, "Səhih"də Buxarinin ustadıdır. Sünnə əhlinin adlı-sanlı bir qrup alimləri,

habelə İbn Qüteybə “Maarif” kitabında onu şiə şəxsiyyətlərindən saymışlar. Zəhəbi “Mizanül-Etidal” kitabında onu yad edərək demişdir: “Fəzl ibn Dükeyn, Əbu Nəim hafiz (hafizəli-əzbərçi, minlərcə hədisi əzbər bilən) və höccətdir. Təkcə bir eybi vardır ki, şiədir. (Nəql edir ki,) İbn Cüneyd Xətəli demişdir: İbn Müindən eşitdim, deyirdi ki, gərək bir adamın adı çəkiləndə Əbu Nəimin sözünə fikir verilsin. Əgər desə ki, filankəs yaxşı adamdır və onu tərifləyirsə, deməli, o şəxs şiədir. Lakin, desə ki, filankəs “mürciə”dir, başa düşmək lazımdır ki, sünni şəxsi nəzərdə tutur. Deməli, “mürciə” (burada sünni) şəxs bizə mötəbər sayılacaq.” Zəhəbi deyir: “Bu söz sübut edir ki, Yəhya ibn Müinin “mürciə”yə doğru meyli varmış.

Mən deyirəm: Yenə sübut olunur ki, Fəzl möhkəm və qatı şiədir. Zəhəbi “Mizanül-Etidal”da Xalid ibn Müxəllədin şərhi-halında Cüzcanidən nəql etmişdir ki, Əbu Nəim kufiyul-məzhəb idi (yəni, şiə imiş). Xülasə, Fəzl ibn Dükeynin şiə olmasına şəkk-şübhə yoxdur. Bununla belə, “Sihahi-Sittə”nin müəllifləri hədislərindən dəlillər gətirmişlər. Onun Həmmam ibn Yəhya, Əbdül-Əziz ibn Əbu Sələmə, Zəkəriyya ibn Əbu Zaidə, Hişam Dəstvai, Əməş, Müsər, Suri, Malik, ibn Üyəynə, Şeyban, Züheyrdən nəql etdiyi hədisləri “Səhih-Buxari”də vardır. Seyf ibn Əbu Süleyman, İsmail ibn Müslim, Əbu Asim Məhəmməd ibn Əyyub Səqəfi, Əbu Ümeys, Musa ibn Əli, Əbu Şəhab Musa ibn Nafe, Süfyan, Hişam ibn Səd, Əbdül-Vahid ibn Əymən, İsraildən söylədiyi hədislərini “Səhih-Müslim”də oxuya bilərsiniz. Buxari ondan heç bir vasitə olmadan və Müslim isə Həccac ibn Şair, Əbd ibn Həmid, İbn Əbu Şeybə, Əbu Səid Əşcə, İbn Nümeyr, Abdullah Darəmi, İshaq Hənzəli, Züheyr ibn Hərb vasitəsilə hədis nəql etmişlər.

O, 130-cu ildə Kufədə anadan olmuş əv 210-cu il Şəban ayının sonu çərşənbə günü Mötəsimin hökmranlığı zamanı vəfat etmişdir. İbn Səd “Təbəqat” kitabının altıncı cildinin 279-cu səhifəsində onu xatırlayıb demişdir ki, o, etimadlı və çoxlu hədis və dəlillər bilən bir şəxs idi.

### *74. Füzeyl ibn Mərzuq Əğər Rəvasi Kufi Əbu Əbdür-Rəhman.*

Zəhəbi “Mizanül-Etidal”da onun adını çəkmiş və demişdir ki, şiəlikdə məşhur idi və Süfyan ibn Üyəynə və İbn Müindən onun etimadlı olduğunu nəql etmişdir. Zəhəbi əlavə edərək qeyd edir ki, İbn Ədi deyir: “Mən ümidvaram ki, onun hədisdə nöqsan və eyibi yoxdur.” Sonra Heysəm ibn Cəmildən nəql etmişdir ki, Füzeyl ibn Mərzuqdan araya söz salıb demişdir: “O, həm pəhrizkarlığı, həm də fəzl və elmi nöqteyi-nəzərindən hidayət imamı və parlaq təriqin yol göstərənlərindəndir.”

Mən deyirəm: Müslimöz “Səhih”ində Füzeylin Şəfiq ibn Üqbədən namaz haqqında və Ədi Sabitdən zəkat haqqında nəql etdiyi hədisi dəlil gətirmişdir. Müslimin fikrincə, Yəhya ibn Adəm, Əbu Üsamə zəkat barəsində ondan hədis nəql etmişlər və “sünən” və “xəbərlər” kitablarında nəql olunanlara əsasən, Vəki, Yəzid, Əbu Nəim, Əli ibn Cəd və bu təbəqədən başqa bir dəstə şəxslər ondan hədis nəql etmişlər.

Amma Zeyd ibn Hübabın onun hökmranlığa aid söylədiyi hədis isə onun haqqında deyilmiş yalandır.”

O, 158-ci ildə vəfat etmişdir.

### *75. Fitr ibn Xəlifə Hənnat Kufi.*

Abdullah ibn Əhməd atasından Fitr ibn Xəlifə haqda soruşduqda, cavab verdi: “ O, etimadlıdır və hədislərindən dəlil gətirilməyə səlahiyyəti var. Hədisləri dəyərli, lakin özü isə şiə məzhəblidir.” Abbas, İbn Müindən nəql edir ki, Fitr ibn Xəlifə şiədir. Əhməd demişdir: “Fitr, Yəhya ibn Müinin fikrinə görə etimadlıdır, lakin dönük və ifrata varmış şəxsdir.”

Amma Əbu Bəkr ibn Əyyaş deyir: “Fitr ibn Xəlifənin elə bir rəvayəti yoxdur ki, ona əməl olunmasın, əgər olsa da pis məzhəbinə görədir (yəni şiə məzhəbindən savayı onda başqa bir eyib yoxdur).

Cüzcani demişdir: “Fitr ibn Xəlifə yolunu azmış adamdır. Cəfər Əhmər ondan eşidib ki, ölən vaxt deyirmiş: Nə yaxşı olardı ki, bədənimdəki hər bir tükün yerində bir mələk olaydı və mənim Əhli-beytə (ə) olan sevgi və məhəbbətimə görə Allahı zikr edəydi.”

Fitr Əbu Tüfeyl, Əbu Vail və Mücahiddən hədis nəql etmişdir. Əbu Üsamə, Yəhya ibn Adəm, Qəbisə və bu təbəqədən olan başqaları ondan hədis nəql etmişlər.

## *“Mim”*

### *76. Malik ibn İsmail ibn Ziyad ibn Dirhəm Əbu Qəssan Kufi Nəhdi.*

Buxarinin “Səhih”də ustadıdır. İbn Səd “Təbəqat”ın altıncı cildinin 282-ci səhifəsində onun şərhi-halında dediyi sonuncu cümlə belədir: Əbu Qəssan etimadlı və düzdanışan bir şəxs, möhkəm və qatı bir şiə idi. Zəhəbi “Mizanül-Etidal”da onun əzəmət və böyüklüyünə dəlalət edən fikirlər söyləmiş və demişdir: “O, şiəliyi öz ustadı Həsən ibn Salehdən öyrənmişdir. Və İbn Müin demişdir: “Kufədə Əbu Qəssandan möhkəm bir adam tapılmaz.” Əbu Hatəm demişdir: “Mən Kufədə ondan etibarlı adam görmədim. Nə Əbu Nəim, nə də ondan başqası onun kimi fəzl və ibadətə malik olmayıb. Mən ona baxdıqda, elə bilirdim qəbirdən yenicə çıxıb. Alnında səcdədən iki əlamət yeri var idi.”

Mən deyirəm: Buxari “Səhih”ində yeri gəldikcə, heç bir vasitə olmadan onun hədislərini nəql etmişdir. Müslim “Səhih”inin “hüdud” hissəsində Harun ibn Abdullah vasitəsi ilə ondan hədis nəql etmişdir.

Buxarinin fikrincə, onun ustad və şeyxləri İbn Üyəynə, Əbdül-Əziz ibn Əbu Səlmə və İsraildir. Buxari şəxsən onun özündən və Müslim isə Züheyr ibn Müaviyə vasitəsilə ondan hədis öyrənmişdir.

O, 219-cu ildə Kufədə vəfat etmişdir.

### *77. Məhəmməd ibn Xazim[1] (Əbu Müaviyə adı ilə də məşhurdur) Zərir Təmimi Kufi.*

Zəhəbi “Mizanül-Etidal”da onu yad edib demişdir: “Məhəmməd ibn Xazim Zərir etimadlı şəxsdir. Mən onun zəif olmasına aid söz eşitmişəm. Tezliklə “künyələr” hissəsində bu haqda danışılacaqdır.” Sonra “künyələr” hissəsində deyir: “Əbu Müaviyə Zərir etimadlı və böyük şəxslərin rəhbərlərindən biridir. Haşim deyibdir ki, Buxari və Müslim onun hədislərindən dəlil gətirmişlər və şiəlikdə ifrat etməkdə məşhurdur.”

Mən deyirəm: “Sihahi-Sittə” əshabələri onun hədislərindən dəlil gətirmişlər. Zəhəbi adının yanında “E.” əlaməti qoymaqla “Sihah” yazıçılarının onun hədislərindən dəlil gətirmələrinə işarə etmişdir. Siz onun Əməş və “Hişam ibn Ürvə”dən nəql etdiyi hədislərini “Səhih-Buxari” və “Səhih-Müslim”də tapa bilərsiniz. O, bir sıra etimadlı rəvayət söyləyənlərin rəvayətlərini də nəql etmişdir ki, bunlar “Səhih-Müslim”də vardır. “Səhih-Buxari”yə əsasən, onların Əli ibn Mədini, Məhəmməd ibn Səlam, Yusif ibn İsadır, ki, bunlar “Səhih-Müslim”də də vardır. “Səhih-Buxari”yə əsasən, Əli ibn Mədini, Məhəmməd ibn Səlam, Yusif ibn İsa, Qüteybə və Müsəddəd ondan hədis nəql etmişlər. “Səhih-Müslim”ə əsasən, Səid Vasiti, Səid ibn Mənsur, Əmr Naqid, Əhməd ibn Sənan, İbn Nümeyr, İshaq Hənzəli, Əbu Bəkr ibn Əbu Şeybə, Əbu Küreyb və Züheyr ondan hədis nəql etmişlər. Amma hər iki “Səhih”ə əsasən Musa Zəmən ondan hədis nəql etmişdir. Əbu Müaviyə 113-cü ildə doğulmuş və 195-ci ildə vəfat etmişdir.

---

[1] Bəziləri səhvən onu Hazim qeyd ediblər.

***78. Məhəmməd ibn Abdullah Zəbbi Təhani Nişaburi Əbu Abdullah Hakim, hafiz və hədisçilərin imamı və 1000-dən artıq kitabın müəllifi.***

Elmi səfərlərində çoxlu şəhərlərə getmiş və 2000-ə qədər ustaddan hədis və elm öyrənmişdir. Dövrünün böyük rəhbərlərindən Səluki, imam İbn Furək və başqaları onu bilikdə özlərindən əvvəl bilmişlər. Fəzilətli olduğuna görə ona həddindən çox hörmət edirdilər. Onun hamıdan üstün olmasına şəkk-şübhə yoxdur. Ondan sonra gələnlərin hamısı onun yetişdirmələridir. O, şiə qəhrəmanlarından, hafizlərindən, məzhəb və şəriətə xidmət edənlərdən olmuşdur. Deyilənləri Zəhəbinin "Təzkirətül-Hüffaz" kitabında, onun şərhi-halında oxuyun. Zəhəbi onun şərhi-halını "Mizanül-Etidal" kitabında yazmış və demişdir: "O, rəhbər və düzdanışan imam və məşhur şiədir." İbn Tahirdən nəql etmişdir ki, Əbu İsmail və Abdullah Ənsaridən hakim Əbu Abdullah haqqında soruşarkən, cavabında dedilər: "Hədisdə rəhbər və imamdır, amma xəbis (pis) bir rafizidir." Zəhəbi bu hədisi ondan nəql etmişdir: "Mustafa (s) göbəyi kəsilmiş və sünnət olunmuş halda dünyaya gəlmişdir və Əli (ə) Peyğəmbərin naibi və vəsisidir." Zəhəbi belə əlavə edir: Amma onun düz danışmağı və biliyi haqqında hamı eyni fikirdədir.

O, 321-ci ilin rəbiül-əvvəl ayında anadan olmuş və 405-ci ilin səfər ayında vəfat etmişdir.

***79. Məhəmməd Übeydullah ibn Əbu Rafe Mədəni.***

O və atası Übeydullah, qardaşları Fəzl, Abdullah, babası Əbu Rafe, əmiləri Həsən, Müğeyrə və Əli, onların övlad və nəvələrinin hamısı layiqli şəxslər və şiə sələflərindəndir. Onların əsərləri və yazıları sübut edir ki, şiəlikdə sabitqədəm olmuşlar. Biz bu haqda "Füsulul-Mühimmə" kitabımızın 12-ci fəslinin ikinci bölməsində danışmışıq.

Amma haqqında bəhs etdiyimiz Məhəmmədi İbn Ədi yad edib –"Mizanül-Etidal"da şərhi-halının sonunda yazıldığı kimi– demişdir: "O, Kufə şiələrindəndir." Zəhəbi "Mizanül-Etidal"da adının kənarında "T. Q." hərflərini qoymaqla "sünən" yazıçılarının onun hədislərindən dəlillər gətirmələrinə işarə edib xatırlamışdır ki, o, atası vasitəsilə babasından, Məndəl və Əli ibn Haşim isə ondan hədis nəql etmişlər.

Mən deyirəm: Həban ibn Əli, Yəhya ibn Yəla və başqaları ondan rəvayət nəql ediblər. Məhəmməd ibn Übeydullah bəzən öz qardaşı Abdullah ibn Übeydullahdan rəvayət nəql etmiş, necə ki, tədqiqatla məşğul olanlar bunu bilirlər. Təbəri "Möcəmül-Kəbir" kitabında sənəd əsasında yazır: "Məhəmməd ibn Übeydullah ibn Əbu Rafenin atası babasından nəql etmişdir ki, Peyğəmbər (s) Əliyə buyurdu: "Behiştə birinci daxil olacaq şəxs mən, sən, Həsən və Hüseyndir, övladlarımız arxamızca, şiələrimiz sağ və sol tərəfdən ilk dəstə olaraq behiştə daxil olacaqlar."

***80. Məhəmməd ibn Füzeyl ibn Qəzvan Əbu Əbdür-Rəhman Kufi.***

İbn Qüteybə "Maarif" kitabında onu şiə şəxsiyyətlərindən hesab etmiş və İbn Səd "Təbəqat"ın altıncı hissəsinin 271-ci səhifəsində onun adını çəkib demişdir: "O, etimadlı, düzdanışandır və çoxlu hədislər nəql etmişdir. Amma bəziləri onun hədislərindən dəlil gətirmirlər." Zəhəbi "Mizanül-Etidal"ın sonunda "ata və əcdadı vasitəsilə tanınan şəxslər" babında deyir: "Düzdanışan şiədir." "Məhəmmədlər" hissəsində onun adını çəkərək demişdir: "Düz danışmaqda məşhurdur." və xatırlatmışdır ki, Əhmədin dediyinə görə o, şiədir və doğru hədislər nəql edib. Ardınca deyir: Əbu Davud deyib ki, "odlu-alovlu" bir şiədir və o, hədis və mərifət sahibidir. O, Quranı Həmzə üçün oxumuş və bir sıra kitablar yazmışdır. İbn Müin də

onu etimadlı bilmiş, Əhməd onu yaxşı adam hesab etmiş və Nisai demişdir: “Onda nöqsan yoxdur.”

Mən deyirəm: “Sihah” əshabələri və başqaları hədislərindən dəlil gətirmişlər. Onun, atası Füzeyl, Əməş, İsmail ibn Əbu Xalid və bu təbəqədən olan başqalarından nəql etdiyi hədisləri “Səhih-Buxari” və “Səhih-Müslim”də vardır. Buxarinin fikrincə, Məhəmməd ibn Nümeyr, İshaq Hənzəli, İbn Əbu Şeybə, Məhəmməd ibn Səlam, Qüteybə, İmran ibn Meysərə və Əmr ibn Əli ondan hədis nəql etmişlər. Müslimin fikrincə, Abdullah ibn Amir, Əbu Küreyb, Məhəmməd ibn Türeyf, Vasil ibn Əbdül-Əla, Züheyr, Əbu Səid Əşşəc, Məhəmməd ibn Yəzid, Məhəmməd ibn Müsənna, Əhməd Vəkii və Əbdül-Əziz ibn Ömər ibn Əban ondan rəvayət nəql etmişlər.

O, 195-ci il, başqa bir deyilənə görə 194-cü ildə vəfat etmişdir.

### *81. Məhəmməd ibn Müslim ibn Taifi.*

İmam Sadiqin (ə) əshabələrinin görkəmli şəxslərindən idi. Şeyxut-Taifə Əbu Cəfər Tusi onu rical kitabında şiə zikr etmiş və Həsən ibn Əli ibn Davud özünün “Müxtəsər” kitabının “etimadlı şəxslər” babında ondan bəhs etmişdir. Zəhəbi şərhi-halını yazmış və Yəhya ibn Müin və başqaları tərəfindən etimadlı sayıldığını qeyd edib və demişdir: “Qəsni, Yəhya ibn Yəhya və Qüteybə ondan rəvayət nəql ediblər.”Əbdür-Rəhman ibn Mehdi, Məhəmməd ibn Müslim Taifini xatırladaraq demişdir: “Kitabları doğrudur. “məruf” ibn Vasil demişdir: “Süfyan ibn Surini gördüm ki, Məhəmməd ibn Müslimin qarşısında diz çöküb dediyi hədisləri yazırdı.”

Mən deyirəm: Yalnız şiə olmasına xatir onu bəziləri “zəif” hesab etmiş, lakin bu ona zərər yetirməmişdir. Dəstəmaza aid Əmr ibn Dinardan nəql edilmiş hədis ona məxsusdur və “Səhih-Müslim”də vardır. İbn Sədin “Təbəqat”ında şərhi-halında yazıldığı kimi[1] Vəki ibn Cərrah, Əbu Nəim, Mən ibn İsa və başqaları ondan hədis öyrənmişlər.

O, 177-ci ildə vəfat etmişdir.

Elə həmin ildə Məhəmməd ibn Müslim ibn Cəmmaz (onun adaşı) Mədinədə vəfat etdi. Bu iki nəfərin şərhi-halını İbn Səd “Təbəqat”ın 5-ci cildində yazmışdır.

### *82. Məhəmməd ibn Musa ibn Abdullah Fitri Mədəni.*

Zəhəbi şərhi-halını “Mizanül-Etidal” kitabında yazmış, Əbu Hatəmin Tirmizidən onun etimadlı şəxs və şiə olduğunu nəql etmiş və adının kənarında Müslim və “sünən” əshabələri rəmzini yazmaqla onun hədislərindən dəlillər gətirdiklərinə işarə etmişdir. Onun Abdullah ibn Abdullah ibn Əbu Təlhədən nəql etdiyi hədisləri “Səhih-Müslim”in “ətimə” (yeməlilər) babında mövcuddur.

O, Məqbəri və bu təbəqədən olan başqalarından hədis nəql etmişdir.

İbn Əbu Fədik, İbn Mehdi, Qüteybə və bu təbəqədən bir sıra başqaları ondan hədis söyləmişlər.

### *83. Müaviyə ibn Əmmar Dəhni Bəcəli Kufi.*

Şiənin parlaq, qabaqcıl, yüksək məqama malik etimadlı şəxsiyyətlərindəndir. Atası Əmmara təqlid etmək, haqq yolunda istiqamət və dözümlülük göstərmək istəyənlər üçün o, bir nümunə, zərbül-məsəl idi. Allah öz yolunda əziyyətlərə dözən səbirli və sabitqədəm adamlar üçün onu bir nümunə seçmişdi. Zalımlar onun ayaqlarını topuqlarından kəsdilər. Amma onun şərhi-halında dediyimiz kimi, zəiflik büruzə verməmiş, səbir və dözüm ilə dünyaya göz

[1] 5-ci cild, səh. 381.

yummuş və oğlu Müaviyə atasının yolunu davam etdirmişdir. O, imam Sadiq (ə) və imam Kazimin (ə) əshabələrindəndir və bu iki şəxsin elmindən bəhrələnmişdir.

O, bir sıra kitablar yazmışdır ki, biz ondan sənəd vasitəsilə nəql etmişik. İbn Əbu Ümeyr və başqa şiələr ondan hədis nəql ediblər. Müslim və Nisai onun hədislərindən dəlillər gətirmişlər. Onun Zübeyrdən nəql etdiyi hədislər "Səhih-Müslim"in "həcc" kitabında vardır. Müslimin fikrinə görə, Yəhya ibn Yəhya və bu təbəqədən olan bir dəstədən rəvayətlər nəql etmişdir. Bu rəvayətlər sünnə əhlinin hədis kitablarında mövcuddur.

O, 175-ci ildə vəfat etmişdir.

### *84. Məruf ibn Xərrəbuz[1] Kərxi.*

Zəhəbi "Mizanül-Etidal"da adını çəkmiş, onu "həqiqətən şiədir" – deyə təsvir etmişdir. "Buxari", "Müslim" və "Əbu Davud" rəmzini adının kənarında yazmaqla ondan hədis yazdıqlarına işarə etmiş və demişdir: "Əbu Tüfeyldən rəvayət söyləmiş." və yenə demişdir: "Onun hədisləri azdır." Əbu Asim, Əbu Davud, Übeydullah ibn Musa və başqaları ondan hədis nəql etmişlər. Əbu Hatəmdən nəql etmişdir ki, onun hədisləri yazılmalıdır (yəni, düzdür və istifadə oluna bilər).

Mən deyirəm: İbn Xəlləkan "Vəfayətül-Əyan"da onu xatırlayıb demişdir: "O, "Əli ibn Musa Rzanın (ə) dostlarındandır." Təriflədikdən sonra ondan əhvalatlar söyləmişdir ki, birində deyilir: "Mən üzümü Allaha tutub var gücümlə ömrümü mövlam Əli ibn Musa Rzaya (ə) xidmət etməyə sərf etdim..."

İbn Qüteybə "Maarif" kitabında onun şiə şəxsiyyətlərinin sırasında qeyd etmişdir. Müslim onun hədislərindən dəlil gətirmiş və "Səhih" kitabında Əbu Tüfeyldən nəql etdiyi hədisləri "həcc" hissəsində mövcuddur.

O, 200-cü ildə[2] vəfat etmişdir. Qəbri ziyarətgah kimi məşhurdur. Səri Səqəti onun şagirdlərindəndir.

### *85. Mənsur ibn Mötəmər ibn Abdullah ibn Rəbiə Silmi Kufi.*

O, imam Baqir (ə) və imam Sadiqin (ə) əshabələrindəndir. Onlardan hədislər öyrənmişdir. Belə ki, "Müntəhəl-Məqal fi əhvalir-Rical" kitabını yazan bunu aydınlaşdırmışdır.

İbn Qüteybə "Maarif" kitabında onu şiə, Cüzcani isə onu elə hədisçilərdən hesab etmişdir ki, camaat onların məzhəbini üsuli-din və fürui-dində bəyənmirlər, çünki onlar Ali-Məhəmməddən (bizə) yetişən hədislərə inanırlar.

Mən deyirəm: Bu düzdanışanlarla düşmənçiliyə nə səbəb olmuşdur? Onların "səqəleyn"i əldə rəhbər tutmalarımı? Və ya nicat gəmisinə minmələrimi? Peyğəmbərin elm şəhərinə "qapısı"ndan daxil olmalarımı? "Hittə qapısı" və ya onların "yer əhlinin amanı"na pənah gətirmələrimi? Onların Peyğəmbəri Əhli-beyt (ə) birgə hifz etmələri, Allah xatirinə təvazökarlıqları, itaətkarlıqları və Allah qorxusundan ağlamaqlarımı? Belə ki, onların təriqət və şərhi-halına aid məlumatlarda olduğu kimi, İbn Səd "Təbəqat"ın 6-cı cildinin 235-ci səhifəsində Mənsurun şərhi-halında demişdir: "Onun gözləri çox ağlamaqdan və Allah qorxusundan az qalmışdı ki kor olsun və həmişə də gözlərindən yaş axardı. O, 60 il oruc tutub, namaz qılmışdır..." Bu cür işlərin harası camaata ağır gəlir və məzəmmətə səbəb olur? Xeyr, sözün düzü budur ki, biz insafı nəzərə almayan bir millətin əlində giriftar olmuşuq. انا لله و انا اليه راجعون

---

[1] Ona İbn Firuz, İbn Firuzan və İbn Əli də deyilib.

[2] 201- 204-cü səh.-də deyilmişdir.

İbn Səd Mənsurun şərhi-halında Həmmad ibn Zeyddən belə nəql edir: “Mənsuru Məkkədə gördüm... Mən elə bilirdim ki, o Xəşəbiyyədəndir və güman etmirdim ki, o, belə yalanlar desin...”

Mən deyirəm ki, gəlin, bu zorakılığa və bu sözün arxasında (tam mənada) aşkar görünən ədavətə baxın! Çünki onun “güman etmirdim ki, o, belə yalanlar desin” – sözünü oxumaq mənim üçün nə qədər ağırdır.

Vay-vay! Guya, yalan Ali-Məhəmməd dostlarına və övladlarına xass olub, Mənsur “ilk dəfə” haqqa əks hərəkət etmiş və guya, nasibilər Ali-Məhəmməd şiələrinə “xəşəbiyyə”, “türabiyyə”, “rafiziyyə” və bu kimi başqa alçaq ləqəblərdən savayı başqa ləqəb tapmamışlar. Guya, onlar Allah-təalanın bu sözünü eşitməyiblər ki, buyurur: “Bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adını qazanmaq necə də pisdir.[1]

İbn Qüteybə “Maarif” kitabında “Xəşəbiyyə”dən danışmış və demişdir ki, onlar rafizilərdəndir və bu adın qoyulmasının səbəbi odur ki, İbrahim Əştər Übeyd Ziyada rast gələn vaxt İbrahimin dostları və səhabələrinin əksəriyyətinin əlində ağac var imiş. Ona görə də onları “Xəşəbiyyə” adlandırıblar.

Mən deyirəm: Bu adı ona görə deyiblər ki, onları təhqir etsinlər, məğlubedilməzliklərinə ləkə vursunlar. Lakin, elə həmin “Xəşəbiyyə” və ya “əldə ağac olanlar”, öz çubuqları ilə nasibilərin sələfləri – Ali-Məhəmmədi şəhid edənlər – İbn Mərcanəni öldürdülər və köklərini dibindən kəsdilər. Ona görə də bu şərəfli ləqəb eyibsizdir. Habelə, imam Əlinin (ə) künyəsi Əbu Turaba aid olan “turabiyyə” nəinki eyib deyil, əksinə, hər ikimiz üçün şərəfdir.

Daha qələm yoruldu, mövzumuza qayıdaq. Mənsurun hədislərindən dəlil gətirməkdə hamı eyni fikirdədir. Buna görə də “Sihahi-Sittə” əshabələri və başqaları onun şiə olmasını bilə-bilə sözlərindən dəlillər gətirmişlər. Siz onun Əbu Vail, Əbu Züha, İbrahim Nəxəi və bu təbəqədən olan başqalarından nəql etdiyi hədislərini “Səhih-Buxari” və “Səhih-Müslim”də mülahizə edə bilərsiniz. Buxarinin və Müslimin fikrincə, Şöbə, Suri, İbn Üyəynə, Həmmad ibn Zeyd və bu təbəqənin başqa böyükləri ondan hədis söyləyiblər. İbn Səd deyir: “Mənsur 132-ci ilin sonunda vəfat etmişdir. O, etimadlı, əmin, çoxlu hədis sahibi, yüksək mərtəbə və ali dərəcəyə malik şəxs idi.” Allah rəhmət eləsin!

### *86. Minhal ibn Əmr, tabeinlərdən olub, Kufə əhli və Kufənin məhşur şiələrindəndir.*

Buna görə də Cüzcani onu zəif hesab edərək demişdir: “Məzhəbi pisdir.” İbn Həzm də onun haqqında bunları demiş, Yəhya ibn Səd də onu məzəmmət etmişdir. Əhməd Hənbəl demişdir: “Əbu Bişr ilə münasibətim Minhaldan yaxşıdır və o, Minhaldan daha etimadlıdır.” Onun şiə olmasını bilə-bilə –xüsusilə Muxtarın dövründə– kimsə hədislərinin doğru olmasında şübhə etməmişdir. Buna görə də Şöbə. Məsudi, Həccac ibn Ərtat və bu təbəqədən başqa bir dəstə ondan hədis öyrənmişlər. İbn Müin, Əhməd İcli və başqaları ona etimad ediblər. Zəhəbi “Mizanül-Etidal”da onu xatırlamış, onun haqqında dediklərimizi nəql etmiş və Buxari və Müslim rəmzini adının yanında qeyd etməklə onun hədislərini yazdıqlarına işarə etmişdir. Siz onun Səid ibn Cübeyrdən nəql etdiyi hədislərini “Səhih-Buxari”də mülahizə edə bilərsiniz. Zeyd ibn Əbu Ənisə, “Səhih-Buxari”nin təfsir hissəsində ondan hədis söyləmiş və Mənsur ibn Mötəmər peyğəmbərlər haqqında ondan hədis nəql etmişdir.

### *87. Musa ibn Qeys Həzrəmi Əbu Məhəmməd.*

Əqili onu ifrata varmış rafizilərdən hesab etmişdir. Süfyan ondan Əbu Bəkr və Əli haqqında soruşmuş və o, cavab vermişdir ki, Əli mənə daha əzizdir. Musa, Səlmə ibn Küheyldən, Əyaz ibn Əyaz, Malik ibn Cəunədən nəql etmişdir ki, Ümmü-Sələmədən eşidib

---

[1] “Hücurat surəsi, 11-ci ayə.

ki, deyirmiş: “Əli haqq yolundadır, ona itaət edən şəxs də haqq yolundadır. Onu tərk edən şəxs haqqı tərk etmiş olur, bu tapşırılmış bir əhddir.” Əbu Nəim Fəzl ibn Dükəyn və Musa ibn Qeysdən bu hədisi nəql etmişdir. Musa Əhli-beytin fəzilətləri haqqında bir sıra səhih rəvayətlər nəql etmişdir ki, Əqilinin narahatlığına səbəb olmuşdur. Amma İbn Müin Musaya etimad bəsləmişdir. Əbu Davud və Səid ibn Mənsur öz “Sünən”lərində onun hədislərindən dəlillər gətirmişlər. Zəhəbi “Mizanül-Etidal”da onu yada salmış və bütün bu dediklərimizi onun şərhi-halında nəql etmişdir. Onun Səlmə ibn Kuheyl və Hücr ibn Ənəsdən nəql etdiyi hədisləri “sünən” kitablarında mövcuddur. Fəzl ibn Dükeyn, Übeydullah ibn Musa və başqa böyük şəxslər ondan hədis söyləmişlər.

O, Mənsurun hökmranlığı zamanı vəfat etmişdir. Allah rəhmət eləsin.

## *“Nun”*

### *88. Nəfi ibn Həsir Əbu Davud Nəxəi Kufi Həmdani Səbii.*

Əqili deyir: “O, rafizilikdə ifrata varardı.” Buxari demişdir: “O, şiə olduğu üçün ardınca danışardılar.”

Mən deyirəm: Süfyan, Həmam, Şərik və bu təbəqədən olan başqa rəhbərlər ondan hədis söyləmişlər. Tirmizi öz “Səhih”ində onun hədislərindən dəlillər gətirmişdir. Hədis kitablarını yazanlar onun hədislərindən dəlil gətirmiş və yazmışlar. Siz onun Ənəs ibn Malik, İbn Abbas, İmran ibn Həsən, Zeyd ibn Ərqəmdən nəql etdiyi hədisləri Tirmizinin yazılarında tapa bilərsiniz. Zəhəbi onun şərhi-halını söyləmiş və dediklərimizi xatırlamışdır.

### *89. Nuh ibn Qeys ibn Ribah Hədani Vətahi, ona Bəsri də deyilir.*

Zəhəbi “Mizanül-Etidal”da onu xatırlamış və demişdir: “Hədisləri doğrudur”, “Əhməd və İbn Müin ona etimad etmişlər.” Əbu Davud demişdir: “O, şiədir.” Nisai deyir: “O, eyibsizdir.” Zəhəbi Müslimin və “sünən” yazıçılarının rəmzini adının kənarında yazmaqla onun “Sihahi-Sittə”nin müəlliflərinin ravilərindən olduğuna işarə etmişdir. Onun İbn Ovndan “yeməyi caiz olanlar” fəslində nəql etdiyi hədis “Səhih-Müslim”də vardır. “Səhih-Müslim”in “geyim” fəslində qardaşı Xalid ibn Qeysdən nəql etdiyi hədis müşahidə olunur. Müslimə görə Nəsr ibn Əli ondan hədis nəql etmiş və başqalarına görə Əbül-Əşəs və bu təbəqədən olanlar ondan hədis söyləmişlər. Nuh Əyyubdan, Əmr ibn Malik və başqalarından rəvayət nəql etmişdir.

## *“He”*

### *90. Harun ibn Səd İcli Kufi.*

Zəhəbi ondan bəhs etmiş və Müslim rəmzini adının kənarında yazmaqla Müslimin rəvayətlərini mötəbər saydığına işarə etmişdir. Sonra demişdir: “O, təbiətən düzdanışandır, lakin qatı və kinli bir rafizidir.” Abbas, İbn Müindən nəql etmişdir ki, Harun ibn Səd şiəlikdə ifrata varmışdır. O, Əbdür-Rəhman ibn Əbu Səid Xidridən hədis nəql etmiş və Məhəmməd ibn Əbu Həfs Əttar, Məsudi və Həsən ibn Həyy ondan hədis söyləmişlər. Əbu Hatəm demişdir: “Onun nöqsanı yoxdur.”

Mən deyirəm: Həsən ibn Salehin Harun ibn Səd İcli tərəfindən, Süleymandan “cəhənnəm atəşi” haqda söylədiyi hədis “Səhih-Müslim”də vardır.

### *91. Haşim ibn Bərid ibn Zeyd Əbu Əli Kufi.*

Zəhəbi onun şərhi-halında Əbu Davud və Nisai rəmzlərini yanında yazmaqla onların “Səhih”lərində rəvayətlərinə etimad olunduğuna işarə etmişdir. İbn Müinin ona etimad

bəslədiyini, eyni zamanda şiə və rafizi olduğunu nəql etmişdir. Sonra demişdir: "Əhməd deyibdir ki, onun nöqsanı yoxdur."

Mən deyirəm: Haşim, Zeyd ibn Əlidən və Müslim Bətindən hədis nəql etmiş və oğlu Əli ibn Haşim –şərhi-halında qeyd etdiyimiz kimi– və bir qrup rəhbərlər ondan hədis nəql etmişlər. Haşim şiə ailəsindəndir. Bu həqiqəti Əli ibn Haşimin haqqında bu kitabda dediklərimizi mütaliə etməklə öyrənmək olar.

### *92. Hübeyrə ibn Bərid Himyəri.*

Əlinin (ə) əshabələrindəndir və dostluqda, vilayət və Əliyə (ə) inamda Haris kimidir. Zəhəbi "Mizanül-Etidal"da onu xatırlamış və "sünən" yazıçılarının rəmzini adının yanında yazmaqla, onların hədislərində mötəbər rəvayətçilərdən olduğuna işarə etmişdir. Sonra Əhməddən nəql etmişdir ki, hədislərində eyib yoxdur və o, bizim nəzərimizdə Harisdən daha əzizdir. Zəhəbi deyir: "İbn Xəraş deyib: O, zəifdir. "Siffeyn"də yaralıların işini bitirirdi (onları öldürürdü)." Cüzcani demişdir: "O, Muxtarın tərəfdarı idi və "Xazər" döyüşündə yaralıları öldürürdü."

Mən deyirəm: Şəhristani "Miləl və Nihəl" kitabında onu şiə şəxsiyyətlərindən hesab etmiş və bu çətin nəzərdir. "Sünən"ə əsasən, o, Əlidən rəvayət nəql edərdi. Əbu İshaq və Əbu Faxtə ondan hədis nəql etmişlər.

### *93. Hişam ibn Ziya Əbu Miqdam Bəsri.*

Şəhristani "Miləl və Nihəl" kitabında onu şiə hesab etmişdir. Zəhəbi adlar sırasında onu "H" "hərfində və künyələr" hissəsində, "Mizanül-Etidal"da vermişdir. "Künyələr" hissəsində adının kənarında "T. Q." yazmaqla ona etimad edən "sünən" yazıçılarına işarə etmişdir.

Onun Həsən və Qərzidən nəql etdiyi hədislərini "Səhih-Tirmizi" və başqalarında müşahidə edə bilərsiniz. Şeyban ibn Fərrux, Qəvariri və başqaları ondan hədis söyləmişlər.

### *94. Hüşam ibn Əmmar ibn Nəsir ibn Meysərə Əbül-Vəlid. Ona Zəfəri Dəməşqi də demişlər.*

O, Buxarinin "Səhih"də ustadıdır. İbn Qüteybə onu şiə şəxsiyyətlərindən hesab etmişdir. Bunu "Maarif" kitabının "əl-firəq" babında bir qrup şəxslərdən bəhs edərkən qeyd etmişdir. Zəhəbi "Mizanül-Etidal"da onu xatırlamış və onu imam, xətib, qari (quranşünas), hədisçi, Dəməşq alimi, düzdanışan rəvayətçi və bəzən xoşa gəlməyə sözlər nəql edən və s. kimi təsvir etmişdir.

Mən deyirəm: Buxari heç bir vasitə olmadan öz "Səhih"inin "bey" və "müamilə" hissəsində "borcu olan fəqirə möhlət verən kəs" babında və tədqiqatçılara məlum olan başqa yerində ondan hədis nəql etmişdir ki, "Məğazi" (döyüşlər) kitabında və "əşribə" (içkilər) və "Peyğəmbər (s) əshabələrinin fəzilətləri" bablarında qeyd olub. O, Yəhya ibn Həmzə, Sədəqə ibn Xalid, Əbdül-Həmid ibn Əbil-İşrin və başqalarından hədis nəql etmişdir. Zəhəbi "Mizanül-Etidal"da deyir: "Qiraət və hədis öyrənmək üçün onun yanına çoxlu adam gələrdi və ondan hədis söyləməsini istəyərdilər. Ustadı Vəlid ibn Müslim ondan hədis nəql etmişdir."

O, "icazə" ilə Əbu Ləhyəədən rəvayət nəql etmişdir. Əbdan demişdir: "Dünyada onun kimisi olmayıb" və bir başqası deyir: "Hüşam fəsahət, bəlağət sahibi, ağıllı və elmli... bir şəxs idi."

Mən deyirəm: O, başqa şiələr kimi inanırdı ki, Quranın sözlərini Allah yaratmışdır, yəni bu sözlər eyni ilə Peyğəmbərə vəhy olunmuşdur. Bu fikirlər Əhmədə çatanda –"Mizanül-Etidal"da Hüşamın şərhi-halında yazıldığı kimi– deyib: "Mən onu nadan gördüm, Allah onu öldürsün." Əhməd, Hüşamın bir kitabını ələ keçirdi və gördü ki, əvvəlində yazmışdır: «الْحَمْدُ لله

«الَّذي تَجَلّي لِخَلْقِهِ بِخَلْقِهِ» “Sitayiş Allaha məxsusdur ki, məxluqlarına özünü yaratdıqlarıyla aşkar etdi.” Əhməd yerindən dik atıldı və sonra yenidən oturdu. Hirsindən az qalırdı ki, partlasın. Hişamın arxasında namaz qılanlara dedi ki, namazlarınızı təkrar edin (yəni, onun namazı batil olduğuna görə, gərək yenidən öz namazlarınızı qılasınız).

Hüşamın sözündə Allahın paklığı, əzəməti, müqəddəsliyi münsif adama gizli deyildir. Çünki onun sözü «وَ في كلّ شيئ لَهُ آية» “Hər şeydə Allahın nişanəsi var.” – mənasındadır və hətta Allah özü bundan daha əzəmətli və daha aydın demişdir. Lakin onunla bir dövrdə yaşayan və eyni biliyə malik alimlər öz düşündüklərinə uyğun tərzdə başqaları haqqında fikir söyləyirdilər.

Hüşam 153-cü ildə dünyaya gəlmiş və 245-ci il Məhərrəm ayının axırında vəfat etmişdir. Allah rəhmət eləsin.

### *95. Hüşam ibn Bəşir ibn Qasim ibn Dina Səlmi Vasiti Əbu Müaviyə.*

O, əslində Bəlx əhlidir. Cəddi Qasim ticarət məqsədi ilə Vasitə gəlib, sonra orada məskunlaşmışdır.

İbn Qüteybə “Maarif” kitabında onu şiə şəxsiyyətlərindən hesab etmişdir. O, imam Əhməd Hənbəlin və bu təbəqədən başqalarının ustadıdır. Zəhəbi “Mizanül-Etidal”da onun adını çəkmiş və “Sihahi-Sittə”nin müəlliflərinin rəmzini adının kənarında yazmaqla onun hədislərindən dəlillər gətirmələrinə işarə etmiş, onu hafiz kimi təsvir etmiş və demişdir: “O, Zuhəri və Həsin ibn Əbdür-Rəhmandan hədis eşitmiş böyük şəxsiyyətlərdəndir.” Yəhya ibn Qəttan, Əhməd, Yəqub Durəqi və bir dəstə başqaları ondan hədis nəql etmişlər.

Mən deyirəm: Onun Həmid Təvil, İsmail ibn Əbu Xalid, Əbu İshaq Şeybani və başqalarından nəql etdiyi hədisləri “Səhih-Buxari” və Müslimdə vardır. Buxari və Müslimin fikrinə görə, Ömər, Naqid, Əmr ibn Zürarə və Səid ibn Süleyman ondan hədis nəql etmişlər. Şəxsən Buxariyə görə, Əmr ibn Ovf, Səd ibn Nəzr, Məhəmməd ibn Nəbhan, Əli ibn Mədini və Qüteybə və Müslimin fikrincə, Əhməd ibn Hənbəl, Şüreyh, Yəqub Durəqi, Abdullah ibn Müin, Yəhya ibn Yəhya, Səid ibn Mənsur, İbn Əbu Şeybə, İsmail ibn Salim, Məhəmməd ibn Səbbah, Davud ibn Rəşid, Əhməd ibn Mani, Yəhya ibn Əyyub, Züheyr ibn Harun, Osman İbn Əbu-Şeybə, Əli ibn Həcər və Yəzid ibn Harun ondan hədis nəql etmişlər.

O, 183-cü ildə 79 yaşında Bağdadda vəfat etmişdir. Allah rəhmət eləsin.

## *“Vav”*

### *96. Vəki ibn Cərrah ibn Məlih ibn Ədiy. Künyəsi oğlu Süfyan Rəvasinin adıilədir (yən, ona Əbu Süfyan deyirlər) və Qeys Qeylan qəbiləsindəndir.*

İbn Qüteybə “Maarif” kitabında onu şiə şəxsiyyətlərindən hesab etmiş və İbn Mədini “Təhzib” kitabında aydınlaşdırmışdır ki, Vəki şiə idi. Mərvan ibn Müaviyə, Vəkinin rafizi olmasına şübhə etmirdi. Bir gün Yəhya ibn Müin onunla rastlaşdı, yanında bir səhifə gördü ki, orada yazılmışdı: “Filankəs belədir, filankəs elədir və o cümlədən Vəkinin də rafizi olması barəsində qeydlər var idi. İbn Müin ona dedi: Vəki səndən yaxşıdır. Dedi: Məndən? Cavab verdi: Bəli. Bu xəbər Vəkiyə çatdı və dedi: Yəhya sahibimiz və dostumuzdur.”

Əhməd Hənbəldən soruşdular: Vəki ilə Əbdür-Rəhman arasında fikir ixtilafı olarsa, hansının sözünü üstün tutaq? O, Əbdür-Rəhmana üstünlük verdi, çünki, keçmişdəki xəlifələrin hamısı Əbdür-Rəhmana görə təmiz, eyibsizdir. Vəkiyə görə isə, hamısı belə deyildir.”

Mən deyirəm: Zəhəbi Həsən ibn Salehin şərhi-halının sonlarında yazdığı Vəki deyirdi: Həsən ibn Saleh mənim nəzərimdə imam və rəhbərdir” – sözü bunu təsdiq edir. Ona dedilər:

O, Osmana salam və rəhmət göndərmir. Vəki cavab verdi: “Sən Həccaca salam və rəhmət göndərirsən? Burada o, Osmanı Həccaca bənzətmişdi.”

Zəhəbi “Mizanül-Etidal”da onu xatırlamış, bütün bu dediklərimizi onun şərhi-halında yazmışdır. “Sihah” yazanlar və başqaları hədislərindən dəlillər gətirmişlər. Onun Əməş, Suri, Şöbə, İsmail ibn Əbu Xalid və Əli ibn Mübarəkdən söylədiyi hədisləri “Səhih-Müslim” və “Səhih-Buxari”də sizin ixtiyarınızdadır (əlinizdədir). Hər ikisinin fikrinə görə, İshaq Hənzəli və Məhəmməd ibn Nümeyr ondan hədis söyləmişlər. “Səhih-Buxari”də Abdullah Həmidi, Məhəmməd ibn Səlam, Yəhya ibn Cəfər ibn Əyən, Yəhya ibn Musa, Məhəmməd ibn Müqatil və “Səhih-Müslim”də Züheyr, İbn Əbu Şeybə, Əbu Kureyb, Əbu Səid Əşşəc, Nəsr ibn Əli, Səid ibn Əzhər, İbn Əbu Ömər, Əli ibn Xəşrəm, Osman ibn Əbu Şeybə və Qüteybə ibn Səid ondan hədis nəql etmişlər.

O, 197-ci il Məhərrəm ayında həcdən qayıdan zaman “Fid”də 68 yaşında vəfat etmişdir. Allah rəhmət eləsin.

***97. Yəhya ibn Cəzzar Ərəni Kufi, Əmirəl-mömininin (ə) səhabələrindəndir.***

Zəhəbi “Mizanül-Etidal” kitabında onun haqqında yazarkən, Müslimin və “sünən” yazıçılarının rəmzlərini onun adının kənarında qoymaqla, hədislərindən dəlillər gətirmələrinə işarə etmişdir. Zəhəbi onun etimadlı olduğunu qeyd edərək demişdir: “Düzdanışandır.” Həkəm ibn Üteybədən nəql etmişdir ki, Yəhya ibn Cəzzar şiəlikdə ifrata varmışdır. İbn Səd “Təbəqat”ın altıncı cildində[1] onu xatırlamış və demişdir: “Yəhya ibn Cəzzarın məzhəbi şiə məzhəbidir və dediklərində ifrat vardır. Deyiblər ki, etimadlı şəxs olub və hədislər də söyləyibdir.”

Mən deyirəm: “Səhih-Müslim”də Əlidən “namaz” haqqında,. “Səhih-Müslim”in “iman” babında da Əbdür-Rəhman ibn Əbu Leyladan hədis nəql etmişdir. Həkəm ibn Üteybə və Həsən Ərəni Müslimin və başqalarının nəzərincə, ondan hədis söyləmişlər.

***98. Yəhya ibn Səid Qəttan Əbu Səid Mövla ibn Təmim Bəsri, öz zamanının hədis yazanlarından olub.***

İbn Qüteybə “Maarif” kitabında onu şiə şəxsiyyətlərindən hesab etmişdir. “Sihahi-Sittə” əshabələri və başqaları onun hədislərindən dəlillər gətirmişlər. Onun Hüşam ibn Ürvə, Həmid Təvil, Yəhya ibn Səid Ənsari və başqalarından nəql etdiyi hədislər “Səhih-Buxari” və “Səhih-Müslim”də vardır. Hər ikisinin fikrinə görə, Məhəmməd ibn Müsənna və Bindar ondan hədis söyləmişlər. Buxarinin fikrincə, Müsəddəd, Əli ibn Mədini və Bəyan ibn Əmr və Müslimə görə, Məhəmməd ibn Hatəm, Məhəmməd ibn Xəllad Bahili, Əbu Kamil, Füzeyl ibn Hüseyn Cəhdəri, Məhəmməd Müqəddəmi, Abdullah ibn Hüşam, Əbu Bəkr ibn Əbu Şeybə, Abdullah ibn Səid, Əhməd ibn Hənbəl, Yəqub Durəqi, Abdullah Qəvariri, Əhməd ibn Əbduh, Əmr ibn Əli və Əbdür-Rəhman ibn Bəşir ondan hədis nəql etmişlər.

O, 198-ci ildə 78 yaşında vəfat etmişdir.

***99. Yəzid ibn Əbu Ziyad Kufi Əbu Abdullah Mövla Bəni-Haşim.***

Zəhəbi “Mizanül-Etidal” kitabında onun adını çəkmiş və Müslim və “Əshabi Sünəni-Ərbəə” rəmzini adının kənarında yazmaqla, onun rəvayətlərini nəql etdiklərinə işarə etmişdir. Əbu Füzeyl nəql etmişdir ki, Yəzid ibn Əbu Ziyad şiənin böyük rəhbərlərindən idi. Zəhəbi etiraf etmişdir ki, o, Kufənin məşhur alimlərindən idi. Buna görə də ona zülm edirdilər və hər

[1] 206-cı səhifə.

nə bacarırdılarsa onun ünvanına (eyib və irad) deyirdilər. O, Əbu Bərzə, yaxud Əbu Bərdədən bir hədis nəql etmişdir ki, deyir: "Peyğəmbərin (s) yanında idim, birdən ğina (haram avaz) səsi eşidildi. Məlum oldu ki, oxuyan Əmr ibn As ilə Müaviyədir. Peyğəmbər (s) buyurdu: "Ey Allah! Onları çətin bir fitnəyə sal və atəşə tulla!" Onun Əbdür-Rəhman ibn Əbu Leyladan nəql etdiyi hədisləri "Səhih-Müslim"in "ətimə" kitabında vardır.

O, 136-cı ildə, təqribən 90 yaşında vəfat etmişdir. Allah rəhmət eləsin.

### *100. Əbu Abdullah Cədəli.*

Zəhəbi "künyələr" hissəsində adını yazmış və "D. T." əlamətini onun adı kənarında yazmaqla Əbu Davud və Tirmizi "Səhih"lərində onu mötəbər saydıqlarına işarə etmişdir. Sonra onu kinli şiə kimi təsvir etmişdir. Cüzcanidən onun "Muxtar"ın bayraqdarı və Əhməddən onun etimadlı bir şəxs olmasını nəql etmişdir. Şəhristani "Miləl və Nihəl" kitabında onu şiə şəxsiyyətlərindən hesab etmişdir. İbn Qüteybə "Maarif" kitabında onu qatı rafizilərdən hesab etmişdir. Nəql etdiyi hədisləri "Səhih-Tirmizi", "Səhih-Əbu Davud"da və digər kitablarda vardır. İbn Səd "Təbəqat"da onun haqqında yazmış və qeyd etmişdir ki, o, inadkar və qatı bir şiə idi[1]. O, Muxtarın qoşunları arasında idi. Sonra onu 800 nəfər ilə Abdullah İbn Zübeyrə qarşı döyüşə göndərdilər ki, ona hücum etsin və qoymasın Məhəmməd Hənəfiyyə İbn Zübeyrə beyət etsin. Bu, o zaman baş vermişdi ki, İbn Zübeyr Məhəmməd Hənəfiyyə və Bəni-Haşimi mühasirəyə almışdı və onları yandırmaq üçün ətrafa odun tökdürmüşdü. Çünki onlar ona beyət etməkdən imtina edirdilər. Əbu Abdullah Cədəli onları bu xətərdən xilas etdi. Allah ona Peyğəmbərin Əhli-beytinə xatir xeyir bəxş etsin!

Bu, qısa müddətdə saymaq istədiyimiz şəxslərin sonuncusudur. Bu yüz nəfər pak və təqvalı şəxslər şiənin dahiləri və sünnə əhli üçün dəlildir. Onlar ümmətin elm mənbəyi, nübüvvət mirasının mühafizləri və "səhih", "müsnəd" və "sünən" kitablarının qaynağı olmuşlar. Onların adlarını çəkdik və sünni alimlərinin onların şiəliyini aydınlaşdırmalarını və sözlərindən dəlillər gətirdiklərini dedik, qoy özləri öz ehkamlarına əməl etsin və öz qərarlarında möhkəm olsunlar. Güman edirəm ki, sünnə əhlinin şiə şəxsiyyətlərindən dəlillər gətirmədiklərini deyənlər tezliklə öz səhvlərini başa düşəcəklər. Tezliklə biləcəklər ki, rəvayətlərin qəbul olunma şərtləri, rəvayət söyləyənin şiə və sünni olmasından asılı deyil, əksinə sədaqət və əmanətdədir. Əgər şiə tərəfdən nəql olunan hədislər mütləq rədd olunarsa, o zaman nübüvvət sünnəsi məhv olar. Belə ki, "Mizanül-Etidal"da Zəhəbi Əban ibn Təğlibin şərhi-halında buna etiraf etmiş və bunun özü (sünnənin məhv olunması) aşkar bir fəsaddır. Siz –Allah sizin vasitənizlə hökm kəssin– bilirsiniz ki, bizim saydığımız və sünnə əhlinin onların sözlərindən dəlillər gətirdikləri şiə hədisçiləri arasında elə şəxslər vardır ki, adlarını çəkdiyimiz bu yüz nəfərdən neçə dəfə çox, sənədin üstünlüyü və qiyməti cəhətdən, etibarlı, hədisin çoxluğu, üstvün bilik cəhətdən, qədimlikdə və şiəlikdə sabitqədəm olmaqda mötəbərdir. Bəli! Onlar hamısı şiə şəxsiyyətləri, Peyğəmbər əshabələrindəndir (rizvanullahi ələyhim). Onların ləyaqətli adlarını "Füsulul-Muhimmə" kitabının sonunda yazmışıq və sizi agah etmişik ki, "tabein" arasında şiə rəhbərləri vardır ki, onlardan dəlillər gətirilmişdir. Onların hamısı hafiz, təqvalı, etibarlı və höccətdirlər. Onlar elə kəslərdir ki, Allah yolunda Əmirəl-mömininə (ə) kömək etmək üçün şəhadətə çatmışlar. "Cəməli-Əsğər", "Cəməli-Əkbər", "Siffeyn" və "Nəhrəvan" və digər döyüşlərdə rəşadətlər göstərmişlər. Onlardan bəziləri "Təff" günü behişt cavanlarının seyyidi Hüseyn ibn Əli (ə), bəziləri o həzrətin nəvəsi şəhid Zeyd ilə birgə şəhid olmuşlar. Onların çoxları qılınc ilə öldürüldülər, bəziləri zalımcasına öz vətənlərindən sürgün edildilər, bəziləri qorxu və ya təklikdən təqiyyəni pənah seçdilər. O cümlədən, Əhnəf ibn Qeys, Əsbəğ ibn Nübatə və Quranın düzgün oxunuşu üçün hərflər üzərinə nöqtə qoyan ilk şəxs Yəhya ibn

---

[1] Adı Əbədə ibn Əbd ibn Abdullah ibn Əbu Yəmurdur.

Yəmur kimi "lüğət" və "əruz" elmini yaradan Xəlil ibn Əhməd və "sərf" elmini yaradan Məaz ibn Müslim və bir sıra bunlar kimi şəxslərdir ki, onların haqqında müfəssəl yazılsa, qalın-qalın cildli kitablar olar.

Qoy nasibilər onları təhqir etsinlər, ardlarınca min cür böhtanlar desinlər, onları zəif hesab etsinlər və sözlərindən dəlillər gətirməsinlər! Sənin onlarla işin olmasın!

Ali-Məhəmməd şiələrindən yüzlərlə sabitqədəmlər, hafizlər, hidayət rəhbərləri mövcuddur ki, sünnə əhli onları yada salmaqda qəflət etmişlər, lakin şiə alimləri onları yadda saxlamaq üçün ayrıca mündəricatlar tənzim etmiş və onların şərhi-halına dair "möcəm"lər hazırlamışlar. Əgər mütaliə etsəniz, onların pak şəriətə etdikləri xidmətləri aşkar olacaqdır. Onların yaşayış tərzi və vəziyyətləri ilə tanış olanlar başa düşəcəklər ki, onların Allah, Peyğəmbər (s) və kitab (Quran) və pak imamlar qarşısında sədaqət və doğruluqları, əmanət və pəhrizkarlıqları, ibadət və ixlasları bütün müsəlmanlara bir nümunədir. Allah onların və sizin kimi münsif insanların vasitəsilə hamımıza faydalar bəxş etsin. O, rəhimlilərin rəhimlisidir.

***"Ş"***

# *ON YEDDİNCİ MƏKTUB*

3 Zilhiccə 1329

***1. Bəhs edənin lütfü və mehribanlığı.***

***2. Sünnə əhlinin şiənin etimadlı şəxslərindən dəlil gətirməkdə heç bir maneənin olmamasına dair onun izahatı.***

***3. Əhli-beyt haqqında Allahın ayələrinə onun imanı.***

***4. Onun qeyd olunan dəlillər əsasında qiblə əhlinin fikirlərinin bu qədər fərqli olduğuna heyrət etməsi.***

1. And olsun ki, həqiqətən mən sənin qəlbin kimi təravətli bir qəlb, vücud və bəyanının meyvəsi kimi yeməli və dadlı bir meyvə görməmiş, qulağım sənin xoş sözlərin kimi təsiredici söz eşitməmişdir. Heç bir dinləyicinin qulağına sənin ləhcəndən mülayim, dəlillərindən qüvvətli bir dəlil dəyməmişdir. Bütün məktublarında azad bir tədqiqatçı kimi onların bütün incəliklərinə riayət etmiş, danışıq və mübahisələrdə dillər, qulaqlar, gözlər və qəlblərə hakim olmuşsan. Allah –xüsusilə, bu son məktubuna görə– sənə xeyir versin. "ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ" – elə bir məktubdur ki, onda şübhə mövcud deyil, hansı ki, baş və boyunları öz tərəfinə döndərir və yolunu azmışları başdan ayağa qədər haqq ilə döyəcləyir.

2. Şiə qardaşlarımızın dedikləri və hədisləri etibarlı olduğu üçün sünnilərə onlardan dəlillər gətirməyə bir şübhə qalmır. Bu barədə sizin fikriniz açıq-aydın haqdır, etiraz edənlərin fikri isə dəlilsiz bir zorakılıqdır. Onların "şiə şəxslərindən dəlil gətirmək olmaz" – sözləri əməlləri ilə ziddir və istidlal məqamında rəftarı sözlərinə uyğun gəlmir. Buna görə də onların dəlilləri naqis, sizin dəlilləriniz isə əsaslı və sarsılmazdır. Bu az fürsətdə söylədiyiniz mətləbləri ayrılıqda bir risalə şəklinə salmağınız vacibdir. Mən artıq onu "sünni sənədlərində şiə raviləri" adlandırmışam və nəhayət, tez bir zamanda belə olacaq ki, ondan başqa hər hansı bir tədqiqatçı üçün başqa "əsl" və qaynaq olmayacaqdır. Mən ümidvaram ki, siz –Allahin istəyi ilə– İslam dünyasında aşkar bir islahat yaradacaqsınız.

3. Biz hamımız Allahın bütün ayələrinə iman gətirmişik və Allahın Əmirəl-möminin Əli ibn Əbu Talib və Əhli-beyt "رضي الله عنهم" haqqında nazil etdiyi ayələri sizin saydıqlarınızdan daha çoxdur.

4. Lakin, məlum deyildir ki, nə üçün qiblə əhli Əhli-beyt imamlarından üz çeviriblər, füru və üsulda onların məzhəbinə heç vaxt tabe olmayıblar və habelə ixtilaflı məsələlərdə onların dediklərinə diqqət yetirməyiblər? Ümmət alimləri də öz söhbətlərində onların nəzər və əqidələrindən bəhs etməmiş, əksinə nəzəri məsələlərdə onların qarşısında dayanıb, müxalif fikirlərinə əhəmiyyət verməmişlər. Ümmətin avamları da, istər keçmiş, istər sonrakı nəsilləri olsun, bu zidd iş bilmədən Əhli-beytdən (ə) başqasına müraciət etmişlər.

Beləliklə, əgər Quran və doğru rəvayətlər sizin dediklərinizə aşkar surətdə dəlalət etsəydi, heç vaxt qiblə əhli Əhli-beyt imamlarından üz çevirməzdi və onları başqası ilə əvəz etməyə razı olmazdı. Deməli, məlum olur ki, onlar kitab və sünnədən –Əhli-beyti sevməkdən başqa– heç bir şey başa düşməmiş və onlara məhəbbət və ehtiramın vacibliyindən başqa bir şey dərk etməmişlər. Çox güman ki, layiqli sələflər və keçmişdəkilər həqiqətə daha yaxındır və sünnə və Quranın mənasına daha arifdirlər. "(Ərəbi)" "Sən də onların hidayətinə təqlid et."

***"S"***

# *ON SƏKKİZİNCİ MƏKTUB*

4 Zilhiccə 1329

***1. Ona mehribanlığına görə təşəkkür.***

***2. Qiblə əhli haqqında dediklərində səhv.***

***3. Ümmətin rəhbərləri Əhli-beytdən üz döndərmişlər.***

***4. Əhli-beyt imamları (heç bir dəlili nəzərə almadan) başqalarından aşağı səviyyədə deyildir.***

***5. Hansı ədalətli məhkəmə onlara arxalananların yol azmalarına hökm verə bilər?***

1. Bu təqsirkar (yəni məktubun müəllifi) haqqında gözəl fikir söylədiyiniz üçün təşəkkür edirəm, onun özü və məktubları haqqındakı fikrinizi yalnız yaxşılıqları görən bir şəxsin fikri sanıram. Mən bu qədər məhəbbət və hisslər qarşısında təvazökarlıq edir və bu lütfün simasında böyüklük müşahidə edirəm.

2. Amma sizdən xahiş edirəm ki, qiblə əhlinin Əhli-beytdən üz döndərməsi haqqında söylədiklərinizin hamısını yenidən nəzərdən keçirəsiniz və xatırladıram ki, qiblə əhlinin yarısı –Ali-Məhəmmədin (s) şiələri– onlardan üz döndərməmiş və döndərməyəcəklər (heç bir şeydə, nə üsuli-dində, nə də fürui-dində). Heç vaxt. Şiənin əqidəsinə görə onların məzhəbinə pərəstiş etmək, Kitab və sünnənin hökmünə əsasən açıq-aydın vacibdir. Buna görə də onlar hər zaman və hər yerdə bu fikirdədirlər ki, əziz və cəlal Allahın fərmanının qarşısında təslim olmalıdırlar. Keçmişdəki şiələr bu əqidədə idilər və bu əqidə ilə də canlarını tapşırmışlar. Bəli, (onlar) Peyğəmbərin (s) vəfatı zamanından bu günədək həmin əqidəyə bağlı olmuşlar.

3. Lakin, dediyiniz ümmət rəhbərləri və başçıları isə Əhli-beytdən üz döndərmiş və bu da yalnız (Əmirəl-möminin Əli ibn Əbu Talibin xilafətinə aid doğru rəvayətlərin olmasına baxmayaraq) xilafətə xatir olmuş və xilafəti seçki üzrə təyin etməklə onu ixtiyarına aldıqları gündən başlamış və davam etmişdir. Çünki ərəblərin dözərək, yalnız bir ailənin xilafətinə tabe olmayacağı faktı mövcud ikən, bacardıqca öz növbələrində "kitab" (Quran) və sünnə "nəss"lərini (doğru rəvayətlər) təvil (təhrif) etmişlər. Qəbilələrin hamısının xilafət arzusuna çatması üçün –bu işin uzun illər çəkəcəyini, müxtəlif yerlərdə və bütün qəbilələrə nə vaxt nəsib olacağını nəzərə almadan– xilafəti seçkiyə qoymuş, var qüvvələrini bu işi təsdiq etdirməyə sərf etmiş və bu fikirlə müxalif olanları isə səhnədən uzaqlaşdırmışlar. Beləliklə, Əhli-beyt məzhəbindən uzaqlaşaraq "kitab" və sünnəni, eləcə də Əhli-beytə təslimin vacibliyinə dəlalət edən hədis və rəvayətləri "təvil" etmişlər. Əgər onlar sünnəyə təslim olub, Əhli-beytə tabe olsaydılar, bütün ümməti üsul və füruda onlara (ə) tapşırsaydılar, artıq tutduqları yolu öz üzlərinə bağlamaqla Əhli-beytin ən yaxın mübəlliğlərinə çevrilərdilər. Lakin, həqiqət isə onların arzu və istəkləri, siyasi fikirləri və iqtidara nail olma məqsədləri ilə uyğun gəlmirdi.

Bu incəlikləri iti baxışla süzən hər kəs aydın başa düşür ki, məzhəbdə və məzhəbi məsələlərdə Əhli-beytdən üz döndərilməsi həqiqəti, faktiki olaraq gedişatın Peyğəmbərdən (s) sonrakı imamət-vilayət və onların (Əhli-beyt) ümumi xilafətindən yayındırılması demək idi. Amma onların (ə) xass məzhəbi məsələlərdə rəhbərlik və imamətinə dəlalət edən dəlillərinin təvilinə gəldikdə isə, Peyğəmbərdən (s) sonrakı ümumi imamət, xilafət və hakimiyyətlərinə dəlalət edən sübutları yozmaqdan sonrakı mərhələyə düşürdü. Halbuki belə olmasaydı, heç kəs onlardan üz döndərməzdi.

4. Hələ onların (ə) imamət və xilafətinə dəlalət edən dəlil və “nəss”ləri qoyaq bir kənara! Gəl görək elm, əməl və təqvada Əşəri və sünnə əhlinin digər imamları ilə müqayisədə onlarda (ə) bir qüsur və əksiklik tapırsanmı? Əgər onlarda bir qüsur belə yoxdursa, nə üçün rəhbərlikdə başqaları onlardan irəli və layiq olmalıdırlar?

5. Hansı ədalətli məhkəmə onlara ürəkdən qoşulanlara, onların yoluyla addım atanlara və vilayətləri altında hərəkət edənlərə azğınlıq hökmünü verə bilər?! Mümkün deyil ki, sünnə əhli və camaatı belə bir hökm versin! Vəssalam.

***“Ş”***

## *ON DOQQUZUNCU MƏKTUB*

5 Zilhiccə 1329

***1. Ədalətli məhkəmələr Əhli-beytə arxalananların yoldan azmalarına hökm vermirlər.***

***2. Onların məzhəbinə əməl etmək, (şəri cəhətdən) öhdədə olan işin yerinə yetirilməsini tələb edir.***

***3. Bəzən deyilir ki, onlar "təbəiyyət" olunmağa daha layiqdirlər.***

***4. Xilafət "nəsslərinin" (rəvayətlər) tələbi.***

1. Ədalət məhkəmələri, Əhli-beyt vilayətinə arxalananların yoldan azmalarına hökm vermir və Əhli-beyt imamlarının başqa məzhəb imamları ilə müqayisədə imamət və rəhbərlik məsələlərində qüsurları yoxdur.

2. Şübhəsiz, onların məzhəbinə əməl etmək mükəlləflər üçün mükafat və vəzifənin yerinə yetirilməsinə səbəb olacaq (ərbəə məzhəblərindən hər hansı birinə əməl etmək kimi).

3. Bəzən deyilir ki, sizin on iki imamınız, təbəiyyət olunmağa sünnə əhlinin dörd imamlarından və başqalarından daha layiqlidir. Çünki bu on iki nəfərin bir məzhəbi vardır, onu nizama salmış, yəqinləşdirmiş və fikirləri eynidir. Halbuki, bizim dörd imamlarımızın aralarında fiqh məsələlərində olan ixtilaflar aşkardır. Onların sayını hesaba gətirmək olmaz. Aydın məsələdir ki, bir nəfərin tədqiq etdiyi məsələ on iki imamın tədqiq etdiyi məsələ kimi ola bilməz. Bu elə bir həqiqətdir ki, heç bir insaflı şəxs üçün şübhə yeri yoxdur və irad tutanın iradı yersizdir.

Bəli! Bəzən nasibilər Əhli-beyt imamlarının məzhəbinə qarşı mübarizə aparırlar ki, mən sonradan bu haqda dəlil və sübut gətirmək zəhmətini sizə verəcəyəm.

4. İndi sizdən xahiş edirəm, İmam Əli ibn Əbu Talibin (Allah ondan razı olsun) xilafətinə dəlalət edən (güman etdiyiniz) doğru və aşkar "nəssləri" (rəvayətləri) sünnə əhli təriqi ilə göstərəsiniz. Vəssalam.

***"S"***

# İKİNCİ BƏHS

## PEYĞƏMBƏRİN (S) XİLAFƏTİNİN ÜMUMİ RƏHBƏRLİYİ

# *İYİRMİNCİ MƏKTUB*

<u>9</u> <u>Zilhiccə</u> <u>1329</u>

***1. “Nəss”lərə xülasə işarə.***

***2. “Yövmül-inzar” “nəss”i.***

***3. Sünnə əhlindən bu “nəss”i nəql edənlər və yazanlar.***

1. Peyğəmbərin (s) rəftar və yaşayış tərzindən agah olan, İslam dövlətinin yaranmasını, əhkamlarının bəyanını, onun qanun və əsaslarının hazırlanmasını, və Allah tərəfindən nazil olmasını bilən kəs başa düşər ki, Əli (ə), Allah peyğəmbərinin vəziri, düşmən qarşısında arxası, hökm və fərmanının varisi, onun vəliəhdi və o həzrətdən sonra, xilafət işinin sahibidir. Peyğəmbərin (s) səfərdə və qeyri-səfərdə olan söhbətləri və işləri ilə tanış olanlar, bu barədə o həzrətin ardıcıl və aydın rəvayətlərini bilməlidirlər. Bu cərəyan onun dəvətinin əvvəlindən ömrünün sonunadək aydın və aşkar şəkildə görünür.

2. İslamın başlanğıcında, Məkkədə İslamın rövnəq tapmasından əvvəl Allahın nazil etdiyi bu ayəni mülahizə etmək sizə kifayət edər: وَأَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ “Ən yaxın qohumlarını (Allahın əzabından və...) qorxut.”[1] – ayəsi nazil olan vaxt Həzrət yaxın qohumlarını əmisi Əbu Talibin evinə topladı. Düz, qırx nəfər idilər. Onların arasında əmiləri Əbu Talib, Həmzə, Abbas və Əbu Ləhəb də var idi. Bu hədis doğru hədislərdəndir. Hədisin sonunda deyilir ki, Peyğəmbər (s) onlara belə xitab etdi: “Ey Əbdül-Müttəlibin övladları, Allaha and olsun, mən ərəblərdən elə bir cavan tanımıram ki, mənim sizin üçün gətirdiyimdən faydalısını onlar üçün gətirmiş olsun. Mən sizin üçün dünya və axirətin xeyrini gətirmişəm. Allah mənə əmr edib ki, sizi ona tərəf dəvət edim. «فَاَيّكُمْ يُوازِرُني عَلي اَمْري هذا عَلي اَن يَكُونَ اَخي وَ وَصيّي وَ خَليفَتي فيكُم؟» Sizlərdən kim bu yolda mənə kömək olsa o, sizin aranızda mənim qardaşım, vəsim və xəlifəm olacaq” Hamı sükut etdiyi vaxt Əli yaşca hamıdan kiçik olmasına baxmayaraq, ayağa durdu və dedi: «اَنا يا نَبِيَّ اللهِ اَكُونُ وَ زِيرَكَ عَلَيْهِ» “Mən! Ey Allahın peyğəmbəri, mən bu işdə sənin vəzirin olacağam.” Peyğəmbər (s) əlini onun çiyninə qoydu və buyurdu: «اِنَّ هذا اَخي وَ وَصِيّي وَ خَليفَتي فيكُم فاسْمَعُوا لَهُ وَ اَطِيعُوهُ» “Bu sizin aranızda mənim vəsim və xəlifəmdir, ona qulaq asın və itaət edin.” Camaat (Əbu Cəhl) gülə-gülə yerdən qalxıb Əbu Talibə dedilər: “Sənə əmr etdi ki, oğlunun sözünə qulaq asmalı və ona itaət etməlisən!”

3. Nübüvvət əsərlərini qoruyub saxlayanların çoxu, məsələn, İbn İshaq, İbn Cərir, İbn Əbu Hatəm, İbn Mərdəveyh, Əbu Nəim, Beyhəqi “Sünən” kitabları və “Dəlail”lərində, Sələbi və Təbəri, “Şüəra” surəsinin təfsirində, (həm) Təbəri “Tarixul-üməmi vəl-muluk”[2] kitabının ikinci, (həm də) İbn Əsir “Kamil”in[3] ikinci cildində bu hədisi olduğu kimi qəti şəkildə nəql etmişlər. Bunu Əbül-Fəda öz tarix[4] kitabının birinci cildində “Peyğəmbərin camaatı İslama

---

[1] “Şüəra”, 214.

[2] səh. 217, müxtəlif sənədlərlə.

[3] səh. 22

[4] səh. 116

dəvət etməsi barədə Allahın əmri" ünvanında, mötəzili imam Əbu Cəfər İskafi "Nəqzul-Osmaniyyə" kitabında aydın rəvayətlə[1] və Hələbi öz "Sirə"sinin "Ərqəmin evində Peyğəmbər və əshabələrinin gizli iclaslarının olması" bölümündə nəql etmişlər.[2] Bu hədis həmin mənada, təqribən sözləri oxşar şəkildə bir sıra hədis alimləri tərəfindən zikr olunmuşdur. Məsələn Təhəvi, Ziya Müqəddəsi "Əl-Muxtarə"də, Səid ibn Mənsur "Sünən"də, Əhməd ibn Hənbəlin "Müsnəd"inin birinci cildində Əlidən nəql olan hədisin 111-159-cu cüzünə müraciət etsəniz kifayətdir. O, müsnədinin birinci cildinin 331-ci səhifəsində yenə İbn Abbasdan dəyərli bir hədis nəql edir. Bu hədisdə İbn Abbas Əlinin başqalarından fərqlənən 10 üstün cəhətini sayır. Bu dəyərli hədisi Nisai də İbn Abbasdan "Xəsaisül-Ələviyyə"nin 6-cı səhifəsində və Hakim "Müstədrək"in üçüncü cildinin 132-ci səhifəsində nəql etmişdir. Zəhəbi də öz "Təlxis"ində onu söyləmiş və doğru olduğuna etiraf etmişdir.

"Kənzül-Ümmal"ın altıncı cildi də ixtiyarınızdadır. Bu hədis orada müfəssəl şəkildə yazılmışdır.[3] Sizə imam Əhmədin "Müsnəd"inin haşiyəsində çap olunmuş "Müntəxəbi Kənzül-Ümmal"a müraciət etməniz lazımdır. Onun 5-ci cildinin 41-43-cü səhifəsinin haşiyəsinə baxsanız müfəssəl şəkildə onu tapacaq və elə təkcə bu kifayətdir.

***"Ş"***

---

[1] Necə ki, İbn Əbil-Hədidin "Nəhcül-bəlağə şərhi"nin (Misir çapı) 3-cü cildinin 263-cü səh.-də gəlmişdir. Amma "Nəqzül-Osmaniyyə" haqq yolunu axtaran hər bir tədqiqatçıya lazım olan misilsiz kitablardandır. Bu mövzu İbn Əbil-Hədidin "Nəhcül-bəlağənin şərhi"nin 3-cü cildində "Qasiə" xütbəsinin sonunda 257-281-ci səh.-də gəlib.

[2] Bu babın dördüncü səhifəsinə, yaxud Hələbinin "Sirə"sinin 381-ci səhifəsinə müraciət edin. Və İbn Teymiyyənin məlum inadkarlığının ona vəhy olunmuş "adilanə boşboğazlıq və zorakılığına" etina etmə, çünki ədalətli deyil.

Bu hədisi Misirli ictimaiyyətşünası Məhəmməd Həsəneyn Heykəl "Əs-siyasət" qəzetinin 12 zilqədə, 1350-ci il hicri-qəməri tarixli, 2751-ci nömrəsində nəşr olunmuş beşinci səhifəsinin ikinci sütununda söyləmişdir. Ora müraciət et və bu, müfəssəl şəkildə yazılmışdır. Və (Əs-siyasət) 2785-ci nömrəsinin əlavələrinin 6-cı səhifəsinin dördüncü sütununa müraciət etsən, onun bu hədisi Müslimin "Səhih"ində, Əhmədin "Müsnəd"indən, İbn Həcər Heysəminin "Cəmül-Fəvaid"indən, İbn Qüteybənin "Uyunil-Əxbar"ından, Əhməd ibn Əbdür-rəbənin "İqdül-Fərid"indən, Əmr ibn Bəhr Hacizin "Risalə"sindən, Bəni-Haşimdən və imam Əbu İshaq Sələbinin "Təfsir"indən nəql etmişdir.

Mən deyirəm: Bu hədisi ingilis Corc "Məqalətün fil-İslam" (ərəbcə tərcüməsi) kitabında yazmışdır. Məqaləni Haşim Ərəbi adlanan dinsiz bir protestant ərəbcəyə tərcümə etmişdir. Bu hədisi onun tərcüməsinin altıncı çapının 79-cu səhifəsində tapmaq olar. Bu hədis məşhur olduğu üçün bir sıra avropalılar; fransız, ingilis və alman yazıçıları da onu söyləmişlər. Tomas Karlayl da onu müxtəsər şəkildə "Əl-İbtidal" kitabında yazmışdır.

[3] 392-ci səhifədə 6008-ci hədisə müraciət et və onu İbn Cərir nəql etmişdir. 396-cı səhifədə 6045-ci hədisə bax. Onu Əhmədin "Müsnəd"indən, Ziya Müqəddəsinin "Əl-Muxtarə"sindən və Təhavi və İbn Cərirdən nəql etmiş və onu doğru hesab etmişlər. 397-ci səhifədə 6056-cı hədisə müraciət etsən, görəcəksən ki, onu İbn İshaq, İbn Cərir, İbn Əbu Hatəm, İbn Mərdəveyh, Əbu Nəim və Beyhəqi "Şöəbul-İman" və "Dəlail"də nəql etmişlər. 401-ci səhifədə 6102-ci hədisə müraciət etməklə aydın olacaqdır ki, İbn Mərdəveyhdən, və 408-ci səhifədə 6155-ci hədisindən məlum olacaqdır ki, Əhmədin "Müsnəd"indən və İbn Cərir və Ziyadan "Əl-Muxtarə"də nəql olunmuşdur. "Kənzül-Ümmal"ı araşdıran şəxs bu hədisi onun başqa yerlərində tapacaqdır. İbn Əbil-Hədidin "Nəhcül-bəlağənin şərhi"nin 3-cü cildinin 255-ci səhifəsinə müraciət etsən və ya bu kitabda "Qasiə" xütbəsinin şərhinin axırlarını oxusan, bu hədisi olduğu kimi tapa biləcəksən.

# *İYİRMİ BİRİNCİ MƏKTUB*

<u>10</u> <u>Zilhiccə</u> <u>1329</u>

***Bu “nəssin” (hədisin) sənədi barəsində şübhə.***

Düşməniniz bu hədisin sənədini mötəbər hesab etmir və onu rədd etmək üçün möhkəm izahatları vardır. Onun etibarsız olması üçün elə bircə bu kifayətdir ki, onu Müslim və Buxari nəql etməmiş, habelə, “Sihah” yazıçıları da yazmamışlar. Güman etmirəm ki, bu hədis sünnə əhlinin etimadlı şəxsləri vasitəsilə nəql olsun və siz də bu hədisi –onların vasitəsi ilə söyləndiyinə görə– mötəbər hesab edəsiniz.

***“S”***

# *İYİRMİ İKİNCİ MƏKTUB*

12 Zilhiccə 1329

***1. Bu hədisin sənədinin doğru olması.***

***2. Nə üçün ondan üz döndərmişlər?***

***3. Onları tanıyan şəxs onların üz çevirməsindən təəccüblənməz.***

1. Əgər mən bu hədisi sünnə əhli təriqi ilə mötəbər və doğru hesab etməsəydim, burada ondan danışmazdım. Bundan əlavə İbn Cərir və imam Əbu Cəfər İskafi onun doğru olmasını yəqinləşdirmi[1] və bir sıra məşhur tədqiqatçılar onu doğru hesab etmişlər. Onun doğru olmasını bilmək üçün sənə təkcə bu kifayət edər ki, bu hədis sünnə əhlinin etimadlı şəxsləri vasitəsi ilə söylənmişdir. O şəxslər vasitəsi ilə ki, "Sihahi-Sittə"nin müəllifləri arxayınlıqla onlardan və rəvayətlərindən dəlillər gətirmişlər. Əhmədin "Müsnəd"inin birinci cildinin 111-ci səhifəsinə baxın. Orada görəcəksiniz ki, bu hədisi Əsvəd ibn Amirdən[2], Şərikdən[3], Əməşdən[4], Minhaldan[5], İbad ibn Abdullah Əsədidən[6] və "məruf" şəkildə Əlidən nəql etmişdir. Bu sənədin silsilə şəxslərinin hər biri müxaliflərə bir dəlildir. Və hamısı, sözsüz, "Sihah" kitablarında adı gələn şəxslərdəndir. Qeysərani onların haqqında "Əl-cəm beynə Ricalis-Səhiheyn" kitabında yazmışdır. Buna görə də bu hədisin doğru olmasını deməkdən savayı başqa yol yoxdur.

2. Amma Müslim, Buxari və başqalarının bu hədisi nəql etməməsi məsələsinə gəldikdə isə bu ona görədir ki, onların xilafətinə olan əqidələri ilə uyğun gəlmiri və elə həmin məsələ onların bir çox "nəssləri" qəbul etməmələrinə səbəb olmuşdur. Qorxmuşlar ki, əgər nəql etsələr, şiənin əlində bu bir silah ola bilər və ona görə də bilə-bilə onları gizlətmişlər. Sünnə əhlinin böyüklərindən çoxu –Allah təqsirlərindən keçsin– bu yol ilə getmiş və bu məzmunda olan bütün hədisləri gizlətmişlər. Onlar hədis gizlətməkdə məşhur idilər, belə ki, Hafiz ibn Həcər "Fəthul-bari" kitabında onları nəql etmiş və Buxari "Səhih"in birinci cildində "elm" kitabının axırlarında bu barədə bir bölüm «بابٌ مَن خُصّ بالعلم قوماً دونَ قوم» ayırmışdır.[7]

3. Buxarinin Əmirəl-möminin (ə) və Əhli-beytə (ə) olan rəftarından agah olanlar bilirlər ki, onun qələmi "nəsslərin" gözəllikləri qarşısında acizdir və onların xüsusiyyət və imtiyazlarını

---

[1] "Kənzül-Ümmal"ın altıncı cildinin 396-cı səhifəsindəki hədislərdən 6045-ci hədisə müraciət etsən tapa bilərsən. İbn Cərir bu hədisi doğru hesab etmişdir. Əgər "Müntəxəbi-Kənz" kitabına müraciət etsən, Əhmədin "Müsnəd"inin 5-ci cildinin 44-cü səhifəsindəki haşiyəsinin əvvəllərində bu hədisin İbn Cərir tərəfindən doğru sayılmasından agah olarsan və Əbu Cəfər İskafi "Nəqzül-Osmaniyyə" kitabında onun doğru olmasına dair qəti şəkildə hökm vermişdir. İbn Əbil-Hədidin "Nəhcül-bəlağənin şərhi"nin (qədim Misir çapı) 3-cü cild, 263-cü səhifəsinə müraciət edin.

[2] Buxari və Müslim öz "Səhih"lərində ondan dəlil gətirmiş və hər ikisinin fikrincə o, Şöbədən hədis eşitmişdir. Buxarinin fikrincə, Əbdül-Əziz ibn Əbu Səlmədən və Müslimin fikrincə, üheyr ibn Müaviyədən və Həmmad ibn Səlmədən də hədis eşitmişdir. "Səhihi Buxari"yə əsasən, Məhəmməd ibn Hatəm ibn Bəzi və Müslimə əsasən, Harun ibn Abdullah, Naqid, ibn Əbu Şeybə və Züheyr ondan rəvayət nəql etmişlər.

[3] Müslim öz "Səhih"ində ondan dəlil gətirmişdir, belə ki, 16-cı məktubda onun adını çəkəndə xatırladıq.

[4] Buxari və Müslim öz "Səhih"lərində ondan dəlillər gətirmişlər. Bu haqda 16-cı məktubda qeyd etdik.

[5] Buxari ondan dəlillər gətirmişdir. 16-cı məktuba bax.

[6] O, İbad ibn Abdullah ibn Zübeyr ibn Əvam Qürəşi Əsədidir. Buxari və Müslim öz "Səhih"lərində ondan dəlillər gətirmişlər. O, Əbu Bəkrin qızları Əsma və Ayişədən hədis eşitmişdir.

[7] Səh. 25

bəyan etdikdə quruyur (yəni, onların bütün xüsusiyyətlərini bəyan edə bilmir). Buna görə də onun və başqalarının bu hədisin üstündən ötəri keçməsi heç də təəccüblü deyildir.

***“Ş”***

# *İYİRMİ ÜÇÜNCÜ MƏKTUB*

14 Zilhiccə 1329

***1. Hədisin sübutuna onun inamı.***

***2. Hədis "mütəvatir" olmayan surətdə ondan dəlil gətirməyə əsas yoxdur.***

***3. Bu hədis xüsusi xilafətə dəlalət edir.***

***4. Bu hədis nəsx olunmuşdur (hökmü dəyişilmişdir).***

1. Əhmədin "Müsnəd"inin birinci cildinin 111-ci səhifəsinə müraciət etdim və sənədinin ravilərini yoxladım. Hamısını etimadlı, sübutlu və dəlilli gördüm. Sonra onu başqa yollarla axtardım. Onu "mütəzafir" (məzmununa kömək edən başqa hədislər) də gördüm. Bəzisi digərini təsdiq edirdi və buna görə də onun təsdiqinə və Peyğəmbər (s) tərəfindən çatmasına iman gətirdim.

2. Amma siz –imamətin isbatında– həmişə elə bir dəlil gətirməlisiniz ki, doğru və "mütəvatir" (yəqinliyə səbəb olan hədis) olsun, çünki imamət sizin nəzərinizdə üsuli-dindəndir və demək olmaz ki, bu hədis "təvatür" (yəqinlik doğuran) sərhəddinə çatmışdır. Ona görə də bu hədisdən dəlil gətirməyə əsas yoxdur.

3. Bəzən deyilir ki, bu hədis Əlinin (ə) Əhli-beyt arasında Peyğəmbərin (s) xəlifəsi olmasına dəlalət edir (yəni Əhli-beyt arasında xüsusi bir xilafət). Bəs belə olan surətdə, sünnə əhlinin nəzərinə müxalif olan "nəss" və dəlil hanı?

4. Çox deyilmişdir ki, bu hədis nəsx olunmuşdur (dəyişilmişdir), çünki Peyğəmbər (s) onun məfhumundan üz çevirmişdi. Buna görə də səhabələrin əvvəlki üç xəlifə ilə beyətinə mane olmadı.

***"S"***

## *İYİRMİ DÖRDÜNCÜ MƏKTUB*

15 Zilhiccə 1329

***1. Bu hədisdən dəlil gətirməyimiz üçün əsas.***

***2. Xüsusi xilafət "icma" şəkildə rədd olunmuşdur.***

***3. Burada nəsx olunma mümkün deyildir.***

1. Sünnə əhli "mütəvatir" olub-olmamasından asılı olmayaraq, bizim imamətin isbatında gətirdiyimiz hər bir hədisi şübhə altına alırlar. Biz də onların müqabilində məcburuq bu işi görək, çünki bu hədis onların nəzərində doğrudur. Beləliklə, onların özlərini lazım bildiklərinə iqrar etməyə vadar edirik. Amma biz əgər öz aramızda imamətin isbatı üçün ona əsaslanırıqsa, ona görədir ki, bu hədis bizim nəzərimizdə mütəvatirdir və bu da heç kəsə gizli deyildir.

2. Amma "bu hədis Əlinin (ə) Əhli-beyt arasında xüsusi xilafətinə dəlalət edir" – iddiası şiə və sünni tərəfindən qəbul olunmur. Çünki Əlini (ə) Əhli-beyt arasında Peyğəmbərin xəlifəsi bilənlərin hamısı, onun bütün camaat arasında Peyğəmbərin xəlifəsi olduğuna inanır və onun ümumi xilafətini qəbul etməyənlərin hamısı xüsusi xilafətini də qəbul etmir. Bəs onda müsəlmanların icmasına (fikir birliyinə) zidd olan bu fəlsəfə hardan gəlmişdir?

3. Unutmamışsan və unutmamışıq ki, burada nəsxə qail olmaq qeyri-mümkündür, həm ağıl cəhətdən, həm də şəriət nöqteyi-nəzərindən. Çünki nəsx, əmrə əməl etmək vaxtı çatmazdan əvvəl ola bilər ki, bu da elm əhlinə gizli deyildir. Bundan əlavə, burada nasix (dəyişdirici hədis) yoxdur, və Peyğəmbərin (s) onun məfhumundan üz çevirməsi yalnız xam xəyaldır. Halbuki Peyğəmbər (s) ondan dönməmiş, əksinə, bir-birini təsdiq edən, ardıcıl deyilən mütəvatir "nəss"lər onun dönməməsinə dəlildir. Əgər fərz də olunsa ki, bu hədisdən sonra başqa bir "nəss" yoxdur, onda söz bu barədə olardı ki, Peyğəmbərin dönməsi haradan məlum olmuşdur və hansı səbəbə deyirsiniz ki, onun mənasından üz döndərmişdir? Deməli, "onlar yalnız zənn və nəfsi istəklərə uyurlar. Halbuki, rəbbindən onlara haqq yolu göstərən rəhbər gəlmişdir."[1]

***"Ş"***

---

[1] Nəcm surəsi, 23-cü ayə.

# *İYİRMİ BEŞİNCİ MƏKTUB*

16 Zilhiccə 1329

***1. Onun bu “nəss”ə imanı.***

***2. Əlavə xahiş.***

1. Sənin nurunla zülmət və qaranlığı işığa çevirildikcə, sənin vasitənlə anlaşılmazlıqlar aşkar olduqca iman gətirdim. O kəsə ki, Səni Öz ayələrindən birinə və möcüzələrinin bir cilvəsinə çevirmişdir.

2. Xilafətə dəlalət edən “nəss”lərdən mənim üçün daha artıq danış, daha artıq.

***“S”***

# *İYİRMİ ALTINCI MƏKTUB*

17 Zilhiccə 1329

***1. Əlinin (ə) fəzilətlərinə dəlalət edən ondan çox doğru “nəss” var ki, o həzrətdən savayı heç kimdə olmamışdır.***

***2. Nə üçün ona istinad edirik.***

1. “Dar” hədisindən sonra (iyirminci məktubdan sonra izahı verildi) bu hədis sənin üçün kifayətdir. Hansı ki, imam Əhməd “Müsnəd”in[1] birinci cildində, imam Nisai “Xəsaisül-Ələviyyə”də[2], Hakim “Müstədrək”in[3] üçüncü cildində, Zəhəbi öz “Təlxis”ində onun doğru olduğunu etiraf etmiş, bunlardan əlavə, doğru olmasında hamı eyni fikirdə olan bir vasitə ilə “sünən” yazıçıları onu Əmr ibn Meymundan nəql etmişlər. O deyir: “Bir dəfə İbn Abbasın yanında oturmuşdum, gördüm doqquz dəstə onun yanına gəlib dedilər: Ey İbn Abbas, ya bizimlə gəl, ya da ətrafını xəlvət et ki, sənə sözümüz vardır. İbn Abbas dedi: Sizinlə gəlirəm. İbn Abbas o vaxt hələ sağlam idi və görmək qabiliyyətini itirməmişdi. Onlar kənara çəkildilər və söhbətə başladılar. Biz nə dediklərini bilmədik. (Bir müddətdən sonra) İbn Abbas paltarını silkələyə-silkələyə gəldi: Tuf (ar olsun), elə adamın dalınca pis danışırlar ki, başqalarında olmayan on fəzilətə malikdir, elə adamın dalınca danışırlar ki, Peyğəmbər (s) onun haqqında demişdir: O kəsi döyüşə göndərəcəyəm ki, Allah onu heç vaxt zəlil və rüsvay etməz, (o,) Allahı və onun rəsulunu sevir, Allah və rəsulu da onu sevirlər. Bu zaman (hamı istəyirdi ki, bu fəzilət ona nəsib olsun) Həzrət (s) buyurdu: Əli hardadır? Əli gəldi, gözü ağrıyırdı və görə bilmirdi. (Həzrət mübarək) ağzının suyunu onun gözünə sürtdü və bayrağı üç dəfə yellətdikdən sonra onu Əliyə verdi. Əli gedib, qələbə ilə Mərhəb Xeybəri öldürdükdən və Həyyin qızı Səfiyyəni əsir tutandan sonra qayıtdı.

İbn Abbas dedi: Peyğəmbər bir nəfəri “Tövbə” surəsini məkkəlilərə bəyanat vermək üçün göndərdi, lakin, sonra Əlini onun ardınca yolladı ki, Əli bu əmri yerinə yetirsin. Buyurdu: Bu surəni elə adam aparmalıdır ki, o məndən olsun və mən ondan.

İbn Abbas dedi: Peyğəmbər əmilərinə və əmisi uşaqlarına dedi: Sizlərdən kim bu dünyada və axirətdə mənimlə həmkarlıq və dostluq edər? Hamı imtina etdi. Əli qalxdı və dedi: Mən bu dünyada və axirətdə səninlə həmkarlıq və dostluq edəcəyəm. Peyğəmbər (s) buyurdu: Sən bu dünyada və axirətdə mənim vəlim olacaqsan. Sonra yenə üzünü onlara tutub dedi: Sizlərdən kim bu dünyada və axirətdə mənimlə həmkar və dost olmağı öhdəsinə götürməyə hazırdır? Hamı imtina etdi. Əli qalxdı və dedi: Bu dünyada və axirətdə sizin köməyiniz və dostunuz olacağam. Həzrət ona buyurdu: Sən mənim bu dünyada və axirətdə vəlim olacaqsan.

İbn Abbas dedi: Əli (ə) Xədicədən sonra Peyğəmbərə (s) iman gətirən ilk şəxsdir.

İbn Abbas dedi: Peyğəmbər əbasını Əli, Fatimə, Həsən və Hüseynin (ə) üstünə salıb dedi: Allah iradə etmişdir ki, pisliyi siz Əhli-beytdən silsin və sizi pak-pakizə etsin.[4]

İbn Abbas dedi: Əli öz canını Allah xatirinə təhlükə qarşısında qoydu. Peyğəmbərin (s) libasını geydi və onun yatağında yatdı. Müşriklər onu daşa basdılar.

İbn Abbas dedi: Peyğəmbər (s) “Təbuk” döyüşünə yollandı və camaat da onunla birlikdə Mədinədən xaric oldular. Əli dedi: Mən də sizinlə gəlirəm. Buyurdu: Yox. Əlinin gözləri

---

[1] 330-cu səhifənin sonunda

[2] səh. 6

[3] səh. 123

[4] “Əhzab” surəsi, 33-cü ayə.

doldu. Peyğəmbər (s) ona buyurdu: Razı deyilsənmi sənin mənə olan nisbətin Harunun Musaya (ə) olan nisbəti kimi olsun? Lakin, məndən sonra peyğəmbər gəlməyəcək. Sən mənim xəlifəm və canişinim olmağa layiqsən. Peyğəmbər (s) ona dedi: «اَنْتَ وَليُّ كُلِّ مُؤمِنٍ بَعْدي وَ مُؤمِنَةٍ» Sən məndən sonra bütün mömin kişi və qadınların vəlisi olacaqsan.

İbn Abbas dedi: Peyğəmbər Əlinin evinin qapısından başqa məscidə açılan bütün qapıları bağladı. O, cünub halda məscidə daxil olurdu, ondan başqa yolu yox idi.

İbn Abbas dedi: Peyğəmbər (s) buyurdu: «مَنْ كُنْتُ مَوْلاهُ فَاِنَّ مَوْلاهُ عَليّ» "Mən hər kəsin mövlasıyamsa, Əli də onun mövlasıdır."

Hakim bu hadisəni nəql edəndən sonra deyir: "Bu hədis sənəd nöqteyi-nəzərindən doğrudur, lakin Buxari və Müslim ümumi şəkildə onu nəql etmişlər."

Mən deyirəm: Zəhəbi "Təlxis" kitabında onu nəql etmiş və demişdir: "Bu hədis doğrudur."

2. Bu hədisdə olan qəti və aydın dəlillər heç kimə gizli deyil. Bu dəlillərdən yaxşı aydın olur ki, Əli (ə) Peyğəmbərin (s) vəliəhdi və ondan sonra xəlifəsidir. Məgər mülahizə etmədinmi ki, Allahın rəsulu onu bu dünyada və axirətdə özünə vəli etdi, onu başqa qohumlarından üstün tutdu və onu özü ilə münasibətdə Harunun Musaya olan münasibətinə bənzətdi? Nübüvvət məqamı istisna olmaqla özündə olan heç bir məqamı ondan əskiltmədi. Yalnız bunun (nübüvvətin) istisna olması ümumiliyə dəlalət edir, yəni o, Peyğəmbərin başqa məqam və mənzilətlərinə malikdir.

Siz yaxşı bilirsiniz ki, Harunun Musa (ə) yanında ən yaxşı məqamları – vəzirlik məqamı, himayədarlıq, peyğəmbərlik işlərində iştirak etmək, xəlifəlik və bütün ümmətin Haruna itaət etməsi vacibliyindən ibarət idi. Allahın buyurduğu buna sübutdur: Musa Allahdan istədi: Öz əhlimdən mənim üçün bir vəzir təyin et! Harun qardaşımı və onun vasitəsilə arxamı möhkəmlət, onu işimdə şərik et!"[1] Haruna dedi: "Qövmün içində xəlifəm ol, islah et, fəsad törədənlərin yolu ilə getmə."[2] Və əziz Allah buyurdu: "Ey Musa, istədiyin şey sənə verildi."[3] Deməli, bu "nəss"ə əsasən, Əli (ə) Peyğəmbərin qövmü arasında xəlifəsi, əhli arasında vəziri, işlərində –peyəmbərlik yox, xəlifəlik məqamı ilə– şəriki, ümmətinin ən fəzilətlisi, Peyğəmbərə həyatında və ölümündə onların hamısından ən yaxınıdır və Peyğəmbər zamanında vəzirliyi xatirinə ona itaət etməyin vacibliyi, Musa (ə) zamanında Musa ümmətinin Haruna itaətinin vacibliyi kimi şübhəsizdir.

"Mənzilət" hədisini eşidənə bütün bu məqamlar aydın olur və bu məqamların nəzərdə tutulduğuna şübhəsi qalmır. Peyğəmbər özü bu məsələni aşkar şəkildə buyurduğu bu cümlə ilə aydınlaşdırmışdır: "Məndən sonra xəlifə olmağa səndən başqası layiq deyildir." Bu onun xəlifəliyinə aşkar "nəss"dir, üstəlik bu "nəss"dən aydınlaşır ki, onu öz xəlifəsi təyin etmədən dünyadan getsə, layiq olmayan işi yerinə yetirmiş olar və bu da Allah tərəfindən Əlini (ə) öz yerinə xəlifə təyin etməyə məmur olduğundan başqa bir şey deyildir. Bu ayə həmin hadisə ilə bağlı nazil olmuşdur: يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ "Ey Peyğəmbər, sənə nazil olan şeyi çatdır! Əgər yerinə yetirməsən risalətini sona çatdırmamısan."[4]

Ayədəki فَمَا بَلَّغْتَ رِسَالَتَه "risaləti çatdırmamısan" – cümləsinə və sonra Peyğəmbərin «اِنَّهُ لا يَنْبَغي اَنْ اَذْهَبَ إلاّ وَ اَنْتَ خَليفَتي» "Heç olmaz ki, mən gedəm, sən isə mənim xəlifəm olmayasan." – sözünə dərindən nəzər salan şəxs başa düşər ki, hər ikisi vahid məqsəd dalıncadır və bu da

[1] "Taha" surəsi, 29-cu ayədən sonra.
[2] "Əraf" surəsi, 142-ci ayə.
[3] "Taha" surəsi, 29-cu ayədən sonra.
[4] "Maidə" surəsi, 67-ci ayə.

gizli deyildir. Elə bu hədisdəki Peyğəmbərin (s) «انتَ وليُّ كلّ مؤمن بعدي» “Sən məndən sonra bütün möminlərin vəlisi olacaqsan” – sözünü də unutmamalıyıq ki, onun vəli və canişinliyinə aşkar “nəss”dir. Rəhmətlik məşhur şair Kümeytin dediyi kimi: “Nə yaxşı vəlidir o; o, təqva nümunəsi və ən yaxşı ədəb verəndir.”

***“Ş”***

# İYİRMİ YEDDİNCİ MƏKTUB

18 Zilhiccə 1329

***Mənzilət hədisinin sənədinə şübhə.***

“Mənzilət” hədisi doğrudur və bir neçə sənədi var. Amma tədqiqatçı alim və “Üsul elmi”nin böyük alimi Amidi onun sənədinə və silsiləsinə şübhə etmişdir. Əgər düşmənləriniz onun nəzəriyyəsini əldə dəlil tutsalar, nə kimi vasitələr ilə onlara qalib gələr və cavablarını verərsiniz?

***“S”***

# *İYİRMİ SƏKKİZİNCİ MƏKTUB*

<u>19</u> <u>Zilhiccə</u> <u>1329</u>

***1. “Mənzilət” hədisi ən qəti xəbərlərdəndir.***

***2. Bu həqiqəti bildirən şahidlər.***

***3. Sünnə əhlindən bu hədisi nəql edənlər.***

***4. Amidinin şübhəsinin səbəbi.***

1. Amidi bu şübhə ilə özünə zülm etmişdir, çünki mənzilət hədisi ən doğru, ən aydın sünnə və qəti xəbərlərdəndir.

2. Bu hədisin doğru olmasında heç bir şübhə ürəkdə iztiraba səbəb olmaz və heç kəsin fikrinə gəlməz ki, onu sübut etmək üçün münaqişəyə başlasın. Hətta Zəhəbi, o cür inadkarlığı ilə “Təlxisi Müstədrək” kitabında o hədisin doğru olmasını aydınlaşdırmışdır.[1] İbn Həcər Heysəmi, o cür inadkarlığı ilə öz “Səvaiq” kitabının 12-ci şübhəsində bu hədisi xatırlamış, və yalnız mötəbər hədis imamlarının sözünə əsasən onun doğru olmasını nəql etmişdir.[2] O kitaba müraciət et və əgər bundan da sonra o hədis doğru sayılmazsa, sonda Buxari onu öz “Səhih”ində nəql etməzdi. Halbuki o, Əlinin (ə) xasiyyət və fəzilətləri qarşısında özünə çox zülm edir və onları yazmaqdan çəkinərmiş.

Üsyançı dəstənin rəhbəri və pişvası və Əmirəl-möminini (ə) söyən, onunla döyüşən və minbərlərdə Əlini (ə) söyməyi müsəlmanlara əmr edən Müaviyə də belə –hədsiz həyasızlığı və düşmənçiliyinə baxmayaraq– “Mənzilət” hədisini inkar etməmişdir. Müslimin nəql etdiyinə əsasən, Səd ibn Əbu Vəqqasa[3] “Sənə nə mane oldu ki, Əbu Turabı söymürsən?” – dediyi vaxt onun cavabını inkar etmədi. Səd cavab verdi: “Peyğəmbərin onun haqqında buyurduqları üç şeyi xatırladım və söyə bilmədim. Əgər onlardan biri məndə olsaydı, mənim üçün ərəbin ən əziz sərvətindən də qiymətli olardı. Peyğəmbər onu bəzi döyüşlərdə Mədinədə saxladığı zaman eşitdim ki, ona buyurdu:

“Razı deyilsənmi ki, sən mənə Harunun Musaya (vəsi) olduğu kimi olasan? Bu fərq ilə ki, məndən sonra Peyğəmbər yoxdur.[4]” Müaviyə sakit oldu və Sədi söyüş söyməkdən azad etdi.

Daha aydın deyim, Müaviyə özü “Mənzilət” hədisini nəql etmişdir. İbn Həcər “Səvaiq”də[5] deyir: Əhməd nəql edir ki, bir nəfər Müaviyədən bir məsələni soruşdu. Müaviyə ona dedi: Bu məsələni Əlidən soruş ki, o daha bilikli və daha agahdır. O şəxs cavab verdi: Sənin cavabın mənə Əlinin cavabından daha əzizdir. Müaviyə dedi: “Pis danışdın. Elə bir kəsdən narahatsan ki, Allahın rəsulu onu elmin parlaq çöhrəsi adlandırmış və ona buyurmuşdur: «اَنْتَ مِنّي بِمَنْزِلَةِ هارُونَ مِنْ مُوسَي اِلاّ اَنَّهُ لا نَبِيَّ بَعْدي» “Sən mənə Harunun Musaya (vəsisi) olduğu kimisən, bu fərq ilə

---

[1] 26-cı məktubda onun doğru olmasını eşitdiniz.
[2] “Əs-Səvaiq”, səh. 29
[3] “Səhih”in ikinci cild, Əlinin fəzilətləri bab”,səh 324
[4] Hakim də “Müstədrək”in 3-cü cildinin 109-cu səhifəsinin əvvəlində onu söyləmiş və demişdir ki, Müslim və Buxarinin hədisin qəbulunda şərtlərinə əsasən, bu rəvayət doğrudur. Zəhəbi onu “Təlxisi-Müstədrək”də xatırlamış və Müslimin şərtlərinə əsasən onu doğru hesab etmişdir.
[5] 107-ci səhifə, 11-ci bab, 14-cü ayə, 5-ci məqsəd.

ki, məndən sonra Peyğəmbər yoxdur.” Ömər özü bir çətin məsələ qarşıya çıxdıqda ondan öyrənərdi...[1]

Xülasə, “Mənzilət” hədisi elə xəbərlərdəndir ki, məzhəb və məsləklərindəki ixtilafa baxmayaraq, müsəlmanların heç birinin onun sübutunda şübhələri yoxdur.

3. Bu hədisi “Əl-cəm beynəs-Sihahüs-Sittə”[2] və “Əl-cəm beynəs-Səhiheyn” yazıçıları nəql etmişdir. “Səhih-Buxari”nin “Təbuk” döyüşü[3] hissəsində də və “Səhih-Müslim”də Əlinin (ə) fəzilətləri babında da yazılmışdır.[4] “Sünəni-ibn Macə”də[5] Peyğəmbər (s) əshabələrinin fəzilətləri babında və “Müstədrəki Hakim”in Əlinin[6] (ə) fəzilətləri hissəsində deyilmişdir. İmam Əhməd Hənbəl “Müsnəd”də Sədin hədisini çoxlu silsilələrlə, həmçinin İbn Abbas,[7] Əsma binti-Ümeys,[8] Əbu Səid Xidri,[9] Müaviyə ibn Əbu Süfyan[10] və bir sıra başqa əshabələrdən nəql etmişdir.

Təbərani bu hədisi Əsma binti-Ümeys, Ümmi Sələmə, Hübeyş ibn Cənadə, İbn Ömər, İbn Abbas, Cabir ibn Səmurə, Zeyd ibn Ərqəm, Bəra ibn Azib, Əli ibn Əbu Talib və başqalarından nəql etmişdir.[11]

Bəzzar öz “Müsnəd”ində[12] və Tirmizi[13] öz “Səhih”ində Əbu Səid Xidrinin hədisini söyləmişlər. İbn Əbdül-Birr “İstiab” kitabında Əlinin (ə) şərhi-halında onu yazmış və sonra əlavə etmişdir: “Bu hədis sübut olunmuş ən doğru xəbər və rəvayətlərdəndir ki, Səd ibn Vəqqas onu Peyğəmbərdən (s) nəql etmişdir. Sədin hədisinin təriqi doğrudan da çoxdur, bunu İbn Əbu Xeysəmə və başqaları zikr etmişlər. O demişdir: Bu hədisi İbn Abbas, Əbu Səid Xidri, Ümmi Sələmə, Əsma binti-Ümeys, Cabir ibn Abdullah və bir sıra başqaları xatırlamışlar ki, bunların hamısı haqqında danışmaq uzun çəkər.” İbn Əbdül-Birrin sözü bundan ibarət idi. “Təbuk” döyüşündə iştirak edən hədis və sirə yazanlar, xəbər söyləyənlərin hər biri bu hədisi nəql etmişlər. Əvvəlki və sonrakı dövrlərdə yaşayan, məzhəb və məslək ixtilaflarına baxmayaraq Əlinin şərhi-halını yazan yazıçılar bu hədisi yazmışlar.

Əhli-beytin fəzilətləri və əshabələrin fəzilətləri haqqındakı kitabların yazıçıları, o cümlədən Əhməd Hənbəl və ondan əvvəlkilər (ya sonrakılar) onu rəvayət etmişlər. Xülasə, bu hədis müsəlmanların elə hədislərindəndir ki, bu ümmətin bütün dövrlərində nəql olunmuşdur.

---

[1] Əhməd demişdir: Başqaları da bu hədisi nəql etmiş, lakin bəziləri deyiblər ki, Müaviyə ona dedi: “Qalx, Allah ayaqlarını sındırsın.” Və onun adını müsəlmanların maaş dəftərindən sildi..” Səvaiqin 107-ci səh.də Əhməddən başqa bir qrup hədis yazanların “Mənzilət” hədisini sənəd ilə Müaviyədən nəql etdikləri qeyd olunmuşdur.

[2] Əlinin (ə) fəzilətlərində.

[3] 3-cü cild, səh. 58

[4] 2-ci cild, səh. 323

[5] 1-ci cild, səh. 28, “Əlinin fəzilətləri.”

[6] 3-cü cild, 109-cu səhifənin əvvəlində və tədqiqatçıların bildikləri başqa yerlərdə.

[7] “Müsnəd”in 1-ci cildinin 331-ci səhifəsinə bax.

[8] “Müsnəd”in 6-cı cildində, 369 və 438-ci səhifələrə bax.

[9] “Müsnəd”in 3-cü cildinin 32-ci səhifəni oxuyun.

[10] Məktubun əvvəlində “Səvaiq”in 107-ci səhifəsindəki ayələrdən 14-cü ayənin məqsədlərindən 5-ci məqsəddə də nəql etdik.

[11] İbn Həcər də “Səvaiq”in 9-cu babının ikinci fəslinin 7-ci səhifəsində qırx hədisdən birincisini yazmış və aydınlaşdırmışdır. Süyuti Əlinin şərhi-halında “Tarixül-Xüləfa”da söyləmişdir ki, Təbərani bu hədisi onların hamısından nəql etmiş və Əsma binti-Qeysi də əlavə etmişdir.

[12] Süyuti “Tarixül-Xüləfa”da Əlinin şərhi-halının 65-ci səhifəsində bunu aydınlaşdırmışdır.

[13] “Kənzül-Ümmal”ın 6-cı cildinin 152-ci səhifəsindəki hədislərindən 2504 hədis də ona dəlalət edir.

4. Beləliklə Amidinin onun sənədinə şübhə etməyinə heç bir əsas qalmır. Çünki o, hədis alimi deyil və bu elmdən də xəbəri yoxdur. Onun sənədlərlə tanışlığı və hədislərin təriqi haqqındakı hökmü avamyana bir hökmdür ki, onun cahilliyini göstərir və yalnız “üsul” elmindəki təbəhhürü (üstünlüyü) onu bu uçuruma salmışdır, çünki görmüşdür ki, bu “nəss” üsul elminin tələbinə müvafiq “nəss”dir, ondan yalnız şübhə ilə xilas olmaq olar. Elə güman edib ki, bu iş mümkündür. Amma heyhat! Bu işi burada görmək olmaz.

***“Ş”***

# *İYİRMİ DOQQUZUNCU MƏKTUB*

20 Zilhiccə 1329

***1. Hədisin sənədi haqqında deyilənlərin təsdiqi.***

***2. Hədisin ümumiliyinə şübhə.***

***3. Onun dəlilində şübhə.***

1. “Mənzilət” hədisinin sübutu haqqında söylədiklərin həqiqətdir və onda heç bir şübhə yoxdur. Amidi burada səhv etmişdir. O, hədis elmi və hədis əhlindən çox uzaqdır, onun nəzəriyyəsi və əqidəsini xatırlatmaqla sizi əziyyətə saldıq və məcbur oldunuz ki, geniş izahat verəsiniz. Bu səhv üçün sizdən üzr istəyirik və xahiş edirik ki, bizi bağışlayasınız.

2. Eşitdiyimə görə Amididən başqa sizin bəzi müxaliflərinizi güman ediblər ki, “Mənzilət” hədisi ümumi deyil (geniş mənalı), yalnız işləndiyi yerə aiddir (yəni, Əli Peyğəmbərin Təbuk döyüşündə xəlifəsi olub). Bu məsələni sübut etmək üçün belə dəlil gətirirlər ki, Peyğəmbər Təbuk döyüşünə gedən zaman Əlini (ə) Mədinədə öz yerinə qoyanda İmam Əli رضي الله عنه Peyğəmbərə ərz etdi: “Məni qadınlar və uşaqların arasındamı qoyursan?” Peyğəmbər ona buyurdu: “Razı deyilsənmi ki, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun? Yalnız bu fərq ilə ki, məndən sonra peyğəmbər yoxdur.” Guya Peyğəmbərin (s) fikri bu idi ki, Əlini özünə Harun kimi seçməyi Musanın (ə) Harunu öz yerinə qoyub Tur dağına gedən kimidir.

Beləliklə məqsəd budur: Sən yalnız Təbuk döyüşü əyyamında mənim üçün, (Musa olmayan vaxt) Harunun Musaya olan nisbəti kimisən.

3. Habelə deyə bilərlər: Bu hədis dəlil deyildir, doğrudur ki, hədis ümumidir, lakin xüsusiləşmişdir (çünki nübüvvət məqamı ondan istisna edilmişdir), beləliklə, xüsusiləşmiş ümumi dəlil artıq dəlil deyildir. Vəssalam.

***“S”***

# *OTUZUNCU MƏKTUB*

22 Zilhiccə 1329

***1. Ərəb dillilər hədisin məfhumunun ümumi olduğunu hökm edirlər.***

***2. Onun müəyyən bir yerə aid olması sözünün doğru olmaması.***

***3. Onun, dəlil olmaması fikrinin batilliyi.***

1. Biz hədisin ümumi olmaması fikrinin cavabını lüğət əhlinə və ərəb ürfünə tapşırırıq və sən özün sözsüz ərəb üçün dəlilsən. Heç fikirləşərsənmi ki, sənin millətin (ərəb dillilər) hədisdəki "mənzilət"in ümumiliyinə şübhə etsin? Heç vaxt və əsla! Heç vaxt mən inana bilmərəm ki, sənin kimi bir adam "ismi-cinsin izafi halda öz fərdlərinə şamil olması"nda şübhə etsin!

Məsələn, əgər siz: «مَنَحتُكم اِنصافي» "İnsafı sizə verdim!" – dedikdə, insafı yalnız bəzi hallaramı aid edirsiniz? Məgər bütün hallara aid deyildirmi? Allaha pənah aparıram ki, nəbada sən şübhə edəsən. Doğrusu, əgər müsəlman bir xəlifə dostlarından birinə: «جَعَلتُ لَكَ ولايتي عَلي الناس» "Mən camaat üzərində olan vilayətimi sənin ixtiyarına verdim", yaxud: "Mənzilətimi, yaxud mənsəbimi, onların arasında olan rütbəmi və ya mülkümü sənə verdim" – desə, ümumilikdən savayı zehnə başqa bir şey gəlirmi? Bunun yalnız bəzi hal və vəzifələrə aid olduğunu iddia edən adama, inadkardan savayı başqa bir ad vermək olarmı?! Əgər bir xəlifə vəzirlərindən birinə "Sən mənim hakimiyyətim dövründə "Əbu Bəkrin" hakimiyyəti dövründəki Ömər kimisən, bu fərq ilə ki, sən Peyğəmbərin səhabələrindən deyilsən" – desə bu, ürf nöqteyi-nəzərindən bəzi məqamlaramı aiddir? Allaha and olsun ki, sən onu ümumi biləcəksən. Mən şübhə etmirəm ki, sən Peyğəmbərin (s) "Sən mənə nisbətdə Harunun Musaya olan nisbəti kimisən" – hədisində "mənzilətin" (məqamın) ümumiliyinə inanacaqsan. Çünki ürf də, lüğət də belə hallarda həmin məsələni deyir. Xüsusilə, "nübüvvət" məqamı istisna edildikdən sonra, çünki "nəss" onu ümuma aid edir. Özün ərəblərin arasındasan, bu barədə özün onlardan soruş!

2. Amma hədisdə müxalifin –"hədis müəyyən yerə aiddir"– sözü iki cəhətdən inkar olunur:

Birinci: Hədis, bildiyin kimi, öz-özlüyündə ümuma aiddir. Buna görə də onun işlənmə yeri (xüsusi olsa da belə) onu ümumiyyətdən çıxarmır, çünki "işlənmə yeri" sözün yalnız həmin yerə aid olmasına səbəb olmur. Belə ki, fiqh üsulu elmi mənbələrində bu, sübut olunmuşdur. Fərz edək ki, natəmiz (cünub) halında bir şəxs əlini "Ayətəl-Kürsi"yə vurarsa, sən ona "dəstəmazı və qüslü olmayan şəxs Quran ayələrinə əl vurmamalıdır" – desən, bu müəyyən bir məsələ deyildir. Əksinə, Quranın hər hansı bir yerinə əlini qoyarsa haram iş görmüş olur və dəstəmazı və qüslü olmayan heç bir şəxs ona əl vurmamalıdır. Güman etmirəm, elə bir adam tapılsın ki, bunu yalnız "Ayətəl-Kürsi"yə aid etsin. Əgər xurma yeyən xəstəyə həkim şirin şey yeməyi qadağan etsə və desə ki, "yemə" bu, ərəb ürfü baxımından müəyyən bir məsələyəmi aiddir (yəni yalnız xurma yemə)?! Yoxsa bütün şirniyyat növlərinə? Allaha and olsun, mən güman etmirəm bir nəfər tapılsın ki, onu yalnız müəyyən bir şeyə aid etsin. Buna yalnız o şəxs razı olar ki, üsul məsələlərindən kənarda, lüğət qaydalarından xəbərsiz, ürfi anlayışa tamamilə biganə olsun. Habelə "Mənzilət" hədisini işləndiyi yerə, yəni "Təbuk" döyüşü"nə aid edən şəxs bilməlidir ki, bu ikisinin arasında heç bir fərq yoxdur.

İkinci cəhət bundan ibarətdir ki, bu hədis Peyğəmbərin (s) mübarək dilindən yalnız Əlinin "Təbuk döyüşü"ndə olan xəlifəliyinə aid deyildir ki, müxaliflər bu hədisi "Təbuk döyüşü"nə

aid etsinlər. Peyğəmbərin (s) Əhli-beytindən çatmış doğru xəbərlər sübut edir ki, bu şərəfli hədis başqa vaxtlarda da deyilmişdir. Tədqiqatçılar və elm əhli həmin məsələlərə müraciət etsinlər. Sünnə əhli rəvayətçiləri də bu həqiqətin şahididir.

Deməli, "hədis yalnız Təbuk döyüşünə aiddir" – sözü sübutsuzdur. Bu heç kəsə gizli deyildir.

3. "Ümuminin xüsusiləşmə zamanı dəlilliyini itirməsi" sözü açıq-aşkar rüsvayçı bir səhvdir. Məgər kimsə belə bir sözü bizim bəhs etdiyimiz misal haqqında deyə bilərmi? Xeyr, bunu işlərdə zorakılıq etmək istəyən şəxsdən savayı heç kəs deməz. Əgər desə də, belə bir şəxs bir növ huşsuzluq və dəlilik aləmindədir və kor ata minib, gecənin zülmətində məqsədə tərəf getmək istəyən şəxsə bənzəyir. Cəhalət və nadanlıqdan Allaha pənah aparır və bundan salamat qurtarmaq üçün Ona yalvarırıq. Ümumi xüsusiləşdikdə, "mücməl" olmadığı surətdə dəlillikdən xaric olmur. Xüsusilə, əgər xüsusiləşmiş ümumiyə bağlı olsa, dediyimiz kimi olur. Çünki, əgər ağa öz qulu və ya nökərinə "bu gün mənim görüşümə gələnlərə hörmət et, Zeyddən başqa" – desə və əgər nökər Zeyddən başqa şəxslərə də hörmət etməsə, camaatın ürfü baxımından günahkar sayılar, ağasının əmrinə əməl etməyən hesab olunar, ağıllılar onu məzəmmət edər və günahının miqdarı qədər cəzalandırılmasını lazım bilərlər. Bu cəza həm əqlə əsasən və həm də şəriətə görə düzdür... Burada heç bir ürf əhli onun sözünə inanmayacaq ki, bu xüsusiləşmiş ümumidir və daha dəlil deyildir. Əksinə bu cür üzr istəmək günahdan daha pisdir.

Siz yaxşı bilirsiniz ki, müsəlmanların və qeyri-müsəlmanların əxlaqi xüsusiyyətləri belədir ki, "xüsusiləşmiş ümumilərə" şəkk-şübhəsiz dəlil kimi gətirilir. Bu əxlaqi xüsusiyyətlər əvvəlki və keçmiş səhabələrdən, tabeinlərdən və onlardan sonra gələnlərdən başlamış və bu günə qədər davam edir. Əhli-beyt imamları və müsəlmanların başqa imamları da bu əxlaqi xüsusiyyətlərə malik idilər. Bu elə bir məsələdir ki, onda şübhə ola bilməz. Həmin dəlil xüsusiləşmiş ümuminin sübutu kimi sizin üçün kifayətdir. Əgər belə bir ümumi dəlil olmasaydı, "Ərbəə imamları"nın və müctəhidlərin üzünə elmin şəri və fəri əhkamlarının qapısı (dəlil qismində) bağlanardı. Çünki şəriət əhkamları ictihad məsələlərində, elm dəyirmanının əməl bünövrəsi üzərində ümumi qaydalara söykənir və elə bir ümumi qayda yoxdur ki, xüsusiləşmiş olmasın və əgər ümumi qaydalar ləğv olunsa, elm və biliyin qapısı bağlanacaqdır.

***"Ş"***

# *OTUZ BİRİNCİ MƏKTUB*

<u>22</u> <u>Zilhiccə</u> <u>1329</u>

***Hədisin başqa yerlərdə işlənməsinə misal göstərilməsi xahişi.***

Bu hədisin “Təbuk” döyüşündən əlavə, başqa yer və məqamlarda işlənməsinə dəlil göstərmədiniz. Ürəyim çox istəyir ki, o gözəl məqamlara da əlim çatsın. Məni o çeşmə başına çatdırmağa imkanınız varmı?

***“S”***

# *OTUZ İKİNCİ MƏKTUB*

24 Zilhiccə 1329

***1.Ümmü-Süleym ilə görüş.***

***2. Həmzənin qızının əhvalatı.***

***3. Peyğəmbər Əliyə söykənən vaxt.***

***4. İlk qardaşlıq peymanı.***

***5. İkinci qardaşlıq peymanı.***

***6. Qapıların bağlanması zamanı.***

***7. Peyğəmbər Əli ilə Harunu iki aydın ulduz kimi təsvir edir.***

1. Peyğəmbərin pak dilindən çıxan "mənzilət" hədisinin işləndiyi başqa bir vaxt isə onu Ümmü-Süleymə[1] söyləyən gündür. Ümmü-Süleym İslama ilk qədəm qoyanlardan olub, ağıl və dərrakə sahibi idi. O, Peyğəmbər (s) yanında İslamın ilk qabaqcıllarından olduğuna, ixlas və xeyirxahlığına, İslam yolunda çətinliklərə dözməsinə görə yüksək məqam və mövqeyə malik idi.

[1] Ümmü-Süleym, Milhan ibn Ənsarinin qızı və Həram ibn Milhanın bacısı idi. Atası və qardaşı Peyğəmbərin gözü önündə şəhid olmuşdular. O, fəzilətli və ağıllı bir qadın idi. Peyğəmbərdən (s) hədis nəql etmiş və ondan da oğlu Ənəs, İbn Abbas, Zeyd ibn Sabit, Əbu Səlmə ibn Əbdür-Rəhman və başqaları hədis nəql etmişlər. O, İslama ilk qədəm qoyanlardan və dəvət edənlərdən sayılır. O, cahiliyyət vaxtı əri Malik ibn Nəzri sevmiş və Ənəs bu evlənmənin bəhrəsidir. İslam dininə gəldikdə o, qabaqcıllardan olub. O, əri Maliki də Allaha iman və Peyğəmbərin dininə dəvət etsə də, İslamı qəbul etməkdən imtina edərək ondan ayrıldı. Malik hirsli halda Şama getdi, elə orada da kafir kimi öldü. Ümmü-Süleym övladına nəsihət verərək ona on yaşında əmr etdi ki, Peyğəmbərin (s) xadimi olsun. Peyğəmbər (s) də bu əziz anaya ehtiram əlaməti olaraq onu qəbul etdi. Bu qadına ərəbin varlıları elçi göndərdilər. Lakin o, cavab verdi ki, Ənəs həddi-büluğa çatmayıncaya və özü-özünü idarə etməyincəyədək ərə getməyəcəkdir. Ənəs həmişə deyərdi: "Allah anama əvəzini versin ki, mənə yaxşı tərbiyə vermişdir."

Əbu Təlhə Ənsari bu qadın vasitəsilə müsəlman oldu. Belə ki, ona elçi gedən zaman kafir idi. Ümmü-Süleym evlənməkdən imtina edərək onu İslama dəvət etdi. Əbu Təlhə onun dəvəti ilə İslamı qəbul etdi. Öz mehriyyəsini onun İslamı qəbul etməsini təyin etdi. Allah Əbu Təlhədən Ümmi-Sələməyə bir oğul verdi ki, uşaq ikən xəstələnib öldü. Ümmü-Süleym tapşırdı ki, məndən əvvəl heç kəs uşağın ölüm xəbərini atasına deməsin. Əbu Təlhə gələn kimi oğlunu soruşdu. Ümmü-Süleym dedi: Öz yerində sakitləşmişdir. Kişi fikirləşdi ki, uşaq yuxuya gedib. Şamdan sonra onlar yatdılar. Sübh vaxtı ərinə xəbər verdi ki, oğlu vəfat etmişdir. Əbu Təlhə hadisəni olduğu kimi Peyğəmbərə (s) nəql etdi. Allahın rəsulu buyurdu: "Bu axşamınız mübarək olsun". Ümmü-Süleym deyir: "Peyğəmbər mənim üçün çoxlu dua etdi." O, həmin gecə Abdullah ibn Əbu Təlhəyə hamilə oldu. Allah bu övladı bərəkətli etdi. Çünki o, İshaq ibn Abdullah ibn Əbu Təlhənin atasıdır ki, özünün doqquz qardaşı ilə birgə elm əhli olmuşlar.

Ümmü-Süleym Peyğəmbər (s) ilə birlikdə döyüşlərə gedərdi. "Ühüd" döyüşündə ona hücum edən müşriklərin qarnını yırtmaq üçün yanında bir xəncəri də var idi. O, İslam yolunda çoxlu bəla və çətinliklərə dözən qadınlardan idi. Ondan başqa elə bir qadın tanımıram ki, Peyğəmbər onun evinə getsin və ona hədiyyə aparsın. O, Peyğəmbərin (s) pak Əhli-beytinin məqamından agah idi və onların hüququnu bilirdi.

Peyğəmbər (s) onun evinə gedər, ona hədis söyləyər və söhbət edərdi. Günlərin bir günü ona buyurdu: "Ümmi-Süleym! Əlinin (ə) əti mənim ətimdən, qanı mənim qanımdandır. Onun mənimlə nisbəti Harunun Musaya olan nisbəti kimidir."[1]

Sizə gizli deyildir ki, bu hədisi Peyğəmbər xüsusi bir vaxtda buyursa da, yalnız vəzifəsini icra etmək, Allah yolunda "mənzilət"i bəyan etmək, özündən sonra vəliəhdlik məqamı və canişininə xatir buyurmuşdur. Deməli, bu sırf "Təbuk" döyüşünə aid ola bilməz.

2. Buna bənzər hədis Həmzənin qızının əhvalatıdır ki, Əli, Cəfər və Zeyd arasında onun haqqında söhbət gedən zaman Peyğəmbər (s) buyurdu: "Ey Əli, sən mənim üçün Harunun Musaya olan nisbəti kimisən..."[2]

3. Bir gün Əbu Bəkr, Ömər və Əbu Übeydə Cərrah Peyğəmbərin yanında idilər. O həzrət Əliyə söykənərək əlini onun çiyninə qoyub buyurdu: "Ey Əli, sən möminlərdən ilk iman gətirən və İslamı qəbul edən ilk şəxssən. Sənin mənə nisbətin Harunun Musaya nisbəti kimidir."[3]

4. Məkkədə təşkil olunmuş "ilk qardaşlıq peymanı"ndakı hədislər də bu məsələni təsdiq edir. Bəli, Məkkədə hicrətdən əvvəl Peyğəmbər mühacirlər arasında qardaşlıq peymanı bağlayan zaman orada da bu mətləbi buyurmuşdur.

5. Mühacirətdən beş ay sonra Mədinədə "Qardaşlıq əqdi və ikinci qardaşlıq peymanı" keçirildi. Peyğəmbər mühacirlərlə ənsar arasında qardaşlıq bərqərar etdi və həmin hadisə yenə təkrar olundu. Bəli, hər iki dəfə də o həzrət Əlini öz qardaşı kimi seçdi və onu başqalarından üstün tutaraq ayrı heç kəsi özünə qardaş qəbul etmədi.[4] Ona buyurdu: "Sən mənə Harunun Musaya olan nisbəti kimisən."

Peyğəmbərin pak Əhli-beytinin təriqi ilə bu haqda ardıcıl xəbərlər vardır və başqa yollarla Zeyd ibn Əbu Ovfadan çatmış hədis sizə kifayət edər. Bu hədisi imam Əhməd Hənbəlin "Mənaqibi Əli" kitabında, ibn Əsakirin öz tarix kitabında[5], Bəğəvi və Təbərani öz "Məcmə"lərində, Barudi "Əl-Məricət"də və İbn Ədi[6] və başqaları söyləmişlər. Hədis uzundur. "Qardaşlıq peymanı"nda belə deyilir: "Əli dedi: Ey Allahın rəsulu, qəlbim sındı. Çünki, gördüm məndən başqa əshabələrinə qardaş seçdin, amma mənə yox. Əgər bu, mənə qarşı qəzəbin nəticəsidirsə, səndən bağışlanmağımı istəyirəm və sən kəramətli və əzəmətlisən. Peyğəmbər (s) buyurdu: Məni haqq üzrə peyğəmbərliyə qəbul edən kəsə and olsun ki, səni

---

[1] Bu hədis (Ümmü-Süleymdən) "Kənzül-Ümmal"da 2554-cü hədisdir ki, 6-cı cildin 154-cü səhifəsində yazılmışdır. "Müntəxəbi-Kənz" kitabında da vardır. Əhmədin "Müsməd"inin 5-ci cildinin 31-ci səhifəsinin haşiyəsinin sonuncu sətrinə müraciət et. Onu eynilə həmin sözlərlə tapacaqsan.

[2] İmam Nəsai bu hədisi "Xəsaisül-Ələviyyə"nin 19-cu səhifəsində söyləmişdir.

[3] Həsən ibn Bədr və Həkim "Əl-küna"da və Şirazi "Əlqab"da və İbn Nəccar onu nəql etmişlər. Bu həmin 6029-cu hədis və "Kənzül-Ümmal"ın altıncı cildinin 395-ci səhifəsindəki hədislərin 6032-ci hədisidir.

[4] İbn Əbdül-Birr "İstiab" kitabında Əlinin şərhi-halında deyir: "Allahın rəsulu (s) mühacirlər arasında qardaşlıq peymanı bağladı və sonra mühacirlər və ənsar arasında qardaşlıq bərqərar etdi. O, hər dəfə Əliyə buyurdu: Sən bu dünyada və axirətdə mənim qardaşımsan."

Mən deyirəm: Bu hadisənin təfsilatı "sirə" (tarixi xəbərlər) kitablarında yazılmışdır. "İlk qardaşlıq peymanı" üçün "Sirəyi-Hələbi"nin ikinci cildinin 26-cı səhifəsinə və "İkinci qardaşlıq peymanı" haqqında ikinci cildinin 120-ci səhifəsinə müraciət et. Orada hər iki dəfə Əlinin Peyğəmbərin qardaşı olmasını, onun fəzilətlərinin başqalarından üstün olduğunu görəcəksən. Zeyni Dəhlan "Sirə"sində ilk və ikinci qardaşlığın təfsilatı "Sireyi-Hələbi"də olduğu kimidir və aydınlaşdırmışdır ki, ikincisi hicrətdən beş ay sonra olmuşdur.

[5] Etimadlı şəxslərin bir qrupu bu hədisi Əhməd və İbn Əsakirdən nəql etmişlər ki, onlardan biri Müttəqi Hindidir. "Kənzül-Ümmal"ın 5-ci cildinin 40-cı səhifəsinin əvvəllərindəki 918-ci hədisə və Əhmədin "Mənaqibi Əli" kitabının 6-cı cildinin 390-cı səhifəsində nəql etdiyi 2972-ci hədisə müraciət et.

[6] Bu hədisi bir qrup etimadlı şəxslər onların hamısından nəql etmişlər. Onlardan biri Müttəqi Hindidir ki, onu "Kənzül-Ümmal"ın 5-ci cildinin 41-ci səhifəsinin əvvəlində qeyd etmiş və o, 919-cu hədisdir.

özüm üçün axıra saxlamışam. Sən mənə Harunun Musaya olan nisbəti kimisən, bu fərq ilə ki, məndən sonra peyğəmbər yoxdur! Sən mənim qardaşım və varisimsən. Əli ərz etdi: Mən səndən nə irs ala bilərəm? Həzrət (s) buyurdu: Məndən əvvəlki peyğəmbərlərin qanunlarının irsi, Allahın kitabı və sünnəsi. Sən behiştdə qızım Fatimə ilə mənim qəsrimdəsən, sən mənim qardaşım və yoldaşımsan." Sonra Peyğəmbər (s) ayənin bu hissəsini tilavət etdi: "Qardaşlardır ki, (behiştdə) taxt üstündə üzbəüz oturmuşlar.[1]" Yəni, o adamlar Allah xatirinə bir-birlərini sevənlərdir.

"İkinci qardaşlıq peymanı" haqqında Təbəraninin "Kəbir" kitabında İbn Abbasdan söylədiyi hədis sənə kifayət edər. Orada deyilir ki, Peyğəmbər (s) Əliyə buyurdu: "Mən mühacirlər və ənsar arasında qardaşlıq bərqərar edəndə, səni heç kəs ilə qardaş etmədiyim üçün məndən narahatmı oldun? Razı deyilsənmi mənə Harunun Musaya olan nisbəti kimi olasan, bu fərq ilə ki, məndən sonra peyğəmbər olmayacaqdır."[2]

6. Əlinin qapısından başqa məscidə açılan bütün qapıların bağlanması haqqındakı hədisləri misal göstərmək olar. Bu haqda Cabir ibn Abdullahın[3] hədisi kifayətdir. O deyir: Peyğəmbər (s) buyurdu: "Ey Əli, mənə məsciddə halal olan şey sənə də halaldır. Sənin mənə nisbətin Harunun Musaya olduğu kimidir, bu fərq ilə ki, məndən sonra peyğəmbər yoxdur."

Hüzeyfə ibn Üseyd Qifaridən[4] nəql olmuşdur ki, Peyğəmbər qapıları bağlayan gün ayağa durub, xütbə oxuduqdan sonra buyurdu: "Bəzilərinə elə gəlir ki, mən Əlini məsciddə məskunlaşdırmış, onları isə xaric etmişəm. Allaha and olsun ki, onları mən xaric etməmiş və Əlini mən məskunlaşdırmamışam. Əksinə, Allah onları xaric etmiş və Əliyə (ə) sükunət vermişdir. Allah Musaya və qardaşına vəhy etdi ki, öz qövmünüz üçün Misirdə evlər seçin və evinizi qiblə edin və namaz qılın. Əli də mənim üçün Harunun Musaya olduğu nisbəti kimidir. O mənim qardaşımdır..."

Bunun kimi misallar çoxdur. Bu kiçik imkanda onların hamısını toplamaq olmaz. "Mənzilət" hədisinin yalnız "Təbuk" döyüşünə aid olmamasını sübut etmək üçün dediklərimiz kifayətdir.

7. Peyğəmbərin (s) həyat tərzini mütaliə edən şəxs biləcəkdir ki, o həzrət Əli və Harunu "Fərəqdan" (eynilə bir-birinə oxşar iki ulduz adı) kimi eyni bilirdi, heç birini heç bir şeydə fərqləndirmirdi. Bunun özü hədisdə "Mənzilət"in ümuma aid olmasına dəlalət edir. Bundan

---

[1] "Hicr", 47.

[2] Müttəqi Hindi onu "Kənzül-Ümmal"da və onun "Müntəxəb"ində nəql etmişdir ki, "Müntəxəb"in 5-ci cildinin 31-ci səhifəsinin haşiyəsinin axırında "Müsnədi-Əhməd"ə müraciət etsən, görərsən ki, nəql etdiyimiz hədis olduğu kimi orada yazılmışdır. Həzrətin (s) "Məndən narazımı oldun?" – cümləsi nə qədər də mehribanlıq və incəliklə deyilmişdir. Soruşa bilərsən ki, Əli (ə) nə üçün birinci dəfədə olduğu kimi, ikinci dəfədə də şübhələndi? Axı ona (birinci dəfə) aydın olmuşdu ki, Peyğəmbər onu özünə arxa kimi seçmişdi. Nə üçün birinci dəfəni ikinci dəfə ilə müqayisə etmədi? Cavabı budur ki, ikinci dəfəni birinci dəfə ilə müqayisə etmək olmazdı, çünki birinci dəfə yalnız mühacirlər arasında idi. İkinci dəfə isə (birincinin əksinə olaraq) mühacirlərlə ənsar (Mədinə müsəlmanları) arasında idi. Deməli, ikinci dəfə hər bir mühacirin qardaşı ənsardan ibarət idi və hər bir ənsarın qardaşı mühacirlərdən. Peyğəmbər və naibinin hər ikisinin mühacirlərdən olduğu təqdirdə belə göründü ki, bu iki nəfər bu dəfə qardaş olmayacaqlar. Buna görə Əli başqaları ilə müqayisədə güman etdi ki, qardaşı ənsardan biri olacaq. Peyğəmbər, onunla ənsardan heç birisinin arasında qardaşlıq əqdi kəsmədiyi üçün bu hissləri keçirdi. Lakin, Allah və Onun rəsulu yalnız onun üstünlüyünü sübut etmək istəyirdilər. Buna görə də onunla Peyğəmbər (s) arasındakı qardaşlıq peymanı, o gün mühacirlərlə ənsarlar arasında kəsilən əqdə görə mütləq qardaşının ənsardan olacaq təsəvvürünün əksinə baş verdi.

[3] "Yənabiül-Məvəddə" kitabının 9-cu babının sonunda Əxtəb Xarəzminin "Fəzaili-Əhli-beyt" kitabında nəql olunmuşdur.

[4] "Yənabiül-Məvəddə"nin 17-ci babında yazıldığı kimi.

əlavə, bəyan etdiyimiz kimi, mənzilətin ümumiliyi hədisin kənar qərinələrinə (nişanələr) baxmayaraq məzmunundan anlaşılır.

***"Ş"***

# *OTUZ ÜÇÜNCÜ MƏKTUB*

<u>25</u> <u>Zilhiccə</u> <u>1329</u>

***Nə vaxt və harada Əli ilə Harun iki ulduz kimi təsvir olunmuşdur?***

Bizim üçün sizin dediyiniz Peyğəmbərin (s) Əli və Harunu iki ulduz kimi təsvir etməsi və hər ikisinə eyni cür baxması aydın olmadı. Nə vaxt və harada onları belə təsvir etmişdir?

***“S”***

# *OTUZ DÖRDÜNCÜ MƏKTUB*

27 Zilhiccə 1329

***1. "Şübbər", "Şübeyr" və "Müşəbbir" günü.***

***2. Qardaşlıq əqdi günü.***

***3. Qapıların bağlanması günü.***

Allah rəsulunun (s) yaşayış tərzini tədqiq et! Əli ilə Harunu göydə "Fərəqdan" ulduzlarına və bir qiyafədə iki gözə bənzətdiyini görəcəksən ki, birinin digərindən fərqi yoxdur.

1. Məgər Əlinin övladlarının adının Harunun övladlarının adından fərqli olmadığını mülahizə etmirsənmi? Həzrət (s) onları Həsən, Hüseyn və Möhsün adlandırdı.[1] Onların adının Harunun övladlarının adlarına – Şübbər, Şübeyr və aralarındakı oxşarlığa təkid etmək və bu ikisinin arasındakı oxşarlığı hər yerdə, bütün sahələrdə ümumiləşdirmək nə deməkdir?

2. Bu səbəbdən də Əlini özünə qardaş seçdi və onu başqalarından üstün etdi ki, "iki Harun"un oxşarlığının ümumiliyi səhabələr üçün də qəti aydın olsun və çox istəyirdi ki, aralarında heç bir fərq olmasın! Halbuki, deyildiyi kimi, Həzrət (s) əshabələri arasında iki dəfə qardaşlıq peymanı bağladı. Birinci dəfədə Əbu Bəkrlə Ömər qardaş idilər və Osmanla Əbdür-Rəhman ibn Ovf. Amma ikinci dəfə Əbu Bəkrlə Xaric ibn Zeyd qardaş oldular və Ömərlə Ətban ibn Malik. Lakin Əli hər iki dəfədə, dediyim kimi, Allah rəsulunun qardaşı oldu və indi bütün bu deyilənlərin təriqlərinin doğru olmasını arayıb-axtarmağa vaxt yoxdur. İbn Abbas və İbn Ömər, Zeyd ibn Ərqəm, Zeyd ibn Əbu Ovfa, Ənəs ibn Malik, Hüzeyfə ibn Yəman, Məxdəc ibn Yəzid, Ömər ibn Xəttab, Bəra ibn Azib, Əli ibn Əbu Talib və başqaları tərəfindən çatmış hədislərə diqqət yetirilmişdir. (Bəli, onların hamısını saymaq çətindir). Peyğəmbər (s) ona buyurdu: «اَنْتَ اَخي فِي الدُّنْيا وَ الآخِرَةِ» "Sən həm bu dünyada, həm də axirətdə mənim qardaşımsan".[2]

İyirminci məktubda nəql etdik ki, Peyğəmbər əlini Əlinin çiyninə qoydu və buyurdu: "Bu sizin aranızda mənim qardaşım, naibim və xəlifəmdir, ona qulaq asın və itaət edin." Bir gün Peyğəmbər (s) şad halda səhabələrinin yanına gəldi. Əbdür-Rəhman ibn Ovf bu sevincin sirrini soruşdu. Həzrət cavabında dedi: "Səbəbi, məni yaradan tərəfindən qardaşım, əmim oğlu və qızım haqqında müjdədir. Allah Fatimə (s) ilə Əlinin evlənməsini buyurmuşdur..."[3]

Qadınların seyyidəsi ilə Əhli-beytin seyyidi və böyüyü evlənən zaman Peyğəmbər (s) Ümmi-Əymənə buyurdu: "Ey Ümmi-Əymən, qardaşımı çağır! Ümmi-Əymən dedi: O, sənin

---

[1] Peyğəmbərin sünnəsi aydın sübutdur. Siz "Müstədrək"in 3-cü cildinin 165-167-ci səhifələrinə müraciət etsən, bu məzmunda doğru hədis görəcəksiniz ki, Buxari və Müslimin şərtinə görə düzdür. "Müsnədi-Əhməd Hənbəl"də 1-ci cildin 98-ci səhifəsində yazılmış və İbn Əbdül-Birr "İstiab"da Həsənin şərhi-halında onu xatırlamış və Zəhəbinin bizə qarşı pis münasibətinə baxmayaraq "Təlxisi-Müstədrək"də onu düz hesab etmişdir. Hər halda o, bizim Harun, Şübbər və Şübeyrimizə qarşıdır. Bəğəvi öz "Möcəm"mində və Əbdül-Bəni "Əl-İzah"da, "Səvaiqül-Mühriqə"nin 115-ci səhifəsində Səlmandan olduğu kimi yazmış və həmçinin İbn Əsakir onu nəql etmişdir.

[2] Hakim "Müstədrək"in 3-cü cildinin 14-cü səhifəsində iki doğru yolla Buxari və Müslimin "şərtləri"nə əsasən İbn Ömərdən nəql etmişdir və Zəhəbi "Təlxis"də onu doğru və qəti hesab etmişdir. Tirmizi İbn Hacərin "Səvaiqül-Mühriqə"nin 72-ci səhifəsində yazdığına əsasən nəql etmişdir. "Səvaiq"in 9-cu babının 2-ci fəslindəki hədislərdən 7-ci hədisə müraciət et. "Üxüvvət" (qardaşlıq) hədisini "sirə" və "əxbar"da nəql edənlər bu hadisəni yəqinliklə nəql etmişlər.

[3] Əbu Bəkr Xarəzmi "Səvaiq"in 103-cü səhifəsində yazıldığı kimi onu nəql etmişdir.

qardaşındır, qızını ona verirsən? Buyurdu: Bəli, ey Ümmi-Əymən! Ümmi-Əymən Əlini çağırdı. Əli gəldi...”[1]

Peyğəmbər (s) həmişə Əliyə işarə edər və buyurardı: «هذا اَخي، وَ ابْنُ عَمّي وَ صِهْري وَ اَبو وُلْدي» “Bu qardaşım, əmioğlum, kürəkənim və övladlarımın atasıdır.”[2] Bir gün Peyğəmbər (s) Əli ilə söhbət edərkən buyurdu: «انت اخي و صاحبي»[3] “Sən qardaşım və yoldaşımsan.” Başqa bir vaxt ona buyurdu: “Sən qardaşım və behiştdə yoldaşımsan.”[4] Başqa bir gün (Əlinin) qardaşı Cəfər və Zeyd ibn Harisə ilə söhbət zamanı Əliyə xitab edərək buyurdu: “Amma sən, ey Əli! Mənim qardaşım, övladlarımın atasısan, sən məndənsən, mənə tərəf qayıdacaqsan.”[5] Bir gün ona iş tapşıran və vəsiyyət edən vaxt dedi: “Sən mənim qardaşım və vəzirimsən, borclarımı ödəyirsən, vədələrimə vəfa edirsən, boynumda olanları yerinə yetirirsən.”[6] Və vəfat edəndə (atam, anam ona qurban olsun) “qardaşımı çağırın” – dedi. Əlini çağırdılar. Ona buyurdu: “Yanıma gəl!” Əli ona yaxınlaşdı. Həzrət (s) onu sinəsinə söykədi, pak ruhu sinəsindən xaric olana qədər onunla söhbət etdi və o həzrətin ağzının suyundan bir qədər onun bədəninə süzüldü.[7] Həzrət (s) buyurdu: Behiştin qapısında yazılmışdır: «لا اِلهَ اِلاّ اللهُ مُحَمّدٌ رَسُولُ الله عَلِيٌّ اَخو رَسَولِ الله»[8]

Allah “leylətül-məbit”də (Əlinin Peyğəmbərin yatağında yatan gecə) Cəbrail və Mikayıla vəhy etdi: “Mən sizin ikinizin aranızda qardaşlıq yaratdım və birinizin ömrünü o birisindən uzun etdim. Sizdən hansınız yoldaşınızın diri qalmasına razı olarsınız? Hər ikisi diri qalmağı seçdilər. Allah onlara vəhy etdi: Siz Əli ibn Əbu Talib kimi ola bilməzsinizmi? Mən onunla Məhəmməd (s) arasında qardaşlıq bərqərar etdim və o, özünü Peyğəmbərə fəda etmək və onun diri qalmasını istədiyi üçün Məhəmmədin (s) yatağına yatdı. Hər ikiniz yerə enin və Əlini düşmənlərdən qoruyun. O iki mələk nail oldu, Cəbrail başı üstündə və Mikayıl ayağı altında oturdular. Cəbrail deyirdi: Bəh-bəh, ey Əbu Talibin övladı! Allah səninlə mələklərə fəxr edir.” Və Allah bu ayəni bununla əlaqədar nazil etdi: وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللهِ وَاللهُ رَؤُوفٌ

[1] Hakim “Müstədrək”in üçüncü cildi, 109-cu səhifədə söyləmiş və Zəhəbi Təlxisdə doğru olduğunu qeyd etmiş və İbn Həcər “Səvaiqul-Mühriqənin” 11-ci babında və Fatimənin (ə.h) toyunu nəql edən şəxslər – müstəsnasız olaraq– bu hədisi nəql etmişlər.

[2] Şirazi “Əlqab”da və İbn Nəccar İbn Ömərdən və Müttəqi Hindi “Kənzül-Ümmal”da və Əhmədin “Müsnəd”inin haşıyəsində çap olunmuş onun “Müntəxəb”ində 5-ci cildinin 32-ci səhifənin haşiyəsinin 2-ci sətrində nəql etmişdir.

[3] İbn Əbdül-Birr “İstiab”da Əlinin şərhi-halında İbn Abbasa istinad edərək onu nəql etmişdir.

[4] Xətib onu nəql etmiş və o, “Kənzül-Ümmal”ın 6-cı cildinin 402-ci səhifəsindəki hədislərdən 6105-ci hədisdir.

[5] Hakim “Müstədrək”in 3-cü cildinin 217-ci səhifəsində “Müslimin şərti”nə əsasən, doğru sənəd ilə onu söyləmiş və Zəhəbi “Təlxis”də bu şərtə əsasən, onun doğru olmasına etiraf etmişdir.

[6] Təbərani “Kəbir”də İbn Ömərdən və Müttəqi Hindi “Kənzül-Ümmal”da və onun “Müntəxəb”ində onu nəql etmişdir. “Müntəxəb”in 5-ci cildinin 32-ci səhifəsinin haşiyəsindəki “Müsnəd”ə müraciət et.

[7] İbn Səd “Təbəqat”da 2-cildin 2-ci fəslində 51-ci səhifədə onu söyləmişdir. “Kənzül-Ümmal”ın 4-cü cildinin 55-ci səhifəsində də vardır.

[8] Təbərani Övsətdə, Xətib “Əl-müttəfəq və Əl-müftərəq”də və Müttəqi Hindi “Kənzül-Ümmal”da onu nəql etmişlər. “Müntəxəbi-Kənz”in haşiyəsindəki “Müsnədi-Əhməd”ə (5-ci cild, səh. 35), eləcə də (səh. 46)-ya İbn Əsakirdən nəql olunmuşa müraciət et!

بِالْعِبَادِ "İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allah rizası üçün) öz canını fəda edər."[1]

Əli (ə) həmişə deyirdi: "Mən Allahın qulu və Rəsulun qardaşı, Siddiqi-Əkbərəm (düzdanışan). Məndən başqa bu sözü yalnız yalançı deyər."[2] Və o həzrət buyurardı: "Allaha and olsun, mən Allah rəsulunun qardaşı, vəlisi, əmisi oğlu, elminin varisiyəm və məndən başqa bu ada kim daha ləyaqətlidir?"[3] "Şura" günündə o, Osman, Əbdür-Rəhman və Səd və Zübeyrə dedi: "Sizi Allaha and verirəm, deyin görüm sizin aranızda məndən başqa elə bir adam var ki, Peyğəmbər (s) onunla qardaşlıq peymanı bağlamış olsun?" Dedilər: "Allah bilir ki, yox."[4] Əli "Bədr" döyüşü vaxtı Vəlid ilə üzləşəndə Vəlid ondan soruşdu: "Kimsən?" Əli buyurdu: "Mən Allahın qulu və Rəsulun qardaşıyam." Yenə bir gün Əli (ə) Ömərin xilafəti vaxtında soruşdu: "Əgər Bəni-İsrail"dən sənin yanına bir dəstə gəlsə və onlardan biri "Mən Musanın (ə) əmisi oğluyam" – desə, sən onu başqalarından üstün tutarsanmı?" Ömər cavab verdi: "Bəli!" Əli (ə) buyurdu: "Mən ki, Allaha and olsun, Allah rəsulunun qardaşı və əmisi oğluyam." Ömər əbasını yerə sərib dedi: "Allaha and olsun, nə qədər ki, bir yerdəyik, bu yerdən savayı başqa bir yerdə oturmamalısan." Əli əbanın üstündə oturdu. Bu ehtiram və təvazökarlıq Allah rəsulunun qardaşı və əmisi oğlunun xətrinə görə idi.[5]

3. Qələm öz ixtiyarından çıxıb bizi başqa yerə apardı. İndi deyirəm ki, o həzrət (s) əshabələrinin məscidə tərəf açılan qapılarını bağlamağı (məscidi napaklıq və cünubdan təmizləmək məqsədi üçün) əmr etdi. Amma Əlinin qapısını açıq qoydu və Allah tərəfindən hətta məsciddə (Harun üçün olduğu kimi) ona cünub halında qalmağı rəva bildi. Bunun özü "iki Harun" arasındakı ümumi oxşarlığa dəlalət edir. İbn Abbas deyir: "Allah rəsulu (s) Əlinin qapısından savayı məscidə açılan bütün qapıları bağladı. Əli eləcə məscidə daxil olur və gediş-gəliş yolu oradan idi. Çünki başqa yolu da yox idi,cünub olsa da belə."[6]

Ömər ibn Xəttab, Buxari və Müslimin hədisinə əsasən,[7] deyir: Əli ibn Əbu Talibə üç şey verilmişdir, əgər onlardan biri məndə olsaydı, qırmızı tüklü dəvələrdən (ərəbin ən yaxşı sərvəti) mənim üçün daha yaxşı olardı. Arvadı Fatimə (ə) Peyğəmbər (s) qızı, məskəni (Allah rəsulu ilə birlikdə) məscid, Peyğəmbərə halal olan hər bir şey Əliyə də halal idi. Və bir də "Xeybər günü" bayraq onun əlində idi." Yenə doğru hədisə əsasən, bir gün Səd ibn Malik Əlinin (ə) bəzi xüsusiyyətlərini nəql edərək dedi: "Peyğəmbər (s) əmisi Abbası və başqalarını

---

[1] "Sünən" yazanlar öz "məsanid"lərində onu nəql etmiş və imam Fəxri Razi "Təfsiri-Kəbir"də 2-ci cildin189-cu səhifəsində bu ayənin təfsirində nəql etmişdir.

[2] Nisai "Xəsaisül-Ələviyyə", Hakim "Müstədrək"in 3-cü cildinin 112-ci səhifəsinin əvvəlində və İbn Əbu Şeybə və İbn Əbu Asim "Sünən"də, Əbu Nəim "Əl-Mərifət"də, Müttəqi Hindi "Kənzül-Ümmal"da və "Müntəxəbi-Kənz"dəki "Müsnəd"də 5-ci cildin 40-cı səhifəsində nəql etmişdir.

[3] "Müstədrək"in 3-cü cildinin 126-cı səhifəsinə müraciət et. Zəhəbi "Təlxis"də ondan danışmış və onu doğru hesab etmişdir.

[4] İbn Əbdül-Birr "İstiab"da Əlinin şərhi-halında və bir sıra başqaları onu nəql etmişlər.

[5] Darü-Qütninin "məvəddət" ayəsinin məqsədlərindən 5-ci məqsəddə, "Səvaiq"inin 11-ci babındakı ayələrdən on dördüncü ayədə nəql olunmuşdur. 107-ci səhifəyə müraciət edin.

[6] Bu hədis uzundur. Əli üçün orada on xüsusiyyət verilmiş və o haqda 26-cı məktubda danışdıq.

[7] "Müstədrək"in 3-cü cildinin 125-ci səhifəsində bu hədis vardır. Əbu Yəla "Səvaiq" kitabının 3-cü fəslinin 9-cu babında olduğu kimi onu nəql etmişdir. Onun 76-cı səhifəsinə müraciət et. Əhməd ibn Həmbəl həmin mənaya oxşar sözlərlə Abdullah ibn Ömərdən "Müsnəd"in 2-ci cildinin 26-cı səhifəsində nəql etmiş və yenə Ömərdən və oğlu Abdullahdan bir sıra məşhur şəxslər müxtəlif sənədlər ilə nəql etmişlər.

məsciddən çıxartdığı vaxt, Abbas o həzrətə ərz etdi: Bizi çıxardırsan, Əlini orada qoyursan? Həzrət cavab verdi: Sizi mən çıxartmadım, Allah sizi çıxartdı və ona yer verdi."[1]

Zeyd ibn Ərqəm deyir: "Allah rəsulu əshabələrinin bəzilərinin qapısı məscidə açılırdı və keçid yolları oradan idi. Peyğəmbər (s) buyurdu: Əlinin qapısından savayı başqa qapıları bağlayın. Bu barədə camaat arasında söz-söhbət oldu. Peyğəmbər (s) ayağa qalxıb, Allaha həmd və sitayiş edəndən sonra buyurdu: Deyirlər ki, mən Əlinin qapısından başqa bütün qapıları bağlamağı əmr etdim! Amma həqiqətdə mən heç nəyi bağlamamış və ya açmamışam, mən məmur olunmuşam və itaət etmişəm." [2]

Təbərani "Əl-Kəbir"də İbn Abbasdan nəql etmişdir ki, Allahın rəsulu (s) bir gün ayağa qalxıb buyurdu: "Mən sizi öz yanımdan (məsciddən) çıxarıb onu saxlamadım, Allah sizi çıxarıb onu saxlamışdır. Mən məmur olunmuş qulam, mənə verilmiş fərmana əməl edirəm. Mən vəhydən savayı heç nəyə itaət etmirəm."[3] Yenə Allahın rəsulu (s) buyurmuşdur: "Ey Əli, məndən və səndən başqa məsciddə cənabət heç kəs üçün halal deyildir."[4] Səd ibn Əbu Vəqqas, Bəra ibn Azib, İbn Abbas, İbn Ömər və Hüzeyfə ibn Üseyd, Qifari bütün bunların hamısını nəql edibdemişlər ki, Peyğəmbər (s) məscidə gəlib buyurdu: "Allah Musaya vəhy buyurdu: Mənim üçün pak bir məscid tik ki, səndən və Harundan başqa heç kəs orada məskən seçməsin. Allah mənə də vəhy buyurub ki, pak və təmiz bir məscid tikəm və məndən, bir də qardaşım Əlidən savayı heç kəs orada sakin olmasın."[5]

Bizim yazdıqlarımız bu haqda sübut olunan bütün toplanmış "nəss"ləri özünə sığışdıra bilməz. İbn Abbasdan Əbu Səid Xidri, Zeyd ibn Ərqəm, "Xəsəm" qəbiləsindən səhabi bir şəxs, Əsma binti-Ümeys, Ümmi-Sələmə, Hüzeyfə ibn Üseyd, Səd ibn Əbi-Vəqqas, Bəra ibn Azib, Əli ibn Əbu Talib, Ömər, Əbuzər, Əbu Tüfeyl, Bureydə Əsləmi, Əbu Rafe (Rəsulullah tərəfindən azad olunmuş qul), Cabir ibn Abdullah və başqalarından çatmış açıq "nəss"ləri özündə sığışdıra bilməz.

Peyğəmbərdən çatmış duada belə oxuyuruq: "Pərvərdigara! Qardaşım Musa səndən xahiş edib dedi: Pərvərdigara! Mənə ürək genişliyi inayət et! İşimi asan et! Qüssə və düyünü dilimdən aç ki, camaat sözümü başa düşsünlər və mənim üçün ailəmdən (əhlimdən) vəzir təyin et! Harun qardaşımı və onun vasitəsilə arxamı möhkəmlət və onu işlərimə şərik et." Sən ona vəhy etdin ki, "tezliklə qardaşın vasitəsilə qollarını möhkəmlədəcəyəm və sizə yüksək məqam və mövqe əta edəcəyəm. Ey böyük Yaradan! Mən sənin qulun və rəsulun Məhəmmədəm. Mənə ürək genişliyi ver! İşimi asan et! Ailəmdən mənə vəzir təyin et! Əli qardaşımı."[6]

Bəzzar da buna oxşarını nəql etmişdir ki, Peyğəmbər (s) Əlinin əlini tutub dedi: "Musa Allahdan istədi ki, məscidini Harun üçün pak etsin, mən də Allahdan istədim ki, məscidimi sənin üçün pak və təmiz etsin. Sonra Əbu Bəkrə xəbər göndərdi ki, evinin qapısını bağlasın.

---

[1] "Müstədrək"in 3-cü cildinin 117-ci səhifəsinin əvvəlində deyildiyi kimi, bu hədis doğru "sünən"də mövcuddur və sünnə əhlinin bir çox etimadlı şəxsləri onu nəql etmişlər.

[2] Əhməd "Müsnəd"in 4-cü cildinin 369-cu səhifəsində onu nəql etmiş və Zeyd də "Kənzül-Ümmal"da və onun "Müntəxəb"indəki "Müsnəd"də olduğu kimi söyləmişdir. 5-ci cild 29-cu səhifəyə müraciət et.

[3] Müttəqi Hindi işarə etdiyimiz səhifənin haşiyəsinin sonunda onu nəql etmişdir.

[4] Tirmizi öz "Səhih"ində yazdığı, Müttəqi Hindi qeyd etdiyimiz kimi "Müntəxəb"də söyləmişdir. Bəzzar da onu Səddən İbn Həcərin "Səvaiq"inin 9-cu babının hissəsindəki hədislərdən 13-cü hədisdə nəql etdiyimiz kimi, onu xatırlamışdır. 73-cü səhifəyə müraciət et.

[5] İbn Məğazili adı ilə məşhur olan Əli ibn Məhəmməd Xətib Şafei Fəqih öz "Mənaqib"ində müxtəlif yollarla onlardan bəhs etmiş və Bəlx tədqiqatçı alimi "Yənabiül-Məvəddə"nin 17-ci babında onu nəql etmişdir.

[6] İmam Əbu İshaq Sələbi "Təfsiri-Kəbir"ində "Maidə" surəsinin 55-ci ayəsində bu hədisi Əbuzərdən və ona bənzərini Bəlx tədqiqatçısı imam Əhmədin "Müsnəd"indən nəql etmişdir.

O, əvvəl dedi: "İnna lillah və inna iləyhi raciun" və sonra dedi: "Eşitdik və itaət etdik." Sonra Ömər və Abbasa xəbər göndərdi ki, evlərinin qapısını bağlasınlar. O vaxt buyurdu: "Evlərinizin qapısını mən bağlamamış və Əlinin qapısını mən açmamışam. Allah onun qapısını açmış və sizinkini bağlamışdır."[1]

Bizim nəzərdə tutduğumuz Əlinin Haruna (mənzilət və məqamda) oxşamasının ümumiliyi haqqında bu qədər kifayətdir. Vəssalam.

***"Ş"***

---

[1] Bu "Kənzül-Ümmal"da 6156-cı hədisdir ki, 6-cı cildin 48-ci səhifəsində verilmişdir.

# *OTUZ BEŞİNCİ MƏKTUB*

<u>27</u> <u>Zilhiccə</u> <u>1329</u>

***Başqa "nəss"lərin xahişi.***

Allah atana rəhmət eləsin, nə qədər aydın və cah-cəlallı ayələr, əlamətlər və dəlillərdir, bəyan və dəlillərin necə də fəsahətdən faydalanmışdır! Ardını da zikr et, ardını..., elə o ardıcıl, "mütəvatir" və aydın "nəss"lərdən! Fəzl və üstünlük səndədir. Vəssalam.

***"S"***

# *OTUZ ALTINCI MƏKTUB*

29 Zilhiccə 1329

***1 İbn Abbasın hədisi.***

***2. İmranın hədisi.***

***3. Büreydənin hədisi.***

***4. “On xüsusiyyətlər” hədisi.***

***5. Əlinin hədisi.***

***6. Vəhəbin hədisi.***

***7. İbn Əbu Asimin hədisi.***

1. Əbu Davud Təyalisinin –“İstiab”da Əlinin şərhi-halında yazıldığı kimi– İbn Abbasdan söylədiyi hədisi mütaliə etsən kifayət edər. O, deyir: Peyğəmbər Əli ibn Əbu Talibə buyurdu: «اَنْتَ وَلِيُّ كُلِّ مُؤمِنٍ بَعْدي» “Sən məndən sonra bütün möminlərin vəlisi olacaqsan.”[1]

2. Bu da yuxarıdakı hədis kimi doğru bir hədisdir. İmran ibn Həsin deyir: “Allahın rəsulu (s) bir dəstəni döyüşə göndərdi və Əlini qoşunun başçısı təyin etdi. O, qələbədən sonra xüms payından bir kənizi özü üçün seçdi. Ordudakılar ona irad tutdu. Onlardan dörd nəfəri əhd bağladılar ki, Peyğəmbərə şikayət etsinlər. Qayıdandan sonra onlardan biri Peyğəmbərə dedi: Ey Allahın rəsulu, Əlinin nə etdiyini bilirsənmi? Peyğəmbər üzünü ondan çevirdi. İkincisi qalxıb həmin sözü dedi. Peyğəmbər ondan da üz döndərdi. Üçüncüsü qalxıb iki nəfərin sözünü təkrar etdi. Peyğəmbər ondan da üz çevirdi. Dördüncüsü qalxıb o üç nəfərin dediyini təkrar etdi. Bu dəfə Peyğəmbər üzünü onlara tutub qəzəbli halda buyurdu: Əlidən nə istəyirsiniz? Əli məndən, mən də ondanam. O, məndən sonra bütün möminlərin vəlisidir.”[2]

3. Habelə Büreydənin hədisidir ki, “Müsnədi Əhməd”in beşinci cildinin 356-cı səhifəsində yazılmışdır. O, deyir: “Allahın rəsulu iki dəstə qoşunu Yəmənə göndərdi. O dəstədən birinin başçısı Əli ibn Əbu Talib idi və o birisinin başçısı Xalid ibn Vəlid. Peyğəmbər (s) buyurdu:

---

[1] Əbu Davud və başqa “sünən” yazıçıları Əbu Əvanə Bəzzah ibn Abdullah Yeşkəridən, Əbu Bələc Yəhya ibn Səlim Fəzaridən, Əmr ibn Meymun Udidən, İbn Abbasdan məruf şəkildə bu hədisi nəql etmişlər. Sənədin müəllifləri hamısının höccət olduğuna görə Müslim və Buxari onlardan dəlillər gətirmişlər. Yalnız Yəhya ibn Səlimdən başqa ki, ondan hədis söyləməyiblər. Alimlər sadəcə onun etimadlı olmasını qeyd etmişlər. O, Allahı çox zikr edənlərdən olmuşdur.

Zəhəbi “Mizanül-Etidal”da onun şərhi-halında İbn Müin, Darü-Qütni, Məhəmməd ibn Səid və Əbu Hatəm və başqaları onun etimadlı olduğunu nəql etmişdir.

[2] Bir sıra “sünən” yazıçıları, o cümlədən Nisai “Xəsaisül-Ələviyyə”də və Əhməd ibn Hənbəl İmrandan “Müsnəd”in 4-cü cildinin 438-ci səhifəsinin əvvəlində və Hakim “Müstədrək”in 3-cü cildinin 111-ci səhifəsində və Zəhəbi “Təlxisi-Müstədrək”də Müslimin şərtinə əsasən, hədisin doğru olduğunu etiraf etmişdir. İbn Şeybə və İbn Cərir də onu nəql etmiş və səhih bilmişlər, necə ki, Müttəqi Hindi “Kənzül-Ümmal”ın 6-cı cildinin 400-cü səhifəsinin əvvəlində bunu nəql etmişdir. Tirmizi, Əsqəlaninin “Əl-İsabə”də Əlinin şərhi-halında nəql etdiyi kimi, əsaslı sənədlər ilə onu söyləmişdir. Əllamə İbn Əbil-Hədid “Nəhcül-bəlağənin şərhi”nin 2-ci cildinin 450-ci səhifəsində ondan yazaraq demişdir ki, Əbu Abdullah Əhməd “Müsnəd”də bir dəfədən çox onu nəql etmiş və “Fəzaili-Əli” kitabında onu söyləmişdir. Hədis yazanların əksəriyyəti bu hədisi rəvayət etmişlər.

Bir-birinizə çatanda hər iki dəstənin başçısı Əli olacaqdır.[1] Əgər ayrılsanız hər kəs öz qoşununun başçısı olsun.” Büreydə deyir: “Biz Yəmən əhlindən olan Bəni Zübeydə qəbiləsi ilə üzləşəndə döyüşdə qələbə çaldıq və Bəni Zübeydə qəbiləsindən əsir tutduq. Əli (ə) əsir qadınların birini özü üçün seçdi. Xalid ibn Vəlid bir məktub yazdı və mənə verdi ki, Allahın rəsuluna çatdırım. O, bu məktubda Peyğəmbəri (s) işdən agah etmək istəyirdi. Peyğəmbərin yanına çatanda məktubu verdim. Məktubu ona oxudular və gördüm qəzəbləndi. Dedim: Ey Allahın rəsulu, bura sığınacaq mərkəzidir (mən sənə pənah gətirirəm). Sən məni bir nəfərlə göndərdin və ona itaət etmək əmrini verdin. Mən də boynumda olan vəzifəni yerinə yetirmişəm. Allahın rəsulu (s) buyurdu: “Əli haqqında pis danışma ki, o, məndəndir və mən də ondanam. O, məndən sonra sizin vəlinizdir.”[2]

Bu sözləri eyni ilə Nisai “Xəsayisül-Ələviyyə”nin 17-ci səhifəsində bu cür yazmışdır: «لا تُبغِضَنَّ يا بُرَيْدة لي فَاِنَّ عَليّاً مِنّي وَ اَنا مِنْهُ وَ هُوَ وَلِيُّكم بَعْدي» “Elə etmə ki, məni Əliyə qarşı qəzəbləndirmək istəyəsən. Çünki Əli məndəndir və mən ondanam və məndən sonra, o, sizin vəliniz olacaqdır.” Bu hədis İbn Cərir[3] bu cür yazmışdır: Büreydə dedi: Birdən gördüm Peyğəmbərin (s) üzü qızardı və buyurdu: «مَنْ كُنْتُ وَليَّهُ فِاَنَّ عَلِيّاً وَلِيُّهُ» “Hər kəsin mən vəlisiyəmsə, Əli onun vəlisidir.” Büreydə deyir: Ürəyimdə olanların hamısı məhv oldu, dedim daha onu heç vaxt pis niyyətlə yad etməyəcəyəm.” Təbərani bu hədisi müfəssəl şəkildə nəql etmişdir. O yazır: Büreydə Yəməndən qayıdıb məscidə daxil olanda Peyğəmbərin evinin qapısında çoxlu adam oturduğunu müşahidə etdi. Onu görəndə hamı ayağa durdu və salam verib səfər haqqında soruşdular. Cavab verdi: Xeyir və yaxşılıqdır. Allah qələbəni müsəlmanlara nəsib etdi. Soruşdular sənin tez gəlməyinə səbəb nə oldu? Cavab verdi: Əli xüms payından özü üçün bir kəniz götürdü. Gəldim ki, bu xəbəri Peyğəmbərə (s) deyim. Dedilər: Ona xəbər ver, ona

---

[1] Peyğəmbər (s) həyatı boyu heç kəsi Əliyə rəis etməmiş, əksinə, həmişə Əli başçı olmuşdur. Hər yerdə – başqalarının əksinə– o, bayraqdar olmuşdur. Belə ki, Üsamənin qoşununda əskərlərdən olan Əbu Bəkr və Ömər “bayraqaltı” olublar. Bəli, “Mutə” döyüşü zamanı Peyğəmbərin (s) Üsamənin ixtiyarına verdiyi qoşunda bu iki nəfər əlaltı idilər və Peyğəmbər (s) özü bu iki nəfəri orduya qatmışdı. Bu haqda gələn xəbərlərdəki fikir eynidir. O iki nəfər “Zatüs-Səlasil” döyüşündə İbn Asın əsgərləri idi. O döyüşdə onların öz başçıları ilə əhvalatları (macəraları) vardır ki, Hakim “Müstədrək”in 3-cü cildinin 43-cü səhifəsində, Zəhəbi onu “Təlxis”ində aydın şəkildə yazmışlar. Amma Əli heç vaxt o həzrətin peyğəmbərliyə yetişdiyi vaxtdan ruhu bədənindən çıxana qədər başqasının məmuru və tabeçiliyində olmamışdır.

[2] Bu hədisi Əhməd “Müsnəd”in 356-cı səhifəsində Abdullah ibn Büreydə vasitəsilə atasından nəql etmiş və “Müsnəd”in 5-ci cildinin 347-ci səhifəsində Səd ibn Cərir təriqiylə İbn Abbasdan, o da Büreydədən nəql etmiş ki, deyir: “Əli ilə Yəmən döyüşündə idim, ondan narazı oldum. Qayıdanda Əliyə olan iradımı Allahın rəsuluna dedim. Allahın rəsulunun surəti dəyişdi və buyurdu: Ey Büreydə, məgər mən möminlərə özlərindən daha yaxın deyiləmmi? Dedim: Bəli, ey Allahın rəsulu (s). Buyurdu: «مَنْ كُنْتُ مَولاه فَعَلِيٌّ مَوْلاهُ» Mən kimin mövlasıyamsa, Əli onun mövlasıdır.” Hakim “Müstədrək”in 3-cü cildinin 110-cu səhifəsində və bir sıra hədis yazanlar onu nəql etmişlər. Bu hədis –gördüyünüz kimi– çox aşkardır. “Məgər mən möminlərə onların özlərindən daha yaxın deyiləmmi?” – cümləsi sübut edir ki, bu hədisdə “mövla” sözündən məqsəd “dəxalət etməkdə üstündür” deməkdir. Buna bənzərini bir sıra hədis yazanlar, o cümlədən imam Əhməd “Müsnəd”in 3-cü cildinin 483-cü səhifəsində Əmr ibn Şas Əsləmidən nəql etmişdir. Əmr Hüdeybiyyə əshablarından idi. O deyir: “Əli (ə) ilə Yəmən tərəfə getdim. Bu səfərdə o mənim narahatlığıma səbəb oldu. Qəlbən ondan incidim. Qayıdanda şikayətimi məsciddə dedim ki, Peyğəmbərə (s) çatsın. Bir gün səhər məscidə gəldim. Peyğəmbər (s) bir neçə əshabələrinin arasında oturmuşdu. Məni görən kimi mən əyləşənə qədər mənə baxdı və buyurdu: Ey Əmr! Allaha and olsun, məni incitdin. Dedim: Səni incitməkdən Allaha pənah aparıram. Buyurdu: Bəli. «من آذي عليا فقد آذاني» Əlini incidən şəxs, məni incitmişdir.”

[3] Müttəqi Hindi “Müstədrək”in 6-cı cildinin 398-ci səhifəsində söyləmiş və “Müntəxəbi-Kənz”də də yazmışdır.

xəbər ver ki, Əli Peyğəmbərin gözündən düşsün! Peyğəmbər (s) qapının arxasından onların səsini eşidirdi. Allah rəsulu acıqlı halda evdən çıxdı və buyurdu: Nə üçün bir dəstə adam Əlinin haqqında pis danışır? Məqsədləri nədir? Əliyə kin bəsləyən şəxs mənə kin bəsləmiş olur. Əlidən ayrılan şəxs məndən ayrılmışdır. Əli məndəndir və mən ondanam. O mənim gilimdən (torpağımdan) yaranmışdır, mən də İbrahimin gilindən (torpağından) və mən İbrahimdən üstünəm.[1] Elə nəsillər vardır ki, biri digərindən alınmışdır. Allah eşidən və biləndir. Ey Büreydə, məgər bilmirsənmi ki, Əlinin o kənizdən də çox payı vardır, ona mən icazə vermişəm, çünki o, məndən sonra sizin vəlinizdir."[2] Bu hədisin nəqlində heç bir şübhə yoxdur. Büreydəyə qədər müxtəlif yollarla nəql olunmuşdur və hamısı etimadlıdır.

4. Bu hədisin oxşarını Hakim İbn Abbasdan nəql etmiş və o, ən qiymətli hədisdir. Orada Əlinin on xüsusiyyəti və üstünlüyündən bəhs olunur. O cümlədən Peyğəmbər Əliyə buyurmuşdu: "Sən məndən sonra bütün möminlərin vəlisi olacaqsan."[3]

5. Peyğəmbərin ona dediyi elə sözlərdən bir hədisdə də deyilir: "Ey Əli, Allahdan sənin üçün beş şey istədim, onlardan dördünü verdi, birini vermədi... Verdiyi şeylərdən biri bu idi ki, sən məndən sonra möminlərin vəlisi olacaqsan."[4]

6. Buna oxşar hədisi İbn Sakin, Vəhəb ibn Həmzədən nəql etmişdir. "Əs-Səhabə" kitabında, Vəhəbin şərhi-halında yazılmışdır ki, Əli ilə səfərə çıxdım, ondan narahatçılıq gördüm. Dedim ki, qayıdanda ondan şikayət edəcəyəm. Qayıdanda Allah rəsuluna şikayət etdim. Buyurdu: Bunu Əli haqqında demə ki, o məndən sonra sizin vəliniz olacaqdır." Təbərani "Kəbir" kitabında Vəhəbdən onu nəql etmiş, yalnız bu fərq ilə ki, orada yazılmışdır: "Bunu Əli haqqında demə ki, o, məndən sonra sizə hamıdan daha yaxşıdır."[5]

7. İbn Əbu Asim mərfu şəkildə Əlidən (ə) nəql etmiş və yazmışdır: "Peyğəmbər buyurdu: Mən möminlərə, özlərindən daha yaxın deyiləmmi? Dedilər: Bəli! Buyurdu: Mən kimin vəlisiyəmsə, Əli onun vəlisidir."[6]

Bizim pak Əhli-beyt imamlarımızın haqqındakı doğru xəbərlərimiz mütəvatirdir. Məncə, hələlik bu qədər kifayətdir. Bundan əlavə, Allahın kitabında vilayət ayəsi bizim dediklərimizi sübut edir.

***"Ş"***

---

[1] "Əli mənim torpağımdan yaranmışdır" – təbiri ilə başa düşülür ki, Həzrət (s) ondan üstündür. "Mən isə İbrahimin torpağından yaranmışam" – sözündən nəzərə belə gəlir ki, İbrahim peyğəmbər Əlidən üstündür və bu şübhəni də aradan qaldırmaq üçün demişdir ki, "mən İbrahimdən üstünəm."

[2] İbn Həcər bu hədisi Təbəranidən "Səvaiq"in 11-ci babındakı ayələrdən 14-cü ayədəki məqsədlərdən ikinci məqsəddən (səh. 103) nəql etmişdir. Lakin "bilmirdinmi bir kənizdən daha çox Əliyə məxsusdur?" – cümləsinə çatanda nəfsinin istəyi ona qalib gəlmiş və ila axir" deyə hədisin ardını deməkdən çəkinmişdir. Əlbəttə, bu işin onun kimilərdən baş verməsi təəccüblü deyildir.

[3] Hakim "Müstədrək"in 3-cü hissəsi 134-cü səhifəsinin əvvəlində onu yazmış, Zəhəbi onun "Təlxis"ində hədisin doğru olmasına etiraf edərək nəql etmişdir ki, Nisai "Xəsaisül-Ələviyyə"nin 6-cı səhifəsində və imam Əhməd "Müsnəd"in 1-ci cildinin 331-ci səhifəsində onu nəql etmiş və biz onun sözlərini eyni ilə 26-cı məktubda yazdıq.

[4] Bu hədis "Kənzül-Ümmal"da 6048-ci hədisdir ki, 6-cı cildin 396-cı səhifəsində yazılmışdır.

[5] Bu hədis "Kənzül-Ümmal"da 2579-cu hədisdir ki, 6-cı cildin 155-ci səhifəsindədir.

[6] Müttəqi Hindi bu hədisi "Kənzül-Ümmal"ın 6-cı cildinin 397-ci İbn Əbu Asimdən səhifəsində nəql etmişdir.

# *OTUZ YEDDİNCİ MƏKTUB*

29 Zilhiccə 1329

***“Vəli” müştərək (omonim) sözdür. Onun dəqiq mənasını müəyyənləşdirən hədis varmı?***

“Vəli” sözü “nəsir” (köməkçi), “sdiq” (yoldaş), “mühibb” (dost), “sihr” (kürəkən), “tabe” (ardıcıl), “həlif” (həməhd), “car” (qonşu) mənalarını da ifadə edir (yəni omonim sözlərdəndir). Hər kəs hər hansı bir şəxsin başçılığını öhdəsinə alsa, onun vəlisidir. Deməli, söylənilən hədislərin mənası bəlkə belədir ki, Əli məndən sonra sizin “köməkçiniz”, yaxud “yoldaşınız” və ya “dostunuz”dur. Bəs söylədiyiniz “nəss” hansıdır?

***“S”***

# *OTUZ SƏKKİZİNCİ MƏKTUB*

<u>30</u> <u>Zilhiccə</u> <u>1329</u>

***1. “Vəli” sözünün bəyanından məqsəd.***

***2. Bu mənanı sübut edən əlamətlər (dəlillər).***

1. “Vəli” sözünə aid xatırlatdığınız bütün mənalar belədir: “Hər kəs başqasının qəyyumluğunu öhdəsinə alsa, onun vəlisidir.” Hədislərdə “vəli” sözü həmin mənada işlənmiş və bu məna onlardan anlaşılır. Necə ki, “qasir”in (uşaq və divanə) atası, ata tərəfindən cəddi və şəri hakim onun vəlisi sayılır. Çünki onun işlərini öhdələrinə götürənlər və işlərinə dəxalət edənlər də onlardır.

2. Bu hədislərdə “vəli” sözünün mənasını sübut edən əlamətlər (dəlillər) münsif adamlara gizli deyildir. Çünki Peyğəmbərin (s) «وَ هُوَ وَلِيُّكُم بَعْدي» “Məndən sonra o, sizin vəlinizdir” – sözü həmin vilayət mənasını bildirir[1] və bunun özü aşkar dəlildir. Başqa məna verə də bilməz, çünki “nüsrət”, “sədaqət”, “məhəbbət” və s. kimi məfhumları yalnız müəyyən bir şəxsə aid etmək olmaz.

Əgər “vəli” sözünün mənası bizim dediyimiz kimi olmasayıb, onda Peyğəmbər (s) bu hədislərdə qardaşı və vəlisi üçün hansı imtiyaz və məziyyətləri sübut etmək istəyirmiş? hansı gizli iş mövcud idi ki, Peyğəmbər (s) bu hədislərdə onun bəyanının zəhmətini öhdəsinə götürmüşdü? Ola bilməz ki, Allahın rəsulu aydın və aşkar olan şeylərin izahı üçün bu qədər çalışsın. Gözəl hikməti, isməti, sonuncu peyğəmbər olması icazə vermir ki, o həzrətə qarşı bu cür gümanlar edilsin. Bundan əlavə, bu hədislər ona görə doğrudur ki, Peyğəmbərdən sonra bu vilayət yalnız Əliyə məxsus idi. Bunun özü dediyimiz mənanı sübut edir. Bu da heç vaxt “nasir”, “mühibb” və sair kimi sözlərin mənasını ifadə etməyəcəkdir, çünki Əli Allah rəsulunun yanında boya-başa çatan vaxtdan, qolları risalət qoynunda möhkəmlənənə qədər və bu dünyanı tərk edənədək müsəlmanlara “kömək”, “məhəbbət” və “sədaqət” ilə xarakterizə olunur. Buna görə də onun müsəlmanlara olan “köməyi”, “sədaqəti” və “məhəbbəti” yalnız Peyğəmbərdən sonraya aid olmamış və bu heç kəsə gizli deyildir. Bizim sözümüzü təsdiq edən dəlillərdən biri imam Əhmədin “Müsnəd”inin beşinci cildinin 347-ci səhifəsindəki hədisdir ki, doğru yol ilə Səd ibn Cübeyrdən, İbn Abbasdan və Büreydədən nəql olunmuşdur: “Əli ilə Yəmən döyüşündə idim və ondan narazı oldum. Qayıdandan sonra Peyğəmbərin hüzuruna gəlib Əlidən söz saldım və ona irad tutdum. Gördüm, Allah rəsulunun siması dəyişdi və buyurdu: «يا بُرَيْدَةُ اَلَسْتُ اَوْلي بِالْمُؤمِنينَ مِنَ اَنْفُسِهِم؟ قُلْتُ بَلي يا رَسُولَ الله قالَ مَنْ كُنتُ مَوْلاهُ فَعَلِيّ مَوْلاهْ» “Ey Büreydə, mən möminlərə özlərindən daha yaxın deyiləmmi? Dedim: Bəli, ey Allahın rəsulu. Buyurdu: Mən hər kəsin mövlasıyamsa, Əli onun mövlasıdır.” Hakim “Müstədrək”in üçüncü hissəsinin 110-cu səhifəsində onu yazmış və Müslimin şərtinə müvafiq bilib qəbul etmişdir. Zəhəbi də “Təlxis”də onu nəql etmiş, Müslimin şərtinə əsasən onu doğru hesab etmişdir. Özün bilirsən ki, «اَلَسْتُ اَوْلي بِالْمُؤمِنينَ مِنَ اَنْفُسِهِم؟» – cümləsinin əvvəldə gəlməsi bizim sözlərimizin doğruduğuna aydın dəlalət edir. Bu hədisləri diqqətlə nəzərdən keçirənlər onunla əlaqədar başqa cəhətləri də nəzərə alsalar, dediklərimizin həqiqət olmasında heç bir şübhə əmələ gəlməz. “Ş”

---

[1] Çünki “məndən sonra o, sizin vəlinizdir” – ibarətinin mənası budur ki, başqası yox, yalnız məndən sonra sizin vəliniz odur.

# *OTUZ DOQQUZUNCU MƏKTUB*

<u>30</u> <u>Zilhiccə</u> <u>1329</u>

***Vilayət ayəsindən bəhs etmək xahişi.***

Şəhadət verirəm ki, siz mübahisədə sabitqədəm, sadiq və elə qüvvətlisiniz ki, sizə tay olmaq istəyənlər müqabilinizdə qüdrətini əldən verər və mübarizənin qızğın çağında daha tab gətirə bilməzlər. Buna görə də mən o hədislərdən dəlillər gətirməkdə sizin sözlərinizə inanan ilk adamam və əgər səhabənin hər bir əməlinin doğru hesab olunmasının vacibliyi olmasaydı, onda mən sizin hökmünüzə tabe olardım. Lakin bu hədislərin zahirlərindən əl çəkmək istər-istəməz vacibdir, çünki keçmişdəki saleh adamların arxasınca getmək bunu tələb edir.

Amma 36-cı məktubun sonunda xatırladığınız və o hədisin sözlərinizi təsdiq etdiyini güman etdiyiniz "möhkəm" ayənin təfsiri və mənasının sizin məqsədinizi necə təsdiq etməsindən bizi agah etmədiniz. Onu bizə söyləyin ki, Allahın köməyi ilə dərindən başa düşək.

***"S"***

# *QIRXINCI MƏKTUB*

<u>2</u> <u>Məhərrəm</u> <u>1330</u>

***1.“Vilayət” ayəsi və onun Əli haqqında nazil olması.***

***2. Onun nazil olmasının səbəbləri.***

***3. Ona dəlillər gətirmək.***

1. Bəli, Pərvərdigarın Qurani-əzimdəki “möhkəm” ayələrindən birini sizə oxuyuram: إِنَّمَا وَلِيُّكُمُ اللّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ وَمَن يَتَوَلَّ اللّهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُواْ فَإِنَّ حِزْبَ اللّهِ هُمُ الْغَالِبُون[1] “Sizin yeganə vəliniz Allah, onun peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, namaz qılırlar, rüku vaxtı zəkat verirlər. Allahı, onun peyğəmbərini və iman gətirənləri sevənlər (bunu bilməlidirlər ki,) Allah firqəsi qalibdir!” Şübhə yoxdur ki, Əli üzüyünü rüku halında dilənçiyə verən zaman bu ayə onun haqqında nazil olmuşdur.

2. Əlinin rüku halında üzüyünü dilənçiyə verməsi haqqında nazil olan bu ayəyə aid doğru xəbərlər Əhli-beyt (ə) imamlarından “mütəvatir” halda çatmışdır. Əhli-beyt (ə) təriqi ilə çatmayan hədislərdən İbn Səlamın Peyğəmbərdən mərfu şəkildə çatmış hədisini oxusanız sizə kifayət edər. Ondan agah olmaq üçün “Səhih-Nisai”, yaxud “Maidə” surəsinin təfsirində “Cəm beyni sihahi sittə” kitabına müraciət et və ona bənzər hədis İbn Abbas və Əlidən nəql olmuş hədisidir ki, mərfu şəkildə mövcuddur. İbn Abbasın hədisini Vahidinin “Əsbabun-nüzül” kitabında oxuyun. Bu hədisi Xətib “Əl-Müttəfəq”[2] kitabında söyləmişdir.

Əlinin dediyi hədisi İbn Mərdəveyh “Müsnəd”ində və “Əbül-Şeyx”in “Müsnəd”ində oxuyun və əgər istəsən “Kənzül-Ümmal”a[3] müraciət et, onda görəcəksən ki, bu ayənin Əli haqqında nazil olmasına aid müfəssirlərin fikri eynidir.

Bu fikri bir sıra sünni alimləri, o cümlədən Quşçi “Təcridin şərhi”nin “imamət” bəhsində nəql etmişdir. “Qayətül-Məram”ın 18-ci babında sünnə əhli təriqilə 24 hədis nəql olmuşdur ki, bu ayənin nazil olma səbəbi bizim dediyimiz kimi mənalandırmışdır. Müxtəsər deyirəm, əgər gün kimi aydın olmasaydı, bu haqda yazılmış bütün doğru hədislərdən danışardıq. Amma Allaha şükürlər olsun ki, bu məsələ şübhə doğurmayan məsələlərdəndir. Ona görə də biz bu məktubda sünnə əhli təriqilə çatmış xəbərlərdən də gətiririr və imam Əbu İshaqın Əhməd ibn Məhəmməd ibn İbrahim Nişaburi Sələbi”nin[4] təfsirində deyilənlər ilə kifayətlənirik. O, öz “Təfsiri Kəbir”ində bu ayəyə çatanda Əbuzər Qifaridən belə nəql etmişdir: “Bu iki qulağımla Peyğəmbərdən eşitdim, yoxsa (yalan deyirəmsə) kar olum, bu iki gözümlə gördüm, yoxsa kor

---

[1] “Maidə”, 55-56. Buna görə də Suriya xalqının adət-ənənəsinə əsasən, şiəyə “mütəvali” deyilir, çünki onlar Allahı, rəsulunu və iman gətirənləri sevirlər. Elə bu ayədə də həmin mənanı (Allahı, onun peyğəmbərini və iman gətirənləri sevənlər) yetirir. “Əqrəbül-Məvarid”də deyilir ki, “mütəvali”dən məqsəd Əlinin şiələridir. Onlar bu ad ilə adlanmışlar, çünki Əlini və Əhli-beyti sevirlər.

[2] Bu hədis “Kənzül-Ümmal”ın 6-cı cildinin 391-ci səhifəsindəki 5991-ci hədisdir və “Müntəxəbi-Kənz”də də yazılmışdır ki, 5-ci cildin 38-ci səhifəsinin haşiyəsindəki “Müsnədi-Əhməd”ə müraciət edin.

[3] Bu hədis “Kənzül-Ümmal”ın 6-cı cildinin 405-ci səhifəsindəki 6138-ci hədisdir.

[4] İbn Xəlləkanın “Vəfayətül-Əyan”da nəql etdiyinə əsasən, o, 337-ci ildə vəfat etmişdir. O deyir: “Təfsir sahəsində zəmanəsinin yeganə şəxsi idi və bütün təfsirlərin başı olan “Təfsiri-Kəbir”i yazmışdır.” Sonra belə əlavə edir: “Əbdül-Qafir ibn İsmayıl Farsi “Siyaqi-Nişabur” kitabında onu yad edərək mədh etmiş və sonra demişdir ki, o doğru nəql edən və etimadlıdır.”

olum, deyirdi: “Əli yaxşıların rəhbəri və kafirlərin qatilidir. O kəs qalibdir ki, ona kömək etsin və o kəs zəlildir ki, ona yardım etməsin.” Agah olun, bir dilənçi məscidə gəlib dilənərkən heç kəs ona bir şey vermədi. Əli rüku halında idi. Kiçik barmağı ilə ona işarə etdi. Həmin barmağında üzük var idi. Dilənçi irəli gəlib üzüyü barmağından çıxartdı. Bu vaxt Peyğəmbər (s) Allah dərgahında razü-niyaz edir, deyirdi: “Ey Allah! Qardaşım Musa (ə) səndən xahiş edib dedi ki, mənə ürək genişliyi ver, işimi asan et və Əhli-beytimdən mənə bir vəzir təyin et! Sən də mən Əlini və onun vasitəsilə ilə arxamı möhkəmlət.”

(Əbuzər deyir:) Allaha and olsun, Peyğəmbərin (s) sonuncu kəlməsi qurtarmamış Cəbrail bu ayəni (Maidə, 55-56) gətirdi.”

3. Siz –Allah sizin vasitənizlə haqqı saxlasın– bilirsiniz ki, “vəli” burada “övla” – “üstün” mənasındadır. Necə ki, deyirik: “filankəs vəliyyi-qasirdir” və lüğət alimlərinin aydınlaşdırdıqları kimi: «كُلُّ مَنْ وَلِّيَ اَمْرَ اَحدٍ فَهُوَ وَليُّهُ» “Hər kəs başqasının işini öhdəsinə götürsə, onun vəlisidir.”[1] Beləliklə ayənin mənası belə olur: “Sizin işinizi öhdəsinə götürən və həmin işlərinizə dəxalət etməkdə sizdən üstün olan yalnız Allah, onun rəsulu və Əlidir.” Çünki yalnız Əlidə “iman”, “namazda rüku halında”, “zəkat verilməsi” kimi xüsusiyyətlər mövcud olmuş və ayə onun haqqında nazil olmuşdur.

Allah bu vilayəti öz peyğəmbəri və vəlisi üçün eyni cür nəzərdə tutmuş və bilirik ki, Allahın vilayəti ümumidir. Deməli, Peyğəmbərin və vəlisinin vilayəti də Allahın vilayəti kimidir və mümkün deyildir ki, “nəsir” (köməkçi), “mühibb” (dost) və bu kimi mənalarda olsun. Çünki bu sözün yalnız “nəsir”, “mühibb” və başqa mənalara həsr edilməsinə əsla dəlil yoxdur və mən belə güman edirəm ki, bu məsələ aydın məsələlərdəndir. «الحمد لله رب العالمين. والسلام»

**“Ş”**

---

[1] “Sihah”, yaxud “Muxtarüs-Sihah” və başqa kitablarda “vəli” ləfzinə bax.

# *QIRX BİRİNCİ MƏKTUB*

<u>3</u> <u>Məhərrəm</u> <u>1330</u>

***İman gətirənlər sözü cəm halındadır, necə tək hala aid ola bilər?***

Bəzən deyilə bilər ki, إِنَّمَا وَلِيُّكُمُ اللهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ – cəm halındadır. Deməli, həqiqət cəm şəklindədir. Belə olan surətdə, yəni imam tək olduğu halda cəmə necə aid ola bilər və cavabı nədir?

***"S"***

# *QIRX İKİNCİ MƏKTUB*

<u>4</u> <u>Məhərrəm</u> <u>1330</u>

***1. Ərəb “müfrəd”i (tək) cəm halında işlədir.***

***2. Bu məsələ üçün sübutlar.***

***3. İmam Təbərinin dedikləri.***

***4. Zəməxşərinin dedikləri.***

***5. Mənim dediklərim.***

1. Cavabı budur ki, bəzən “ərəb” müfrədi cəm halında məna incəlikləri tərkibinə görə işlədir.

2. Bu mənaya sübut Allah-təalanın “Ali-İmran” surəsindəki 173-cü ayədir ki, orada oxuyuruq: الَّذِينَ قَالَ لَهُمُ النَّاسُ إِنَّ النَّاسَ قَدْ جَمَعُواْ لَكُمْ فَاخْشَوْهُمْ فَزَادَهُمْ إِيمَاناً وَقَالُواْ حَسْبُنَا اللهُ وَنِعْمَ الْوَكِيل “O kəslər ki, xalq onlara: "Camaat sizə qarşı (qüvvə) toplamışdır, onlardan qorxun!" – dedikdə, (bu söz) onların imanını daha da artırdı və onlar: "Allah bizə bəs edər. O nə gözəl vəkildir!" – deyə cavab verdilər.” Bu sözü müfəssirlər, hədis söyləyənlər və xəbər yazanların nəzərinə görə yalnız Nəim ibn Məsud Əşcəi demişdir. Burada Allahın “ən-nas” sözünü cəm halında deməsinə baxmayaraq, tək şəxsə aid etmişdir. Burada müfrədin cəm halında işlənməsi onun boş, cəfəng sözlərinə etina etməyənlərə ehtiram əlamətidir. Çünki Əbu Süfyan müsəlmanları zəiflətmək və müşriklərin vasitəsi ilə qorxutmaq üçün ona on dəvə vermişdi. O da müsəlmanlara dedi ki, camaat sizə qarşı hazırlaşmış, onlardan qorxun. Müsəlmanların çoxu bu sözə görə Əbu Süfyanın qoşununa qarşı qiyam etməkdən qorxdu. Amma Peyğəmbər yetmiş atlı ilə hərəkət etdi və onlar salamat qayıtdılar. Bu ayə Peyğəmbər ilə gedən həmin yetmiş nəfər haqqında nazil oldu ki, boş sözlərə qulaq asmadılar.

Burada “ən-nas” sözünün tək bir şəxsin barəsində işlədilməsi incə bir məfhumu ifadə edir ki, Peyğəmbər ilə gedən yetmiş nəfərin mədhindən ibarətdir. Burada cəm halı tək haldan –“O kəslər ki, bir kişi (bir nəfər) onlara dedi: Camaat sizə qarşı (qüvvə) toplamışdır.”– daha bəlağətli və məqsədəuyğundur ki, bu heç kəsə gizli deyildir. Belə misallar Allahın kitabında, Peyğəmbərin hədislərində və ərəb dilində çoxdur. O cümlədən bunu göstərmək olar. Allah buyurur: يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اذْكُرُواْ نِعْمَتَ اللهِ عَلَيْكُمْ إِذْ هَمَّ قَوْمٌ أَن يَبْسُطُواْ إِلَيْكُمْ أَيْدِيَهُمْ فَكَفَّ أَيْدِيَهُمْ عَنكُمْ “Ey iman gətirənlər! Bir qövmün sizi ələ keçirməyi qərara aldıqları zaman Allahın sizə verdiyi nemətini yada salın: Allah qoymadı ki, onların əli sizə çatsın.” Halbuki müsəlmanları ələ keçirməyi qərara alan qövm yalnız “Bəni Mühərib”dən Qürəs adında bir nəfər, yaxud “Bəni Nəzir” tayfasından olan Əmr ibn Cəhaş olub. O, qılınc çəkib Peyğəmbəri (s) vurmaq istəyəndə Allah ona mane oldu. Bu hadisəni müfəssirlər, hədisçilər nəql etmiş və İbn Hişam “Sirə”sinin 3-cü cildində “Zatür-Riqa” döyüşündən bəhs edərkən yazmışdır. “Camaat” sözü kimi işlənən “qövm” sözü tək bir kişiyə ona görə aid edilmişdir ki, Allah onlara inayət etdi və peyğəmbərlərini salamat saxladı.

Habelə “mübahilə” ayəsində “əbna” (oğullar), “nisa” (qadınlar), “ənfus” (özlər) sözləri, həqiqətdə ümumi olsa da, Həsəneynə (yəni Həsən və Hüseyn), Fatiməyə və Əliyə aid edilmişdir. Bu məsələdə hamının fikri eynidir. Belə deyiliş onların məqamını ucaltmaq üçün edilmişdir. Bu qəbil işlənmiş sözləri çox olduqlarından sayıb-qurtarmaq və toplamaq olmaz. Bu cəm halının müfrədə aid edilməsinə dair sübutlar idi ki, məna incəlikləri zəruriliyindən yaranır.

3. İmam Təbərsi “Məcməül-bəyan”da bu ayənin təfsirində xatırlamışdır ki, cəmin Əmirəl-mömininə aid edilməsinin səbəbi o həzrətə ehtiram və təzim əlamətidir. Çünki lüğət tərtib edənlər müfrədi cəm halında təzim və ehtiram məqsədilə də işlədirlər və əlavə etmişdir ki, bu həqiqət o dərəcədə şöhrət tapmışdır ki, dəlilə ehtiyacı yoxdur.

4. Zəməxşəri “Kəşşaf” təfsirində başqa bir məna incəliyini xatırladaraq deyir: “Əgər soruşsan cəm sözü necə olur ki, yalnız Əliyə (ə) aid olur? Deyərəm: Baxmayaraq ki, əməl yalnız bir nəfərin əməlidir, amma cəm halda ona görə işlənmişdir ki, camaat onun əməlinə doğru təşviq olunsun, Allah tərəfindən onun nail olduğu şeylərə onlar da nail olsunlar. Ona görə belə deyilib ki, möminləri yaxşılığa, ehsana, fəzilətə çatmağın vacibliyindən agah etsin. Yəni, vacib bir iş qarşıya çıxarsa, təxirə salmasınlar, hətta namazda olsalar belə.

5. Mən deyirəm: Mən daha gözəl və dəqiq bir incəlik bilirəm. O da bundan ibarətdir ki, bu ayə müfrəd yox, cəm halında ona görə işlənmişdir ki, bu həqiqətin özü Allah nahiyəsindən bir sıra adamlar üçün rəhmət və mərhəmətdir. Belə ki, Əli (ə) haqqında pis danışanlar, Bəni Haşim düşmənləri, münafiqlər, paxıllar və özləri qabağa düşmək istəyənlərin bu həqiqəti müfrəd halında eşitməyə taqətləri yox idi. Çünki bu halda həqiqəti gizlətmək, onu azdırmaq üçün yer qalmırdı və bu vəziyyətdə –öz qərəzlərindən naümid olduqları üçün– onlar tərəfindən İslama dəhşətli bir zərbə dəyə bilərdi. Ona görə də tək şəxsə mənsub olmasına baxmayaraq, vəziyyətdən çıxış yolu məqsədi ilə cəm halında işləndi. Sonra bir-birinin ardınca müxtəlif ibarətlər, “nəss”lər və izahlar bir çox məqamlarda (o həzrət tərəfindən) bəyan oldu ki, vilayət işini xalqın arasında tədricən yaysın. (Və bu elə belə də davam edirdi,) nəhayət, Allah dinini kamilləşdirdi və bütün nemətləri sona yetirdi. Bu həqiqəti çatdırmaqda Peyğəmbərin (s) üsulu, camaata çətin məsələləri aşılamaq işində dəqiqliyi eynilə hikmət sahiblərinin rəftarına bənzəyir. Əgər ayə müfrəd (tək) halında işlənsəydi, ona heç vaxt qulaq asmaz, barmaqları ilə qulaqlarını tutar, qürur və təkəbbür ilə ondan üz döndərərdilər.

Belə məna incəliyi yalnız bu ayəyə məxsus deyil, Qurani-kərimin bütün ayələrindəki Əlinin və Əhli-beytin (ə) fəzilətlərinə aid olan yerlərdə eynidir və bu da gizli deyildir. Bu məsələləri biz “Səbilül-möminin” və “Tənzilül-ayat” kitablarımızda qəti və aydın dəlillərlə aydınlaşdırmışıq.

***“Ş”***

# *QIRX ÜÇÜNCÜ MƏKTUB*

4 Məhərrəm 1330

***Ayələrin məfhumunu (siyaq) "vəli" sözünü "mühibb" və buna oxşar sözlərin mənasına dəlalət etdiyini göstərir.***

Allah atana rəhmət eləsin! Şübhənin kökünü və ona təhrik edəni yox etdin! Şübhəni məhv etdin! Həqiqi haqqı aşkar etdin! Bir cəhəti çıxmaq şərti ilə başqa heç nə qalmır. O da bundan ibarətdir ki, deyilir: Ayə kafirlərin hökmranlığı və dostluğunun nəhyi tərzindədir. Yəni o ayələrdəndir ki, müsəlmanlara kafirləri özlərinə vəli və dost tutmağa icazə vermir və şahidi bu ayənin əvvəli və sonrasıdır. Və bu ayədə "vəli" sözündən məqsədin "nəsir", "mühib", yaxud "sədiq" və başqa bu kimi sözlər olması daha uyğundur. Bunun cavabı nədir? Lütfən bəyan edin. Vəssalam.

***"S"***

# *QIRX DÖRDÜNCÜ MƏKTUB*

<u>5</u> <u>Məhərrəm</u> <u>1330</u>

***1. Ayənin məfhumu "nəsir" və ona bənzər sözlərin mənasına dəlalət etmir.***

***2. Ayənin məfhumu dəlillər ilə müxalif ola bilməz.***

1. Cavab: Ayə, göründüyü kimi, özündən əvvəlki ayələrdən (kafirlərin vilayət və dostluğunu inkar edən ayələrdən) fərqli və o ayələrin quruluşundan kənardır. Aşkar. Əmirəl-mömінini mədh edir, çünki bu ayələrdə Əmirəl-mömininin və Əhli-beytin üstünlüklərindən, onun imamət və rəhbərliyə layiq olmasından və qüdrəti qarşısında mürtədləri təhdid etməsindən bəhs edir və onları onun qüdrəti vasitəsi ilə qorxudur. Sübutu da odur ki, bu ayə, bəhs etdiyimiz ayədən əvvəl gəlmişdir: يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ مَن يَرْتَدَّ مِنكُمْ عَن دِينِهِ فَسَوْفَ يَأْتِي اللّهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكَافِرِينَ يُجَاهِدُونَ فِي سَبِيلِ اللّهِ... "Ey iman gətirənlər, sizlərdən kim dinindən dönsə, tezliklə Allah bir qövmü gətirəcək ki, Allah onları sevir, onlar da Allahı sevirlər. (Bu qövm) möminlər qarşısında itaətkar və kafirlər qarşısında güclü və qüvvətlidir. Allah yolunda cihad edirlər və məlamət (acı söz) edənin məlamətindən qorxmurlar. Bu, Allah fəzlidir, onu kimə istəsə verir. Allahın lütfü vüsətli və O, (hər şeyi) biləndir."[1]

Bu ayə "Əmirəl-möminin"ə aiddir və onun və əshabəsinin qüdrəti ilə müxalifləri qorxudur.[2] Belə ki, Əmirəl-möminin (ə) özü "Cəməl" döyüşü günü və imam Baqir və imam Sadiq (ə) bu mətləbə işarə buyurmuşlar. Sələbi öz təfsirində onu söyləmiş və "Məcməül-bəyan" müəllifi onu Əmmardan, Hüzəyfədən və İbn Abbasdan nəql etmişdir. Bu haqda şiələrin fikri eynidir. Pak Əhli-beyt (ə) imamları təriqi ilə bu barədə doğru və mütəvatir xəbərlər çatmışdır.

Buna görə də "vilayət" ayəsi o həzrətin vilayətinə və imamətinin vacibliyinə işarə olunandan sonra (ondan əvvəlki ayədə deyilib) gəlmişdir və vilayət ayəsi əvvəlki ayədə deyilmişlərin və keçmişə işarənin şərhidir. Buna görə də necə demək olar ki, bu ayə kafirlərin vilayəti və dostluğunu qadağan edən ayələrin tərzində gəlmişdir.

2. Bundan əlavə, Allahın rəsulu (s) Əhli-beyt imamlarını Quranın səviyyəsində tutmuş və elan etmişdir ki, bu ikisi bir-birindən ayrılmayacaqlar. Deməli, onlar Quran ilə bərabər səviyyəlidirlər, doğru yolu onların vasitəsilə tanımaq olar. Biz mütəvatir şəkildə gördük ki, onlar bu ayə vasitəsilə o həzrətin xilafət və vilayəti üçün dəlillər gətirirlər və "vəli"nin təfsirini elə müəyyənləşdirmişlər ki, biz də onu dedik. Buna görə də əgər ayənin deyilmə tərzinin

---

[1] "Maidə", 54-cü ayə.

[2] Bu, Peyğəmbərin buyurduğu sözə bənzəyir: "Ey Qüreyş dəstəsi, Allah sizin yanınıza bir nəfəri göndərənə qədər öz işinizdən əl çəkməyəcəksiniz. Allah onun qəlbini iman ilə doldurmuşdur, o sizin boynunuzu vurar, siz də qoyun sürüsü kimi onun qabağından qaçarsınız." Əbu Bəkr boynunu uzatdı ki, o mənəm! Peyğəmbər (s) buyurdu: Yox. Ömər dedi: Mənəm? Buyurdu: Yox, o kəsdir ki, çarığını yamayar. Bu zaman Allahın rəsulunun çarığı Əlinin əlində idi və onu tikirdi." "Sünən" yazanların çoxu bu hədisi nəql etmişlər. Bu hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 393-cü səhifəsinin əvvəlində 610-cu hədisdir. Buna oxşar hədislərdən Peyğəmbərin söylədiyi bu hədisdir: "Sizin aranızda elə adam vardır ki, Quran təvilinə (anlayış, izahat) əsasən mübarizə edər, necə ki, mən Quran tənzilinə əsasən mübarizə etdim. Əbu Bəkr dedi: Mənəm? Buyurdu: Xeyr, o kəsdir ki, hücrədə çarığa yamaq vurur. Əli evdən çıxdı. Peyğəmbərin (yamaq vurduğu) çarığı əlində idi." İmam Əhməd Hənbəl "Müsnəd"də onu Əbu Səddən nəql etmiş. Hakim "Müstədrək"də, Əbu Yəla "Müsnəd"də və bir çox sünnə yazanlar "sünən"də və Müttəqi Hindi onu "Kənzül-Ümmal"ın altıncı cildinin 155-ci səhifəsində nəql etmişdir.

(siyaq) onların “nəss”ləri ilə uyğun olmamasını fərz etsək və təslim olsaq, onun qədr-qiyməti və əhəmiyyəti olmaz.[1] Çünki ümum müsəlmanların “dəlil”i “siyaq”dan (məfhum) üstün tutmaqda fikirləri eynidir. Buna görə də siyaq ilə “dəlil” arasında ixtilaf meydana çıxanda, onlar zahirini nəzərə almır və dəlilin hökmünə tabe olurlar. Buna görə də ayənin o tərzdə nazil olmasına inam yoxdur, çünki ümmətin ümumi fikrinə görə, Quranın mətnləri onların ilə uyğun gəlmir (Quranda çoxlu ayələr vardır ki, onun siyaqı ilə uyğun gəlmir). O cümlədən “təthir” ayəsi “Nisa” (qadınlar) surəsində onlara aid olan ayələrin siyaqında gəlmişdir. Lakin onun beş nəfər “Kəsa” (örtük) əhlinə aid olması haqqında doğru və mötəbər nəssi vardır. Xülasə, ayənin siyaqa müxalif olması onun ecazkarlığına və bəlağətinə zərər gətirmir. Kəskin və qəti bir dəlil olan təqdirdə siyaqın əleyhinə getməyin eybi yoxdur.

***“Ş”***

[1] Nəssin əleyhinə getdikdə, zahirin nə qiyməti ola bilər?

# *QIRX BEŞİNCİ MƏKTUB*

6 Məhərrəm 1330

***Keçmişdəkilərin əməllərinin doğru olmasına inam üçün təfsir məcburiyyətində.***

1. Əgər “raşidin” xəlifələrinin (yəni əvvəlki dörd xəlifə) xilafətinin doğruluğu qəti olmasaydı, sizin fikir və əqidənizi qəbul etməkdən, bu ayəni və onun kimiləri sizin hökmünüzə əsasən başa düşməkdən savayı yolumuz yox idi. Amma onların xilafətinə şübhə üçün heç bir əsas yoxdur. Buna görə də onların və onlara beyət edənlərin işlərinin doğruluğuna qail olmaq (inanmaq, demək) üçün çarəsizlikdən “təvil”ə pənah aparmaq lazımdır.

***“S”***

# *QIRX ALTINCI MƏKTUB*

6 Məhərrəm 1330

***1. Keçmişdəkilərin əməllərinin doğru olmasına inam üçün “təvil” lazım deyildir.***

***2. “Təvil” mümkün deyildir.***

Üç xəlifənin xilafətilə bağlı burada bəhsimizi əsaslı müzakirə edə bilərik və buna görə də ondan bir dəlil kimi istifadə etmək olmaz. Ətrafında bəhs olunan bir mövzunu dəlil kimi başqa dəlillərin qarşısında gətirmək düz deyil, çünki elə onun özünün doğru olub-olmaması dəlillə sübuta yetməlidir.

1. Bundan əlavə, onların və onlara beyət edənlərin işini yozmaq üçün elə də deyil ki, mütləq dəlillərdə təvil aparılsın, necə ki, ittiham üçün əlinizdə başqa imkan vardır. Əgər bu barədə danışmaq lazım gələrsə, onu aydınlaşdıracağıq.

2. O ki qaldı (“qədir nəssi” və “vəsiyyət nəssləri” kimi) yazdığım və yazmadıqlarımı təvil və yozmağa ki, qeyri-mümkündür. Xüsusilə, bu “nəss”lər özləri ayrı-ayrılıqda mötəbər sayılan neçə sənəd və təriqlə təsdiq olunurlar. Bunlara insaf gözü ilə baxanlar, həqiqət üçün kəskin və aydın dəlil olduğunu görərlər. Vəssalam.

***“Ş”***

# *QIRX YEDDİNCİ MƏKTUB*

<u>7</u> <u>Məhərrəm</u> <u>1330</u>

***Təsdiqedici “nəss”lərin tələbi.***

Ey kaş, bizi o təsdiqedici “nəss”lərdən agah edəydin, nə üçün onları qeyd etməmisən? Vəssalam.

***“S”***

# *QIRX SƏKKİZİNCİ MƏKTUB*

<u>8</u> <u>Məhərrəm</u> <u>1330</u>

***1. Sübut üçün qırx hədis.***

Sübut üçün sizə qırx hədis kifayət edər:

1. Peyğəmbər (s) əlini Əlinin (ə) çiynınə qoyub uca səslə dedi: «هذا اِمامُ الْبَرَرَةِ قاتِلُ الْفَجَرَةِ مَنْصُورٌ مَنْ نَصَرَهُ مَخْذُولٌ مَنْ خَذَلَهُ» "Bu yaxşıların imamı, pislərin və yolunu azmışların qatilidir. Elə bir şəxsdir ki, ona kömək edən qalib, alçaltmaq istəyən isə alçaldılacaqdır."

Bu hədisi Hakim "Müstədrək"in 3-cü cildinin 129-cu səhifəsində Cabirdən nəql etmiş[1] və sonra demişdir: "Bu hədisin sənədi doğrudur. Amma Buxari və Müslim onu nəql etməmişdir."

2. Peyğəmbər buyurdu: "Əli haqqında üç şey vəhy olmuşdur: «اِنَّهُ سَيِّدُ الْمُسْلِمِينَ وَ امامُ الْمُتَّقِينَ وَ قائِدُ الْغُرِّ الْمُحَجَّلينَ» "O müsəlmanların ağası, təqvalıların imamı, alnı açıqların və nurluların yolgöstərəni və rəhbəridir." Hakim "Müstədrək"in[2] 3-cü cüzünün 138-ci səhifəsinin əvvəlində bu haqda yazmış və demişdir: "Bu hədisin sənədləri düzgündür, amma Buxari və Müslim o haqda yazmamışlar."

3. Peyğəmbər (s) buyurdu: "Mənə vəhy gəlmişdir ki, Əli müsəlmanların seyyidi, təqvalıların vəlisi, alnı açıqların və nurluların rəhbəridir." İbn Nəccar və başqa "sünən" yazanlar onu nəql etmişlər.

4. Peyğəmbər (s) Əliyə buyurur: «مَرْحَباً بِسَيِّدِ الْمُسلِمينَ وَ امامِ الْمُتَّقِينَ» "Müsəlmanların seyyidinə, mənim və təqvalıların imamına mərhəba." Əbu Nəim "Hilyətül-Övliya"da[3] onu nəql etmişdir.

5. Peyğəmbər (s) buyurdu: "Bu qapıdan daxil olan ilk şəxs pəhrizkarların imamı, müsəlmanların seyyidi, dinin başçısı, xatəmül-vəsiyyin, nurlu üzlülərin rəhbəridir. Əli daxil oldu.Onun haqqında müjdə verən Peyğəmbər (s) ayağa durdu, onu qucaqladı, alnının tərini sildi və buyurdu: Sən mənim borcumu əda edən, mənim səsimi insanlara çatdıran, ixtilaflarını bəyan edənsən."[4]

6. Peyğəmbər (s) buyurdu: "Allah mənə belə tövsiyə etdi ki, Əli hidayət bayrağı, dostlarımın imamı, mənə itaət edənlərin nurudur. O elə bir "sözdür" ki, təqvalılar ona əməl etməlidir."[5] Mülahizə edirsinizmi? Bu altı hədis onun imaməti və ona itaətin vacibliyi haqqındadır. Ona (ə) salam olsun.

---

[1] Bu "Kənzül-Ümmal"ın 6-cı cildinin 153-cü səhifəsindəki 2527-ci hədisdir və Sələbi onu Əbuzərdən öz "Təfsiri-Kəbir"ində və "vilayət" ayəsinin təfsirində nəql etmişdir.

[2] Barudi, İbn Qane, Əbu Nəim, Bəzzar onu nəql etmişlər ki, "Kənzül-Ümmal"ın 6-cı cildinin 157-ci səhifəsindəki 2628-ci hədisdir.

[3] Bu həmin 11-ci xəbərdir ki, İbn Əbil-Hədid "Nəhcül-bəlağənin şərhi"nin 2-ci cildinin 40-cı səhifəsində vermiş və "Kənzül-Ümmal"ın 6-cı cildinin 157-ci səhifəsindəki 2627-ci hədisdir.

[4] Əbu Nəim "Hilyətül-Övliya" kitabında onu Ənəsdən nəql etmiş və İbn Əbil-Hədid "Nəhcül-bəlağənin şərhi"nin 2-ci cildinin 450-ci səhifəsində müfəssəl şəkildə vermişdir. O səhifənin 9-cu xəbərinə müraciət et.

[5] Əbu Nəim "Hilyətül-Övliya"da Əbu Bərzə Əsləmi və Ənəsdən nəql etmiş, İbn Əbil-Hədid "Nəhcül-bəlağənin şərhi"nin 2-ci cildinin 449-cu səhifəsində onu vermişdir. Həmin səhifənin 3-cü xəbərinə bax.

7. Peyğəmbər (s) əli ilə Əlini göstərərək buyurdu: “Bu mənə iman gətirmiş ilk şəxsdir və birinci adamdır ki, qiyamətdə mənimlə görüşəcəkdir. Bu, böyük vəfadar və ümmətin faruqudur – haqqı batildən ayırır və möminlərin başçısıdır.”[1]

8. Peyğəmbər (s) buyurdu: “Ey Ənsar əhli, istəyirsinizmi sizə elə bir şəxsi göstərəm ki, ona arxalanıb, heç vaxt yolunuzu azmayasınız? O, Əlidir. Məni sevdiyiniz qədər onu sevin, mənə etdiyiniz hörmət qədər ona ikram və hörmət edin. (Çünki) sizə dediklərimi Cəbrail Allah tərəfindən mənə əmr edib.”[2]

9. Peyğəmbər (s) buyurdu:
«اَنَا مدينَةُ الْعِلمِ وَ عَليٌّ بابُها فَمَنْ اَرادَ الْمَدينَةَ فَلْيَئْتِ الْبابَ» “Mən elmin şəhəri, Əli isə o şəhərin qapısıdır. Elm istəyən onun qapısından keçməlidir.”[3]

10. Peyğəmbər (s) buyurdu: «اَنَا دارُ الْحِكْمَةِ وَ عَليٌّ بابُها» “Mən hikmət eviyəm və Əli onun qapısıdır.”[4]

11. Peyğəmbər (s) buyurdu: “Əli mənim elmimin qapısı və mənim məmur olduğum hər bir şeyi (özümdən sonra) ümmətimə bəyan edəndir. Onu sevmək iman, sevməmək isə nifaqdır.”[5]

12. Peyğəmbər (s) Əliyə buyurdu: “Sən, məndən sonra ümmətimə ixtilaflı olan hər bir şeyi bəyan edəcəksən.”

Hakim “Müstədrək”in 3-cü cildinin 122-ci səhifəsində onu Ənəsdən nəql etmiş,[6] sonra demişdir: “Bu, Müslim və Buxarinin nəzərincə qəbul olunduğundan doğru hədisdir. Amma onu nəql etməmişlər.”

Mən deyirəm: Bu və bu kimi başqa hədislər haqqında fikirləşən şəxs başa düşər ki, Əlinin Peyğəmbərə (s) olan nisbəti, Peyğəmbərin (s) Allaha olan nisbəti (Quranı bəyan etməkdə)

---

[1] Təbərani onu “Kəbir”də Salman və Əbuzərdən nəql edib və Beyhəqi “Sünən”də və İbn Ədiy “Kamil”də Hüzeyfədən vermişdir ki, “Kənzül-Ümmal”ın 6-cı cildinin 156-cı səhifəsindəki 2607-ci hədisdir.

[2] Təbərani onu “Kəbir”də nəql etmiş və bu, “Kənzül-Ümmal”ın 6-cı cildinin 157-ci səhifəsindəki 2625-ci hədis və İbn Əbil-Hədidin “Nəhcül-bəlağənin şərhi”nin 2-ci cildi, 450-ci səhifəsindəki 10-cu xəbərdir. Gör, hidayəti necə də Əliyə arxalanma ilə şərtləndirir ki, hər bir insanın yolunu azması ona arxalanmamaqdır. Bil ki, onu (Peyğəmbəri) sevdikləri və onu qiymətləndirdikləri qədər gərək Əlini də sevsinlər, onu qiymətləndirsinlər. Bu məgər ondan (Peyğəmbər (s)) sonra, onun (Əli (ə)) vəliəhd və sahibi-əmr olması deyilmi? “Cəbrayıl mənə bu əmri Allah tərəfindən əmr etmiş” – cümləsi üzərində düşünsəniz, həqiqət sizə məlum olar.

[3] Təbərani “Kəbir”də İbn Abbasdan nəql etmişdir. Necə ki, Süyuti “Cameüs-Səğir”in 107-ci səhifəsində və Hakim onu özünün “Səhih”inin 3-cü cildinin 226-cı səhifəsində “Əlinin Mənaqibi”ndə və “Müstədrək”də iki düzgün təriqlə vermişdir. Onlardan biri İbn Abbasdan iki düzgün təriqlə, digəri Cabir ibn Abdullah Ənsari təriqiylə və qəti dəlil olaraq göstərmişdir. Qahirə sakini imam Əhməd ibn Məhəmməd ibn Siddiq Məğribi bu hədisin təshihinə bir kitab yazmış və onun adını «فتح الملك العلي بصحة باب مدينة العلم علي» qoymuşdur. Bu kitab 1354-cü ildə Misirin “İslamiyyə” çapxanasında nəşr olunmuşdur. Buna əsasən, bəhs edənlərin ondan xəbərdar olmaları lazımdır. Çünki ondan bir çox faydalar ələ gəlir ki, şəhər və kəndlərdə xalqın dilində geniş yayılmış və bir zərbül-məsəl kimi olan bu hədisin haqqında nasibilərin sözünə bundan sonra məhəl qoyulmayacaqdır. Biz onların bu hədisə olan iradına nəzər yetirdik, onu tam boş bir söz hesab etdik. Çünki ona dəlil göstərməmiş və bu isə utanmaz təəssübkeşlikdən başqa bir şey deyildir. Necə ki, Hafiz Səlahəddin Əlai onu bəyan etmiş, nasibilərin sözünün yalan olması haqda Zəhəbi və başqalarının nəzərlərini nəql etmiş və demişdir: “Onlar bu hədisə saxta sözünü deməkdən başqa bir dəlil göstərməmişlər.

[4] Tirmizi (“Səhih”də) və İbn Cərir onu nəql etmişlər. Müttəqi Hindi “Kənzül-Ümmal”ın 6-cı cildinin 401-ci səhifəsində bir məlumat vermiş və demişdir: “İbn Cərir deyir: Bu xəbərin sənədi mənim fikrimcə düzgündür...” Cəlaləddin Süyuti “Cameül-Cəvame” və “Cameüs-Səğir” kitabının həmzə hərfində bunu Tirmizidən nəql etmişdir. “Cameüs-Səğir” kitabının 1-ci cildinin 170-ci səhifəsinə bax.

[5] Deyləmi Əbuzərdən (“Kənzül-Ümmal”ın 6-cı cildinin 156-cı səhifəsində verdiyi kimi) nəql etmişdir.

[6] Deyləmi onu Ənəsdən (həmin mənbədə olduğu kimi) nəql etmişdir.

kimidir. Çünki, Allah Peyğəmbərinə buyurur: “Biz, (bu Quranı) məgər ona görə sizə nazil etmədik ki, onlara (ixtilafda olduqları şeyləri) bəyan edəsiniz? Bu Quran, iman sahibləri üçün hidayət və rəhmətdir.”[1] Allahın rəsulu (s) da Əliyə (ə) deyir: “Sən məndən sonra mənim ümmətimə ixtilaflarda olduqları şeyləri bəyan edəcəksən.”

13. İbn Səmmak Peyğəmbərin (s) sözünü Əbu Bəkrdən “mərfu” şəkildə nəql etmişdir: «عَلِيٌّ مِنِّي بِمَنْزِلَتِي مِنْ رَبِّي» “Əli (ə) ilə mənim nisbətim, mənim Allahla olan nisbətim kimidir”[2]

14. Darü-Qütni “Əl-ifrad” kitabında İbn Abbasdan Allahın rəsulunun (s) sözünü məfru şəkildə nəql etmişdir: “Əli ibn Əbu Talib “Hittə qapısı”dır, bu qapıdan girən mömin, çıxan kafirdir.”[3]

15. Peyğəmbər (s) Ərəfatda “həccətül-vida”da buyurdu: “Əli məndəndir və mən Əlidənəm. Mən və Əlidən başqa heç kəs (Allahın əmrini) çatdırmır.”[4]

Bu söz həm güclü, həm ərşin sahibinin yanında xüsusi mövqeyi olan kərim bir rəsulundur ki, onun (sözünün) yerinə yetirilməsi vacib və (onun özü isə) etibarlıdır. Sizin peyğəmbəriniz məcnun deyildir. O, həva-həvəs üzündən söz danışmır. Dediyi yalnız ona vəhy olunmuş göstərişdir. Buna görə hara gedir və bu səhih xəbərlər haqqında nə deyirsiniz? Bu səhih “nüsus” (“nəss”lər, rəvayətlər) haqqında nə sözünüz var? Siz bu əhd və vəzifə (hansı ki, onun təbliği Əliyə həvalə edilmişdir) ətrafında bir qədər fikirləşsəniz və onun hamının qarşısında “həccətül-kəbir”də elan olunmasının hikmətinə yaxşı diqqət etsəniz, həqiqət ən aydın şəkildə sizə aşkar olar.

Əgər onun sözlərinə nəzər yetirsən, necə qısa və yığcam, amma mənaca necə dərin və aydın olandan sonra, onu çox böyük hesab edərsən. Çünki o, bütün mətləbləri cəmləmiş, xüsusi bir peymanəyə tökmüş, hərtərəfli nəzərdən keçirmiş, dərindən tədqiq etmiş, sonra görmüşdür ki, onun ləyaqətlə əda olunması Əlidən başqa heç kəs üçün heç cür mümkün deyil və buna heç bir şübhə yoxdur. Belə ki, vəsidən başqa Peyğəmbərin bu vəzifəsini heç bir kəs yerinə yetirməyi bacarmaz, xəlifə və vəlisindən başqa heç kəs onun yerində otura bilməz.

Həmd və sitayiş yalnız Allaha məxsusdur ki, bizi hidayət edir. Əgər Allah bizi hidayət etməsəydi, heç vaxt hidayət olmazdıq.

---

[1] “Nəhl” surəsi, 64-cü ayə.

[2] İbn Həcər bunu “Səvaiq”in 11-ci babında verdiyi ayələrin 14-cü ayəsinin məqsədlərindən 5-ci məqsəddə nəql etmişdir. Onun 106-cı səhifəsinə baxın.

[3] “Kənzül-Ümmal”ın 6-cı cildinin 153-cü səhifəsindəki 2528-ci hədisdir.

[4] İbn Macə özünün “Sünən”ində “fəzaili-səhabə” babının 92-ci səhifəsində və Tirmizi və Nisai öz “Səhih”lərində onu nəql etmişlər və bu, “Kənzül-Ümmal”ın 3-cü cildinin 153-cü səhifəsindəki həmin 2531-ci hədisdir. İmam Əhməd onu Həbəşi ibn Cənadədən “Müsnəd”inin 4-cü cildinin 164-cü səhifəsində hamısı düzgün olan çoxlu təriqlərlə nəql etmişdir. Bunu da bilməyimiz kifayətdir ki, o Yəhya ibn Adəm, İsrail ibn Yunisdən, babası Əbu İshaq Səbiidən və Səbii Həbəşidən onu nəql etmişdir və bunların hamısı Buxari və Müslimin fikrincə doğru və öz “Səhih”ində onları təsdiq etmişlər. “Müsnəd”ə bu hədislə bağlı müraciət edən şəxs xəbərdar olar ki, bu hədis “həccətül-vida”da verilmişdir, belə ki, ondan bir az sonra Peyğəmbər (s) bundan əvvəl “Bəraət” (Tövbə) surəsinin ayələrindən Əbu Bəkrə vermişdir ki, Məkkə əhlinə oxusun. Sonra Əhmədin “Müsnəd”inin 1-ci cildinin 151-ci səhifəsində göstərdiyi kimi, Əlini çağırdı və ona buyurdu ki, Əbu Bəkrə çat və onu harada tapsan, məktubu ondan al, özün Məkkəyə get və onlara oxu. Əli, Cöhfədə ona çatdı və məktubu ondan aldı. (Əhməd deyir:) Əbu Bəkr Peyğəmbərin yanına qayıtdı və ərz etdi: Mənim barəmdə bir şeymi nazil olub? Buyurdu: Yox. Cəbrail nazil olub dedi ki, bu vəzifəni ya özün və ya özündən olan bir şəxs yerinə yetirməlidir.” Əhmədin “Müsnəd”in 1-ci cildinin 150-ci səhifəsindəki başqa bir hədisdə nəql etdiyi isə belədir: “Peyğəmbər onu “Bəraət” surəsini oxumağa göndərəndə buyurdu: Ya mən, ya sən onu aparıb Məkkə əhlinə oxumalısan. Əli ərz etdi: Əgər belədirsə, mən gedərəm. Peyğəmbər (s) buyurdu: Get, Allah dilinə qüvvət verər, ürəyinə hidayət.”

16. Allahın rəsulu(s) buyurub: “Mənə kim itaət etsə, Allaha itaət edər. Mənə qarşı üsyan edən Allaha qarşı üsyan və itaətsizlik etmişdir. Əliyə itaət edən mənə itaət etmiş və ona itaətsizlik edən mənə itaətsizlik etmişdir. Hakim “Müstədrək”in 3-cü cildinin 121-ci səhifəsində onu nəql etmiş və Zəhəbi “Təlxis”in həmin səhifəsində onu vermiş və aydınlaşdırmışdır ki, xəbərin qəbulu şərtinə əsasən, Buxari və Müslimin fikrincə bu hədis düzgündür.

17. Peyğəmbər (s) buyurub: “Ey Əli, məndən ayrılan kəs Allahdan ayrılmış və səndən uzaqlaşan kəs məndən uzaqlaşmışdır.” Hakim onu özünün “Səhih”inin 3-cü cildinin 124-cü səhifəsində nəql etmiş və demişdir: “Onun sənədləri düzgündür.” Amma Buxari və Müslim onu nəql etməmişlər.

18. Ümmü-Sələmənin hədisində Allahın rəsulu (s) buyurmuşdur: “Əlini təhqir edən və onu söyən məni təhqir etmişdir.” Hakim “Müstədrək”in 3-cü cildinin 121-ci səhifəsinin əvvəlində onu nəql etmiş, Buxari və Müslimin şərtinə əsasən, rəvayətin qəbulunu düzgün saymışdır. Zəhəbi də “Təlxisdə” onu zikr etmiş, onun düzgünlüyünü bəyan etmişdir. Əhməd də “Müsnəd”in 6-cı cildinin 323-cü səhifəsində Ümmü-Sələmədən, Nisai “Xəsaisül-Ələviyyə”nin 17-ci səhifəsində və bir qrup məxəzşünaslar onu zikr etmişlər. Peyğəmbər (s) demişdir ( Əmr ibn Şaşın[1] hədisinə əsasən): “ Əliyə əziyyət edən, mənə əziyyət etmişdir.” Hakim onu zikr etmiş, Buxari və Müslimin şərtinə əsasən, düzgün bilmişdir. O, bu hədisi “Müstədrək”in 3-cü cildinin 130-cu səhifəsində vermişdir. Zəhəbi də “Təlxisi-Müstədrək”də onu zikr etmiş, onların şərtinə əsasən düzgün saymışdır. Əlinin (ə) sözü belədir: “Toxumu yarana və insanın ruhunu yaradana and olsun ki, bu “ümmi” (yazıb-oxumaq bilməyən) Peyğəmbərdən (s) olan əhd və peymandır ki, mömindən başqası məni sevməz, münafiqdən başqası mənə düşmən çıxmaz.”[2]

20. Peyğəmbər (s) Əliyə buyurub: «يا عَلِيُّ اَنْتَ سَيّدٌ فِي الدُّنْيا سَيّدٌ فِي الآخِرَةِ حَبيبُكَ حَبيبي وحَبيبي حَبيبُ اللهِ وَ عَدُوُّكَ عَدُوّي وَ عَدُوّي عَدُوّ اللهِ وَ الْوَيْلُ لِمَنْ اَبْغَضَكَ بَعْدي» “Ey Əli, sən dünya və axirətdə ağasan, sənin dostun mənim dostum və mənim dostum Allahın dostudur, sənin düşmənin mənim düşmənim və mənim düşmənim Allahın düşmənidir. Vay o adama ki, məndən sonra səninlə düşmənçilik edə!” Hakim “Müstədrək”in 3-cü cildinin 128-ci səhifəsinin əvvəlində onu nəql etmiş və Buxari və Müslimin şərtinə əsasən, xəbərin qəbulunda onu düzgün bilmişdir.[3]

---

[1] Əmr ibn Şaşın hədisi 36-cı məktubun mənbəsində keçdi.

[2] Müslim “Səhih”in 1-ci cildinin “imam” kitabının 46-cı səhifəsində verdiyi və İbn Əbdül-Birr onun məzmununu Əlinin şərhi-halında (“İstiab”da) bir qrup səhabədən nəql etdiyi kimi. 36-cı məktubda Bureydənin hədisini nəql etdik, ora baxın. Peyğəmbərin bu sözü dəfələrlə təsdiq olunmuşdur: «اللهم وال من والاه و عاد من عاداه». “Əl-fətavəl-Hamidiyyə”nin müəllifi özünün «الصلاة الفاخرة في الاحاديث المتواترة» kitabında onu etiraf etdiyi kimi.

[3] Onu Əbül-Əzhər, Əbdür-Rəzzaqdan, o da Müəmmərdən, o da Zöhridən, o da Übeydullah ibn Abdullah İbn Abbasdan nəql etmişdir. Bu fərdlərin hamısı qəbul olunan höccətlərdir. Çünki Hakim bu hədisi nəql edəndən sonra demişdir: “Buxari və Müslimin şərtinə əsasən bu hədis düzdür.” Sonra əlavə etmişdir ki, Əbül-Əzhər alimlərin hamısından etibarlıdır. Sonra demiş: “Eşitdim, Əbu Abdullah Qüreyşi Əhməd ibn Yəhya Həlvaidən belə eşitdiyini deyirdi: Əbül-Əzhər, Sənandan qayıdanda və bu hədisi Bağdad əhlinə danışanda Yəhya ibn Müin onu qəbul etmədi və “belə deyildir” – dedi. Sonra məclisin sonunda soruşdu: Bu hədisi Əbdür-Rəzzaqdan nəql edən o yalançı Nişaburi haradadır? Əbül-Əzhər ayağa qalxdı və dedi: Buradadır, mənəm. Yəhya ibn Müin onun sözü və ayağa qalxmasına güldü və yanına çağırıb soruşdu: Əbdür-Rəzzaq bu hədisi necə oldu ki, yalnız sənə dedi, başqasına yox? Əbül-Əzhər dedi: Ey Əbu Zəkəriyya, mən Sənana daxil olduğum vaxt, Əbdür-Rəzzaq yox idi. Olduğu uzaq kəndə getdim, halbuki xəstə idim. Ora çatdıqda məndən Xorasanın vəziyyətini soruşdu. Mən də ona danışdım. Ondan hədisləri qeydə aldım və birlikdə Sənana qayıtdıq. Onunla vidalaşmaq istəyəndə dedi: Sənin mənim boynumda haqqın var, mən səndən başqa heç

21. Peyğəmbər (s) buyurub: “Ey Əli, xoş o adamın halına ki, səni sevir və sənin haqqında doğru danışır və vay o şəxsin halına ki, sənin düşmənin ola və sənin haqqında yalan danışa!”

Hakim “Müstədrək”in 3-cü cüzünün 135-ci səhifəsində onu vermiş və sonra demişdir: Bu hədis sənəd baxımından düzgündür. Amma Buxari və Müslim onu verməmişdir.

22. Peyğəmbər (s) buyurdu: «مَنْ اَرادَ اَنْ يَحْيي حَياتي وَ يَمُوتَ مَيْتَتي وَ يَسْكُنَ جَنَّةَ الْخُلْدِ الَّتي وَعَدَني رَبّي فَلْيَتَوَلَّ عَلِيَّ بْنَ اَبيطالِبٍ فَاِنَّه لَن يُخْرِجَكُمْ مِن هُدَي وَ لَن يُدخِلَكم فِي ضَلالَة» “Kim həyatının mənim həyatım, ölümünün mənim ölümüm kimi olmasını və Allahın mənə vəd etdiyi əbədi behişt sakini olmasını istəyirsə, gərək Əli ibn Əbu Talibin vilayətini qəbul etsin. Çünki, o heç vaxt sizi doğru yoldan çıxarmaz, yolunuzu azmağa qoymaz.”[1]

23. Peyğəmbər (s) buyurur: “Mənə iman gətirən və məni təsdiq edən şəxsə Əli ibn Əbu Talibin vilayətini sifariş və tövsiyə edirəm. Beləliklə, onun vilayətini qəbul edən, mənim vilayətimi qəbul etmiş və mənim vilayətimi qəbul edən Allahın vilayətini qəbul etmişdir. Onu sevən məni sevmiş, məni sevən Allahı sevmişdir, ona düşmənçilik edən, kinini ürəyinə salan şəxs, Allahın düşmənçiliyinə ürəyində yer vermişdir.”[2]

24. Peyğəmbər (s) buyurdu: “Həyatının mənim həyatım və ölümünün mənim ölümüm kimi və cənnət bağlarında sakin olmasını istəyən şəxs məndən sonra Əlinin vilayətini qəbul edib məndən sonra Əhli-beytimə iqtida etməlidir. Onlar mənim ailəmdir, mənim “tinət”imdən yaranmış, mənim dərrakəm və biliyimi Allah onlara vermişdir. Ümmətimdən onların ağıl və üstünlüklərini təkzib edən, mənim onlarla bağlılığımı qıran adamların vay halına! Allahın şəfaəti onlara çatmayacaq.”

25. Peyğəmbər (s) buyurdu: “Həyatını mənim həyatım, ölümünü mənim ölümüm kimi və behiştə daxil olmağı istəyən şəxs məndən sonra Əlinin və onun övlarının vilayətini qəbul etməlidir. Onlar sizi hidayət qapısından xaric etməz və azdırmazlar.”[3]

26. Peyğəmbər (s) Əmmara buyurdu: “Ey Əmmar, əgər Əlinin bir yol, camaatın isə başqa bir yolla getdiyini görsən, Əli ilə get. O, səni alçaqlığa dəvət etməz, hidayət yolundan çıxartmaz.”[4]

27. Əbu Bəkrin hədisində deyilmişdir ki, Peyğəmbər (s) buyurdu: “Mənim ovcum və Əlinin ovcu ədalətlə bərabərdir.”[5]

28. Peyğəmbər (s) Fatiməyə (ə) buyurdu: “Bu peyvəndə və ona həyat yoldaşı olmağa razı deyilsənmi? Allah yer əhlinə nəzər saldı və iki nəfəri seçdi, biri atan, o birisi həyat yoldaşın.”[1]

---

kəsin eşitmədiyi bir hədisi sənə danışaram. Sonra Allaha and olsun ki, bu hədisi mənə eynilə danışdı. Yəhya ibn Müin onu təsdiq etdi və ondan üzr istədi.”

Zəhəbi “Təlxis”də onu danışanların “vəsaqət”ini (düzgünlüyünü) ümumi, Əbül-Əzhərin vəsaqətini isə xüsusi şəkildə aydınlaşdırmışdır. Amma bununla belə hədisin düzgünlüyünə şəkk etmiş, onun əleyhinə boş sözlərdən başqa bir dəlil gətirməmişdir. Amma Əbdür-Rəzzaqın susması zülmkarların qorxusundan idi. Belə ki, Səid ibn Cübeyr də Malik ibn Dünyadan Allahın rəsulunun bayraqdarı barəsində soruşanda həmin qorxunu hiss edirdi. Malikə xüsusi baxışla nəzər yetirib dedi: Sən deyəsən, arxayın adamsan ki, belə suallar verirsən. Malik hirslənib, qardaşlarına şikayət etdi. Onlar üzr istəyib dedilər: O, Həccacdan (zalım vali) qorxub demir ki, Allahın rəsulunun bayraqdarı Əli ibn Əbu Talib idi.”

Hakim onu “Müstədrək”in 3-cü cildinin 137-ci səhifəsində nəql etmiş, sonra demişdir: “Bu hədisin əsnadı (sənədləri) düzgündür.” Amma Buxari və Müslim onu verməmişlər.

[1] Bu hədis 10-cu məktubda verilmişdir.

[2] Bu hədisi də 10-cu məktubda verdik. Onun və əvvəlki hədis haqqında oradakı izahata baxın.

[3] Bu hədis və əvvəlki hədis haqqında 10-cu məktubda verdiyimiz izahata baxın.

[4] Deyləmi Əmmar və Əbu Əyyubdan onu nəql etmiş, necə ki, “Kənzül-Ümmal”ın 6-cı cildinin 156-cı səhifəsinin əvvəlində verilmişdir.

[5] Bu, “Kənzül-Ümmal”ın 6-cı cildinin 156-cı səhifəsində verilən 2539-cu hədisdir.

29. Peyğəmbər (s) buyurdu: «اَنَا الْمُنْذِرُ وَ عَلِيٌّ الْهادِي وَ بِكَ يا عَلِيُّ يُهتَدي الْمُهْتَدونَ مِنْ بَعْدي» “Mən (Allahın əzabından) qorxudanam, Əli isə hidayət edəndir. Ey Əli, məndən sonra hər kəs hidayət olsa, sənin vasitənlə hidayət olar.”[2]

30. Peyğəmbər (s) buyurmuşdur: «يا عَلِيُّ لا يَحِلُّ لِاَحدٍ اَنْ يَجنُبَ فِي الْمَسْجِدَ غَيْرِي وَ غَيْرُكَ» “Ey Əli, mən və səndən başqa məsciddə cünub olmaq heç kəsə halal deyildir.”[3]

Bu hədisə oxşar hədisi Təbərani Ümmü-Sələmədən, Bəzzar Səddən, (o da) Peyğəmbər dən (s) nəql etmişdir: “Məsciddə cünub olmaq mən və Əlidən başqa heç kəsə halal deyildir.”

31. Peyğəmbər (s) buyurmuşdur: «اَنَا وَ هذا يَعْني عَلِيّاً حُجَّةٌ عَلي اُمَّتي يَومَ الْقِيامَة» “Mən və bu (Əli), qiyamət günü ümmətimə höccətik.” Xətib, Ənəsdən onu nəql etmişdir.[4] Doğrusu, Əbül-Həsən (Əli) Peyğəmbərdən (s) sonra onun vəliəhdi və əmr sahibi olmasa idi, necə höccət ola bilərdi?

32. Peyğəmbər (s) buyurdu: “Behişt qapısının üstündə yazılmışdır: «لا اِلهَ اِلاّ اللهُ مُحَمَّدٌ رَسُولُ اللهِ عَلِيٌّ اَخُو رَسُولِ اللهِ» “Tək olan Allahdan başqa məbud yoxdur. Məhəmməd Allahın rəsulu və Əli onun qardaşıdır.”[5]

33. Peyğəmbər (s) buyurdu: “Ərşin üzərində yazılmışdır: “Tək olan Allahdan başqa məbud yoxdur. Məhəmməd onun rəsuludur. Ona (s) Əlini arxa və köməkçi etdim.”[6]

34. Allahın rəsulu (s) buyurur: “Nuhun əzmini, Adəmin elmini, İbrahimin helmini, Musanın zirəkliyini, İsanın zöhdünü görmək istəyən şəxs Əli ibn Əbu Talibə nəzər yetirsin.” Beynəqi özünün “Səhih”ində və imam Əhməd Hənbəl “Müsnəd”ində onu nəql etmişdir.”[7]

35. Allahın rəsulu (s) Əliyə (ə) buyurdu: “Ey Əli, səndə İsadan bir nişanə var. (O da budur) yəhudilər onunla o dərəcədə düşmən oldular ki, anasını müttəhim etdilər. Xristianlar ona o qədər məhəbbət bəslədilər ki, malik olmadığı mənzilət və məqamı (Allah məqamını) ona nisbət verdilər.”[8]

---

[1] Hakim “Müstədrək”in 3-cü cildinin 129-cu səhifəsində onu vermiş, çoxlu “sünən” yazanlar onu nəql etmiş və düzgün bilmişlər.

[2] Deyləmi İbn Abbasdan onu nəql etmişdir ki, “Kənzül-Ümmal”ın 6-cı cildinin 157-ci səhifəsindəki 2631-ci hədisdir.

[3] 34-cü məktubda onun izahında yazdığımıza bax və orada haqqında zikr etdiyimiz hədislərə diqqət et.

[4] “Kənzül-Ümmal”ın 6-cı cildinin 157-ci səhifəsinin həmin 2632-ci hədisidir.

[5] Təbərani onu “Əl-övsət”də, Xətib “Əl-müttəfəq vəl-müftərəq”də nəql etmişdir. Necə ki, “Kənzül-Ümmal”ın 6-cı cildinin 159-cu səhifəsinin əvvəlində verilmişdir ki, 34-cü məktubda göstərdik və tədqiqatçılara faydalı olan məsələləri xatırlatdıq.

[6] Təbərani “Əl-Kəbir”də və İbn Əsakir Əbil-Həmradan “məruf” şəkildə nəql etmişdir. “Kənzül-Ümmal”ın 6-cı cildinin 157-ci səhifəsində də verildiyi kimi.

[7] İbn Əbil-Hədid bu xəbəri hər ikisindən nəql etmişdir ki, “Nəhcül-bəlağənin şərhi”, 2-ci cildinin 449-cu səhifəsindəki xəbərlərdən 4-cü xəbərdir. İmam Razi “mübahilə” ayəsinin mənasında özünün “Təfsiri-Kəbir”inin 2-ci cildinin 228-ci səhifəsində onu vermiş, onu müvafiq və müxalif nöqteyi-nəzərindən müsəlləm (düzgün) hədis hesab etmişdir. Bu hədisi İbn Bittə İbn Abbasdan nəql etmişdir. Necə ki, Qahirə sakini Əhməd ibn Siddiq Həsəni Məğribinin «فتح الملك العلي في صحة حديث باب مدينة العلم عليّ» kitabının 34-cü səhifəsində verilmişdir. “Əli bütün peyğəmbərlərin sirlərini özündə cəmləyəndir” – fikrini etiraf edənlərdən olan ariflər şeyxi Mühyiddin Ərəbidən nəql edibdir. Necə ki, arif Şərani “Əl-yəvaqit vəl-Cəvahir” kitabının 32-ci bəhsinin 172-ci səhifəsində ondan nəql etmişdir.

[8] Hakim “Müstədrək”in 3-cü cildinin 122-ci səhifəsində onu vermişdir.

36. Peyğəmbər (s) buyurdu: «اَلسُّبَّق ثَلاثَةٌ اَلسّابقُ اِلي يُوشَعَ بَنِ نُون وَ السّابِقُ اِلي عيسَي صاحِبُ ياسينَ وَ السّابِقُ اِلي مُحَمَّدٍ عَلِيٌّ بْنُ اَبي طالِبٍ» “Sibqət edənlər (qabaqda gedən, burada ilk iman gətirənlər nəzərdə tutulur) üç nəfərdir. Musaya ilk iman gətirən Yuşə ibn Nun, İsaya ilk iman gətirən “Yasin sahibi”, Məhəmmədə ilk iman gətirən Əli ibn Əbu Talibdir.”[1]

37. Peyğəmbər (s) buyurdu: “Siddiqlər üç nəfərdir: Həbib Nəccar, Ali-Yasin mömini ki, dedi: Ey camaat, Allahın elçilərinə tabe olun. Hizqil, Ali-Firon mömini ki, dedi: Pərvərdigarım Allahdır – deyən şəxsimi öldürürsünüz? Və Əli ibn Əbu Talib ki, onların hamısından üstün və biliklidir.”[2]

38. Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Məndən sonra, ümmətim tezliklə səninlə düşmən olacaq və sən mənim ayinimlə yaşayacaqsan. Mənim qanunuma görə öldürüləcəksən. Səni sevən məni sevmiş, səninlə düşmənlik edən, mənimlə düşmənlik etmişdir. Tezliklə saqqalın başının qanına bulaşacaqdır.” Və Əli (ə) eyni buna oxşarını Peyğəmbərdən nəql etmişdir: “Ondan (s) sonra ümmət mənimlə düşmən olacaq.”[3]

İbn Abbas deyir ki, Peyğəmbər (s) Əliyə buyurdu: “Tezliklə məndən sonra, məşəqqət və narahatlığa düçar olacaqsan. Ərz etdi: O vaxt dinim salamat olacaqmı? Buyurdu: Bəli, dinin salamat olacaqdır.”

39. Peyğəmbər (s) bir gün səhabələrinin toplanışında buyurdu: “Sizin aranızda Quran təvilinə əsasən vuruşan var, necə ki, mən onun tənziminə əsasən vuruşdum.” Camaat çiyinlərini çəkdi. Əbu Bəkr və Ömər də orada idilər. Əbu Bəkr dedi: O şəxs mənəm? Buyurdu: “Yox.” Ömər soruşdu: Mənəm? Buyurdu: “Yox, o şəxsdir ki, çəkmə yamayır (yəni Əli və bu zaman o, bir çəkmə yamayırdı).”

Əbu Səid Xidri deyir: “Əlinin yanına gəldim və ona bu şad xəbəri verdim, heç başını da qaldırmadı. Elə bil ki, onu dəfələrlə Allahın rəsulundan (s) eşitmişdi.”[4]

Ömərin xilafəti zamanı Əbu Əyyub Ənsarinin hədisi[5] də bunun kimidir və deyir: “Allahın rəsulu (s) Əliyə (ə) “nakisinlər” (əhdləri sındıranlar), “qasitinlər” (zalımlar) və “mariqinlər”lə (yoldan çıxanlar) mübarizə edib onları öldürmək fərmanını (əmrini) verdi.”

Əmmar Yasir bir hədisdə deyir ki, Peyğəmbər (s) buyurdu: «يا عَليُّ سَتُقاتِلُكَ الْفِئَةُ الْباغِيَةُ وَ اَنْتَ عَلَي الْحَقِّ فَمَنْ لَمْ يَنْصُرْكَ يَوْمَئِذٍ فَلَيْسَ مِنّي» “Ey Əli, tezliklə üsyançılar dəstəsi səninlə mübarizə aparacaqlar. Amma sən düz yoldasan. Sənə kömək etməyən məndən deyil.”[6] Həmçinin

---

[1] Təbərani və İbn Mərdəveyh onu İbn Abbasdan, və Deyləmi Ayişədən nəql etmişdir və bu “müstəfiz” (düzgün) hədislərdəndir.

[2] Əbu Nəim və İbn Əsakir Əbu Yəladan “mərfu” şəklində nəql etmiş və İbn Nəccar da İbn Abbasdan mərfu şəkildə vermişdir. İbn Həcərin “Səvaiq”inin 9-cu babının 2-ci fəslində, 74-cü səhifənin axırında və onun sonunda vermişdir.

[3] Bu hədisləri Hakim “Müstədrək”in 3-cü cildinin 140 və 147-ci səhifəsində vermiş, onları düzgün bilmiş və Zəhəbi “Təlxis”də Buxari və Müslimin şərtinə əsasən, onun doğruluğunu etiraf etmişdir.

[4] Hakim “Müstədrək”in 3-cü cildinin 122-ci səhifəsində onu vermiş və demişdir: Bu hədis “Şeyxeyn”in (Buxari və Müslim) şərtinə əsasən düzdür.” Amma o ikisi bunu nəql etməmişlər. Zəhəbi də Şeyxeynin şərtinə əsasən, onu düzgün bilmiş, bunu “Təlxis”də hədisin nəqlindən sonra demişdir. İmam Əhməd Hənbəl bu hədisi Əbu Səid Xidridən “Müsnəd”in 3-cü cildinin 33 və 82-ci səhifələrində nəql etmiş, Beyhəqi “Şöəbül-İman”da, Səd ibn Mənsur özünün “Sünən”ində, Əbu Nəim Hilyədə və Əbu Yəla “Sünən”də onu vermiş ki, “Kənzül-Ümmal”ın 6-cı cildinin 155-ci səhifəsindəki həmin 2585-ci hədisidir.

[5] Hakim 139-cu səhifədə onu iki təriqlə nəql etmiş və həmçinin sonrakı hədis “Müstədrək”in 3-cü cildində gəlmişdir.

[6] İbn Əsakir nəql etdiyi kimi, o hədis “Kənzül-Ümmal”ın 6-cı cildinin 155-ci səhifəsindədir.

Əbuzər bir hədisdə deyir: Peyğəmbər buyurdu: “And olsun o kəsə ki, mənim canım onun əlindədir, sizin aranızda bir kişi var ki, məndən sonra Quranın təvilinə əsasən vuruşacaq, necə ki, mən müşriklərlə onun tənzilə əsasən vuruşdum.”[1]

Həmçinin, Məhəmməd ibn Übeydullah bir hədisi ibn Əbu Rafedən, o da atasından, o da cəddi Əbu Rafedən xəbər vermişdir ki, Peyğəmbər (s) buyurdu: “Məndən sonra, bir qrup Əli ilə vuruşacaq. Onlarla cihad etmək ilahi bir vəzifədir. Cihad etmək qüdrətinə malik olmayan kəs dili ilə, bundan da aciz olan qəlbi ilə onlarla cihad etməlidir.”[2]

Əxzər Ənsari deyir: “Peyğəmbər (s) buyurdu: “Mən Quranın tənzilinə əsasən vuruşuram və Əli onun təvilinə əsasən vuruşacaq.”[3]

40. Peyğəmbər (s) buyurdu: «يا عَلِيُّ اَخْصِمُكَ بِالنُّبُوَّةِ فَلا نُبُوَّةَ بَعْدي وَ تَخْصِمُ النّاسَ بِسَبْعٍ اَنْتَ اَوَّلُهُمْ ايماناً بِاللهِ وَ اَوفاهُم بِعَهْدِ اللهِ اَقْسَمُهُم بِالسَّوِيّةِ وَ اَعْدَلُهُم فِي الرَّعِيَّة وَ اَعْظَمُهُمْ عَنْدَ اللهِ مَزِيّة» “Ey Əli, mənim sənə olan imtiyazım yalnız nübüvvətimdir. Məndən sonra nübüvvət və peyğəmbərlik yoxdur. Sənin camaat qarşısında yeddi imtiyazın var. Birinci şəxssən ki, Allaha iman gətirmişsən, Allahın əhdinə hamıdan artıq əməl edənsən, Allahın əmrlərində hamıdan möhkəmsən, Beytül-malın bölünməsində bərabərliyə daha çox riayət edənsən, rəiyyətə qarşı hamıdan çox adilsən, mühakimədə daha gözüaçıq və məziyyətlərdə (üstünlüklərdə) Allahın yanında hamıdan üstünsən.”[4]

Əbu Səid Xidridən yetişmişdir ki, Peyğəmbər (s) buyurdu: “Ey Əli, sənin yeddi xislətin vardır ki, heç kəs sənin tayın deyil. Sən, Allaha ilk iman gətirən, onun əhdinə daha vəfadar, əmrinə hamıdan artıq əməl edən, rəiyyətə qarşı daha ədalətli, mühakimədə daha xəbərdar, məziyyətlərdə hamıdan üstünsən...”

Yazmağı əhd etdiyim qırx hədis bunlar idi. Amma bunlardan başqa da çoxlu hədislər vardır ki, onları geniş surətdə vermək imkanı yoxdur. Onlar da həmin “sünən” kimi bir-birləri ilə bağlı və həmahəngdir, hamısı bir mənanı bildirirlər. O da budur ki, Əli bu ümmətdə Allahın rəsulundan sonra ikincidir və Peyğəmbərdən (s) sonra bu ümmətin rəhbərliyi (Peyğəmbər (s) kimi) Əli ilədir. Beləliklə, bunlar o sünnələrdəndir ki, söz ardıcıllığına malik olmasalar da, məna ardıcıllığına malikdirlər və elə buna görə də sənin üçün qəti, aydın bir dəlil və höccətdir. Vəssalam.

***“Ş”***

---

[1] “Kənzül-Ümmal”ın 6-cı cildinin 155-ci səhifəsində olduğu kimi Deyləmi onu vermişdir.

[2] “Kənzül-Ümmal”ın 6-cı cildinin 155-ci səhifəsində olduğu kimi, Təbərani onu “Kəbir” kitabında vermişdir.

[3] O, İbn Əbu Əxzərdir. İbn Səkən onu yad etmiş və bu hədisi ondan (Haris ibn Həsirə təriqiylə) Cabir Cöfidən, o da İmam Baqirdən (ə), o da atası Zeynəlabidindən (ə), o da Əxzərdən, o da Peyğəmbərdən (s) nəql etmişdir. İbn Səkən demişdir: “O, səhabələr arasında məşhur deyildir. Hədisin sənədləri şubhəlidir.” Bunların hamısını Əsqəlani “Əl-İsabə” kitabında Əxzərin şərhi-halında zikr etmişdir. Darü-Qütni bu hədisi “Əl-İfrad”da vermiş və demişdir: “Bu hədisi yalnız Cabir Cöfi zikr etmiş və o, rafizidir.”

[4] Əbu Nəim bu hədisi Məazdan və ondan sonrakı hədisi Əbu Səiddən “Hilyətül-Övliya”da vermişdir. Hər iki hədis “Kənzül-Ümmal”ın 6-cı cildinin 156-cı səhifəsində mövcuddur.

# *QIRX DOQQUZUNCU MƏKTUB*

11 Məhərrəm 1330

***Əlinin (ə) fəzilətlərinə etiraf.***

***Onun fəzilətləri xilafətə vəsiyyət üçün səbəb deyildir.***

1. İmam Əbu Abdullah Əhməd Hənbəl deyir: "Peyğəmbərin əshabələrinin heç biri haqqında Əli ibn Əbu Talib (ə) qədər Allahın rəsulu (s) tərəfindən fəzilət nəql olmamışdır."[1] İbn Əbbas demişdir: "Heç bir kəs haqqında Əliyə (ə) aid olan qədər Quran ayəsi nazil olmamışdır."[2] Digər bir hədisdə demişdir: "Əli haqqında 300 Quran ayəsi nazil olmuşdur."[3] Yenə demişdir: Harada Allah يا ايها الذين آمنوا – ayəsini buyurmuşdursa, Əli onun əmiri və şərəfidir."[4]

Allah Quranın çox ayələrində Məhəmməd (s) əshabələrini məzəmmət etmiş, amma Əlini yaxşılıqdan başqa cür yad etməmişdir. Abdullah ibn Əyyaş ibn Əbu Rəbi deyir: "Əli haqqında elm və bilik baxımından nə istəyirsən, tam inamla de. Onun İslamda parlaq bir keçmişi vardır, Allahın rəsulunun (s) kürəkənidir. Onun dini başa düşməkdə, döyüşdə qələbə çalmaqda və əliaçıqlıqda tayı-bərabəri yoxdur."[5]

İmam Əhməd ibn Hənbəldən Əli və Müaviyə haqqında soruşulduqda, cavab vermişdir: "Əlinin (ə) düşməni çox idi. Düşmənləri elə bir şeyin daim axtarışında və təftişində idilər ki, onun vasitəsilə Əlidə (ə) eyib tutsunlar. Amma,[6] heç bir eyib tapa bilmədilər. Elə buna görə də onunla mübarizə edən Müaviyənin haqqında mədh və təriflər qoşdular. Bu bir plan idi və beləliklə, Əlini sarsıtmaq istəmişlər."

Qazi İsmayıl, Nisai, Əbu Əli Nişaburi və başqaları demişlər: "Səhabələrin heç birinin fəzilət və bacarıqları haqqında Əlinin fəzilətləri qədər doğru sənədlərlə məlumat çatmamışdır."[7]

2. Bu bir həqiqətdir ki, onda heç bir irad yoxdur. Amma burada bir sual vardır ki, o həzrətin xilafətə gəlməsi barədə Peyğəmbər (s) vəsiyyət etmişdir, ya yox? Nəql etdiyiniz rəvayətlər bu barədə aydın və dəqiq sənəd deyildir.

Bu düzdür ki, İmam hesaba sığmayan xüsusiyyət və fəzilətlər sahibidir. İnanırıq ki, o həzrət daha yüksək mədhə layiqdir və bu haqda dediklərinizdən neçə bərabər artıq zikr etmişlər. Əlbəttə, onlarda imamətə işarə də vardır. Amma, bildiyiniz kimi, sadəcə işarə ilə əhd, vəsiyyət və rəhbərlik tamam başqa bir şeydir. Vəssalam.

***"S"***

---

[1] Hakim "Müstədrək"in 107-ci səhifəsində onu vermiş və Zəhəbi "Təlxis"də onu təqib etməmişdir.

[2] İbn Əsakir və başqa "sünən" sahibləri onu vermişdir.

[3] İbn Əsakirin verdiyi hədisdir.

[4] Təbərani, İbn Hatəm və "sünən" yazan başqa bir qrup onu vermişlər. İbn Həcər onu nəql etmiş və əvvəlki üç hədisi də "Səvaiq"in 9-cu babının 3-cü fəslinin 76-cı səhifəsində nəql etmişdir.

[5] Xəbər əhli və "sünən" yazanlar onu İbn Əyyaşdan nəql etmişlər və bunu "Səvaiq"də (əvvəldə işarə etdiyimiz yerdə) görə bilərsiniz.

[6] Sələfi "Ət-tüyuriyyat" kitabında və İbn Həcər "Səvaiq"də, əvvəl göstərdiyimiz yerdə onu nəql etmişdir.

[7] Bu nəzərlər müxtəlif şəkildə onlardan çatmış və İbn Həcər "Səvaiq"in 2-ci fəslinin 9-cu babının 72-ci səhifəsinin əvvəlində onu nəql etmişdir.

# *ƏLLİNCİ MƏKTUB*

13 Məhərrəm 1330

***İmamın imamətə layiq xüsusiyyətlərinin istidlalı.***

Sizin kimi nüfuzlu və uzaqgörən, sözün qayda və qaynağına bələd, hədəflər və onların məqsədlərini bilən, Allahın rəsuluna, onun kamil hikmətinə, son peyğəmbərliyinə bələd, sözü və işinin müəyyən hədd və əndazəsi olan, yersiz və həvəs üzündən söz deməyən şəxslərin gözündən bu xəbərlərin güddüyü hədəf və məqsədlər yayınmaz. Sənə gizli deyildir ki, "sünən" və xəbərlər deyirlər ki, Əlinin yüksək məqamı və yeri vardır. Buna görə də Allah və peyğəmbərlərinə caiz deyildir ki, öz xəlifələrindən başqa bir kəsi bu qədər yüksəltsinlər. Beləliklə, peyğəmbərlərin sonuncusu o məqamı öz vəsi və vəliəhdindən başqasına təqdim etməz. Bundan başqa, əgər bir şəxs Əliyə məxsus olan başqa "sünən" hədislərini yaxşıca araşdırsa, görər ki, onların hamısı (az bir hissəsindən başqa) imamətdən savayı bir hədəfi izləmir. Bu mətləbə ya "peymani-qədir" kimi,[1] ya da göstərdiyimiz həmin 48-ci məktubdakı rəvayətləri misal çəkmək olar. Onlar belədir: "Peyğəmbər (s) buyurmuşdur ki, Əli Quranladır, Quran Əli ilə. Heç vaxt bir-birlərindən –hovuz kənarında mənə qovuşana qədər– ayrılmayacaqlar."[2] Peyğəmbərin (s) bu sözü o deməkdir ki, "Əlinin mənə nisbəti başın bədənə olan nisbətidir."[3] Əbdür-Rəhman ibn Ovfun[4] hədisində deyilir: Peyğəmbər (s) təhdidlə (hədə-qorxu ilə) xitab etdi: "And olsun o şəxsə ki, canım onun qüdrətinin qəbzəsindədir, namaz qılın, zəkat verin, yoxsa sizin yanınıza bir şəxsi göndərəcəyəm ki, məndəndir və ya mənim canımdır." Hədisin sonunda gəlmişdir ki, Əlinin əlini tutub dedi: "O şəxs budur." Bunlar kimi başqa xəbərlər çoxdur.

Mən həqiqətlər dəryasına baş vuran hər bir şəxsin diqqətini, çətinliklərin, anlaşılmazlıqların həllini tapmaq istəyən hər kəsin nəzərini bu faydalı sözlərə cəlb edirəm. Bu sözüm onlara aiddir ki, həqiqəti tapmaqdan başqa bir fikirləri yoxdur və araşdırmalarda təəssübkeşlikdən uzaqdırlar."Ş"

---

[1] -20, 26, 36 və 40-cı məktublarda onu zikr etdik.

[2] Hakim "Müstədrək"in 3-cü cildinin 124-cü səhifəsində və Zəhəbi "Təlxis"in həmin səhifəsində (düzgünlüyünü açıqlayaraq) göstərmişlər. O, "müstəfiz" (doğru) hədislərdəndir və hamı bilir ki, Əli Quranladır, Quran da Əliylə, 8-ci məktuba baxdıqda, İmamın yaxınlarının və onun nəslinin haqqını başa düşərsən.

[3] Xətib, Bəradan və Deyləmi, İbn Abbasdan onu nəql etmişlər və İbn Həcər "Səvaiq"in 75-ci səhifəsində onu vermiş, "Səvaiq"in 2-ci fəslinin 9-cu babında 40-cı hədisin 35-ci hədisinə bax.

[4] "Kənzül-Ümmal"ın 6-cı cildinin 405-ci səhifəsindəki 6133-cü hədisdir və sənin üçün bircə bu kifayətdir ki, o (Əli (ə)), Allahın rəsulunun özü kimidir. Fəxri Razinin "Mübahilə" ayəsinin təfsirində ("Məfatihül-Qeyb" təfsiri, 2-ci cild, səh. 488) göstərdiyi kimi. Bizim "Əl-Kəlimətül-Qərra" kitabında bu ayənin bəhsində verdiyimiz mətləbləri nəzərdən qaçırma.

# *ƏLLİ BİRİNCİ MƏKTUB*

14 Məhərrəm 133

***Bu dəlillərin müxalifi (inkar edəni) vardır.***

Sizin əleyhdarlarınınız üç raşid xəlifələrin fəzilətləri haqqında gələn “sünən” xəbərlərini, göstərdiyiniz hədislərlə ziddiyyətli sayırlar və mühacirlərlə ənsarın irəlidə gedənlərinin fəziləti barədə varid olmuş xəbərlərin “sünən”də İmam Əli (ə) haqqındakı xəbərlərlə ziddiyyətli olması fikrindədirlər. Onun cavabını necə aydınlaşdırırsınız? Vəssalam.

***“S”***

# ƏLLİ İKİNCİ MƏKTUB

15 Məhərrəm 1330

***Ziddiyətli iddianın cavabı.***

Biz İslam yolunda (mühacir və ənsardan) can qoyanların –Allah onların hamısını bağışlasın– fəzilətinə inanırıq. Belə ki, onları saymaqla qurtarmaq olmaz. Elə yalnız bu kifayətdir ki, Quranda və Peyğəmbərin sünnəsində onlar haqqında çoxlu fəzilətlər yazılmışdır. Biz onları nəzərdən keçirib, götür-qoy etdik. Amma Allah bilir ki, onların Əli (ə) haqqındakı məlumatlarla ziddiyyətli olduğunu görmədik. Hətta İmamın başqa xüsusiyyətləri ilə müarizə (qarşıdurma) etməyə də layiq deyil.

Bəli, bizim müxaliflərimiz (öz istədikləri kimi) onlarin fəzilətləri haqqında rəvayətlər nəql etmişlər ki, bizim fikrimizcə inandırıcı deyildir. Buna görə də onların bizim göstərdiklərimizə olan etirazı qeyri-reallıqdan və boşboğazlıqdan başqa bir şey deyildir. Biz onları heç bir vəchlə (müxalifimiz tərəfindən çox mötəbər olsalar da belə) mötəbər hesab edə bilmərik. Məgər görmürsünüzmü ki, biz də öz rəvayətlərimizi etiraz kimi mübahisə meydanına çıxarmırıq? Müxalifimizin dediklərindən başqa heç nəyi sübut gətirmirik? (“qədir” və başqa hədislər kimi).

Bütün bunlardan başqa, müxalifimizin ayrıca söylədikləri rəvayətləri və bəyan etdikləri fəzilətləri götür-qoy etdik, onlarda nə zikr olunmuş rəvayətlərin əksini gördük, nə də onların əleyhinə olan dəlil. Elə buna görə də üç xəlifənin xilafətinin isbatı üçün heç kəs onlardan dəlil gətirməmişdir. Vəssalam.

***“Ş”***

# *ƏLLİ ÜÇÜNCÜ MƏKTUB*

<u>16</u> <u>Məhərrəm</u> <u>1330</u>

***“Qədir” hədisinin tələbi.***

Təkrar olaraq “qədir” hədisinə işarə edirsiniz. Onu sünnilərin hədislərindən bizə oxuyun ki, o haqda dərindən axtarış aparaq və fikirləşək. Vəssalam.

***“S”***

## *ƏLLİ DÖRDÜNCÜ MƏKTUB*

<u>18</u> <u>Məhərrəm</u> <u>1330</u>

***“Qədir” hədisinin bir hissəsinə işarə.***

Təbərani və başqaları düzgünlüyünə inandıqları[1] sənədlə Zeyd ibn Ərqəmdən nəql etmişlər ki, Peyğəmbər (s) Qədir-xumda, ağacların altında xütbə oxuyub, buyurdu: “Ey insanlar, az qalmışdır Allahın yanına dəvət olunum və bu dəvətə müsbət cavab verim.[2] Mən məsulam və sual haqqında qərar qəbul edəcəyəm.[3] Siz də məsulsunuz və dindiriləcəksiniz.[4] Orada nə deyəcəksiniz? Dedilər: Şahidlik edəcəyik ki, risaləti təbliğ etdiniz, cihad etdiniz, nəsihət etdiniz, Allah sizə yaxşı mükafat versin. Peyğəmbər (s) buyurdu: Məgər sizin şəhadətiniz bu deyilmi ki, «لا اِلهَ اِلاّ اللهُ وَ اِنَّ مُحمّداً عَبْدُهُ وَ رَسُولُه» və belə deyilmi ki, behişt və cəhənnəm, ölüm və ölümdən sonra həyat haqqdır? Qiyamət, şübhəsiz olacaqdır və Allah ölənləri qəbirdə dirildəcəkdir? Dedilər: Bəli, ona şahidlik edəcəyik.[5] Bu zaman Peyğəmbər (s) ərz etdi: Ey Allah, şahid ol. Sonra buyurdu: Ey insanlar, Allah mənim mövlamdır və mən də möminlərin mövlasıyam və mən onların özündən onlara yaxınam.[6]

«فَمَنْ كُنْتُ مَوْلاهُ فَهذا مَوْلاهُ يَعْني عَلِيّاً اَللهُمَّ والِ مَنْ والاهُ وَ عادِ مَنْ عاداهُ» Mən hər kəsin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır. Ey Pərvərdigar, onu sevəni sev, ona düşmən olana düşmən ol! Sonra buyurdu: Ey camaat, mən sizdən əvvəl gedirəm və siz Kövsər hovuzunun kənarında mənim

---

[1] Sünnilərin tanınmış şəxsiyyətlərindən bir qrupu onun düzgünlüyünü təsdiq etmişlər. Hətta, İbn Həcər “Səvaiq” kitabının 1-ci babının 5-ci fəslinin 25-ci səhifəsində Təbərani və başqalarından nəql etdiyi şübhələrdən 11-ci şübhədə onun doğruluğunu etiraf etmişdir.

[2] Özünün rehlət (vəfat) xəbərini verdi ki, Allahın əhdini təbliğ etmək vaxtı çatmışdır, özündən sonra xəlifə təyin etməlidir və onu təxirə sala bilməz. Çünki ola bilər ki, ümmətin ehtiyacı olan bu işin bünövrəsini möhkəmləndirmədən əvvəl bu dəvət yerinə yetirilə (o həzrət vəfat edə).

[3] Qardaşının xəlifəliyə elanı ilə irəli keçmək istəyənlərə, həsəd aparanlara, kinlilərə və nifaq əhlinə ağır olduğunu bilərək, Peyğəmbər (s) istədi onu bu şəkildə (bir-başa elan etmədən) təbliğ etsin ki, onların qəlblərini yavaş-yavaş yumşaltsın, onların pis sözləri və bəd əməllərini azaltsın. Bu şəkildə onlara dedi: “Mən məsulam”. Halbuki bildirdi özü yalnız məmurdur, onlardan sorğu-sual olunacaq. Bunu Vahidi “Əsbabun-Nüzul” kitabında vermiş və demişdir: Bu ayə – يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ Qədir-xum günü və Əli ibn Əbu Talib haqqında nazil olmuşdur.

[4] Ola bilsin, o həzrətin “Siz də məsulsunuz və dindiriləcəksiniz”-dən məqsədi Deyləmi və başqalarının nəql etdikləri mətləbə işarədir. Belə ki, “Səvaiq” və başqa kitablarda vardır ki, İbn Səid deyir: “Peyğəmbər (s) buyurdu ki, bu ayənin وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُونَ (Onları məhşər günü dayandırın ki, dindirilməlidirlər) – təfsiri budur: Onları dayandıran ki, Əlinin vilayəti haqqında dindiriləcəklər.” İmam Vahidi də demişdir: “Onlar Əlinin vilayəti və Əhli-beyt haqqında dindiriləcəklər. Buna görə Peyğəmbərin (انكم مسؤلون) “siz məsulsunuz”-dan məqsədi vilayət və o həzrətin vəsiyyəti ilə müxalif olanların təhdidi olmuşdur.”

[5] Bu xütbə haqqında fikirləş. Hər kəs dərindən düşünsə anlayar ki, məqsəd şiənin dediyi kimi, Əlinin vilayətinin üsuli-dindən olmasını çatdırmaqdır. Çünki o həzrət soruşmuşdu: Məgər siz şəhadət vermirsinizmi ki, Allahdan başqa bir məbud yoxdur və Məhəmməd (s) onun qulu və rəsuludur? Sonra sözünə davam edərək istəmişdir ki, qiyamət və ölülərin dirilməsinə mötəqid olduqlarını etiraf etsinlər və nəhayət, vilayət məsələsini qarşıya qoymaqla elan etmişdir ki, bu da eynilə yuxarıda iqrar etdiklərinizlə bir səviyyədədir. Bu isə nitq üslubu və deyiliş tərzindən tanış olanlar üçün çox aydın məsələdir.

[6] Məqsəd budur ki, Allah mənim barəmdə ölçü götürməyə məndən daha layiqdir, mən möminlər barədə ölçü götürməyə onların özlərindən daha layiqəm və mən möminlərə qarşı necəyəmsə, Əli (ə) də onlara o cürdür.

yanıma daxil olacaqsınız. Onun uzunluğu Busra (Şam şəhərlərindən biri) ilə Səna arasındakı fasilədən çoxdur. Bu hovuzun kənarında ulduzların sayı qədər gümüş qablar mövcuddur. Mənimlə orada görüşəndə, sizdən “səqəleyn” haqqında soruşacağam ki, məndən sonra onlarla necə rəftar etmisiniz. Onlardan biri “siqli-əkbər” – Allahın kitabıdır ki, bir ucu Allahın “əlində”, birisi isə sizin ixtiyarınızdadır. Ondan yapışın ki, yolunuzu azmayasınız. O birisi isə “yaxınlarımdır” (Əhli-beytim). Allah-taala məni agah edibdir ki, bu ikisi Kövsər hovuzunun kənarında mənim yanıma daxil olana qədər bir-birindən ayrılmayacaqlar.”[1]

Hakim “Müstədrək”də[2] “Mənaqibi-Əli”də Zeyd ibn Ərqəmdən (Buxari və Müslimin şərtinə əsasən) iki düzgün təriqlə nəql etmişdir: “Allahın rəsulu (s) “həccətül-vida”dan qayıdıb Qədir-xuma yetişəndə əmr verdi ki, orada ağacların altını süpürsünlər. Sonra buyurdu: Mən (haqqa tərəf) dəvət olunmuşam və onu qəbul etmişəm. Mən iki qiymətli şeyi sizin yanınızda qoyuram: Allahın Kitabı və Əhli-beytim. Görün, məndən sonra onlarla necə rəftar edəcəksiniz. Kövsər hovuzunun kənarında mənim yanıma gələnə qədər bu ikisi bir-birindən ayrılmayacaqdır.” Sonra buyurdu: “Böyük və əzəmətli Allah mənim mövlamdır və mən hər bir mömininin mövlasıyam.” Sonra Əlinin əlindən tutdu və buyurdu: «مَنْ كُنْتُ مَوْلاهُ فَهَذا وَلِيُّه» “Mən hər kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır. Ey böyük Allah, onu sevəni sev, ona düşmənlik edənə düşmən ol.” O, hədisi bütünlükdə zikr etmiş, amma Zəhəbi “Təlxisi-Müstədrək”də onun ardını verməmişdir.

Hakim yenidən onu “Müstədrək”in “Zeyd ibn Ərqəm babı”nda[3] xatırlamış və onun düzgünlüyünü təsrih etmişdir. Zəhəbi də “Təlxis” kitabının o babında bu həqiqəti –öz inadkarlığına baxmayaraq– təsrih etmişdir. İmam Əhməd Hənbəl Zeyd ibn Ərqəmdən[4] belə nəql etmişdir: “Peyğəmbər (s) ilə bir vadiyə varid olduq ki, ora Qədir-xum adlanırdı. Namaz əmri verildi və o bərk istidə namaz qıldı. Sonra oradakı ağacın üstünə bir parça saldılar ki, Peyğəmbər (s) üçün kölgə olsun. O həzrət, bizim üçün xütbə oxudu və buyurdu: Məgər bilmir və şəhadət vermirsinizmi ki, mən hər bir mömininin mövlasıyam? Dedilər: Bəli! Buyurdu: Bəs elə isə, mən hər kəsin mövlasıyamsa, Əli onun mövlasıdır. Ey Pərvərdigar, onu sevəni sev, ona düşmən olana düşmən ol.”

Nisai Zeyd ibn Ərqəmdən[5] nəql etmişdir ki, Peyğəmbər (s) “həccətül-vida”dan qayıdıb Qədir-xuma daxil olanda buyurdu ki, orada ağacların altını süpürsünlər. Ondan sonra buyurdu: “Mən (haqq tərəfə) dəvət olunmuşam və dəvəti qəbul etmişəm. Mən sizin yanınızda iki qiymətli və əziz şey qoyuram: Allahın kitabı və Əhli-beytim. Baxın, görün məndən sonra onlarla necə rəftar edəcəksiniz! Onlar Kövsər hovuzunun yanında mənim yanıma gələnə qədər bir-birlərindən ayrılmayacaqlar. Sonra buyurdu: Allah mənim mövlamdır və mən hər bir mömininin mövlasıyam. Sonra Əlinin əlindən tutub dedi: Mən hər kəsin mövlasıyamsa, bu, onun mövlasıdır. Ey Pərvərdigar, onu sevəni sev, ona düşmən olana düşmən ol.”

Əbu Tüfeyl deyir: “Zeydə dedim: Bunu Allahın rəsulundanmı eşitdin?[6] Cavab verdi: Orada elə bir adam yox idi ki, onu gözləri ilə görməsin və bu sözləri qulaqları ilə eşitməsin.” Bu

---

[1] Bu Təbərani, İbn Cərir, Hakim vəTirmizinin Zeyd ibn Ərqəmdən nəql etdikləri hədisin ləfzinin eynidir. İbn Həcər və başqaları da Təbəranidən gördüyünüz kimi onu nəql etmişlər və onu Müslim düzgün bilmişdir. “Səvaiq”in 25-ci səhifəsinə baxın.

[2] 3-cü cild, səh. 109.

[3] 3-cü cild, səh. 533.

[4] “Müsnəd”, 4-cü cild, səh. 372.

[5] “Xəsaisül-Ələviyyə”nin 21-ci səhifəsində «مَنْ كُنْتُ وليّه فَهَذا وَلِيُّه»-dən söhbət etdiyi yerdə.

[6] Əbu Tüfeylin sualından belə anlaşılır ki, o, bu ümmətin işindən təəccüblənib ki, “qədir” hadisəsi ola-ola, Əlini (ə) necə kənar ediblər? Guya, o, bu rəvayətə şübhə edir. Çünki Zeyddən eşidəndə soruşur ki, görəsən

hədisi Müslim, Zeyd ibn Ərqəmdən (müxtəlif təriqlərlə) özünün "Səhih" kitabında, "Fəzaili-Əli" babında nəql etmiş, amma onu ixtisar edərək, ardını kəsmişdir. Bəli, belə edirlər.[1]

İmam Əhməd, Bəra ibn Azibdən[2] (iki təriqlə) nəql etmişdir ki, biz Peyğəmbər (s) ilə birlikdə idik. Qədir-xumda dayandıq və həzrət (s) camaat namazı qılınması barədə əmr verdi. Peyğəmbər (s) üçün iki ağacın altında yer hazırlandı. O, namazını qıldıqdan sonra Əlinin əlindən tutub dedi: "Məgər bilmirsinizmi ki, mən möminlərə özlərindən daha artıq yaxınam?" Dedilər: Bəli. Buyurdu: "Bilmirsinizmi ki, mən hər bir möminin mövlasıyam?" Dedilər: Bəli. Sonra Əlinin əlini yuxarı qaldırıb buyurdu: "Mən kimin mövlasıyamsa, bu, onun mövlasıdır. Ey böyük Allah, onun sevəni sev, ona düşmən olana düşmən ol." Ondan sonra Ömər Əli ilə görüşdü və ona dedi: "Ey Əbu Talibin oğlu, səni təbrik edirəm ki, hər bir mömin kişinin və qadının mövlası oldun."

Nisai Sədin qızı Ayişədən [3] belə nəql etmişdir: "Atamdan eşitdim ki, dedi: Cöhfə günü Peyğəmbər (s) Əlinin əlindən tutduğu halda xütbə oxudu. O, Allaha həmd-səna edib dedi: "Ey camaat, mən sizin mövlanızammı? Ərz etdilər ki, bəli (mövlamızsan). Sonra Əlinin əlini qaldırıb dedi: "Bu mənim vəlim və canişinimdir, mənim borcumu əda edir və mən onu sevənin dostu, sevməyənin (ona düşmən olanın) isə düşməniyəm." Həmçinin Səddən belə nəql[4] olunmuşdur: "Allah rəsulu (s) ilə birlikdə idik. Qədir-xuma çatanda o həzrət dayandı. Ondan irəlidə gedənlər qayıtdılar, geri qalanlar isə gəlib çatdılar. Camaatın hamısı toplananda buyurdu: Ey camaat, sizin vəliniz kimdir? Dedilər: Allah və rəsulu. O həzrət Əlinin (ə) əlindən tutub, qaldırdı və buyurdu: Allah və rəsulu hər kəsin vəlisidirsə (mövlasıdırsa), bu, onun vəlisidir. Ey böyük Allah, onu sevəni sev, ona düşmən olana düşmən ol."

Bu haqda rəvayətlər çoxdur. Belə ki, indi hamısını bir yerə yığıb yazmaq mümkün deyil. Bunlar Əlinin (ə) vəliəhdliyini sübut edən aşkar dəlillərdir ki, onun Peyğəmbərdən (s) sonra müsəlmanların əmiri olduğunu göstərir. Fəzl ibn Abbas ibn Əbu Ləhəbin[5] dediyi kimi:

عليٌّ و كلّ المواطن صاحبُه و كان وليَّ العهد بعد محمدٍ "Məhəmməddən (s) sonra Əli vəliəhddir; Çünki hər yanda onunla olmuşdur!" Vəssalam.

**"Ş"**

---

özü eşidibdir, ya yox. Zeyd o qədər adamların olmasına baxmayaraq cavab verir ki, hətta orada bir nəfər belə yox idi ki, gözləri ilə onu görməsin və qulaqları ilə eşitməsin. Bu vaxt Əbu Tüfeyl başa düşür ki, xilafət məsələsi şair Kümeytin dediyi kimidir:

ولم أر مثل ذاك اليوم يوما» ابانَ له الخلافة لو أُطيعا «و يوم الدوح دوح غدير خم

"O gün Qədir-xumun ağacları xilafəti aşkar bəyan etdi, heyf ki, itaət olunmadı və mən o günkü gün kimi gün görməmişdim."

فلم أر مثلها خطرا مبيعا» و لكن الرجال تبايعوها «ولم أر مثله حق أُضيعا

"Elə haqq görmədim ki, belə aşkar zay olsun. Amma onlar onu müamilə etdilər (alıb-satdılar). Mən heç vaxt belə bir qiymətli müamilə (mal) görməmişdim."

[1] 2-ci cild, səh. 325.

[2] "Müsnəd", 4-cü cild, səh. 281.

[3] "Xəsaisül-Ələviyyə"nin 4-cü səhifəsində "Allah dərgahında Əlinin məqamı" bölməsində və səh. 25-də "Onu sevməyə rəğbətləndirmək və onunla düşmənçilikdən çəkindirmək" babında onu nəql etmişdir.

[4] Nisainin "Xəsais"in 25-ci səhifəsində verdiyi kimi.

[5] Məhəmməd Məhmud Rafeinin "Haşimiyyat"ın şərhinin müqəddiməsində səh. 8-də verdiyi kimi, Vəlid ibn Üqbə ibn Əbu Muitin cavabında deyilmiş şerlərdəndir.

# *ƏLLİ BEŞİNCİ MƏKTUB*

19 Məhərrəm 1330

***Mütəvatir hədis olmadan necə istedlal etmək olar?***

Şiələrin fikri belədir ki, imamətin sübutu üçün mütəvatir rəvayətlər olmalıdır. Çünki onların fikrincə, imamət üsuli-dinin bir hissəsidir. Beləliklə, "qədir" hədisinin istedlalı üçün imkan yoxdur. Baxmayaraq ki, hədisin əsli onların təriqiylə şübhəsiz və düzgündür, amma sünnilər onu mütəvatir hədis hesab etmirlər. Vəssalam.

***"S"***

# *ƏLLİ ALTINCI MƏKTUB*

22 Məhərrəm 1330

***1. Təbii qanunlar "qədir" hədisinin təvatürünü tələb edir.***

***2. Allahın ona inayəti.***

***3. Rəsulullah(s)in ona inayəti.***

***4. Əmirəl-möminin(ə)ın ona inayəti.***

***5. Hüseynin inayəti.***

***6. Doqquz imamın inayəti.***

***7. Şiələrin ona inayəti.***

***8. Sünnilərin təriqiylə "qədir" "nəss"inin təvatürü.***

24. cü məktubda verdiyimiz istidlallar burada da verilir və sizə kifayətdir.

1. "Qədir" hadisəsinin təvatürü təbii qanunauyğunluqla mütənasibdir. Çünki, Allah belə istəmişdir. Adətən, böyük tarixi hadisələr belədir ki, bir millətin əksəriyyəti qiyam edir, minlərlə adamın gözü görür, qulağı eşidir, müxtəlif yerlərdən toplaşan minlərlə insanın gözü qarşısında yerinə yetirilir ki, onun xəbərinin başqalarına çatması labüd məsələdir. Xüsusilə, əgər bu hadisə Peyğəmbərin Əhli-beyti ilə əlaqədar olarsa, onun xəbəri hara olsa çatar. Heç belə bir hadisə vahid bir xəbər ola bilərmi? Yox, heç vaxt. Əksinə, günəş işığı kimi yayılmalı, quru və suyu bürüməlidir. فَلَن تَجِدَ لِسُنَّتِ اللَّهِ تَبْدِيلًا وَلَن تَجِدَ لِسُنَّتِ اللَّهِ تَحْوِيلًا "Sən Allahın qoyduğu qayda-qanununda heç bir dəyişiklik tapmazsan." (Fatir, 43)

2. "Qədir" hadisəsi böyük Allahın inayət yeri olmuşdur. Çünki, onu Öz peyğəmbərinə vəhy buyurmuş, Qurandan bir ayə onun haqqında nazil etmişdir ki, müsəlmanlar gecə-gündüz – həm xəlvət, həm aşkar dualarında, namazlarında, minbərdə, məscid və ibadətgahların hündür minarələrinin üstündə, xülasə, hər bir yerdə onu tilavət etsinlər (oxusunlar): يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ "Ey Peyğəmbər, Pərvərdigarın tərəfindən sənə nazil olunmuşları təbliğ et. Əgər bunu etməsən, Allahın risalətini yerinə yetirməmişsən. Allah səni insanlardan qoruyacaq."[1]

---

[1] Maidə, ayə 67. Şiələrin fikrincə, bu ayə sorğu-sualsız Əlinin vilayəti haqqında, Qədir-xum günü nazil olmuş və bu haqda bizim xəbərimiz Əhli-beyt imamları tərəfindən deyilmişdir. Amma, imam Vahidinin "Əsbabün-nüzil" kitabının 150-ci səhifəsində "Maidə" surəsinin bu ayəsinin təfsirində qeyri-itrət təriqiylə iki mötəbər təriqdən verdikləri sizə kifayət edər. O, Ətiyyə və Əbu Səid Xidridən nəql edir ki, bu ayə Qədir-xumda Əli ibn Əbu Talib haqqında nazil olub.

Mən deyirəm: Bu xəbəri Hafiz Əbu Nəim özünün "Nüzulul-Quran" kitabında bu ayənin təfsirində iki sənədlə nəql etmişdir ki, biri Əbu Səiddən, digəri Əbu Rafedəndir. İmam İbrahim ibn Məhəmməd Həməveyni Şafei "Əl-Fəraid" kitabında da onu çoxlu təriqlərlə Əbu Hüreyrədən nəql etmişdir. İmam Əbu İshaq Sələbi ayənin mənasında özünün "Kəbir" təfsirindən iki mötəbər sənədlə onu vermişdir. Bunları şahid gətirməkdən məqsəd odur ki, bu ayənin nüzulundan əvvəl namaz qılınırdı, zəkat, oruc, həcc vacib idi, halal-haram bəyan olmuşdu, şəriətin nizam və ehkamları müəyyənləşdirilmişdi.

Beləliklə, vilayət əhdindən başqa hansı məsələ qalmışdı ki, Allah tərəfindən belə təkidə səbəb olmuş və onun elan olunması israrı bir növ təhdid şəkli almışdı? Peyğəmbər xilafətdən başqa hansı işin təbliğində fitnədən qorxmuşdur ki, Allah tərəfindən xalqın əziyyətindən qorunmasına ehtiyacı var idi?

O gün Peyğəmbər imamət və xilafətin Əliyə (ə) verilməsi əhdini birbaşa risalətin tamamı yönündə təbliğ edəndən sonra Allah bu ayəni nazil etdi: الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا "Bu gün dininizi tamamlayıb mükəmməl etdim, sizə olan nemətimi başa çatdırdım və bir din kimi sizin üçün İslamı bəyənib seçdim."[1] Bəh, bəh! Bu Allahın fəzlidir ki, onu istədiyinə verər. Bu ayələrə diqqət yetirən hər bir kəs Allahın bu inayətlərinin müqabilində itaətkar olacaqdır.

3. Bir halda ki Allahın inayəti belədir, demək, Peyğəmbərinin də inayətinin belə olması şübhəsizdir. Çünki, əcəli yaxınlaşanda və vəfatının xəbəri ona veriləndə, Allahın əmri ilə "həcci-əkbər"də hamının gözü qarşısında Əlinin vilayət xəbərini vermək qərarına gəldi. Nə Məkkədə "inzar" günündə "yövmüd-dar" nəssiylə, nə də dalbadal verdiyi xəbərlərlə kifayətlənmədi. Həcc mövsümü çatmamışdan əvvəl camaata elan etdi ki, o, bu il həccə gedəcək və bu "həccətül-vida" olacaq. Adamlar hər dağdan, dərədən onun yanına gəldilər. O həzrət yüz min, ya daha çox adamla Mədinədən xaric oldu.[2] Ərəfatda dayanandan və camaat orada toplaşandan sonra Peyğəmbər (s) belə nida etdi: «عليّ مني و انا من عليّ و لا يُؤَدّي عني الا انا او عليّ» "Mənim tərəfimdən olan hər bir mətləbi özümdən və ya Əlidən başqası təbliğ etmir."[3] Karvan Xum vadisinə çatanda "Ruhül-Əmin" (Cəbrail (ə)) nazil olub Allah tərəfindən "təbliğ" ayəsini gətirdi ki, bu vaxt, Həzrət (s) dəvədən endi. Nəhayət, geridə qalanlar da gəlib çatdılar və irəlidə olanlar geri döndülər. Hamı toplaşandan sonra onlarla namaz qıldı və sonra xütbə oxuyub və Əlinin (ə) vilayət "nəss"ini elan etməyə başladı ki, ondan bir parçanı yazdım. Bundan əlavə eşitmədiklərin də düzgündür ki, eşitdiklərin sənə kifayət edər. Bu məsələni o gün Peyğəmbərlə (s) olan hər kəs bildi və başqalarına da çatdırdı. Dediyim kimi, 100 mindən çox cəmiyyət müxtəlif yerlərdən gəlmiş ki, "qədir" hadisəsinin təvatürünü tələb edir (hərçənd, onun nəql olunması yolunda maneələr də mövcud idi). Bundan başqa, Əhli-beyt imamları tərəfindən də üsullar işlənmişdir ki, onun intişarı və yayılmasını tələb edir.

4. Möminlərin əmirinin (ə) xəlifəliyi günlərində buyurduğu bu sözə diqqət yetirməyin kifayətdir. O, camaatı Rəhəbədə (Kufənin məhəllələrindən biri) toplayanda dedi: "Peyğəmbərdən (s) Qədir-xum günü hər hansı bir mətləbi eşidən müsəlmanı and verirəm, ayağa qalxsın və eşitdiklərinə şəhadət versin. Amma o həzrətiöz gözləriylə görüb, qulaqlarıyla onun sözünü eşitmiş adamdan başqası ayağa qalxmasın." Səhabələrdən otuz nəfəri ayağa qalxdı ki, onların on ikisi "Bədr mücahidləri"ndən idi. Hamısı şəhadət verdilər ki, Peyğəmbər (s) Əlinin əlindən tutub onlara belə buyurdu: "Bilirsinizmi ki, mən möminlərə özlərindən yaxınam?" Dedilər: Bəli. Peyğəmbər (s) buyurdu: «من كُنْتُ مَوْلاهُ فَهذا عَليٌّ مَوْلاه ...» "Mən mövlası olduğum hər kəsin mövlası Əlidir! Ey Allahım, Əlini sevəni sev, düşmən olana düşmən ol!"

Yaxşı bilirsiniz ki, 30 nəfər səhabənin yalan danışmaqda qruplaşması (xüsusilə, elə bir şəraitdə) ağlasığmazdır. Buna görə, onların şəhadətindən sonra təvatürün hasili qətidir və

---

[1] Maidə, ayə 3. Əhli-beyt tərəfindən dediklərimiz haqqında düzgün xəbərlər təvatür şəkildə çatmış və burada şübhə yoxdur. Baxmayaraq ki, Buxari bu ayənin Ərəfə günü nazil olduğunu nəql etmiş, amma – «اهل البيت ادري بما في البيت» – ev əhli (Əhli-beyt) evdə olanları başqalarından daha yaxşı bilir.

[2] Əhməd Zeyni Dəhlan özünün "Əs-siyrətün-Nəbəviyyə" kitabının "həccətül-vida" babında yazır: "Peyğəmbər (s) Mədinədən 90000 və ya 124000 nəfərlə xaric oldu." Bu saydan çox da deyilmişdir. Bu, onunla Mədinədən xaric olanların sayıdır. Amma onunla həcc edənlərin sayı bundan da çoxdur. Buradan aydın olur ki, onunla olanların sayı 100000-dən çox imiş və hamı "qədir" hadisəsinin şahidi olublar.

[3] Bu, 15-ci hədisdir ki, 48-ci məktubda verdik və kitabın özündə və haşiyəsində ondan söz açdıq. Yaxşı olar ki, bəhs edənlər ondan xəbərdar olsunlar.

bunda heç bir şübhə yoxdur. Bu hədisi Rəhəbədə olan hər bir kəs onlardan eşitmiş və yadda saxlamış, ayrılandan sonra ətraf yerlərdə yaymış, beləliklə, hər yerə çatmışdır. Diqqət yetirin ki, əvvəla Rəhəbə günü, möminlərin əmirinin (ə) xilafəti dövrünə təsadüf etmiş, ikincisi, camaat 35-ci hicri ilində Əliyə beyət etmiş və üçüncüsü bilmək gərəkdir ki, özü "qədir" günü "həccətül-vida"da olmuşdur. Bu iki günün arasındakı (Rəhəbə və "qədir" günləri) ən azı 25 il fasiləyə baxmayaraq, bu vaxt ərzində öldürücü taunlar, müharibələr baş vermişdir. Əsrin dörddə biri olan bu müddətdə uzun müharibələr, əsirlik, taun, öldürücü vəbanın təsirindən "qədir" günü orada olanların əksəriyyəti, qocalar yaşlılar, həmçinin dəliqanlı cavanlar, bir çox mücahidlər dünya ilə vidalaşmışdılar. Belə ki, sağ qalanlar dünyadan köçənlərə nisbətən az bir hissəni təşkil edirdi. Qalanlar isə hər bir tərəfə dağılışmış və "Rəhəbə" əhvalatında Əmirəl-mömininlə (ə) İraqda olanlardan başqa heç kəs sağ deyildi. Beləliklə, 25 ildən sonra 30 nəfərin birdən ayağa qalxması, onlardan on ikisisinin Bədr müharibəsinin iştirakçılarından olması və "qədir" hadisəsində Peyğəmbərdən (s) eşitdiklərinə və gördüklərinə şəhadət verməsi, o hadisənin nə qədər əhəmiyyət daşıdığını göstərir. Əlbəttə, bəzisinin – Ənəs ibn Malik[1] kimi, imamla düşmənçiliyi səbəb oldu ki, şəhadət verməkdən çəkinsinlər. Əgər o həzrətin sağ qalmış bütün səhabələrini (kişi və qadın) o gün toplayıb, Rəhəbədə and verib, şəhadət istəmək imkanı olsaydı, imamın nifrininə düçar olanların sayı, ayağa qalxmış otuz nəfərin neçə misli qədər olardı. Siz heç fikirləşmisinizmi, əgər bu sorğu Hicazda və "qədir" əhvalatından az bir vaxt sonra baş versəydi, nə olardı və neçə nəfər şəhadət verərdi? Bu həqiqət haqqında düşün ki, onu "qədir" hədisinə ən güclü dəlil biləsən.

Rəhəbə əhvalatı və sorğusu haqqında deyilmiş xəbərlərdən imam Əhmədin Əbu Tüfeylidən "Müsnəd"in 4-cü cildinin 370-ci səhifəsində Zeyd ibn Ərqəmin haqqında nəql etdiyini mütaliə etsən kifayətdir. O, deyir: "Əli camaatı Rəhəbəyə yığdı və sonra buyurdu: "Allah xatirinə şahid tələb edirəm və "qədir" günündə olan hər bir müsəlmandan istəyirəm ki, dursun və Peyğəmbərdən (s) eşitdiyini desin. Otuz nəfər ayağa durdu." Amma Əbu Nəim yazmışdır: "Çox adam durdu və şəhadət verdi ki, Peyğəmbər o gün Əlinin əlini tutdu və müsəlmanlara dedi: Bilirsinizmi ki, mən möminlərə özlərindən yaxınam? Dedilər: Bəli, ey Allahın rəsulu. Buyurdu: «من كنتُ موْلاه فهذا موْلاه اللّهمّ والِ من والاه و عادِ من عاداه» Mən kimin mövlasıyamsa, Əli onun mövlasıdır. İlahi, onu sevəni sev və ona düşmən olana düşmən ol!"

Əbu Tüfeyl deyir: "Mən Rəhəbə yığıncağından sonra çox fikirləşirdim ki, necə olub ki, o vaxt ümmətin əksəri buna əməl etməyib. Ona görə də Zeyd ibn Ərqəmin yanına getdim və dedim: Mən Əlidən (ə) eşitdim ki, bu cür sözlər deyirdi. Zeyd dedi: Bu bir həqiqətdir ki, inkar yeri yoxdur. Bunu mən də Peyğəmbərdən (s) eşitmişəm."

Mən deyirəm: Zeydin şəhadətini də Əlinin (ə) kəlamını əshabədən 30 nəfərin şəhadətinə əlavə edəndə, nəql edənlərin sayı cəmi 31 nəfər olur. İmam Əhməd Əlinin (ə) kəlamını "Müsnəd"in 1-ci cildinin 119-cu səhifəsində Əbdür-Rəhman ibn Əbu Leyladan belə nəql etmişdir: "Əlini Rəhəbədə gördüm ki, camaatı Allaha and verdi və şahid tələb edib dedi: Bir nəfər durub şəhadət versin ki, Peyğəmbərin (s) özünü o zaman görmüşdür. Əbdür-Rəhman deyir: Bədrdə iştirak edən 12 nəfər ayağa durdu. Elə bil ki, indi də onlar gözlərim

---

[1] İmam Əli (ə) buyurdu: "Nə üçün Rəsuli-Əkrəmin əshabələri ilə birgə ayağa durmadın ki, gördüklərinə şəhadət verəsən? Dedi: Ey Əmirəl-möminin, mənim ömrümün çoxu gedib, yaddan çıxarmışam. Əli (ə) buyurdu: Əgər yalan deyirsənsə, Allah səni bərəsə (ekzema: çil-çil olma) mübtəla etsin, belə ki, hətta əmmamənlə də onu örtə bilməyəsən. Hələ yerindən qalxmamışdı ki, üzünü ləkələr tutdu. Ondan sonra deyirdi: "Allahın saleh bəndəsinin nifrininə mübtəla oldum."

Mən deyirəm: Bu imam Əlinin məşhur mənaqibindəndir ki, İbn Qüteybə Dinəvəri onu zikr etmiş, "Maarif" kitabının 194-cü səhifəsində Ənəsi xəstəliyə mübtəla olmuşların sırasında vermiş və bu mətləbi İmam ibn Hənbəl "Müsnəd"in 1-ci cildinin 119-cu səhifəsinin axırında vermişdir. Orada demiş: "O həzrətin nifrininə giriftar olmuş üç nəfərdən başqa hamı ayağa durdu."

önündədirlər. Dedilər: Biz şahidlik edirik ki, Qədir-xum günü Peyğəmbərdən eşitdik, deyirdi: Mən möminlərə nisbətdə özlərindən yaxın deyiləmmi? Dedik: Bəli. Buyurdu: "Mən kimin mövlasıyamsa, Əli onun mövlasıdır. İlahi, onu sevəni sev və ona düşmən olana düşmən ol!"

İmam Əhməd həmin səhifədə digər təriqlə nəql etmişdir ki, buyurdu: "İlahi, onu sevəni sev və ona düşmən olana düşmən ol! Ona kömək edənə kömək et, ona arxa çevirəni bədbəxt et!" Sonra demişdir: "O arada yalnız üç nəfər (baxmayaraq ki, Qədir-xumda olmuşdular) ayağa durmadı. Əli onlara nifrin etdi və onlar da bəlaya mübtəla oldular."

Siz əgər Əli və Zeydi 12 nəfər əhli-Bədrə əlavə etsəniz, Bədrdə olan adamların sayı 14 nəfər olar. Rəhəbə sorğusunda yaranmış hədisləri diqqətlə öyrənən şəxs, Əmirəl-mömininin (ə) "qədir" hədisinin nəşrindəki hikmətini başa düşər...

5. Seyyidüş-Şühəda Hüseynin (ə) Müaviyənin dövründə bir xütbəsi vardır ki, bu həqiqəti orada işıqlandırmışdır. Bu xütbə Əmirəl-mömininin(ə) Rəhəbədəki xütbəsinin eynidir. O, həcc günlərində Ərəfatda camaatı bir yerə yığıb cəddini, atasını, anasını və qardaşını yad etdi. Çoxları o vaxt belə gözəl natiq görməmişdilər. O həzrət nitqi ilə qulaqları sözün qulu etdi, göz və qəlbin ixtiyarını ələ aldı. Xitabında lazımı məsələlərə toxunub qəlblərin ixtiyarına verdi. Zəruri mətləbləri aydınlaşdırdı, "qədir" gününündəki həqiqətə bir daha işarə edərək onun hesabını müəyyənləşdirdi. Heç nəyi qaranlıq qoymadı. Bu yetərli xütbə "qədir" hədisinin yayılmasına və məşhurlaşmasına xüsusi təsir etdi.

6. İmam Hüseynin (ə) nəslindən olan 9 imamın da "qədir" hədisinin yayılmasına müəyyən təsirləri olmuşdur ki, (bu hədislər) sənə düzgün yol göstərə bilər. Onlar hər il Zilhiccənin 18-ci gününü bayram elan edib, şadlanardılar. Həmin günü Allah xatirinə oruc tutar, namaz qılar və dua oxuyardılar. Allaha verdiyi nemətlər üçün şükürlər edib, ehsan paylayardılar. Çünki, bu gündə Peyğəmbərin (s) mübarək dilindən Əmirəl-mömininin (ə) xilafət "nəss"i xaric olmuş və onun imamət əhdi açıq-aşkar deyilmişdir. Onlar bu gün qurban kəsər, bir-birlərinin ziyarətinə gedər, qonşuları yad edər, dostlarına da bu işləri görməyi tövsiyə edərdilər. (Bu, "qədir"in xatirəsinin yaşamasına və nəsillərin onu bilməsi üçün bir vasitə idi.)

7. Şiələr hər il Zilhiccənin 18-ci gününü əsrlərdə və bütün yaşadıqları yerlərdə bayram etmişlər.[1] Şiələr bu günü Əmirəl-mömininin (ə) vilayəti ilə dinin tamamlandığını deyib, Allaha şükür etmək üçün vacib və müstəhəb namaz qılmaq, Quran oxumaq, dua etmək üçün məscidə üz tutar, sonra dəstə-dəstə bir-birinin görüşünə gedər və sileyi-rəhm edərdi. Onlar qohumlara, qonşulara yaxşılıq edib, sevindirər, hər il bu günü Məşhədə və Əmirəl-mömininin (ə) qəbrinin ziyarətinə gedərlər. Həmin gün o həzrəti ziyarət edənlərin sayı yüz mindən çox olur və hər yandan gəlirlər. Gəlirlər ki, öz imamlarının bu günü Allaha ibadət etdikləri kimi ibadət etsin, oruc tutsunlar, namaz qılsın, günahlarından tövbə etsinlər. Yaxşı işlər görmək, sədəqə verməklə Allaha yaxın olmaq istəyərlər. Onlar o həzrətin müqəddəs qəbrinin önündə durub ziyarətnamə oxuyarlar. Ziyarətnamədəki ibarətlər o həzrətin din uğrunda çəkdiyi əzablar, Peyğəmbərə xidmət, onun xüsusiyyət və fəzilətləri, o cümlədən Peyğəmbərin ona əhd və vəsiyyətləri və "qədir" gününün "nəss"indən ibarətdir. Bu, hər il şiələrin adətidir. Onların xətibləri hər zaman və hər yerdə "qədir" hədisini sənədli bir məktub kimi oxuyarlar. Onların şairlərinin adəti qədimdən budur ki, bu gün onun mədhinə şerlər qoşarlar.[2]

---

[1] İbn Əsir "Kamil" kitabının 352-ci il hadisələrində deyir: "Bu il Zilhəccənin 18-də Müizzüd-Dövlə əmr verdi ki, Bağdad şəhərini bəzəsinlər. Baş məclisdə atəş yandırılsın, şadlıq edilsin. Bayram gecəsi bazar açıq olmalıdır. Bu işləri Qədir-xum bayramının şən keçməsi xatirinə gördü. Bu gün şeypur da səslənirdi. Görməli gün idi." Bu "Kamil"in 8-ci cildinin 181-ci səhifəsinin eyni ibarətləridir.

[2] Şair Kümeyt ibn Zeyd demişdir:

«و يوم الدوح دوح غدير خم ابان له الولاية لوْ أُطيعا...» O gün Qədir-xum ağaclarının yanında onun vilayəti aşkar oldu, heyif ki, itaət olunmadı.

“Qədir” hadisəsinin təvatüründə (Əhli-beyt və onların şiələrinin təriqiylə) şübhə yoxdur. Çünki, onların hamısında Peyğəmbərin (s) buyuruğunun eynilə saxlanılması, qorunması və nəşrində son dərəcə əmanətə riayət olunmuşdur. Bu həqiqətin isbatı üçün, sizin “Kütubi-Ərbəə” və ondan başqa bu haqda olan şiə sənədlərinə baxmanız kifayətdir. Onların sənəd və rəvayətlərinin “məruf” və ya “müttəsil” gəlib çatmaları məsələsinə yaxşı diqqət yetirən və onun şərtlərini mülahizə edən üçün bu hədisin təvatürü, onların qiymətli təriqləri aydıncasına sabit olar.

8. Hətta şübhə yoxdur ki, çox təbii olaraq sünni təriqi ilə də bu hədis mütəvatirdir. “Fətviyyül-Hamidiyyə”nin müəllifi özünün “Əs-sələvatül-Faxirə fil-əhadisil-mütəvatirə” adlandırdığı müxtəsər risaləsində böyük inadla bu hədisin təvatürünü bəyan edir. Suyuti və onun kimilər həmçinin (müdafiə məqsədilə) bu işi əncam vermişlər. Məhşur təfsirçi və tarixçi Məhəmməd İbn Cərir Təbəri, Əhməd ibn Məhəmməd ibn Səid ibn Üqdə və Əhməd ibn Osman Zəhəbidir ki, bu hədisin mənbələrini cəmləməyə rəhbərlik etmiş və hər biri bu haqda ayrıca bir kitab hazırlamışlar. İbn Cərir onu 75 mənbədən, İbn Üqdə[1] onu 105 mənbədən nəql etmişdir. Zəhəbi –bütün inadkarlığına baxmayaraq– onun bütün mənbələrini təshih etmişdir.[2] “Qayətül-Məram” kitabının 16-cı babında 89 hədis sünni mənbələrindən “qədir nəssi”ndə nəql etmişdir. Xüsusilə o, həmin hədisi bu kitabda Tirmizi, Nisai, Təbərani, Bəzzar, Əbu Yəla və həmçinin onu nəql edən bir çoxlarının adını verməmişdir.

Süyuti bu hədisi “Tarixül-Xüləfa” kitabında Əlinin (ə) şərhi-halında Tirmizidən nəql etmiş, sonra demişdir: “Əhməd onu Əli, Əbu Əyyub Ənsari, Zeyd ibn Ərqəm, Ömər və Zimərdən nəql etmişdir.”[3] O, əlavə etmişdir ki, Əbu Yəla onu Əbu Hüreyrə və Büreyrədən nəql etmişdir. Bu hədisin yayılmasına səbəb olan hadisələrdən biri o rəvayətdir ki, İmam Əhməd “Müsnəd”də[4] Riyah ibn Harisdən iki təriqlə nəql etmişdir: “Bir dəstə adam Əlinin (ə) yanına gəlib ərz etdilər: Ey mövlamız, salam olsun sənə. Həzrət soruşdu: Siz kimsiniz? Dedilər: Sənin qullarındanıq, ey Əmirəl-möminin. Həzrət soruşdu: Mən necə sizin ağanız ola bilərəm ki, siz ərəbsiniz? Cavab verdilər: Biz Qədiri-Xum günü Rəsuli-əkrəmdən (s) eşitdik ki,

---

«و يوم الغدير استوضح الحقّ اهله بفيحاء ما فيها حجاب و لا ستر» “Qədir” günü həqiqət əhli həqiqəti aydın başa düşdülər, onu pərdəsiz, hicabsız anladılar.

«اقام رسول الله يدعوهم بها لِيقرّبهم عُرْف و يَنْآهم نكر» Allahın rəsulu (s) onu ayağa qaldırdı və xalqı yaxşılığa və pislikdən çəkinməyə dəvət etdi.

«يمدّ بضبعيه وَ يعلّم انّه وليّ وَ مؤْلاكم فهل لكم خبر» Əlindən tutub yuxarı qaldırdı və elan etdi ki, o sizin vəliniz və hakiminizdir: Bildinizmi?

«يروح و يغدو بالبيان لمشعر يروح بهم غمر و يغدو بهم غمر» Səhər-axşam həmişə camaata və dəstələrə öz bəyanı ilə bu həqiqəti söyləyərdi.

«فكان له جهر باثبات حقه وكان لهم في برهم حقه جهر» O, həqiqətin isbatında inadkar ikən, onlar isə bu həqiqətin inkarında ondan da inadkar.

«اثم جعلتم حظه حد مرهف من البيض يوما حظ صاحبه القبر» Sonra isə onu tamam nakam və bəhrəsiz qoydunuz...

[1] “Qayətül-Məram”ın müəllifi 16-cı babın sonunda, səh. 89-da təsrih etmiş ki, İbn Cərir “qədir” hədisini 95 mənbədən xüsusi kitabda nəql etmiş və o kitabı “Əl-Vilayə” adlandırmışdır. İbn Üqdə onu 105 mənbədən ayrıca kitabda vermişdir. İmam Əhməd ibn Məhəmməd ibn Siddiq Məğribi təsrih etmişdir ki, Zəhəbi və İbn Üqdə hər biri bu hədis üçün ayrıca bir kitab yazmışlar. Onun kitabının «فتح الملك العلي بصحة باب مدينة العلم علي» xütbəsinə baxın.

[2] İbn Həcər “Səvaiq” kitabının 1-ci babının 5-ci fəslində onu təsrih etmişdir.

[3] Mən deyirəm: O, İbn Abbasdan da “Müsnəd”in 1-ci cildinin 131-ci səhifəsində və 4-cü cildinin 281-ci səhifəsində Bəradan nəql etmişdir.

[4] Onun 5-ci cildinin 419-cu səhifəsinə bax.

buyurdu: Mən kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır.” Riyah deyir: “Onlar gedəndən sonra oradakılardan soruşdum: Bunlar kimlər idi? Dedilər: Mədinədən gələn bir qrupdur ki, Əbu Əyyub Ənsari onların arasında idi.”

Həmçinin, onun təvatürünə dəlalət edən şahidlərdən Əbu İshaq Sələbinin “Məaric” surəsinin təfsirində iki mötəbər sənədlə verdiyi hədisdir: “Elə ki, Allahın rəsulu (s) Qədir-xum günü camaatı bir yerə yığdı, Əlinin əlindən tutub buyurdu: Mən kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır. Bu xəbər hər yerə yayıldı və Haris ibn Nöman Fehriyə çatdı. O, Allah rəsulunun yanına gəldi və dəvədən düşüb, onu bir yerə bağladı. Sonra üzünü Peyğəmbərə tutub dedi: Ey Məhəmməd, bizə əmr etdin ki, Allahın birliyinə şəhadət verək elədik, dedin, Allahın rəsulusan, qəbul etdik, əmr verdin gündə beş dəfə namaz qılaq, səndən qəbul etdik, zəkatı əmr etdin, qəbul etdik, ramazan ayının orucunu əmr etdin, qəbul etdik, həcc əmri verdin, eşitdik və itaət etdik. Yenə də bunların hamısına razı olmadın, axırda əminoğlunun əlindən tutub, onu bizim hamımızdan üstün etdin və dedin: «من كُنْتُ مَوْلاهُ فَعَليٌّ مَوْلاه» Mən kimin mövlasıyamsa, bu (Əli) onun mövlasıdır. Bu əmr öz tərəfindən idi, ya Allah tərəfindən? Peyğəmbər (s) buyurdu: And olsun o Allaha ki, bu fərman onun tərəfindəndir. Haris geri döndü və dəvəsinə tərəf hərəkət edərək dedi: Ey Pərvərdigar, Məhəmmədin dedikləri həqiqətdirsə, göyün daşlarını üstümüzə yağdır və ya bizə ağır əzab göndər. Hələ dəvəsinə çatmamışdı ki, Allah bir daş göndərdi və onun başına dəydi. Sonra Allah bu ayəni nazil etdi: سَأَلَ سَائِلٌ بِعَذَابٍ وَاقِعٍ لِّلْكَافِرينَ لَيْسَ لَهُ دَافِعٌ مِّنَ اللَّهِ ذِي الْمَعَارِجِ “(Kafirlərdən) biri vaqe olacaq əzab barədə soruşdu. (O əzabı) kafirlərdən dəf edə biləcək bir kimsə yoxdur! (O əzab yüksək) dərəcələr sahibi olan Allahdandır!” Bu, hədisin eyni sözləri idi.[1] Tanınmış sünni şəxsiyyətlərindən bir çoxu bu hədisi mübahisəsiz qəbul etmişlər.[2] Vəssalam.

***“Ş”***

---

[1] Sələbi onu Əllamə Şəblənci Misri kimi tanınmış sünnilərdən bir neçəsindən “Nurül-Əbsar” kitabında Əlinin şərhi-halında nəql etmişdir.

[2] “Sireyi-Hələbi”, 3-cü cild, səh. 214.

# *ƏLLİ YEDDİNCİ MƏKTUB*

<u>25</u> <u>Məhərrəm</u> <u>1330</u>

***1. “Qədir” hədisinin təvili.***

***2. Bu mətləblərin qərinə və şahidi.***

1. Səhabənin əməllərini doğru bilməyimiz səbəb olur ki, “qədir” hədisini təvil edək, istər hədis mütəvatir olsun, istər qeyri-mütəvatir. Çünki, sünnilər mövla sözünün Qurani-kərimdə bir çox mənada işləndiyini söyləmişlər: Bəzən layiq mənasındadır. Bu ayədə kafirlərə xitabən işləndiyi kimi: “Sizin yeriniz atəşdir və o sizə layiqdir.”[1] Bəzən “nasir”, “köməkçi” mənasındadır: “Bu ona görə ki, Allah iman gətirənlərin himayədarıdır. Kafirlərin isə dostu (himayədarı) yoxdur!”[2] Bəzən də “varis” mənasında işlənmişdir: “Ata, ana və yaxın adamların qoyub getdikləri maldan hər biri üçün varis təyin etdik.”[3] Yenə Zəkəriyyanın dilindən Quranda verildiyi kimi: “Mən özümdən sonra varislərimdən qorxuram.”[4] “Sədaqətli” mənasında da işlənmişdir: “O gün dostlar bir-birlərinin hayında olmayacaqlar.”[5]

Əlbəttə, “vəli” sözü işlərdə irəli (üstün) mənasında da işlənir. Necə ki, deyirik: «فُلانٌ وَلِيُّ الْقاصِر» “Filankəs divanənin vəlisidir – onun işlərində təsərrüf etməyə özündən layiqdir. Eləcə də nasir (köməkçi), məhbub (dost) mənasında da işlənmişdir.

Sünnilər deyirlər ki, bəlkə Peyğəmbərin (s) o sözündən məqsədi bu olmuşdur: «مَن كُنْتُ ناصِرَهُ اَوْصَديقهَ اَوْ حبيبَهُ فَاِنَّ عَلِيّاً كَذلِكَ» “Mən kimin köməkçisi, dostuyamsa, Əli də belədir.” Bu məna isə üç xəlifənin, saleh sələfin kəramət və əzəməti ilə müvafiq gəlir.

2. Buna şahid olaraq hədisin məqsədini göstərmək olar. Bir hədisdə var ki, Əli ilə Yəməndə olanlar ondan (Allah xatirinə) tələbkarlıq görüb, onun dalınca danışmış və ona irad tutmuşdular. Buna görə, Peyğəmbər (s) “qədir” günü imamı təriflədi, onun fəzilətlərini saydı ki, onun calalını müsəlmanlara açıqlasın və haqqında pis danışanları rədd etsin. Bu sözün şahidi odur ki, Allahın rəsulu (s) xütbəsində Əli haqqında xüsusi olaraq «مَن كُنْتُ وَليُّهُ فَعَليٌّ وَليُّهُ» və Əhli-beyti haqqında isə ümumi olaraq buyurdu: «إنّي تارِكٌ فيكُمُ الثَّقَلَيْنِ كِتابَ اللهِ وَ عِتْرَتي اَهْلَ بَيتي» “Mən sizin yanınızda iki qiymətli şey qoyuram. Allahın kitabı və Əhli-beytim.”

Deməli, bu iş onun özünün şəxsi hörmətini hifz etmək üçün olan bir vəsiyyət imiş. Çünki o həzrətin hörmətinin xüsusi şəkildə Əlidə və ümumi şəkildə Əhli-beytində qorunması belə mümkün idi. Elə buna görə də sünnilər deyirlər ki, bu hədisdə (“qədir” hədisi) xilafətə vəsiyyət və imamətə dəlil yoxdur. Vəssalam.

***“S”***

---

[1] “Hədid”, ayə 15.
[2] “Məhəmməd”, ayə 11.
[3] “Nisa”, ayə 33.
[4] “Məryəm”, ayə 5.
[5] “Duxan”, ayə 41.

# *ƏLLİ SƏKKİZİNCİ MƏKTUB*

<u>27</u> <u>Məhərrəm</u> <u>1330</u>

***1. "Qədir" hədisinin təvili mümkün deyildir.***

***2. Təvilə" qərinə"yazmaq boşboğazlıq və fitnəkarlıqdır.***

1. Mən bilirəm ki, qəlbiniz zikr etdiyinizə inanmır və razı deyil Sizin canınız və ruhunuzun ona meyli yoxdur. Çünki, siz Allahın rəsulunun (s) qiymətini bilir, o həzrətin həm nitqinin hikməti, həm isməti, həm nübüvvətinin başa çatmasını, həm də müdriklərin sərvəri və ənbiyanın sonuncusu olmasını gözəl dərk edirsiniz. Və həm də bilirsiniz: وَمَا يَنطِقُ عَنِ الْهَوَى إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى عَلَّمَهُ شَدِيدُ الْقُوَى "O, həvayi-nəfs üzündən söz demir. Yalnız ona vəhy olunanı deyir. Qüdrətli şəxs ona təlim vermişdir." (Nəcm, ayə 3-4-5)

İndi isə əgər yadlar sizdən "qədir" günü barəsində soruşsalar ki, nə üçün sizin Peyğəmbəriniz minlərlə adamı o gün hərəkətdən saxladı? Nə üçün şiddətli istidə o qədər insanı bir yerə topladı? Nə üçün qabaqda gedənlərə qayıtmaq fərmanı verdi və səbir etdi ki, geri qalanlar da onlara çatsın və o susuz, quru səhrada minikdən düşsünlər? Sonra ayrılıq məhəlli olan məkanda (Allah tərəfindən) xütbə oxumağı, orada olanların olmayanlara bu xəbəri yetirməyi tapşırmağı və sözün əvvəlində öz ölümündən xəbər verməyi nəyə görə idi? Tezliklə Pərvərdigarımın nümayəndəsi (Əzrail (ə)) mənim ardımca gələcək və mən onun dəvətini qəbul etmişəm. Mən məsulam, siz də məsulsunuz və dindiriləcəksiniz" sözləri ilə doğrusu, Peyğəmbər (s) hansı hökmün təbliği haqqında onları sorğu-suala çəkirdi? Və ümmət hansı əmrə itaət haqqında soruşulacaqdı? Nə üçün tövhidi yada salaraq onlardan soruşdu: "Siz Allahın vahidliyinə şəhadət vermirsinizmi? Şəhadət vermirsinizmi ki, Məhəmməd onun qulu və rəsuludur və behişt haqdır, atəş, ölüm, ölümdən sonra dirilmə haqdır, qiyamət olacaqdır, onda şübhə yoxdur və Allah qəbirdə olanları dirildəcək?" Hamı dedi: "Bəli, şəhadət veririk." Doğrusu, nə üçün belə rəftar etdi? Nə üçün bu suallardan sonra, dərhal, Əlinin əlini tutdu və hətta o qədər qaldırdı ki, paltarının və qolunun altının ağartısı göründü? Sonra dedi: "Ey insanlar, Allah mənim mövlamdır və mən də möminlərin mövlasıyam." Nə üçün "möminlərin mövlasıyam" sözünü "mən onların özlərindən onlara yaxınam" ilə təfsir etdi? Nə üçün bu təfsirdən sonra «فمن كنتُ مولاه فهذا مولاه» və ya «من كنتُ وليّه فهذا وليّه اللهم وال من والاه و عاد من عاداه و انصُر من نصره و اخذُل من خذله» – dedi? Nə üçün imamlar və doğru xəlifələrdən başqasına layiq olmayan bu duaları yalnız ona həsr etdi? Hansı məsələyə görə sözündən əvvəl onlardan etiraf istədi – "Məgər mən sizə sizin özünüzdən yaxın deyiləmmi? Onlar cavab verdilər: "Bəli." Sonra buyurdu: «فمن كنتُ مولاه فهذا مولاه» və ya «من كنتُ وليّه فهذا وليّه». Nə üçün Əhli-beyti Allahın kitabı ilə bir cərgədə və bir vəzndə qiymətləndirdi? Niyə Əlini hesab gününə qədər ağıl sahiblərinin rəhbəri və müqtədası etdi? Doğrusu, hikmətli Peyğəmbərin (s) burada olan bütün səyi nə üçün idi? Bu qədər təqdimata ehtiyac olan o mühüm iş nədən ötrü idi? Onun o vəziyyətdə belə bir səhnə yaratmasında məqsədi nə idi? O hansı fərman idi ki, Allah onun hamıya çatdırılması əmrini bu şəkildə istəmişdi? يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ "Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (peyğəmbərlik vəzifəsi) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq." O hansı əmr idi ki, əgər onu təbliğ etməsəydi, Allahın risalətini yerinə yetirməmişdir? Bu nə iş idi ki, Allah bu qədər ona təkid etmiş, belə ki, onun

təbliğində olan həyəcan bir növ təhdidə (hədə-qorxuya) oxşayırmış? O nə vəzifə idi ki, Peyğəmbər (s) onun təbliğində fitnə xofu və qorxusu keçirirmiş və xüsusilə, münafiqlərin əziyyətindən qorunmaq üçün Allah tərəfindən nazil olan bəyana ehtiyacı var imiş?

Doğrusu, əgər yadlar sizə bu sualları versəydilər, cavabında deyəcəkdiniz ki, əziz və cəlallı Allahın və rəsulunun (s) məqsədi Əlinin qələbəsi, müsəlmanlara köməyi və onlara qarşı onun sədaqət və dostluğunun bəyanı idi, vəssəlam? İnanmıram siz özünüz bu cavablarla razılaşasınız və güman etmirəm ki, onu böyük Allaha və peyğəmbərlərin sonuncusuna layiq biləsiniz. Bəs siz fikirləşmirsiniz ki, Peyğəmbər (s) bütün səy və əzmini bəyana ehtiyac olmayan bir şeyə sərf etsin və elə məsələyə toxunsun ki, tamamilə bədihi və gün kimi aydındır? Şübhəsiz, siz Peyğəmbəri hər bir nöqsandan münəzzəh (pak) bilirsiniz. Şübhəsiz, siz o həzrəti ismətli, xəta və səhvdən uzaq bilirsiniz. Böyük Allah buyurmuşdur: “Bu (Qur’an Allah dərgahında) çox möhtərəm olan bir elçinin gətirdiyi kəlamdır. (Elə bir elçi ki,) çox qüvvətlidir; ərşin sahibi (Allah) yanında çox hörmətlidir (izzətlidir). (Elə bir elçi ki,) itaət ediləndir, həm də (Allah yanında vəhyə) e’tibarlı müvəkkildir. (Ey Məkkə əhli!) Həqiqətən, sizin dostunuz (müşriklərin dediyi kimi) divanə deyildir!”[1] Bütün bu vəsflərdən sonra onu çox aydın şeyləri bəyan etməkdə ittiham etmək olarmı? Allah və Peyğəmbəri belə şeylərdən yüksəkdədirlər və o isti səhrada Peyğəmbərin (s) məqamına münasib və “qədir” günündə onun sözü və işinə layiq olan yeganə məqsəd Allah “əhd”inin təbliği və xalqa çatdırılması – özündən sonra olan canişinin təyini idi.

Allah şahiddir ki, Peyğəmbərin (s) o gün Əlinin vəliəhdliyi və imamlığını təyin etməkdən başqa bir məqsədi olmamışdır. Beləliklə, bu hədisin qərinələri (şahidləri) Əlinin xilafətinə aydın dəlildir və təvilə qabil deyildir. Və onu inkar etmək üçün heç bir yol yoxdur. Bu, ağlı olan, eşidən və görən adam üçün aydın məsələdir.

2. Dəlil gətirənlərin güman etdikləri qərinə də yalandır və həqiqəti gizlətmək, onu yalanla qarışdırmaq üçün bir bəhanədir. Çünki, Peyğəmbər (s) Əlini iki dəfə Yəmənə göndərmişdir. Birinci dəfə hicri 8-ci ildə oldu və boşboğazlar aranı vurmağa başladılar. Mədinəyə qayıdandan sonra Peyğəmbərə ondan şikayət etdilər və Peyğəmbər çox narahat oldu və onların sözünü qətiyyətlə rədd etdi. Belə[2] ki, bir daha onun haqqında belə sözlər danışmadılar. İkinci dəfə hicrətin 10-cu ilində baş verdi. Peyğəmbər (s) özü ona bayraq verib, öz mübarək əli ilə o həzrətin başına əmmamə qoydu və buyurdu: “Hərəkət et və heç nəyə fikir vermə.” Və o, doğru yolla başı uca, şərəflə hərəkət etdi və Peyğəmbərin fərmanını yerinə yetirdi. Sonra həccətül-vidada Allahın rəsuluna qoşuldu və həccin niyyətini Peyğəmbər kimi etdi və Peyğəmbərin əməlinə uyğun ehram bağladı. Çünki Peyğəmbər (s) onu özünə qurbanda şərik etdi. Bu dəfə heç kəs Peyğəmbərə onun haqqında bir söz demədi və heç bir boşboğaz onun haqqında pis söz danışmadı. Bundan sonra kim deyər ki, “qədir” hədisi etiraz edənlərin sözünə xatir və ya belə adamları rədd etmək üçün deyilmişdir? Həmçinin, Əlidən (ə) cüzi şikayətə görə Peyğəmbərin (s) bu qədər mədh və səna deməyinə ehtiyac vardımı, özü də belə şəkildə, dəvə yüklərindən minbər hazırlansın və nə qədər təqdimat söyləsin?! “Nəuzubillah”, o həzrətin sözündə, işində və məqsədlərində əsla bihudəlik olmamışdır. Heç vaxt! Bu cür işlər onun hikmət və vuqarından uzaqdır. Böyük Allah onun haqqında buyurur: “Bu (Qur’an) çox möhtərəm bir elçinin (Allahın ona nazil etdiyi) sözüdür! O, şair sözü deyildir! Nə az inanırsınız! O, kahin sözü də deyildir! Nə az düşünürsünüz! O, aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir.”[3] Əgər Peyğəmbər yalnız o həzrətin fəzilətlərini açıqlamaq və müxaliflərinin sözünü rədd etmək

---

[1] “Təkvir”, 19-22.

[2] 36-cı məktubda verildiyi kimi. Oradakı izahı əldən vermə.

[3] “Əl-haqqə”, 40-43

istəsəydi, deyərdi: «هذا ابْنُ عَمّي وَ صِهْري وَ اَبو وُلْدي وَ سَيِّدُ اَهْلِ بَيْتي فَلا تُؤْذُوني فيهِ» “Bu mənim əmim oğlu, kürəkənim, övladlarımın atası və Əhli-beytimin seyyididir. Onu incitməklə məni narahat etməyin.” Və onun fəzl və ləyaqətinin böyüklüyünə dəlalət edən bu kimi söz deyərdi. Bütün bunlardan əlavə, hədisin sözlərindən də elə bu dediklərimiz başa düşülür.[1] Hətta Həzrət (s) onu hər hansı səbəbə görə də söyləmiş olsa, axırı ki, sözlərin zahiri dediyimiz mənanı verir, daha onun səbəbi əhəmiyyət daşımır (diqqət edin). O ki qaldı Peyğəmbərin “qədir” hədisində Əhli-beytin zikrinə, artıq bu dediyimiz mənaya aşkar sübutdur. Belə ki, onları Quranla bərabər tutmuş, onları insanların rəhbər və pişvası hesab etmiş və buyurmuşdur: «اِنّي تارِكٌ فِيكُم الثِّقْلَيْنِ ما اِنْ تَمَسَّكْتُمْ بِه لَنْ تَضِلّوُا كِتابَ اللهِ وَ عِتْرَتي اَهْلَ بَيْتي» “Mən sizin yanınızda iki qiymətli şey qoyuram ki, əgər ona bağlansanız heç vaxt yolunuzu azmazsınız: Allahın kitabı və Əhli-beytim.” O həzrət belə etdi ki, ümmət bilsin ki, ondan sonra bu ikisindən qeyrisin hidayətçi ola bilməz və bu ikisindən başqasına arxalanmasınlar. Pak Əhli-beyt imamlarına tabeliyin vacibliyinə dəlalət üçün yalnız bu kifayətdir ki, onları Allahın kitabı ilə bir cərgədə hesab etmiş və heç vaxt batil onlara yol tapa bilməz. Deməli, Allah kitabına əks olan kitaba müraciət etməyin cayiz olmadığı kimi, Əhli-beyt imamlarının hökmünə müxalif olan imam və rəhbərlərə müraciət etmək də cayiz deyildir. Peyğəmbər buyurub: «فَاِنَّهُما لَنْ يَنقَضِيا» və ya «لَنْ يَفْتَرِقا حتّي يرِدا عليَّ الحوْض» Həzrətin “Bu ikisi bir-birindən ayrılmayacaqlar. Kövsər hovuzunun kənarında mənim yanıma gələnə qədər” – sözü yer üzünün Allah rəsulundan sonra Quranla eyni səviyyədə olan imam və pişvalardan xali olmadığına bir dəlildir. Bu hədis ətrafında dərindən fikirləşən şəxs bilər ki, xilafət yalnız imamlara məxsusdur. Bu deyilənləri imam Əhmədin “Müsnəd”indəki[2] Zeyd ibn Sabitin Allahın rəsulundan (s) nəql etdiyi hədis də sübut edir: «اِنّي تارِكٌ فيكُم خَليفَتَيْنِ كِتابَ اللهِ حَبْلٌ مَمْدُودٌ مِنَ السَّماء اِلَي الْأَرْضِ وَ عِتْرَتي اَهْلَ بَيْتي فَاِنَّهُما لَنْ يَفْتَرِقا حتّي يردا عليّ الحوْض» “Mən sizin aranızda iki xəlifə qoyuram: ip tək göydən yerə endirilmiş Allahın Kitabı və Əhli-beytim. Onlar Kövsər hovuzunun kənarında mənim yanıma varid olana qədər bir-birindən ayrılmayacaqlar.” Bunun özü Əhli-beyt imamlarının xilafətinə sübutdur. Siz bilirsiniz ki, Əhli-beytə tabeçiliyin vacibliyi “nəss”i elə Əliyə tabeçiliyin vacibliyi “nəss”idir. Çünki o, Əhli-beytin seyyidi və onların rəhbəridir.

Buna görə də “qədir” hədisi və onun kimiləri əvvəldə birbaşa Əliyə (ə) aid olur: bəzən ona görə ki, o, Allah və rəsulu (s) tərəfindən Quranla bir səviyyədə nəzərə alınmış imam kimi, bəzən də, özünün böyük şəxsiyyəti baxımından, çünki o, vəlisi Peyğəmbər olan hər bir şəxsin vəlisidir.

Vəssalam.

***“Ş”***

---

[1] Xüsusilə, ona işarə olunan əqli və nəqli qərinələr olmaqla.

[2] 5-ci cildin 122-ci səhifəsinin əvvəli.

# *ƏLLİ DOQQUZUNCU MƏKTUB*

28 Məhərrəm 1330

***1. Həqiqət aşkar oldu.***

***2. Şüurlu şəkildə həqiqətdən uzaqlaşmaq.***

1. Mən indiyədək mübahisə etdiklərim arasında səndən mülayim və dəlil gətirməkdə səndən güclüsünü görmədim. İşarə etdiyiniz o qərinələrlə həqiqət aşkar oldu və yəqinin üzərindən şəkk pərdəsi götürüldü. artıq heç bir şəkk yeri qalmadı ki, "qədir" hədisində gəlmiş "vəli", "mövla" sözlərindən məqsəd yalnız "idarə etməkdə hamıdan layiqli mənasındadır. Əgər məqsəd "nasir" və bunun kimilər olsaydı, sual verən Allahdan əzabın enməsini istəməzdi. Beləliklə, sizin söylədikləriniz "mövla" mənasında tamamilə doğru və şübhəsizdir.

2. Amma kaş, hədisin təfsirindəki nəzərlə də razılaşaydınız ki, alimlər imam İbn Həcər "Səvaiq"də və Hələbi "Sirə"də deyirlər ki, düzdür Əli (ə) imamətə hamıdan çox layiqdir, amma məqsəd budur ki, yalnız müsəlmanlar ona beyət edəndən sonra imam və hakim ola bilər. Yoxsa, lazım gələr ki, Peyğəmbərin (s) həyatda olduğu zamanda imam olsun, və hədisdə onun imamətinin vaxtına işarə olunmadığından, məqsəd budur ki, "beyət zamanı o, vilayətdə hamıdan layiqlidir." Buna əsasən, daha üç xəlifə ilə ziddiyyət yaranmayacaq və beləliklə, saleh sələflərin kəramət və ehtiramı hifz olunacaqdır. Vəssalam.

***"S"***

# *ALTMIŞINCI MƏKTUB*

30 Məhərrəm 1330

***Həqiqətdən uzaqlaşmağın mümkünsüzlüyü.***

Allah haqqı sizin vasitənizlə qorusun! Bizə tövsiyə etmişsiniz ki, “qədir” hədisinin təfsiri ilə razılaşaq “Əli imamətə o vaxt layiqdir ki, müsəlmanlar onu seçsin və onunla beyət etsinlər.” Belə çıxır ki, o həzrətin “qədir” günü elan olunmuş üstün Peyğəmbərin buyurduğu saatdan yox, öz vaxtına aiddir. Başqa sözlə, onun üstünlüyü tam gələcəyə aid olub, üç xəlifənin xilafəti zamanına dəlalət etmir.

Biz sizi həqiqətin işığına, ədalətin izzətinə, insafın şərəfinə və fəzilətin namusuna and veririk, özünüz bu məna ilə qane ola bilərsinizmi ki, biz də sizinlə bərabər addımlayaq? Razı olarsınızmı ki, bu məna sizin tərəfinizdən göndərilsin və sizə mənsub edilsin, biz də sizə tabe olaq və sizin kimi yol gedək? Mən sizin ona qane olub, onunla razılaşmağınıza inana bilmirəm. İnan ki, siz də bu mənanı ehtimal vermiş adamlardan heyrətdəsiniz. Bu elə ehtimaldır ki, hədisin ləfzi əsla ona dəlalət etmir, onun məzmununa tamamilə yaddır. Peyğəmbərin hikmət və bəlağət, yüksək rəftarı, mənalı sözləriylə düz gəlmir və həmçinin, əvvəldə işarə etdiyimiz qəti şahidlərlə də əlaqəsi yoxdur. Həmçinin, Haris ibn Nöman Qəhrinin hədisdən başa düşdükləriylə də müvafiq olmayacaq. Elə buna görə Allah, Peyğəmbəri, səhabə və hamı biz dediyimiz mənanı deyirlər.

Bütün bunlardan əlavə verilən təfsir öz-özlüyündə hədisin ümumi mənasıyla da düz gəlmir. Çünki belə çıxır ki, Əli ilk üç xəlifə və onların dövrünün müsəlmanlarının heç birinin mövlası deyilmiş (diqqət edin) və bu da Peyğəmbərin (s) buyruğunun tam əksinədir. Halbuki Həzrət (s) buyurdu: “Mən möminlərə nisbətdə özlərindən yaxın deyiləmmi?” Hamı dedi: “Bəli.” O zaman buyurdu: «فمن كنتُ مولاه» yəni hamı, tək-tək «فعليّ مولاه» istisnasız olaraq. Diqqət yetirirsinizmi? Hətta Əbu Bəkr və Ömər Peyğəmbərin (s) “qədir” günü Əli haqqında dediyi sözünü eşidəndə ona dedilər[1]: «اَمْسَيْتَ يابْنَ اَبي طالِبٍ مَوْلُي كلِّ مُؤِمنٍ وَمُؤْمِنَةٍ» “Ey Əbu Talibin oğlu, hər mömin kişi və mömin qadının mövlası oldun!” Mülahizə edin, ikisi də aşkar dedilər ki, o bütün mömin qadın və kişinin mövlasıdır və bu ümumiyyət “qədir” günündən etibarən bütün kişi və qadın möminlərin hamısına şamildir.

Nəql olunmuşdur ki, Ömərə dedilər: “Sən Əli ilə elə rəftar edirsən ki, Peyğəmbərin (s) səhabəsindən heç kəslə o cür rəftar etmirsən.[2] Ömər cavab verdi: Axı o mənim mövlamdır.” Görürsünüz, özü aydın surətdə demişdir ki, Əli onun mövlasıdır. Halbuki, o vaxt hələ nə xalq Əlini xilafətə seçmişdi və nə də ona beyət etmişdi. Bu məna ona dəlalət edir ki, Əli elə o vaxtdan bütün müsəlmanların mövlasıdır.

Başqa bir məsələ də bizim dediyimizin şahididir: “İki ərəbin bir-birilə sözü düşmüşdü. Qəzavət üçün Ömərin yanına gəldilər. Ömər Əliyə (ə) dedi ki, onların arasında qəzavət etsin. O ikisindən biri dedi: Bu şəxsmi bizim aramızda qəzavət etsin? Ömər yerindən sıçrayıb, onun

---

[1] İbn Həcərin “Səvaiq”də beşinci fəslin axırında, birinci babındakı nəqlinə əsasən Darü-Qütni nəql etmişdir. 26-cı səhifəsinə müraciət et. Başqa hədis yazanlar da öz sənədləri və təriqləriylə onu vermişlər. Əhməd də Ömərdən belə sözü Bəra ibn Azibin “Müsnəd”in 4-cü cildinin 281-ci səhifəsindəki hədisinə əsasən vermişdir. Bu məna kitabın 54-cü məktubunda da getmişdir.

[2] Darü-Qütni “Səvaiq”in 36-cı səhifəsindəki nəqlə əsasən, onu nəql etmişdir.

boğazından tutdu[1] və dedi: Vay olsun sənə! Heç bilirsənmi bu kimdir? Bu, sənin mövlan və hər bir mömin şəxsin mövlasıdır və mövlası bu şəxs olmayan mömin deyil.”

Bu barədə xəbər və rəvayətlər çoxdur və siz –Allah haqqı sizin vasitənizlə qorusun!– yaxşı bilirsiniz ki, əgər İbn Həcərin və onun ardıcıllarının “qədir” hədisi barədə olan fikirləri düzdürsə, onda gərək Peyğəmbəri (nəuzubillah) bihudə danışan bilək. Allaha pənah aparırıq bu cür fikirlərdən! Çünki onların (İbn Həcər və ardıcılları) etiqadına əsasən, Peyğəmbərin o qəribə dayanacaq və qeyri-adi yığıncaqda deməli elə bir mühüm sözü yox imiş və təkcə bunu demək istəmiş ki, camaat nə vaxtsa Əli ilə beyət etmək istəsə, o vaxt onların rəhbəri olacaqdır. Bu sözə hələ ağıllılar qalsın bir tərəfə, səfehlər də gülər. Daha Əli başqaları üzərində bir imtiyaza malik olmayacaq və müsəlmanların heç biri də bu barədə müstəsna deyillər. Buna görə də Əli, başqa səhabə və müsəlmanlar bu cəhətdən bərabərdirlər. Bəs, o hansı fəzilətdir ki, Peyğəmbər o gün Əli haqqında buyurub? O imtiyaz və fəzilət hansıdır? Ey müsəlmanlar, – əgər onların yürütdüyü “fəlsəfə” qurtarsa– buyurun, siz cavab verin!

Amma Əlinin imamət və rəhbərliyi əgər gələcəyə aid edilməsə, onda “o, Peyğəmbərin (s) zamanında da rəhbərdir” – fikri səhv və camaatı düz yoldan sapdırmaqdır, “mənzilət” hədisini düzgün başa düşməməkdir. Çünki orada deyilir: «اَنْتَ مِنّي بِمَنْزِلَةِ هارُوْنَ مِن موسي اِلّا اَنَّهُ لانَبِيَّ بَعْدي»

Həmçinin “inzar” günündəki “yovmüd-dar” hədisini görməməzliyə vurmaqdır: «فَاسْمَعُوا لَهُ وَ اَطيعُوا» “Onu eşidin və itaət edin.” və çoxlu sayda biri-digərilə bağlı deyilmiş hədisləri unutmaqdır.

Lap fərz etsək ki, Əlinin imamət və rəhbərliyi Peyğəmbərin (s) həyatı dövrünə şamil deyildir, amma o həzrətin (s) ölümündən sonra ki, qətidir. Çünki şübhəsiz bu ümumi qayda onu tələb edir və o da budur ki, əgər çoxmənalı bir kəlmədən “qərib” (yaxın) mənasının ifadəsi ələ gəlməzsə, sonrakı ən yaxın məna nəzərə alınacaqdır.

Amma saleh sələfin kəramət və ehtiramına gəldikdə isə dediyiniz təvilsiz də qorunub saxlanılır. Belə ki, əgər lazım gəlsə onu açıqlayaram. Vəssalam.

***“Ş”***

[1] İbn Həcərin “Səvaiqi-Mühriqə”nin 11-ci fəslinin axırlarında verdiklərinə müvafiq olaraq Darü-Qütni də onu nəql etmişdir.

# *ALTMIŞ BİRİNCİ MƏKTUB*

<u>1</u> <u>Səfər</u> <u>1330</u>

***Şiə təriqi ilə gəlib çatmış “nüsus”un tələbi.***

Əgər saleh sələfin kəramət və ehtiramı qorunmuş olsa, imamətə aid olan hədislərin heç birində eyib yoxdur. İstər “qədir” hədisi olsun, istər ondan başqası və təvilə yer yoxdur. Ola bilər bu barədə sizdə hədislər olsun ki, sünnilərin ondan xəbəri olmasın. Xahiş olunur, onları nəql edin ki, agah olaq. Vəssalam.

***“S”***

# *ALTMIŞ İKİNCİ MƏKTUB*

2 Səfər 1330

***Qırx hədis.***

Bizdə Peyğəmbərin (s) pak Əhli-beytinin təriqiylə səhih və mütəvatir “nəss”lər vardır ki, sünnilərin onlardan xəbəri yoxdur. İndi sizə qırx hədis nəql edirəm:[1]

1. Səduq Məhəmməd ibn Əli ibn Hüseyn ibn Musa ibn Babəveyh Qummi “İkmalüd-din və itmamün-nemə” kitabında Əbdür-Rəhman ibn Səmurədən nəql edir ki, Peyğəmbər (s) ona buyurmuşdur: «يَابْنَ سَمُرَة اِذا اخْتَلَفَت الْأَهْواءُ و تَفَرَّقَتِ الآراءُ فعَلَيْكَ بِعَلِيّ بْنِ اَبي طالِبٍ فَاِنَّهُ اِمامُ اُمَّتي وَ خَليفَتي عَلَيْهِم مِن بَعْدي» “Ey Səmurənin oğlu, rəylər müxtəlif və pərakəndə olanda Əli ibn Əbu Taliblə ol! O, məndən sonra mənim ümmətimin imamı və xəlifəmdir.”

2. Yenə Səduq “İkmalüd-din” kitabında İbn Abbasdan nəql edir ki, Allahın rəsulu (s) buyurub: «اِنَّ الله تَبارَكَ وَ تعالي اِطَّلَعَ اِلي اَهْلِ الْاَرْضِ اِطّلاعَةً فَاخْتارَني مِنها فَجَعَلَني نَبيّاً ثُمَّ اِطَّلَعَ الثّانِيَةَ فَاخْتارَ عَليّاً فَجَعَلَهُ اِماماً ثُمَّ اَمَرَني اَنْ اَتَّخِذَهُ اَخاً وَ وَليّاً وَ وَصِيّاً وَ خَليفَةً وَ وَزيراً» “Allah yer əhlinə baxıb, məni seçdi və peyğəmbəri etdi. Yenidən baxıb, Əlini seçdi və onu imam etdi. Sonra mənə buyurdu ki, onu özümə qardaş, vəli, xəlifə və vəzir edim.”

3. Yenə Səduq “İkmalüd-din”də sənədlə imam Sadiqdən (ə), o da ata və babalarından və Peyğəmbərdən (s) belə nəql etmiş: “Cəbrail Allah tərəfindən mənə xəbər verdi ki, Allah buyurmuşdur: Bilsin ki, Məndən başqa məbud yoxdur, Məhəmməd (s) Mənim bəndəm və elçimdir, Əli ibn Əbu Talib xəlifəm, onun imam olan övladları hüccətlərim və (onları), behiştə daxil edəcəyəm.”

4. Yenə Səduq “İkmalüd-din”də imam Sadiqin (ə), vasitəsiylə, cəddi Rəsulullahdan (s) belə nəql etmişdir: “Məndən sonra imam 12 nəfərdir. Onların birincisi Əli (ə), sonuncusu Qaimdir (ə). Onlar mənim xəlifələrim və vəsilərimdir.”

5. Yenə Səduq Əsbəğ ibn Nübatədən nəql etmişdir: “Bir gün Əli ibn Əbu Talib (ə) bizim yanımıza gəldi və əlini oğlu Həsənin (ə) əlindən tutduğu halda deyirdi: Bir gün Peyğəmbər (s) evdən çıxdı və əli mənim əlimdə ikən dedi: İnsanların ən yaxşısı və onların seyyidi və sərvəri, məndən sonra qardaşım Əlidir. O, məndən sonra hər bir müsəlmanın imamı və hər möminin əmiri olacaqdır.”

6. Yenə Səduq “İkmalüd-din”də imam Rzadan (ə), o da ata-babalarından, onlar da Peyğəmbərdən (s) belə nəql edir: “Kim mənim dinimə arxalanmaq və məndən sonra nicat gəmisinə minmək istəyirsə, Əli ibn Əbu Talibə iqtida etsin. O, vəsi və ümmətimə həyatımda və vəfatımdan sonra xəlifə olacaq.

---

[1] Bu ədədi ona görə seçdik ki, çünki Əmirəl-möminin Əli ibn Əbu Talib, Abdullah ibn Əbbas, Abdullah ibn Məsud, Abdullah ibn Ömər, Əbu Səid Xidri, Əbu Dərda, Əbu Hüreyrə, Ənəs ibn Malik, Məaz ibn Cəbəl çoxlu və müxtəlif təriqlərlə belə nəql etmişlər: Peyğəmbər (s) buyurub: “Kim dinimdən 40 hədis əzbərləyib onu qorusa, Allah qiyamətdə o kəsi fəqih və alimlərin zümrəsində məhşərə gətirəcək.” Başqa bir rəvayətdə deyilir ki, “Allah onu alim və fəqih kimi dirildəcək.” Əbu Dərdanın rəvayətində deyilir: “Mən qiyamətdə onun müdafiəçisi və (lehinə) şahid olacağam.” İbn Məsudun rəvayətində “...ona deyiləcək behişt qapılarının hansından istəyirsən, daxil ol.” İbn Ömərin rəvayətində belədir: “...alimlərin sırasına yazılar və şəhidlərlə birgə dirilər.” Qırx hədisin və başqalarının əzbərlənməsi haqqında məktublarımızda da bir sıra hədislər qeyd etmişdik. Peyğəmbərin (s) bu sözü bizə kifayətdir: “Allah mənim sözümü olduğu kimi eşidib, onu əzəbərləyib və başqalarına çatdırana yardım edər.”

7. Yenə Səduq "İkmalüd-din"də imam Rzadan (ə), ata-babalarından, onlar da Peyğəmbərdən (s) belə nəql edir: "Mən və Əli bu ümmətin atasıyıq. Bizi tanıyan Allahı tanımışdır. Bizi tanımayan və inkar edən Allahı tanımamış və inkar etmişdir. Əlidən ümmətin iki nəsli və behişt cavanlarının seyyidi və ağası Həsən və Hüseyn (əleyhumassəlam) dünyaya gəlmişdir. Hüseynin (ə) nəslindən doqquz nəfər dünyaya gələcəkdir ki, onlara itaət mənə itaətdir, onlara qarşı üsyan və itaətsizlik mənə qarşı üsyan və itaətsizlikdir. Onların doqquzuncusu Qaim və Məhdidir."

8. Səduq "İkmalüd-din"də imam Həsən Əskərinin (ə), vasitəsilə Allahın rəsulundan (s) nəql edir ki, İbn Məsuda buyurmuşdur: «يَابْنَ مَسْعُود عَليٌّ بْنُ اَبيطالِب اِمامُكُمْ بَعْدي وَ خليفتي عليْكم» "Ey Məsudun oğlu, Əli ibn Əbu Talib məndən sonra sizin imamınız və sizin üzərinizdə mənim xəlifəmdir."

9. Yenə Səduq "İkmalüd-din"də Salmandan nəql edir: "Peyğəmbərin (s) yanına daxil oldum, gördüm Hüseyn ibn Əli (ə) onun dizinin üstündə oturub. Həzrət onun dodaqlarını öpərək buyurur: Sən ağanın ağa oğlu, imamın imam oğlu, imamın qardaşı və imamların atasısan. Sən Allahın höccəti, Allahın höccətinin oğlu və doqquz höccətin atasısan. Onların doqquzuncusu onların Qaimidir."

10. Yenə Səduq "İkmalüd-din"də Salmandan Peyğəmbər (s) haqqında uzun bir hədisdə deyir ki, Həzrət (s) Fatiməyə (səlamullah ələyha) buyurdu: "Ey Fatimə, bilmirsənmi ki, biz elə bir ailəyik Allah axirəti bizim üçün seçib? Allah yer əhlinə nəzər yetirdi, onların arasından məni seçdi və ikinci dəfə baxdı, sənin ərini seçdi. Mənə vəhy etdi ki, səni onunla evləndirim, onu özümə vəli və vəzir və ümmətimin içərisində xəlifəm edim. Buna görə, atan peyğəmbərlərin, ərin isə övsiyaların ən yaxşısıdır. Sən birinci kəs olacaqsan ki, (behiştdə) mənim yanıma gələcəksən."

11. Yenə Səduq "İkmalüd-din"də uzun bir hədisdə nəql edir ki, bir dəfə Osmanın dövründə 200-dən çox mühacir və Mədinə əhli məscidə toplaşmışdı. Elmi bəhs və müzakirə edir və biri o birinə özünü öyürdü. Amma Əli sakit idi. Ona dedilər: Ey Həsənin atası, sən nə üçün danışmırsan? Əli dilə gəlib onların yadına Peyğəmbərin sözünü saldı: «عَليٌّ اَخي وَ وَزيري وَ وارثي وَ وَصيّي وَ خليفَتي في اُمَّتي وَ وِليُّ كُلِّ مؤمنٍ بَعْدي فَاَقِرّوا لَهُ بذلِك» "Əli mənim qardaşım, vəzirim, ümmətimin içərisində varis, vəsi və xəlifəmdir. O, məndən sonra hər bir müsəlmanın vəlisidir. Bu haqqı ona aid edin."

12. Yenə Səduq "İkmalüd-din"də Abdullah ibn Cəfər, Həsən, Hüseyn, Abdullah İbn Abbas, Ömər ibn Əbusəlmə, Üsamə ibn Zeyd, Salman, Əbuzər və Miqdaddan nəql edir ki, deyirlər: Peyğəmbərdən eşitdik ki, deyirdi: « اَنَا اَوْلي بِالْمُؤمِنينَ مِنْ اَنْفُسِهِمْ ثُمَّ اَخي عَليّ اَوْلي بالْمُؤمِنينَ مِنْ اَنْفَسِهِمْ» "Mən möminlərə nisbətdə nəfslərinə özlərindən üstünəm, sonra qardaşım Əli onlara özlərindən üstündür." (Burada onların üzərində hakimlik nəzərdə tutulur.)

13. Yenə Səduq "İkmalüd-din"də Əsbəğ ibn Nübatə və İbn Abbasdan xəbər verir ki, Rəsulullahdan (s) eşitdim buyurdu: "Mən, Əli, Həsən, Hüseyn və onun doqquz övladı (hər bir günah və çirkinlikdən) pak və təmizik."

14. Yenə Səduq "İkmalüd-din"də İbayə ibn Rəbi və ibn Abbasdan xəbər verir ki, Peyğəmbər (s) buyurdu: "Mən peyğəmbərlərin seyyidi və Əli övsiyyaların seyyididir."

15. Yenə Səduq "İkmalüd-din"də imam Sadiqin (ə), vasitəsilə Allahın rəsulundan (s) nəql edir: "Əziz və cəlil Allah peyğəmbərlərin arasından məni seçdi və mənim tərəfimdən Əlini. Onu bütün övsiyalardan üstün tutdu və Əlidən Həsən və Hüseyni və Hüseyndən övladlarını seçdi ki, dinini bidətçilər və azğınlardan qorusun."

16. Yenə Səduq “İkmalüd-din”də Əlidən (ə) nəql edir ki, Peyğəmbər (s) buyurub: “Məndən sonra imamlar on iki nəfərdir. Onların birincisi sən və sonuncusu Qaimdir ki, Allah onun əli ilə yerin şərq və qərbini fəth edəcək.”[1]

17. Səduq “Əmali” kitabında imam Sadiqin (ə), vasitəsilə Peyğəmbərdən nəql edir: “Əli məndəndir, mən Əlidən. O, mənim tinətimdən (torpağımdan) yaranmışdır. Odur ki, mənim sünnəm vasitəsilə xalqın ixtilaflarını onlara aydınlaşdırar. O, Əmirəl-möminin, nurluların və (qiyamətdə) alnı açıqların rəhbəri və övsiyaların ən yaxşısıdır.”

18. Səduq “Əmali”də, Əlidən (ə) nəql edir ki, Peyğəmbər (s) buyurub: “Əli möminlərin əmiridir. Onun vilayət əhdini Allah göydə bağlamış, mələklərini ona şahid tutmuşdur: O, xəlifə, Allahın höccəti və müsəlmanların imamıdır.”

19. Yenə Səduq “Əmali”də İbn Abbasdan nəql etmişdir ki, Peyğəmbər (s) Əliyə buyurdu: “Ey Əli, sən məndən sonra müsəlmanların imamı, əmirəl-möminin, ağüzlülərin rəhbəri, Allahın höccəti, övsiyaların seyyidisən.”

20. Yenə Səduq “Əmali”də İbn Abbasdan nəql edir ki, Peyğəmbər Əliyə buyurub: “Ey Əli, sən ümmətim arasında mənim xəlifəm və mənə nisbətdə Şeysin Adəmə olan nisbəti kimisən.”

21. Yenə Səduq “Əmali”də Əbuzərdən nəql edir: “Bir gün məsciddə Allahın rəsulunun (s) yanında idik. Buyurdu: İndi qapıdan bir şəxs daxil olacaqdır ki, möminlərin əmiri və müsəlmanların imamıdır. Birdən Əli ibn Əbu Talib qapıda göründü. Rəsulullah onu qarşıladı, sonra üzünü bizə tutub dedi: “O, məndən sonra sizin imamınız və pişvanızdır.”

22. Səduq “Əmali”də Cabir ibn Abdullah Ənsaridən xəbər vermişdir ki, Allahın rəsulu (s) buyurdu: “Əli ibn Əbu Talib İslamda ən qabaqcıl, elm və bilikdə hamıdan daha biliklidir... O, məndən sonra imam və xəlifədir.”

23. Səduq “Əmali”də İbn Abbasdan nəql etmişdir ki, Allahın rəsulu (s) buyurdu: “Ey camaat, kim Allahdan artıq düz danışandır? Böyük Allah mənə əmr etmişdir ki, Əlini sizin aranızda hidayət bayrağı, imam, xəlifə və vəsi edim, onu özümə qardaş və vəzir seçim.”

24. Səduq “Əmali”də Əbu Əyyaşdan nəql etmiş ki, Peyğəmbər (s) bizə xütbəsində buyurdu: “Əmim oğlu Əli qardaşım, vəzirim, xəlifəm və mənim tərəfimdən olan göstərişləri çatdırandır.”

25. Səduq “Əmali”də Əmirəl-möminindən (ə) nəql etmişdirki, deyir: Peyğəmbər (s) bir gün bizim üçün xütbə oxuyub buyurdu: “Ey insanlar, Allahın ayı sizə tərəf üz tutub...” Sonra Ramazan ayının fəziləti haqqında sözünü davam etdi. Mən soruşdum: Ey Allahın rəsulu, bu ayda ən yaxşı iş nədir? Buyurdu: “Pəhriz və Allahın haram etdiklərindən çəkinmək.” Ondan sonra ağladı. Soruşdum: Ey Allahın peyğəmbəri, ağlamağınıza nə səbəb oldu? Cavabında buyurdu: “Ağlamağım ona görədir ki, bu ayda sənin qanının tökülməyini halal hesab edəcəklər.«يا عَليُّ اَنْتَ وَصِيِّي وَ اَبو وُلْدي وَ خَليفَتي عَلي اُمَّتي في حَياتي وَ بَعْدَ مَوْتي اَمْرُكَ اَمْري وَ نَهْيكَ نَهْيي» Ey Əli, sən mənim vəsim, övladlarımın atası, mən öləndən sonra və sağlığımda ümmətimə xəlifəsən. Sənin əmrin mənim əmrim və səni inkar məni inkar etməkdir.”

26. Səduq “Əmali”də Əlidən (ə) nəql etmişdir ki, Peyğəmbər (s) buyurdu: “Ey Əli, sən mənim qardaşım, mən də sənin qardaşınam. Mən nübüvvət üçün seçilmişəm, sən imamət üçün. Mən “sahibi-tənzil”, sən “sahibi-təvilsən.” Sən bu ümmətin mürəbbisi və atasısan. Ey Əli, sən vəsi, xəlifə, vəzir, variz və mənim övladlarımın atasısan.”

28. Səduq “Əmali”də Ümmü-Sələmədən, uzun bir hədisdə nəql edir ki, Peyğəmbər buyurdu: “Ey Ümmü-Sələmə, eşit və şahid ol, Əli ibn Əbu Talib mənim vəsim və məndən sonra xəlifəm olacaqdır. Mənim vədlərimi əda edən və düşmənləri yolumun üzərindən uzaqlaşdırandır.”

---

[1] Bu hədis və bundan əvvəl verdiklərimizin hamısı “İkmalüd-Din”də 24-cü babın 149-164-cü səhifələrində verilib.

29. Səduq “Əmali”də Salman Farsidən xəbər vermişdir ki, eşitdim Allahın rəsulu (s) buyurdu: “Ey mühacir və ənsar, istəyirsinizmi sizə elə şeyi tanıdım ki, məndən sonra ona arxalanıb, heç vaxt yolunuzdan sapmayasınız? Ərz etdilər: Bəli, ey Rəsulullah (s). Buyurdu: Bu Əli qardaşım, vəsim, vəzirim, varisim, xəlifəm və sizin imamınızdır. Məni sevdiyiniz kimi onu sevin. Mənə ikram və ehtiram etdiyiniz kimi ona ehtiram edin. Cəbrail mənə əmr etmişdir ki, bu həqiqəti sizə deyim.”

30. Səduq Əmalidə Zeyd ibn Ərqəmdən xəbər vermişdir ki, Peyğəmbər (s) buyurdu: “İstəyirsinizmi sizə bir şeyi göstərim ki, əgər ona arxalansanız heç vaxt həlak və yolu azmış olmazsınız?” O vaxt buyurdu: “Sizin imam və vəliniz Əli ibn Əbu Talibdir. Ona arxa və ona qarşı xeyirxah olun, onu təsdiq edin ki, Cəbrail mənə bu xəbəri yaymağı (Allah tərəfindən) əmr etmişdir.”

31. Səduq “Əmali”də İbn Abbasdan xəbər vermişdir ki, Allahın rəsulu (s) buyurdu: «يا عَلِيُّ اَنْتَ اِمامُ اُمَّتي وَ خَليفَتي عَلَيْها بَعْدي» “Ey Əli, məndən sonra ümmətimin rəhbər və xəlifisisən.”

32. Səduq “Əmali”də İbn Abbasdan xəbər vermişdir ki, Allahın rəsulu (s) buyurdu: “Allah mənə vəhy etdi ki, ümmətimin içərisindən bir nəfəri qardaşım, varisim, xəlifəm və vəsim edim. Soruşdum: Ey Pərvərdigar, o şəxs kimdir? Vəhy gəldi: O səndən sonra ümmətin imamı və Mənim höccətimdir. Dedim: Ey Pərvərdigar, o kimdir? Buyurdu: Mənim sevdiyim və Məni sevən şəxsdir. Və nəhayət buyurdu: O, Əli ibn Əbu Talibdir.”

33. Səduq “Əmali”də imam Sadiqin (ə), vasitəsilə Allahın rəsulundan (s) nəql etmişdir: “Meraca gedəndə Allah, Əli barədə mənə bu sifarişi etdi ki, o pəhrizkarların imamı, nurluların rəhbəri və möminlərin sərkərdəsidir...”

34. Səduq “Əmali”də imam Rzanın (ə), vasitəsilə Peyğəmbərdən (s) xəbər vermişdir: “Əli məndəndir və mən Əlidən. Allah Əlinin qatilini öldürsün, Əli məndən sonra ümmətin imamıdır.”

35. Şeyxüt-Taifə Əbu Cəfər Məhəmməd ibn Həsən Tusi “Əmali”sində Əmmar Yasirdən nəql etmiş ki, Rəsulullah (s) Əliyə (ə) buyurdu: “Allah səni elə zinətlə bəzəmiş ki, heç bir bəndə Allah yanında zinətlərin ən sevimlisi olan belə bir zinətlə bəzənməmişdir, səni dünyada “zöhd” zinəti ilə bəzəmiş və elə eləmişdir ki, nə sən dünyadan bəhrə alasan, nə dünya səndən bir kam alsın, sənə möhtacların məhəbbətini inayət etmiş və səni elə yaratmışdır ki, onlar sənə tabe olduqlarından şadsan və onlar da, sən imamları olduğundan xoşhaldırlar. Xoş o kəsin halına ki, səni dost bilir və sənin barəndə sidq və doğruluqla çalışırlar. Vay o şəxsə ki, səninlə düşməndir və sənin fəzilətlərini inkar edir!”

36. Yenə Şeyx Tusi “Əmali”də Əlidən (ə) xəbər vermiş ki, Kufə minbərində buyurdu: “Ey camaat, mənim Rəsulullah (s) tərəfdən on xislətim var ki, mənə günəşin işıqlandırdığı hər bir şeydən sevimlidir.” Həzrət (s) mənə buyurub: Ey Əli, sən dünyada və axirətdə mənim qardaşımsan, sən qiyamətdə mənə ən yaxın adam olacaqsan. Behiştdə mənzilin mənim mənzilimlə üzbəüzdür. Sən mənim varisim, mənim vədlərimi yerinə yetirən və xanədanımda vəsimsən. Sən mənim qeybətim zamanı əhlimin içərisində məni qoruyansan. Sən mənim ümmətimin imamı, rəiyyətim arasında ədalət uğrunda qiyam edənsən. Sənin düşmənin mənim düşmənim və mənim düşmənim Allahın düşmənidir.”

37. Səduq “Ən-nüsus” ələl əimmə” kitabında Həsən ibn Əlidən (ə) xəbər vermişdir ki, deyir: Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Sən mənim elmimin varisi, hikmətlərimin mədəni və məndən sonra imamsan.”

38. Səduq həmin kitabda İmran ibn Həsindən nəql etmiş ki, deyir: Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Sən məndən sonra imam və xəlifəsən.”

39. Yenə Səduq həmin kitabında Əlidən (ə) xəbər vermişdir ki, Peyğəmbər (s) mənə buyurdu: “Ey Əli, sən Əhli-beytimin dünyadan getmiş adamlarının vəsisi, ümmətimin sağ qalanlarına xəlifəsən.”

40. Yenə Səduq həmin kitabda Hüseyn ibn Əlidən nəql edir: “Allah وَأُوْلُو الْأَرْحَامِ بَعْضُهُمْ أَوْلَى بِبَعْضٍ فِي كِتَابِ اللَّهِ “Allahın kitabında qohumların bəziləri bəzilərindən qabaqdılar” – ayəni nazil edəndə onun təvilini Rəsulullahdan (s) soruşdum. Cavab verdi: Mənim doğma qohumlarım sizsiniz. Mən vəfat etsəm, atan Əli mənim yerimə layiqdir, atan dünyadan gedərsə, qardaşın Həsən ona layiqdir və Həsən dünya ilə vidalaşanda sən ona layiqsən...”

Bunlar qısa surətdə nəzərdə tutduğum hədislər idi və dediklərimizə nisbətdə gülüstan müqabilində bir şaxə gül, dəniz qarşısında bir qətrədir. Hər halda onlardan bəziləri bəhs olunan mətləbi çatdırmaq üçün kafidir. Vəl həmdulillahi Rəbbil-aləmin. Vəssalam.

**“Ş”**

# *ALTMIŞ ÜÇÜNCÜ MƏKTUB*

<u>3 Səfər 1330</u>

***1. Şiə “nəss”ləri höccət deyildir.***

***2. Nə üçün yalnız şiələr bu hədisləri nəql etmişlər?***

***3. Qeyri-şiə təriqindən olan hədislər göstər.***

1. Bu “nüsus” sünnilər üçün höccət deyil. Çünki, onların fikrincə sübut olunmamışdır. Buna görə onlarla müxaliflərə qarşı istidlal etmək olmaz.

2. Əgər doğrudurlarsa, bəs başqaları nə üçün onları zikr etməmişlər?

3. Lütfən, sünnilər tərəfindən bu mövzuda deyilmiş qalan hədisləri də bizim üçün zikr edin. Vəssalam.

***“S”***

# *ALTMIŞ DÖRDÜNCÜ MƏKTUB*

4 Səfər 1330

***1. Biz bu “nüsus”u sizin xahişinizə görə verdik.***

***2. Sünnilər qarşısında bizim höccətimiz onların səhih “nüsus”udur.***

***3. Amma bu hədislərin zikr edilməməsinin səbəbi.***

***4. Vərasətin “nəss”inə işarə.***

1. Bu rəvayətləri ona görə verdik ki, onlardan məlumatınız olmaq üçün xahiş etmişdiniz.

2. Sizin qarşınızda bizim höccətimiz ötən məktublarda gələn sizin özünüzün (sünnilər) səhih hədislərinizdir.

3. Sünni alimlərin yalnız şiə mənbələrində gələn hədisləri zikr etməmələrinə gəlincə, bu Ali-Məhəmmədə kin bəsləyən və həqiqəti gizlətmək istəyən adamların xasiyyət, təbiət və ədavətini göstərir. Belələri “Firon firqəsi”nin (Bəni-Üməyyə) başçıları, yaxud səltənət və dövlətin nökərləri olmuşlar. Onlar hər yerdə, tam qüvvə ilə Əhli-beytin fəzilətlərini boğmaq, onların nurunu söndürməyə səy etmiş və bütün müsəlmanları (ya təşviq, ya qorxu ilə) onların fəzilət və xüsusiyyətlərinin müsadirəsinə məcbur etmişlər. Onlar bu işi bəzən dirhəm-dinar, bəzən vəzifə-mənsəb, bəzən də şallaq və qılıncla yerinə yetirmişlər. Onların fəzilətlərini təkzib edənləri yüksəldir, onları təsdiq edənləri isə özlərindən uzaqlaşdırır, həbs edir və ya öldürürdülər.

Sən yaxşı bilirsən ki, imamət “nüsus”u və xilafət peymanı zülmkarları vəhşətə gətirən həqiqət idi. Çünki onların zülmkar hökumətlərinin əleyhinə idi, mülk və hakimiyyətlərini kökündən qoparırdı. Belə olduğu halda bu hədislərin zalım hökmdarlar və onların mütilərinin əlindən salamat qalması, onların bizim əlimizə çoxlu sənəd və müxtəlif təriqlərlə çatmasının özü həqiqəti göstərir və həqiqətən möcüzələr möcüzəsidir. Deməliyəm ki, Əhli-beytin məqam və mənzilətinin qəsbkarları, onların dostlarına ən ağır işkəncələr verir, saqqallarını qırxaraq bazarda gəzdirməklə alçaldır, müsəlmanların gözündən salır və bütün hüquqlardan məhrum edirdilər. Belə ki, hökmdarın[1] ədalətindən məhrum, xalqla ünsiyyətdən qırılırdılar. Əgər bir şəxs Əli haqqında yaxşı söz desəydi, ya malı müsadirə olunur, ya da boynu vurulurdu. Onun fəzilətlərini deyən nə qədər dil kəsilmiş, ona hörmətlə baxan nə qədər göz hədəqəsindən çıxarılmış, nə qədər əl onun fəzilətinə işarə etdiyi üçün kəsilmiş, dostcasına onlara tərəf gedən nə qədər ayaq bədəndən ayrılmış, onların nə qədər müridlərinin evi yandırılmış, nə qədər xurmalıqlar qırılmış, sonra həmin xurma ağaclarında dara çəkilmiş və ya ev-eşiklərindən didərgin düşmüş, hərəsi bir yerə dağılışmışlar.

Amma, burada hədis hafizləri və sünnənin qoruyucuları arasında elə ünsürlər də olmuşdur ki, onlar böyük Allaha yox, yalnız zülmkar hakimlərə və onların nökərlərinə xidmət etmiş, onlara təzim edərək yaltaqlıqla hər cür pis işə əl atmış, təhrif, “təshih” və təziflə məşğul olmuşlar. Belələrinə indiki zamanımızda da rast gəlinir. Onlar hakimə xoş gəlmək üçün biri digərini qabaqlayır, onun siyasətlərini təsdiqləyir, ehkamlarını müsbət sanırlar (istər düzgün olsun, istər əyri). Onlar yalnız onun istədiyini edir və siyasətinə uyğun fitva verirlər. Halbuki, “kitab” və sünnənin əleyhinə olub, ümmətin icmasına qarşı çıxırlar. Bunların hamısı mənsəb və məqam hərisliyinə görə və ya (səhv addımlarında) işdən qovulmaq qorxusundandır.

---

[1] İbn Əbil-Hədidin “Nəhcül-bəlağənin şərhi”nin 3-cü cildinin 15-ci səhifəsinə baxın. Əhli-beyt və onların şiələrinə o zaman edilmiş zülmlərin bəzilərini (orada) tapacaqsan. İmam Baqirin (ə) orada sözü var ki, bəhs edənlər üçün faydalıdır.

İşlərində təmiz və hakimin yükünün altına girməyən şəxslərlə onun istəklərini imzalayanlar arasında böyük fasilə vardır. Hökumət və onların hakimlərinin nəzərincə, belələri imtiyaza malik olub, möhtərəm hesab olunurdular. Çünki hakimlər üçün onlar həmişə yaxşı vasitə olur, onların fitvalarıyla Allah və rəsulu (s) ilə vuruşurdular. Buna görə də hakim və valilərin yanında yüksək məqam və vəzifə sahibi, məqbul dayaq hesab olunurlar. Onlar Əli, ya Əhli-beytin fəzilətlərini özündə əks etdirən düzgün hədisləri təəssübkeşliklə rədd edir, çox böyük cəhdlə inkar və mümkün olan hər bir vasitə ilə onu etibardan salırdılar. Rəvayətçilər də onları rafizilərə mənsub edir və rafizi olmaq isə ən böyük günah və çirkin ad sayılırdı. Bəli, Əli (ə) haqqında deyilmiş hədislərə, xüsusilə şiələrin istidlal etdikləri rəvayətlərə nisbət onların rəftarı belə idi.

Dediyimiz bu yaltaq kəslər hər yerdə dövlət tərəfindən xüsusi böyüklük və dini-dünyəvi elmlərin sahibi kimi tanıtdırılırdı. Zöhd və ibadətlə içlərini gizlədənlər və həmçinin, tayfa başçıları, şeyxlər də onlarla belə rəftar edirdi. Ona görə də bu düzgün hədislərin rəddi üçün bir söz deyəndə, onların rəyi höccət sayılır, avam və avara adamların arasında, bütün şəhərlərdə yayırdılar. Beləliklə onların rəyi hər əsrdə möhtərəm sayılaraq bir üsul kimi qiymətləndirilirdi.

O vaxt bu ünsürlərdən başqa bir qrup da var idi ki, qorxu onları Əlinin və Əhli-beytin fəzilətlərini danışmaqdan çəkinməyə məcbur etmişdi. Bu yazıqlar Əlinin və Əhli-beytin fəzilətləri barədəki düzgün hədislərdən söhbət açdıqda sorğu-sual edilirdi. Onlar da qorxudan, cavab verərkən məcazlara və ikimənalı sözlərə üz gətirirdilər. Yaltaqların və onların əlaltılarının müxtəlif həmləsindən qorxurdular. Həqiqətdən xəbərsiz hay-küy qoparan avam və boşboğazlar və yaltaqlarla həmahəng olmalarından çəkinirdilər. Xalqa Əmirəl-möminini lənətləməyi əmr edən hakim və başçılar onlara aman vermirdilər. Onları pulla, hədə-qorxu və vədə ilə o həzrətə eyib tutmaq və onun haqqında pis danışmağa məcbur edirdilər. Əlini elə tanıtdırırdılar ki, hamı ona nifrət etsinlər. Onun haqqında elə sözlər danışırdılar ki, qulaqlar onu eşidərkən çox narahat olurdu. Sünnilər bayram və cümə günləri minbərlərində ona lənət deyirdilər. "Allahın nuru sönməz və övliyasının fəzilətləri itməz" – vədəsi olmasaydı, bu səhih hədislər şiə və sünni təriqiylə bizə çatmaz. Onun fəzilətlərinin "nüsus"u ardıcıl nəql olunmazdı. Allaha and olsun ki, mən Allahın xalis bəndəsi, Peyğəmbərin qardaşı Əli ibn Əbu Talibə verdiyi parlaq zəkadan heyrətdəyəm! Heyrətdəyəm ki, onun nuru, necə də qara zülmət pərdələri yırtır, təlatümləri kənar edir və günəş kimi asimanda işıq saçır!

4. Zikr olunmuş bütün qəti dəlillərdən əlavə, burada sizin "vərasət" "nəss"iniz kafidir. Çünki o özü təklikdə kamil höccətdir. Vəssalam.

***"Ş"***

# *ALTMIŞ BEŞİNCİ MƏKTUB*

5 Səfər 1330

***Sünni təriqiylə “vərasət” hədisinin tələbi.***

Lütfən, sünni təriqi ilə nəql olan “vərasət” hədisini mənə yazın. Vəssalam.
***“S”***

## *ALTMIŞ ALTINCI MƏKTUB*

<u>5 Səfər 1330</u>

***Əli Peyğəmbərin (s) varisidir.***

Rəsulullahın (s) elm və hikmətinə Əlinin varis olması şübhəsizdir. Bir qayda olaraq peyğəmbərlər onu öz vəsilərinə irs qoyarmışlar. Peyğəmbər (s) buyurub: «اَنَا مَدينةُ الْعِلْمِ وَ عَليٌّ بابها فَمَنْ اَرادَ الْعِلْمَ فَلْيَئْتِ الْباب» “Mən elm şəhəriyəm, Əli onun qapısıdır. Bu şəhərə daxil olmaq istəyən, gərək onun qapısından girsin.”[1] Yenə Peyğəmbər (s) buyurub: “Mən hikmət eviyəm, Əli onun qapısıdır.” Həmçinin buyurmuşdur: “Əli mənim elmimin qapısı və məndən sonra risalətimdə ümmətimə boyun olduqlarımı bəyan edəndir. Onunla dostluq iman, düşmənlik nifaqdır.”

Həmçinin o həzrət Zeyd ibn Əbu Ovfanın hədisinə əsasən,[2] Əliyə buyurub: “Sən mənim qardaşım və varisimsən.” Əli soruşdu: Səndən mənə nə irs çatır? Cavab verdi: Məndən əvvəl peyğəmbərlər nə irs qoyublarsa.” Büreydə hədisində birmənalı surətdə deyib ki, “onun (s) varisi Əli ibn Əbu Talibdir”[3]

“Yəvmül-inzar”dakı “dar” hədisi də sənə kifayət edər. Əli (ə) Rəsulullahın (s) elə sağlığında buyurardı: “Allaha and olsun, mən Allahın rəsulunun qardaşı, vəlisi, əmioğlusu və elminin varisiyəm. Bəs kim ona məndən daha yaxındır?”[4] “Bir gün Əlidən soruşdular: Necə oldu ki, əmin oğlundan sənə irs çatır, amma əmindən yox? Cavab verdi: Rəsulullah (s) bir gün Əbdül-Müttəlibin övladları və nəvələrini bir yerə topladı. Hər kəs hazırlanmış yeməyi yeməklə məşğul idi və doyana qədər yesələr də, amma yemək olduğu kimi qalır, sanki heç nə azalmırdı. Bu vaxt Həzrət (s) buyurdu: “Ey Əbdül-Müttəlibin övladları, mən məxsusən sizə, sonra isə, xalqa tərəf peyğəmbər göndərilmişəm. Sizlərdən kim mənə beyət edib mənim qardaşım, rəfiqim və varisim olmaq istəyir?” Heç kəs dinmədi. Mən hamıdan kiçik olsam da, durub razı olduğumu dedim. Mənə buyurdu: “Otur.” Üç dəfə sözünü təkrar etdi və hər dəfə də mən ayağa durdum. Həzrət (s) hər dəfə “otur” desə də, üçüncü dəfə əlini mənim əlimə vurdu (və məni varisliyə qəbul etdi). Elə buna görə də, mənə əmim oğlundan irs çatır, amma əmimdən yox.”[5]

---

[1] Bu və sonrakı iki hədisi 48-ci məktubda verdik ki, orada 9, 10, 11-ci hədislərdir. Orada verdiyimiz izahatı unutmayın.

[2] 32-ci məktubda onu verdik.

[3] 68-ci məktuba baxın.

[4] Bunlar Əlinin (ə) dilindən çıxan eyni sözlərdir. Hakim onu “Müstədrək”in 3-cü cildinin 126-cı səhifəsində Buxari və Müslimin şərtinə əsasən, düzgün sənədlə vermiş və Zəhəbi “Təlxis”də onun doğruluğunu etiraf etmişdir.

[5] Bu hədis qəti və “müstəfiz”dir. Ziya Müqəddəsi “Əl-muxtarə” kitabında və İbn Cərir “Təhzibül-Asar”da onu vermişlər ki, “Kənzül-Ümmal”ın 6-cı cildinin 408-ci səhifəsindəki 6155-ci hədisdir. Nisai “Xəsaisül-Ələviyyə”nin 18-ci səhifəsində, İbn Əbil-Hədid “Nəhcül-Bəlağənin şərhi”ndə 3-cü cildin 255-ci səhifəsində “Qasiə” xütbəsinin şərhində onu “Tarixi-Təbəri”dən nəql etmişdir. Əhməd Hənbəlinin “Müsnəd”inin 1-ci cildinin 159-cu səhifəsinə baxsanız, hədisin mənası ilə nəqlini orada tapacaqsan.

Hakimin "Müstədrək"də[1] və Zəhəbinin "Təlxis"də verdiyi və onun düzgünlüyünə qətiyyət hasil etdikləri hədisdə, Qüsəm İbn Abbasdan soruşulur: "Necə oldu ki, Əliyə Rəsulullahdan (s) irs çatır, amma sizə yox?" Cavab verdi: "Çünki o, bizim aramızdan ona qoşulan birinci şəxs və bizim ona birləşən və onunla yol yoldaşı olan ən möhkəm adamımız olmuşdur."

Mən deyirəm: Hamı çox yaxşı bilirdi ki, Rəsulullahın (s) varisi yalnız Əlidir və əmisi Abbas və ya Bəni-Haşimdən bir kəs deyildir. Bu həqiqətdən şübhəsiz, agah idilər. Amma bu vərasətin əmisi Abbasın, başqa əmi oğlanlarının və qohumlarının yox, əmisi oğlu Əliyə xass olmasından agah deyildilər. Ona görə də bəzən bunu Əlidən və bəzən Qüsəmdən soruşurdular ki, onların cavabını eşitdin və bu sonuncu sənəddir ki, soruşanlara təqdim olunur. Yoxsa, düzgün cavab budur ki, "Böyük Allah yer üzünün adamlarına diqqət yetirdi və onların arasından Məhəmməd (s)i seçdi və onu peyğəmbər etdi, sonra ikinci dəfə diqqət yetirib, Əlini seçdi və Peyğəmbərinə vəhy etdi ki, onu özünün varisi və vəsisi seçsin."

Hakim "Müstədrək"in 3-cü cildinin 125-ci səhifəsində Qüsəmdən nəql olunmuş mətləbi qeyd edəndən sonra deyir: "Qazilər qazisi Əbül-Həsən Məhəmməd ibn Saleh Haşimi mənə nəql edib ki, qazi Əbu Ömər deyib: Qazi İsmayıl ibn İshaq Qüsəm ibn Abbasın dediklərini ona danışanda dedi: Varisə ya nəsəb və qohumluq və ya dostluq vasitəsilə irs düşür. Elm əhli arasında heç bir ixtilaf yoxdur ki, əmi olan halda əmi oğluna irs verilsin (və əlavə edir ki,) bu icmaya əsasən məlum olur ki, Əli elmi Peyğəmbərdən irs almış, amma onlar yox."

Mən deyirəm: Bu haqda xəbər çoxdur. Xüsusilə, Peyğəmbərin pak Əhli-beyt tərəfindən bizə çatan aydın "nüsus"ları kifayətdir. Vəssalam.

***"Ş"***

---

[1] İbn Əbu Şeybə 3-cü cildin 125-ci səhifəsində də onu nəql etmiş və həmin hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 400-cü səhifəsindəki 6084-cü hədisdir.

# *ALTMIŞ YEDDİNCİ MƏKTUB*

<u>6 Səfər 1330</u>

***“Vəsayət” bəhsi.***

Sünnilər Əli haqqında vəsiyyəti qəbul etmir və onun “nüsus”undan xəbərsizdirlər. Lütfən, onları xatırladın. Minnətdarıq. Vəssalam.

***“S”***

# *ALTMIŞ SƏKKİZİNCİ MƏKTUB*

9 Səfər 1330

***"Vəsayət" "nüsus"u.***

"Vəsayət" "nüsus"u Peyğəmbərin (s) pak Əhli-beyti (imamlar) tərəfindən yayılmışdır. Onlardan qeyri-təriqlə 20-ci məktubda gördüklərin sənə kifayətdir. Peyğəmbər (s) əlini Əlinin çiynınə qoyub buyurdu: «هذا اَخي وَ وَصِيّي وَ خَليفَتي فيكُم فَاسْمَعُوا لَهُ وَ اَطيعُوا» "Bu sizin aranızda mənim qardaşım, vəsim və xəlifəmdir. Onu eşidin və itaət edin." Məhəmməd ibn Həmid Razi, Səlmə Ərəşdən, İbn İshaqdan, o da Əbu Rəbiə Yadidən, o da İbn Büreyrədən, o da atası Büreyrədən, o da Peyğəmbərdən (s) belə nəql etmişdir: "Hər peyğəmbərin vəsi və varisi vardır. Mənim vəsim və varisim Əli ibn Əbu Talibdir."[1]Təbərani "Əl-kəbir" kitabında Salman Farsidən nəql etmiş ki, Allahın elçisi (s) buyurdu: "Mənim vəsim, sirdaşım, özümdən sonra vədələrimi sözsüz yerinə yetirən və borcumu ödəməyi tapşırdığım ən yaxşı adam Əli ibn Əbu Talibdir."[2]

Bu aydındır ki, o Peyğəmbərin vəsisi və bu da aydındır ki, Peyğəmbərdən sonra ümmətin ən yaxşısıdır. İnsafla yanaşsaq, ağıl sahiblərinə onun xəlifə olması və ona itaətin vacibliyi gizli deyildir.

Hafiz Əbu Nəim "Hilyətül-Övliya"da[3] Ənəsdən nəql edir ki, Peyğəmbər (s) mənə buyurdu: "Ey Ənəs, sənin yanına bu qapıdan birinci daxil olan kəs pəhrizkarların imamı, müsəlmanların seyyidi, dinin başçısı, övsiyanın sonuncusu və nurluların rəhbəridir." Ənəs deyir: "Bu vaxt Əli daxil oldu. Allahın elçisi (s) qalxıb, müjdə verirmiş kimi, onunla qucaqlaşdı və ona buyurdu: Sən mənim dinimi əda edən, səsimi xalqa çatdıran, məndən sonra ixtilafları onlara bəyan edənsən."

Təbərani "Əl-kəbir" kitabında Əbu Əyyub Ənsaridən xəbər vermişdir ki, Allahın elçisi (s) buyurdu: "Ey Fatimə, bil ki, Allah yer əhlinə nəzər salıb, onların arasından atanı seçdi və peyğəmbərlik taxtına oturtdu. Sonra yenidən nəzər salıb sənin ərini seçdi və mənə vəhy etdi ki, səni onunla evləndirim və onu özümə vəsi seçim."[4]

Allahın yerin bütün əhlinin içərisindən Əlini necə seçdiyinə diqqət yetirin, (Peyğəmbəri seçdiyi kimi). Bil ki, vəsilik birbaşa nübüvvətə bağlıdır. Görürsənmi, hətta Allah nəbisinə buyurmuşdur ki, qızını ona verərək onu özünə vəsi seçsin. Axı nə üçün, əvvəlki peyğəmbərlərin xəlifələri onların övsiyalarından başqası olmuşdur? Heç rəvadırmı ki, Allahın

---

[1] Zəhəbi onu "Mizanül-Etidal" kitabında Şərikin tərcümeyi-halında verib və təkzib etmişdir. Elə güman etmiş ki, Şərik bir rəvayəti unutmuş və Məhəmməd ibn Həmid Razinin dediyini etibarlı saymamışdır. Amma cavab budur ki, imam Əhməd ibn Hənbəl, imam Əbül-Qasim Bəğəvi, imam İbn Cərir Təbəri, və "cərh-tədil" edənlərin imamı İbn Məin və bu təbəqədən olan başqaları Məhəmməd ibn Həmidə etibar etmiş və ondan hədis söyləmişlər. Buna görə o, onların ustadı və inandıqları şəxslərdəndir. Necə ki, "Mizanül-Etidal"da Məhəmməd ibn Həmidin tərcümeyi-halında buna etiraf etmişdir. Bu adam nə rafizi, nə də şiəlikdə müttəhimdir. Əksinə, Zəhəbinin sələflərindəndir. Belə ki, bu hədisdə ona töhmət yeri yoxdur.

[2] Bu hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 154-cü səhifəsinin axırındakı 2570-ci hədis olub, sənəd və sözlərilə birgədir. "Müntəxəbi-Kənz"də gəlmişdir ki, "Müsnədi-Əhməd"in 5-ci cildinin 32-ci səhifəsinin haşiyəsinə baxa bilərsiniz.

[3] "Nəhcül-bəlağənin şərhi"nin 2-ci cildinin 450-ci səhifəsində verildiyi kimi, onu 48-ci məktubda verdik.

[4] Bu hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 153-cü səhifəsindəki 2541-ci hədisin sözləri və həmin sənədi ilədir. Onu "Müntəxəb"də də vermişdir. Əhmədin "Müsnəd"inin 5-ci cildinin 31-ci səhifəsinin haşiyəsində "müntəxəb"ə baxa bilərsiniz.

seçdiyi son peyğəmbərin vəsisini kənara qoyub, başqasını ondan üstün bilək? Kimin səlahiyyəti vardır ki, belə bir adamın vəlisi və başçısı olsun? Heç ağla sığandırmı ki, xalqın seçdiyi hakimə Allah və Peyğəmbərin seçdiyi şəxs itaət etsin? Necə ola bilər ki, Allah və onun elçisi birini seçə, amma biz başqasını seçək? Halbuki Quran deyir: "Heç bir imanlı kişinin və imanlı qadının Allah və Rəsulu bir hökm verəndə haqqı yoxdur ki, öz işində ixtiyarı olsun. Və Allah və rəsulunun fərmanından boyun qaçıran hər kəs açıqca azğınlığa düçar olmuşdur." (Əhzab, 36).

Bu fəzilətlər ardıcıllıqla aşkar olarkən əks qüvvələr, həsəd aparanlar və irəli düşmək istəyənlər başa düşdülər ki, Rəsulullah Məryəmə tay behişt qadınlarının seyyidəsi Zəhranı (ə) Əli ilə evləndirmək istəyir. Ona həsəd edənlərə isə bu, çox ağır gəldi. Xüsusilə, elçilik edib rədd cavabı aldıqları, vaxt[1] dedilər: Bu imtiyaz Əlinin ağıl və üstünlüyünü göstərir. Bundan sonra daha heç kəs ona çatmaz və heç kəs onun məqamına çatmaq tamahını başında gəzdirə bilməz. Bu vaxt boşboğazların ağzına söz salıb, bu barədə plan cızdılar. Öz arvadlarını dünya qadınlarının seyyidəsi Zəhranın yanına göndərdilər ki, onda Əliyə qarşı nifrət oyatsınlar. O cümlədən, Peyğəmbərin pak qızına etdikləri təlqinlərdən biri bu oldu ki, Əli kasıbdır, bir şeyi yoxdur. Amma onların plan və yalanları Zəhraya (ə) gizli qalmadı. Nəhayət, Allah və rəsulunun Əliyə qarşı xüsusi münasibəti həyata keçirildi. Bu o vaxt idi ki, Allahın rəsulu Əlinin düşmənlərini rüsvay etmək üçün onun fəzilətlərini xüsusi olaraq aşkar etmək qərarına gəlmişdi. Zəhra atasına: "Ey Allahın rəsulu (s), məni malı və sərvəti olmayan bir şəxsəmi ərə verdin?" – deyəndə Allahın rəsulu (s) onun cavabını yuxarıda gördüyün kimi verdi (Təbəraninin Əbu Əyyub Ənsaridən nəql etdiyi yuxarıda dediyimiz hədis). Şair deyir:

«وَ اذا اَرادَ اللهُ نَشْرَ فضيلةٍ طويت اتاخ لها لسان حسود» "Əgər Allah bir fəziləti yaymaq istəsə, elə həsəd edənlərin, tənə vuranların dili ilə onu edər."

Xətib "Müttəfəq" kitabında İbn Abbasdan xəbər vermişdir ki, Peyğəmbər (s) Fatiməni Əli ilə evləndirəndə Fatimə ərz etdi: "Ey Allahın rəsulu, məni kasıb və mal-dövlətsiz bir kişiyəmi verdin? Peyğəmbər (s) buyurdu: Razı deyilsənmi? Allah yer üzünün adamları arasından iki nəfəri seçdi: biri atan, o birisi ərin."[2]

Hakim "Müstədrək"in 3-cü cildinin 129-cu səhifəsində Əlinin mənaqibində Səric ibn Yunisin təriqiylə, Əbu Həfs Übardan, Əməşdən, Əbu Salehdən, Əbu Hüreyrədən nəql etmişdir ki, Fatimə ərz etdi: "Ey rəsulullah, məni kasıb və sərvəti olmayan Əliyəmi verdin? Peyğəmbər (s) buyurdu: Razı deyilsənmi? Allah yer üzünün adamlarına nəzər saldı və iki nəfəri seçdi, biri atan, biri ərin." İbn Abbasdan nəql edir ki, Rəsulullah (s) buyurdu: "Razı deyilsənmi? Mən səni elə bir adama verdim ki, ilk müsəlman və müsəlmanların ən biliklisidir. Sən isə ümmətimin qadınlarının seyyidəsisən, necə ki, Məryəm öz ümmətinin seyyidəsi idi. Ey

[1] İbn Əbu Hatəm Ənəsdən nəql etmişdir: "Əbu Bəkr və Ömər Fatiməyə elçiliyə getdilər. O həzrət sükut etdi və cavab vermədi. Onlar Əlinin yanına getdilər ki, onu bu vəziyyətdən xəbərdar etsinlər. Dedilər: Elə bilirik ki, əgər sən Fatiməyə elçi getsən, qəbul edəcəkdir." Bir qrup etibarlı adamlar, o cümlədən İbn Həcər "Səvaiq"in 11-ci babının əvvəlində, eləcə də İbn Əbu Hatəm bu hədisi nəql etmişlər. Orada bu hədisi Əhməddən, o da Ənəsdən nəql etmişdir. Əbu Davud Sistani onu İbn Həcərin "Səvaiq"də 11-ci babındakı ayələrdən 12-ci ayənin izahındakı kimi nəql etmiş: "Əbu Bəkr Fatiməyə elçi getdi. Peyğəmbər ondan üz çevirdi. Ömər də elçi getdi və ona da razılıq vermədi. Gəlib Əlini onun elçiliyinə vadar etdilər və ona çatdırdılar ki, Peyğəmbərin bu haqda razılığı var." Əlidən (ə) də buna oxşarı nəql olmuşdur: "Əbu Bəkr və Ömər Fatiməyə elçi getdilər və Peyğəmbər (s) etiraz etdi. Ömər dedi: Ey Əli, onunla evlənməyə sən layiqsən." Bu hədisi İbn Cərir xəbər vermiş və Dolabi "Əz-zürriyyətüt-Tahirə" kitabında onu düzgün bilmişdir. Bu hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 392-ci səhifəsindəki 6007-ci hədisdir.

[2] Bu hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 391-ci səhifəsindəki 2992-ci hədisdir (söz və sənədiylə birgə) ki, Əlinin fəzilətlərində vermiş və sənədinin düzgünlüyünü bəyan etmişdir.

Fatimə, razı deyilsənmi? Allah yer əhlinə nəzər saldı və onların içindən iki nəfəri seçdi: biri sənin atan, o biri sənin ərin oldu."[1]

Ondan sonra dünya qadınlarının xanımı üçün kədər və həyat çətinlikləri qarşıya çıxanda Peyğəmbər (s) ona həyatda –təsəlli olsun deyə– Allahın və rəsulunun ona ümmətin ən yaxşı adamı ilə izdivac nemətini xatırladardı. Bu mətləbin şahidi Əhmədin Məqəl ibn Yəsardan "Müsnəd"in 5-ci cildinin 26-cı səhifəsində verdiyi hədisdir: "Peyğəmbər (s) bir dəfə Fatimənin (xəstə olarkən) görüşünə gəldi və buyurdu: Necəsən? Cavab verdi: Allaha and olsun ki, kədər içindəyəm, çətinliyim sonsuz, xəstəliyimsə uzanmışdır. Peyğəmbər (s) buyurdu: Sən razı deyilsənmi ki, mən səni İslamı qəbul edən ilk müsəlmana, onların ən bilicisinə, helm, təvazökarlıq və dərrakədə ən üstününə vermişəm?"

Bu barədə xəbərlər olduqca çoxdur və bir məktuba sığmaz. Vəssalam.

***"Ş"***

---

[1] Bu hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 153-cü səhifəsinin 2543-cü hədisdir ki, Hakimdən və o da İbn Abbas və Əbu Hüreyrənin dilindən, həmçinin Təbəranidən və Xətibdən isə yalnız İbn Abbasın dilindən nəql etmişdir. Amma "Müntəxəbi-Kənz"də yalnız Xətibdən İbn Abbasa istinadən "Müttəfəq"də nəql etmişdir. "Müntəxəb"in haşiyəsində çap olunmuş "Müsnədi-Əhməd"ə, 5-ci cildin 39-cu səhifəsinin 1-ci sətrinə baxın. Əllamə İbn Əbil-Hədid "Nəhcül-Bəlağənin şərhi"nin 2-ci cildinin 451-ci səhifəsində onu Əhmədin "Müsnəd"indən nəql etmişdir.

## *ALTMIŞ DOQQUZUNCU MƏKTUB*

<u>10</u> <u>Səfər</u> <u>1330</u>

***"Vəsayət"i inkar edənlərin dəlili.***

Sünnilər "vəsayət"i inkar edirlər. Çünki Buxari "Səhihi"də Əsvəddən belə nəq edir: "Ayişənin yanında söz düşəndə ki, Peyğəmbər (s) Əlini özünə vəsi seçib,[1] soruşdu: Bu sözü kim deyib? Peyğəmbər öləndə sinəmə söykənmişdi. Teşt istədi və bədəni süstləşərək dünyadan köçdü. Mən ondan belə bir söz eşitmədim. Bəs Əlini necə özünə vəsi etdi?"[2]

Buxari "Səhih"də yenə çoxlu təriqlərlə nəql edir ki, Ayişə həmişə deyirdi: "Peyğəmbər sinəmin üstündə, qucağımda dünyadan getdi." Fəxrlə deyirdi: "Sinəmə söykənmiş halda dünyadan getdi." Bəzən deyirdi: "Başı dizimin üstündə olan halda Əzrail nazil oldu."[3] Elə isə, əgər vəsiyyət etsə idi, ona gizli qalmazdı.

Müslimin "Səhih"ində Ayişədən belə nəql olunur: "Rəsulullah (s) özündən sonra nə dirhəm, nə dinar, nə qoyun, nə dəvə qoymamış və heç nə vəsiyyət etməmişdir."[4]

Hər iki "Səhih"də Təlhə ibn Müsrifdən nəql olunur ki, deyir: "Abdullah ibn Əbu Ovfdan soruşdum: Peyğəmbər vəsiyyət etmişdirmi? Cavab verdi: Yox. Dedim: Axı necə ola bilər ki, ümmətə vəsiyyəti lazım bildiyi halda, amma özü onu tərk etsin?" Dedi: Allahın kitabını vəsiyyət etdi. (Allahın kitabını sifariş etdi)."[5]

Bu hədislər sizin verdiyiniz rəvayətlərdən daha doğrudur. Çünki bunlar hər iki "Səhih"də verilmiş, amma sizin zikr etdikləriniz yox. Buna görə qarşı-qarşıya qoyulanda bu hədislər daha üstün və etibarlıdır.

***"S"***

---

[1] Buxari bu hədisi "Səhih"in 2-ci cildinin 83-cü səhifəsində "vəsaya" kitabında (yeni çaplarda 4-cü cildin 3-cü səhifəsi) və "Səhih"in 3-cü cildinin 64-cü səhifəsində "mərəzün-Nəbi və vəfatuhu" babında vermiş və Müslim "Səhih"in 2-ci cildinin 14-cü səhifəsində "vəsiyyət" kitabında nəql etmişdir ( «ترك الوصية لمن ليس له شيئ» yeni çaplarında 3-cü cildin 1257-ci səhifəsində bu məsələni oxuya bilərsiniz).

[2] Fikir verin ki, Buxari və Müslim Peyğəmbərin Əliyə vəsiyyətini özləri də bilmədən həmin hədisdə nəql etmişlər. Çünki Ayişənin yanında "Peyğəmbər (s) Əlini (ə) özünə vəsi seçmişdir" – deyənlər İslam ümmətindən xaric olmayıb, ya səhabədən, ya da tabeindən olmuşlar (yəni bu sözü deyənlər onu lağlağa üçün deməyiblər və bu söz elə-belə dillərə düşməmişdi) ki, Ümmül-mömininin narahatlığına və o dövrdəki şəxsi siyasətinin əleyhinə olan sözü danışmağa cürət etmişlər. Çünki bu sözü eşidəndən sonra o, bərk narahat olubmuş. Bunu narahatçılığından sonra əsassız cavabından başa düşmək olar. İmam Sindi "Sünəni-Nisai"nin Əl-Əzhərin "Misir çapı"nın 6-cı cildinin 241-ci səhifəsinin haşiyəsində gələn bu hədisin şərhində deyir: "Gizli qalmasın, bu söz heç də o demək deyildir ki, Peyğəmbərin ölümündən əvvəl onun vəsiyyət etməyinin qarşısını alsın və o demək deyildir ki, bəli, o Həzrət qəfildən ölmüşdür! Belə ki, bu fikir hətta təsəvvür oluna bilməz. Axı necə ola bilər, halbuki əcəlinin çatdığını xəstəliyindən əvvəl xəbər vermişdi. Bəli, Həzrətin xəstələnməyi sonra baş verib..." Bu deyiləni orada oxu və görərsən ki, necə dolğun yazılmışdır.

[3] Buxari "Səhih"in "mərəzuhu və vəfatuhu" və sonrakı babında bunları qeyd etmişdir.

[4] "Vəsiyyət" kitabına, ya onun 2-ci cildinin 14-cü səhifəsinə bax.

[5] Hər iki "Səhih"in "vəsaya" kitabına bax.

# *YETMİŞİNCİ MƏKTUB*

<u>11 Səfər 1330</u>

***1. Vəsiyyəti inkar etmək olmaz.***

***2. Vəsiyyətin inkarına səbəb.***

***3. İnkar edənlərin dəlil gətirdikləri rəvayətlər höccət deyildir.***

***4. Ağıl və vicdan vəsiyyətə hökm edir.***

1. Peyğəmbərin (s) Əliyə (ə) vəsiyyətini inkar etmək olmaz. Çünki, onu özünün elm və hikmətinin varisi seçəndən sonra[1] Əliyə (ə) vəsiyyət etdi ki, ona qüsl verib, kəfənləsin, dəfn etsin[2] və tapşırıq və vədələrinə sözsüz əməl etsin. Onun borclarını qaytarıb,[1] ondan sonra

---

[1] 66-cı məktuba bax, bilərsən ki, elm və hikməti ona irs qoymuşdur.

[2] İbn Səd "Təbəqat"da 2-ci cildin 2-ci fəslinin 61-ci səhifəsində Əlidən (ə) nəql edir: "Peyğəmbər (s) vəsiyyət etdi ki, məndən başqası ona qüsl verməsin." Əbu Şeyx və İbn Nəccar "Kənzül-Ümmal"ın 4-cü cildinin 54-cü səhifəsində olduğu kimi Əlidən (ə) nəql etmişlər: "Peyğəmbər mənə vəsiyyət etdi ki, mən öləndə mənə yeddi qab su ilə qüsl ver." İbn Səd "Təbəqat"ın 2-ci cildinin 2-ci cildinin 63-cü səhifəsində "Peyğəmbərin qüslü" zikrində Əbdül-Vahid ibn Əbu Əvanədən nəql etmiş ki, Peyğəmbər vəfatı zamanı buyurdu: "Ey Əli, dünyadan gedəndə mənə qüsl ver." Əli deyir: "Mən qüsl verərkən, hər üzvü ki, əlimə alırdım, özü istədiyim tərəfə çevrilirdi." Hakim "Müstədrək"in 3-cü cildinin 59-cu səhifəsində və Zəhəbi onun "Təlxis"ində Əlidən nəql etmiş və onun sənədini düzgün bildirmişdir: "Mən Peyğəmbərə qüsl verdim. Amma ölüdən görünən halları onda görmədim. O, həm sağlığında, həm ölümündə pakizə idi." Bu hədisi Səd ibn Mənsur özünün "Sünən"ində, Mərvəzi "Cənaiz"də, Əbu Davud "Mərasil"də, İbn Muni və İbn Əbu Şeybə "Sünən"də vermişlər. Bu hədis "Kənzül-Ümmal"ın 4-cü cildinin 54-cü səhifəsindəki həmin 1094-cü hədisdir. Beyhəqi "Sünən"də Abdullah ibn Harisdən nəql edir: "Əli Peyğəmbərə əynində köynək olduğu halda qüsl verdi." Bu, "Kənzül-Ümmal"ın 4-cü cildinin 55-ci səhifəsindəki həmin 1104-cü hədisdir. Və İbn Abbasdan nəql etmiş: "Əlinin başqalarında olmayan dörd xisləti vardır: O, birinci adam idi ki, Peyğəmbərlə namaz qıldı. Hər yanda Rəsulullahın bayraqdarı idi. O, dözümlülük göstərən və hamı qaçsa da Peyğəmbərlə birgə dayanan idi. Və Rəsulullaha (s) qüsl verib onu qəbirə qoyan odur." Bu hədisi İbn Əbdül-Birr "İstiab"da, Əlinin şərhi-halında, Hakim "Müstədrək"in 3-cü cildinin 111-ci səhifəsində nəql etmişdir. Əbu Səid Xidridən xəbər gəlib çatmışdır ki, Peyğəmbər (s) buyurdu: "Ey Əli, sən mənə qüsl verəcək, borcumu əda edəcək və məni qəbirə qoyacaqsan." Deyləmi onu nəql etmiş və "Kənzül-Ümmal"ın 6-cı cildinin 155-ci səhifəsindəki 2583-cü hədisdir. Ömərdən nəql olunan hədisə əsasən, Peyğəmbər (s) Əliyə buyurdu: "Sən mənim qüsl verənim və dəfn edənimsən." Bu hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 393-cü səhifəsində və "Müsnəd"in 5-ci cildinin 45-ci səhifəsinin haşiyəsində verilmişdir. Əlidən nəql edilmiş bir hədisdə deyilir: "Rəsulullahdan (s) eşitdim ki, buyururdu: Allah tərəfindən mənə Əli ilə bağlı beş şey inayət olmuşdur ki, məndən əvvəl heç bir peyğəmbərə verilməmişdir: Birinci odur ki, o mənim borcumu əda edəcək, məni qəbirə qoyacaqdır..." Hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 403-cü səhifəsinin əvvəlindədir.

Peyğəmbərin (s) cənazəsini taxtanın üzərinə qoyub ona namaz qılmaq istəyənlərə Əli (ə) buyurdu: "Heç kəs namazda imam olmasın. Çünki Rəsulullah həyatda da, öləndə də sizə imamdır." Adamlar dəstə-dəstə gəlir və imamsız namaz qılır və sonda təkbir deyirdilər. Əli isə Rəsulullahın kənarında dayanıb deyirdi: «السلام عليك ايها النبيّ و رحمة الله و بركاته». "Ey böyük Allah, şahidlik edirik ki, o, sənin nazil etdiklərini ümmətinə çatdırdı, sənin yolunda cihad etdi və Allah onun dinini əziz və qüdrətli etdi. Ey böyük Allah, bizi o kəslərdən et ki, ona göndərdiklərinə tabe olaq. Ondan sonra bizi sabitqədəm və onunla bizi (axirətdə) birgə et." Hamı deyirdi: "Amin, amin!" Axır, kişilərin hamısı ona namaz qıldı, sonra növbə qadınlara çatdı, sonra isə uşaqlara.

Dediklərimizin hamısını İbn Səd "Təbəqat"da Peyğəmbərin (s) qüslü haqqında danışdığı yerdə eyni sözlərlə vermişdir. O gün Peyğəmbərə (s) namaz qılmaq üçün birinci gələn Bəni-Haşim, sonra mühacirlər, sonra

ümmətin ixtilaflı məsələlərini bəyan etsin.[2] Ümmətinə isə vəsiyyət etdi ki, ondan sonra Əli ümmətin vəlisidir.[3] Əli onun qardaşı,[4] övladlarının (Peyğəmbərin (s) özü dediyi kimi) atası,[5] onun vəziri,[6]sirdaşı,[1] vəlisi[2] və vəsisi,[3] onun elm şəhəri[4] və hikmət evinin qapısıdır.[5] O

---

ənsar, sonra başqa adamlar oldu və ona birinci namaz qılan Əli və Abbas idi ki, bir sırada durub, beş təkbir dedilər.

[1] Bütün bunlar haqqında olan hədis və xəbərlər pak Əhli-beyt tərəfindən mütəvatir şəkildə gəlib çatmışdır və sənə Təbəraninin "Əl-kəbir"də İbn Ömərdən və Əbu Yəlanın "Müsnəd"də Əlidən verdikləri bəsdir. Birinci nəqlə əsasən, hədisin sözləri belədir ki, Rəsulullah (s) buyurdu: "Ey Əli, sən mənim qardaşım və vəzirimsən. Borcumu əda edirsən, vədəmə sözsüz əməl edirsən, əhdimə vəfadarsan." Bu hədisi "Kənzül-Ümmal"ın 6-cı cildinin 155-ci səhifəsində İbn Ömərdən nəql etmiş və 6-cı cildin 404- cü səhifəsində də Əlidən vermiş və orada Buseyridən nəql etmiş ki, onu danışanlar etibarlıdırlar. İbn Mərdəveyh və Deyləmi "Kənzül-Ümmal"ın 6-cı cildinin 155-ci səhifəsində verdiyi kimi, Salman Farsidən nəql etmişlər ki, Rəsulullah (s) buyurdu: "Əli ibn Əbu Talib vədələrimi sözsüz yerinə yetirir və borcumu əda edir." Bəzzar "Kənzül-Ümmal"ın 6-cı cildinin 153-cü səhifəsindəki kimi, Ənəsdən onu nəql etmişdir. Əhməd ibn Hənbəl "Müsnəd"in 4-cü cildinin 164-cü səhifəsində Həbəş ibn Cənadədən nəql etmiş ki, eşitdim Rəsulullah (s) buyurdu: "Mənim borcumu özümdən və Əlidən başqası əda edə bilməz." Mərdəveyh "Kənzül-Ümmal"ın 6-cı cildinin 401-ci səhifəsində verdiyi kimi, Əlidən belə nəql etmiş: وَأَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ – ayəsi nazil olanda Rəsulullah (s) buyurdu: "Əli borcumu əda və vədələrimi sözsüz yerinə yetirəcəkdir." Və Səddən nəql etmiş ki, Rəsulullah (s) "Cöhfə" günündə Əlinin əlindən tutub, xütbə oxudu. Allaha həmd və səna edib buyurdu: "Ey insanlar, mən sizin vəlinizəmmi?" Dedilər: "Bəli, ey Rəsulullah (s)." Sonra Əlinin əlini qaldırıb dedi: «هذا وليّي و يُؤَدّي عَنّي دَيْني» "Bu mənim vəlimdir və mənim borcumu əda edəcək." Bu hədisi 54-cü məktubun axırında nəzərdən keçirdiniz və Əbdür-Rəzzaq və "Came" Müəmmərdən, o da Qətadədən vermişdir ki, Əli (ə) Peyğəmbərdən (s) sonra borclarını ödədi ki, hamısı Peyğəmbərin vədləri idi. Mühasibəyə əsasən, 500 min dirhəmə çatırdı. Əbdür-Rəzzaqa deyildi: "Peyğəmbər bu vəsiyyəti ona etmişdir?" Dedi: "Şübhəm yoxdur ki, Peyğəmbər onu Əliyə vəsiyyət etmişdi və elə olmasaydı, qoymazdılar ki, Əli onun borcunu əda etsin." "Kənzül-Ümmal"ın 4-cü cildinin 60-cı səhifəsində onu vermişdir ki, 1170-ci hədisdir.

[2] Çoxlu və aydın nüsuslara əsasən Peyğəmbər (s) Əliyə vəsiyyət etdi ki, ümmətinin ixtilaflarını onlara bəyan etsin. 48-ci məktubun 11 və 12-ci hədisi, bu ikisindən başqa əvvəldə nəql etdiklərimiz və xatırlatdıqlarımız kafidir.

[3] Bu mətləbi 36, 40, 54 və 56-cı məktublarda işıqlandırdıq.

[4] Peyğəmbərlə vəsi arasında qardaşlıq ardıcıl deyilmişdir. Onun isbatı üçün 32 və 34-cü məktublara baxmaq kifayətdir.

[5] Onun övladlarının atası olması həqiqəti, vicdanla desək, məlum məsələdir. Əliyə buyurdu: "Sən mənim qardaşım və övladlarımın atasısan və mənim sünnəm uğrunda mübarizə aparacaqsan." Bu hədisi Əbu Yəlanın "Müsnəd"ində və "Kənzül-Ümmal"ın 6-cı cildinin 404-cü səhifəsində gəlmişdir. Buseyrinin təsrihinə əsasən onu nəql edənlər etibarlıdırlar. Əhməd də "Mənaqib"də onu İbn Həcərin "Səvaiqül-Mühriqə"sinin 75-ci səhifəsində 9-cu babın 2-ci fəslinin axırında verdiyi kimi zikr etmişdir. Rəsulullah (s) buyurub: "Allah hər bir peyğəmbərin nəslini onun "sülb"ündə qoymuşdur və mənim nəslimi Əlinin." Bu hədisi Təbərani "Əl-kəbir"də Cabirdən və Xətib tarixində İbn Abbasdan nəql etmişlər ki, "Kənzül-Ümmal"ın 6-cı cildinin 152-ci səhifəsindəki həmin 2510-cu hədisdir. Peyğəmbər (s) buyurdu: "Qadınların övladları onların ərinə mənsub edilir, Fatimənin övladlarından başqa, onların ataları isə mənəm." Bu hədisi Təbərani "Zəhran"dan nəql etmiş ki, İbn Həcərin "Səvaiq"inin 11-ci babının 2-ci fəslinin 112-ci səhifəsindəki 22-ci hədisdir. Təbərani onu İbn Ömərdən nəql etmişdir, necə ki, "Səvaiq"in göstərilən səhifəsində mövcuddur. Hakim bu hədisə oxşarını "Müstədrək"in 3-cü cildinin 164-cü səhifəsində Cabirdən nəql etmiş və sonra demişdir: "Bu hədisin sənədləri doğrudur." Amma Buxari və Müslim onu nəql etməmişlər. Hakimin "Müstədrək" və Zəhəbinin "Təlxis"də verdikləri Buxarinin və Müslimin şərtinə əsasən, düzgün hesab etdikləri hədisdə deyilir: Peyğəmbər (s) buyurmuşdur: "Amma sən ey Əli, qardaşım və övladlarımın atasısan, məndənsən və mənə mənsubsan." Bundan əlavə başqa sərih "nüsus"lar da gəlib çatmışdır.

[6] Hədis və nüsuslar içərisində vəzirlik haqqında gəlib çatmış bu hədis sənə kifayət edər: «انت مني بمنزلتي هارون من موسي» Necə ki, 26-cı və başqa məktublarda onu işıqlandırdıq. Həmçinin "İnzar" və "Yovmüd-Dar"

ümmətin “Hittə qapısı”,[6]amanı və nicat gəmisidir.[7] Ona itaətsizlik Peyğəmbərə (s) itaətsizlik[8] kimi böyük xəta və günahdır. Ona tabe olmaq Peyğəmbərə (s) tabe olmaqdır. Ondan ayrılmaq Rəsulullahdan (s) ayrılmaq kimidir.[9] Əli ilə sübh edən Peyğəmbərlə (s) sülh edib. Onunla müharibə edən Peyğəmbərlə müharibə edib.[10] Peyğəmbər onunla dost olanla dost, düşmən olanla düşməndir.[11] Əlini dost bilən, Allah və rəsulunun (s) dostu, ona kin saxlayan, Allah və rəsuluna (s) kin bəsləyər.[12] Əlinin vilayət və dostluğunu ürəkdən qəbul edən şəxs, Allahın və

---

hədisində buyurulur: «اَيّكُم يُوازِرني علي امْري هذا؟ فقال عليّ اَنا يا رسولَ الله أكُون وزيرُك عليه...» 20-ci məktubda onu verdik və Allah Buseyriyə rəhmət etsin ki, özünün “Həmzəli” şerində deyir:

«و وزير بن عمه في المعالي و من الاهل تسعد الوزراء» “O yüksək məqamlarda əmisi oğlu vəziridir və bu sülalədən vəzirlər ucalır.”

«لم يَزِده كشْفُ الغِطاء يَقينا بلْ هُوَ الشّمس ما عليه غطاءُ» “Pərdənin çəkilməsi onun yəqinliyini artırmamış. Yox, o özü pərdəsiz günəşdir.”

[1] İslam ümməti həmfikirdirlər ki, Allahın kitabında elə ayə vardır Əlidən başqa kimsə ona əməl etməmiş və ondan sonra da qiyamətə qədər heç kəs ona əməl etməyəcəkdir. O “Mücadilə” surəsinin “nəcva” (ayə 12-13) ayəsidir. Onda dost və düşmən müttəfiqdirlər. Bu barədə dəqiq rəvayətlər və nüsuslar gəlib çatmışdır ki, Buxari və Müslimin şərtinə əsasən doğrudurlar. Bu hədislərdən ümmətin az-çox xəbəri var. Xəbərdarlıq üçün kifayətdir ki, Hakimin “Müstədrək”inin 2-ci cildinin 482-ci səhifəsində və Zəhəbinin “Təlxis”ində həmin səhifəyə baxılsın.

Bu ayənin təfsirinin daha aydın olması üçünSələbi, Təbəri, Süyuti, Zəməxşəri, Razi və başqalarının təfsirinə baxın və 74-cü məktubda Ümmü-Sələmə və Abdullah ibn Ömərin o Həzrətin vəfatı zamanı və “Taif” günü Peyğəmbər (s) ilə Əlinin (ə) sirli söhbəti haqqında hədislərlə xəbərdar olacaqsınız. Orada görəcəksiniz ki, Rəsulullah (s) o gün buyurdu: “Əlini Mən sirdaş seçməmişəm, əksinə Allah onu seçibdir.” Həmçinin onların xüsusi danışıqlarında Ayişəyə aid bəzi məsələlərdən də xəbərdar olacaqsınız (diqqət edin).

[2] Əli onun vəlisi olduğu haqda İbn Abbasın Peyğəmbər (s) barədə hədisi kifayətdir ki, 26-cı məktubda keçdi. Orada verilmişdir ki, Peyğəmbər Əliyə (ə) buyurdu: «اَنْتَ وليّي في الدّنيا و الآخرة» “Sən dünya və axirətdə mənim vəlimsən.” Demək olar, bu məsələ İslamın zərurətlərindəndir. Hədislərin dərin təhqiqi və toplanmasına ehtiyac yoxdur.

[3] 68-ci məktubda bu barədə verilən “vəsayət” nüsusu kifayətdir.

[4] 48-ci məktubun 9-cu hədisinə və verilmiş izahata baxın.

[5] 48-ci məktubun 10-cu hədisinə baxın.

[6] 48-ci məktubun 14-cü hədisinə baxın.

[7] 8-ci məktuba baxın.

[8] 48-ci məktubun 16-cı hədisinə və başqalarına əsasən.

[9] 48-ci məktubun 17-ci hədisinə və başqalarına əsasən.

[10] İmam Əhməd “Müsnəd”in 2-ci cildinin 442-ci səhifəsində Əbu Hüreyrədən nəql etmişdir ki, Rəsulullah (s) Əli, Fatimə, Həsən və Hüseynə (ə) baxıb buyurdu: «اَنَا حَرْبٌ لِمَن حَارَبكُمْ وَسِلْمٌ لِمَنْ سالَمَكُم» Həmçinin, doğru hədisə əsasən, Həzrət (s) bir gün onlara paltarla zinət bağışladı və buyurdu: «انا حرْبٌ لمن حاربَهم وسِلْم لمن سالَمَهم وَ عَدوٌّ لمن عاداهم» Bu hədisi İbn Həcər “Səvaiq” kitabının 11-ci babının 1-ci fəslində onların fəzilətləri haqqındakı ayələrin birinci ayəsindən sonra nəql etmişdir. Peyğəmbərin (s) bu «حَرْبُ عَلِيّ حَرْبِي وَسِلْمُهُ سِلْمي» “Əli ilə müharibə, mənimlə müharibə, onunla sülh mənimlə sülh” – sözü “müstəfiz” şəkildə nəql olunmuşdur.

[11] 48-ci məktubun 20-ci hədisinə müraciət edin. Əlavə olaraq «اللهمّ والِ مَن والاه عادِ مَن عاداه» – cümləsi mütəvatirdir. Bu qədər kifayətdir və şükür Allaha, 36-cı məktubda Büreydənin hədisində bildiniz ki, Rəsulullah buyurdu: «مَن اَبغضَ عليّا فقد اَبغضَني وَ من فارَقَ عليّا فقد فارقَني» və mütəvatir şəkildə gəlib çatmışdır: «لا يحبُّه الاّ مؤمن و لا يُبغضه الاّ منا فِق». Allaha and olsun, bu Peyğəmbərin (s) vəsiyyəti, əhd-peymanıdır.

[12] 48-ci məktubun 19, 20, 21-ci və s. hədislərə əsasən.

Peyğəmbərin (s) vilayət və dostluğunu qəbul etmiş, onu düşmən bilən, o ikisini düşmən bilmiş.[1] Onu incidən Allah və rəsulunu (s) incitmişdir.[2] Kim onu təhqir edib söysə, o ikisini təhqir edib söymüşdür.[3] O, yaxşıların imamı, yolunu azmışların qatilidir. Ona kömək edən qalib, onu unudan unudular.[4] Müsəlmanların ağası, pəhrizkarların imamı, möminlərin rəhbəridir.[5] O, hidayət bayrağı, Allahın övliyalarının imamıdır. Allaha itaət edən nur, işıq, Allahın pəhrizkarlara itaətini lazım bildiyi söz və üsuludur.[6] O, böyük siddiq, ümmətin faruqu, möminlərin sərkərdəsidir.[7] O, böyük furqan və "zikri-həkim" hökmündədir.[8] Onun Rəsulullaha nisbəti Harunun Musaya olan nisbəti kimidir.[9] Onun Peyğəmbərə nisbəti Peyğəmbərin Allaha olan nisbəti kimidir[10]. O, Peyğəmbərinə başının bədəninə olan nisbəti kimidir.[11] O, Peyğəmbərin canı və ruhu kimidir.[12] Allah yer əhlinə nəzər saldı və bu ikisini seçdi.[13] Kifayətdir ki, Ərəfatda "həccətül-vida"da buyurdu: "Onun (s) tərəfindən Əlidən başqa heç kim (göstəriş və hökm) yaymamalıdır.[14] Bunlar Əlidən və Peyğəmbər məqamına layiq olanlar başqa heç kimə aid deyildir.

Bütün bunlardan sonra hansı ağıllı bir insanın onun vəsiyyətini inkar etməyə haqqı vardır?! Bu işdə qərəzi olandan başqa heç kəsin! Çünki vəsiyyətdə bir sıra nüfuzlu işlərin öhdədarlığı qeyd olunmuşdu ki, qərəzli adamlar ona göz yuma bilməzdilər!

2. Amma vəsiyyəti inkar edən "məzhəbi ərəbə"nin davamçılarından bəziləri güman etmişlər ki, "vəsayət" xüləfayi-səlasə (üç xəlifə) ilə uyğun gəlmir. Bu isə təəssübkeşliyin əlamətidir.

3. Sünnilər bu məsələdə bizim qarşımızda mübahisə edə bilməzlər. Amma Buxari və başqaları Təlhə ibn Misrəfdən nəql etmişlər ki, Abdullah ibn Əbu Ovfadan soruşdu: "Peyğəmbər vəsiyyət etmişdimi?" Cavab verdi: "Yox." Ona dedim: "Necə, oldu özü vəsiyyət

---

[1] Həmin məktubun 23-cü hədisinə əsasən və «اللهم وال من والاه و عاد من عاداه» – mütəvatir cümləsi sənə kifayətdir. Bu qədər bəsdir və şükür Allaha, 36-cı məktubda Büreydənin hədisində bildin ki, Rəsulullah (s) buyurdu: «من ابغض عليّا فقد ابغضني و من فارق عليّا فقد فارقني». Yenə mütəvatir şəkildə gəlib çatmışdır: «لا يحبه الا مومن و لا يبغضه الا منافق» Allaha and olsun ki, bu Peyğəmbərin vəsiyyəti, əhd və peymanıdır.

[2] Əmr ibn Şaşın hədisini nəzərdən keçirsəniz kifayətdir və orada deyilir: «من آذا عليا فقد آذاني». Əhməd "Müsnəd"in 3-cü cildinin 483-cü səhifəsində, Hakim "Müstədrək"in 3-cü cildinin 123-cü səhifəsində, Zəhəbi "Təlxis"in həmin səhifəsində onun düzgünlüyünə etiraf, Buxari öz tarixində, İbn Səd "Təbəqat"da, ibn Əbu Şeybə özünün "Müsnəd"ində, Təbərani "Əl-kəbir"də onu nəql etmişlər. Bu hədis "Kənzül-Ümmal"ın 6-cı cildinin 400-cü səhifəsində mövcuddur.

[3] 48-ci məktubun 18-ci hədisinə və s. əsasən.

[4] 48-ci məktubun 18-ci hədisinə əsasən.

[5] Həmin məktubun birinci hədisinə və s. əsasən.

[6] 48-ci məktubun 2, 3, 4 və 5-ci hədislərinə bax.

[7] Həmin məktubun 6-cı hədisinə bax.

[8] Həmin məktubun 7-ci hədisinə və s. əsasən.

[9] Bu barədə 8-ci məktubdakı "Səqəleyn" haqqında düzgün rəvayətlərdən verilən xəbər kifayətdir ki, həqiqəti ayıqlara aydınlaşdırır və 50-ci məktubda gəldiyi kimi: «انّ عليّا مع القرآن و القرآنُ مع عليّ لا يفترقان»

[10] Onu 26, 28, 30, 32 və 34-cü məktublar işıqlandırır.

[11] 48-ci məktubun 13-cü hədisinə əsasən.

[12] 50-ci məktubda verdiyimiz hədisə əsasən, ora və izahına baxın.

[13] "Mübahilə" ayəsi və İbn Ovfanın 50-ci məktubda verilən hədisinə əsasən.

[14] 68-ci məktubdakı rəvayətlər kimi.

etməyi xalqa vacib bildi, amma özü onu tərk etdi?" Cavab verdi: "Allahın kitabını sifariş etdi." Bu hədis ağ yalandır və bizim üçün heç bir etibarı yoxdur. Göründüyü kimi bu hədis o dövrün siyasətinin tələbinə uyğundur. Bizim əlimizdə yetərincə pak Əhli-beyt tərəfindən vəsiyyət haqqında deyilmiş düzgün hədis və xəbərlər vardır. Buna görə də, onlara əks olan hər bir şeyi divara vurmaq lazımdır və heç vaxt mötəbər sayılmayacaq.

4. Bütün deyilənlərlə yanaşı, vəsiyyətin bürhan və sübuta ehtiyacı yoxdur, çünki ağıl və vicdan ona hakimdir[1] və şair demişkən: "Gücü olan öz ayağı üstə dura bilər. Necə ki, günəşin işıqlı olduğunu sübut etmək də faydasızdır."

Amma Buxarinin İbn Əbu Ovfadan verdiyi ki, "Peyğəmbər (s) Allahın Kitabını sifariş etmişdir", doğrudur. O, Peyğəmbərin (s) bütün vəsiyyətini nəql etməmişdir. Peyğəmbər (s) "səqəleyn"ə arxalanmağı da birlikdə vəsiyyət etmiş və ümmətindən tələb etmişdi ki, hər iki ipdən birgə tutsunlar. Və ümməti qorxutdu ki, onlara arxalanmasalar, yollarını azmış olacaq və xəbərdarlıq etdi ki, bu ikisi (Quran və Əhli-beyt) hovuzun kənarına gələnə qədər bir-birindən ayrılmayacaqlar.[2]

Peyğəmbərin (s) pak Əhli-beyti təriqiylə bu haqda düzgün xəbərlər deyilmişdir. Amma qeyri-Əhli-beyt təriqiylə 8 və 54-cü məktublarda verdiklərimiz sizə bəsdir. Vəssalam.

***"Ş"***

---

[1] 48-ci məktubun 15-ci hədisinə və ona aid izahatlara müraciət edin.

[2] Ağlın hökmünə əsasən, Peyğəmbər (s) ola bilməz ki, vəsiyyətə əmr edə, bu məsələni ümmətindən ciddi tələb edə, amma özü (ümmətin onun vəsiyyətinə hədsiz ehtiyacı olan çətin halda) onu başlı-başına buraxa. Çünki o Həzrət elə şeyi irs qoyurdu ki, qəyyuma bərk ehtiyacı var idi, elə "yetimlər" qoyub gedirdi və elə çətin vəziyyətdə başçıya möhtac idilər ki, heç kəs onunla müqayisə edilə bilməzdi. Nəuzubillah, o özünün qiymətli irsinə – şəriət və Allahın ehkamına qayğısızlıqmı göstərmək, istəyirdi, yer əhlini yetim və başsız, qaranlıqda başlı-başınamı buraxmaq istəyirdi və onların, rəhbər və pişvasız həyatlarına davam etmələrinəmi razı idi?!

Vicdan hökm edir ki, Peyğəmbər Əlini vəsi seçmişdir. Çünki o Həzrət Əliyə göstəriş vermişdi ki, ona qüsl versin, hünutlasın, kəfənləsin, borclarını qaytarsın müsəlmanların ixtilaflarını ondan sonra bəyan etsin, hamıya çatdırsın ki, özündən sonra Əli onların vəlisidir... və bu məktubda işarə olunanlar.

# *YETMİŞ BİRİNCİ MƏKTUB*

10 Səfər 1330

***Nə üçün "Ümmül-mömininin" hədisində Peyğəmbərin (s) zövcələrinin ən yaxşısına etiraz edirsən? Onun səbəbi nədir?***

Allah səni bağışlasın, nə üçün Ümmül-mömini, Peyğəmbərin zövcələrinin ən yaxşısını saya salmadın? Niyə ondan üz çevirib, hədisini qulaq ardına vurdun və onu unutdun? Halbuki onun sözü həlledici, hökmü ədalətli olardı. Eyni zamanda deməyə faktın varsa, ehtiramla qarşılayarıq və düzlüyünə sübutun olsa, biz də diqqət yetirərik. Vəssalam.

***"S"***

# *YETMİŞ İKİNCİ MƏKTUB*

12 Səfər 1330

***1. O, Peyğəmbərin zövcələrinin ən yaxşısı deyildi.***

***2. Onların ən yaxşısı "Xədicə"idi.***

***3. Ayişənin hədisinə etirazın qısa şərhi.***

Ümmül-möminin Ayişənin özünəməxsus məqamı və yeri olmaqla bərabər, deməliyəm ki, o, Peyğəmbərin (s) zövcələrinin ən yaxşısı deyildir. Ayişə Peyğəmbərin (s) zövcələrinin ən ağıllısı və ən yaxşısı necə ola bilər ki, özünün nəql etdiyi düzgün hədisə əsasən, deyir: "Bir gün Peyğəmbər (s) Xədicəni xatırlayarkən mən ona eyib tutub dedim: O ki, qoca bir qadın idi. Allah ondan da yaxşısını sənə vermişdir. Peyğəmbər (s) buyurdu: Allah ondan yaxşısını mənə inayət etməmişdir. Çünki xalq məni təkzib edəndə, o məni öz malına, dövlətinə şərik etdi, məni məhrum edəndə Allah ondan mənə övlad əta etdi, başqasından yox."[1] Yenə Ayişədən nəql olunur: "Rəsulullah Xədicəni xatırlamamış və ona salam göndərmədən evdən çıxmazdı. Bir gün onu xatırlayarkən, qadınlıq qeyrəti məni təhrik etdi və dedim: O qoca qadında nə görmüsən, axı? Allah onun əvəzinə sənə ondan da yaxşısını vermişdir. Həzrət elə hirsləndi ki, hətta tükləri titrəyirdi. Dedi: Yox, Allaha and olsun ki, ondan yaxşısını Allah mənə verməmişdir! O mənə o vaxt iman gətirdi ki, xalq kafir idi, onlar məni təkzib edəndə o məni təsdiq etdi, öz mal-dövlətiylə mənə kömək etdi, məni məhrum edəndə Allah ondan mənə övladlar verdi. Halbuki başqa qadınlardan (övladdan) məhrum oldum."

2. Buna əsasən, Peyğəmbərin (s) zövcələrindən ən yaxşısı Xədiceyi-Kübra bu ümmətin siddiqəsi və Allaha iman gətirən, Allahın kitabını təsdiq edən, Peyğəmbərə malıyla kömək edən ilk qadındır. (Buna görə görürük ki,) Peyğəmbərə vəhy gələrkən Xədicəyə müjdə verib[2] dedi ki, behiştdə mirvari və zümrüddən evi var və onun başqa qadınlardan üstünlüyünə toxunaraq buyurdu: "Behiştin ən üstün qadınları Xədicə Xüveylid qızı, Fatimə Məhəmməd qızı, Asiyə Müzahim qızı və Məryəm İmran qızıdır. Həmçinin buyurmuşdur: "Dünyanın ən yaxşı qadınları dörd nəfərdir." Sonra həmin dörd nəfəri saydı. Yenə buyurmuşdur: "Dünyanın qadınlarından Məryəm İmranın qızı, Xədicə Xüveylid qızı, Fatimə Məhəmməd qızı və Fironun arvadı Asiyəni yaxşılıqla yada salmaq olar."

Bu qəbildən çoxlu rəvayətlər gəlib çatmışdır ki, Peyğəmbərdən nəq olan ən düzgün hədislərdir.[3] Hətta Xədicəni də nəzərə almasaq, yenə da demək olmaz Ayişə Peyğəmbərin (s) digər zövcələrindən üstündür. Bizə gəlib çatan sünnə və xəbərlər də Ayişənin Peyğəmbərin başqa zövcələrindən üstünlüyünü deməkdən imtina etmiş və ağıl sahiblərinə də gizli deyildir. Bəli, bəzən özü fikirləşirdi ki, başqalarından üstündür. Amma Peyğəmbər (s) onu imzalamırdı. Bunu Ümmülmömininlə Səfiyyə (Həyyin qızı) arasında baş vermiş hadisədən də başa düşmək olar. Əhvalat belədir: "Peyğəmbər (s) bir gün Səfiyyənin yanına daxil olub gördü ki, o, ağlayır. Soruşdu: Nə üçün ağlayırsan? Cavab verdi: Mənə xəbər çatdı ki, Ayişə və Həfsə

---

[1] Bu və bundan sonrakı hədis düzgün və "müstəfiz" rəvayətlərdəndir. "İstiab"da Xədiceyi-Kübranın şərhihalına müraciət edin. Orada zikr etdiyim sözləri eynilə görəcəksən. Buxari və Müslim də bu hədisi bu ikisinə oxşar sözlərlə nəql etmişlər.

[2] Necə ki, Buxari (غيرة النساء و وجدهن) babında "nikah" kitabının axırında, "Səhih"in 3-cü cildinin 175-ci səhifəsində vermişdir.

[3] Onlardan bir hissəsini biz öz kitabımız "Kəlimətül-qərra"da, ikinci mətləbdə vermişik. Bilmək istəyənlər ora baxsın.

məndə eyib axtarır və deyirlər: Biz Səfiyyədən yaxşıyıq. Rəsulullah (s) buyurdu: Nə üçün soruşmadın ki, sizin məndən nəyiniz yaxşısınız? Halbuki, atam Harun, əmim Musa və ərim Məhəmməddir."[1]

Ümmül-möminin Ayişənin hərəkətlərinə, işinə və sözünə diqqət yetirib onu tədqiq edən görər ki, o, bizim dediyimiz kimidir.

3. "Vəsayət" haqqında Ayişənin hədisinə fikir verməməyimiz də ona görə idi ki, onun sözü höccət deyildir və mən xahiş edirəm ki, bu məsələnin təfsilini məndən istəməyəsiniz. Vəssalam.

***"Ş"***

---

[1] Tirmizi onu Ümmül-möminin Səfiyyənin qulamı Kənanədən nəql etmiş, İbn Əbdül-Birr Səfiyyənin şərhi-halında "İstiab"da, İbn Həcər "Əl-isabə"də onun şərhi-halında və Şeyx Rəşid Rza "Əl-minar"ın 12-ci cildinin 589-cu səhifəsinin sonunda və başqa xəbər və hədis nəql edənlər də onu zikr etmişlər.

# *YETMİŞ ÜÇÜNCÜ MƏKTUB*

13 Səfər 1330

***Ayişənin hədisindən imtinanın səbəbinin təfsilatı.***

Mən sizi yalan və riyadan uzaq, əsassız və qüsurlu sənəd təqdim etməyən, dəlilsiz münasibət göstərməyən adam bilirəm. Siz çox yüksək bir məqamda dayanıbsınız ki, varlıq qülləniz bədbinlik seli, sui-zənn, pis fikir və töhmətdən uzaqdır.

Mən də şükür Allaha, ara vuran, məkrli və hiyləgər deyiləm. Nə adamların büdrəmələrini axtarır, nə də eyib və gizli sirrləri bilmək istəyirəm. Həqiqət dalısıycayam və onun ardınca gəzirəm. Buna görə də sənə sualım heç cür tərk edə bilmədiyim şeylərin təfsilatı haqqındadır və bundan sonra sizin müsbət cavabınız da, artıq o dərdə çarə edən deyildir. Necə deyərlər, sən arxayınlıqla işinə davam et və başqasıyla işin olmasın. Mən aramızda bu ayəni (Bəqərə, 159) vasitə edirəm: إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلْنَا مِنَ الْبَيِّنَاتِ وَالْهُدَى مِن بَعْدِ مَا بَيَّنَّاهُ لِلنَّاسِ فِي الْكِتَابِ أُولَئِكَ يَلعَنُهُمُ اللّهُ وَيَلْعَنُهُمُ اللَّاعِنُونَ “Kitabda (Tövratda) insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və doğru yol göstərən ayələrimizi gizlədən kimsələr Allahın lə’nətinə düçar olar və bütün lə’nət edə bilənlər də onlara lə’nət oxuyar.”

Vəssalam.

***“S”***

# *YETMİŞ DÖRDÜNCÜ MƏKTUB*

<u>15</u> <u>Səfər</u> <u>1330</u>

***1. Ayişənin hədisindən imtinanın səbəblərinin təfsili.***

***2. Ağıl “vəsayət”ə hökm edir.***

***3. “Peyğəmbərin (s) onun (Ayişənin) yanında ölmüşdür” – iddiasına qarşı sənəd vardır.***

1. Allah sənə kömək olsun, təfsilata görə çox israr etmisən. Halbuki sənin ona ehtiyacın yoxdur. Çünki, bilirsən ki, bizə nə olubsa, elə oradan başlayır, “vəsayət”in aradan götürülməsi, “nüsus”un pozulması, hər nə zərbə oradandır. Fitnə oradandır, xüms, irs, “nihlə” və “hibə”nin yox olmasının ibtidası oradandır. Oradan[1] başlayaraq Əmirəl-mömininlə (ə) döyüşə girişdilər və ölkəni almaq, Həzrətin hökumətini yıxmaq üçün çoxsaylı qoşun yığdılar. Nə isə, ötənə güzəşt deyərlər və sən də yaxşılığa yoz, cərəyanı soruşma.

Belə isə, “vəsayət”in inkarında Ayişənin sözünü necə qəbul etmək olar, halbuki o, Əliyə qarşı qatı düşmən idi. Bu isə iddianı onun özü ilə isbat etməkdir ki, heç bir insaf sahibindən gözlənilməz. Onun Əli (ə) ilə müxalifəti bununla bitmir. “Vəsayət”in inkarı məsələsi “Cəməli-Əkbər”[2] döyüşünün müqabilində çox sadə bir şeydir. Bu iki döyüş ürəklərdəki qərəzləri üzə çıxartdı, örtülü sirlərin üstünü açdı! Bu iki nümunə onun öz vəlisi, Peyğəmbərin vəsisi Əli ilə münasibətinin müharibədən əvvəl və müharibədən sonra işıqlandırılması üçün kifayət edər. Hətta o vaxt Həzrətin şəhadət xəbəri ona çatanda, şükür səcdəsi edib bu beyti demişdi:[3]

«فَاَلْقَتْ عصاها وَ استقَرَّتْ بها النَّوي كما قُرَّ عيناً بالاياب المسافر» “Əsanı yerə atıb qapıda dayandı. Necə ki, müsafir qayıdandan sonra gözlər sevincdən dolar.”

Əgər istəsən, sənə Ayişənin sərgüzəştlərindən başqa nümunələr danışaram ki, onun İmama qarşı necə soyuq münasibəti olduğunu[4] və Əlinin (ə) vəsi olmasının ona necə əzab verdiyini biləsən.

Ayişə deyir: “Rəsulullah (s) xəstə ikən dərdi gücləndiyindən iki nəfər qoluna girmiş halda evdən bayıra çıxırdı və ayaqlarını da çəkirdi. Bu iki nəfərin biri Abbas ibn Əbdül-Müttəlib,

---

[1] “Sihah”ın hökmlərinə, Buxarinin “Səhih”ində “cihad və sirə” kitabının “ما جاء في بيوت ازواج النبي” babına, ikinci cüz, 125-ci səhifəsinə bax. Təfsilatı ilə tapacaqsan.

[2] “Cəməli-Əsğər” müharibəsinin fitnəsi Əmirəl-möminin (ə) Bəsrəyə daxil olmamışdan əvvəl 36-cı ilin rəbiüs-sani ayının axırına beş gün qalmış üz vermişdir. Ümmül-möminin Təlhə və Zübeyr ilə Bəsrəyə həmlə etdilər. İmamın valisi o vaxt Osman ibn Hüneyf Ənsari idi. Bu həmlədə Əli şiələrindən 40 nəfər məsciddə, 70 nəfər başqa yerdə öldürüldülər. Səhabə füzəlalarından olan Osman ibn Hüneyfi əsir aldılar. İstədilər ki, onu öldürsünlər, amma qardaşı Səhl və “ənsar”ın qan almağa qalxmalarından qorxdular. Lakin, bığını, saqqalını, qaşlarını və başının tükünü yoldular və özünü də döyüb həbs etdilər. Sonra onu Bəsrədən xaric etdilər. Həkim ibn Cəbələ öz qəbiləsindən (Əbdi Qeys) bir qrupla onlarla mübarizəyə qalxdı. Həkim qəbiləsinin başçısı, açıq fikirli, qeyrətli və ağıllı bir şəxs idi. “Rəbiə” qəbiləsindən də bir qrup onlara qoşuldu və hamısı müharibənin qızğın çağında şəhid oldular. Həkimlə bərabər oğlu Əşrəf və qardaşı Rəl də şəhid oldular və Ayişə Bəsrəni aldı. Sonra Əli (ə) Bəsrəyə çatdı. Ayişə və qoşunu onun önündə sıraya düzüldülər və “Cəməli-Əkbər” müharibəsi başlandı. Bu iki hadisənin təfsilatı İbn Cərir, İbn Əsirin tarixində və digər tarixlərdə, “sirə və xəbər” kitablarında mövcuddur.

[3] Əbül-Fərəc İsfahani özünün “Məqatilüt-Talibin” kitabının sonunda Əlinin şərhi-halında verdiyi kimi, digər etibarlı xəbər və tarix yazanlar onu qeyd etmişlər.

[4] Buxari “Səhih”in 3-cü cildinin 62-ci səhifəsində “mərəzün-Nəbi və vəfatuhu” babında verdiyi kimi.

biri də başqası idi."[1] Ayişədən bu xəbəri nəql edən Übeydullah ibn Abdullah ibn Ütbə ibn Məsud deyir: "Ayişənin bu sözünü Abdullah İbn Abbasa dedim. İbn Abbas dedi: Heç bilirsən, Ayişənin adını çəkmədiyi o başqa birisi kim idi? Dedim: Yox. Dedi: Əli ibn Əbu Talib idi. Sonra İbn Abbas əlavə etdi: Ayişənin Əlidən xoşu gəlmirdi və heç vaxt istəmirdi ki, Əlinin adı yaxşılıqla xatırlansın."

Mən deyirəm: Əgər Ayişə heç vaxt Əlinin yaxşılıqla xatırlanmasını və onun adının Peyğəmbərlə bir addımlayanların sırasında çəkilməsini istəməyibsə, heç istəyərdimi ki, başdan-başa yaxşılıq və xeyir olan "vəsayət"dən danışılsın?

İmam Əhməd "Müsnəd"in 6-cı cildinin 113-cü səhifəsində Əta ibn Yəsardan Ayişənin haqqında belə nəql edir: "Bir nəfər Ayişənin yanına gəlib, Əli və Əmmardan qeybət etdi. Ayişə dedi: Əli barədə sənə heç nə demirəm, amma Əmmarın haqqında, mən Rəsulullahdan (s) eşitmişəm, deyirdi: Əmmar iki iş qarşıya çıxdıqda, həmişə haqq tərəfi seçər. Çünki onda böyüklük və doğruluq daha çoxdur."

Aman Allah, Ümmül-möminin Əmmarın qeybətindən həzər edir. Çünki, eşitdiyinə görə Peyğəmbər onun haqqında buyurmuşdur: "Əgər iki məsələ qarşıya çıxsa, Əmmar ikisindən hansının haqqa yaxın olanını seçə." Amma Peyğəmbərin qardaşı, vəlisi, dostu, sirdaşı, qəza işlərində ümmətin ən biliklisi, elm şəhərinin qapısı, Allah və Rəsulunu sevən, Allah və rəsulunun sevimlisi, ilk müsəlman, imanda hamıdan irəli, onların ən biliklisi, fəzail və mənaqibdə hamıdan üstün olan Əli haqda qeybətdən həzər etmir! (Bəli, əlbəttə, belə şəxsə qarşı əsla qeybətdən həzər etməz.)

Ay tövbə! Guya, Əlinin Allah dərgahında olan məqam və yerindən, Rəsulullahın (s) qəlbindəki mövqeyindən xəbərsizdir. Sanki, onun İslamdakı yüksək mövqeyinin, o yoldakı çətinlik və əziyyətlərinin və o alicənabın çətinliklərə dözməsinin şahidi olmamışdır. Guya, Ayişə Allahın kitabında və Peyğəmbərin sünnəsində Əli (ə) haqqında heç bir şey eşitməmiş və onu Əmmarla bərabər tutur.

Allaha and olsun ki, onun sözü məni yaman heyrətə gətirdi və təəccübləndirdi: "Peyğəmbər sinəmə söykənmiş halda idi. Teşt istədi və bədəni süstləşərək dünyadan getdi. Belə olan surətdə, bilmirəm Əlini necə vəsi seçdi?"

Mən bilmirəm, onun sözünün hansı tərəfinə irad tutum. Çünki, tamamilə qüsurludur. Kaş, bir adam mənə başa sala ki, Ayişənin təsvir etdiyi o hadisə həzrətin vəsiyyət etmədiyinə necə dəlildir?! Ümmül-mömininnin fikri belədir ki, yalnız ölən vaxt vəsiyyət düzgündür və başqa vaxt da düzgün deyildir? Lakin bu məsələ qətiyyən səhvdir. Həqiqətlə mübarizəyə qalxan adamın dəlili də (hər kim olsa belə) süst olar. Məgər böyük Allahın Qurani-kərimdə peyğəmbərinə (s) xitabı bu deyilmi ki, buyurur: كُتِبَ عَلَيْكُمْ إِذَا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ إِن تَرَكَ خَيْرًا الْوَصِيَّةُ "Sizə vacib oldu ki, sizlərdən birinin ölümü çatanda (bir şey (mal) qoyubsa) vəsiyyət etsin."[2]

Ümmül-möminin Peyğəmbərin Allahın kitabının fərmanına müxalif olduğunu və onun ehkamlarından üz çevirdiyinimi güman edir? "Nəuzubillah", "haşa lillah!" Əksinə, o yaxşı bilirdi ki, Rəsulullah (s) hər bir addımını Quranın fərmanına əsasən atır, ona itaət edir, onun əmrləri və nəhylərinə hamıdan artıq əməl edir. Belə ki, son dərəcə itaətkarlıqla hər bir işdə onun bütün göstərişlərinə əsaslanır və mən Ayişənin o Həzrətdən bu hədisi eşitməsinə şübhə

---

[1] Bu xüsusi cümləni, yəni İbn Abbasın "Ayişənin Əlidən xoşu gəlmirdi və istəməzdi ki, ondan yaxşılıqla danışılsın" – cümləsini Buxari həzf etmiş və onun əvvəlini vermişdir ki, adəti üzrə belə hallar onda vardır. Amma sünnilərdən çoxu düzgün sənədlərilə onu vermişlər. O cümlədən İbn Səd "Təbəqat"ın 2-ci cildinin 2-ci hissəsinin 29-cu səhifəsində Əhməd ibn Həccacdan, o da Abdullah ibn Mübarəkdən, o da Yunisdən və Müəmmər onu Zöhridən, o da Abdullah ibn Ütbə ibn Məsud İbn Abbasdan nəql etmişlər. Sənədin ravilərinin hamısı höccət və qəbuldurlar.

[2] "Bəqərə", 180-ci ayə.

etmirəm:[1] “Vəsiyyətə qabil şeyi olan müsəlman vəsiyyətsiz iki gecə qabaqdan yatmamalıdır.” Şübhəsiz, o, bu və buna oxşar hədisləri eşitmişdir. Çünki Həzrətin vəsiyyət haqqında ciddi əmrlər verməsi şübhəsizdir və Həzrətə və Allahın peyğəmbərlərindən heç birinə caiz deyildir ki, bir şeyə əmr etsin, amma özləri ona əməl etməsinlər və ya bir şeyi qadağan etsin, özləri onun icrasından imtina etməsinlər. Allah belə bir şəxsi özünə peyğəmbər seçməz.

Amma, Müslim və başqalarının Ayişədən nəql etdinləri “Rəsulullah (s) nə bir dirhəm, nə bir dinar, nə bir qoyun, nə bir dəvə və... xülasə, heç bir şey vəsiyyət etmədi” – xəbərləri də etibarsızdır. Çünki demək olmaz ki, o Həzrət həqiqətən heç nə qoymadı və onun heç bir şeyi yox idi. Bəli, o dünya malından dünya əhlinin qoyduqları qədər mal qoymadı. Çünki o, ən zahid bəndə idi və borclu halda Allaha qovuşdu.[2] Vədlər vermişdi və yanında əmanətlər var idi ki, gərək vəsiyyət edəydi. Malından o qədər qoydu ki, borclarına çatsın və vədlərinə əməl olunsun və az miqdar da varisinə qalsın.

Bu səhih rəvayətlər dəlildir ki, Zəhra nahaq yerə irs tələb etməmişdi.[3]

2. Bütün bunlardan əlavə, Peyğəmbər (s) bir sıra şeylər qoymuşdu ki, onlar haqqında mütləq vəsiyyət etməli idi. Elə şeylər idi ki, bu baxımdan heç kəs onunla müqayisə oluna bilməz. O, Allahın son peyğəmbəri kimi inkişaf başlanğıcında olan sonuncu dini qoyub gedirdi. Burada vəsiyyətin əhəmiyyəti qızıl, gümüş, ev, bağ, torpaq, heyvan və sürüdən qat-qat artıq idi. Ümmət belə belə bir vaxtda bir yetim tək onun vəsiyyətinə möhtac idi ki, mütləq o Həzrətin tərəfindən bir canişin onların din və dünya işlərinin idarəsini öhdəsinə alaydı. Ola bilməzdi ki, Rəsulullah (s) inkişafın başlanğıcında olan dinini istənilən kəsin həvayi-nəfsinə tapşıra və ya şəriət və qanunların hifzində başqalarının rəy və fikirlərinə arxalana və yaxud ümmətin din və dünya işlərini vəsi və başçısız, etimad olunmalı “ümumi naibliyi” təyin etməyib gedə. Nəuzubillah, heç mümkündürmü Allah ona vəhy edəndən sonra vəsiyyəti tərk etsin, amma özü ümmətindən ciddi surətdə vəsiyyəti tələb etsin?!

Buna görə də insaflı ağıl vəsiyyətin inkarı fikrinə məhəl qoymur, hətta onu inkar edən böyük şəxsiyyət olsa da. Hələ Peyğəmbər (s) Məkkədə İslama dəvətin əvvəlində وَأَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ – ayəsi (Şüəra, ayə 214) nazil olanda artıq Əlini vəsi seçmişdi (20-ci məktubda izah etdiyimiz kimi). Bundan sonra həmişə vəsiyyətini təkrar edər, dəfələrlə ona təkid edərdi. Bir çox məsələ ilə əlaqədar buna əvvəldə də işarə etmişdik. Hətta can verəndə (atam-anam ona fəda olsun) istədi ki, ümmət Əliyə olan vəsiyyətini yazılı olaraq bildirsin, vəsiyyətin bəndlərini daha qəti, mətnini daha mükəmməl etsin. Elə ona görə də buyurdu: «ائْتوني اَكتُبْ لكم كتاباً لن تضلّوا بعدَه ابدا» “Gətirin (kağız-qələm) sizə bir şey yazıb qoyum ki, heç vaxt yolunuzu azmayasınız.” Amma onlar Həzrətin yatağının kənarında mübahisə etməyə, çəkişməyə (dava-dalaş salmağa) başladılar (halbuki Peyğəmbərin yanında mübahisə etmək əsla olmazdı). Dedilər: “Peyğəmbər (nəuzubillah!) həzyan deyir (sayıqlayır).”[4] Peyğəmbər (s) bildi ki,

---

[1] Buxarinin “vəsiyyətlər” kitabının əvvəlində “Səhih”in 2-ci cildinin 83-cü səhifəsində verdiyi və Müslimin “Səhih”inin 2-ci cildinin 10-cu səhifəsində “vəsiyyət” kitabında yazdığı kimi.

[2] Müəmmər Qütadədən nəql edir: “Əli Peyğəmbərin vəfatından sonra onun malı və borclarını hesabladı ki, cəmi beş yüz min dirhəmə çatdı. “Kənzül-Ümmal”ın 4-cü cildinin 60-cı səhifəsinə baxın, 1170-ci hədisdir.

[3] Buxarinin onu “Səhih”in 3-cü cildinin 37-ci səhifəsində «غزوة خيبر» babının axırında və Müslimin “Səhih”in 2-ci cildinin 72-ci səhifəsində “cihad” kitabının «قول النبي لانورّث، ما تركناه فهُوَ صدقة» babında yad etdiyi kimi.

[4] Məhəmməd ibn İsmayıl Buxari “Səhih”in 2-ci cild, “cihad və siyər” bölməsinin “cəvaizül-vəfd” babında118-ci səhifədə həmin sözlərlə, Müslim “Səhih”də və Əhməd ibn Hənbəl “Müsnəd”də İbn Abbasdan və başqa “səhih” və “məsanid” yazanlar onu nəql etmişlər.

bundan sonra onun Əli (ə) haqqında yazılı sözünün fitnədən başqa bir əsəri olmayacaqdır. Buna görə də onlara "Qalxın" – deyə buyurdu və vəsiyyətini yalnız dildə söyləyərək əhd-peymanlarını sona çatdırdı. Bu vəziyyətdə (ölüm vaxtı) üç şeyi vəsiyyət etdi: "Əlini ümmətin vəlisi və başçısı bilsinlər, müşrikləri ərəb yarımadasından xaric etsinlər və Mədinəyə müxtəlif qəbilələr tərəfindən ezam olunan dəstə və heyətləri özü mükafatlandırdığı kimi mükafatlandırsınlar..." Amma o gündən sonra iqtidar və siyasət hakimləri hədisçilərə Peyğəmbərin vəsiyyətinin birinci hissəsini deməyə icazə vermədilər və belə düşündülər ki, daha elə-beləcə unudulacaq. Buxari sonu "Peyğəmbər həzyan deyir"[1] – cümləsindən ibarət olan hədisində yazır: "O həzrət vəfat edərkən üç şeyi vəsiyyət etdi: Müşrikləri ərəb yarımadasından xaric edin və qəbilələr tərəfindən göndərilən heyətlərə mən mükafat verdiyim kimi mükafat verin." Sonra demişdir: "Onun üçüncü bəndi unudulub." Müslim və başqa "sünən" əshabı və "məsanid" yazanlar da belə demişlər.

3. Amma Ümmül-mömininnin "Peyğəmbər (s) Allaha mənim sinəmə söykənmiş halda qovuşdu" – sözü, "Peyğəmbər (s) Allaha qardaşı və vəsisi Əli ibn Əbu Talibin ağuşunda qovuşdu" kimi sabit və şübhəsiz rəvayətlərlə ziddiyyət təşkil edir. Bu məsələdə pak Əhli-beyt imamlarının doğru və mütəvatir hədislər və onlardan başqa sünnilər tərəfindən çatmış düzgün rəvayətlərə (tədqiqatçıların ondan xəbəri olduğu kimi) şübhə yoxdur. Vəssalam.

***"Ş"***

---

[1] "Səhih"in 2-ci cild, "cihad və siyər" bölməsinin 118-ci səhifəsində "cəvaizül-vəfd" babına baxın.

# *YETMİŞ BEŞİNCİ MƏKTUB*

17 Səfər 1330

***1. Ümmül-mömininə atifə (daxili hisslər) hakim deyildir.***

***2. “Hüsn və əqli qəbahət”ə[1] yer yoxdur.***

***3. Ümmül-mömininin dediklərinin ziddiyyəti haqqında.***

1. Siz Ümmül-mömininin sərih hədisinin inkarında iki şeyə əsaslanmışsınız:

Birinci budur ki, sizin düşündüyünüz kimi, onun imam Əliyə qarşı kini vəsiyyəti inkar etməyə səbəb olmuşdur.

Amma bunun cavabını onun müsbət davranış və həyatında axtarmalıyıq ki, Peyğəmbər (s) haqqında hədislərin nəqlində müsbət meyl, məhəbbət görünür və kin və qərəzçilikdən uzaqdır. Deməli, Rəsulullah (s) haqqında dediklərində günahkar deyildir. İstər onun sözü marağı olan adama aid olsun, ya onunla düşmən olana. Allah eləməsin və haşa ki, hissə qapanıb Peyğəmbər haqqında həqiqəti olmayan hədis nəql etsin və öz qərəzini həqiqətən üstün tutsun.

2. İkincisi budur ki, ağıl öz-özlüyündə, sizin fikirləşdiyiniz kimi, onun sözünün təsdiqindən imtina edir. Çünki doğrudan da, onun məzmunu ağlasığmazdır. Peyğəmbərə layiq deyil ki, əziz və cəlallı Allahın inkişafın başlanğıcında olan dinini və bu dinə təzə qoşulan bəndələrini eləcə onların özünə tapşırıb vəsisiz, başlı-başına qoysun və aralarından getsin.

Amma bu, o vaxtdır ki, biz “hüsn və ağıl qəbahəti”ni qəbul edək (yəni qəbul edək ki, ağıl zatən yaxşı və pisi dərk edir). Halbuki sünnilər bu qaydanı qəbul etmirlər. Çünki, onların nöqteyi-nəzərincə ağıl zatən hüsnə aid heç bir fikir aşılamır, qəbahət və pisliyə də mütləq şəkildə heç nə hökm vermir. Əksinə, bütün işlərdə hüsn və qəbahətə hakim olan yalnız şəriət qanunlarıdır, vəssalam. Yəni, şəriətin yaxşı dediyi yaxşıdır, pis dediyi isə pisdir və ağılın bu barədə heç vəchlə etibarı yoxdur.

3. Amma 74-cü məktubun sonunda Ümmül-mömininin Peyğəmbərin ölüm zamanı onun sinəsinə söykənməsinin rəddi haqqında verdikləriniz dəlilsizdir. Cavab budur ki, sünni təriqiylə ona zidd olan bir hədis belə bilmirik. Əgər sizin yanınızda varsa zikr edin. Vəssalam.

***“S”***

---

[1] Kəlam elmində əqli nəzəriyyə.

# *YETMİŞ ALTINCI MƏKTUB*

19 Səfər 1330

***1. O, atifə və hissə qapılırdı.***

***2. “Hüsn və əqli qəbahət”in sübutu.***

***3. Səhih xəbərlər Ümmül-mömininin dediklərinə ziddir.***

***4. Ümmü-Sələmənin hədisi Ayişənin hədisindən irəlidir.***

Birinci məsələnin cavabında xatırlatdınız ki, Ümmül-mömininin həyatının seyri və tarixindən məlum olur ki, o, atifi (hisslərə) təslim olmazmış və hədisin nəqlində şəxsi qərəzlərdən uzaqmış. Mən sizdən xahiş edirəm, özünüzdən təqlid qeydini və atifəni kənar edib bir daha onun həyat tarixinə bir nəzər salın. Onun şərhi-halına sevənlər və müxaliflərinin münasibətini götür-qoy etməklə diqqət yetirin. O şərtlə ki, bu müqayisə çox diqqət və düşüncəylə yerinə yetirilsin. Onda görəcəksən ki, onun həyatında atifə hissləri olduqca barizdir. Xüsusilə, onun Osmanla söhbəti və rəftarını unutmayın.[1] Onun Əli, Fatimə, Həsən və Hüseynlə (ə) açıq və gizli, Peyğəmbərin (s) digər zövcələri ilə rəftarını, hətta Rəsulullahın özü ilə rəftarını nəzərə alın. Hökmən onda atifə və qərəzi tamamilə müşahidə edəcəksiniz.

Nümunə üçün kifayətdir ki, yalançıların Mariya və övladı İbrahim haqqındakı böhtan və töhmətini Ayişənin necə təsdiq etdiyini nəzərə alasınız. Nəhayət, Allah ona və onun övladına Əmirəl-mömininin böyük zəkası ilə bəraət qazandırdı.[2] Qurani-kərim bu barədə buyurur: وَرَدَّ اللَّهُ الَّذِينَ كَفَرُوا بِغَيْظِهِمْ لَمْ يَنَالُوا خَيْرًا “Allah kafir olanları rədd etdi. Onlar qeyz ilə yandılar və heç bir xeyrə nail olmadılar.” Siz bu əhvalatda Ayişənin hissə qapılma halını aydın görəcəksiniz.

Əgər onun bundan da artıq hissə qapılma hallarını bilmək istəyirsənsə, bax gör Rəsulullaha nə deyir: “Səndən “məğafir” iyi gəlir.”[3] Nəhayət, bu yolla o, Peyğəmbəri “Ümmül-möminin Zeynəb”in mənzilində bal yeməkdən çəkindirir. O əgər çox adi şeyə görə belə bir mətləbi özündən düzüb-qoşaraq Peyğəmbərə aid edirsə, Əliyə (ə) “vəsayət”i inkar edən hədisi ondan necə qəbul edə bilərik?

Onun Nömanın qızı Əsmanın toyunda qərəzli rəftarını unutma ki, Peyğəmbərlə toy gecəsi ona dedi: “Peyğəmbərin o qadından xoşu gəlir ki, daxil olanda ona (Peyğəmbərə) desin: “Mən Allaha səndən pənah aparıram.” Məqsədi bu idi ki, Peyğəmbər (s) ona nifrət etsin və o möminə qadın Peyğəmbərin gözündə kiçilsin. Guya, Ümmül-möminin belə bir işi Rəsulullaha (s) aid etməyi özünə caiz sayırdı, istər bu iş əhəmiyyətsiz olsun, ya da haram, təki o öz məqsədinə çatsın.[4]

---

[1] İbn Əbil-Hədidin “Nəhcül-bəlağənin şərhi”nin 2-ci cildinin 77-ci səhifəsi və həmçinin, 457-ci, 497-ci səhifələrinə baxın. Orada onun Osman, Əli və Fatimə ilə rəftarı aydın göstərilir ki, hissə qapılma halları aydın cilvələnir.

[2] Bu müsibətin təfsilatını bilmək istəyən Hakimin “Müstədrək”inin 4-cü cildinin 39-cu səhifəsində Mariyanın şərhi-halına, ya onun (Zəhəbinin yazdığı) “Təlxis”inə baxın.

[3] Buxari “Səhih”in 3-cü cildinin 136-cı səhifəsində “Təhrim” surəsinin təfsirində verdiyi kimi. Ora bax və təəccüblən. Orada Ömərdən nəql olunmuş neçə hədis taparsan ki, deyir: “Rəsulullahın (s) əleyhinə olan o iki qadın Ayişə və Həfsə idilər. Orada geniş bir hədis var və başqa hədislər də hamısı bu qəbildəndir. (“Məğafir” bir yapışqan növüdür ki, ağacdan süzülür və xoşagəlməz iyi var.)

[4] Hakimin “Müstədrək”inin 4-cü cildinin 37-ci səhifəsində Əsmanın şərhi-halında və İbn Sədin “Təbəqat”ın 8-ci cildinin 104-cü səhifəsində onun şərhi-halında verdiyi kimi.

Həmçinin Allahın rəsulu (s) bir dəfə onu məmur etdi ki, bir qadını izləsin və qadının vəziyyətindən onu xəbərdar etsin. Amma, Ayişə yenə müəyyən qərəzi üzündən gördüklərindən başqa şeyi danışdı[1].

Həmçinin bir gün Rəsulullah (s) (ondan) atasına şikayət edərkən özünü saxlaya bilməyib Peyğəmbərə "ədalətli rəftar et"[2] – dedi. Bu zaman atası ona elə bir sillə vurdu ki, qanı paltarının üstünə töküldü.

Bir dəfə Rəsulullahın (s) yanında hirslənərkən Həzrətə (s) dedi: "Sən Allahın rəsulu olduğunumu güman edirsən?"[3]

Deməliyəm ki, bu qəbildən olan əhvalatlar çoxdur. Onların dərin tədqiqi və zikri bu məktuba münasib deyil və verdiklərimiz kifayətdir.

2. İkinci cavabınızda buyurmusunuz ki, sünnilər "hüsn və əqli qəbahət"ə qail deyil və bu haqda izahat vermisiniz. Amma mən məsələyə sizin belə yanaşmağınızı bəyənmirəm. Çünki bu söz səfsətəçilərin fikrinə oxşayır və onlar kökündən hissi duyğuları inkar edirlər. Belə ki, bir çox işlər hamı tərəfindən müsbət və təriflə qarşılanır (istər şəriət desin, istər yox). Bu tələb o işlərin özünün zatındandır. Məsələn, ehsan, ədalət və s. kimi ki, onlar zatən yaxşıdır və biz vicdanla onların yaxşılığını dərk edirik. Bəzi işlər də var ki, qəbahətli və pisdir. Onlara qarşı məzəmmət və ikrah hissi zatlarındakı müəyyən sifətlərlə bağlıdır. Pislik və zülm zatən pisdir və ağıl onun qəbahətinə təbii şəkildə hökm edir.

Fitrətin zəruri hökmüdür ki, deyir yaxşılıq edənlə pislik edən arasında fərq var. Çünki, ağıl müstəqil surətdə dərk edir ki, birinci qismə tərif, mükafat, ikinci qismə isə məzəmmət və qisas düşür. Bu barədə şəkki olan öz ağlı ilə bəhs və mübarizəyə qalxmışdır. Əgər zikr etdiyimiz məsələlərdə şəriətə uyğun hüsn və qəbahət varsa, bunu yalnız şəriət və din münkirləri qəbul etməməlidirlər. Halbuki onlar dini qəbul etməsələr də, ədalət və ehsanın hüsnünü (yaxşılığını) qəbul etmişlər. Zülm və təcavüzün pisliyini qəti qəbul edirlər. Bu işdə onların əsaslandıqları ağıldır, vəssalam. Buna görə də siz öz ağlı və vicdanı ilə mübarizə və ümum ağıl sahiblərinə bədihi bir şeyi inkar edənin sözünü burax getsin. Belə adamlar təbiətin (vicdan) əksinə hökm verirlər. Çünki Allah, bəndələrini ağılları vasitəsiylə bir çox həqiqətləri dərk etmə qabiliyyəti fitrəti ilə yaratmışdır. Buna görə də insanın yaradılışı elədir ki, ədalətin hüsnünü, zülmün qəbahətini şüurlu surətdə dərk edir. Belə ki, dadbilmə ilə balın şirinliyini, hənzəlin (yabanı bitki) acılığını dərk edir, iybilmə ilə müşkün ətrini və murdarın pis iyini, ləms (toxunmaq) ilə əşyanın yumşaqlığı və bərkliyini, həmçinin, gözlə gözəl və pis mənzərəni, eşitmə hissi ilə ruh oxşayan neyin səsini ulağın səsindən fərqləndirir. Bu Allahın insana bəxş etdiyi fitrətidir. "Elə fitrət ki, Allah insanları onun əsasında yaratmışdır. Allahın xilqətində dəyişmə yoxdur. Bu möhkəm qanundur, amma adamların əksəriyyəti bilmirlər."

Əşairə (sünni əqidə cərəyanı) istəyir ki, şəriətə imanda və onun qanunlarına təslimdə həddi aşaraq ağlın hökmünü inkar edib demiş: "Hökm yalnız şəriət hökmüdür." Amma diqqətsizlikdən yağışdan çıxıb yağmura düşərək çıxış yolunu üzlərinə bağlayıblar. Çünki, bu hökmdən sonra şəriətin əslinin sübutu şəri dəlillərə əsaslanaraq dövrə səbəb olar və ləğv baş

---

Məşhur əhvalatdır ki, "İstiab" və "Əl-isabə"də Əsmanın şərhi-halında yazılıb. İbn Cərir və başqaları onun şərhi-halını vermişlər.

[1] Bu hadisənin təfsili "sünən" və "əxbar" kitablarında verilmişdir. "Kənzül-Ümmal"ın 6-cı cildinin 294-cü səhifəsinə, ya İbn Sədin "Təbəqat"ının 8-ci cildinin 115-ci səhifəsinə Şəraf binti-Xəlifənin şərhi-halını yazdığı yerə bax.

[2] Bu qissəni "sünən" və "məsanid" sahibləri nəql etmişlər. "Kənzül-Ümmal"ın 7-ci cildinin 116-cı səhifəsindəki 1020-ci hədisə baxın. Qəzali onu "Ehyaül-Ülum"un 2-ci cildində "adabun-nikah" bölməsinin 3-cü babının 35-ci səhifəsi və "mükaşifətül-qulub" bölməsinin 94-cü babının 238-ci səhifənin axırında vermişdir.

[3] Həmin bablar.

verər. Əgər ağıl əvvəlcə dinin əsasını qəbul etməsə, heç nə sübuta yetməz. Yeri gəldikcə, alimlərin bu barədə nəzərləri təfsilatı ilə veriləcək.

3. Amma Ümmül-mömininin "Peyğəmbər onun sinəsinə söykənmiş halda dünyadan getdi" – iddiası pak Əhli-beyt (ə) təriqiylə çatmış səhih və mütəvatir xəbərlərlə ziddir. Qeyri-Əhli-beyt təriqiylə İbn Səd[1] Əlidən (ə) xəbər vermişdir ki, Peyğəmbər (s) xəstə olarkən buyurdu: "Qardaşımı çağırın. Mən onun yanına gəldim. Mənə buyurdu: Yaxın gəl." Yaxınlaşdım. O həzrət özünü mənə söykəyərək danışmağa başladı. Hətta ağzının suyundan bir qədər də mənim üstümə axdı. Sonra isə vəfat etdi."

Həmçinin Əbu Nəim "Hilyətül-Övliya"da, Əbu Əhməd Fərzi öz nüsxəsində və "sünən" sahiblərindən bir qrupu Əlidən belə nəql etmişlər: "Peyğəmbər (s) ölən zaman mənə elmin min babını (qapısını) təlim etdi ki, hər qapıdan min qapı açılır."[2]

Ömər ibn Xəttabdan bu barədə (Peyğəmbərin ölüm vaxtı barədə) soruşulanda deyirdi: "Bu barədə Əlidən soruşun ki, o bu işi öhdəsinə götürmüşdü."

Cabir ibn Abdullah deyir ki, Kəbül-əhbar Ömərdən soruşdu: "Peyğəmbərin dediyi axırıncı söz nə idi? Ömər cavab verdi: Əlidən soruşun. Kəb Əlidən soruşdu və o Həzrət cavab verdi: Peyğəmbəri sinəmə söykədim. Başını çiynimə qoydu və buyurdu: Namaz, namaz! Kəb dedi: Düzdür. Peyğəmbərin (s) son sifarişi budur ki, onlar buna görə məmur və məbus olublar. Kəb soruşdu: Kim ona qüsl verdi? Ömər dedi: Əlidən soruşun. Kəb soruşdu və Əli cavab verdi: Mən ona qüsl verdim."[3]

İbn Abbasdan soruşuldu: Peyğəmbər (s) öləndə başının kimin dizinin üstündə olduğunu gördünüz? Cavab verdi: Əlinin (ə) sinəsinə söykəmişdi. Ona deyildi: Ürvə Ayişədən nəql etmiş ki, Peyğəmbər (s) onun qucağında vəfat etdi. İbn Abbas onu inkar edib dedi: Sən də buna inanırsanmı? Allaha and olsun ki, Peyğəmbər (s) Əliyə söykənən halda vəfat etdi və ona qüsl verən də o idi."[4]

Həmçinin İbn Səd[5] İmam (Əli ibn Hüseyn) Zeynəlabidindən nəql etmiş ki, Allahın rəsulunun (s) başını Əlinin qucağında saxlayaraq dünyadan köçdü.

Mən deyirəm: Bu barədə başqa Əhli-beyt imamlarından xəbər mütəvatirdir. Bundan əlavə, həmin xəbərləri imamı qəbul etməyənlərdə təsdiq etmişlər. Hətta İbn Səd Şöbədən xəbər vermiş ki, Peyğəmbər (s) başı Əlinin dizi üstündə vəfat etdi və Əli ona qüsl verdi."[6] Möminlərin əmiri (ə) özü bu mətləbi xalqın hüzurunda xütbələrində buyurmuşdur. Aşağıdakı xütbəyə diqqət yetirmək kifayətdir.[7]

"Məhəmmədin (s) sirlərini qoruyan əshabə və dostları yaxşı bilirlər ki, mən hətta bir ləhzə belə Allahın ehkam və göstərişlərinə qarşı çıxmamışam. Əksinə, canımı dişimə alıb şücaətlilərin ayaqları əsən, arxa çevirib qaçdıqları döyüş səhnələrində Həzrətə dayaq olmuşam. Bu, Allahın mənə verdiyi bir şücaətdir.

---

[1] "Təbəqat"ın 2-ci cildinin 51-ci səhifəsinin «مَنْ قالَ تَوَفّي رَسُولُ اللهِ وَ هُوَ فِي حِجْر عَليّ» babındakı bu hədis "Kənzül-Ümmal"ın 4-cü cildinin 55-ci səhifəsindəki həmin 1107-ci hədisdir.
[2] Bu "Kənzül-Ümmal"ın 6-cı cildinin 392-ci səhifəsinin axırındakı həmin 6009-cu hədisdir.
[3] İbn Səd yuxarıda zikr olunmuş "Təbəqat"ın 2-ci cildinin 51-ci səhifəsində onu vermiş və bu hədis "Kənzül-Ümmal"ın 4-cü cildinin 55-ci səhifəsindəki həmin 1106-cı hədisdir.
[4] İbn Səd yuxarıdakı səhifədə onu vermişdir ki, "Kənzül-Ümmal"ın 4-cü cildinin 55-ci səhifəsindəki 1108-ci hədisdir.
[5] Yuxarıda zikr olunmuş "Təbəqat"ın 51-ci səhifəsinə baxın.
[6] Həmin.
[7] 197-ci xütbə (Nəhcül-bəlağə, 2-ci cild, "Hədəf" mətbəəsinin nəşri).

Allahın rəsulu (s) başı sinəm üstündə ruhunu tapşırdı və mən öz əlimlə o həzrətin gözlərini bağladım.

Mən ona qüsl verərkən mələklər enib mənə kömək etdilər. Sanki Həzrətin evi dörd tərəfdən nalə çəkirdi. Mələklər dəstə-dəstə yerə enib, göyə qalxırdılar. Onların Peyğəmbərə (s) namaz oxuyan səsləri kəsilmirdi, hətta o vaxta qədər ki, onu öz qəbrində torpağa tapşırdıq. Belə isə, kim o Həzrətə həyatda və ölümündə məndən daha yaxın idi!?"

Həmçinin deyilir ki, qadınların seyyidəsi Fatimənin (ə) dəfni zamanı (Əli (ə)) belə demişdi: "Ey rəsulullah, mənim və indi sənə qovuşacaq qızın tərəfindən sənə salam olsun! Ey peyğəmbər, misilsiz pak qızının ayrılığından səbrimin kasası dolmuş və taqətim əldən getmişdir. Amma sənin ölüm və rehlətindən sonra (mənə) hər nə müsibət üz versə kiçikdir. (Heç unutmaram,) səni öz əlimlə qəbrə qoyduğum və (vəfatın zamanı) başın sinəmin üstündə ikən ruhunu tapşırdığın anı!"

Səhih hədisə əsasən Ümmü-Sələmə deyir: "İnandığım o kəsə (Allaha) and olsun, Peyğəmbərə (s) hamıdan yaxın Əli idi. Bir gün səhər Əli gəlməmişdən əvvəl, həzrəti gördük fasiləsiz soruşurdu: Əli gəldi? Əli gəldi? Fatimə ərz etdi: Deyəsən siz onu bir işin dalınca göndərmisiniz. Sonra Əli gəldi. Biz fikirləşdik ki, yəqin onunla xüsusi bir işi var, ona görə də evdən çıxdıq. Mən qapıya hamıdan yaxın idim. Eşidirdim ki, onunla ardı kəsilmədən pıçıltıyla nə isə danışır. Peyğəmbər (s) elə həmin gün ruhunu tapşırdı."

Bunlara əsasən, Əli Peyğəmbərin (s) sifariş və vəsiyyətlərində ən yaxın adam olmuşdur.[1] Abdullah ibn Ömərdən gəlib çatmışdır ki, Peyğəmbər (s) xəstə olanda buyurdu: Qardaşımı yanıma çağırın. Əbu Bəkr gəldi. Ay üzünü yana çevirib buyurdu: Qardaşımı çağırın. Osman gəldi. Həzrət yenə üzünü çevirdi. Əlini çağırdılar. Ona yanında olan parçanın altına girməsini əmr etdi və bu vaxt (onu) qucaqladı. Əli çıxandan sonra ondan soruşdular: Peyğəmbər sənə nə buyurdu? Dedi: "Mənə min qapı (elm) təlim etdi ki, hər qapıdan min qapı açılır."[2]

Gördüyünüz kimi peyğəmbərlərin davranışına münasib olanlar bu deyilənlərdir, nəinki Ayişənin nəql etdikləri ki, daha çox qadınlara məhəbbət bəsləyənlərin halına uyğun gəlir. Doğrusu, lap desək bir çoban əgər ölən zaman başı arvadının sinəsi, ya dizinin üstündə olsa öz qoyunları haqda sifariş və ya vəsiyyət etməsə, çobanın əməli nöqsanlı deyilmi?!

Allah Ümmül-möminini bağışlasın, kaş bu fəziləti Əlidən götürmək istəyəndə heç olmasa onu atasına aid edəydi. Amma yox, çünki atası o gün o adamların sırasında idi ki, Rəsulullah özü onları Üsamənin ordusuna göndərmişdi və o vaxt "Cürüf"də yerləşmişdilər. Hər halda, Peyğəmbər vəfat edəndə başı Ayişənin qucağında idi" – sözünü özündən başqası nəql etməmişdir. Amma "Həzrət vəfat edəndə (ata-anam ona fəda olsun) Əlinin sinəsinə söykənmiş halda idi" – hədisi Əli, İbn Abbas, Ümmü-Sələmə, Abdullah ibn Əmr, Şəbi, Əli ibn Hüseyn və digər Əhli-beyt imamlarından nəql olunmuşdur. Buna görə sənəd baxımından üstünlüyü daha çoxdur və Rəsulullahın məqamına daha layiqdir.

---

[1] "Nəhcül-bəlağə", 2-ci cild, 202-ci kəlam. 139-cu səhifəsinin əvvəlində bu hədisi nəql etmiş və demişdir: "Bu hədisin sənədi doğrudur." Amma Buxari və Müslim onu verməmişlər. Zəhəbi isə onu verəndən sonra "Təlxis"də düzgünlüyünü etiraf etmişdir. İbn Əbu Şeybə də "Sünən"də onu zikr etmişdir. "Kənzül-Ümmal"ın 6-cı cildinin 400-cü səhifəsinin axırındakı 96-cı hədisdir.

[2] Necə ki, Əbu Yəla, Kamil ibn Təlhədən, o da İbn Ləhyəədən, o da Həyy ibn Ədi Məğafiridən, o da Əbdür-Rəhman Hələbidən, o da Abdullah ibn Əmrdən "mərfu"ən nəql etmişdir və "Kənzül-Ümmal"ın 6-cı cildinin 392-ci səhifəsində verdiyi kimi. Təbərani "Kəbir" kitabında yazmışdır: "Taif müharibəsində Peyğəmbərin Əli ilə gizli uzun söhbəti oldu. Əbu Bəkr bunun uzanmasının səbəbini soruşdu. Peyğəmbər (s) buyurdu: Mən onunla gizli söz danışmırdım. Allahın onunla gizli söhbəti var idi." Bu "Kənzül-Ümmal"ın 6-cı cildinin 399-cu səhifəsindəki 6075-ci hədisdir. "Peyğəmbər (s) Əli ilə çox vaxt xəlvətdə çoxlu məhrəmanə söhbət edərdilər. Bu vaxtlardan birində Ayişə daxil oldu. Üzünü Əliyə tutub dedi: Mənim 9 gündən bir gün payım var. O bir günü də bizi azad buraxmırsan? Rəsulullah (s) üzü qızarmış və bərk hirslənmiş halda ona baxdı." İbn Əbil-Hədidin "Nəhcül-bəlağənin şərhi"nin 2-ci cildinin 78-ci səhifəsinə baxın.

4. Əgər Ayişənin sözünə zidd olan yalnız Ümmü-Sələmənin hədisi olsa belə, yenə Ayişənin sözündən üstün (bir neçə cəhətdən) sayılacaq. Vəssalam.

***“Ş”***

## *YETMİŞ YEDDİNCİ MƏKTUB*

<u>20</u> <u>Səfər</u> <u>1330</u>

***Nə üçün Ümmü-Sələmənin hədisi (zidd olan surətdə) üstündür?***

Allah səni salamat etsin, Ümmü-Sələmənin hədisinin Ayişənin hədisindən üstünlüyünü yalnız əvvəl dediklərinizlə kafi bilməyib, əksinə, sizin fikrinizcə zikr etmədiklərinizin etdiklərinizdən çox olduğunu vurğulamısınız. Allah sənə rəhmət etsin, onları da nə qədər var, zikr et və ondan bir şey azaltma. Çünki indi məqam istifadə, gör-götür vaxtıdır. Vəssalam.

***"S"***

## *YETMİŞ SƏKKİZİNCİ MƏKTUB*

22 Səfər 1330

***Ümmü-Sələmənin hədisinin deyilənlərdən başqa əsas üstünlüyünün səbəbləri.***

Ümmü-Sələmənin qəlbi Qurani-əzim "nəss"inə əsasən "isğa"ya (haqdan sapma və ayrılma meyli) düçar və hikmətli Allah kitabında tövbəyə məmur olmamış,[1] həmçinin bir ayə belə Peyğəmbərin hüzurunda onun təzahür və müxalifəti barəsində və ondan əlavə o Həzrətin vəsisinə (Əli (ə)) qarşı çıxdığına dəlalət edən bir ayə belə nazil olmamışdır.[2] Elə bir iş görməmişdir ki, Allah ona görə özü başda olmaqla, Cəbrailı, "möminlərin salehi"ni və mələklərini Peyğəmbərin köməyinə göndərsin. Həmçinin Allah onu təlaqla və ondan da yaxşısını Peyğəmbərə (s) verməklə hədələməmiş,[3] tənbih üçün Nuhun və Lutun arvadının aqibətini ona misal çəkməmiş,[4] o qədər Allahın rəsuluna israr etməmişdir ki, Peyğəmbər halal olanı özünə haram etməyə məcbur olsun.[5] Peyğəmbər heç vaxt çıxışlarında onun barəsində Ayişənin evinə işarə edərək "Burada fitnə var, burada fitnə var, buradan şeytanın buynuzu görünür"[6] – deməmişdir. Tərbiyə və ədəb baxımından (Ayişə kimi) o yerə süqut etməyib ki, Peyğəmbər namaz qılarkən ayaqlarını onun qabağına uzatsın və səcdə yerindən Peyğəmbər onu zorla uzaqlaşdırandan sonra kənara çəkib, səcdədən qalxanda yenidən belə etsin.[7]

Həmçinin onun (Ayişə) Osmana qarşı hay-küy qaldırması, hədələməsi, ona "nəsəl" (qoca köpək) adı qoyması və "Nəsəli öldürün, o kafir olub"[8]– deməsi, qadağan olduğu halda evdən xaric olması halları Ümmü-Sələmədə heç vaxt görünməyib. Çünki Allah Peyğəmbərin

---

[1] "Təhrim" surəsinin 4-cü ayəsinə işarədir: إِن تَتُوبَا إِلَى اللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا

[2] O (Ayişə), Peyğəmbərdən sonra həmişə həyatı boyu onun vəlisinə qarşı çıxardı. Amma onun Peyğəmbərə qarşı üsyanı müqabilində Allahın öz rəsuluna kömək etməsi bu ayədən ələ gəlir: وَإِن تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ اللَّهَ هُوَ مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ الْمُؤْمِنِينَ وَالْمَلَائِكَةُ بَعْدَ ذَٰلِكَ ظَهِيرٌ

[3] "Təhrim", 5: عَسَىٰ رَبُّهُ إِن طَلَّقَكُنَّ أَن يُبْدِلَهُ أَزْوَاجًا خَيْرًا مِّنكُنَّ مُسْلِمَاتٍ مُّؤْمِنَاتٍ قَانِتَاتٍ تَائِبَاتٍ عَابِدَاتٍ سَائِحَاتٍ ثَيِّبَاتٍ وَأَبْكَارًا

[4] "Təhrim", 10: ضَرَبَ اللَّهُ مَثَلًا لِّلَّذِينَ كَفَرُوا اِمْرَأَةَ نُوحٍ وَامْرَأَةَ لُوطٍ

[5] "Təhrim", 1: يَا أَيُّهَا النَّبِيُّ لِمَ تُحَرِّمُ مَا أَحَلَّ اللَّهُ لَكَ تَبْتَغِي مَرْضَاتَ أَزْوَاجِكَ وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ

[6] Buxari onu "Səhih"in "əl-cihadu vəs-seyr" fəslinin 2-ci cildinin 125-ci səhifəsində "fərzül-xüms" və "ədaül-xüms" babından sonra «ما جاءَ في بيوت ازواج النبيّ» babında vermiş və hədisin ləfzi Müslimin "Səhih"ində belədir: «خرجَ رسولُ الله (ص) مِن بيت عايشة فقال راسُ الكفْر مِن هاهنا حيثُ يطلع قرْنُ الشيطان»

Onun 2-ci cildinin 503-cü səhifəsinə baxın.

[7] Buxarinin "Səhih"inin 1-ci cildinin 143-cü səhifəsində «ما يجوز من العمل في الصلاة» babına bax.

[8] Amma hay-küy salmaqla Osmana qarşı camaatı qaldırmaq, işlərinin çoxunu tənqid etmək, ona pis ad qoymaq və «أُقتُلوا نَعثلاً فقد كَفَر» – demək elə məsələlərdəndir ki, o əsrin hadisələrini yazan və əks etdirən bütün kitabları, o cümlədən İbn Həcərin və İbn Əsirin tarixi və bunun kimilərin adını çəkmək olar ki, onun müasirlərindən bir qrupu ona irad tutub, məzəmmət etmişlər. Şair demişkən:

«فَمِنكِ البداء و منكِ الغير و منكِ الرياح و منكِ المطر» "Onun əvvəli səndən idi, qarışıqlığı da səndən, küləyi, yağışı da səndən."

«وَ اَنتِ اَمرتِ بقتل الامام وَ قُلتِ لنا انّه قد كَفَر» "Sən imamın qətlinə fərman verdin və sən dedin o kafir olub."

xanımlarına onun vəfatından sonra evdə qalmaq əmrini vermişdi.[1] “Əsgər” adlı dəvəyə minib[2] səhranın eniş-yoxuşlarından keçməsi, və “Hövdəb” məntəqəsinin itlərinin ona həmlə etməsi əhvalatları da vardır ki, halbuki Peyğəmbər qabaqcadan ona o dəvəyə minməməyi və itlərin ona həmlə edəcəyi xəbərdarlığını bildirmişdi[3]. Həmçinin Ümmü-Sələmə onun kimi İmamın əleyhinə təşkil olunmuş güclü qoşuna rəhbərlik etməmişdi.

Buna görə də Ayişənin “Peyğəmbər (s) sinəmə söykəndiyi halda dünyadan getdi” – sözü, onun bu sözü kimidir: “Sudanlılar məsciddə döyüş vəsaitləriylə, xəncər-qalxanla oyun nümayiş etdirirdilər. Peyğəmbər (s) mənə dedi: Baxmaq istəyirsənmi? Dedim: Bəli. O, məni çiyninə aldı. Peyğəmbər onları oyunu daha qızğın surətdə icra etməyə təhrik edirdi ki, mən ləzzət alım. Axırda mən yoruldum. Dedi: Bəsdirmi? Dedim: Bəli. Buyurdu: Get daha.”[4] və ya “Peyğəmbər mənim yanıma daxil olduqda iki kəniz yanımda mahnı oxuyurdu (əcəbcə). Həzrət getdi ki, istirahət etsin. Bu vaxt Əbu Bəkr daxil oldu və məni incidərək bu əməldən çəkindirmək üçün dedi: Bu şeytan neyidir! Özü də Rəsulullahın hüzurunda? Peyğəmbər Əbu Bəkrə buyurdu: Onlarla işin olmasın.”[5] və yaxud “Mən Peyğəmbərlə (s) qaçış müsabiqəsi keçirirdim ki, müsabiqəni uddum. Bir müddətdən sonra mən arıqlayanda yenə müsabiqə keçirdik. Bu dəfə o məni uddu və dedi: Bu dəfəki, o dəfənin əvəzidir.”[6] və yaxud da “Mən qızlarla oynayırdım və rəfiqələrim də bir-bir gəldikcə, bizə qoşulurdu. Peyğəmbər özü də onları mənim evimə gətirərdi ki, birlikdə oynayaq.”,[7] ya da ki, “Məndə yeddi xislət var ki, heç kimdə yoxdur (İmranın qızı Məryəmə verilənlərdən başqa). O yeddi xislət bunlardır: Mələk mənim şəklimdə nazil olub; Peyğəmbər (s) mənimlə bakirəliyimdə evlənib və onun məndən başqa ər görməmiş arvadı olmayıb; Rəsulullaha vəhy nazil olanda biz yorğan altında idik; mən zövcələrinin ən sevimlisi idim; Cəbrailı görmüşəm ki, onu məndən başqa Peyğəmbərin (s) arvadlarından heç biri görməyib; mənim evimdə ruhunu tapşırıb; məndən və mələkdən başqa heç kəs ondan muğayat olmağı öhdəsinə götürməyib.”[8]

---

[1] “Əhzab”, 33. Çünki Allah buyurub: وَقَرْنَ فِي بُيُوتِكُنَّ Evlərinizdə qərar tutun. İlkin cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın. (Bər-bəzəyinizi taxaraq evdən çıxıb özünüzü, gözəlliyinizi yad kişilərə göstərməyin!)

[2] Ayişənin Cəməl müharibəsində mindiyi dəvəni Yəla ibn Üməyyə ona gətirmişdir. Güclü və qıvraq“Əsgər” adlı bir dəvə idi. Ona baxanda heyran oldu, amma adını biləndə imtina edib dedi ki onu qaytarın, istəmirəm. Xatırlatdı ki, Rəsulullah (s) onun bu adda dəvəyə minməsini qadağan etmişdi. Onlar dəvənin zahiri görkəmini dəyişdirdilər və dedilər: Ondan da güclü dəvə tapmışıq. O da beləcə razılaşdı. Bu hadisəni əksər tarix və əxbar yazanlar vermişlər. İbn Əbil-Hədidin “Nəhcül-bəlağənin şərhi”nin 2-ci cildinin 80-ci səhifəsinə baxın.

[3] Bu haqda hədis məşhurdur və nübüvvət nişanələrindən hesab olunur. İmam Əhməd ibn Hənbəl Ayişə haqqında onu “Müsnəd”in 6-cı hissənin 52 və 97-ci səhifələrində və həmçinin Hakim “Müstədrək”in 3-cü cildinin 120-ci səhifəsində nəql edərək qısaltmışdır. Zəhəbi “Müstədrək”in təlxisində onu vermiş və onun düzgünlüyünü təsdiq etmişdir.

[4] Bu hədis doğru sənədlə ondan gəlib çatmışdır. Buxari və Müslim öz “Səhih”ində onu nəql etmişdir. Buxari “eydeyn” kitabının əvvəlində 116-cı səhifədə, Müslim «الرخصة في اللعب الذي لا معصية فيه في ايام العيد» babında 1-ci cildin 327-ci səhifəsində, Əhməd isə “Müsnəd”in 6-cı cildinin 57-ci səhifəsində qeyd etmişdir.

[5] Buxari, Müslim və Əhmədin hər üçü göstərilmiş yerlərdə.

[6] Necə ki, Əhməd “Müsnəd”in 6-cı cildinin 39-cu səh.-də vermişdir.

[7] Əhməd “Müsnəd”in 6-cı cildinin 75-ci səhifəsində Ayişədən nəql etmişdir.

[8] İbn Əbu Şeybə onu nəql etmiş və bu “Kənzül-Ümmal”ın 7-ci cildindəki 1017-ci hədisdir. Bu məsələdə icma yekdildir (ümum onu qəbul etmiş) ki, Əli Peyğəmbərin (s) ölümü vaxtı orada idi. O idi ki, Peyğəmbərə qulluq edirdi və ona xidmət etməyi öhdəsinə götürmüşdü. Necə ola bilər ki, Peyğəmbər (s) ruhunu tapşıranda Ayişə və mələkdən başqa heç kim orada yox imiş?! Bəs Əli və Abbas harada idi? Fatimə ilə

Bunlardan başqa bir sıra digər xüsusiyyətləri də özünə nisbət vermişdir ki, məncə, bu qədər kifayətdir. Amma, Ümmü-Sələmə isə özünə rəhbər və vəsisini isə imam kimi qəbul edərək fərqlənir. Ümmü-Sələmə düşüncəli, ağıllı, mətin inamlı və möhkəm iradəlidir. "Hüdeybiyyə" sülhünün gedişilə əlaqədar yürütdüyü fikri onun ağlının çoxluğuna, dəqiq düşüncəyə, yüksək zəkaya malik olduğunu göstərir. Allah ona rəhmət və bərəkətini göndərsin! Vəssalam.

***"Ş"***

---

Səfiyyə harada idi? O həzrətin arvadları və Bəni-Haşim hara getmişdilər? Necə oldu ki, təkcə Ayişə Həzrətin yanında qaldı?

# *YETMİŞ DOQQUZUNCU MƏKTUB*

23 Səfər 1330

***İcma "Siddiq"in xilafətini qəbul edir.***

Vəsiyyət əhdi və verdiyiniz aydın ‘‘nüsus’’ların hamısı düzgün olduğu təqdirdə, ümmətin Əbu Bəkr Siddiqə beyəti icmasıhaqqında nə deyəcəksiniz? Bilirsiniz ki, ümmətin icması qəti surətdə höccətdir. Çünki, Rəsulallah buyurub: «لا تَجْتَمِعُ أُمَّتي عَلَي الْخَطاءِ» “Ümmətim xəta üzrə toplaşmazlar.” Həmçinin buyurub: «لا تَجْتَمِعُ أُمَّتي عَلَي ضَلالٍ» “Mənim ümmətim toplaşmış halda zəlalətə düşməzlər.” Bunları necə izah edirsiniz? Vəssalam.

***“S”***

# *HƏŞTADINCI MƏKTUB*

<u>28 Səfər 1330</u>

***İcma kamil olmamışdır.***

Cavab veririk ki, dediyiniz Allah rəsulunun (s) “Mənim ümmətim xəta üzrə bir yerə toplaşmaz; zəlalət və nahaqdan toplanmazlar” – kəlamlarından yalnız bu ələ gəlir ki, hər bir işdə ümmətim məşvərət üzrə götür-qoy edəndə, nəhayət hamı onu təsdiq edəndə xəta etməz və haqqı tapdamazlar. Bu məna Peyğəmbərin (s) sünnəsindən də başa düşülür.

Amma ümmətin neçə nəfərinin şəxsi fikrinə əsasən, bir işin həyata keçməsi üçün ümmətin nüfuzlu, başa düşən və iş bilən adamlarını o işə məcbur etmələri, heç də onun düzgün və qanuni olduğuna dəlalət etməyəcək. Bildiyiniz kimi “beyəti-Səqifə” məşvərətlə həyata keçməyib. Əksinə, ikinci xəlifə, Əbu Übeydə və o ikisinə tərəfdar olan neçə nəfərin qiyamı və qəflətən ümmətin qabaqcıl və nüfuzlu adamlarını çıxılmaz vəziyyətə salmaqla iş-işdən keçmiş, İslam ümmətinin ictimai (habelə ətraf məntəqələrin) və dövrün böhranlı vəziyyəti də onlara kömək etmiş və nəhayət, istədiklərinə çatmışlar.

Əbu Bəkrin özü demişdir ki, ona beyət məşvərət və yekdil fikirlə baş tutmayıb. O, bu həqiqəti xilafətinin əvvəllərində camaatdan üzrxahlıq edərək etiraf edib: «اِنَّ بَيْعَتي كانَتْ فَلْتَةً وَقي الله شَرَّها وَ خَشِيتُ الْفِتْنَة» “Mənə beyət qəfildən və özü də yekdil fikirsiz baş tutub. Mən fitnədən qorxurdum, amma Allah onun şərini aradan götürdü.”[1]

Ömər özü də xilafətin son cüməsində Peyğəmbərin (s) minbərində söylədiyi xütbəsində aşkar bu məsələyə şəhadət verdi və bu hadisə hər yana yayıldı. Buxari bu xütbəni öz “Səhih”ində kamil vermişdir[2] ki, biz burada yalnız lazım olan hissəni zikr edirik: “Mənə xəbər çatıb ki, filankəs[3] sizə demişdir: Allaha and olsun, əgər Ömər ölsə filankəsə beyət edəcəyik. Əbəda! Heç kəs belə qürrələnməsin və deməsin ki, Əbu Bəkrə də beyət qəfildən, məşvərətsiz oldu və nəhayət, baş da tutdu. Bəli, Əbu Bəkrə beyət o cür olub. Amma, Allah onun şərini uzaq etdi... (Muğayat olun,) kim birinə məşvərətsiz beyət etsə, (bilməlisiniz ki,) nə beyət edən, nə də beyət olunan kəs xalq tərəfindən seçkidən məhrum olacaq. Onlara beyət olunmamalıdır. Çünki, onlar öldürüləcək,çünki, onlar müsəlman icmasına qiymət qoymur və gərək cəmiyyətdən uzaqlaşdırılıb öldürülsünlər.”[4] O, Ömərin sözlərinə bunu da əlavə etmişdir:

---

[1] Əbu Bəkr Əhməd ibn Əbdül-Əziz Cövhəri “Əs-səqifə” kitabında onu vermiş və İbn Əbil-Hədid Nəhcül-bəlağənin şərhi”nin birinci cildinin 132-ci səhifəsində onu nəql etmişdir.

[2] Buxarinin “Səhih”inin «رجم الحبلي من الزنا اذا احصنت» babına bax ki, 4-cü cildinin 119-cu səhifəsindədir. Başqalarından İbn Cərir Təbəri özünün tarixinin 11-ci il hadisələrində və İbn Əbil-Hədid Nəhcül-bəlağənin şərhi”nin 1-ci cildinin 122-ci səhifəsində onu nəql etmişdir.

[3] Bu sözü deyən Zübeyr idi və dediyinin eyni budur: “Allaha and olsun, əgər Ömər ölsə Əliyə beyət edəcəyəm. Çünki Əbu Bəkrə beyət də qəfildən oldu və baş tutdu.” Ömər bu sözü eşidəndən sonra bərk hirsləndi və bu xütbəni söylədi. Buxarinin “Səhih”inin şərhçilərinin çoxu bu məsələyə toxunmuşlar. Bu hədisin təfsirinə Qəstəlaninin şərhinin 11-ci cildinin 352-ci səhifəsinə bax. Görəcəksən ki, “Ənsabül-Əşraf”da Bilazəridən nəql etmiş və bu sənədin düzgünlüyünə hədisin Buxari və Müslimin qəbul şərtinə əsasən, etiraf etmişdir.

[4] Ömərin xütbəsində bir cümlə işlənmişdir ki, mərhum Seyyid Şərəfuddin ona verilən izahlardan birini “Nihayə”dən (İbn Əsir) nəql etmişdir. O cümlə belədir: «تغرة ان يقتلا» Biz onun lüğəvi bəhsini lazım bilməyib, elə Seyyid Şərəfuddinin “Nihayə”dən nəql etdiklərinə əsasən tərcümə edirik: “ Xalqın beyəti o vaxt qanuna

“Bəli, Peyğəmbərin (s) vəfatından sonra baş verən əhvalatlardan biri də bu idi ki, ənsar bizimlə müxalifətə qalxdı və hamı “Səqifə ibn Saidə”yə toplaşdı. Əli, Zübeyr və onlarla olan adamlar da bizimlə həmfikir olmadılar.” Sonra o, hadisənin gedişatındakı fikir ixtilafı, çəkişmələr və ora toplaşanların hay-küy qaldırma hallarını İslamda təfriqənin səbəbi kimi qiymətləndirmiş, Ömərin Əbu Bəkrlə beyətini də olduğu şəkildə vermişdir.

Xəbərlər, hədislər və tarixdən çox aydın istifadə olunur ki, hətta nübüvvətə mənsub Əhli-beyt və risalət sülaləsindən bir nəfər belə bu beyətdə iştirak etməmiş, əksinə, onların hamısı Əlinin evinə yığışmışdılar. Bu toplanışda Salman, Əbuzər, Miqdad, Əmmar, Zübeyr, Xüzeymə ibn Sabit, Səid ibn As Əməvi və bir çox başqaları da var idi ki, onların təxəllüfü (beyətdən boyun qaçırmaları) ilə icma necə tam və qanuni ola bilərdi? Bu müxaliflərin arasında bütün Ali-Məhəmməd (s) var idi. Onlar ki, ümmət üçün başın bədənə, həmçinin gözün üzə olan nisbətinə bənzəyirlər. Onlar ki, Peyğəmbərin (s) ağırlıq daşı (səqəleyn) və elminin hamilləri idilər. Onlar ki, Quranla bərabər idilər. Allahın səfirləri idilər. Onlar ki, ümmətin nicat gəmisi, onun “Hittə qapısı”, ümmətin pənah yeri və hidayət bayraqları idilər. Əvvəldə sübut olunduğu kimi,[1] onların yüksək məqam və mövqelərinin dəlilə ehtiyacı yoxdur. Çünki vicdan bədihi olaraq bu həqiqətə şahiddir.

Buxari və Müslim öz “Səhih”lərində,[2] və “sünən” və “əxbar” yazanlar Əlinin beyətə zidd olmasını yazmış, Fatimənin (ə) beyətdən 6 ay keçməsinə baxmayaraq xilafətin başçısı ilə sülh və barışıqda olmadığını demişlər. Amma 6 ay sonra İslam ümmətinin xeyir-məsləhətini, ağır şərait və mövqeyini nəzərə alaraq məcbur oldu ki, onunla sülh etsin. Bu haqda bir hədis də Ayişədəndir. Orada aydın deyib ki, Zəhra Əbu Bəkrdən küsdü və Peyğəmbərdən sonra onunla danışmadı. Əli onlarla sülh etməyə gələndə onlara dedi ki, haqqımı – xilafəti zor və istibdadla qəsb etdiniz. Bu hədisdən əsla məlum deyildir ki, onun barışığı onlarla sülh vaxtına təsadüf etmişdir. Əbu Bəkrə xitab edərək necə maraqlı və aydın məntiqlə buyurmuşdur:

«فَاِنْ كُنْتَ بِالْقُرْبي حَجَجْتَ خَصيمَهُم فَغَيْرُكَ اَوْلي بِالنَّبِيِّ وَ اَقْرَبُ» “Əgər sən (Peyğəmbərlə) qohumluğundan istifadə edib öz müxaliflərinə qarşı dəlil gətirirsənsə, başqaları ki Peyğəmbərə (s) səndən daha yaxındır.”

«وَ انْ كُنْتَ بِالشُّوري مَلَكْتَ اُمُورَهُم فَكَيْفَ بِهذا وَ الْمُشيرُونَ غُيَّبُ»[3] “Və əgər məşvərət nişi licounuv lə ə almısansa, bu necə şuradır, halbuki məşvərətə toplanmalı adamlar qaib idi!”

---

minir ki, məşvərət və həmrəylik əsasında olsun. Buna görə də, əgər iki nəfər istibdada yol verib biri o birisinə beyət edir və bu yolla adamları beyətə məcbur edirlərsə, onların birliyi cəmiyyətin əleyhinə və birliyi pozan bir qiyamdır. Buna görə də, heç kəs bu iki qismə beyət etməməli, artıq başqa birisinə beyət etməlidirlər. O iki qisim millətin içindən uzaqlaşdırılmalıdır. Çünki ikisindən birinə beyət edilsə, mənası budur ki, cəmiyyətin üzvləri nəzərə alınmır və onların rəyi etibardan düşür. Beləliklə qanun onların öldürülməsini tələb edir.”

Mən deyirəm: Ömərin təsvir etdikləri ədalətin tələbi budursa, bu hökmü əvvəl özü ilə yoldaşı Əbu Bəkr haqqında icra edəydi, necə ki, başqaları haqqında istəyir. Ömər bu xütbəni deməmişdən əvvəl belə etiraf etmişdi ki, Əbu Bəkrə beyət qəfildən, düşünülməmiş və məşvərətsiz olub, amma Allah onun şərini uzaqlaşdırdı. Sonra da deyir ki, belə etmək istəyəni öldürün. Bu söz Ömərdən çox nəql olunub. Bu xəbərləri bir çoxları, o cümlədən İbn Əbil-Hədid “Nəhcül-bəlağənin şərhi”nin 1-ci cildinin 123-cü səhifəsində vermişdir.

[1] 6-cı məktubdan başlayıb, 12-yə qədər izləsən, Əhli-beytin məqamını biləcəksən.

[2] Buxarinin “Səhih”i, 3-cü cild, 39-cu səhifəsində “Xeybər döyüşü” babının axırı, və Müslimin “Səhih”i, “cihad və siyər” bölməsi, 2-ci cild, 72-ci səhifəsində «قول النبيّ لا نورث ما تركناه فهو صدقة» babına bax. Hədisləri təfsilatıyla tapacaqsan.

[3] Bu iki beyt şer “Nəhcül-bəlağə”də mövcuddur və İbn Əbil-Hədid onların təfsirində “Nəhcül-bəlağə şərhi”nin 4-cü cildinin 319-cu səhifəsində demişdir ki, Həzrətin sözü Əbu Bəkrədir. Çünki Əbu Bəkr “Səqifə”də ənsara dedi ki, biz Allahın rəsulunun qohumları və ona mənsubuq. Amma onunla beyət olan kimi

Abbas da Əbu Bəkrə (aralarında olan mübahisə zamanı) eynilə belə cavab vermişdi.[1] İbn Abbas ona demişdi: “Əgər Allahın rəsulu ilə yaxınlığına görə xilafəti mənimsəmisənsə, bizim haqqımızı qəsb etmisən və əgər onun möminlərinin vasitəsiylə ələ gətirmisənsə, biz ki, möminlərin içərisində hamıdan irəli idik və əgər inanırsan ki, möminlərin istək və beyətinə görə xilafəti qəbul etməyi vacib bilibsən, bu isə düz deyildir. Çünki biz razı deyildik və imtina edirdik.”

Buna görə də, hansı icma Əbu Bəkrin xilafətini sübut edir? Peyğəmbərin əmisindən və əmioğlusu, vəlisi, qardaşı və Əhli-beytindən və ailəsindən sonra, (onlarsız) daha hansı icmadan danışmaq olar!? Vəssalam.

***“Ş”***

---

hamının qarşısında dedi ki, mənə beyət şüurlu surətdə, özü də nüfuzlu şəxslər tərəfindən olub. Bu vaxt Əli (ə) onun cavabında dedi: “Ənsarın qarşısında Allahın rəsuluna qohumluğunu irəli çəkirsənsə, başqaları ki Peyğəmbərə (s) səndən yaxındır və əgər deyirsənsə camaat razılıq və rəğbətlə sənə beyət etmişdir, Peyğəmbərin səhabə və nüfuzlu şəxslərinin bir qrupu qaib olduğu halda, bəs o beyətin nə etibarı var?” Şeyx Məhəmməd Əbduhun da bu iki beytə haşiyəsi var ki, onun məzmunundan İbn Əbil-Hədidin sözləri başa düşülür.

[1] İbn Qüteybə “Əl-imamətü vəs-Siyasət”in 16-cı səhifəsində onu vermişdir.

# *HƏŞTAD BİRİNCİ MƏKTUB*

28 Səfər 1330

***Artıq icma ixtilafdan sonra baş tutdu.***

Sünnilər bunu inkar etmir və deyirlər ki, bəli, beyət məşvərət və yekdil fikirsiz, qəfildən və müzakirəsiz baş tutub. Bu məsələdə də şübhə etmirlər ki, "ənsar" müxalif idi və onlar Səd ibn Übeydənin ətrafına toplaşmış və Bəni-Haşim mühacir və ənsardan olan dostları ilə birlikdə razılaşmayıb İmamla birləşmişdilər. Amma deyirlər ki, nəhayət, sonda xilafət Əbu Bəkrin xeyrinə qurtardı və hamı razılaşdı ki, o, imam və rəhbər olsun. Beləliklə, o əvvəlki ixtilaf aradan götürüldü, o çəkişmə tam mənası ilə sona çatdı və hamı əl-ələ verib "Siddiq"ə xeyirxah arxa olaraq aşkar və gizli surətdə ona dayaq durdular. Müharibə edənlə müharibə, sülh istəyənlə sülh etdilər, onun əmrlərinə tabe və ona qarşı çıxmadılar. Beləcə, icma tamam oldu və xilafət quruldu. Artıq, onların təfriqədən sonra söz birliyinə, nifrət və ixtilafdan sonra qəlblərinin ülfətinə görə Allaha şükür edirik! Vəssalam.

***"S"***

# *HƏŞTAD İKİNCİ MƏKTUB*

30 Səfər 1330

***Nə icma baş tutdu, nə də çəkişmə aradan qalxdı.***

Əbu Bəkrin özünü müdafiəsi və nəsihətlər ətrafında müsəlmanların aşkar və ya gizli surətdə əl-ələ verməsi bir məsələdir, onun icma vasitəsiylə xilafətə gəlməsilə başqa məsələ. Bu ikisi nə əqlən, nə də şərən biri-birinə bağlı deyildir. Burada Əli və övladları (məsum imamlar) zahirən İslam sayılan hökumətin müdafiəsində tutduğu aydın mövqe və xüsusi üsulla fərqlənirlər ki, biz də həmin möminlərləyik. Mən onların mövqeyini sizin sözünüzə cavab olaraq yazıram. Onun xülasəsi belədir: İslam ümməti onun pərakəndəliyini birləşdirməyən, müşküllərini aradan qaldırmayan, sərhədlərini qorumayan, işlərinə qayğı göstərməyən, dövlət və hökuməti canı və malı ilə müdafiə və himayə etməyən rəiyyət və millətsiz davam etməyəcəkdir. Deyilənlərə nəzər yetirdikdə məlum olur ki, əgər hökuməti o şəriətə uyğun normal idarə etmək lazım gəlirsə, yaxşı olar ki, elə Allahın rəsulu tərəfindən təyin olunmuş doğru naib şəxsin əli ilə həyata keçirilsin. Belə isə onun göstərişlərinə əməl etmək İslam ümmətinə bir dini ayin kimi vacibdir və ondan başqası başçı seçilməməlidir. Amma bu imkan olmazsa, yəni başqası hökuməti ələ keçirərsə (belə ki, islami vəzifələrinə əməl və qanunlara tabe olub, amma hökuməti qəsb edib heç cür onu əsl sahibinə qaytarmağa hazır olmadığı surətdə belə), əgər ona qarşı qiyam cəmiyyətin parçalanması, müsəlmanların vəhdətinin pozulması, yadların dövləti ələ alması və İslamın məhvinə gətirib çıxarırsa, onda İslam ümmətinə vacibdir ki, İslamın izzət və başını ucaltmaq üçün onunla həmkarlıq etsin, onun müdafiəsinə qalxsın, həmçinin İslamın əsaslarının və sərhədlərinin qorunmasında ona dayaq olsunlar. Heç bir vəchlə müsəlmanların əsasını parçalayıb onların birliyini dağıtmaq, ona (qəsbkar) qarşı durmaqla cəmiyyətdə təfriqə yaratmaq və birliyi pozmaq caiz deyildir. Əksinə, İslam ümməti və millətinə vacibdir ki, onunla, əsir və ya əl-ayağı şil qul olsa belə, həqiqi xəlifə və hakim kimi rəftar etsinlər. Torpaqların xəracı, islami vergiləri, heyvanların və s. zəkatlarını onun ixtiyarına versinlər. Onunla alqı-satqı və s. mükafat, bəxşiş və bu kimi malların daşınmasında dövləti saxlamaq üçün həmkarlıq etsinlər. Xərac yolu ilə ələ gələn torpaqların sahibləri torpaq müqabilində illik vergilərini ona verməklə (İslam nəzərində) borclarını ödəmiş olsunlar (Allah tərəfindən həqiqi imam və xəlifə gəldikdə əməl edəcəkləri kimi). Əli (ə) və pak övladları imamların mövqe və üsulu bundan ibarətdir.

Peyğəmbər (s) buyurmuşdur: “Məndən sonra tezliklə yeni istibdad və cərəyanların şahidi olacaqsınız (yəni, haqsızlar iş başına gələcək). Dedilər: Ey Allahın rəsulu (s), bu bizim vaxtımızda baş versə, bizə nə əmr edirsiz? Buyurdu: Öhdənizdə olan haqqı əda edin və Allahdan da arzulayın ki, haqqınızı sizə qaytarsın (çünki başqa cür etsəniz, ümmətin nizamı dağılar və İslam təhlükəyə düşər).[1]

Əbuzər Qəffari həmişə deyirdi: “Dostum Rəsulullah mənə vəsiyyət etmiş ki, eşidim və itaət edim, əl və ayağı kəsilmiş bir qula tabe olsam da belə.”[2]

Sələmə Cöfi ərz etdi: “Ey Allahın peyğəmbəri, əgər bizə öz haqqını tələb edən, bizim haqqımızı verməyən rəislər hakim olsalar, bizə nə göstəriş verirsən? Buyurdu: Eşidin və itaət edin. Çünki onlar çiyinlərində öz yüklərini çəkirlər, siz də öz yükünüzü.”[1]

---

[1] Abdullah ibn Məsuddan nəql olur ki, Müslimin “Səhih”in 2-ci cildinin 1218-ci səhifəsində və bir qrup başqa “səhih” və “sünən” yazanların nəqlinə əsasən.

[2] Müslimin “Səhih”in 2-ci hissəsində verdiyi kimi və bu hədislər çoxlu sənədlə verilibdir.

Hüzeyfə ibn Yəmanın nəql etdiyi hədisə əsasən, Peyğəmbər (s) buyurmuşdur: “Məndən sonra, mənim hidayətimlə hidayət olmayan və mənim sünnəmə əməl etməyən rəhbər və hakimlər gələcəklər və onların ətrafına qəlbləri şeytan qəlbli və zahirləri isə adam surətində olanlar toplaşacaqlar. Hüzeyfə deyir: O zamanı görsəm nə edim? – deyə Həzrətdən soruşdum. Buyurdu: Eşit və vəzifənə əməl et, səni şallaqla döyüb malını alsalar da, eşit və itaət et.”[2]

Ümmü-Sələmənin də Peyğəmbərdən (s) nəql etdiyi hədis bunun kimidir: “Məndən sonra əmirlər sizə hakimlik edəcək, onlardan layiqli və layiqsiz işlər görəcəyiniz. Onların layiqsiz əməllərini görən şəxs (lazım gələndə vəzifəsinə əməl edərsə, yəni münkərdən nəhy edərsə) Allahın əzabı ona şamil olmayacaq və inkara bacarığı olub və inkar edən sağlam qalacaqdır.”[3] Soruşuldu: “Onlarla mübarizə və müharibəyə qalxmayaq?” Cavab verdi: “Madam ki, namaz qılırlar, yox.”

Bu haqda düzgün xəbərlər, xüsusilə Peyğəmbərin (s) pak Əhli-beyti tərəfindən deyilmiş hədislər var ki, imamlar özləri də səbir edib dözmüşlər – gözlərində çöp, boğazlarında sümük qalan kimi. Bu dözüm Peyğəmbərin (s) onlara buyurduğu əmrlərə, vəsiyyət və sifarişlərə xatir idi. Peyğəmbər (s) ona görə onlara əziyyətlərə dözməyi, göz yummağı buyurmuşdu ki, ümmətin və İslamın şövkəti qorunsunlar. Onlar da hakimlərlə münasibətdə üzərlərinə düşən vəzifəyə əməl edirdilər. Halbuki belə vəziyyət və hüquqlarının qəsb olunması ağızlarında “hənzəl”dən (çox acı bir meyvə) də acı idi. İnkişaf və hidayət yollarını onlara göstərsələr də, halbuki qəsbkarların hakim kürsüsündə olmaları onlara qəlblərinə batmış iti bıçaq kimi ağır gəlirdi. Bunların hamısı öhdəçilik, ilahi əhdə vəfanın icrası və əqli və şəri vəzifəyə qiyam üçün idi. Bu o deməkdir ki, həmişə ziddiyyətli məqamlarda ən mühüm olana üstünlük vermək zərurəti əhəmiyyət daşıyırdı. Buna görə Əmirəl-möminin (ə) xalis nəsihətləri və xeyirxahlığı ilə hər üç xəlifəyə kömək etmiş, onlara qərarlarında doğru yol seçməyi göstərməkdə əlindən gələni əsirgəməmişdi. O həzrətin üç xəlifənin hakimiyyəti dövründəki rəftarını tədqiq edən şəxs görər ki, onun xilafət işində Allahın rəsulu (s) tərəfindən birbaşa verilmiş hüququndan əli üzüləndən sonra o, hakim xəlifələrlə düz və əmin rəftar etmə yolunu seçmiş və Peyğəmbər (s) tərəfindən verilmiş vilayət kürsüsünü onların ixtiyarında görsə də, mübarizə və müharibəyə əl atmamışdır. Bu çətin seçim ümməti qorumaq, milləti saxlamaq, dini yaşatmaq, axirəti dünya ağalığından üstün tutmağa xatir idi. Doğrusu, o Həzrət müqayisə olunmaz dərəcədə ağır şəraitlə qarşılaşmışdı, iki böyük xətər, iki böyük təhlükə onu yaman sarsıdırdı:

1. Bir tərəfdən vilayət və Peyğəmbərin əhd-peymanları onu fəryadla çağırır, ürək yandıran naləsi ilə özünə tərəf dəvət edirdi ki, naləsindən ürəklər qan ağlar, qəlblər odlanar!

2. Digər tərəfdən tüğyançı ünsürlərin fitnə-fəsad dalğasının Ərəbistan yarımadasını bürümə ehtimalı, çevriliş və inqilab təhlükəsi və İslamın yox olma qorxusu xəbərini verirdi. Həmçinin Mədinə münafiqləri üçün münasib fürsət yaranmış, eləcə də Mədinə ətrafı ərəblərin küfr və nifaqı ciddi təhlükə doğururdu. Hamıdan daha çox onların Allahın fərmanlarına qarşı çıxma halları müşahidə olunmaq üzrə idi. Belə bir böhranlı vəziyyət özünəməxsus tərzdə islamı hədələyir, müsəlmanların arasında ixtilafın yaranması ilə islamın birdəfəlik aradan getməsi xətərini yaxınlaşdırırdı. Belə bir zamanda əks cərəyanın sürətli inkişafı nəzərə çarpacaq dərəcədə Peyğəmbərin (s) vəfatı ilə daha da güclənirdi. Müsəlmanlar isə yağmura düşən, qaranlıq gecədə yolunu azıb bir-birindən ayrılan və eyni halda təcavüzkar, yırtıcı canavarlarla rastlaşan sürüyə bənzəyirdilər. Sanki onlar (müsəlmanlar) münafiqlər, digər ərəb kafir və

---

[1] Müslim və başqalarının nəql etdiyi kimi.

[2] Müslim öz “Səhih”inin 2-ci cildinin 120-ci səhifəsində onu başqa “sünən”lərdə gəldiyi kimi nəql etmişdir.

[3] Müslim “Səhih”inin 2-ci cildinin 122-ci səhifəsində onu vermişdir. Hədisin “فمن عرف برء” cümləsindən məqsəd budur: “Münkəri tanıyıb ona tabe olmayan hər bir şəxs onun günah və qəbahətindən çəkinərək, onu əli və dili vasitəsiylə dəyişdirməli və əgər aciz olsa, heç olmasa qəlbində ona qarşı çıxmalıdır.”

müşrikləri, yalançı Təlhə ibn Xalid, Müsəylimə Kəzzab, Harisin qızı hiyləgər Səcah və onun əshabı, İslamı kökündən darmadağın etmək üçün möhkəm pusquda duran rum, “qeysər”, “kəsra”, xülasə, (Məhəmməd (s), onun xanədanı və ümmətinə qarşı) ürəklərində kin dolu İslamın qatı düşmənləri arasında bir əsiri xatırladırdı. Saydığımız ünsürlərin hamısı İslamın əsasını kökündən qoparmaq, intiqam almaq, ürəklərindən tikan çıxarmaq arzusu ilə qüvvə toplayaraq hazırlaşır, tezliklə vəziyyətin onların xeyrinə tamamlanacaq fürsətin intizarını çəkirdilər. Peyğəmbərin (s) vəfatı ilə isə fürsəti fövtə verməyərək yaranmış ixtişaş və qarışıqlıqdan (İslamı güc və təməli möhkəmlənməmiş) istifadə edib, son zərbəni endirməyi planlaşdırırdılar.

Əmirəl-möminin (ə) bu iki böyük təhlükənin qarşısında dayanmış və onu tamam vücudu ilə hiss edirdi. Onu öz hüququnu İslamın həyatına qurban verməyi, müsəlmanların ümumi məsləhətini fikirləşməyi, yaranmış qarşıdurmadan çəkinməyi və onunla Əbu Bəkr arasındakı ixtilafa göz yumması təbii və yalnız və yalnız dinin qorunması, İslam ümmətinin vəhdəti naminə idi. O və Əhli-beyti (ə), mühacir və ənsar dostları, yalnız buna xatir dözdülər, amma necə, sanki gözlərində çöp, boğazlarında sümük qalmışdı! O həzrətin Rəsulullahdan (s) sonrakı acı və keçməkeşli həyatı pak Əhli-beyt (ə) təriqi ilə gəlmiş mütəvatir xəbərlərdə özünü dolğun əks etdirir.

Amma ənsarın böyüyü Səd ibn İbadə isə iki xəlifənin (Ömər və Əbu Bəkr) heç biri ilə barışmayaraq, onların heç bir bayram və gümə namazlarında axıradək iştirak etmədi və əmr və nəhylərinə qulaq asmadı. Vəziyyət o dərəcəyə çatdı ki, nəhayət, ikinci xəlifənin hakimiyyəti zamanı Huranda (Şamda məntəqə) ona sui-qəsd etdilər və sonra da şayiə yaydılar ki, onu cin öldürmüşdür. Onun “səqifə”də (yığıncaq yeri) və “səqifə”dən sonra şəxsi fikirləri vardır ki, onları zikr etməyə ehtiyac yoxdur.[1] Onun Hübab ibn Münzir[2] və ənsardan olan başqa dostları da zorla tabe edildilər və təslim oldular.

Qılınc gücü və ya müxtəlif hədə-qorxu ilə alınmış beyəti məgər, şəri və qanunimi sayırsınız?![3] Belə olan surətdə Peyğəmbərin (s) buyurduğu “Ümmətim nahaq işdə bir yerə

---

[1] Səd ibn Übadə Əbu Sabit “əqəbə” beyətində iştirak edənlərdən, “Bədr” və digər müharibələrdə vuruşanlardandır. O, “xəzrəc” tayfasının və başçısı, səxavətli bir insan və ənsarın böyüyü idi. Mətndə ona işarə olunan sözlər bütün tarix kitablarında vardır. O cümlədən İbn Qüteybənin “Əl-imamətu vəs-Siyasə”, İbn Həcərin tarixi, İbn Əsirin “Kamil” və Əbu Bəkr Əhməd ibn Əbdül-Əziz Cövhərinin “Əs-səqifə” kitabına baxmaq kifayətdir.

[2] Hübab ənsarın böyük şəxsiyyətlərindən və onların şücaətlilərindən idi. O, Bədr müharibəsində və başqa vuruşmalarda iştirak etmişdir. O, “xəzrəc”in başçılarından, ənsarın səxavətli və məsul şəxslərindən hesab olunurdu. Onun haqqında deyilənlər tarix və xəbərlərdə mövcuddur və nümunə kimi İbn Qüteybənin “Əl-imamətu vəs-Siyasə”, İbn Cərir Təbəraninin tarixində, İbn Əsirin “Kamil” və Əbu Bəkr Əhməd ibn Əbdül-Əziz Cövhərinin “Səqifə” kitabına və başqalarının verdiklərinə baxa bilərsiniz.

[3] Onların ev və ev adamlarını yandırmaqla Əlini hədələdikləri mütəvatir və qətidir. Aşağıdakı kitablara baxmaq kifayətdir: İbn Qüteybə “Əl-imamətu vəs-Siyasə” kitabının əvvəllərində, imam Təbəri özünün məşhur tarixinin iki yerində 11-ci ilin hadisələrində, İbn Əbdürəbih Maliki “İqdül-Fərid”in 2-ci cildində “hədisi-səqifə”də, Əbu Bəkr Əhməd ibn Əbdül-Əziz Cövhəri “Səqifə” kitabında, İbn Əbil-Hədid “Nəhcül-bəlağənin şərhi”nin 1-ci cildinin 134-cü səhifəsində, Məsudi “Mürucuz-Zəhəb”də beyətdən üz döndərdikləri üçün “Bəni-Haşim”in evlərinə od vurmağı qərara alan Ürvə ibn Zübeyrin qardaşı Abdullahın işini yozduğu məqamında, Şəhristani “Nəzzamdan” “Miləl və Nihəl”də nəql edərək “nəzzamiyyə” firqəsindən söz açan yerdə və Əbu Müxnəf “Səqifə” xəbərlərinə aid etdiyi kitabda icmalla verdiklərimizin təfsirini vermişdir. Bu hadisənin şöhrəti haqda Nil şairi Hafiz İbrahimin hər yanda yayılan “Əl-öməriyyə” qəsidəsi kifayətdir:
«وَ قوْلُه لِعليّ قالها عُمَرُ أكرَمَ بِسامعِها اَعظَمَ بِمُلقِيها» “Ömər Əliyə dediyi sözü eşidənə hörmət, yetirənə təzim vacibdir:”
«حرقتُ دارَك لا أُبْقي عليكَ بها اِنْ لم تُبايِعْ وَ بنتُ المصطفي فيها» “–Evini yandırdım ki, orada heç kəsi sağ qoymayım; Mustafanın qızı orada olsa belə, əgər beyət etməsən.”

toplanmazlar” – kəlamından sonra dediyiniz icmanın qiyməti varmı?! Siz özünüz hökm kəsin! Vəssalam.

**“Ş”**

---

«ما كان غيرُ ابي حفْص بقا ئلها» «اَمامَ فارسِ عدنان وَ حاميها» “Bu sözü Əbu Həfsə Ömərdən başqa “ədnan” qəhrəmanları və onların hamiləri qarşısında heç kəs deyə bilməz!”

Onların İmamla rəftaları bu idi və bizim fikrimizcə, icma onun rəyi olmadan höccət sayıla bilməz. Bəs, ey münsiflər, sizin bizim qarşımıza qoyduğunuz icmaya hansı tam dəliliniz vardır? Özü də o dövrün vəziyyətinə diqqət yetirməklə!

# *HƏŞTAD ÜÇÜNCÜ MƏKTUB*

<u>2</u> <u>Rəbiəl-Əvvəl,</u> <u>1330</u>

***“Nəss”in müqabilində səhabənin ondan imtinası necə mümkündür?***

Şüurlu nəzər və aydın fikir sahibləri səhabəni Peyğəmbərin qadağa və əmrlərinə zidd olmaqdan uzaq bilir və o həzrətin əmrlərinə sadiq olmalarından başqa bir şeyi onlara rəva bilmirlər. Buna görə də ola bilməz ki, Əlinin (ə) imaməti haqda “nəss”i eşidib ona arxa çevirsinlər, həm də bir dəfə yox, üç dəfə. Necə ola bilər ki, səhabə onun imamət və xilafətinin “nəss”ini eşidib, ondan imtina etsin və onların əməli doğru hesab olunsun? Mən inana bilmirəm ki, bu iki məsələ birlikdə necə izah olunur?

***“S”***

## *HƏŞTAD DÖRDÜNCÜ MƏKTUB*

5 Rəbiəl-Əvvəl, 1330

***1. "Nəss"in sübutu və onların əməlini düzgünlüyə yozmağı birlikdə cəmləşdirmək.***

***2. İmamın öz hüququnu qaytarmaqdan əl çəkməsinin səbəbi.***

1. Səhabənin əksəriyyətinin tərcümeyi-halı və tarixi göstərir ki, onlar sünnə və rəvayətə ("nəss"ə) tabe olmuşlar. Onların bir qismi, sırf ibadətə və axirətə məxsus məsələləri əhatə edir. Məsələn: Ramazan ayının orucu, namazda üzün qibləyə olması, gündəlik vacib namazların və hər birinin rəkətlərinin sayı, onların yerinə yetirilmə qaydaları, Allahın evi ətrafında 7 dəfə dövr (təvaf) və s. Amma siyasətə aid olan məsələlərdə isə məsələn: hökumət və əmirliyi müəyyən bir şəxsə tapşırmaq, dövlət işlərinin tədbiri, məmləkətin idarəsi və ordunun təchizi kimi məsələlərdə sünnəyə tabe olmayıb, "nüsus"unun lazımlığını bütün hallarda vacib bilmirdilər. Əksinə, özləri üçün bəhs, danışıq, fikir söyləmə və ictihad üçün də müəyyən yer saxlayırdılar. Yəni, əgər bir fikir "nəss"in ziddinə olsaydı da, onların nəzərincə, bu İslamın məsləhəti üçün idi və onların rəyasət və hökumətlərinə xeyir verirdisə, belə bir fikir ayrılığı günah olmayıb, hətta düşünürdülər ki, Peyğəmbərin (s) də bu işdə razılığını əldə edirlər.

Əlinin (ə) xilafəti haqqında da onlar guya, belə qənaətə gəldilər ki, ərəblər ona təslim olmaz və xilafətini qəbul etməzlər. Çünki o, Allah yolunda ərəbin belini əymiş, qanını qılıncıyla haqqı ucaltmaq uğrunda axıtmış, qələbə və haqq uğrunda sanki, (ərəblərin nəzərində) həddi aşmış, hətta bu işi kafirlərin istəyinin əksinə olaraq, Allahın dini qələbə qazanana qədər davam etdirmişdir. Bundan sonra daha onlar zorla müti, zorla "nəss"ə görə ona tabe olmayacaqlar. Ərəb adəti üzrə belə bir vəziyyətdə İslam uğrunda tökdüyü qanlara görə Əlidən (ə) öz intiqamını alacağını fikirləşir. Çünki Peyğəmbərdən (s) sonra qəbiləsində, ərəblərin fikrincə, Əlidən (ə) başqa o qanların intiqamını alacaqları layiqli bir adam yox idi. Çünki onlar tökülmüş qanların intiqamını tayfanın başçısı və qəbilənin daha üstün şəxsindən alırdılar. Əli (ə) də sözsüz, Rəsulullahdan sonra Bəni-Haşimin nümunəvi adamı və onların ən üstün şəxsiyyəti idi. Buna görə ərəb onun əleyhinə plan cızır, işlərində qarışıqlıq yaradacaq, ürəyindəki kin, qəzəb və ədavəti onun və nəslinin üzərinə töküb, bacardıqları anda ona həmlə edəcəklər. Nəhayət, törətdikləri bu əməllərinin ("səqifə" əshabı Əlini deyilən bəhanə ilə xilafətdən uzaqlaşdırmağın) nəticəsində asimanın üzü qaraldı, onun müsibəti yer-göyü doldurdu. Qoy sənə deyim ki, niyə belə oldu. Çünki qüreyş (xüsusi) və ərəb (ümumi olaraq) Əlini Allah düşmənləri, onun haramlarını pozanlarla sərt rəftarı və qanunlarına qarşı çıxanlara tutduğu divanları unutmamışdı. Onun əmr-be məruf və nəhy-əz münkərə ciddi əməli, rəiyyət arasında ədaləti və ona bütün işlərdə hüdud və hüquqları qoruması hamını vəhşətə gətirirdi. Nə bir kəs onu tamaha sala bilər və nə birinin xeyirxahlığı (haqqı pozmaqda) ona təsir edərdi. Onun yanında qoluzorlu və zalım zəlil, zəif isə haqqının geri qaytarıldığı üçün güclü və əziz olurdu. Buna görə də haqqa ürəkdən bağlanmayanlar necə rəğbət və maraq üzündən ona itaət edə bilərdilər?! Bir halda ki, Quran onların barəsində buyurmuşdur: "Bədəvilər küfr və nifaq baxımından daha pis (qəliz) və Allahın öz Peyğəmbərinə nazil etdiyi hökmləri (cahillikləri üzündən) bilməməyə (başa düşməməyə) daha layiqdirlər."[1] Ardınca buyurur: "Mədinəlilərdən bir qrup vardır ki, nifaq içərisində bərk batmışlar. Sən onları tanımırsan, biz onları tanıyırıq." Onların arasında casus və elə kinli adamlar vardı ki, müsəlmanlara hər cür şər yetirməyə hazır idilər. Hamı, qüreyş və ərəbin adlı-sanlıları Əliyə həsəd aparırdılar. Allah yolunda o qədər

[1] "Tövbə", 97.

fəzilət qazanmışdı ki, onun dərgahında (elm və əməl sayəsində) peyğəmbərlərin məqamına ucalmışdı. Səhabələrdən heç kim onunla müqayisə edilə bilməzdi. Allah və rəsuluna bağlılıq və digər imtiyazları elə məqam əldə etmişdi ki, başqaları naçar ona qibtə edirdilər. Hələ tamahkar ünsürlər onun ən aşağı fəzilətlərini əldə etmək üçün əldən-ayaqdan gedirdilər. Bunlara görə idi ki, həsəd və nifaq atəşi qəlblərində alovlanıb, onun əhd-peymanını pozaraq üç fasiq qrup ("nakisin", "qasitin", "mariqin") əl-ələ verərək Peyğəmbərin "nəss"ini qulaq ardına vurdular və onu tam unutdular. Şair demişkən: "Olan oldu, keçən keçdi, daha onu xatırlamıram. Hüsnü-zənn et, keçənləri soruşub araşdırma."

Doğrusu, qüreyş və ərəblər xilafətin qəbilələr arasında növbələşməsinə razı idilər. Onlar elə bunu arzulayırdılar. Bu məqsədlə əhdi pozmaqda əllərindən gələni əsirgəmədilər. Əl-ələ verdilər ki, birdəfəlik "nəss"i unutdursunlar. Bir-birinə beyət etdilər ki, onu heç cür yada salmasınlar. "İcma" təşkil edərək elə birinci gündən xilafəti Peyğəmbər tərəfindən təyin olunmuş vəlidən aldılar. Seçki üsulunu ortalığa atmaqla hər bir qəbilədə bu arzuya çatmaq tamahını yaratdılar. Əgər "nəss"ə tabe olub Əlini (ə) Rəsulullahdan (s) sonra birinci xəlifə bilsəydilər, daha xilafət Peyğəmbərin (s) pak itrətindən kənara çıxmayacaqdı. Çünki, Peyğəmbər "qədir" günü (və başqa vaxtlarda) Əhli-beyti Quranla bir sırada hesab etmiş və ikisini də qiyamətə qədər ağıl sahiblərinin rəhbəri etmişdi. Amma ərəb isə xilafəti xass bir xandana mənsub etmək istəmirdi. Xüsusilə bütün qəbilələrin gözü ona tərəf dikilmiş və bütün tayfalar bu işdə bir-birlərini himayə edirdilər. Şair demişkən:

«لقد هزلت حتي بدأ من هزالها كلاها و حتي استفهم كل مفلس» "O qədər arıqladı ki, sümükləri çıxdı; hətta pulsuzlar və müflislər belə onun qiymətini soruşurdular."

Xilafəti elə vəziyyətə gətirdilər ki, hamı ona tamah gözü ilə baxırdı. Qüreyş və ərəbin tarixini yaxşı mütaliə edən kəs bilir ki, onlar Bəni-Haşim və nübüvvətə qarşı itaətkar olmayıblar. Heç istəyərdilərmi nübüvvət və xilafət bütünlüklə Bəni-Haşimin əlinə keçsin!? Necə ki, Ömər ibn Xəttab İbn Abbasla danışığında bu məsələyə işarə edərək demişdi: "Qüreyş hazır deyil ki, nübüvvət və xilafətin hər ikisi sizin aranızda olsun və camaata zülm edəsiniz."[1]

2. Saleh sələfin də gücü çatmadı ki, onları "nəss"ə tabe olmağa məcbur etsin. Bildilər ki, əgər "nəss"ə tabe olmağa vadar etsələr, müqavimət göstərib İslamdan dönərlər və həmçinin ixtilafın pis nəticəsindən qorxdular. Əlxüsus Peyğəmbərin ölümü ilə nifaq özünü aşkar surətdə göstərirdi və nifaq salmaq istəyənlər fürsət gəzirdi. Bir tərəfdən də kafirlərin tüğyan etmə ehtimalı, dinin sütunlarının sarsılma xətəri müsəlmanları ciddi təhlükə ilə üzləşdirə bilərdi. Dediyim kimi, müsəlmanlar o vaxt yağmura düşən qaranlıq qış gecəsində təcavüzkar, yırtıcı canavarlar tərəfindən əhatəyə alınan sürüyə bənzəyirdilər. Ərəb tayfaları mürtəd olmuşdular (82-ci məktubda izah etdiyimiz kimi).

Əli (ə) belə bir vaxtda qiyam edərək öz iradəsini yeritmək, xalqın ümumi məsləhətinə görə ayağa qalxmaq, beləliklə də fitnə-fəsadın artaraq müsəlmanların nizamının tezliklə dağılmasından ehtiyat edirdi. Çünki xalqın əhval-ruhiyyəsi izah etdiyimiz kimi, düşmənlərin təcavüz ehtimalı və nifaqçıların xətəri xatırlatdığımız kimi idi. Onlar barmaqlarını qeyz-qəzəblə çeynəyir, digər tərəfdən isə daxildə gedən çəkişmə və rəqabətə uyğun olaraq ənsarla mühacirlərin hamısı müxalif tərəflər kimi ayrılıq təşkil edirdi. Ənsar deyirdi: Bir hakim bizdən, biri də sizdən və sair bu kimi sözlər.

Belə bir vəziyyətdə o həzrət dinin qurban gedəcəyindən çəkinərək, məcbur oldu ki, xilafət fikrindən tamamilə daşınsın. Çünki bilirdi ki, xilafətin ardınca düşmək ümmətin təhlükəsi, dinin yox olması deməkdir. Buna görə də İslamın yaşamasını və ümum müsəlmanların

---

[1] İbn Əbil-Hədid "Nəhcül-bəlağə şərhi"nin 3-cü cildinin 107-ci səhifəsində onu vermişdir. Həqiqət axtaranların onu bilməsinə dəyər. Və İbn Əsir onu Ömərin tərcümeyi-halının axırında "Kamil"in 3-cü cildinin 24-cü səhifəsində "şura" cərəyanından əvvəl vermişdir.

məsləhətini xilafət və şəxsi hüquqdan üstün tutaraq xilafəti ələ almaqdan çəkindi, axirəti dünyadan üstün hesab etdi. Beləliklə, evdə oturdu, onu zorla beyətə aparana qədər beyət etmədi ki, öz hüququnu qorusun və ondan üz çevirənlərin qarşısında höccət olsun. Əgər o könüllü və tez beyət etsəydi, höccət tamam olmazdı və parlaq dəlili yox olardı. Amma bu əməllə həm dini, həm də öz hüququnu qorudu, yəni xilafətdə möminlərin iqtidarını birləşdirdi. Onun bu işi düzgün fikir və dərrakəyə, helm və səbrə, qəlbin genişliyinə, ümumi məsləhəti şəxsi hüquqlardan üstün tutmağa dəlalət edir. Doğrusu, harada müşahidə olunub ki, Allahın ən yüksək dini məqamından kimsə əl çəksin? Əlbəttə, bu qərar və bu seçim iki yolayrıcında ən faydalı və ən əhəmiyyətli tərəfə üstünlük verməklə əlaqədardır. Çünki o, yalnız əziz və cəlallı Allahın istəyini nəzərdə tuturdu.

Amma üç xəlifə və tərəfdarları xilafətə dair "nüsus"u əvvəldə dediyimiz kimi, dünya xatirinə, öz mənafelərinə uyğun təfsir və izah etdilər ki, artıq indiki zamanda onlara təəccüb etməyin yeri yoxdur. Çünki sizə aydınlaşdırdıq ki, onlar siyasi işlərdə, əmir və hakimlərin təyinində, dövlət işlərinin tədbiri və məmləkətin idarəsində hər bir "nəss"i öz ictihadları ilə ölçür, təfsir və izah edirdilər və bu məsələlərə fərdi, dini ehkamlar qədər diqqət yetirmirdilər. Elə buna görə də bu "nəss"lərlə müxalifət etmək onlar üçün asan idi. İşləri başa çatandan və xilafəti ələ alandan sonra, çox ciddi surətdə onları unutdurmağa çalışdılar və o "nüsus"u yada salan və ya onlara işarə edənlərlə çox pis davrandılar. Nizam-intizam bərpa olduqda, İslam dini yayılıb ölkələri fəth etdikdə, dövlət sərvət və gücə çatdıqda, özlərini şəhvətə bulamayıb işləri yüksəldikdə isə, camaat onlara hüsni-zənn etməyə başladı və əksəriyyət də o "nüsus"u unutmaqda onların yolunu davam etdirdi.

Nəhayət, onlardan sonra Bəni-Üməyyə iş başına gəldi. Məlumdur ki, onların Əhli-beytin izini itirmək və öz ürəklərinin kamını almaqdan başqa fikirləri yox idi. Amma bütün bunlarla bərabər, bizə birbaşa və səhih "nüsus" və rəvayətlər gəlib çatmışdır ki, (haqq yolun sübutu üçün) bizə kifayətdir. Əlhəmdülillahi, vəssəlamu ələykum.

***"Ş"***

# *HƏŞTAD BEŞİNCİ MƏKTUB*

7 Rəbiəl-Əvvəl, 1330

***“Nəss”ə boyun əymədikləri halların tələbi.***

Sonuncu məktubunuzu da aldım. Bu dəfə də izahlarınızda bizim təsəvvür etmədiyimiz dərəcədə möcüzə etmiş, bəhsləri olduqca dolğun canlandırmaqla, insanı heyrətə salmısınız! Pak və üstündür o Allah ki, dəlil ağacının şaxələrini sənə doğru əyib, sözün açarını sənə təslim edib! O yerə ucalmısan ki, bəyandan yüksək və elə şeyə qələbə çalmışsan ki, arzu əlləri ondan qısadır!

Biz güman etdik ki, mövcud səbəblərin göstərdiyiniz “nüsus”la heç bir əlaqəsi olmamış və buna görə də əlinizdə elə də tutarlı dəlil və sübutunuz olmayacaqdır. Kaş, aydın “nüsus”la onların boyun əymədikləri halları da göstərəydiniz və möhkəm dəlillərlə saf və müstəqim yolu işıqlandıraydınız. Buna görə mən səndən xahiş edirəm, onların tərcümeyi-hallarında baş verdiklərini geniş şərh və “xəbər” kitablarında sünni təriqləri ilə yazılanları təfsilatı ilə verəsiniz. Vəssalamu ələykum və rəhmətullahi və bərəkatuh.

***“S”***

# *HƏŞTAD ALTINCI MƏKTUB*

<u>8 Rəbiəl-Əvvəl, 1330</u>

***1.Cümə axşamının müsibəti.***

***2. Peyğəmbərin (s) onlara əmr etdikdən sonra (bu işdən) əl götürmələrinin səbəbi.***

1. Onların “nəss”ə boyun əymədikləri halları hesaba gəlməz. Bu hallardan yalnız birinə – hədisələrin ən məşhuru və müsibətlərin ən böyüyü olan cümə axşamı gününün müsibətinə diqqət etmək kifayətdir.

“Sihah” yazanlar və başqa “sünən” yazıçılarının hamısı bu hadisəni nəql etmiş və tarix, sirə və xəbər yazanların hamısı ondan xəbər vermişlər. O cümlədən Buxari öz sənədi ilə[1] Übeydullah İbn Abdullah ibn Ütbə İbn Məsuddan, o da İbn Abbasdan nəql etmişdir: “Peyğəmbər (s) can verəndə bir qrup adam, o cümlədən Ömər ibn Xəttab o Həzrətin evində idilər. Peyğəmbər (s) buyurdu: «هَلُمَّ اَكْتُبْ لَكُم كِتاباً لا تَضِلّوُا بَعْدَهُ» Kağız-qələm gətirin ki, sizə (son vəsiyyətimi) yazım. Yazım ki, məndən sonra heç vaxt yolunuzu azmayasınız.[2] Bu vaxt Ömər dedi: Dərd ona üstün gəlib. Mən deyirəm Quran sizin aranızdadır. Allahın kitabı bizə kifayət edər. Ora toplaşanlar arasında ixtilaf düşdü və iş çəkişmə və düşmənçiliyə gəlib çıxdı. Bəziləri deyirdi: Yaxınlaşın (və kağız-qələm hazırlayın ki,) Peyğəmbər (s) sizə yazsın ki, ondan sonra yolunuzu azmayasınız. Bəziləri isə Ömərin sözünü təkrarlayırdı. Peyğəmbərin (s) yanında hay-küy və ixtilaf artanda onlara buyurdu: Gedin buradan.” İbn Abbas həmişə bu sözü deyərdi: “Bütün müsibətlər o vaxt baş verdi ki, Peyğəmbərə (s) mane oldular və hay-küy salaraq qoymadılar ki, lazım olan mətləbləri onlar üçün yazsın (açıqlasın).”

Bu hədisin, düzgünlüyü və o hadisənin baş verməsi haqda heç bir söz və şübhə yeri yoxdur. Buxari onu öz “Səhih”ində neçə yerdə nəql etmiş,[3] “vəsiyyətlər”in axırında onu zikr etmişdir.[4] Əhməd “Müstədrək”də[5] İbn Abbasdan və başqa “sünən” və “əxbar” yazanlar da onu nəql etmişlər. Amma onu nəql edəndə (yalnız əhvalatı söyləyərək) dəyişdirmişlər. Çünki Ömərin öz əsl sözü belə olub: «اِنَّ النَّبِيَّ يَهْجُرُ» “Peyğəmbər sayıqlayır, ağlı başında deyil.” Amma onlar belə vermişlər: «اِنَّ النَبِيَّ قَدْ غَلَبَ عَلَيْهِ الْوَجَعُ» “Dərd Peyğəmbərə üstün gəlmişdir.” Bu təhrif, ifadəni düzəltmək və qəbahəti azaltmağa xatir olmuşdur. Bunun sübutu Əbu Bəkr Əhməd ibn Əbdül-Əziz Cövhərinin “Səqifə” kitabında[6] İbn Abbasdan gətirdiyi hədisdir: “Peyğəmbər (s) can verərkən evdə bir qrup kişi var idi. Ömər ibn Xəttab da orada idi. Rəsulullah (s) buyurdu: Mürəkkəb və kağız gətirin ki, məndən sonra yolunuzu heç vaxt azmamağınız üçün sizə yazılı surətdə bir şey qoyum. Ömər bu vaxt belə dedi: Dərd Peyğəmbərə üstün gəlmişdir. Sonra əlavə etdi: «حَسْبُنا كِتابُ الله» Allahın kitabı bizə kifayətdir. Evdə olan adamlar arasında ixtilaf və narazılıq yarandı. Bəziləri dedi: Gətirin və yaxın gəlin

---

[1] “Əl-mərza” bölməsinin “قول المريض قدموا عني” babında, “Səhih”in 4-cı cildinin 5-ci səhifəsində.

[2] “Nun” hərfinin ixtisarı ilə: “لا تَضِلّوُا” çünki “هَلُمَّ”nin ikinci cavabıdır.

[3] “Elm” bölməsi, 1-ci cildin 22-ci səhifəsində və tədqiqatçıların bildiyi başqa məqamlarda.

[4] 2-ci cild, səh. 14.

[5] 1-ci cild, səh. 325.

[6] İbn Əbil-Hədidin “Nəhcül-bəlağənin şərhi”nin 2-ci cildinin 20-ci səhifəsində verdiyi kimi.

ki, Peyğəmbər sizin üçün yazsın. Bəziləri də Ömərin dediyini təkrarladı. Ləyaqətsiz sözlər və ixtilaf şiddətlənəndə Peyğəmbər hirsləndi və buyurdu: «قوموا» Mənim yanımdan durun.” Aydın görürsünüz ki, ərz edənlər Ömərin eyni sözlərini yox, uyğun mənasını nəql ediblər. Ona dəlil budur ki, müxalif şəxsin (Ömər) adını çəkməyən ikinci qrup tədqiqatçılar söylənmiş ləfzin əslini qeyd etmişlər. Buxari onu “Səhih”də, “cihad və siyər” kitabının “cəvaizün-vəfd” babında[1] Qübeysədən, o da ibn Üyeynədən, o da Salman Əhvəldən, o da Səid ibn Cüverdən, o da İbn Abbasdan nəql etmişdir:

«يَوْمُ الْخَميس وَ ما يَوْمُ الْخَميس! ثُمَّ بَكي حَتّي خَضِبَ دَمْعَهُ الْحَصْباء» “Cümə axşamı günü idi, özü də hansı cümə axşamı! Bunu deyib İbn Abbas o qədər ağladı ki, qarşısındakı çınqıl daşlar islandı. Sonra belə əlavə etdi: Cümə axşamı günü Peyğəmbəri (s) bərk ağrı tutdu. Həzrət buyurdu: Bir kağız gətirin ki, sizə sonralar yolunuzu heç vaxt azmamağınız üçün bir şey yazım. Bu vaxt çəkişmə başlandı, halbuki Peyğəmbərin (s) yanında (belə vəziyyətdə) hay-küy qoparmaq olmazdı. Dedilər: «هَجَرَ رَسُولُ اللهِ» Peyğəmbər ağlını itirib. Peyğəmbər (s) buyurdu: «دَعُوني فَالَّذي اَنا فيه خَيْرٌ مِمّا تَدْعُوني اِلَيْهِ» Məni öz halıma buraxın və bu mənə siz dəvət etdiyinizdən daha yaxşıdır. Peyğəmbər (s) vəfat edəndə üç şeyi vəsiyyət etdi: Müşrikləri ərəb yarımadasından xaric edin, Mədinəyə gələn nümayəndələri mən mükafat verdiyim kimi mükafatlandırın, (rəvayət söyləyən demişdir) üçüncünü isə unutmuşam.”[2]

Bu hədisi Müslim öz “Səhih”ində, “vəsiyyət” kitabının axırında vermiş, Əhməd öz “Müsnəd”ində İbn Abbasdan nəql etmişdir.[3] Başqa hədisçilər də onu nəql etmişlər. Müslim “Səhih”in “Vəsiyyət” kitabında Səd ibn Cübeyrdən və başqa bir təriqlə İbn Abbasdan onu belə rəvayət etmişdir: “Cümə axşamı günü idi, amma nə hansı cümə axşamı! Sonra gözündən yaş axaraq sapa düzülmüş mirvari dənələri kimi yanaqlarından süzüldü. Dedi: Peyğəmbər buyurdu: “Mürəkkəb qabı gətirin, sizin üçün bir şey yazım ki, məndən sonra heç vaxt yolunuzu azmayasınız.” Amma dedilər: “Rəsulullah (s) sayıqlayır.”[4]

Bu böyük müsibət haqqında “Sihah”da yazılanları diqqətlə araşdıran kəs bilər ki, o gün “Rəsulullah həzyan deyir” – sözünü söyləyən ilk şəxs, yalnız Ömər olmuşdur. Ondan sonra tərəfdarları bu sözü təkrarlamışlar. Çünki birinci hədis[5] əsasən, İbn Abbas demişdir: Evdə olanlar çəkişməyə və deyişməyə başladılar. Bəziləri dedilər: Yaxınlaşın (və kağız gətirin), Peyğəmbər (s) sizin üçün bir şey yazsın ki, ondan sonra heç vaxt yolunuzu azmayasınız. Bəziləri də Ömərin dediyini təkrarlayırdılar. Yəni, demişdir: Peyğəmbər (s) sayıqlayır və (nəuzubillah) ağlını itirmişdir.

Təbəraninin “Övsət” kitabında Ömərdən[6] verdiyi rəvayətdə deyilir: “Peyğəmbər (s) xəstələnəndə buyurdu: “Kağız və mürəkkəb qabı gətirin sizə bir mətləb yazım ki, ondan sonra heç vaxt yolu azmayasınız. Qadınlar pərdə arxasından dedilər: Məgər eşitmirsinizmi Peyğəmbər nə deyir? Ömər deyir ki, dedim: Siz Yusifin (peyğəmbər) ətrafındakı haman

---

[1] 2-ci cild, səh. 118.

[2] Unudulmuş olan şey, Peyğəmbərin (s) ümməti zəlalətdən xilas etmək üçün yazmaq istədiyi vəsiyyətdən başqa bir şey deyildir. Dövrün siyasəti hədisçiləri onu unutmağa vadar etmişdir. Müfti Hənəfi (Hacı Davud Əd-dəda) “Suvər”də bu həqiqətə işarə etmişdir.

[3] 1-ci cild, səh. 22.

[4] Əhməd “Müsnəd”in 1-ci cildinin 355-ci səhifəsində onu vermiş və başqaları da onu nəql etmişlər.

[5] Buxarinin Übeydullah ibn Abdullah ibn Ütbə ibn Məsuddan, o da İbn Abbasdan gətirdiyi hədisi Müslim və başqaları da nəql etmişlər.

[6] “Kənzül-Ümmal”ın 3-cü cildinin 138-ci səhifəsində verdiyi kimi.

qadınlarsınız. Peyğəmbər (s) xəstələnəndə gözünüzün yaşını sıxır, yaxşılaşanda isə boynuna minirsiniz. Ömər deyir: Peyğəmbər buyurdu: "Onlarla işin olmasın, çünki sizdən yaxşıdırlar."

Diqqətinizdən yayınmasın, səhabə burada "nəss"ə vəfadar olmalıydılar. Əgər ona sadiq qalsaydılar, yollarını azmazdılar. Ey kaş ki, yalnız onun bu əmrinə tabe olub Həzrətin sözünü rədd etməyəydilər: "Allahın kitabı bizə bəsdir." Guya ki, Peyğəmbər Allahın kitabının onların arasındakı əhəmiyyətini bilmirmiş və ya onlar Quranın ərməğanlarına Peyğəmbərdən daha çox bələd imişlər. Ey kaş, bunların hamısı ilə kifayətlənəydilər və Həzrəti "Rəsulullah (s) sayıqlayır!" – sözləri ilə narahat etməyəydilər.Can verən zaman onların arasında nələr oldu və həyatının sonunda Peyğəmbərlə (s) vida zamanı, ah, nə sözlər dedilər! Guya, bu "nəss"ə əməl etməyib Allahın kitabını kafi saymaqla eşitməmişdilər ki, Quran gecə-gündüz fəryad edib nə deyir: وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا "Peyğəmbərin sizə gətirdiklərini alın (əmrinə əməl edin) və qadağan etdiklərindən çəkinin."[1] Guya, "Peyğəmbər sayıqlayır" – deyərkən Quranın bu ayəsini oxumamışdılar: "Bu söz kərim bir rəsulundur, güclüdür və ərş sahibinin dərgahında yeri vardır. İtaət olunmalıdır, əmindir. Sizin yoldaşınız (Peyğəmbər (s)) məcnun və divanə deyildir."[2] Həmçinin, heç bu ayəni qiraət etməmişdilər: "Bu söz kərim rəsulundur, şair sözü deyil – nə qədər az inanırsınız və kahin sözü də deyil heç düşünmürsünüzmü? (Bu Quran) aləmin Pərvərdigarı tərəfindən nazil olmuşdur."[3] Eləcə də, guya bu buyuruğunu görməmişdir: مَا ضَلَّ صَاحِبُكُمْ وَمَا غَوَى وَمَا يَنطِقُ عَنِ الْهَوَى إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى عَلَّمَهُ شَدِيدُ الْقُوَى "Sizin yoldaşınız (sahibiniz) yolunu azmamışdır, həvayi-nəfs üzündən söz danışmır, dedikləri ona vəhy olmuş, güclü bir şəxs (Cəbrail (ə)) ona təlim vermişdir." Guya, bunlardan əlavə başqa nurlu ayələri heç eşitməmişdir ki, həzrətin ismətli, sözlərində sayıqlama və həzyandan uzaq olduğunu aydınca göstərir?! Bundan əlavə, ağıl onun ismətini şübhəsiz qəbul edir və Peyğəmbərin (s) boş söz danışdığını, əsla ehtimal vermir.

Amma həqiqət budur ki, onlar yaxşı bilirdilər ki, Həzrət (s) xilafətin əhd-peymanını daha da möhkəmlətmək, vəsiyyət etməklə onu Əliyə (ə) (xüsusi) və Əhli-beyt (ə) imamlarına (ümumi şəkildə) həvalə edəcəkdi. Buna görə də Həzrəti bu işdən çəkindirdilər, belə ki, ikinci xəlifə İbni-Abbasla öz arasında gedən bəhs və söhbətində ona aydın şəkildə etiraf etmişdir.[4]

Siz Peyğəmbərin (s) bu sözünü –"Mənə (kağız və mürəkkəb qabı) verin, sizə bir şey yazım ki, heç vaxt yolunuzu azmayasınız.", onun "səqəleyn" hədisindəki buyuruğu ilə müqayisə edin: "Mən sizin yanınızda elə bir şey qoyuram ki, əgər ona arxalansanız heç vaxt yolunuzu azmazsınız: Allahın kitabı və itrətim – Əhli-beytim." Gördüyünüz kimi, bu iki hədis eyni hədəfə yönəlib və o da budur ki, Peyğəmbər (s) xəstə ikən o vaxt "səqəleyn" hədisində onlara vacib bildiklərinin təfsilatını yazmaq istəyirdi.

2. Amma nə üçün o Həzrət yazmaqdan əl götürdü? Çünki onların o sözündən sonra, həqiqətən Peyğəmbər əlacsız qaldı. Çünki o sözlərdən sonra həzrətin bir şey yazmağı, özündən sonra fitnə və ixtilafdan başqa bir əsər qoymayacaqdı, bu haqda çəkişmələr başlanacaq, danışıqlar olacaqdı ki, o Həzrət bu yazıda (əl-əyazü billah) sayıqlama və ağıldan uzaq bir mətləb söyləmişdi, ya yox? Qalmaqal salıb, bu nalayiq sözləri gözünün qabağında dedikləri halda, o gün o Həzrətin bundan artıq bir çarəsi qalmadı və buyurdu: "Yanımdan durun." Əgər yazmağa israr etsəydi, onlar da "sayıqlayır" – deməklə inad və höcət edəcəkdilər ki, onların tərəfdarları da (nəuzubillah) Peyğəmbərin (s) ömrünün axırında dəli olmasının

---

[1] "Həşr", ayə 7.
[2] "Təkvir", ayə 22.
[3] "Haqqə", ayə 40-43.
[4] İbni Əbil-Hədid, "Nəhcül-bəlağənin şərhi", 3-cü cild, 114-cü səhifə.

sübutunda ciddi "çalışmaqla" onun (s) sözünün və ondan dəlil gətirənlərin rəddi əsasında qalaq-qalaq kitablar yazardılar!

Buna görə də o Həzrət çox böyük uzaqgörənliklə bir şey yazmaqdan imtina etdi və beləliklə, müxaliflər və onların tərəfdarlarına nübüvvətə qarşı təhqir üçün bir zəmin yaranmasının qarşısını aldı (nəuzubillahi və bihi nəstəcir)! Digər tərəfdən Peyğəmbər (s) bilirdi ki, Əli və dostları (pak səhabə) o yazının məzmunundan agahdırlar, istər yazsın, istər yazmasın. Yaxşı bilirdi ki, müxaliflər isə ona əməl etməyəcək və onu mötəbər bilməyəcəklər. Bu acı həqiqətə əsasən, belə bir vəziyyətdə yeganə yol yazmamaq və onu tərk etmək tələb idi. Çünki, o yazı özündən sonra o etiraz, ixtilaf və fitnədən başqa bir şeyi bəşarət vermirdi. Bu həqiqət isə heç kəsə gizli deyildir. Vəssalam.

***"Ş"***

# *HƏŞTAD YEDDİNCİ MƏKTUB*

9 Rəbiəl-Əvvəl, 1330

***Həqiqətdən üzr və bəhanə ilə sapınma.***

Bəlkə o həzrət mürəkkəb qabı və kağız hazırlamaq əmrini verəndə bir şey yazmaq yox, məqsədi onları sınamaq olmuşdur, bilsin ki, onların fikri inkişaf və tərəqqi edibmi[1] (başa düşəcəklərmi ki, o həzrət hər şeyi buyurub, ya yox)? Bu vaxt Allah Öməri hidayət etdi ki, bu məsələyə diqqət yetirsin (belə ki, hər şey Allahın kitabında verilmişdir), amma səhabə isə bu məsələyə diqqət yetirmədilər. Elə buna görə də onları mürəkkəb qabı və kağız gətirməyə qoymadı.

Beləliklə, sizin nəzərinizdə boyun qaçırmaq kimi görünən bu işlər, Allah-təalanın nəzərində Ömərin kəramətlərindən hesab olunur və böyük alimlərin bəziləri iradınıza belə cavab vermişlər. Amma insaf budur ki, "ondan sonra heç vaxt yolunuzu azmayasınız" – sözü bu mənanı ehtiva etmir, çünki bu cümlə ikinci əmrin (kağız-qələm gətirin) cavabıdır. Bəs, hədisin mənası belə olacaq: "Əgər mürəkkəb qabı və kağız gətirsəniz, sizin üçün bunu yazaram: heç vaxt yolunuzu azmazsınız."

Buna da diqqət yetirmək lazımdır ki, belə bir mətləbin sınaq üçün deyilməsinin özü bir növ açıq-aydın yalandır və peyğəmbərlər bu sözlərdən və günahlardan çox-çox uzaqdırlar. Xüsusilə, o yerdə ki, deməmək deməkdən yaxşıdır (Allahın buyuruğuna müvafiq olaraq). Əlbəttə, verilən cavab müxtəlif cəhətlərdən mülahizə oluna bilər və qənaətbəxş deyil. Buna görə də, burada başqa bir üzr gətirmək lazımdır. Cavabı belə olar ki, burada Peyğəmbərə (s) bu iş vacib deyildir ki, onu tərk etmək haram olsun və ya heç kəsə onu rədd etmək və bu haqda danışmaq caiz olmasın və imtina edən günahkar olsun. Əksinə, bu bir növ "irşadi əmr" idi ki, əshab Peyğəmbərlə bu barədə söhbət etmişdi, xüsusilə Ömər. Çünki o, bilirdi ki, məsləhətləri dərk etməklə savab qazanır və düzgün yol tutur. Bunun özü isə Allah tərəfindən Ömərə olunan bir ilhamdır. Buna görə də Peyğəmbəri çox istədiyindən istəmişdir ki, o həzrətə ağır yük olmasın və xəstəliyinin belə bir şiddətli vaxtında bu məktubun imlası onun əziyyətinə səbəb olmasın. Beləliklə, Ömər gördü ki, mürəkkəb qabı və kağız verməmək daha münasibdir.

Bu da ola bilər ki, bəlkə də qorxmuşdur ki, Peyğəmbər (s) elə mətləblər yazsın ki, xalq ona əməl etməkdə aciz olub əzaba düçar olalar. Çünki "nəss" olan yerdə, ictihad üçün yer qalmır (yəni, Həzrətin buyuruğundan sonra mütləq əməl etməlidirlər).[2]

Bəlkə də münafiqlərdən qorxmuşdur ki, Peyğəmbərin (s) xəstəliyi zamanı yazdığı məktubun düzgünlüyünə irad tutsunlar. Bu isə yeni bir fitnəyə səbəb olardı. Buna görə də dedi: «حَسْبنا كتابُ الله» "Allahın kitabı bizə bəsdir." Çünki Allah buyurub: "Biz kitabda heç nəyi unutmamışıq" və həmçinin buyurmuşdur: «اَلْيَوْمَ اَكْمَلْتُ لَكُم دينَكُم» "Bu gün sizin dininizi kamil etdim..." Beləliklə, Ömər dinin kamil və nemətin tamam olduğu üçün ümmətin yol

---

[1] Bu sözü deyənlər, doğrudan necə də utanmazdırlar! Əvvəla, belə bir vəziyyətdə heç o sözün yerimi idi. İkincisi, əgər Peyğəmbərin belə bir fikri olsaydı, onu "həccətül-vida"da, yüz min hacının müqabilində deyərdi. red.

[2] Nə qədər gülüncdür. Bu sözü deyən heç başa düşməyib ki, bu sözün özü aşkar olaraq "nəss müqabilində ictihad"dır! Görəsən Allah və peyğəmbəri Öməri nə vaxtdan özünə müşavir, məsləhətçi seçmişdir?! Əgər məsləhət başa düşən idisə, elə Peyğəmbərin əmrinə qulaq asaydı. Həzrətin əmrindən də ağıllı məsləhət ola bilərdimi?! red.

azmamağından arxayın idi (buna görə də, yol azmağın qarşısını almaq üçün mətləbin yazılmasına ehtiyac hiss etmədi).

Bunlar sünni alimlərinin dedikləri idi. Əlbəttə, gördüyünüz kimi, onlarda irad və bəhsə yer vardır. Çünki «لا تضلّوا» – ibarəti "yolunuzu azmayasınız" mənasınadır ki, vacib əmrdir (movləvi əmr) və onu tərk etmək isə haramdır. Peyğəmbərin (s) –əmrindən çıxdıqlarından narahat olduqda– onlara "qalxın" – deyə buyuruğu da, yenə vacib əmrdir və irşadi əmr deyildir.

Ola bilər etiraz edəsiniz ki, əgər vacib olsaydı, Peyğəmbər (s) özü onu (onların müxalifətinə baxmayaraq) tərk etməzdi. Necə ki, öz təbliğatını kafirlərin müxalifətinə baxmayaraq tərk etmədi.

Onun cavabını belə vermək olar ki, bu söz əgər düz olsa, təkcə o deməkdir ki, onu yazmaq Peyğəmbərə (s) vacib olmamışdır. Bu fikrin mürəkkəb qabı və kağız gətirmə əmri ilə bir ziddiyyəti yoxdur. Əmr, yalnız məmura vacibdir, əmr verənə yox, ələlxüsus əmrin faydası məmura çatarsa. Bizim sözümüzə gəldikdə isə, bu məsələ oradakılara vacib olmuşdur, Peyğəmbərə yox.

Ola bilər ki, onun özünə də vacib imiş. Amma tabe olmamaq və "sayıqlayır" etirazları onun vacibliyini Həzrətin üzərindən götürmüşdür. Çünki bu halda yazmağın, dediyimiz kimi, fitnədən başqa heç bir nəticəsi olmayacaqdı.

Bəziləri də üzrü belə açıqlayırlar ki, Ömər bu hədisdən başa düşməyibdir ki, o yazı bütün ümmətin tək-tək fərdlərinin zəlalət və yolunu azmaqdan qorunması üçün idi, belə ki, ondan sonra heç kəs yolunu azmasın. Əksinə «لا تضلّوا» "yolunuzu azmayasınız" – cümləsindən elə başa düşüb ki, bütün ümmət (kiçikdən böyüyə qədər) bir olduğu halda yoldan azmayacaqlar. Halbuki Ömər bilirdi ki, ümmətin xəta və zəlalət üzrə cəm olmaları mümkün deyildir. Belə isə güman edib ki, Peyğəmbər (s) ümmətə olan məhəbbət, rəhm və lütfündən onların əyri yola düşməmələri üçün bir daha tam ehtiyatla onu təkrar etmək istəyir. Ona görə də, o sözü Rəsulullahın öz fərmanına uyğun olaraq deyibmiş. Bu əsasda deyilən əmr isə vacibliyə dəlalət etmir. Əksinə, yalnız mərhəmət və həssaslıq üzündən olan əmr sayılır.

Bunların hamısı o hadisə ilə əlaqədar deyilən üzr (və bəhanələr) idi. Amma, məncə, o hədisə diqqətlə yanaşan başa düşür ki, bunların hamısı həqiqətdən uzaqdır. Çünki "yolunuzu azmayasınız" – ifadəsi dediyimiz kimi, vacib əmri bildirir və Peyğəmbərin (s) onlardan narahatlığı ilə vacib bir əmri tərk etmələrinə dəlalət edir.

Sonda ən rahat çıxış yolu budur ki, belə deyilsin: Bu hadisə, adətən ağızdan qəfil çıxan söz və ya adamdan təsadüfən nadir hallarda baş verə bilən xass bir hala bənzəyir. Elə bir təsadüfdür ki, onların həyat tərzi və yüksək xüsussiyyətlərinə əks olub, baş verdiyi dəqiq, müfəssəl məlum olmayan bir hadisədir. Allah isə düzgün yola hidayət edəndir. Vəssalam.

***"S"***

# *HƏŞTAD SƏKKİZİNCİ MƏKTUB*

11 Rəbiül-Əvvəl 1330

***Belə “üzrxahlıq” qəbul deyildir.***

Bəli, iman gücü ilə zinətlənib, haqq üzrə mühakimə yürüdən şəxs elə haqq üzrə hökm edərək, düzgün danışmağa da layiqdir.

Bu üzrxahlıq bəhanəsinin cavabında – sizin buyurduqlarınızdan başqa surətlər də vardır ki, onları sizə yazaraq, bu barədə hökm vermənizi öz öhdənizə qoymaq istəyirəm.

Onlar (sünni alimləri) birinci cavabı belə verdilər ki, “Peyğəmbəri-əkrəm mürəkkəb və kağız gətirilməyini əmr etdikdə, heç də bir şey yazmaq istəmirdi, yalnız onları imtahana çəkmək niyyətində idi. Biz isə sizin buyurduqlarınıza əlavə olaraq bu sözü: Bu tələb o həzrətin ömrünün son saatlarında idi (atam-anam ona qurban olsun) və hədis də aşkar buna işarə edir” – deyirik. Deməli, o zaman heç bir imtahan və sınaq vaxtı deyildi, bəlkə, höccətin tamamlandığı, mühüm işlərə vəsiyyət və ümmətə ediləcək kamil bir nəsihət vaxtı idi. Son dəqiqələrini yaşayıb ölüm yatağında olan heç vaxt zarafat etməz, xüsusilə də əgər bu şəxs Peyğəmbər olmuş ola. Əgər o həzrət bütün həyatı boyu onları imtahan etməyə imkan tapmayıbsa, bəs “ehtizar” (ölüm) halında bu fürsəti necə tapdı? Bundan əlavə, o cür səs-küydən sonra Peyğəmbərin (s) “Qalxın!” – deməyi o həzrətin onlardan narahat olmasına aşkar dəlildir. Peyğəmbərin əmrinin yerinə yetirilməsinə mane olanlar düz yolda olsaydılar, o zaman həzrət onların bu hərəkətlərindən sevinməli idi. Bu hədisi (xüsusilə də “Peyğəmbər sayıqlayır” cümləsini) diqqətlə nəzərdən keçirən şəxs onların Peyğəmbərin (s) elə bir mətləb yazmaq istədiyindən xəbərdar olub, bu işdən xoşlanmadıqlarını və elə buna görə də, o nalayiq sözləri həzrətə rəva bilib hüzurunda səs-küy qaldıraraq ixtilaf salmağa başladıqlarını, yəqin başa düşüb dərk edəcəkdir. Bu hadisəni böyük müsibət hesab etdiyindən ötrü İbn Abbasın ağlamağı onların cavablarının batilliyinə tutarlı sübutdur.

Digər bəhanə də deyilir: Ömər məsləhətləri tanımaqda düzgün yol seçmişdi və Allah tərəfindən ona ilham olunurdu. Amma bu elə bəzəkli bir sözdür ki, əməldə ona etina etmək olmaz. Çünki o sözün mənası budur ki, (mübahisə zamanı) haqq onunla olub, Peyğəmbərlə (s) deyildi, ona olunan ilham, Cəbrailın peyğəmbərə gətirdiyi vəhydən belə üstün idi.[1]

Yenə də demişlər ki, Ömərin Peyğəmbərə (s) olan məhəbbəti o yazını yazmaqla həzrətin məşəqqət və əziyyətə düçar olacağına, eləcə də xəstə halda yorğunluqla üzləşəcəyinə mane olmuşdu. Amma siz bilirsiniz ki, bu vəsiyyətin yazılması Peyğəmbərin (s) qəlbinin aramlığı və ümmətin yolunun azmamasını təmin edən bir əmr idi. Bundan əlavə, o yazı, həzrətin heç kəsin onu rədd etməyə haqqı olmadığı bir fərmanı idi. Həzrət mürəkkəb və kağız gətirilməsini əmr etmişdi. Beləliklə, heç kəsin o həzrətin əmrindən boyun qaçırmağa haqqı yox idi. Bu barədə müqəddəs kitabımız Qurani-kərim buyurur: وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالًا مُّبِينًا “Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək (ayrı cür hərəkət etmək) caiz deyil. Allah və Onun peyğəmbərinə qarşı çıxan kəs, şübhəsiz ki, haqq yolundan açıq-aydın azmışdır!”[2]

---

[1] Məgər Peyğəmbərin sözü hər bir halda höccət deyilmi? Elə isə Ömərin Peyğəmbərin hüzurunda bütün müsəlmanların adından məsləhət verməyinə ehtiyac vardımı?! Həmçinin, sizin “əşairə” əqidənizlə məsələyə yanaşsaq, Ömərin bu hərəkəti açıq-aşkar “nəss müqabilində ictihad”dan başqa bir şey deyildir. red.

[2] “Əhzab”, ayə 36.

Həmçinin, belə mühüm işdə Peyğəmbərin əmrinə qarşı çıxmaq, səs-küy, qovğa salmaq ümmət üçün yazılacaq vəsiyyətdən (Peyğəmbərə) daha çətin idi. Doğrusu, o həzrətin bir şey yazması üçün yorulmağına razı olmayan, şəxs onun əmrini rədd edərək "sayıqlayır" kəlməsini necə dilə gətirdi?

Amma Ömərin "bizə Allahın kitabı bəsdir (yetər)" – cümləsini Allah təbarək və təalanın "Biz bu kitabda hər bir şeyi yazmışıq" və ya "Bu gün sizin dininizi kamil etdim" – ayələri mənasına yozmaq düzgün deyildir. Çünki bu iki ayə azmaqlıqdan amanda qalmaq mənasını bizə yetirmir, həm də camaatın hidayətinə heç bir zəmanət vermir. Beləliklə, bu iki ayəyə etimad edərək o məktubun (vəsiyyətin) yazılması üçün necə səy etməmək olmaz?

Əgər müqəddəs Quranın vücudu zəlalət və azğınlıq nicatı olsa idi, indi bu ümmətdə heç bir zəlalət və təfriqə (ki, bunların aradan getməyinə ümid yoxdur) tapılmazdı.[1]

Axırıncı cavabda isə belə demişlər: Ömər hədisdən başa düşməmişdir ki, gələcəkdə bu yazı ümmətin hər bir fərdinin hifzinə səbəb olacaqdır, yalnız belə başa düşmüşdür ki, bu vəsiyyət (məktub) yazıldıqdan sonra ümmətin zəlalət üzrə (bir yerə) toplanmayacağına səbəbdir. Digər tərəfdən Ömər bilirdi ki, kağız yazılsa da, yazılmasa da bu iş (ümmətin zəlalət üzrə bir yerə toplanışı) baş tutmayacaqdır və elə buna görə də o gün kağız-qələm gətirilməsinin qarşısını alıb o sözləri dilinə gətirdi.

Lakin, sizin işarə etdiyiniz mülahizənin başqa bir iradı var. O da bundan ibarətdir ki, Ömər o qədər də dərrakəsiz adam deyildi ki, bütün adamlara gün kimi aydın olan bir şey ona gizli qalmış olaydı. Çünki, (istər kəndli, istər şəhərlinin) o yazının yazılmasının bütün adamların zəlalətdən qurtulmasına səbəb olacağını başa düşür. Bu mətləb oradakıların zehnindən sovuşurdu və Ömər də yəqin bilirdi ki, Peyğəmbərin öz ümmətinin zəlalət üzrə bir yerə yığılmasından qorxusu yoxdur. Çünki özü dəfələrlə bu barədə buyurmuşdu: "Mənim ümmətim zəlalət üzrə bir yerə toplanmaz", "Mənim ümmətim xəta üzrə bir yerə toplanmaz", "Ümmətimdən bir tayfa həmişə haqqı tapmaqda qalibdir" və Allah-təala buyurmuşdur: "Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar (mö'minlər) üçün onların Allahın Özü bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra əmin-amanlıqla (arxayınçılıqla) əzəv edəcəyini və'd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir!"

Kitab və sünnədə bir çox açıq-aşkar "nəss"lər vardır ki, aydınlıqla bunu təsdiqləyir: "Ümmətin hamısı zəlalət üzrə bir yerə toplaşmazlar." Beləliklə, Ömərin kağız gətirilən zaman Peyğəmbərin ümmətinin zəlalət üzrə bir yerə toplanmasından qorxması fikri heç də ağlasığan bir şey deyildir. Ömər də o hədisdən başqalarının başa düşdüyünü anlayır və Quran və sünnənin buyurduqlarının əksini başa düşmürdü.

Bütün bu deyilənlərdən əlavə, Peyğəmbərin narahat olması ("Qalxın!" sözündən başa düşülür), onların tərk etdikləri əmrin vacib olmasına bariz dəlildir və əgər Ömərin Peyğəmbərə

---

[1] Sən –Allah sənin vasitənlə haqqı qorusun– özün yaxşı bilirsən ki, Peyğəmbərin məqsədi əhkam yazmaq olmamışdır ki, cavabında əhkamı başa düşməkdə Allahın kitabı bizə bəsdir – deyilsin. Həzrətin məqsədi elə əhkam yazmaq da olsaydı, bəlkə elə Peyğəmbərin bu göstərişi onların zəlalətdən qurtuluşuna səbəb olacaqdı. Buna görə də Quranla kifayətlənmək naminə qələm-kağıza etinasızlıq etmək əsla caiz deyildi. Hətta əgər bu yazının zəlalətdən qurtuluş tapmaqdan başqa heç bir təsiri olmasaydı da belə, Quranın hər şeyi əhatə etməsini bəhanə edib onu tərk etməməli idilər. Siz özünüz yaxşı bilirsiniz ki, ümmətin sünnətə (Peyğəmbər hədislərinə) ehtiyacı olduqca çoxdur və elə də deyildir ki, hər şeyi əhatə edən Qurandan hökm çıxarmaq hər adama müyəssər olsun. Əgər Quranın Peyğəmbərin bəyanına ehtiyacı olmasaydı, Allah ona Quranı bəyan etmək barəsində əmr buyurmazdı: "Biz Quranı sənə nazil etdik ki, onu camaata bəyan (izah) edəsən." ("Nəhl", 44)

olan etirazı hədisin başa düşülməsində olan səhvi ucbatından idisə (necə ki, belə deyirlər), Peyğəmbər (s) onun şübhəsini aradan qaldırar, həm də öz məqsədini ona bəyan edərdi, hətta onları qane edə bilsəydi, daha (otaqdan) çölə çıxarmazdı. İbn Abbasın o cür ağlayıb-sızıldaması sadaladıqlarımıza ən böyük dəlildir.

İnsaf budur ki, bu müsibətin üzünü üzr və bəhanə gətirməklə ağartmaq olmaz və əgər siz buyurduğunuz kimi, "bu bir xass məsələdir ki, təsadüfən baş verib, necə ki, hərdən ağızdan bəzi sözlər çıxır ki, çox nadir hallarda deyilir" – olsaydı, asan bir iş olardı. Amma elə bircə bu sözün özü Öməri aradan aparmış, kəmərini sındırmışdır. «انا لله و انا اليه راجعون و لا حول و لا قوة الا بالله العلي العظيم»

**"Ş"**

# *HƏŞTAD DOQQUZUNCU MƏKTUB*

14 Rəbiül-Əvvəl 1330

***1. Bu üzrxahlığın səhv olmasına etiraf.***

***2. Başqa halların da istənilməsi.***

1. Yolu bəhanə axtaranların üzünə bağlayaraq onlarla öz nəzərləri arasında bir səddə çevrildin, beləliklə, buyurduqlarında şəkk-şübhəyə və irada yer qalmadı.

2. Belə isə, öz yoluna davam et və səhabənin “nəss”ləri təvil (təfsir) etdikləri başqa halları da göstər. Vəssalam.

***“S”***

# *DOĞSANINCI MƏKTUB*

17 Rəbiül-Əvvəl 1330

***Üsəmənin səriyyəsi (başçılığı altında döyüş).***

Əgər uca səslə haqdan danışıb bu yolda camaatın məlamətindən (dedi-qodusundan) çəkinmirsənsə, yeri var. Çünki, sən xalqın sözlərinə etimad bəslədiyi ümid yeri, pənahgahısan. Belə ki, onlar sənin nəzəriyyələrin olan yerdə başqalarından büsbütün biniyazdırlar. Sənin dəyərin haqqı batillə qarışdıranlardan çox üstündür. Məqamın haqqı gizlətməkdən uca, şan-şövkətin isə bundan çox alidir. Ruhun isə bu çirkablara bulaşmaqdan daha pakdır.

Allah sənin izzətini artıq etsin, mənə əshabın şəxsi fikirlərini, Peyğəmbərin (s) əmrlərinə itaət etməkdən üstün saydıqları halları, sənin üçün yazıb göndərməyimi əmr etmisən.

Bu barədə təkcə Üsamə ibn Zeyd ibn Harisənin səriyyəsini (rumlularla döyüşə göndərilmişdi) mütaliə etməyin kifayətdir. Bu səriyyə Peyğəmbərin (s) zamanındakı sonuncu səriyyə idi və Peyğəmbər ona (rumlularla münasibətə) çox əhəmiyyət verirdi. O Həzrət öz əshabına döyüşə hazırlıq barədə əmr verib, onları döyüşə təhrik etdi. Belə ki, Peyğəmbər özü şəxsən onları təchiz etmişdi. Möhkəm, əzmlə döyüşə girişmələri üçün, hətta mühacir və ənsardan bəzi böyük şəxsiyyətləri – Əbu Bəkr, Ömər,[1] Əbu Übeydə, Səd və başqalarını hazır edib onun Üsamənin ordusuna yolladı.

Bu hadisə 11-ci hicri ili səfər ayının axırına dörd gün qalmış baş vermişdi. Peyğəmbər ordunun vəziyyətindən xəbərdar olandan sonra sübh vaxtı Üsaməni yanına çağırıb, ona buyurdu: “Atanın şəhid olduğu yerə gedib atını onların (düşmənlərin) torpaqlarında çap. Mən bu ordunun sərkərdəliyini sənə tapşırdım.[2] Sübh vaxtı “Ubna” məntəqəsinə[3] həmlə edib onları mühasirəyə al! Amma elə et ki, onlar xəbər tutmamış döyüş meydanına yetişəsən. Əgər Allah səni qalib etsə, onların arasında az qal. Özünlə yol bələdçilərini də götürməyi unutma. Casusları, növbətçiləri özündən qabaq irəli ver.” Səfərin 28-i o həzrətin xəstəliyi (bir daha sağalmadı) başladı və qızdırma həzrətin bütün bədənini bürüdü. 29-cu günün səhəri ordunun çox süst olduğunu müşahidə edən Peyğəmbər, şəxsən özü ordunun yanına gələrək onları hərəkətə vadar etdi. Onların əzmlərini daha da möhkəmləndirməkdən ötrü bayrağı öz əli ilə büküb Üsaməyə verərək ona belə buyurdu: “Allahın adıyla, Allah yolunda döyüş və Allaha kafir olanları yer üzündən sil, at.” Üsamə bükülmüş bayraqla Mədinədən çıxıb, onu (bayrağı)

---

[1] Tarix, “sirə” və “xəbər” yazanların hamısı bu fikirdədilər ki, Əbu Bəkr və Ömər də bu orduda idilər. Onlar yekdilliklə bu mətləbi (şəksiz-şübhəsiz olaraq) öz kitablarında qeyd etmişlər. Bu barədə heç kəs ixtilaf etməmişdir. Bu barədə İbn Sədin “Təbəqat”, “Tarixi-Təbəri”, “Tarixi-İbn Əsir”, “Sirəyi-Hələbi”, “Sirəyi-Zeyni-Dəhlan” və s. kitablarına müraciət edə bilərsiniz.

Hələbi öz “Sirə”sinin 3-cü cildində yuxarıdakı “səriyyə” barəsində yazarkən lətif (duzlu) bir dastan da nəql etmişdir: “Abbasi xəlifəsi olan Mehdi Bəsrəyə daxil olarkən Əyas ibn Müaviyəni gördü (Əyasın huşyar və, zirəkliyi dillərdə zərbül-məsələ çevrilmişdi). O, elə bir cavan idi ki, əbalı-qəbalı dörd yüz nəfər alim onun ardınca hərəkət edirdi. Mehdi dedi: Tfu bu saqqallara! Görəsən onların arasında bir qoca yox idimi ki, bu cavanı qabağa veriblər? Sonra Mehdi üzünü cavana tutub soruşdu ki, sənin neçə yaşın var? Cavab verdi ki, mənim yaşım Üsamə ibn Zeydin Əbu Bəkrlə Ömərin də bu orduda olduğu zaman yaşı neçə idisə, o qədərdir. Mehdi də dedi ki, (belə olan surətdə) buyur (gəl), Allah (bu məqamı) sənin üçün mübarək etsin.” Hələbi yazır ki, o zaman onun 17 yaşı var idi.

[2] Ömər Üsaməyə deyərmiş ki, Peyğəmbər dünyadan gedən zaman sən mənim əmirim (başçım) idin. Bu mətləbi bir çoxları, o cümlədən Hələbi öz “sirə”sində (və başqa hədis və xəbər yazanlar) nəql etmişlər.

[3] “Ubna” Suriyanın ərazilərindən biri olub, Əsqəlan və Rəmlə arasında (Mutə yaxınlığında) yerləşir və Zeyd ibn Harisə və Cəfər ibn Əbu Talib (behiştdə iki qanadı olacaqdır) orada şəhadətə yetişmişlər.

Büreydəyə tapşırdı və özü isə Curufda düşərgə qurdu. Orada da həzrətdən ezam barədə çoxlu əmrlər eşitmələrinə baxmayaraq, hərəkət etməkdə süstlük göstərdilər. Məsələn, “Sübh çağı Ubna əhalisinə həmlə et.” Ya “sürətlə hərəkət et ki, onlara xəbər çatmamış döyüş meydanına yetişəsən” və bir çox başqa əmrlər ki, o səriyyədə onlara əməl olunmadı. Bəziləri böyük bir ordunun sərkərdəliyinin Üsaməyə tapşırılmasına irad tutmağa başladılar. Halbuki onlar, Peyğəmbərin (s) ordunun əmirliyini ona tapşıraraq buyurduğunu görmüşdülər: “Bu ordunun vilayət və rəyasətini sənə tapşırdım.” Həmçinin görmüşdülər ki, Peyğəmbər qızdırmalı halda gəlib bayrağı ona verdi. Amma bütün bunlara baxmayaraq, yenə də ona irad tutmaqdan, tənə vurmaqdan usanmadılar. Axırı ki, Peyğəmbər özü irad tutanlara qarşı bərk hirsləndi və başını dəstmalla bağlamış[1] və qızdırmadan əziyyət çəkdiyi bir halda evdən çıxdı ki, onları bu xilaf işdən çəkindirsin. Bu hadisə şənbə günü, o həzrətin vəfatından isə iki gün əvvəl baş verdi. Peyğəmbər (s) əsəbi halda onların yanında minbərə qalxdı. Allaha həmd-səna etdikdən sonra (necə ki, hədis nəql edənlər bu məsələdə yekdil nəzərə malikdirlər və həzrətin bu sözləri deməsində heç bir şəkk-şübhələri yoxdur) buyurdu: “Ey camaat! Bu nə sözdür ki, mən sizdən Üsamənin sərkərdəliyi haqqında eşidirəm? Əgər indi onun əmirliyinə irad tutursunuzsa, əvvəllər də atasına tənə vururdunuz. «وَ اَيْمُ الله ان كان لَخَليقاً بالاِمارة وَ ان ابْنَه مِن بعده لخليقٌ بها» Allaha and olsun ki, o (Üsamənin atası), əmirliyə və sərkərdəliyə layiq idi, necə ki, indi oğlu da bu işə layiqdir.” Sonra həzrət onları hərəkət etməyə vadar etdi. Ordu həzrətlə vidalaşaraq (bəziləri) Curufa yollandı. Həzrətin xəstəliyi şiddətləndi. Elə, hey buyururdu: “Üsamənin ordusunu hərbi sürsatlarla təchiz edin.”, “Üsamənin ordusunu yollayın (getsin)”, “Üsamənin ordusunu göndərin”.

Həzrətin bu əmrləri dönə-dönə buyurmasına baxmayaraq onlar yenə süstlük göstərdilər. Sonra Üsamə yenə Peyğəmbərin hüzuruna qayıtdı. Peyğəmbər (s) ona getmək əmrini verib buyurdu: “Allahın bərəkət və rəhməti sənə yar olsun!” Üsamə həzrətlə vidalaşıb orduya yollandı və daha sonra Ömər Əbu Übeydə ilə birgə Peyğəmbərin yanına qayıtdılar. Onlar həzrətin yanına çatdıqda, artıq Peyğəmbərin son dəqiqələrini yaşadığının şahidi idilər (elə həmin gün o həzrət vəfat etdi). Bu zaman Üsamənin ordusu Mədinəyə qayıdaraq bu səfəri tamamilə ləğv etmək qərarına gəldilər. Bu barədə Əbu Bəkrlə söhbət etdilər, halbuki Peyğəmbərin bu işə olan təkidini öz gözləri ilə görmüşdülər. Əgər Əbu Bəkr olmasaydı, onların hamısının nəzəri döyüşdən geri qayıtmaq idi. Əbu Bəkr isə bu işə qol qoymurdu. Elə ki, gördülər xəlifə ordunu göndərmək istəyir, Ömər ibn Xəttab onun yanına gələrək, Üsaməni çıxarıb yerinə başqasını təyin etməsini tələb etdi. Halbuki, Peyğəmbərin tənə vuranlara müraciət edərək buyurduğu sözlərin üstündən o qədər də çox ötməmişdi. Bütün o (Peyğəmbərin) təkidlərdən, həzrətin onların qəlblərindəki kin və küdurəti yox etmək niyyəti duyulur. Amma onların qəlblərində isə yenə də kin var idi, belə ki, o həzrətin vəfatından sonra Üsamənin çıxarılmasını istədilər. Lakin, xəlifə onun bu işdən azad olunmasına qol qoymayıb onların istəyini (ordunun geri döndərilməsi təklifini) rədd etdi.

Onların israrı gücləndikdə xəlifə narahat oldu və irəli sıçrayaraq Ömərin saqqalından yapışdı[2] və dedi: “Anan matəmində otursun, səni bir daha yer üzündə görməsin ey Xəttabın oğlu! Peyğəmbərin əmir təyin etdiyini, mənə deyirsən ki, (əmirlikdən) çıxarım?”

---

[1] Bu səriyyəni nəql edən hədisçilərdən və “sirə” yazanlardan hər biri Üsamənin əmirliyini onların tənə vurması və Peyğəmbərin çox əsəbiləşməsi və onları danlamaq üçün (o vəziyyətdə) yanlarına gəlmək məcarasını öz kitablarında qeyd etmişlər. Həmçinin, o həzrətin bu barədə buyurduğu xütbəni də zikr etmişlər. Bu barədə İbn Sədin “Təbəqat”, “Sirəyi Hələbi” və “Sirəyi-Zeyni-Dehlan” və s. kitabların “Üsamənin səriyyəsi” babına müraciət edə bilərsiniz.

[2] Hələbi və Zeyni-Dehlan öz “sirə” kitablarında və İbn Cərir Təbəri “Tarix”in “11-ci hicri ilin hadisələri” babında və digər xəbər yazanlar bunu nəql etmişlər.

Sonra orduya hərəkət əmri verildi, halbuki getmək istəmirdilər. Üsamə min nəfəri süvari olan üç min döyüşçü ilə hərəkət etdi. Onlardan bəzilərini o vaxt Peyğəmbər özü yaraqlayıb-yasaqlayıb yola salsa da, Üsamə ilə getmədi. Halbuki Peyğəmbər (s) –Şəhristani öz "Miləl və Nihəl" kitabının dördüncü müqəddiməsində yazdığı kimi– buyurmuşdu: "Üsamənin ordusunu yaraqlandırın! Allahın nifrini və lənəti olsun Üsamənin ordusundan boyun qaçıranlara!"

Siz yaxşı bilirsiniz ki, onlar bu işdə süstlük göstərməklə öz siyasətlərinin özüllərini möhkəmləndirib, sütunlarını bərqərar etməkdən ötrü bu işdən boyun qaçırdılar. Burada öz nəzəriyyələrini "nəss"ə boyun əyməkdən daha üstün saydılar. Çünki öz istəklərini hifz edib qorumaq onlara sərf edirdi, belə ki, ordudan boyun qaçırmaları ilə orduya bir zərər dəymirdi. Amma Peyğəmbərin əmrinə tabe olub, o həzrətin vəfatından qabaq döyüşə yollansaydılar, xilafət əllərindən çıxacaqdı.

Peyğəmbər (s) (atam-anam ona fəda olsun) onların Mədinədə mərkəzləşməsini istəmirdi, belə ki, o həzrətin arzusu arxayınlıqla xilafəti Əmirəl-möminin Əli ibn Əbu Talibin (ə) ixtiyarına qoymaq idi. Çünki onlar qayıdanadək xilafət, artıq o həzrətin əlində olub, söz-söhbət isə yatacaqdı.

Peyğəmbərin (ə) 17 yaşlı Üsaməni onlara əmir təyin etməsi[1] isə bəzilərinin yersiz qürurunu sındırıb, mütəkəbbirləri öz səhv yollarından qaytarmaq, eləcə də gələcəkdə olan bir sıra söhbətlərin kökünü kəsməkdən ötrü idi. Çünki ola bilərdi ki, bəzisi yaşının çoxluğunu şüar edib başqalarının (yaşca onlardan cavan olanlarının) onlardan irəli keçməsinə icazə verməsin. Amma onlar bu mənanı başa düşdüklərindən, Üsamənin əmirliyinə irad tutaraq, Peyğəmbərin vəfatına qədər hərəkət etməkdə süstlük göstərdilər və hərəkət etmədilər.

Gah döyüşün ləğvi və ordunun geri qaytarılması, gah da Üsamənin vəzifəsindən azad olunmasına dair qərar qəbul etdilər. Sonra isə ordudan bir çoxu boyun qaçırıb, onunla hərəkət etmədi.[2] Beləliklə, "Üsamənin səriyyəsi"ndə beş mətləbin "nəss"ə boyun əymədiyini, eləcə də öz nəzəriyyələrini (siyasi məsələlərdə, ictihad etməkdə) Peyğəmbərin (s) əmrlərinə tabe olmaqdan üstün saydıqlarının şahidi olursunuz. Vəssalam.

***"Ş"***

---

[1] Əlbəttə, bəziləri onun 18, ya 19 və ya 20 yaşı olduğunu demişlər, amma heç kim 20-dən çox olduğunu söyləməmişdir.

[2] Üsamə "Ubna"ya həmlə edib, evləri yandırdı, xurma ağaclarını kəsdi, onların torpaqlarında at çapdı, bəzilərini öldürdü, bəzilərini isə əsir tutdu. Üsamə o gün atasının qatilini öldürdü və Allahın lütfü sayəsində müsəlmanlardan bir nəfər də olsun, öldürülmədi. Üsamə həmin gün öz atasının atına minmişdi, şüarı isə "Ey ümmətin köməyi!" (Peyğəmbərin Bədr döyüşündəki şüarı) idi. Ələ keçən qənimətlərdən atlılara iki səhm, piyadalara isə bir səhm (pay) verib, özü üçün də o qədər götürdü.

# *DOĞSAN BİRİNCİ MƏKTUB*

19 Rəbiül-Əvvəl 1330

***1. Üsamənin səriyyəsində baş verən hadisələrin yozumu.***

***2. Bu ordudan boyun qaçıranların lənətlənməsi barədə bir hədisin mövcud olmaması.***

1. Bəli, doğrudur ki, Peyğəmbər (s) onları Usamənin ordusuna göndərib, vaxtı itirmədən döyüş məntəqəsinə hərəkət etmələrinə əmr verdi. Hətta Usaməyə buyurdu ki, elə günü bu gün, sübh çağı Ubnaya həmlə etsin (heç günortaya kimi də möhlət vermədi). Amma o həzrət birdən xəstələndi və xəstəliyinin şiddətindən halı pisləşdiyi üçün, onlar belə bir vəziyyətdə Peyğəmbəri (s) tək qoyub getməyə razı olmadılar. Peyğəmbərin halından xəbər tutmaq üçün Curufda bir müddət dayandılar və bu əməl Peyğəmbərə olan bağlılığın nişanəsi idi. Onların gözləməyini iki cür açıqlamaq olar: Ya Peyğəmbərin mübarək vücudunun salamatlığından arxayın olub, asudə hərəkət etmək istəyirmişlər, ya da o həzrətdən sonra gələcək xəlifənin hökumətinin əsaslarını möhkəmləndirmək məcburiyyətində qalmışdılar. Deməli, onlar bu qərarlarında üzrlü idilər və heç bir irad onlara tutula bilməzdi.

Amma onların Usamənin sərkərdəliyinə tutduqları irada gəlincə əlbəttə ki, onlar Peyğəmbərin vəfatından qabaq həzrətin Usamənin sərkərdəliyinə aid əmrlərin və ciddi rəftarının aşkar şahidi idilər. Onlar yalnız Usamənin yaşca onlardan çox cavan olmasına irad tuturdular. Çünki onlar dünya görmüş, saç-saqqalları ağarmış kişilər idilər. Bunu da bilirsiniz ki, qocalar öz fitrətləri üzündən cavanlara tabe olmağa, onların əli altında işləməyə nifrət edir və onlara heç vaxt təslim olmurlar. Beləliklə, onların Usamənin əmrliyindən boyun qaçırmaları, özləri tərəfindən olan bidət deyil, insan təbiətində olan fitri (zati) bir xüsusiyyətdir (diqqət edin!).

Amma Peyğəmbərin (s) vəfatından sonra Üsamənin sərkərdəlikdən azad edilməsi barədə onların xahişinə gəlincə isə, bəzi alimlər demişlər ki, onların fikrincə Əbu Bəkr bu nəzərlə razılaşacaq və onların nəzərinə əsasən Üsaməni işdən çıxaracaqdı. Bu da ki, alimlərin cavabları idi.

Amma insafla demək lazımdır ki, Peyğəmbərin (s) onların belə yersiz iradları müqabilində əsəbiləşməsindən sonra belə bir xahişin (Üsamənin əmirlikdən çıxarılması) haqqında əqlə sığışa biləcək bir yozum tapa bilmirəm. Bütün bu irad və tənələr o həzrəti o qədər əsəbləşdirdi ki, bədəni qızdırmalı, başı sarıqlı halda evdən məscidə gəlib minbərdə əyləşərək, uca səslə onların eybini özlərinə xatırlatdı. Sadaladıqlarımız tarixi həqiqətlərdir ki, hamı bunlardan xəbərdardır. Bu məsələnin düzgün yozumununu Allahdan başqa heç kim bilmir.

Ümumiyyətlə, bu döyüşün ləğv olunması təklifinə gəldikdə isə Peyğəmbərin bu barədə olan çoxlu sifarişlərindən agah olmalarına baxmayaraq, demək lazımdır ki, bu iş yalnız İslamı məhv etmək məqsədi daşıyırdı. Belə ki, ordu şəhərdən çıxdığı təqdirdə, şəhər ətrafındakı müşriklərin şəhərə hücum etmələrindən qorxurdular. Çünki Peyğəmbərin vəfat etməsi ilə bərabər nifaq aşkar olmuş, yəhudi və nəsranilərin qüvvəsi artmış, ərəb qəbilələrindən bəziləri mürtəd olmuş, bəziləri isə zəkat verməkdən boyun qaçırmışdılar. Məhz, bu baxımdan səhabə Əbu Bəkrlə söhbət edib Üsamənin bu səfərinin dayandırılmasını tələb etmişdi. Amma o (Əbu Bəkr), bu işə razı olmayıb demişdi: “Allaha and olsun, əgər belə etsəm (yırtıcı) quşların məni öz çənglərinə alıb tikə-tikə etməyi, Peyğəmbərin (s) əmrindən boyun qaçırmaqdan daha yaxşıdır.”

Bütün bu mətləbləri bizim əshab Əbu Bəkrdən nəql etmişlər. Amma onların Üsamənin səfərinin ləğv olunması xahişinə gəlincə, deməliyik ki, bu iş İslamın qorunması naminə idi, deməli, üzrləri qəbul olunmalıdır. Əbu Bəkr, Ömər və başqalarının Üsamənin ordusundan

boyun qaçırmaları İslam ölkəsinin möhkəmləndirilməsi, Peyğəmbərin hökumətinin, xilafətin qorunması naminə idi, belə ki, dini bundan başqa bir yolla qorumaq mümkün deyildi.

2. Amma Şəhristaninin "Miləl və Nihəl" kitabından nəql etdiyiniz hədisi biz "mürsəl" (yəni, sənədi bitməmiş) gördük. Hələbi və Zeyni-Dehlan da bu barədə öz "sirə" kitablarında yazırlar: "Bu barədə əsla, heç bir hədis nəql olunmamışdır. Əgər siz bu barədə sünni təriqi ilə nəql olunmuş hədisə rast gəlibsinizsə, lütfən onu bizə göstərin. Vəssalam.

***"S"***

## *DOĞSAN İKİNCİ MƏKTUB*

22 Rəbiül-Əvvəl 1330

***1. Onların bəhanələri söylədiklərimizlə zidd deyildir.***

***2. Şəhristanidən nəql etdiyimiz mətləb, müsnəd (sənədli) hədisdə gəlmişdir.***

1. Allah sizdən razı olsun, deməli, onların "Üsamənin səriyyəsi"ndə hərəkət etmələrində süstlük göstərdiklərini, bir müddət Curufda qalaraq hərəkət etməmələrini, halbuki vaxtı itirmədən hərəkət etməyə əmr olunduqlarını qəbul edirsiniz. Eləcə də onların Üsamənin əmirliyinə tənə vurub, irad tutmalarını da (baxmayaraq ki, onun əmirliyinin təyidi barədə dəfələrlə Peyğəmbərdən eşitmişdilər) qəbul edirsiniz. Həmçinin onların Əbu Bəkrdən Üsaməni vəzifəsindən çıxartmağı istəmələrini (halbuki, onlar Peyğəmbərin bu iradlardan əsəbiləşməyinin şahidi olmuşdular) də qəbul edirsiniz. Halbuki Peyğəmbərin (s) bu işin həyata keçirilməsinə nə qədər böyük əhəmiyyət verdiyinin şahidi idilər (məxsusən, ordunun sürətlə hərəkəti əmri!). Onlar bu barədə Peyğəmbərin (s) bir-birinin ardınca verilən əmrlərini eşitmişdilər. Həmçinin, Peyğəmbərin öz əli ilə yaraqlayıb, Üsamənin əmrlərinə tabe olmağı əmr etdiyi şəxslərin boyun qaçırmaları ilə də razılaşırsınız. Beləliklə hədisçilərin yekdilliklə qəbul etdikləri ilə siz də razılaşırsınız.

Amma onların boyun qaçırmaqda üzrlü olduqlarını söylədiyiniz sözlərin hasili bu idi ki, İslamın məsləhətini şəxsi nəzərlərinin tələb etdiyi kimi, (Peyğəmbərin əmrlərinə uyğun) əmrin icra olunmasından daha üstün sanmışlar. Elə biz də bundan artıq heç nə istəmirik. Başqa sözlə, bizim söhbətimizin mövzusu bundan ibarət idi ki, onlar bütün nəslərə boyun əyərək, itaət edirdilər, ya yox? Halbuki, sizlər həmişə birincini (yəni, bütün nəsslərə boyun əyirdilər), biz isə ikincinin doğru olduğunu demişik.

İndi isə sizin bu məsələni (yəni, onlar Peyğəmbərin bu əmrlərinə boyun əyməyiblər) etiraf etməyinizlə bizim dediklərimiz sabit olur. Amma onların məzur (üzrü) olub-olmamaları isə bizim bəhsimizdən xaricdir.

Üsamənin səriyyəsində onların öz şəxsi nəzərlərinə əsasən, İslamın məsləhətini "nəss"lərin tələb etdiyindən üstün saymaları sizin üçün sabit olduqda, bəs niyə həmin sözü Peyğəmbərdən sonrakı xilafətin haqqında söyləmirsiniz? Belə ki, onlar xilafət məsələsində də İslamın məsləhətini şəxsi nəzərlərilə ölçərək "qədir" və s. kimi hədislərdən üstün saydılar.

İrad tutanlar tərəfindən üzr gətirdiniz ki, onlar yaşlarının çoxluğu üzündən Üsamənin əmirliyindən boyun qaçırmışlar, çünki o, çox cavan idi. Buyurdunuz ki, qocalar öz fitri xüsusiyyətləri ucbatından cavanlara itaət etmirlər. Belə isə, həmin sözü niyə "qədir" "nəss"ləri (Əlinin (ə) azyaşlı olmasına baxmayaraq yaşlı qocalara əmir təyin edilmişdi) barəsində də söyləmirsiniz? Bu birinci dəfə deyildi ki! Axı, onlar düzgün xəbərlərə (hədislər) əsasən, Peyğəmbər (s) dünyadan köçən zaman Əlini də cavan, azyaşlı saydılar. Əlbəttə ki, hamıya hökumət etməklə, bir qoşuna sərkərdə olmaq arasında nə qədər fərq var! Deməli, əgər onlar neçə günlük döyüşdə bir cavana itaət etməyiblərsə, əlbəttə ki, bütün ömürləri boyu bir cavanın – həm dünya, həm də axirət işlərində itaətində olmaqdan boyun qaçırmalıydılar!

Amma siz bu sözü əgər ümumi surətdə söyləyirsinizsə, qəbul deyildir. Çünki mömin qocalar (kamil iman sahibləri) Allahın və Peyğəmbərin itaəti naminə heç vaxt itaətdən boyun qaçırmırlar. Nəinki cavanlara itaət etməkdən, hətta Allah-təalanın hökmünə boyun əymək

üçün hər bir şeyə təslim olmaqdan belə çəkinmirlər.[1] Qurani-kərim buyurur: فَلاَ وَرَبِّكَ لاَ يُؤْمِنُونَ حَتَّىَ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لاَ يَجِدُواْ فِي أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُواْ تَسْلِيمًا "(Ey Məhəmməd!) Sənin Allahına and olsun ki, onlar aralarında baş vermiş ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam itaətlə boyun əyməyincə (tam razı) iman gətirmiş olmazlar."[2] Başqa bir ayədə isə belə buyurur: وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ "Peyğəmbər sizə nə verirsə, onu götürün və nəyi qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir."[3]

2. Amma Üsamənin qoşununda hərəkət etməkdən boyun qaçıranların barəsindəki nəql etdiyimiz hədisi Şəhristani səhih saymış və nəql etmişdir. Əbu Bəkr Əhməd ibn Əbdül Əziz Cövhərinin "Əs-Səqifə" kitabında bu məsələyə işarə etdiyi nəzəri olduğu kimi burada dərc edirik: Həmid ibn İshaq ibn Saleh Əhməd ibn Səyyardan, o da Səid ibn Kəsir Ənsaridən, o da öz sənədiylə Abdullah ibn Əbdür-Rəhmandan belə nəql etmişdir: "Peyğəmbər elə xəstə olduğu zaman Üsamə ibn Zeydi mühacir və ənsardan toplaşmış olduğu orduya əmir təyin etdi. Bu qoşunda Əbu Bəkr, Ömər, Əbu Übeydə Cərrah, Əbdür-Rəhman ibn Ovf, Təlhə, Zübeyr xülasə, hamı iştirak edirdi. Sonra Həzrət, Üsaməyə "Mutə" məntəqəsinə (Üsamənin atası orada şəhid olmuşdu) gedərək Fələstin vadisində döyüşə girişməsini buyurdu. Amma həm Üsamə, həm də onun qoşunu ora getməkdə süstlük etdilər. Peyğəmbər (s) isə onların getməyinə təkid edirdi. Nəhayət, Üsamə o həzrətə belə ərz etdi: Atam-anam sənə fəda olsun, mənə icazə verirsənmi Allah sənə şəfa verənə kimi (bir neçə gün) burada qalım! Peyğəmbər isə cavabında belə buyurdu: Hərəkət elə, Allahın bərəkəti ilə qoşunu yola sal.Üsamə dedi: Axı səni bu halda qoyub necə gedim? Həzrət buyurdu: Müvəffəqiyyət üçün (naminə) hərəkət et. Üsamə dedi: Ey Allahın rəsulu, sənin əhvalını gələn karvanlardan xəbər almaq mənə çox çətindir. Mən buna görə həddindən artıq narahatam. Həzrət də ona belə buyurdu: Sənə əmr etdiklərimə əməl et. Bu zaman Peyğəmbər bihuş oldu. Üsamə də Mədinədən getməyə hazırlaşdı. Peyğəmbər huşa (özünə) gəldikdə, Üsamə və qoşunu barəsində soruşdu: Ona "getməyə hazırlaşır" – söylədilər."

Allahın rəsulu daim buyurardı: Üsamənin quşununu yola salın. Allah Üsamənin qoşunundan boyun qaçırana lənət eləsin. Üsamə hərəkət edəndə bayraq başının üst, səhabə də gözləri önündə idi. Curufa çatdıqda atdan endi, bu zaman Əbu Bəkr, Ömər və mühacirlərdən çoxu onunla idilər. Ənsarlılardan da Üseyd ibn Xüzeyr, Bəşir ibn Səd və başqaları orada idi. Bu vaxt Ümmü-Əymənin göndərdiyi qasid çaparaq gəlib Üsaməyə "Mədinəyə dönün" – dedi. Çünki, Peyğəmbər ölüm ayağındadır. Üsamə də gecikmədən Mədinəyə qayıtdı. Əlindəki bayrağı Peyğəmbərin (s) evinin qapısına sancdıqda Peyğəmbər də dünyadan köçdü."

Bu hədisi bir qrup tarixçilər, həmçinin Əllamə mötəzili ibn Əbil-Hədid "Nəhcül-Bəlağənin şərhi"nin ikinci cildinin 20-ci səhifəsindən sonra nəql etmişdi. Vəssalam.

***"Ş"***

---

[1] Əgər onların dediyi kimi, itaətdən boyun qaçırma insanda zati-fitri bir qərizə olsaydı, heç vaxt Allah-təala İsanı qundaqda peyğəmbərliyə seçməzdi. Belə nümunələr həddən artıq çoxdur. Təəssüflər olsun ki, belə misalların onlara heç bir əsəri yoxdur. red.

[2] "Nisa", ayə 65.

[3] "Həşr", ayə 7.

# *DOĞSAN ÜÇÜNCÜ MƏKTUB*

23 Rəbiül-Əvvəl 1330

***Başqa halların da istənilməsi.***

Usamənin səriyyəsi barəsində söz, cümə axşamı gününün müsibəti barədəki kimi çox çəkdi. Amma bu məsələnin mübhəm (üstü örtülü) cəhətləri həqiqət axtaranlar üçün gün kimi aydın oldu. Xahiş edirəm ki, onların "nəss"ə boyun əymədikləri başqa halları da bizim üçün yazasınız. Vəssalam.

***"S"***

# *DOĞSAN DÖRDÜNCÜ MƏKTUB*

25 Rəbiül-Əvvəl 1330

***"Mariqilər"in öldürülməsinə dair Peyğəmbərin (s) fərmanı.***

Bu barədə bəzi görkəmli şəxsiyyətlərin, hafiz və başqalarının nəql etdikləri hədisi söyləmək kifayətdir. Burada biz Əhməd ibn Hənbəlin öz "Müsnəd" kitabının üçüncü cildinin 15-ci səhifədə Əbu Səid Xidridən söylədiyi hədisi gətiririk. O, belə nəql edir: "Əbu Bəkr Peyğəmbərin (s) yanına gələrək dedi: Ey Allahın Peyğəmbəri! Mən filan yerdən keçirdim ki, çox gözəl üzlü bir kişinin ixlasla (Allahdan qorxu və itaətlə) namaz qıldığını gördüm. Bu zaman Peyğəmbər (s) ona belə buyurdu: Get, onu öldür! Əbu Bəkr getdi. Amma xeymədə onu o vəziyyətdə görüncə öldürmək fikrindən vaz keçib Peyğəmbərin yanına qayıtdı. Bu dəfə Peyğəmbər (s) Ömərə o şəxsi öldürməyi əmr etdi. Ömər də gedib, o kişini Əbu Bəkrin gördüyü kimi gördükdə onu öldürmək istəmədi. Buna görə də Peyğəmbərin yanına qayıdıb dedi ki, mən onu ağlar (Allahdan qorxan) gördüyüm üçün öldürmədim. Bu dəfə Peyğəmbər (s) Əliyə (ə) buyurdu: Get, onu öldür. Əli (ə) getdi, amma daha o şəxsi həmin yerdə tapmadı. Peyğəmbərin yanına qayıdaraq ərz etdi ki, ey Allahın rəsulu, onu görmədim. Peyğəmbər (s) buyurdu: O şəxs və onun tərəfdarlarının Quran oxumalarına baxmayaraq, Quran elə dillərinin ucunda dolaşır (yəni, qəlbləri və ağıllarına hakim deyil). Onlar oxun kamandan çıxdığı sürətlə dindən çıxacaq və bir daha qayıtmayacaqlar. Onları öldürün, çünki yer üzündə olan ən pis məxluqlardır."

Əbu Yəla bu hadisəni "Müsnəd"ində (ibn Həcərin "Əl-İsabə" kitabında Züs-Sodyənin tərcümeyi-halında gəldiyi kimi) Ənəsdən nəql etmişdir: "Peyğəmbər zamanında bir şəxs ibadətdə dillər əzbəri olmuşdu. Biz bu mətləbi Peyğəmbərə ərz etdikdə həmin adamın adını da o həzrətə söylədik. Lakin Peyğəmbər onu tanımadı. Onun xüsusiyyətlərini həzrət üçün bir-bir saydıqda yenə də tanımadı. Bu zaman o şəxsin özü gəlib çıxdıqda, Allahın rəsulu (s) buyurdu: Mənə elə bir şəxsdən xəbər verirsiniz ki, Şeytanın əlamətləri onun üzündə aşkar görünür. O şəxs yaxınlaşaraq, əshabın yanına yetişdikdə dayanıb salamsız durdu. Peyğəmbər (s) üzünü ona tutub dedi: Səni Allaha and verirəm (de görüm), bura yetişdikdə zehnindən bu keçmədimi ki, bu məclisdə səndən yaxşısı yoxdur? Cavab verdi ki, bəli! Daha sonra keçib namaz qılmağa başladı. Bu zaman Peyğəmbər buyurdu: Onu kim öldürə bilər? Əbu Bəkr dedi: Mən. Ayağa qalxaraq onun yanına getdi. Lakin, onu namaz qılan halda görüb, öz-özünə dedi: Sübhanəllah! Namaz qılan adamı necə öldürə bilərəm? Buna görə də onu öldürməyib geri qayıtdı. Peyğəmbər (s) Əbu Bəkrdən –Öldürmədinmi?– deyə soruşduqda, belə cavab verdi: Namaz qıldığına görə onu öldürmədim. Axı siz bizi namaz qılanları öldürməkdən çəkindirmişsiniz.Peyğəmbər buyurdu: Kim onu öldürə bilər? Bu zaman Ömər dedi: Mən. Amma onu səcdəyə gedən halda görüb, öz-özünə dedi: Məndən üstün olan Əbu Bəkr onu öldürmədi, mən necə öldürə bilərəm? Ona görə də qayıtdı və dedi ki, onu səcdəyə gedən halda görüb Allaha xatir öldürmək istəmədim. Peyğəmbər (s) buyurdu: Daha kim onu öldürə bilər? Bu vaxt həzrət Əli (s) cavab verdi ki, mən. Peyğəmbər (s) də buyurdu ki, əgər onu (bir daha) tapa bilsən. Əli (ə) gedib, onu nə qədər axtardısa, tapa bilmədi. Qayıtdıqdan sonra Peyğəmbər soruşdu: Nə oldu? Əli (ə) cavab verdi ki, o adam oradan getmişdi. Peyğəmbər buyurdu: Əgər bu şəxs öldürülsəydi, ümmətim arasında (bundan sonra) heç bir ixtilaf düşməzdi."

Bu hədisi Hafiz Məhəmməd ibn Musa Şirazi öz kitabında Yəqub ibn Süfyan, Məqatil ibn Süleyman, Yusif Qəttan, Qasim ibn Səlam, Məqatil ibn Həyyan, Əli ibn Hərb, Süda, Mücahid, Qütadə, Vəki və İbn Cərihin təfsirlərindən nəql etmişdir. Eləcə də mötəbər alimlərdən bir çoxu, imam Şəhabəddin Əhməd (İbn Əbdürəbbih Əndəlusi təxəllüslü) kimi ("İqdül-Fərid"

kitabının birinci cildində) "əshabi-əhva" (rəy sahibləri) barəsində danışarkən bu mətləbi doğru saymışlar. O, bu qəziyyənin sonunda belə yazır: "Peyğəmbər (s) buyurdu: O, ümmətim arasında tapılacaq ilk tüğyan edən şəxsdir ki, əgər onu öldürsəydiniz, hətta iki nəfər də olsun belə ixtilaf etməyəcəkdi. Bəni-İsrail 72 firqə oldular, bu ümmət isə 73 firqə olacaqdır ki, bir firqədən başqa onların hamısı atəşdədir." Buna oxşar bir əhvalatı "sünən" yazıçıları Əlidən nəql etmişlər:[1] "Qüreyşlilərdən bir qrup Peyğəmbərin yanına gələrək ərz etdilər ki, ey Məhəmməd, biz sənin qonşuların və əhdə vəfadarlarınıq. Bizim qullarımızdan bəziləri sənin dininə, elminə və mərifətinə rəğbətləri olmayaraq sənin yanına gəlmişlər. Onlar, yalnız bizim bağlarda və s. işləməkdən boyun qaçıraraq sənə pənah gətirmişlər. Xahiş edirik ki, onları bizə qaytarasan. Peyğəmbər Əbu Bəkrə buyurdu: Nə deyirsən? Əbu Bəkr cavab verdi ki, onlar düz deyirlər və hər halda sənin qonşularındırlar. Peyğəmbərin mübarək üzünün rəngi dəyişdi. Üzünü Ömərə tutub buyurdu: Sən nə deyirsən? Ömər də Əbu Bəkrin söylədiklərini təsdiqlədikdə, Peyğəmbərin çöhrəsi tutuldu. Həzrət buyurdu: Allaha and olsun ki, Allah elə bir şəxsi sizinlə (qüreyşlilərlə) döyüşə göndərəcəkdir ki, onun qəlbi imanla doludur. O, din uğrunda sizinlə döyüşəcəkdir. Əbu Bəkr dedi: Ey Allahın rəsulu, o şəxs mənəmmi? Buyurdu ki, yox. Ömər soruşdu ki, mənəmmi? Buyurdu: Yox. O, başmaq yamayan şəxsdir. O zaman Peyğəmbər öz başmaqlarını yamaq vurmaq üçün Əliyə (ə) vermişdi." Vəssalam.

***"Ş"***

---

[1] İmam Əhməd "Müsnəd"in 1-ci cildinin 155-ci səhifəsində (axırlarda), Səid ibn Mənsur öz "Sünən"ində, İbn Cərir "Təhzibül-Asar"ında, Müttəqi Hindi "Kənzül-Ümmalın" 6-cı cildinin 396-cı səhifəsində bütün bunları (yuxarıda adları sayılanlardan) nəql etmiş və onu doğru hesab etmişlər.

# *DOĞSAN BEŞİNCİ MƏKTUB*

26 Rəbiül-Əvvəl 1330

***“Mariqi”nin öldürülməsinin yozumu.***

Ola bilər ki, Əbu Bəkrlə Ömər Peyğəmbərin əmrindən qətlin müstəhəb olmasını başa düşmüşlər, vacib yox. Buna görə də onu öldürməmişlər. Ola da bilər ki, onun qətlini “vacibi-kifayi” hesab etdiklərindən fikirləşmişlər ki, başqa əshab bu işi görəcək (beləliklə də, vacib hökmü hamının boynundan düşəcək). Qayıdan zaman isə onun qaça biləcəyindən və bununla da Peyğəmbərin əmrinin (sözü) yerdə qalacağından qorxmurdular. Çünki o kişiyə məcaranın nə yerdə olduğunu xəbər verməmişdilər. Vəssalam.

***“S”***

# *DOĞSAN ALTINCI MƏKTUB*

29 Rəbiül-Əvvəl 1330

***Bu yozuma cavab.***

"Vücub" (vacib hökm) həmişə əmrin həqiqətində qorunur və əmr olan yerdə vücubdan başqa bir şey zehnə gəlmir. Beləliklə, əmri (qərinəsiz, şahidsiz olaraq) müstəhəbə yozmaq səhih deyildir. Bizim haqqında bəhs etdiyimiz mövzuda (müstəhəbə yozulma) isə heç bir qərinə mövcud deyidir və əksinə, həqiqi mənanı (yəni vücubu) təkidlə çatdıran bir neçə qərinə vardır. Lütfən, bu hədislərə diqqət yetirsəniz, o zaman bizim dediklərimizi təsdiqləyəcəksiniz. Vücubun istinbatanı (şahid) bu cümləyə diqqət yetirməklə başa düşə bilərik: "O şəxsin tərəfdarları Quran oxuyurlar, amma Quran onların qəlblərinə təsir etməmişdir. Onlar kamandan çıxan ox kimi dindən çıxacaq və bir daha qayıtmayacaqlar. Onları öldürün, onlar yer üzünün ən pis məxluqlarıdır." Və "Əgər o şəxs öldürülsə idi, ümmətimdən iki nəfər də olsun belə ixtilaf etməzdi" və başqa qərinələr, yalnız qətlin vacibliyinə dəlalət edir.

Əgər Əhmədin "Müsnəd"ində gəlmiş hədisə müraciət etsən, görəcəksən ki, qətl əvvəl yalnız Əbu Bəkrə əmr olunmuşdu, sonra isə Ömərə. Belə olan surətdə, vücub necə kifayi ola bilər? Bundan əlavə, o hədislər aşkar surətdə o iki nəfərin həmin şəxsi namaz halında öldürməkdən xoşlanmadıqlarını nişan verir. Deməli, o həzrətin əmrinə əks olaraq öz istəklərini üstün sanmışlar.

Beləliklə, gördüyünüz kimi, bu fakt öz rəylərini "nəss"dən üstün sayanların rəftarını bildirən aydın şahiddir. Vəssalam.

***"Ş"***

# *DOĞSAN YEDDİNCİ MƏKTUB*

30 Rəbiül-Əvvəl 1330

***Bütün halların istənilməsi.***

Səndən xahiş edirəm ki, bütün bu halları mənə yazıb göndərəsən. Daha heç birini də qoyma ki, bir də səndən xahiş edim. Hamısını yaz! Hətta məktubun çox uzun olsa belə, yaz. Vəssalam.

***"S"***

# *DOĞSAN SƏKKİZİNCİ MƏKTUB*

3 Rəbiüs-Sani 1330

***1. Hallardan bir hissəsi.***

***2. Başqa hallara işarə.***

1. Təkcə aşağıdakı hallara diqqət yetirsən, sənin üçün kifayət edər: "Hüdeybiyyə sülhünün cərəyanı; Hüneyn döyüşünün qənimətləri; Bədr əsirlərindən fidyə[1] alınması; Təbuk döyüşündə aclıq üz verən zaman həzrətin bəzi dəvələri kəsmək barəsindəki əmri; Ühüd döyüşündə olan bəzi hərəkətlər; Əbu Hüreyrənin Allaha inanan adamın cənnətə getməsini (uca səslə) müjdələdiyi günün cərəyanı; münafiqə namaz qılmaq və sədəqələrdə tənə gününün macərası; onların söyüşlə sual etməsi; iki xüms və zəkat ayəsinin təvili; təməttö həcci və müvəqqəti evlənməyə dair iki ayənin təvili; təlaq ayəsinin yozumu, keyfiyyət və kəmiyyət baxımından Ramazan ayının nafilələri (müstəhəb namazları) barəsində varid olmuş rəvayətlərin yozumu; azanın keyfiyyətinə (yəni, "həyyə əla xeyril əməl"in azandan götürülməsi); meyit namazında təkbirlərin sayına dəxalət etmək; Hatib ibn Bəltəənin cərəyanındakı qarışıqlıq; Peyğəmbərin "İbrahim məqamı"nda əncam verdiyi işlərə qarşı çıxma; bəzi müsəlmanların evinin məscidə qatılması; Əbu Xərraş Həzəlinin diyəsinin ödənilməsində yəmənlilərin ziyanına verilmiş hökm; Nəsr ibn Həccac Səlminin sürgün olunması; Cödə ibn Süleymə hədd (şallaq) vurulması;[2] İraqın ərazilərinə bac-xərac qoyulması, cizyə alınmasının keyfiyyəti (necəliyi); "şura" məsələsi; camaatın vəziyyətilə xəbərdar olmaq üçün gecə gəzintiləri; gündüzlər təftiş və axtarış aparılması; vaciblərin tətil olunması və s. kimi hallarda "nəss"ə tabe olmaq əvəzinə ümumi məsləhəti (əlbəttə, öz nəzərlərinə görə) üstün tutmuşlar. Biz "Səbilül-muminin" adlı kitabımızda bu məsələlərə aid xüsusi bab (fəsil) ayırmışıq.[3]

2. Eləcə də Əlinin (ə) xilafəti və Rəsuli-əkrəmin pak Əhli-beyti barəsində olan "nəss"lərdən əlavə də ayrı "nəss"lər mövcuddur ki, onlara əməl olunmamış və hətta düz onun əksinə əməl etmişlər (ki, təhqiqatçıların onlardan xəbəri vardır). Beləliklə, xilafət "nəss"lərini də dəyişdirmək heç də təəccüblü deyil. Məgər bu hədislər, dəyişdirilən digər hədislərdən sayıla bilməz? Onlar bütün hallarda üstünlüyü öz şəxsi maraqlarına vermişlər. Vəssalam.

***"Ş"***

---

[1] Fidyə – yəni, bir şey verərək, müqabilində öz canını əsirlikdən xilas etmə.

[2] İbn Sədin "Təbəqat" kitabında Ömərin tərcümeyi-halına baxsan, görəcəksən ki, o, Cödəyə şahidsiz-sübutsuz hədd vurdurdu. Yalnız buna xatir ki, əlinə bir vərəq düşmüşdü və orada naməlum bir şair Cödəni pis işlər görməkdə ittiham etmişdi.

[3] Əgər "Səbilül-muminin" kitabını əldə edə bilməsən "Füsulul-mühimmə" kitabını əldən verməyin ki, orada heç bir kitabda olmayan çoxlu həqiqətlər vardır. Biz həmin kitabda nəssləri təvil edənlər (dəyişənlər) barəsində bir fəsil ayırmışıq ki, kitabın 2-ci çapının 44-130-cu səhifələrindəki 8-ci fəsildir. Bu halların geniş izahını orada gətirmişik.

## *DOĞSAN DOQQUZUNCU MƏKTUB*

5 Rəbiüs-Sani 1330

***1. Onlar bütün (saydığınız) hallarda ümumun məsləhətini üstün bilmişlər.***

***2. Başqa halların istənilməsi.***

1. Heç bir ağıllı şəxs onların məqsədlərinin hüsnü haqqında şəkk etmir, saydığınız bütün bu hallarda onların ümumun mənafeyini nəzərdə tutmaları məlumdur. Çünki onlar ümmət üçün elə bir şərait yaratmaq istəyirdilər ki, məsləhətlərinə görə olsun və müsəlmanların qüdrəti günbəgün artsın. Beləliklə, gördükləri bütün işlərdə, (istər “nəss”ə tabe olsunlar, ya olmasınlar) onlara eyib tutmaq olmaz.[1]

2. Biz sizdən onların “nəss”ə tabe olmadıqları bütün halları yazmağınızı xahiş etmişdik. Siz isə bir qədər yazdıqdan sonra “İmam və pak Əhli-beyt haqqında bəzi nəslər (xilafət “nəss”indən əlavə) vardır ki, keçmiş sələflər ona əməl etməmişlər” – buyurmaqla kifayətlənmisiniz. Kaş, onların hamısını yazaydın ki, bir daha səndən onları yazmağı xahiş etməyəydim. Vəssalam.

***“S”***

[1] İlahi, sən özün bizim fəryadımızı eşit! Biz elə 1400 ildir fəryad edirik ki, onlar Allah və Peyğəmbərin əmrlərinə tabe olmayıb, öz məsləhət bildiklərini icra etmişlər. Axı nə vaxt Allah və peyğəmbəri onları özlərinə məsləhçi seçmişdir?! Halbuki əshab arasında elə şəxsiyyətlər var idi ki, məsləhət verməyə onlardan qat-qat layiq idilər! red.

# *YÜZÜNCÜ MƏKTUB*

8 Rəbiüs-Sani 1330

***1. Bəhsin ətrafından xaric olma.***

***2. Xahişin yerinə yetirilməsi.***

1. Bizə gəlib çatmış "nəss"lərin onlar tərəfindən dəyişdirilməsini qəbul etdiniz. Əlhəmdulillah ki, dediklərimizi təsdiq etdiniz. Bildiyiniz kimi onların ümmətin səlahı (məsləhəti) üçün çalışması, İslamın əzəmət və şövkətinin möhkəmləndirilməsi üçün səyləri bizim söhbətimizin mövzusu deyildir. Çünki söhbətimiz onların Peyğəmbərin (s) buyuruqlarına tabe olub-olmamaları barədə idi və tabe olmamaqlarının səbəbi barədə danışmırdı.

2. Axırıncı məktubunda məndən Əli (ə) haqqında imamətə aid olmayan və əshabın əməl etmədikləri səhih nəssləri göstərməyimi istəmişdin. Halbuki sən özün o zamanın xəbərlərinin, eləcə də "sünnələr"in rəhbər və imamısan, o xəbərləri ətraflı mütaliə etmişsən və sənin onlardan xəbərsiz olduğunu fikirləşmirəm. Kim bu hədisləri başa düşməkdə özünü sizdən üstün hesab edə bilər?! Görəsən, sünnə əhli içərisində sizə tay bir adam varmı? Yox, heç vaxt!

Beləliklə, sizin bu xahişiniz şairin "Bir çox sual edənlər (soruşanlar) vardır ki, özləri mətləbə agahdırlar" – beytinə bənzəyir.

Səhabədən bir çoxunun Əliyə kin bəsləyərək onunla düşmən olmasını yaxşı bilirsiniz. Beləliklə, ondan ayrılmaları, ona əziyyət etmələri, nalayiq söyüşlərlə, təhqir etmələri, haqqında zülmləri, onu pisləməyi özlərinə vacib bilmələri, onunla döyüşləri, onun, Əhli-beytinin və dostlarının müqabilində qılıncla dayanmaları tarixin acı həqiqətlərindəndir. Tarix dediklərimizə aşkar dəlildir. Halbuki, Peyğəmbər buyurmuşdu: "Mənə itaət edən Allaha itaət etmiş, itaətimdən çıxan isə, Allahın itaətindən boyun qaçırmışdır, Əliyə itaət edən isə mənə itaət etmiş, onun fərmanına boyun əyməyən mənim fərmanıma boyun əyməmişdir." Yenə buyurmuşdu: "Məndən ayrılan Allahdan ayrılmış, Əlidən ayrılan isə məndən ayrılmışdır." O həzrət başqa bir yerdə belə buyurmuşdu: "Ey Əli, sən həm bu dünyada, həm də axirətdə seyyid və ağasan. Sənin dostun mənim dostum, mənim dostum da Allahın dostudur. Sənin düşmənin mənim düşmənim, mənim düşmənim isə Allahın düşmənidir. Vay olsun məndən sonra sənə qəzəblənən şəxsin halına!" Peyğəmbər buyurmuşdur: "Əlini söyən məni, məni söyən isə Allahı söymüşdür." O həzrət yenə də buyurmuşdur: "Əliyə əziyyət edən mənə əziyyət etmiş, mənə əziyyət edən isə Allaha əziyyət etmişdir." Başqa bir yerdə yenə buyurmuşdur: "Əlini sevən məni sevmiş, ona qəzəblənən isə mənə qəzəblənmişdir." Allahın elçisi belə də buyurmuşdur: "Ey Əli, mömindən savayı heç kəs səni sevməz, münafiqdən başqası da qəlbində sənə kin bəsləməz." Yenə də buyurmuşdur: "İlahi, onu sevəni sev, ona düşmən olana düşmən ol. Ona kömək edənə kömək ol, onu xar, zəlil etmək istəyəni isə zəlil et!" Bir gün Peyğəmbər (s) Əli, Fatimə, Həsən və Hüseynə baxaraq belə buyurdu: "Sizinlə sülh və barışıqda olanla sülhdəyəm, sizinlə mübarizə edənlə isə mübarizədəyəm." Əbanı onların üstünə saldığı zaman isə belə buyurdu: "Onlara mübarizəyə qalxanla mübarizədə, sülhdə olanla sülhdə, düşmən olanla isə düşmənəm."

Bir çox belə hədislər mövcuddur ki, səhabə nəinki onlara əməl etməmiş, hətta onun ziddinə səy göstərərək, öz həvayi-nəfslərini bu hədislərdən üstün saymış, qərəzli hərəkət etmişlər. Həqiqətdən xəbərdar olanlar yaxşı bilirlər ki, Əlinin (ə) fəzilətləri haqqında varid olmuş hədislər (ki, yüzlərlədir) onunla dostluğu (onu sevmək) vacib, onunla düşmənçiliyi isə haram sayır. Bu hədislərdən hər biri o həzrətin Allah və onun peyğəmbəri yanında nə qədər yüksək və ali məqama malik olduğunu göstərir. Biz keçmiş məktublarımızda onların (o həzrətin

fəzilətlərinin) bəzilərinə işarə etmişdik, amma demədiklərimiz söylədiklərimizdən olduqca çoxdur. Siz ki, əlhəmdülillah, hədis və sünnədən xəbərdar olan bir adamsız. Bzünüz deyin hansı hədis və xəbər o cənabla mübarizə etməyə və ya ona söyüş söyməyə dəvət edir? Hansı bir hədis o həzrətə əziyyət verməк, onun kinini qəlbə salıb, (onunla) düşmənçilik etməklə müvafiqdir? Hansı bir hədis hökm edir ki, o həzrətin hüquqları qəsb olunub, ona zülm olunsun, minbərlərdə, cümə və bayram namazlarında o həzrəti söymək savab sayılsın? Hansı?! Yoxdur, belə bir hədis əsla yoxdur.

Amma bu cür xilaf işlərə əl atanlar isə nə bu hədislərin çoxluğuna, nə də təvatür halına əhəmiyyət verirdilər və bu "nəss"lərin heç biri onların siyasətlərinin tələbinə mane ola bilmirdi. Onlar yaxşı bilirdilər ki, Əli Peyğəmbərin qardaşı, vəlisi, varisi və sirdaşı idi. Əli Peyğəmbərin Əhli-beytinin seyyidi və ağası, ümmətinin Harunu, o həzrətin ciyər-parəsinin (Fatimə (ə)) həyat yoldaşı, Peyğəmbərin zürriyyəsinin atası, İslamı qəbul edən ilk şəxs, imanda hamıdan ixlaslı, hamıdan elmli, əməldə hamıdan üstün, hamıdan helmli, yəqini hamıdan çox olan şəxsdir. O cənab hamıdan artıq əziyyət çəkmiş, həmişə də imtahanlardan üzüağ çıxmışdır. O həzrətin fəzli, üstünlüyü hamıdan çox, keçmişi hamıdan parlaq və əziz, İslamı hamıdan yaxşı başa düşən, bütün müsəlmanlardan –hidayətdə, əxlaqda, rəftarda– ən üstün, Peyğəmbərə hamıdan yaxın, danışıqda və sükut etməkdə hamıdan nümunəlidir.

Amma onların şəxsi qərəzləri və istəkləri (özlərinə) hər bir dəlildən irəli idi, belə ki, onların imamət barəsində öz rəylərini "qədir nəssi"ndən üstün bilmələri heç də təəccüb doğurmur. Məgər "qədir" hədisi yüzlərlə təvil (təhrif) olunmuş hədislər arasında yeganədirmi ki, onu öz rəy və məsləhətlərinə qurban verməsinlər?! Halbuki Peyğəmbər (s) buyurmuşdur: "Mən sizin aranızda iki qiymətli şeyi əmanət qoyub gedirəm ki, əgər onlardan tutsanız, heç vaxt yolunuzu azmazsınız; Allahın kitabı və Əhli-beytim." Həmçinin o həzrət buyurmuşdur: "Mənim Əhli-beytim Nuhun gəmisi kimidir, o gəmiyə minən qurtulacaq, minməyən isə qərq olacaq. Mənim Əhli-beytim sizin aranızda Bəni-İsrail üçün olan "Hittə qapısı" kimidir, bu qapıdan daxil olan bağışlanacaqdır." Həmçinin, buyurmuşdur: "Göydəki ulduzlar yer əhlinin azmaması üçün, mənim Əhli-beytim isə ümmətimin ixtilafa düşməməsi üçün bir səbəbdir. Əgər bir qəbilə (qrup) onlarla müxalifət etsə, özlərinin arasında ixtilaf tapılacaq və İblisin firqəsinə çevriləcəklər."

Ümmətin əməl etmədiyi belə hədis və rəvayətlər, olduqca çoxdur. Vəssalam.

***"Ş"***

# *YÜZ BİRİNCİ MƏKTUB*

10 Rəbiüs-Sani 1330

***Nə üçün İmam (Əli) “səqifə” günü xilafət və “vəsayət” “nəss”inə istinad etmədi?***

Haqq gün kimi aşkar oldu, əlhəmdulillahi Rəbbil aləmin! Yalnız bir mətləb qalmışdır ki, onun nişanələri naməlum, əlamətləri isə qeyri-aşkardır. Mən onu sizə xatırladıram ki, çöhrəsindən pərdəni götürək, gizlinləri aşkar edəsiniz. O da budur ki, nəyə görə İmam – “səqifə”də Əbu Bəkr və onunla beyət edənlərin müqabilində– sizin istinad etdiyiniz xilafət və “vəsayət” hədisinə əsasən, öz haqqını tələb etmədi? Məgər siz bu “nəss”lərin mənasının başa düşülməsində o həzrətdən də agahsınızmı? Vəssalam.

***“S”***

# *YÜZ İKİNCİ MƏKTUB*

11 Rəbiüs-Sani 1330

***1. "Səqifə" günü İmamın öz haqqını müdafiə etməsinə maneçilik.***

***2. Maneçiliyin olmasına baxmayaraq İmamın və dostlarının həmin "nəss"ləri yada salmaları.***

Hamı bilir ki, İmam(ə) və dostları (Bəni haşim və başqaları) beyət zamanı "səqifə"də deyildilər. Onlar "səqifə"dən və oradakılardan ayrı olub, belə ki, hamısı Allahın rəsulunun (s) vəfatı ilə əlaqədar bir sıra vəzifələrə – qüsl, kəfənləmə, dəfn və s. işlərə məşğul idilər və ondan başqa bir şey haqqında fikirləşmirdilər. Onlar hələ Peyğəmbəri dəfn etməmiş "səqifə"dəkilər artıq işlərini başa çatdırmış, beyəti möhkəmləndirmişdilər. Çox böyük uzaqgörənliklə qərar qoymuşdular ki, kim beyət işinə xələl yetirmək istəsə, onun qarşısını alsınlar.

Belə bir vəziyyətdə İmam, Əbu Bəkr və onunla beyət edənlərin qarşısında necə durub haqqını tələb edə bilərdi? Beyətdən sonra isə ona və başqalarına nə vaxt icazə verildi ki, dəlil-sübut gətirsinlər? Halbuki iqtidar sahibləri çox böyük ehtiyat və uzaqgörənliklə bütün güc və qüdrətlərini işə salmışdılar. Məgər indiki zamanda hər bir şəxs asudəliklə hökumət və səltənəti aradan aparmaq üçün qiyam edə bilərmi? Bu yolda açıq-aşkar mübarizəyə qalxa bilərmi? Əgər belə bir iş görərsə, onu başlı-başına buraxarlarmı? Heyhat, heyhat! Keçmişi indiki zamanla müqayisə et (amma əgər müsəlmanlar məsələdən agah olub öz rəhbərlərinə tabe olmaqla zalım hökuməti yıxsalar, o başqa məsələ). Xalq elə indi də həmin xalq, zaman da həmin zamandır.

Bütün bunlardan əlavə, Əli (ə) o günlərdə (elə bir şəraitdə) dəlil-sübut gətirməyin fitnədən və haqqının aradan getməsindən savayı heç bir təsiri olmayacağını yaxşı bilirdi. Çünki o həzrət İslamın əsasının, "tövhid" kəlməsinin aradan getməsindən qorxurdu. O vaxt həzrət Əli belə bir şəraitdə iki mühüm işin arasında qalmışdı: Bir tərəfdən çoxlu nəslər, vəsiyyətlərə əsasən, xilafətin ona çatmalı olduğunu (bu mühüm işi ondan başqa heç kəsin görə bilməyəcəyi üçün özünün məsuliyyətli olduğunu); digər tərəfdən isə tüğyançıların (öz fitnələri ilə) yaranacaq qarışıqlıqdan istifadə edərək Ərəbistan yarımadasını biri-birinə vurub, İslamı aradan aparmalarından qorxurdu. Mədinə münafiqləri də (onu) təhdid edirdi. Çünki onlar, artıq nifaq salmaq üzrə idilər. Həmçinin Mədinə ətrafındakı ərəblər də təhlükə yaradırdı (bu ərəblər Quranın buyurduğuna görə, münafiq sayılıb, belə ki, öz küfr və nifaqlarında hamıdan artıq idilər). Belə bir şəraitdə müsəlmanlar zülmətli bir gecədə yağmura düşmüş sürüyə bənzəyirdilər ki, yırtıcı canavarlar tərəfindən əhatə olunmuşdular.

Yalançı Müseyləmə bir tərəfdən, Təlhə ibn Xuveylid (töhmətçi, böhtançı), Səccah (Harisin qızı, şeytansifət bir qadın) öz əshabı ilə başqa bir tərəfdən İslamı aradan aparmaq və müsəlmanları bir-birinə vurmaq üçün ayağa qalxmış və rum, "kəsra", "qeysər" və başqaları da müsəlmanların pusqusunda durmuşdular (və bir çox başqaları ki, Məhəmməd (s) və Ali-Məhəmmədə (s) qarşı ədavətli olub, İslamın aradan getməsini istəyirdilər). Onlar Peyğəmbərin (s) vəfatını bildikdə, ələ düşən fürsəti qənimət bilib (hələ İslam qüdrət tapmamış) İslam və müsəlmanları aradan aparmaq üçün hazır dayanmışdılar.

Əli (ə) bu iki böyük xətərlə üzləşmişdi. Belə isə o həzrətin öz haqqını müsəlmanların həyatına qurban verməyi təbii idi.[1] Lakin, o həzrət öz haqqını müsəlmanların həyatına qurban

---

[1] O həzrət Misir əhlinə yazdığı (Malik Əştərlə yolladığı) məktubunda bu mətləbə işarə etmişdir. Məktubda belə gəlmişdir: "Amma sonra Allah-təala Məhəmmədi (s) göndərdi ki, bütün ağıl sahiblərinə qorxuducu və şahid (ülgü, nümunə) olsun. Amma o həzrət dünyadan köçən gündən müsəlmanlar bir-birlərilə çəkişməyə

versə də, xilafət barəsində haqqını qoruyaraq, buna göz yumanların qarşısında elə dəlil gətirmək istəyirdi ki, müsəlmanların vəhdəti pozulmasın. Belə ki, düşmənlərin sui-istifadə edə biləcəyi fitnə yaranmasın. Buna görə də evdən çölə çıxmadı. Onu məcbur edərək (qan tökülmədən) evdən çıxartdılar. Çünki o həzrətin özü onlara tərəf getsəydi, höccəti tamamlaya bilməz və bu zaman onun şiələrinin də heç bir dəlilləri olmazdı. Belə bir vəziyyətdə həzrət Əli dini hifz edərək, öz haqqını xilafətlə bir yerə cəmlədi.

İmam İslamın hifzi və onun düşmənlərinin təcavüzünün aradan qaldırılmasını özünün bu qərarında duyduqda, (bu zaman) dövrün xəlifəsi ilə sülhlə keçinərək (ümmətin hifzi, millətin və dinin qorunması naminə) bütün bunları öz haqqından üstün sandı. O həzrət iki mühüm iş arasında qaldıqda, onlardan daha əhəmiyyətlisini seçərək, düşmənlərlə barışıq halında keçindi. Beləliklə, o zamankı şərait əsla qılıncla müqavimət, dəlillə istinad (istidlal) etmək fürsətini o həzrətə vermədi.

2. Amma bütün bu şəraitlə belə, o həzrət, övladları və ona bağlı olan alimlər həmişə Peyğəmbərin (s) vəsiyyətlərini xatırlayaraq onun (s) aydın "nəss"lərini qoruyurdular və mühəqqiq alimlər bu mövzudan agahdırlar.

Vəssalam.

***"Ş"***

---

başladılar. Allaha and olsun, əsla qəlbimdən keçmirdi ki, o həzrətdən sonra bu işi (xilafəti) məndən alalar (amma elə bu cür də oldu). Mən camaatın filankəslə beyət etmək üçün axışdığını gördükdə bu işdən əl çəkdim, dəxalət etmədim. Bu zaman gördüm ki, bir qrup İslamdan əl çəkərək camaatı Məhəmmədin (s) dinini aradan aparmağa dəvət edir. Qorxdum ki, əgər İslam və müsəlmanlara kömək etməsən (çünki görürdüm ki, yavaş-yavaş aradan getmə qorxusu yaranır) onun müsibəti, sizə hökumət etməkdən əl götürməyimin müsibətindən daha böyük olacaqdır. Çünki hökumət və vilayət bir neçə günlükdür. İlğım, ya bulud (duman) kimi tezliklə aradan gedəcəkdir. Elə buna görə o hadisələrdə batilin aradan gedərək dinin möhkəmlənməyi naminə (haqqımdan əl çəkib) işə qatlaşdım." (Nəhcül-Bəlağə, 62-ci məktub)

# *YÜZ ÜÇÜNCÜ MƏKTUB*

12 Rəbiüs-Sani 1330

***İmamın və dostlarının dəlil gətirmələri barədə bəhs.***

Nə vaxt və harada İmam bu əməli əncam vermişdi? Nə zaman və harada o həzrətin dostları və yaxınları belə bir dəlillər irəli sürmüşdülər? Onlardan bəziləri haqda bizə məlumat verin. Vəssalam.

***"S"***

# *YÜZ DÖRDÜNCÜ MƏKTUB*

15 Rəbiüs-Sani 1330

***1. İmamın (ə) dəlil gətirməsi hallarından bəzisi.***

***2. Həzrət Zəhranın (ə.h) dəlil gətirməsi.***

1. İslama zərbə dəyməsin deyə, "nəss"ləri yaymaqda İmam çox ehtiyatla rəftar edirdi. Müsəlmanların əzəmət, şan-şövkətinin qorunması naminə onlarla daha ciddi mübarizəyə girişmirdi. Bəzən mülayimliklə sükut edərək haqqını tələb etməməsini bu cür izah edirdi: "İnsana haqqını geri almasında gecikdiyinə (təxir etdiyinə) görə eyib (irad) tutmazlar. Eyib-iradı o şəxsə tutarlar ki, haqqı olmadığı bir şeyi qəsb etsin."[1]

O həzrətin "nəss"ləri yaymaq yolunda xüsusi bir üsulu var idi ki, çox hikmətamizdir. Gördüyünüz (bildiyiniz) kimi, "Rəhbə" günü (özünün xilafəti günlərində) camaata "qədir" gününü xatırlatmaq üçün onları bir yerə toplayıb belə buyurdu: "Sizi Allaha and verirəm, hər kəs "qədir" günü Peyğəmbərin (s) buyuruğunu eşidibsə, ayağa qalxıb öz eşitdiklərinə şəhadət versin. Amma Peyğəmbəri (s) görənlərdən savayı heç kəs ayağa qalxmasın." Səhabədən 30 nəfər (onlardan 12-si Bədr döyüşündə iştirak etmişdilər) ayağa qalxıb "qədir nəssi" barəsində eşidib-gördüklərinə şəhadət verdi.[2] Həzrət bu imkanı o zaman çətin şəraitdə (Osmanın öldürülməsi, Bəsrə və Şamın fitnəsi) tapa bilmişdi. Canıma and olsun ki, belə bir gündə hikmət üzrə dəlil gətirmək çox nadir hallarda baş verir. Salam olsun ona, bütün o böyük məqamı ilə birlikdə ki, "qədir" hadisəsi yavaş-yavaş zehnlərdən silinməkdə, unudulmaqda olduğu bir vaxtda onu yenidən canlandırdı, Rəhbədə toplaşan cəmiyyət üçün keçmişi bir daha xatırlatdı.

Peyğəmbər (s) Qədir-xum günündə Əlinin əlindən yapışaraq, ümmətindən yüz min (ya çox) nəfərin gözünün ona dikildiyi bir vaxt buyurdu: "Əli məndən sonra sizin mövlanızdır (vəlinizdir)". Elə buna görə də "qədir" hədisi mütəvatir rəvayətlərin ən aydın olanlarından sayılır. Sən Peyğəmbərin (s) hikmət dolu rəftarına bax ki, bu mətləbi hamının hüzuru mümkün olan təqdirdə elan etdi, beləcə də vəsisi Əli (ə) onu "Rəhbə" günü camaatı bir yerə toplayaraq onların öz şəhadətləri əsasında yenidən diriltdi. Beləliklə, o həzrət zamanın tələbinə uyğun münasib yumşaqlıqla öz haqqını qarşıya çəkirmiş (və özü də bunları çox ehtiyatla edirmiş). İmamət əhdinin və "vəsayət" "nəss"inin yayılmasında imamın metodu bu idi. O həzrət qafil insanları elə bir üsulla (qəflət yuxusundan) oyadırdı ki, səs-küyə, camaatın qəflətən nifrətinə səbəb olmasın. Bu barədə sünni yazıçılarının nəql etdikləri hədisləri araşdırıb oxumaq sənə kifayət edər. Misal üçün bunu göstərmək olar ki, Peyğəmbər (s) Allahın əmrilə bir gün öz qohumlarını əmisi Əbu Talibin evinə yığaraq, o məlum mətləbləri buyurdu.[3] Bu məsələ nübüvvət nişanələrindən hesab edilir və həqiqətdə, bu bir möcüzə idi ki, o həzrət az bir yeməklə çox böyük bir qrupu doyuzdurdu. Bu hədisin axırında Peyğəmbərin Əlini qucaqlayıb ona belə buyurması da gəlmişdir. "Bu, mənim qardaşım, vəsim, eləcə də sizin aranızda olan xəlifəmdir (canişin). Ona qulaq asın və itaət edin." İmam (ə) həmişə deyirdi ki, Peyğəmbər (s)

---

[1] Bu "kəlimati-qisar"dandır ki, həmin mənanı yetirir və "Nəhcül-Bəlağə"də gəlib və ibn Əbil Hədidin şərhinin 4-cü cildinin 324-cü səhifəsinə müraciət edin.

[2] 56-cı məktubda gəldiyi kimi.

[3] 20-ci məktubda onu zikr etdik.

onun haqqında buyurmuşdur: «انت وليّ كل مؤمن بعدي» “Sən məndən sonra bütün möminlərin vəlisisən.” Dəfələrlə Peyğəmbərdən nəql edərdi ki, həzrət ona belə buyurarmış: «انت مني بمنزلة هارون من موسي» “Sənin mənimlə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir.” Həmçinin, Peyğəmbərin (s) Qədir-xum günündə buyurduğu bu sözləri çox təkrar edərdi: «اَلَسْتُ اَوْلي بِالْمُؤْمِنينَ مِنْ اَنْفُسِهِم؟ قالُوا: بَلي! قالَ: مَنْ كُنْتُ وَلِيَّهُ فَهذا عَلِيٌّ وَلِيُّهُ» “Məgər mən möminlərə öz canlarından artıq deyiləmmi? Ərz etdilər ki, bəli (artıqsan)! Buyurdu: Mən hər kəsin vəlisiyəmsə, Əli onun vəlisidir.”[1]

Həmçinin bir çox inkarolunmaz hədislər vardır ki, həzrət onları etimadlı və dəyərli şəxslər arasında yaymışdır. Bütün bunlar o zamankı şəraitin həzrətə elan icazəsilə bağlı idi (elan lazımı həddə çatsa da, lakin camaata təsir etmirdi). O həzrət “şura” günü də fürsəti münasib görüb, şuradakılara höccəti tamamladı. (Amma nə faydası).

Əli (ə) hətta öz xilafəti çağlarında da başına gətirilmiş böyük məzlumiyyətindən şikayətlənərək, minbərdə belə buyurmuşdu: “Xilafət əbasını filankəs çiyninə salmış ikən, halbuki Allaha and olsun, çox yaxşı bilirdi ki, mənim xəlifəliyə olan nisbətim dəyirman daşının mehvəri kimidir. Elmlər dəryası mənim vücudumdan qaynaqlanır, heç kəsin təsəvvür “quşu” mənim fəzilətlərimin qülləsinə yüksələ bilməz. Mən (isə) sadə paltara bürünərək ətəyimi ondan (xilafətdən) çəkdim. Fikirləşdim ki, görəsən yalın əllə öz haqqımı (geri) almaq üçün qiyam mümkünmü? Yoxsa qarşıya çıxan bu qaranlıq və zülmətin içərisində (oturub) səbirmi edim? (Bu bir vəziyyət idi ki,) yaşlıları əldən salır, uşaqları qocaldır, möminlərə öz Rəbblərinə qovuşanadək əziyyət verir. Mən isə səbir və dözümün ağla daha uyğun gəldiyinə görə, ona səbir etdim, amma necə – gözündə çöp, boğazında sümük qalan kəs kimi. Və görürdüm ki, bütün mirasımı (mənə yetişən irsi) qarət (qəsb) edirlər.[2]

O həzrət bu sözləri həmişə deyərdi: “İlahi, mən Qüreyş və onların əlaltıları müqabilində səndən kömək istəyirəm.[3] Onlar mənimlə olan qohumluqlarını unudaraq uca məqamımı kiçik saydılar və mənə mənsub olan xilafətdə mənimlə mübarizəyə qalxıb, əleyhimə yığışdılar.” Sonra belə buyurur: “Bu elə bir haqdır ki, (ya) onu almaq, elə bir haqdır ki, (ya da) tərk etmək lazımdır.” Bir nəfər o həzrətə “Ey Əbu Talibin oğlu, sən bu xilafət işində nə yaman hərissən (yəni, əldən vermək istəmirsən) – dedikdə,[4] ona buyurdu: “Allaha and olsun ki, siz daha hərissiniz. Çünki mən öz haqqımı tələb edirəm, siz isə mənimlə haqqım arasında maneçilik törədirsiniz.” Həmçinin buyurur: “Allaha and olsun ki, Peyğəmbər (s) vəfat edəndən bu günə qədər məni öz haqqımdan ayrı salaraq mənimlə zülmlə rəftar etmişlər.” Başqa bir yerdə belə buyurur: “Bizim haqqımız var, əgər versələr ki, heç, yoxsa səbir edəcəyik, hər nə qədər uzun çəksə də.”[5] Qardaşı Əqilə yazdığı məktubda belə buyurur: “Allah mənə görə Qüreyşi cəzalandırsın, onlar mənimlə olan qohumluqlarını kəsərək, Peyğəmbərdən (s) mənə yetişəcək hökumət və vilayəti əlimdən aldılar.”[6] Dəfələrlə buyurmuşdu: “Əhli-beytimdən savayı mənə kömək edəcək bir kimsənin qalmadığını gördükdə, onların ölümünə də paxıllıq etdim (heyfim gəldi). Gözlərimi çöplə dolu olan halda örtdüm, sümük ilişib qalan boğazımla qəzəbimi (içəri)

---

[1] 23-cü məktubun axırında onu zikr etmişik. İbn Əbu Asim onu nəql etmişdir.
[2] “Nəhcül-Bəlağə”, 3-cü xütbə.
[3] “Nəhcül-Bəlağə”, 167-ci xütbə.
[4] 167-ci xütbədə olduğu kimi.
[5] Nəhcül-Bəlağə, “kəlimati-qisar”, 22-ci kəlam (Seyyid Rəzi və Əbduh ona haşiyə yazmışlar).
[6] “Nəhcül-Bəlağə”, 36-cı məktub.

uddum, bu (iş), “hənzəl”dən (acı bir meyvədir) də acı olsa da, səbir etdim.”[1] Bəzi dostlar o həzrətdən “Necə oldu ki, sizin qohumlarınız (hamıdan layiq olduğunuz bir halda) bu məqamı sizdən aldılar?” – deyə soruşduqda o həzrət buyurdu: “Ey qardaşım Əsədi, yersiz vaxtı soruşursan (yəni, indi bu sualın yeri deyil), amma sənin soruşmağa haqqın vardır. Belə isə bil ki, gördüyün kimi bəzilərinin mənə qarşı zülm edərək haqqımı qəsb etməsi (baxmayaraq ki, mənim Peyğəmbərə (s) nə qədər yaxın olduğumu bilirdilər) və s. bütün bunlar mənim üstün olmağıma görə idi və çoxları buna həsəd aparırdılar, bəziləri də (bəzi məsləhətləri nəzərə alaraq) bu haqdan səxavətli surətdə keçdilər. (Amma) hakim bir olan Allahdır. Qiyamət günü də dönüş Onun tərəfinədir.”[2] O həzrət yenə də buyurmuşdur: “Kimdir bizdən başqası ki, özünün “elmdə möhkəm” olduğunu iddia edir (“rasixun fil elm”)? Hər kim bu iddianı etsə bizim əleyhimizə çıxaraq, bizə zülm etmişdir. İndi onlar haradadırlar? Gəlib görsünlər ki, Allah bizi necə ucaltdı, onları isə necə alçaltdı, bizə əta etdi, onları isə məhrum, bizi Öz nemət və lütfünə daxil, onları isə xaric etdi. Camaat bizim əlimizlə hidayətə qovuşur; ya kor, ya da bəsirətlə. İmamlar Qüreyşdəndirlər ki, Allah onları Bəni-Haşimin nəslindən yaratdı. Onlardan başqa heç kim bu işə layiq deyil və onlardan başqa heç kim rəhbər ola bilməz!”[3]

Həmçinin, o həzrətin xütbələrinin bəzisində gəlmiş bu sözlər sizə kifayət edər: “Peyğəmbər vəfat edən kimi bəziləri geri döndülər, belə ki, həvayi-nəfsləri onları yoldan çıxarıb məkr və hiyləyə əl ataraq, öz qohumlarından başqaları ilə əhd-peyman bağladılar. Dostluğu vacib olan adamdan uzaqlaşıb (xilafət) binasını öz əsl məhəlindən (başqa yerə) köçürdülər. Elə bir yerə apardılar ki, bütün xətaların kökü, bütün zəlalətlərin keçidi ora idi. Onlar kin-küdurət, həsəd içində boğularaq başlarını itirmiş, heyrətlə vurnuxaraq məstlik və həvayi-nəfs girdabında çapalayarkən, eynilə ali-Firon üsulu ilə rəyasət etdilər (ya hər bir şeydən əl üzüb dünyadan yapışmış, ya da ki, aşkar surətdə dindən əl çəkmişdilər).[4]

Beyətdən sonrakı xütbəsində (Nəchül-Bəlağənin ən parlaq xütbələrindəndir) – buyurur: “Bu ümmətdən heç kimi Ali-Məhəmmədlə (s) müqayisə etmək olmaz və Ali-Məhəmmədin (s) nemətinin şamil olduğu şəxsləri onlarla bir sırada tutmaq olmaz. Onlar (nemətə şamil olan şəxslər) dinin əsasları, yəqinin sütunlarıdır, irəlidəkilər onlara tərəf qayıdır, geridə qalanlar onlara qoşulurlar, vilayət, “vəsayət” və virasət xüsusiyyətləri onların rəhbərliyi altındadır. İndi isə haqq öz əhlinə qayıdaraq, götürüldüyü yerə (yenidən) qaytarılmışdır.”[5] Başqa bir xütbədə isə həzrət öz müxaliflərinə olan təəccübünü bildirir: “Mən təəəccüb edirəm, axı necə də təəccüb etməyim ki, bu qruplar nə Peyğəmbərin (s) yolunu gedirlər, nə də onun vəsisinə təqlid edirlər (dinlərində olan dəlillərində ixtilafları vardır).”[6]

2. Zəhra (ə.h) bu barədə çox tutarlı bir dəlil gətirmişdir (ki, iki xütbəyə şamil olub, çox məşhurdur). Bu xütbələr dildən-dilə nəql olunmuş və Əhli-beyt (ə) də övladlarını onları öyrənməyə məcbur etmişlər (Qurani-kərimi hifz etməyə məcbur etdikləri kimi). Bu xütbələrdə xilafəti yerbəyer edənlərə qarşı etiraz olunmuşdur: “Vay olsun onlara! Xilafəti böyük və möhkəm dağların qülləsindən, nübüvvət sütunlarından, Ruhul-Əminin (Cəbrail (ə)) nazil olduğu yerdən uzaqlaşdırdılar. Onu elə bir şəxsin əlindən aldılar ki, din və dünya işlərinə hamıdan agah idi. Onların bu işlərinin nəticəsi aşkar ziyandan savayı bir şey deyildir. Əbül-Həsənə nə eyib tuta bilərdilər? Niyə ondan narahat idilər? And olsun Allaha ki, onun

---

[1] 26-cı xütbəyə müraciət olunsun.
[2] “Nəhcül-Bəlağə”, səh. 29, 157-ci kəlam.
[3] “Nəhcül-Bəlağə”, 36-cı səh, 140-cı kəlam.
[4] “Nəhcül-Bəlağə”, 146-cı xütbə, 48-ci səhifənin axırı.
[5] “Nəhcül-Bəlağə”, 2-ci xütbə, səh. 25.
[6] “Nəhcül-Bəlağə”, 84-cü xütbə, səh.145.

qılıncından, işləri ədalətlə gördüyünə görə, döyüş meydanlarındakı şücaətinə görə, Allahın əmrlərinin həyata keçirilməsində olan səyinə görə narahat idilər. Allaha and olsun ki, əgər ümmətin (işlərin) cilovunu ona verib (Peyğəmbər (s) ona verdiyi kimi) müqabilində təslim olsaydılar, Əli onları elə bir aram və asayişlə dolu həyatla təmin edərdi ki, heç bir narahatlıq yaranmaz, heç kim də zəhmətə düşməzdi və onları sağ-salamat mənzil başına çatdırardı. (Bu həyatın) şirin və içməli suyu fəvvarə vurar, bu suda heç bir qarışıqlıq (bulnıqlıq) olmazdı. O, daim onları sirab edər, aşkar və gizlin onlara nəsihət edərdi, onları "sirab" etmək, "doyurmaqdan" savayı heç bir şeyə razı olmazdı və elə bu zaman da yer və göyün nemətləri onların üzünə açılardı. Tezliklə Allah etdikləri işin cəzasını onlara göstərəcəkdir... Doğrusu, onlar kimə pənah aparmışlar? Kim onların əllərindən tutacaqdır? Nə qədər də pis bir rəhbər özlərinə seçdilər! Zalımlar nə qədər də pis bir müamilə etdilər! Bu "quş" əsl qanadlarını əldən vermiş, süni lələklərlə uçmağa hazırlaşır, atın yalından tutmaq əvəzinə, quyruğundan yapışdılar. Bu camaatı (görüm) burnu (üzü) yerə sürtülsün ki, elə bilir yaxşı iş görmüş, halbuki fəsad törətmişlər və şüurları yoxdur ki, onu dərk edələr! Vay olsun onların halına! Xalqı haqqa doğru hidayət edənə tabe olmaq yaxşıdır, yoxsa hidayətə möhtac olana tabe olmaq? Sizə nə olmuşdur? Bu necə hökm kəsməkdir?!"[1]

Bütün bunlar pak Əhli-beytin bu mövzuda buyurduqlarından bir nümunə idi ki, o biriləri də bununla müqayisə edə bilərsən. Vəssalam.

***"Ş"***

---

[1] Əbu Bəkr Əhməd ibn Əbdül Əziz Cövhəri "Səqifə və fədək" kitabında bu xütbəni Məhəmməd ibn Zəkəriyyadan, Məhəmməd ibn Əbdür-Rəhman Məhləbidən, Abdullah ibn Həmmad ibn Süleymandan (o da atasından), Abdullah ibn Həsən ibn Həsəndən, o da anası Fatimə bintül-Hüseyndən (ə), o da həzrəti Zəhradan (ə.h) nəql etmişdir. İmam Əbülfəzl Əhməd ibn Əbu Tahir (280-ci ildə vəfat etmişdir) "Bəlağətün-Nisa" kitabının 23-cü səhifəsində Harun ibn Müslim ibn Sədandan, o da Həsən ibn Elvandan, o da Ətiyyə Ovfidən nəql etmişdir ki, o, bu xütbəni Abdullah ibn Həsən ibn Həsəndən, o da anası Fatimə bintil-Hüseyndən (ə), o da cəddi Fatimədən (ə.h) onu nəql etmişdir. Şiə isə bu xütbəni Süveyd ibn Qəflə ibn Övsəcə Cöfidən, o da həzrət Zəhradan (ə.h) nəql etmişdir. Təbəri "Ehticac", Əllamə Məclisi "Biharül-Ənvar"da və başqa etimadlı şəxslər onu nəql etmişlər.

# *YÜZ BEŞİNCİ MƏKTUB*

<u>16</u> <u>Rəbiüs-Sani</u> <u>1330</u>

***Bəhsin yekunlaşdırılması tələbi.***

Xahiş olunur ki, bizim bu faydalı bəhsimizi daha da təkmilləşdirərək İmam və Zəhradan (ə) başqalarının dəlil gətirdiklərini nəql edəsiniz. Fəzl və üstünlük sizinlədir. Vəssalam.

***“S”***

# *YÜZ ALTINCI MƏKTUB*

18 Rəbiüs-Sani 1330

***1. İbn Abbasın dəlili.***

***2. Həsən (ə) və Hüseynin (ə) dəlilləri.***

***3. Səhabədən olan şiə böyüklərinin dəlilləri.***

***4. Onların Peyğəmbərin (s) vəsiyyətindən dəlil gətirmələrinə işarə.***

1. Sizin nəzərinizi İbn Abbasla Ömər arasında olan uzun bir mübahisəyə cəlb edirəm: "Ömər, İbn Abbasa dedi: İbn Abbas, heç bilirsənmi Məhəmməddən (s) sonra qohumlarınız niyə sizi öz haqqınızdan məhrum etdilər? İbn Abbas deyir: Mən onun cavabını vermək istəmirdim, ona görə də dedim: Əgər mən də bilməsəm, Əmirəl-möminin bilər. Ömər dedi: Onlar həm nübüvvətin, həm də xilafətin hər ikisinin sizdən olmasını istəmirdilər və bundan sevinmirdilər. Elə buna görə də Qüreyş xilafəti özünə götürdü və öz işində müvəffəq də oldu. İbn Abbas deyir: Əgər mənə danışmağa icazə versən və mənə qəzəblənməsən, sənin cavabını verərəm. Dedi: De görüm. Dedim: Sizin bu işi dediyiniz kimi, o vaxt müvəffəqiyyət adlandırmaq olardı ki, Allah özü onlara vermiş olaydı və daha bundan sonra onu Qüreyşdən almaq olmazdı. Amma onların nübüvvət və xilafətin hər ikisinin bizdən olmağını istəməməkləri isə bu ayə ilə cavablandırılacaq: ذَلِكَ بِأَنَّهُمْ كَرِهُوا مَا أَنزَلَ اللَّهُ فَأَحْبَطَ أَعْمَالَهُمْ "Onlar Allahın nazil etdiyindən narahat idilər, elə buna görə də Allah onların əməllərini yox etdi."[1] Ömər dedi: Heyhat, ey İbn Abbas, sənin barəndə mənə elə sözlər gəlib çatıb ki, istəmirəm onları özün iqrar edəsən və beləliklə, məqamın mənim yanımda aradan getsin. Dedim: Nə sözlər? Əgər haqq söz demişəmsə, məqamım sənin yanında aradan getməməlidir. Yox, əgər batil sözlərdirsə, onları özümdən uzaqlaşdıraram. Ömər dedi: Mənə xəbər veriblər ki, sən "xilafəti həsəd və zülmlə öz mərkəzindən uzaqlaşdırmışlar" – söyləmisən. Bu doğrudurmu? Dedim: Bu ki, hər bir nadan və ağıllıya aydındır. Əgər həsəd deyirsənsə elə Adəmin özünə də həsəd etdilər və indi bizə – onun balalarına həsəd edirlər. Ömər dedi: Heyhat! Heyhat! And olsun Allaha, siz Bəni-Haşimin qəlbləri elə bir həsədlə doludur ki, bir daha aradan getməyəcəkdir. İbn Abbas deyir ki, mən də dedim: O qəlbləri ki, Allah bütün pisliklərdən silmiş və onları pak qərar vermişdirsə,[2] bu cür vəsfləndirmə."[3]

Yenə bir gün o ikisinin arasında mübahisə düşdükdə Ömər soruşdu: "Əmin oğlu necədir? İbn Abbas deyir ki, elə bildim məqsədi Abdullah Cəfərdir. Dedim ki, o öz yoldaşları ilə gününü keçirdir. Dedi: Məqsədim o deyil. Məqsədim siz Əhli-beytin böyüyüdür. Dedim: Su quyusu qazır, arx salır və Quran oxumaqla məşğuldur. Dedi: Bütün qurban olmuş dəvələrin qanı sənin boynunda qalsın (günahkarsan), əgər soruşacağım şeyi məndən gizlətsən. De görüm, onun qəlbində yenə də xilafət arzusu vardırmı? Dedim: Bəli. Dedi: Yəni, belə güman edir ki, Peyğəmbər (s) onun xəlifəliyinə aşkar surətdə işarə etmişdir? İbn Abbas deyir: Mən atamdan bu barədə soruşarkən, atam belə demişdi: (Əli) düz deyir (yəni Peyğəmbər (s) aşkar surətdə buyurub ki, Əli (ə) xəlifədir). Ömər dedi: Düzdür ki, Peyğəmbər danışıqda onun (Əli)

---

[1] "Məhəmməd", ayə 9.

[2] "Əhzab", ayə 33.

[3] Bu hadisəni ibn Əsirin "Kamil" kitabından gətirdik. Onu 23-cü il hadisələri babında (səh. 24) Ömərin tərcümeyi-halında nəql etmişdir. İbn Əbil-hədid də Ömərin tərcümeyi-halında ("Nəhcül-bəlağənin şərhi", 3-cü cild, səh.107) nəql etmişdir.

üçün çox böyük məqama qail idi (onu çox tərifləyirdi). Amma bu söhbətlər heç bir şeyi sabit etmir, Peyğəmbər hərdən istəyirdi ki, ümməti onunla (Əli) və xilafəti ona tapşırmaqla imtahana çəksin. Hətta xəstələndiyi zaman onun adını aşkar surətdə çəkmək də istəyirdi ki, mən qoymadım."[1]

Bir dəfə də (üçüncü dəfə) onlar mübahisə etməyə başladılar. Bu zaman Ömər İbn Abbasa dedi: "Sənin dostunu məzlum görürəm. İbn Abbas dedi: Belə isə, ondan zorla alınanı ona qaytar. Bu vaxt Ömər əlini əlimdən çəkib, getdi. Bir saata yaxın hey, özü-özüylə deyinəndən sonra dayandı. Mən ona çatdıqda dedi: İbn Abbas, mənə elə gəlir ki, onun öz haqqına çatmamasının səbəbi qohumlarının onu kiçik bilməsi olmuşdur. Dedim: Amma Allaha and olsun ki, Allah və rəsulu ona əmr etdikdə ki, "bəraət"i (Tövbə surəsinin ilk ayələri) sənin dostundan (Əbu Bəkr) alıb, (məkkəlilərə) oxusun, (onda onu) kiçik saymırdılar. Ömər üzünü məndən çevirib sürətlə uzaqlaşdıqda, mən də geri qayıtdım."[2]

Ümmətin alimi, haşimilərin dili və Peyğəmbərin əmisi oğlu olan Abdullah İbn Abbas üçün belə mübahisələr çox qarşıya çıxmışdır ki, iyirmi altıncı məktubda onun Əliyə (ə) düşmən olan bir qrupla mübahisəsini (İbn Abbas o həzrət üçün ondan çox gözəl xüsusiyyət saymışdı) yada sal. O hədisdə deyilirdi ki, Peyğəmbər (s) öz əmisi oğullarına buyurdu: "Sizlərdən hansınız bu dünya və axirətdə mənimlə həmkarlıq etməyə və yoldaş olmağa hazırsınız? Heç kim müsbət cavab vermədikdə o zaman Əli (ə) dedi ki, mən həm bu dünyada, həm də axirətdə səninlə yoldaş olmağa hazıram. O həzrət Əliyə (ə) buyurdu: Sən bu dünyada və axirətdə mənim vəlimsən." Sonra İbn Abbas deyir: "Peyğəmbər (s) Təbuk döyüşünə getmək üçün Mədinədən çıxdıqda, camaat da o həzrətlə birgə xaric oldular. Əli (ə) ərz elədi: Mən də səninlə birgə hərəkət edimmi? Peyğəmbər (s) buyurdu: Yox. Əlinin (ə) gözləri doldu. Peyğəmbər (s) ona buyurdu: İstəmirsənmi sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun? Yalnız bu fərqlə ki, məndən sonra bir daha peyğəmbər gəlməyəcəkdir. Mən gedən zaman sən mənim xəlifəm və canişinim olacaqsan."

İbn Abbas bunu da əlavə edir ki, Peyğəmbər (s) ona buyurdu: "Sən məndən sonra bütün möminlərin vəlisi olacaqsan." Eləcə də buyurdu: "Mən kimin mövlasıyamsa, həqiqətən, Əli (ə) də onun mövlasıdır."

2. O zaman Bəni-Haşimdən bir çoxları bu cür dəlillər gətirmişlər. Hətta bir dəfə Həsən ibn Əli (ə) Əbu Bəkri Peyğəmbərin (s) minbərində oturarkən gördükdə, irəli gəlib dedi: "Atamın yerindən qalx, düş aşağı." Ömər də (xəlifə olduğu vaxt) minbərdə olarkən Hüseyn (ə) onunla bu cür rəftar etmişdi.[3]

3. Şiə kitablarında səhabə və tabeinlərdən olan haşimilər və onların dostlarının çoxlu dəlil-sübut gətirmələri qeyd olunmuşdur ki, maraqlananlar onlara müraciət edə bilərlər. Amma hələlik Təbərsinin "Ehticac" kitabında bu şəxslərin dilindən nəql olunmuşlar bizim üçün kifayətdir; Xəlifə ibn Səid ibn As Əməvi,[4] Salman Farsi, Əbuzər Qəffari, Əmmar Yasir,

---

[1] İmam Əbülfəzl Əhməd ibn Əbu Tahir "Bağdadın tarixi" kitabında bu hədisi mötəbər sənədlə İbn Abbasdan nəql etmişdir. Həmçinin ibn Əlil-Hədid "Nəhcül-bəlağənin şərhi"nin 3 cildində Ömərin tərcümeyi-halında (səh. 97) onu qeyd etmişdir.

[2] "Nəhcül-Bəlağənin şərhi", İbn Əbil-Hədid, 3-cü cild, 105-ci səh. və bir çox başqaları nəql etmişlər.

[3] İbn Həcər hər iki qəziyyəni (hadisəni) "Səvaiq" kitabının, "əl-məvəddətə fil qurba" ayəsinin izahında nəql etmişdir. 105-ci səhifəsinə müraciət olunsun. Darü-Qütni İmam Həsənin (ə) Əbu Bəkrlə olan cərəyanını, ibn Səd də İmam Hüseynin (ə) Ömərlə olan cərəyanını yazmışlar.

[4] Səid ibn As Əbu Bəkrin xilafətini qəbul etməyib ona üç aya kimi beyət etməyən şəxslərdən idi. Bu mətləbi əhli-sünnənin böyüklərindən bəziləri qeyd etmişlər. Məsələn: İbn Səd "Təbəqat" kitabının 70-ci səhifəsində, Xalidin şərhi-halında yazmışdır ki, Əbu Bəkr Şama qoşun yetirmək istədikdə Səid ibn As üçün (onun evinə) bir bayraq göndərdi. Ömər Əbu Bəkrə dedi ki, Səidi sərkərdə etmisən, halbuki (sənin haqqında) o cür sözlər demişdir. O qədər təkid etdi ki, axırda Əbu Bəkr Əbu Ürvə Dusini göndərərək xəbər verdi ki, Peyğəmbərin

Miqdad, Büreydə Əsləmi, Əbül-Heysəm ibn Teyhan, Səhl və Osman ibn Hüneyf, Xüzeymə ibn Sabit, Züş-şəhadəteyn, Übeyy ibn Kəb, Əbu Əyyub Ənsari və başqaları bu barədə dəlil-sübutlar gətirmişlər ki, orada mütaliə edə bilərsiniz.

Əhli-beyt və dostlarının xəbərlərini mütaliə edənlər başa düşürlər ki, onlar heç bir fürsəti əldən verməmiş, hər yerdə fürsət əllərinə düşdükdə (ya şiddətli surətdə, ya da yumşaqlıqla) bu həqiqətə işarə edirmişlər; şer, söhbət, yazı ilə ümumiyyətlə, mümkün olan hər hansı bir şəraitdə öz müxaliflərinə dəlil-sübut gətirirdilər.

4. Onlar çox zaman Peyğəmbərin vəsiyyətini təkrar edərək öz dəlillərinin (mühəqqiqlərin xəbəri olduğu kimi) mötəbər olduğunu bildirirdilər. Vəssalam.

***“Ş”***

---

(s) xəlifəsi buyurur: Bizim bayrağımızı qaytar. Səid də bayrağı ona qaytarıb dedi: Sizin vilayətiniz bizi xoşhal etmədiyi kimi, çıxarmağınız da narahat etmədi. Sonra Əbu Bəkr Səidin evinə gələrək ondan üzrxahlıq edib xahiş etdi ki, daha bu barədə Ömərlə heç bir şey danışmasın.

Şama göndərilən ordu barəsində bu hadisəni öz kitablarında yazanlar ya onu tamam qeyd etmiş və ya ona işarə etmişlər. Beləliklə, bu hadisə “müstəfiz” (yəni, çoxlu sayda nəql olunmuş) xəbərlərdəndir.

# YÜZ YEDDİNCİ MƏKTUB

19 Rəbiüs-Sani 1330

***Vəsiyyəti harda və nə zaman xatırlamışlar?***

İmam haqqında olan vəsiyyət harda və nə zaman xatırlanmış və nə vaxt onunla dəlil gətirilmişdir? Mən bir kəsi tanımıram ki, onu xatırlamış olsun. Ümmül-mömininin (Ayişə) sözü də bu hədisi inkar edir (əvvəllərdə dediyim kimi). Vəssalam.

***"S"***

# *YÜZ SƏKKİZİNCİ MƏKTUB*

<u>22</u> <u>Rəbiüs-Sani</u> <u>1330</u>

***Sübutun vəsiyyət ilə gətirilməsi.***

Əvvəla, Əmirəl-mömininin özü "vəsayət" məsələsini minbərdə söyləmişdir ki, biz 104-cü məktubda o həzrətin sözlərini eynilə gətirdik. İkincisi, "yovmüd-dar" hədisini nəql edən hər bir şəxs onu Əliyə (ə) nisbət verərək həzrətdən nəql etmişdir ki, biz onu da 20-ci məktubda gətirdik (çox aşkar surətdə o həzrətin vəsilik və xilafətini bəyan edirdi).

Bunlardan əlavə, behişt cavanlarının ağası olan İmam Həsən Müctəba (ə) Əmirəl-mömininin (ə) şəhadətindən sonra özünün çox dəyərli söhbətində bu həqiqətə işarə edərək buyurmuşdur: "Mən Peyğəmbərin övladı olmaqla yanaşı, onun vəsisinin də övladıyam."[1]

İmam Sadiq (ə) buyurmuşdur: "Əli (ə) hələ besətdən (Həzrət Məhəmmədin (s) peyğəmbərliyə yetişməsi) qabaq Peyğəmbərlə birgə idi, risalət nurunu görür, mələyin səsini eşidirdi."[2] İmam bunu da əlavə etmişdi ki, bir gün Peyğəmbər (s) o həzrətə belə buyurmuşdu: "Əgər mən peyğəmbərlərin sonuncusu olmasaydım, sən nübüvvətdə (peyğəmbərlikdə) mənimlə şərik olardın. İndi isə, peyğəmbər olmasan da, peyğəmbərin vəsisi və varisisən." Bu mətləbi Əhli-beytin hamısı nəql etmişlər. Bu məsələ səhabənin vaxtından bu günədək, həm Əhli-beyt imamlarının, həm də onların dostlarının yanında İslam dininin zəruriyyətlərindən sayılır.

Salman Farsi nəql edir ki, Peyğəmbər (s) həmişə deyərdi: "Əli ibn Əbu Talib mənim vəsim, sirlərimin mərkəzi, vədlərimi yerinə yetirmək və borclarımı ödəmək üçün özümdən sonra qoyub getdiyim ən yaxşı və layiqli bir adamdır."

Əbu Əyyub Ənsari nəql edir ki, eşitdim bir gün Peyğəmbər (ə.h) Fatiməyə (ə) belə buyurdu: "Məgər bilmirsənmi Allah-taala yer üzündəkilərdən sənin atanı seçərək peyğəmbər etdi və sonra (ikinci dəfə) sənin ərini seçdi və mənə vəhy etdi? Buna görə də mən onu sənin üçün ər, özüm üçün vəsi qərar verdim."

Büreydə nəql edir ki, Peyğəmbərdən (s) eşitdim ki, buyurdu: "Hər bir peyğəmbərin vəsi və varisi vardır ki, mənim də vəsi və varisim Əli ibn Əbu Talibdir."[3]

Cabir ibn Yəzid Cofi İmam Baqirdən (ə) hədis nəql edən zaman deyərdi (Zəhəbinin "Mizanül-Etidal" kitabında Cabirin şərhi-halında gəldiyi kimi): «حَدَّثَني وَصِيُّ الْأَوْصياء» "Bu hədisi vəsilərin vəsisi mənə buyurmuşdur."

Hüreyş Baqirinin qızı Ümmül-Xeyrin "Siffeyn" meydanında kufəliləri Müaviyə ilə döyüşməyə təşviq etmək üçün söylədiyi o təmtəraqlı nitqindən: «هَلُمّوا رَحِمَكُمُ الله اِلَي الْاِمامِ الْعادِلِ الْوَصِيِّ الْوَفِيّ وَ الصِّدّيقِ الْاَكْبَر ...» "Allah sizə rəhmət etsin (sizi bağışlasın), adil imamın, vəfalı vəsinin və "siddiqi-əkbər"in (böyük doğruçu) köməyinə tələsin!"[4]

Bütün bunlar keçmişdəkilərin öz xütbələrində, hədislərində "vəsayət" barəsində söylədiklərindən bəziləri idi. Səhabənin şərhi-halına diqqət edənlər bilirlər ki, "vəsi" sözünü yalnız Əmirəl-möminin Əli (ə) haqqında – eynilə müəyyən şəxsi çağıran bir ad kimi

---

[1] Hakim "Müstədrək"in 3-cü cildinin 172-ci səhifədə onu nəql etmişdir.
[2] İbn Əbil-Hədid, "Nəhcül-Bəlağənin şərhi", 3-cü cild, 254-cü səhifə.
[3] 67-ci məktubda Büreydə, Əbu Əyyub və Salmanın hədisini gətirdik.
[4] İmam Əbülfəzl Əhməd ibn Əbu Tahir Bağdadi "Bəlağətün-nisa" kitabının 41-ci səhifəsində Şəbidən onu nəql etmişdir.

söyləmişlər. Hətta “Tacül-ərus” (ərəb dilində məşhur lüğət kitabı) kitabının müəllifi onun 392-ci səhifəsində “vəsi” sözü barəsində yazır: “vəsi – qəni vəznində Əlinin (rəziyəllahu ənhu) ləqəbidir.”

Vəsilik məsələsi haqqında gələn şerlərin isə sayı-hesabı yoxdur. Sözümüzü bu şerlərin bəzisi ilə tamam edirəm. Abdullah İbn Abbas ibn Əbdül-Müttəlib deyir:

وصي رسول الله من دونه اهله و فارسه ان قيله هل من منازل

–O, Peyğəmbərin (s) xanədanı (qohumları, ailəsi) içərisində o həzrətin vəsisidir, onun qoşunun pəhləvanı, süvarisidir.

Müğeyrə ibn Haris ibn Əbdül-Müttəlib “Siffeyn”də Müaviyə ilə döyüşə iraqlıları çağıran zaman dediyi şerindən:

هذا وصي رسول الله قائدكم و صهره و كتاب الله قد نشرا

–O, Peyğəmbərin vəsisi, sizin rəhbəriniz və onun kürəkənidir. And olsun Allaha ki, bu xəbər hər yerə yayılmışdır.

Abdullah ibn Əbu Süfyan ibn Haris ibn Əbdül-Müttəlib belə demişdir:

و منال علي ذاك صاحب خيب و صاحب بدر يوم سالت كتائبه

–Əli – xeybər qəhrəmanı bizdəndir; Bədrin qəhrəmanı (bizdəndir) ki, o gün çoxlu qoşun hərəkətdə olarkən.

فمن ذا يدانيه و من ذا يقاربه وصي نبي المصطفي و ابن عمه

–O, Peyğəmbərimiz Mustafanın (s) vəsisi və əmisi oğludur; kim ona tay ola bilər?

Əbu Heysəm ibn “Bədr” döyüşündə olan döyüşçülərdən idi və “Cəməl” döyüşündə bir neçə beyt söyləmişdi:

ان الوصي امامنا و ولينا برح الخفا و باحت الاسرار

–Peyğəmbərin (s) vəsisi bizim imamımız və vəlimizdir; gizli olanlar aşkar oldu; sirlər zahirə çıxdı;

Xüzeymə ibn Sabit Züş-Şəhadətəyn “Bədr” döyüşündə iştirak etmiş və “Cəməl” döyüşündə bu şeri söyləmişdir:

يا وصي النبي قد اجلت الحر ب الاعادي وسارت الا ظعان

–Ey Peyğəmbərin vəsisi, döyüş düşmənləri pərən-pərən salmışdır, dəvələr isə çıxıb getmişlər;

اَعائشُ خلّي عن عليّ و عيبه بما ليس فيه انما انتِ والده

–Ey Ayişə! Əlidən, onda olmayan eyibləri axtarmaqdan əl çək!

وصي رسول الله من دون اهله و انت علي ما كان من ذاك شاهده

–(O), Peyğəmbərin ailəsi içərisində onun (s) vəsisidir ki, sən (Ayişə) özün bu həqiqətin şahidisən.

Səhabənin ən şücaətlilərindən sayılan və “Siffeyn” döyüşündə qardaşı ilə bərabər şəhadətə yetişən Abdullah ibn Budeyl ibn Vərqa Xüzai “Cəməl” döyüşündə belə demişdir:

يا قوم للخطة العظمي التي حدثت حرْبَ الوصي و ماللحرب من آلي

–Ey camaat, bu Peyğəmbərin vəsisinin mübarizəsinin bəhrəsidir (gərək çox diqqət yetirəsiniz, dediklərinə əməl edəsiniz). Mübarizə və döyüşə heç bir çarə etmək olmaz.

Əmirəl-möminin (ə) “Siffeyn”də belə buyurur:

ما كان يَرضي احمد لو اُخبرا اَن يقرنوا وصيُّه وَ الأَبترا

–Əgər Peyğəmbərə (s) xəbər versələr, əsla razı olmaz ki, vəsisi o iki əbtərlə (Müaviyə və Əmr As) yanaşı otursun.

Cüreyr ibn Abdullah Bəcəli, Şərəhbil ibn Səidə yazdığı və Əlinin (ə) adını çəkdiyi şerində belə deyir:

وصي رسول الله من دون اهله و فارسه الحامي به يضرب المثل

–O, Allah rəsulunun (ailəsi içərisində) vəsisidir, o, qəhrəmandır, pəhləvandır, onun (s) hamisidir ki, bir zərbül-məsələ çevrilmişdir.

Ömər ibn Haris Ənsari, Məhəmməd ibn Hənəfi barəsində yazdığı şerində belə deyir:

سمّي النبيَّ و شبه الوصيّ و رايته لونها العندم

–O (Məhəmməd Hənəfiyyə), Peyğəmbərin adaşı və vəsiyə oxşayandır, onun bayrağının rəngi qırmızıdır.

Əbdür-Rəhman ibn Cüheyl, Osmanın öldürülməsindən sonra camaatın Əli (ə) ilə beyəti zamanı belə demişdi:

لعمري لقد بايعتم ذا حفيظة علي الدين معروفَ العفاف موفّقا

–Canıma and olsun, onlar elə bir adamla beyət etmişlər ki, özü dinin qoruyucusu, iffətli və qalib olmaqda isə məşhurdur.

عليا وصي المصطفي و ابن عمه و اوّل من صلّي اخا الدين و التقي

–Əli (ə) ilə (beyət etmişlər) ki, Peyğəmbərin (s) vəsisi və əmisi oğludur, o həzrətlə namaz qılan birinci şəxsdir, o, din və təqva qardaşıdır.

Əzd tayfasından olan bir nəfər “Cəməl” döyüşündə belə demişdir:

هذا علي و هو الوصي اخاه يوم النجوة النبيّ

–Bu Əlidir, vəsidir. Peyğəmbər (s) onu (ə) özünə qardaş etmişdir.

و قال هذا بعدي الوليّ وَعاه واعٍ وَ نَسِيَ الشقيّ

–Buyurmuşdur ki, bu Əli (ə) məndən sonra vəlidir. Bu sözü çoxları yadda saxladı, bədbəxtlər isə unutdular.

“Cəməl” döyüşündə Bəni-Zəbbə qəbiləsindən olan bir cavan meydana gələrək elan etdi ki, mən Ayişənin qoşunundanam:

نحن بنوضبّة اعداءُ عليّ ذاك الذي يعرف قَدِماً بالوصيّ

–Biz – Zəbbə qəbiləsindən olanlar Əlinin düşmənlərindənik; o Əli ki, qədimdən bəri ona “vəsi” deyilərdi.

و فارس الخيل علي عهد النبيّ ما انا عن فضل عليّ بالعمي

–O kəs ki, Peyğəmbər (s) əsrində süvari pəhlivanlardan sayılardı. Mən Əlinin fəzilətlərindən agaham, kor deyiləm.

لكنني انعي ابن عفان التقي

–Amma mən istəyirəm ki, Əffanın oğlunun (Osman) qanının intiqamını alım!

Səid ibn Qeys Həmədani, (Əlinin (ə) qoşununda idi) “Cəməl” günü belə söylədi:

اية حرب اضرمت نيرانها وكسرت يوم الوعي مرانها

–Ey atəşi şölələnmiş döyüş, çətinliyi, möhkəmliyini itirmiş döyüş;

قل للوصي اقبلت قحطانها فادع بها تكفيكها همدانها

–Vəsiyə de ki, Qəhtan qəbiləsi sənə kömək etməyə tələsir və onları çağır (istə) ki, Həmdanlılar səni bu döyüşün narahatlığından qurtaracaqlar.

هم بنوها و هم اخوانها

–Onlar döyüş övladları və qardaşlarıdırlar.

Ziyad ibn Lübeyd Ənsari (İmamın dostlarından) “Cəməl” günü belə demişdir:

كيف تري الانصار في يوم الكلب اِنّا اناس لا نبالي من عطب

–Döyüşün müşkül günündə ənsarları nə cür görürsən? Biz elə bir camaatıq ki, çətinlikdən qorxmuruq.

ولا نبالي في الوصي من غضب و انما الانصار جدلا لعب

–Biz vəsinin yolunda heç bir şeydən çəkinmirik, onu bilməlisiniz ki, ənsarın işi ciddidir, zarafat etmirlər.

هذا عليّ و ابن عبد المطلب ننصره اليوم علي من قد كذب

–Bu Əlidir – Əbdül-Müttəlibin övladı. Bu gün ona yalançıların müqabilində kömək edirik.

من يكسب البغي فبئس ما اكتسب

–Zülm yolunda qədəm götürənlər, pis şey qazanırlar.

Hücr ibn Ədiy Kindi həmin günlərdə belə demişdir:

يا ربنا سلم لنا عليّا سلم لنا المبارك لمضيا

–İlahi, Əlini (ə) bizim üçün qoru! O bərəkətli adamı bizim üçün salamat et!

المؤمن الموحد التقيا لا خطل الرأي و لا غويا

–O şəxs, elə bir mömin və təqvalıdır ki, nə rəyini dəyişir, nə də ki, yolundan azır.

بل هاديا موفقا مهديا واحفظه ربي و احفظ النبيا

–O, hidayət edən, hidayət olunmuş və qalibdir. İlahi, onu hifz et! Peyğəmbəri də onun vücudunda hifz et!

فيه فقد كان له وليا ثم ارتضاه بعده وصيا

–(Çünki) o, Peyğəmbərin vəlisi, dostu (köməkçisi) idi. İlahi Peyğəmbərdən (s) sonra olan vəsisindən razı ol!

Əmr ibn Uhciyə “Cəməl” günü İmam Həsənin (ə) nitqi barəsində (ki, ibn Zübeyrin nitqindən sonra buyurmuşdu) belə dedi:

حسن الخير يا شبيه ابيه قمت فينا مقام خير خطيب

–Ey gözəl Həsən, ey atasına oxşayan, (sən) bizim aramızda ən gözəl xətibsən.

قمت بالخطبة التي صدع اللاهُ بها عن ابيك اهل العيوب

–Xütbə oxumaq üçün ayağa durdun və Allah onun (sənin xütbənin) vasitəsilə eyibliləri atanın ətrafından pərən-pərən saldı.

لست كابن الزبير لجلج في القو ل و طأطأ عنان فسل مريب

–Sən ibn Zübeyr kimi deyilsən ki, danışdıqda dilin tutulsun, danışa bilməyəsən, sözün cilovu (ixtiyarı) əlindən çıxsın.

و ابي الله ان يقوم بما قام به ابن الوصي و ابن النجيب

–Allah qoymaz ki, o (ibn Zübeyr) vəsinin övladı, ən nəcib şəxsin (Əli (ə)) övladı kimi söz deyə bilsin.

ان شخصا بين النبي لك الخير و بين الوصي غير مشوب

–Peyğəmbərdən (s) və onun vəsisindən (ə) vücuda gələn bir şəxsin heç bir eybi, nöqsanı olmaz.

Zəcr ibn Qeys Cöfi yenə də “Cəməl” günü demişdir:

اضربكم حتّي تقرّوا لعليّ خير قريش كلها بعد النبيّ

–Qılıncla o qədər sizi vuraram ki, axırı Əlinin(ə) haqq olduğunu iqrar edəsiniz. O ki, Peyğəmbərdən sonra Qüreyşin ən yaxşısıdır.

من زانه الله و سمّاه الوصي

–O elə bir şəxsdir ki, Allah onu zinətləndirmiş və vəsi adlandırmışdır.

Zəcr ibn Qeys Cöfi “Siffeyn” döyüşündə demişdir:

فصلي الاله علي احمد رسول المليك تمام النعم

–İlahi, Əhmədə (s) salam göndər, o peyğəmbərə ki, (onun) vasitəsilə nemətləri tamam etmisən;

رسول المليك و من بعده خليفتنا القائم المدعم

–(Salam göndər) Allahın rəsuluna və ondan sonra haqq üzrə xəlifə olana, vəzifəsinə əməl edənə;

عليا عنيت وصيَّ النبي يجالد عنه غواة الأمم

–Məqsədim Əlidir – Peyğəmbərin vəsisi ki, o, ümmətin azmışlarını ondan (Peyğəmbər (s)) uzaqlaşdırır.

Əşəs ibn Qeys Kindi belə demişdir:

اتانا الرسول، رسول الامام فسر بمقدمه المسلمونا

–İmamın göndərdiyi şəxs gəldi, müsəlmanlar onun gəlişindən xoşhal oldular;

رسول الوصي، رسول النبي له السبق و الفضل في المؤمنينا

اتانا الرسول، رسول الوصي علي المهذب من هاشم

وزير النبي و ذي صهره و خير البريّة و العالم

–O (Əli), Peyğəmbərin vəziri, kürəkəni və yer üzündə olan məxluqların ən yaxşısıdır.

Nöman ibn İclan Zərqi Ənsari “Siffeyn”də belə dedi:

كيف التفرق و الوصي اِمامنا لا كيف الا حيرة و تخاذلا

–(Peyğəmbərin) vəsisi bizim imamımız olduğu halda, daha təfriqə (ayrılıq) nə üçündür? (Sizlər) heyrətdən (burada sərgərdan dolanmaqdan) və xarlıqdan savayı bir şey axtarmırsınız.

فذروا معاوية الغوي و تابعوا دين الوصي لتحمدوه آجلا

–Azğın Müaviyəni buraxın və vəsinin dininə tabe olun ki, qiyamətdə sizi tərifləsinlər.

Əbdür-Rəhman ibn Zövəb Əsləmi Müaviyəni iraqlı qoşunlarla hədələdiyi şerində deyir:

يقودهم الوصي اليك حتّي يردك عن ضلال و ارتياب

–Vəsi onları sənin (Müaviyə) tərəfinə doğru hərəkət etdirir ki, səni azğınlıqdan, şəkk və şübhədən çəkindirsin.[1]

Abdullah ibn Əbu Süfyan ibn Haris ibn Əbdül-Müttəlib deyir:

ان وليّ الامر بعد محمد علي و في كل المواطن صاحبه

–Məhəmməddən sonra bütün müsəlmanların vəlisi Əlidir ki, bütün yerlərdə onunla birgə olmuşdur.

وصي رسول الله حقا و صنوه و اول من صلّي و من لانَ جانبه

[1] Bu beyt və əvvəllərdə gətirdiyimiz şerlərin hamısı tarix kitablarında, məxsusən “Cəməl” və “Siffeyn” barəsində yazılmış kitablarda gəlmişdir. Onların hamısını əllamə mühəqqiq İbn Əbil-Hədid “Nəhcül-Bəlağənin şərhi”ndə (1-ci cild, 47-50-ci səhifələrdə Misir çapı) nəql etmişdir (İmamın Əhli-beyt haqqında söhbət etdiyi xütbəsinin şərhində nəql etmişdir). İbn Əbil-Hədid onları nəql etdikdən sonra deyir: “Vəsiyyət (vəsilik) kəlməsi olan şerlər olduqca çoxdur.” Biz onlardan bəzisini Əbu Mixnəfin “Vəqətül-Cəməl” və Nəsr ibn Müzahimin “Siffeyn” kitablarından nəql etdik. Amma bu ikisindən başqa yerlərdə gəlmiş şerlər saya-hesaba sığışmır. Əgər yorucu olmasaydı, o şerlərlə səhifələr (yazıb) doldurardım.

–O, doğrudan da, Peyğəmbərin vəsisi və mehriban qardaşıdır. Namaz qılan və müsəlman olan ilk şəxsdir.

Xüzeymə ibn Sabit (Züş-şəhadəteyn) belə söyləmişdir:

وصي رسول الله من دون اهله و فارسه مذ كان في سالف الزمن

–O, Peyğəmbərin qohumları içərisində (onun) vəsisidir. O, elə keçmiş zamanlardan bəri onun (s) pəhləvanıdır.

و اول من صلّي الناس كلهم سوي خيرة النسوان و الله ذو المنن

–O bütün adamların içərisində namaz qılan ilk şəxsdir. Bu sözü Allaha and içərək deyirəm.

Zəfər ibn Hüzeyfə Əsədi deyir:

فحوطوا عليا و انصروه فانه وصي و في الاسلام اول اول

–Əlinin ətrafına yığılaraq ona kömək edin, çünki o vəsidir, İslamda birinci şəxsdir.[1]

Əbül-Əsvəd Duəli deyir:

و عباسا و حمزة و الوصيا احب محمدا حبا شديدا

–Mən Məhəmmədi çox sevirəm, həmçinin Abbası, Həmzəni və vəsini.

Nöman ibn İclan (ənsarlı şair və onların böyüklərindən biri) İbn Asa[2] müraciətlə yazdığı qəsidəsində deyir:

وكان هوانا في عليّ و انه لِاهل لها من حيث تدري و لا تدري

–Bizim meylimiz Əliyə tərəfdir, onun bu məqama ləyaqəti vardır, bilsən də, bilməsən də.

فذاك بعون الله يدعو الي الهدي و ينهي عن الفشاء و البغي و النكر

–O, (bütün insanları) Allahın köməyi ilə hidayətə dəvət edir, pis işlərdən, zülmdən çəkindirir.

وصي النبي المصطفي و ابن عمه و قاتل فرسان الضلالة و الكفر

–O, Peyğəmbərin vəsisi, əmisi oğludur, küfr və azğınlıq (ordusunun) pəhləvanlarını öldürəndir.

Fəzl ibn Abbas şerlərində belə deyir:

الا ان خير الناس بعد نبيهم وصي النبي المصطفي عند ذي الذكر

–Agah olun ki, Allahın nəzərində Peyğəmbərdən sonra bəndələrin ən yaxşısı onun (s) vəsisidir.

و اول من صلّي و صنوُ نبيّه و اول من اردي الغواة لدي بدر

–O, namaz qılan ilk şəxsdir, Peyğəmbərin qardaşıdır, "Bədr"də azğınları qovan ilk şəxsdir.[3]

Həssan ibn Sabit bütün ənsarlıların dilindən Əlini (ə) tərif etdiyi şerdə[4] belə deyir:

---

[1] Zəfərin, Xüzeymənin və Abdullah ibn Əbu Süfyanın şerini İskafi "Nəqzul-Osmaniyyə" kitabında nəql etmiş və İbn Əbil-Hədid "Qasiə" xütbəsinin şərhinin axırında (3-cü cild, səh. 258) gətirmişdir.

[2] Zübeyr ibn Bukar "Müvəffəqiyyətlər" kitabında onu zikr etmiş, İbn Əbil-Hədid "Nəhcül-Bəlağənin şərhi"nin 3-cü cildinin 13-cü səhifəsində onu nəql etmişdir. Amma ibn Əbdül-birr bu qəsidəni Nömanın şərhi-halında zikr etmiş, kimə aid olduğunu göstərməmişdir. Bəli, bu cür xilaf işlər görürlər, bəli, belə də edirlər! (və kəzalikə yəfəlun).

[3] İbn Əsir "Kamil"in 3-cü cildində, Osmanın şərhi-halında (74-cü səh.) bu şeri gətirmiş, lakin təhrif edərək bu cür vermişdir: "Agah olun ki, insanların ən yaxşısı üç xəlifədən sonra..."(Nə qədər gülüncdür.)

[4] Zübeyr ibn Bukar "Müvəffəqiyyətlər" kitabında onu gətirmiş, İbn Əbil-Hədid "Nəhcül-Bəlağənin şərhi"ndə, 2 cilddə, 115-ci səhifədə onu nəql etmişdir.

حفظت رسول الله فينا و عهده اليك و من اولي به منك و من

–Sən Allah rəsulunu bizim aramızda qorumusan, o həzrətin (bütün) sifarişləri və əhdləri sənin üçün olmuşdur, səndən başqa Peyğəmbərə ən yaxın olan kimdir, kim?

الست اخاه في الهدي و وصيه و اعلم منهم بالكتاب و بالسنن

–Məgər sən onun qardaşı və vəsisi deyilsənmi? Quran və sünnəti səndən yaxşı kim bilir?

Şairlərdən bəziləri İmam Həsənə (ə) xitabən belə söyləmişlər:[1]

يا اجل الانام يابن الوصي انت سبط النبي و ابن علي

–Ey insanların ən yaxşısı, ey vəsinin oğlu, sən Peyğəmbərin nəvəsi və Əlinin oğlusan.

Ümmü-Sənan, Xüseymə ibn Xərşə Məzhəcinin qızı[2] Əliyə xitabən söylədiyi və onu mədh etdiyi şerdə deyir:

قد كنت بعد محمد خلفا لنا اوصي اليك بنا فكنت وفيا

–Sən Məhəmməddən sonra bizim üçün onun doğru xələfi və canişini idin, Peyğəmbər (s) bizi sənə sifariş etmiş idi (tapşırmışdı), sən də bu əhdinə çox yaxşı vəfa etdin.

Bu şerlər (məktubumuzun ölçüsünə görə olub), imam Əmirəl-mömininin zamanında deyilmişdir. Amma o həzrətin zamanından sonrakı dövrlərdə deyilmiş şerləri də toplasaydıq, qalın bir kitab olardı. Etiraf etməliyik ki, bu barədə acizik. Bunlardan əlavə, həm yorğunluğa səbəb ola bilər, həm də əsl mövzudan xaric olarıq. Buna görə də gəlin məşhur adamların dediklərinə nəzər salıb, onu indiyə kimi dediklərimizə əsasən, ülgü və nümunə hesab edək.

Kumeyt ibn Zeyd Haşimi öz qəsidəsində (beytlərin hamısı “mim” (m) hərfi ilə tamam olur) belə deyir:

و الوصي الذي آمال التجوبي به عرش امة لانهدام

–Və (elə bir) vəsidir ki, arzuların pənahgahı, ümmətin uçurumdan nicat verənidir.[3]

كان اهل العفاف و المجد و الخيرِ و نقض لامور و الابرام

–O, iffət, böyüklük, yaxşılıq əhli idi, o işlərin həll və “fəsl” edənidir.

و الوصي الوليّ و الفارس المعلمُ تحت العجاج عير الكهام

---

[1] Şeyx Məhəmməd Əli Həşişu Hənəfi Seydavi “Asari-zəvatis-sivar” kitabının 65-ci səhifəsinin haşiyəsində Amirin qızı Fatimə ilə Müaviyədən söhbət açarkən Müaviyənin qarşısında söylədiyi şeri nəql etmişdir.

[2] Əbülfəzl Əhməd ibn Əbu Tahir Bağdadi bunu “Bəlağətun-nisa” kitabının 67-ci səhifəsində Ümmü Sənandan söhbət edərkən, həmçinin Şeyx Məhəmməd Əli Həşişu Hənəfi Seydavi “Asari-zəvatis-sivar”ın 78-ci səhifəsində bunu Ümmü Sənandan nəql etmişdir.

[3] Əllamə Şeyx Məhəmməd Mahmud Rafei bu beytin şərhində belə deyir: “Vəsidən məqsəd Əlidir (Allah onun üzünü kərəmləndirsin!) onu “vəsi” adlandırmışlar. Çünki Peyğəmbər onu özünə “vəsi” seçmişdir.” Həmçinin, Büreydə atasından nəql edir ki, Peyğəmbər buyurmuşdur: لكل نبيّ وصي و ان عليا وصي و وارثي “Hər Peyğəmbərin vəsisi vardır, mənim vəsim və varisim də Əlidir.”

Tirmizi yazmışdır ki, Peyğəmbər buyurmuşdur: من كنت مولاه فعلي مولاه “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.” Buxari, Səddən nəql etmişdir ki, Peyğəmbər Təbuk döyüşünə gedərkən Əlini öz yerində (Mədinədə) canişin qoydu. Əli (ə) ərz etdi ki, məni qadınlar və uşaqlar arasındamı qoyursan? Buyurdu: “İstəmirsənmi sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimi olsun? Yalnız bu fərqlə ki, məndən sonra Peyğəmbər yoxdur. Həmçinin ibn Qeys demişdir: نحن منا النبيّ احمد و الصدّيق منا التقي و الحلما “Peyğəmbəri-Əkrəm (s), Siddiq bizdəndir, həmçinin bizdəndir o təqvalı və agah (bilici) şəxs; و عليّ و جعفر ذو الجنا حينِ هناك الوصي و الشهداء həmçinin “Əli və Cəfər bizdəndir...” Sonra demişdir ki, bu mətləbi hamı bilir və deyir. Ardınca şerləri də şahid gətirmişdir.

–O, Peyğəmbərin vəsisi, vəlisi, əlində bayraq tutan bir pəhləvan idi ki, düşməni toz-torpaq içində əzirdi, heç bir zəiflik və süstlük ona qalib gələ bilməzdi.

و وصي الوصي ذي الخطة الفصل و مردي الخصوم يوم الخصام

–O, Peyğəmbərin düzgün yolda olan vəsisi idi, belə ki, döyüş vaxtı düşmənləri bir-birinə qatardı.

Kəsir ibn Əbdür-Rəhman ibn Əsvəd ibn Amir Xüzai (“Kəsiri-İzzə” ləqəbi ilə məşhur idi) deyir:

وصي النبي المصطفي و ابن عمه و فكاك اعناق و قاضي مغارم

–(O), Peyğəmbərin vəsisi, əmisi oğlu idi, insanları azad edən, borcluların borcunu ödəyən idi.

Əbu Təmmam Tai öz qəsidəsində (bütün beytləri “r” hərfi ilə bitir) belə deyir:[1]

و من قبله احلفتم لوصيه بداهية دهياء ليس لها قدر

–Əvvəllər onun (Peyğəmbərin) vəsisinə and içirdiniz ki, hər hansı şəraitdə olsa belə, onunla birgə olacaqsınız.

فجئتم بها بِكرا عوانا ولم يكن لها قبلها مثلا عوان و لا بِكر

–(Amma sonra isə) o işləri əncam verdiniz, ona misli görünməmiş zərbələri ardıcıl olaraq vurdunuz.

اخوه اذا عد الفخار و صهره فلا مثله اخ و لا مثله صهر

–(Amma o zamanlar) o həzrətin fəzilətlərini saydıqda onun (Peyğəmbər) qardaşı, kürəkəni idi ki, nə elə bir qardaş, nə də elə bir kürəkən tapmaq olmaz.

و شد به ازراالنبيّ محمد كما شد من موسي بهارونه الازر

–Məhz onun vasitəsilə Peyğəmbərin də dayağı –Musanın arxası Harunla möhkəmləndiyi kimi– bərkidi.

Dibil ibn Əli Xüzai, Seyyidüş-şühədaya qoşduğu mərsiyyəsində belə demişdir:

رأس ابن بنت محمد و وصيه يا للرجال علي قناة يرفع

–Ey camaat, Məhəmmədin (s) qızının və vəsisinin övladının başı nizəyə keçirilmişdir!

Əbu Təyyib Mütənnəbi – Əhli-beyti mədh etməyi tərk etdiyinə görə danlananda– (divanında gəlmişdir) belə deyib:

و تركت مدحي للوصي تعمّدا اذ كان نورا مستطيلا شاملا

–Mən özüm bilərəkdən onu mədh etməkdən əl çəkdim, çünki o, hər yeri əhatə edən bir nurdur;

و اذا استطال الشيئ قام بنفسه و صفات ضوء الشمس تذهب باطلا

–Bir şey özü (hər yeri tutaraq) öz ayağı üstə durmağa qüdrət taparsa, (daha köməyə ehtiyacı yoxdur) və günəşin nurunu vəsfləndirmək isə boş-boş çərənləməkdir.

Həmçinin Əbül-Qasim Tahir ibn Hüseyn ibn Tahir Ələvi öz mədhində (divanında) belə demişdir:

هو ابن رسول الله و ابن وصيه و شبههما شبهت بعد التجارب

–O (İmam Hüseyn) Peyğəmbərin, vəsisinin oğludur və başqa əlamətləri;...

Bunlardan əlavə çoxlu şerlər də vardır ki, saya-hesaba gəlməzlər. Vəssalam.

***“Ş”***

---

[1] Bu qəsidənin əvvəli olub, onun divanında gəlmişdir.

# *YÜZ DOQQUZUNCU MƏKTUB*

23 Rəbiüs-Sani 1330

***Şiənin həm üsulda, həm də füruda Əhli-beytə tabe olmağına irad tutanlara cavab istəmək.***

19-cu məktubda sizə demişdik ki, sizin müxaliflərinizdən bəziləri məzhəbinizin (həm üsulda, həm də füruda ) Əhli-beyt imamlarına isnad etmələrinə irad tuturlar. Siz də bizə bu barədə yazacağınızı vəd vermişdiniz (artıq onun vaxtı gəlib çatmışdır). Mümkündürmü, lütf edib cavab verəsiniz ki, onların iradı da aradan getsin? Vəssalam.

***"S"***

## *YÜZ ONUNCU MƏKTUB*

29 Rəbiüs-Sani 1330

***1. Əhli-beyt imamları tərəfindən şiə məzhəbi "mütəvatir" surətdə təsdiq olunmuşdur.***

***2. Səhabənin zamanından bəri elmlərin yaranması və inkişafında şiənin qabaqcıllığı.***

***3. Tabein və onlardan sonrakı zamanlarda şiə yazıçıları.***

1. Agah olanlar şəkk-şübhəsiz bilirlər ki, imamiyyə şiəsi[1] həmişə üsuli din və fürui-dində Allah rəsulunun (s) pak Əhli-beytinə tabe olmuş və bir zərrə belə olsun, onlardan ayrılmamışlar. Deməli, şiə rəy və nəzəriyyəsi həm üsuli-din, həm fürui-din, həm Quran və həm də sünnətdən götürülən digər elmlərdə Əhli-beyt imamlarının rəyinə əsaslanır. Bu sahələrin heç birində Əhli-beyt imamlarından başqasına etimad və müraciət etmirlər. Beləliklə, onlar dindar və Allaha yaxın olmaq istəyənlərdir – lakin Əhli-beyt məzhəbi (yolu) ilə. Onların yolundan savayı heç bir yolu seçmir və getmirlər. Keçmişdəki saleh şiələr bu minvalla ömür sürmüş, Əmirəl-möminin, Həsən, Hüseyn və o biri imamların zamanından indiyə kimi belə olmuşlar. Çoxlu etibarlı (sadiq) və hafiz (Quranı hafizi) şiələr imamların hər birindən öz məzhəblərinin üsul və füruunu öyrənmiş, yadda saxlamışlar. Onlardan çoxları ki, təqva və imanda yüksək dərəcələrə nail olmuş, bu mətləbləri nəql etmiş, onlardan sonra gələn nəsillər də o biri nəslə ötürmüş və indi bizədək gəlib çatmışdır (elə əvvəlki kimi, dəyişilməmiş).

Beləliklə, biz hal-hazırda, üsul və füruda Əhli-beyt imamlarının qəbul etdiklərini qəbul edirik. Bu məzhəbi atalarımız bizə bütün incəlikləri ilə öz atalarından, onlar da öz əcdadlarından nəql etmişlər, bu vəziyyət beləcə (bütün nəsillərdə) davam etmiş, İmam Əskəri, İmam Hadi, İmam Cavad, İmam Rza, İmam Musa, İmam Kazim, İmam Sadiq, İmam Baqir, İmam Səccad, İmam Hüseyn, İmam Həsən və Əmirəl-mömininin (ə) vaxtına kimi silsiləvari surətdə gedib çıxar. Biz bu gün bütün şiələrin (imamların səhabələrini, dinin dayaqları və İslam elmlərini onlardan öyrənərək başqa nəsillərə çatdıranlar) adlarını çəkə bilmərik, çünki onların adları saya-hesaba gəlmir. Təkcə böyük şəxsiyyətlərin kitablarında qeyd olunan adlara müraciət etmək kifayətdir (yəni, onların adları bu məktuba sığışmaz). Şübhəsiz, onlar bütün bu mətləbləri hidayət imamlarının (Əhli-beyt) elmlərinin nurundan kəsb etmiş, onların elm dəryalarından öz "qaşıq"ları ilə (mübarək ağızlarından) götürmüşlər. Beləliklə, bu yazılar onların öz zamanlarında yazılmış və sonradan şiə üçün mədrəkə çevrilmiş elm mənbələridir. Bununla da Əhli-beyt məzhəbinin o biri müsəlman məzhəblərə olan üstünlüyü aşkar olur. Çünki Əhli-sünnənin dörd məzhəb imamlarına təqlid edənlərdən bir nəfər də belə tanımırıq ki, öz zamanlarında məzhəbləri haqda kitab yazmış olsun. Camaat, sadəcə olaraq, məzhəbinə alışmış, onların ölümündən sonra (təqlidçilərin) sayları çoxalmışdır. Bu çoxalmanın səbəbi isə hökumətin (o zamanın) təqlidi bu dörd məzhəbdən birinə həsr etməsi və məzhəbdə (fürui-dində) rəhbərliyin yalnız bu dörd nəfərə xass olması ilə bağlıdır. Yoxsa, elə bu dörd nəfərin özləri də öz müasirlərindən olan fəqihlər, mühəddislər (hədis söyləyənlər) kimi olub, onlardan artıq bir üstünlüyə sahib deyildilər. Elə buna görə də öz əsrlərində onların sözlərini toplamağa əhəmiyyət verən bir adam yox idi. Amma şiə elə əvvəldən məsum imamların (ə) sözlərini yazmağa təşəbbüs göstərmişdir ki, bunun da səbəbi, dini və məzhəbi məsələlərdə onlardan qeyrisinə müraciət etməyi caiz bilməmələrində idi. Elə buna görə də onların (ə) ətrafına

[1] İraqda çap olan "Əl-huda" jurnalı bu məktubu (bu) kitabdan götürərək, iki nömrədə bu həqirin adı ilə (Əbdül-Hüseyn Şərəfüddin əl-Musəvi) nəşr etmişdir.

toplaşmış, dini göstərişləri mənimsəməkdə yalnız imamlardan istifadə etmişlər və bu yolda çox zəhmət çəkmişlər. Bütün bunların hamısı elə bir elmin yığılıb saxlanılması naminə idi ki, (şiənin nəzərinə görə) ondan başqası Allah dərgahında qəbul deyildir. Bircə bunu bilməyin kifayətdir ki, yalnız İmam Sadiqin (ə) zamanında dörd yüz "əsl" (dini-elmi əsər) yazılmışdı. Belə ki, dörd yüz nəfər onları yazaraq dörd yüz kitaba çevrilmişdi. Bu yazılar İmam Sadiqin (ə) öz zamanında buyurduğu fitvalar idi. İmam Sadiqin (ə) əshabının bu dörd yüz "əsl"dən başqa bir çox yazıları da var idi ki, inşaallah, bu barədə tezliklə biləcəksən.

Amma əhli-sünnədən olan dörd imamın heç kimin yanında, Əhli-beyt imamlarının şiənin yanında olan məqamı qədər ehtiramı yoxdur. Hətta öləndən sonra onlar üçün seçilən bu məqam heç onların sağlığında belə yox idi, necə ki, ibn Xəldun "fiqh" elmi barəsində yazdığı kitabın müqəddiməsində, eləcə də bir çox əhli-sünnə böyükləri bu məsələni etiraf etmişlər. Amma bununla belə, şəkk etmirik ki, onların məzhəbi həmin ona tabe olduqlarının məzhəbidir, belə ki, öz kitablarında yazılmış və dövrümüzədək gəlib çatmışdır. Çünki hər bir məzhəbin ardıcılları öz məzhəbinə daha artıq tanışdır, necə ki, şiə də öz imamlarının məzhəbinə hamıdan daha artıq agahdır. Beləliklə, şiələr mötəqid olduqları məzhəb əsasında Allaha ibadət edir və başqa cür də edə bilməzlər.

2. Mühəqqiqlər şiələrin islami elmlərin tədvinində (yazılmasında, yaradılmasında) başqalarından irəlidə olduğunu çox gözəl bilirlər. Çünki, birinci əsrdə Əlidən (ə) və alim şiələrdən savayı heç kim bu işi öz öhdəsinə götürməmişdir. Bəlkə də bunun sirri səhabənin elmlərin yazılıb-yazılmamasınındakı ixtilafları idi.

Əsqəlani "Fəthül-Bari" kitabının müqəddiməsində (səh. 4) qeyd edir ki, Ömər ibn Xəttab və bir neçə nəfər (sünnə və hədisləri) yazmaq istəsələr də, qorxmuşlar ki, Quranla qarışıq düşər. Amma Əli (ə), onun canişin olan övladı və səhabədən bir qrupu bu işi caiz bilirdilər. Vəziyyət bu minvalla davam etdi və 2-ci əsrdə ("tabein" əsrinin axırlarında) onların yazılmasının caizliyinə "icma" nəzər verdi. Bu o zaman idi ki, İbn Cərih öz "Tarix" kitabını (Mücahid və Ətadan nəql edərək) təlif etdi ki, Qəzalinin dediyinə görə bu, İslamda yazılan ilk kitab olmuşdur. Əlbəttə, belə desək daha doğru olar: bu kitab İslamda qeyri-şiə tərəfindən yazılmış ilk kitabdır. Ondan sonra Yəməndə Mötəmər ibn Raşid Sənaninin kitabı və daha sonra Malikin "Müvəttə" kitabı yazıldı. "Fəthül-Bari" kitabının müqəddiməsində gəlmişdir ki, Rəbi ibn Səbih hədisləri toplayıb yazan ilk şəxsdir (o, "tabein" əsrinin sonlarında yaşamışdır).

Beləliklə, şiədən başqa müsəlmanların ilk əsrdə kitab yazmamaqları "icma" surətində məlumdur (hamı bu nəzərlə müvafiqdir).

Amma Əli (ə) və şiələri elə ilk dövrlərdə bu işi öz öhdələrinə götürmüşdülər və Əmirəl-mömininin (ə) yazıb topladığı ilk kitab Quran olmuşdur. Çünki o həzrət Peyğəmbərin dəfnindən sonra Quranı bir yerə toplamayınca (yəni kitab halına salmayınca) əbanı çiyninə atmayacağına and içmişdi (namaz istisna olmaq şərtilə). Beləliklə, onu nazil olma tərtibilə bir yerə yığdı və elə oradaca "ümumi və xüsusi; mütləq və müqəyyəd; möhkəm və mütəşabeh; nasix və mənsux; vaciblər və tərkləri caiz olanlar; sünnələr və ədəblər və s." mətləblərə toxunmuş, həmçinin ayələrin nazil olma səbəblərini açıqlayaraq müşkül məsələləri də izah etmişdi. İbn Sirin həmişə deyərdi: "Əgər həmin Quran məndə olsaydı, əlim həqiqi elmlərə çoxdan çatmışdı."[1]

Əlbəttə, səhabədən bəzisinin Quranı toplamaq qərarına gəlmələrinə baxmayaraq onu nazil olma əsasında cəm edə bilmədiklərindən əlavə, işarə etdiyimiz mətləbləri orada gətirə bilmədilər. Beləliklə, İmamın (ə) cəm etdiyi Quranın təfsirə daha çox oxşarlığı vardı. Quranı cəm etdikdən sonra Fatimeyi-Zəhra (ə.h) üçün kitab təlif etməyə başladı ki, bu əzəmətli xanımın pak övladlarının yanında "Fatimə müshəfi" adı ilə məşhurdur. Hikmətli sözlər, zərbül-məsəllər, moizələr, ibrətamiz nəsihətlər və bəzi xəbərlərlə zəngin olan bu kitab atasının

[1] İbn Həcər "Səvaiq" kitabında və başqa böyük şəxsiyyətlərin yazdığı kimi.

(Allah rəsulunun vəfatından sonra o xanıma yeganə təsəlli verən mənbə idi. Sonra isə o həzrət “diyələr” (cəza və qanbahası hökmləri) barəsində kitab yazaraq, onu da “Səhifə” adlandırdı. Bu kitabı ibn Səd öz məşhur “əl-Came” kitabının axırında Əmirəl-mömininə isnad verərək gətirmişdir. Mən Buxari və Müslimin də bu səhifəni bəzən zikr edərək, öz “Səhih”lərində ondan bəzi mətləbləri nəql etdiklərini görmüşəm. Nəql etdikləri rəvayətlərdən biri də budur: Əməş, İbrahimdən, o da öz atasından nəql edir ki, Əli (ə) buyurmuşdur: “Bizim yanımızda Allahın kitabından və “Səhifə”dən başqa oxunmalı bir kitab yoxdur. “O daha sonra “Səhifə”ni çıxartdıqda, orada yaralar və dəvələrin dişləri barəsində məlumatların yazılmış olduğunu gördük. Orada gəlmişdir ki, Mədinə hərəmdir və onun həddi “eyr” və “sur” arasındakı fasilədir. Bu hüdudda cinayət edən, ya cinayətkara aman verən şəxsə Allahın, mələklərin və bütün insanların lənəti olsun!” Bu hədisi Buxari öz “Səhih”inin 4-cü cildinin (fəraiz kitabının) “ismi mən təbərrəə min məvalihi” babında, 111-ci səhifədə nəql etmişdir. Müslim onu öz “Səhih”inin 1-ci cildinin (həcc kitabı) “fəzlül-Mədinə” babında, 523-cü səhifədə gətirmiş, İmam Əhməd öz “Müsnəd”ində “Səhifə”dən çoxlu hədis nəql etmişdir. Onlardan biri Əlidən (ə) nəql etdiyi bu hədisdir ki, “Müsnəd”in 1-ci cildinin 100-cü səhifədə Tariq ibn Şəhabdan gətirmişdir: “Gördüm ki, Əli (ə) minbərdə buyurur: “And olsun Allaha, bizim yanımızda Allahın kitabından və bu “Səhifə”dən başqa sizə oxumalı kitabımız yoxdur.” “Səhifə”ni Peyğəmbərdən almışdı və qılıncından asırdı.”

Digər bir rəvayətdə Səffar Əbdül-Məlikdən nəql edir ki, Əbu Cəfər (ə) Əlinin kitabını istədi, Cəfər də onun üçün gətirdi. Bu kitab (bir şeyə) bükülmüş və insan budu qalınlıqda idi. Orada yazılmışdı ki, “qadınlara ərlərinin malik olduğu torpaqdan irs çatmır.”

İmam Əbu Cəfər (ə) buyurub: “Allaha and olsun ki, bu, Əlinin dəst-xəttidir (Allah rəsulunun (s) imlası ilə).”

O həzrətin şiələrindən bir qrupu Əmirəl-mömininə iqtida edərək kitab yazmaqla məşğul idilər. İbn Şəhr Aşubun dediyinə görə Salman və Əbuzər də kitab yazanlardan idi. O deyir: “İslamda ilk kitab yazan Əli ibn Əbu Talib, sonra Salman Farsi, sonra Əbuzər, daha sonra isə Əbu Qafe (Allah rəsulunun azad etdiyi qul) idi ki, Əmirəl-mömininin zamanında beytül-malın rəisi və o həzrətin ən yaxın dostlarından idi. O, Əlinin (ə) hədislərini toplayaraq “Sünən, əhkam və qəzavətlər” kitabını təlif etmişdir. Bu kitabın bizim sələflərimizin yanında böyük məqamı vardır və əshabımız onu (kitabı) öz yolları (təriqləri) ilə Əbu Rafeyə isnad vermişlər.

Onlardan əlavə Əli ibn Əbu Rafedir. “Əl-İsabə” kitabında onun tərcümeyi-halında deyilmişdir ki, o, Peyğəmbərin (s) zamanında dünyaya gəlmiş və Həzrət də onun adını Əli qoymuşdur. Onun Əhli-beyt məzhəbi və fiqh elmləri barəsində kitabı vardır. İmamlar bu kitaba yüksək qiymət verir, şiələr isə ona müraciət edərdilər. Musa ibn Abdullah ibn Həsən deyir ki, bir nəfər atamdan “təşəhhüd” barəsində soruşduqda atam dedi: “Əbu Qafe oğlunun kitabını gətir! Sonra atam o kitabı əlinə alıb bizim üçün oxudu.”

“Rövzatül-cənnat” kitabının müəllifi yazır ki, o, şiənin ilk fiqh kitabıdır, lakin, səhv etmişdir.

Başqa birisi isə Əlinin (ə) dostu və özü yazıçı olan Abdullah ibn Əbu Rafedir. Bu, həmin şəxsdir ki, Allah rəsulundan (s) Cəfər Təyyara buyurduğu hədisi eşitmiş və rəvayət etmişdir: “Sən yaranışda və əxlaqda mənə bənzəyirsən.” Bu hədisi bir qrup ondan nəql etmişlər. O cümlədən, Əhməd ibn Hənbəl öz “Müsnəd”ində, İbn Həcər “Əl-İsabə”nin 1-ci cildində onu Übeydullah ibn Əsləm adı ilə vermişdir (çünki atasının adı Əsləm olmuşdur). Übeydullah Peyğəmbərin (s) əshabından “Siffeyn” döyüşündə iştirak edənlər barəsində bir kitab yazmışdır ki, İbn Həcər “Əl-İsabə” kitabında ondan çox hədis nəql edir. Ora müraciət edə bilərsiniz.[1]

[1] Cübeyr ibn Hübab ibn Münzir Ənsarinin şərhi-halına (“Əl-İsabə”, 1-ci qisim) baxılsın.

Həmçinin Rəbi ibn Səminin də adını çəkmək olar ki, heyvanların təzkiyəsi (kəsilməsi) barədə bir kitab yazmışdır. Oradakı hədislər Əlinin (ə) Allah rəsulundan nəql etdiyi hədislərdir.

Eləcə də Abdullah ibn Hürr Farsinin də hədis kitabının misal göstərmək olar ki, buradakı hədislər Əlinin (ə) Allah rəsulundan nəql etdiyi hədislərdir.

Əsbəğ ibn Nübatədən (Əmirəl-mömininin yaxın dostu və ona çox bağlı olan) də söhbət açmaq yerinə düşərdi. Bu həmin şəxsdir ki, "əhdnameyi-Malik Əştər" və Əlinin (ə) oğlu Məhəmmədə etdiyi vəsiyyəti nəql etmişdir (bizim əshab bu iki hədisi ondan düzgün sənədlə nəql etmişlər).

O adamlardan biri də Əmirəl-mömininin dostu Səlim ibn Qeys Hilalidir. Səlim, İmamdan (ə) və Salman Farsidən hədis nəql etmişdir. Onun "imamət" barəsində bir kitabı da var ki, Məhəmməd ibn İbrahim Nömani "Qeybət" kitabında onun adını çəkmiş və demişdir: "Bütün şiə alimləri və hədis söyləyənlər arasında şəkk-şübhə yoxdur ki, Səlim ibn Qeysin kitabı o kitablardandır ki, Əhli-beytin hədislərini nəql edənlər qədimdən bəri ona istinad edərək, hədis nəql etmişlər." Bu kitab şiənin mötəbər sandığı "əsl" (birinci dərəcəli) kitablardan biridir.

O zaman kitab yazan əshabımız haqqında məlumat almaq istəyənlər "fehrest" və "rical" kitablarına, məxsusən Hacı Ağa Bözörg Tehraninin "Əz-Zəriə" kitabına müraciət edə bilərlər.

O ki qaldı bizim 2-ci dərəcəli yazıçılarımıza (yəni "tabeinlər" arasında olanlara) etiraf etməliyik ki, bu məktubda onların hamısının adlarını çəkmək olmaz. Onlar haqqında müfəssəl məlumat almaq istəyənlər şiə alimlərinin həmin kitablarına müraciət edə bilərlər.[1]

Bu əsrdə də (tabeinlərin zamanı) əvvəllərdə olduğu kimi, zülmkarların qara buludları ilə örtülmüş ikən, Əhli-beyt nuru işıq saçdı. Səbəbi də bu idi ki, "Təf" faciəsi (qanlı Kərbəla qiyamı) Ali-Məhəmmədin düşmənlərini rüsvay edib, onları agah adamların gözündən salaraq mühəqqiqlərin diqqətini Əhli-beytin müsibətlərinə cəlb etdi (Allah rəsulunun vəfatından başlamış Əhli-beyt müsibətləri və onların səbəblərini araşdırıb camaatın nəzərinə çatdırılması, mühəqqiqləri təhqiqə vadar etdi). Nəhayət, səbəbləri araşdırıldı, bir çox həqiqətlər bilindi və müsibətlərin kökü aşkar edildi. Elə buna görə də qeyrəti olan müsəlmanlar Əhli-beytə dayaq və onlara kömək məqsədilə ayağa qalxdılar (onlar isə həmişə məzlumun köməyi, zalımların düşməni olmuşlar). Sanki bu faciədən sonra yeni bir dövran başlandı. Çoxları İmam Əli ibn Hüseyn Zeynəlabidinin (ə) rəhbərliyini qəbul edərək dinin üsul və füruundan xəbərdar olmaq üçün o həzrətə qoşuldular, Quran və sünnə məsələlərində, bütün islami və qeyri-islami elmlərdə o həzrətə müraciət etdilər. Ondan sonra isə oğlu İmam Baqirə üz tutdular. Elə buna görə də bu iki imamın, İmam Səccad və İmam Baqirin (ə) əshabı minlərlə idi.

"Rical" kitablarında adları və şərhi-halları verilən həmin adamlar (yəni, əshabın alim və biliciləri) dörd min nəfərə çatır və yazdıqları kitabların sayı isə on mini keçir. Bu kitabları bizim əshabımızın hər biri özündən əvvəlki nəsildən düzgün sənədlərlə nəql etmişlər. O qrupdan olan məşhur adamların bir çoxu o iki imamın və İmam Sadiqin (ə) hüzuruna nail olmuş, onların elm və bilik dəryalarından öz "kasaları" qədərincə faydalanmışlar. Onlardan Əbu Səid Əban ibn Təğlib ibn Riyah Cəririnin adını çəkmək olar ki, həm Quran bilicisi, həm fiqh, hədis, üsul elmindən xəbərdar və həm də məşhur lüğətçi olub, çox mötəbər bir şəxs idi. Hər üç imamı görmüş, onlardan elm, hədis öyrənmiş və nəql etmişdir. Onun haqqında bunu bilmək kifayət edər ki, o, təkcə İmam Sadiqdən (ə) ("rical" elminin məşhur alimi Mirzə Məhəmmədin "Mənhəcül-məqal" kitabında yazdığı kimi) 30 min hədis nəql etmişdir.[2] Onun imamlar yanında parlaq keçmişi və yüksək məqamı olub. İmam Baqir (ə) Mədinədə olarkən

---

[1] Məsələn, Nəcaşinin "Fehrest", "Müntəhəl-Məqal", Şeyx Əbu Əlinin "Mənhəcül-Məqal", Mirzə Əhməd və başqalarının bu barədə çoxlu qeydləri vardır.

[2] Bir çox böyük şəxsiyyətlər, həmçinin Şeyx Bəhai "Vəcizə" kitabında bu mətləbi təsdiq etmişdir.

ona belə buyurmuşdur: «اِجْلِسْ في الْمَسْجِدِ وَ اَفْتِ النّاسَ فَاِنّي اُحِبُّ اَنْ يُري فِي شيعَتي مِثْلُكَ» “Məsciddə oturub fətva ver və mən çox istəyirəm ki, sənin kimilər şiələrim arasında görünsünlər.”

İmam Sadiq (ə) ona belə buyurub: «ناظِرْ اَهْلَ الْمَدينَة فَاِنّي اُحِبُّ اَنْ يَكُونَ مِثْلُكَ مِنْ رُواتي وَ رِجالي» “Mədinə əhli ilə mübahisə (bəhs, söhbət) et! İstəyirəm ki, səni hədis söyləyən şəxslərdən hesab etsinlər.”

Əban Mədinəyə daxil olanda hamının diqqətini cəlb edir, elm öyrənənlər başqa ustadların yanından uzaqlaşıb, böyük ehtiramla məsciddə Peyğəmbərə (s) məxsus olan yeri onun üçün hazır edirdilər. İmamlar özləri onu bir mühəddis kimi tanıtdırırdılar.

Məsələn, İmam Sadiq (ə) Səlim ibn Əbu Həbbəyə buyurub: “Əban ibn Təğlibin yanına get ki, o, məndən çoxlu sayda hədis eşitmişdir. Ondan öyrəndiklərini şəxsən, mənim dilimdən danışa bilərsən.” Həmçinin, o həzrət Əban ibn Osmana buyurmuşdu: “Əban ibn Təğlib məndən 30 min hədis nəql etmişdir ki, sən də onları ondan öyrən və nəql et.” O (Əban ibn Təğlib), İmam Sadiqin (ə) yanına gəldikdə həzrət onunla əl tutub qucaqlaşar və əmr edərdi ki, onun üçün balış və mütəkkə qoysunlar, özü isə onunla üzbəüz otururardı. İmam onun ölüm xəbərini eşitdikdə, belə buyurmuşdu: «اَما وَاللهِ لَقَدْ اَوْجَعَ قَلْبي مَوتُ اَبان» “Allaha and olsun ki, Əbanın ölümü qəlbimi ağrıtdı.”

Əban 141-ci hicri qəməri ilində vəfat etmişdir.

Əban Ənəs ibn Malikdən, Əməşdən, Məhəmməd ibn Münkədirdən, Səmmak ibn Hərbdən, İbrahim Nəxəidən, Füzeyl ibn Əmrdən və Həkəmdən rəvayətlər nəql etmiş, Müslim və digər “sünən” yazanlar onun hədislərindən (16-cı məktubda deyildiyi kimi) dəlil-sübut gətirmişlər.

Əgər Buxari ondan bir şey nəql etməyibsə bunun heç bir zərəri yoxdur. Çünki o (Əban), Əhli-beyt imamlarına, yəni İmam Sadiq, İmam Kazim, İmam Rza, İmam Cavad, İmam Həsən Əskəriyə (ə) təqlid etmişdir. Buxari isə bu böyük şəxsiyyətlərdən rəvayət etməmiş, (əksinə), Mərvan ibn Həkəm, İmran ibn Hətan, Əkrəmə Bərbəri və s. kimilərə etimad etmişdir.

Əbanın bir çox qiymətli yazıları vardır. Onlardan “Qəribül-Quran” təfsirini misal göstərmək olar ki, Quranda işlənən sözlərə ədəbi-lüğəvi baxımdan misal (şahid) gətirmək üçün ərəb şerlərindən istifadə etmişdir.

Əbdür-Rəhman ibn Məhəmməd Əzdi Kufi Əbanın, Məhəmməd ibn Saib Kəlbinin, ibn Rəvaqin, Ətiyyə ibn Harisin kitablarını toplayaraq bir cildə saldıqdan sonra onların ixtilaflı və müttəfiq olan yerlərini izah etmişdir. Buna görə də Əbanın kitabı bəzən təkc, bəzən isə başqa bir kitabla birgə müşahidə olunur. Bizim əshabımız bu iki kitabdan hər birini mötəbər sənədlə nəql etmişlər. Əbanın “əl-Fəzail” və “Siffeyn” adlı iki kitabı, həmçinin bir “Əsl”i də vardır (yəni, “üsuli-ərbəə miə” kimi tanınan o dörd yüz əsl ya kitabdan biri) ki, şiənin etimad və müraciət etdiyi mənbələrdəndir. Onun bütün kitabları sənədlə nəql olunmuşdur ki, bu barədə müfəssəl surətdə “rical” kitablarında oxumaq olar.

Eləcə də Əbu Həmzə Sumalinin (Sabit ibn Dinar) adını qeyd etmək yerinə düşərdi. O, şiənin mötəbər və böyük şəxsiyyətlərindən hesab olunur ki, İmam Zeynəlabidin (ə), İmam Baqir (ə) və İmam Sadiqdən (ə) elm öyrənmiş, həmişə onların yanında – onlara yaxın olmuşdur. İmam Sadiq (ə) onun haqqında belə demişdir: “Əbu Həmzə öz dövrünün, Salman Farsisidir.” Həmçinin, İmam Rza (ə) belə buyurmuşdur: “Əbu Həmzə öz dövrünün Loğmanı kimidir.”

Onun “Quranın təfsiri” kitabından əlavə (Təbərsi “Məcməül-Bəyan” təfsirində ondan nəql edir[1]) “Ən-Nəvadir” və “Zöhd” kitabları da vardır. “Risalətül-Hüquq”[1] kitabını o, İmam Zeynəlabidindən nəql etmişdir. Həzrətin “Səhər” duasını da o nəql etmişdir.

[1] “Məcməül-Bəyan” təfsirində “Şüəra” surəsi, “məvəddət” ayəsinin təfsirinə müraciət edin.

O, Ənəs və Şəbidən rəvayət nəql etmiş, Vəki, Əbu Nəim və başqaları (istər şiə olsun, ya qeyriləri –16-cı məktubda onun şərhi-halında keçdiyi kimi) öz kitablarında ondan müxtəlif hədislər gətirmişlər.

Bəziləri İmam Səccadın (ə) hüzuruna nail olmasalar da, amma İmam Baqir (ə) və İmam Sadiqin (ə) dövrünü yaşamışlar. Bunlardan Əbül-Qasim (Büreyd ibn Müaviyə Bəcəli), Əbu Bəsir (oğul – yəni, Leys ibn Murad Bəxtəri Muradi) Əbül-Həsən Zürarə ibn Əyən, Əbu Cəfər Məhəmməd (Müslim ibn Ribah Kufi) və bir çox başqalarının adını çəkmək olar. Bu dörd nəfər elə yüksək məqama nail olmuşlar ki, İmam Sadiq (ə) onları xatırlayarkən belə buyurub: «هؤُلاء أُمَناء الله علي حَلالِهِ وَ حَرامِهِ» “Onlar halal-haram məsələlərində Allahın əminləridir.” Həmçinin buyurub: «ما اَجِدُ اَحَداً اَحْيا ذِكْرَنا اِلاّ زُرارةَ وَ اَبو بَصير لَيْثَ وَ مُحَمّدَ بْنَ مُسْلِم وَ بُرَيْد» “Zürarə, Əbu Bəsir Leys, Məhəmməd ibn Müslim və Büreyddən savayı bizi yaşadan başqa birisini tanımıram. Onlar olmasaydı, əhkamı istinbat edən (dəlil-sübut yolu ilə mənbədən istixrac edən) olmazdı.” Sonra isə onlar haqqında belə buyurub: «هؤلاء حُفّاظُ الدّينِ، وَ اُمَناء اَبي، عَلي حَلالِ اللهِ وَ حَرامِهِ وَ هُم السّابِقُونَ اِلَيْنا في الدنيا السّابِقُونَ اِلَيْنا فِي الْآخِرَةِ» “Onlar dinin qoruyucuları, Allahın halal və haramlarında atamın güvəndiyi (əmin olduğu) şəxslər, dünya və axirətdə isə bizim tərəfimizə gələnlərdir.” İmam (ə) yenə də buyurub: “Allahdan qorxanlara behişt müjdəsi ver.” Sonra isə bu dörd nəfərin adını çəkərək, onlar haqqında çoxlu söhbət edərək deyib: “Atam onları Allahın halal-haramında əmin hesab edirdi. Onlar elm mədəni idilər. Bu gün isə mənim sirdaşlarımdırlar. Onlar atamın ən yaxın əshabından olub, mənim şiələrim arasında –həm öləndə, həm də sağlıqlarında– parlaq ulduza bənzəyirlər ki, Allah məhz onların vasitəsilə hər bidəti aradan götürür. Onlar, imamlar (ə) haqqında mübaliğə edənlərin fikirlərini yox edir, fəzilətlərinə göz yumanları isə öz yanlarından uzaqlaşdırırlar.”

İmamın (ə) bu adamların ağıl, kəramət və vilayətləri haqda bir çox qiymətli sözləri vardır ki, onların hamısını bu məktubda bəyan etmək mümkün deyildir. Bununla belə, Əhli-beyt düşmənləri onlara açıq-aşkar töhmətlər vurmuşlar ki, biz onlara müfəssəl şəkildə “Müxtəsərül-kəlam fi müəllifiş-şiəti fi sədril İslam” kitabımızda gətirmişik. Amma bu töhmətlər Allah, Peyğəmbər (s) və möminlər yanında onların yüksək məqamlarına, böyük şəxsiyyətlərinə zərər vurmur, necə ki, həsəd edənlər Allah rəsulunun İslamın yayılması və inkişafı yolunda çəkdiyi zəhmətlər müqabilində bir şey edə bilmədilər.

İmam Sadiqin (ə) zamanında elmin ağla sığmayacaq dərəcədə inkişafı şiələrin hər bir tərəfdən o həzrətə sarı axışaraq elmin sirlərinə agah olmaları və həzrətin bu yolda heç nəyi əsirgəməyərək, onlara təlim verməyi o dövrdə elmin hər tərəfli inkişafında böyük təsiri olmuşdur.

Əbdül-Fəth Şəhristani “Miləl və Nihəl” kitabında İmam Sadiq (ə)[2] barəsində danışarkən bu mətləbə işarə edərək demişdir: “O (İmam Sadiq), geniş elm və hikmətdə kamil ədəbə malik, dünyada zahid və şəhvət müqabilində təslim olmayan bir dindar idi.” Sonra əlavə edib deyir: “O, bir müddət Mədinədə öz şiələrinə təlim verib, dostlarının üzərində elm “yağışı” yağdırırdı. Daha sonra İraqa gələrək bir müddət orada yaşamasına baxmayaraq heç vaxt hökumət işlərinə qarışmamış, xilafət üstündə heç kimlə çəkişməmişdi, çünki o zaman yalnız elmi şərait mövcud idi. Sonra yazır: “Mərifət dəryasında qərq olan şəxs, heç vaxt kiçik bir çaya tamah salmaz,

---

[1] Bizim əshab Əbu Həmzənin kitablarını sənədlə onun özündən nəql etmişlər ki, müfəssəl surətdə “rical” kitablarında oxuya bilərsiniz. “Risalətül-Hüquq”u Seyyid Sədrəddin Musəvi (ixtisarla) bir risalə surətində çap etdirmişdir ki, uşaqlar və yeniyetmələr onu əzbərləsinlər (nə qədər də gözəl bir iş görmüşdür, Allah ona əcr versin!).

[2] Şiəyə mənsub olan “Baqiriyyə və Sadiqiyyə” barəsində danışarkən.

həqiqət qülləsində olanlar isə, dünyada aşağı bir məqamda qərar tutmalarından qorxmazlar. «و الحق ينطق منصفا و عنيدا» "Haqq, həm düz (insaflı) və həm də inadkar adamı etirafa vadar edir."

İmam Sadiqin (ə) əshabından çoxları elm və əxlaqda elə böyük zirvələrə çatmışlar ki, bu məqamlarda hidayət rəhbərləri, qaranlıqları işıqlandıran çıraqları, bilik dəryaları idilər. Adları və tərcümeyi-halları "təracim və rical" kitablarında dörd min nəfərə çatır ki, İraq, Hicaz, Fars və Suriya vilayətlərindəndirlər. Onların şiələrin əlində çox məşhur kitabları vardır ki, "Üsuli-ərbəə miə" o kitabların arasında ən seçilmişidir (Üsuli-ərbəə miə dəfələrlə deyildiyi kimi, İmam Sadiqin (ə) dörd yüz nəfər şagirdinin yazdığı toplu halda 400 kitabdır). Orada o həzrətin fitvaları verilmişdir ki, sonra ümmətin bir sıra məşhur alimlərindən onları xülasə edərək xüsusi kitablarda bir yerə toplamışlar (ki, mənbələrə müraciət etmək asan olsun). Sünnə və rəvayətləri özündə əhatə edən ən mötəbər mənbə "Kütubi-ərbəə"dir ki, indiyə kimi 12 imamlı şiələrin üsulid-din və füruid-dində mərcə və mənbəyi sayılır. "Kütubi-ərbəə" mərhum Kuleyninin "Kafi", Şeyx Tusinin "Təhzib" və "İstibsar", mərhum Səduqun "Mən la yəhzuruhul-fəqih" kitablarından ibarətdir. Bu kitabların mötəbərliyində heç bir şəkk-şübhə yoxdur. Onların içərisində "Kafi" o birilərindən daha qədim və əzəmətlidir. Bu kitabda 16 199 hədis mövcuddur (mərhum Şəhidin "Zikra" kitabında deyildiyi kimi, əhli-sünnənin "Sihahi-sittə" kitabındakı hədislərdən də çoxdur).

Böyük səhabələrimizin sırasında İmam Sadiq (ə) və İmam Kazimin (ə) əshabından olan Hişam ibn Həkəmin də xüsusi yeri vardır ki, çoxlu kitabın müəllifidir və onların 29 ədədi bizə məlumdur. Onun kitablarını bizim əshabımız sənədlə onun özündən nəql etmişlər ki, bu barədə maraqlananlar "Müxtəsərül-kəlam..." kitabına müraciət edə bilərlər. Hişam ibn Həkəmin kitabları çox faydalı, aydın, istidlalları parlaqlığı ilə seçilir. Bu kitablarda üsuli-din və fürui-din, tövhidlə yanaşı, əqli fəlsəfəni, bütün dualizmi, mülhidləri (dinsizləri), maddi məsləkləri, fatalistləri, Əli (ə) və Əhli-beyt haqqında mübaliğəli fikir yürüdənləri, xəvaric və nasibiləri, Əlinin (ə) (və o həzrətdən sonrakı imamların) vəsiliyini qəbul etməyənləri, o həzrətlə mübarizə aparanları və s. rədd etmə barəsində elmi və qiymətli bəhslər mövcuddur.

Hüşam ikinci əsrin şəxsiyyətləri içərisində "kəlam", "əqaid", ilahiyyat və s. elmlərdə qabaqcıl olmuşdur. O, "kəlam" elmində "imamət" sahəsi üzrə "bir çox" həqiqətləri sübuta yetirməklə şiə məzhəbini diqqət mərkəzinə çevirmiş və onu əqli təfəkkürlə daha da zinətləndirmişdir. O, İmam Sadiq (ə) və İmam Kazimdən (ə) hədis nəql etmiş və onların yanında təsəvvürə sığışmayacaq (böyük) məqama malik olmuşdur. O əvvəllər "Cəhmiyyə" (yolunu azmış firqələrdən) təfəkkürlü olsa da, amma İmam Sadiqlə (ə) görüşdükdən sonra hidayətə qovuşaraq o həzrətin ardıcıllarından birinə çevrilmişdir. Sonra isə İmam Kazimə (ə) qoşularaq, bu iki böyük şəxsiyyətin bütün əshabı arasında ən etibarlı, ən qabaqcıllarından olmuşdur. Amma təəssüflər olsun ki, Allahın nurunu söndürmək istəyənlər onu dünya və qiyamətdə Allahı cisim bilənlərdən hesab etmiş və ona digər başqa töhmətlər də vurmuşlar. Onların ürəklərində Əhli-beytə qarşı olan həsəd və düşmənçilik alovuna baxmayaraq, onun məzhəbinə hamıdan daha yaxşı bələdik və onun tərcümeyi-halı və sözləri bizim ixtiyarımızdadır. Onun, məzhəbimizi işıqlandıran bir çox kitabları əldə olduğu halda necə ola bilər ki, əqidəsi bizim özümüzə gizli, başqalarına isə əyan olsun?! Bundan əlavə, Şəhristaninin "Miləl və Nihəl" kitabında Hişamdan müxtəlif sübutlar gətirməsi onun belə bir adam olmadığına dəlalət edir. Elə buradaca Hişamın belə bir firqəyə mənsub olmadığını bildirən mətləbi ("Miləl və Nihəl"dən) eynilə veririk: "Hişam ibn Həkəm üsuli-məzhəbdə çox dərrakəli və o, "mötəzilə"nin onu məhkum etdiyini unutmamalıdır. Çünki insanın əqidəsi həmsöhbətini məhkum etdiyi mətləblərin arxasında gizlənir, bundan qeyri olan hallarda isə bunu başa düşmək olmaz. Bunu isə Hişamın Əllafla mübahisə edərək onu məhkum etdiyi söhbətindən ələ gətiririk. O, Əllafa deyir: Sən deyirsən ki, Xaliqin elmi olduğuna görə alimdir,

və elm onun zatının eynidir? Deməli, o, alimdir amma başqa alimlər kimi yox? Belə isə, niyə demirsən ki, o, cisimdir, amma başqa cisimlər kimi yox.”

Şəhristani bu şahidlə Hişamın həmin firqəyə (Allahın –nəuzubillah– cisim olmasına inanan firqəyə) mənsub olduğunu demək istəyir. Amma məlumdur ki, hətta bu sözün ondan nəql olunması fərz olunsa belə, o, Əllafla mübahisə məqamındadır. Belə də deyildir ki, hər kəs bir başqası ilə mübahisə edərkən işlətdiyi sözlərin hamısına mötəqid olsun. Çünki, mümkündür, onun məqsədi Əllafı imtahana çəkmək və onun elmi mübahisələrdə nə qədər diqqət sahibi olmağını aydınlaşdırmaq imiş. Şəhristani özü etiraf edir ki, bir şəxsin əqidəsi, nəinki izhar etdiyi şeylərdə, əksinə, onun mübahisə etdiyi tərəfin məhkumluğu üçün dediyi sözlərin arxasında gizlənmişdir. Əgər yuxarıdakı nəqlə əsasən onun həmin firqəyə mənsub olduğunu fərz etsək, onun bu sözləri hələ şiə olmamışdan qabaq deməsi də mümkündür. Çünki onun əvvəl “Cəhmiyyə” əqidəsində olduğu və sonradan Ali-Məhəmmədin (s) sayəsində hidayət taparaq Əhli-beyt imamları (ə) yanında məqamı böyük olan bir şəxsiyyətə çevrilməsini demişdik.

Eləcə də, müxaliflərimiz Zürarə ibn Əyən, Məhəmməd ibn Müslim və Mömin Taq kimi böyük şəxsiyyətlər haqqında bəzi qeyri-səhih sözlər demişlər ki, biz nə qədər araşdırdıqsa da, bu nisbətlərdən heç birini onlarda görmədik. Məlumdur ki, bütün bu sözlər zülm, böhtan və düşmənçilikdən başqa bir şey deyildir. وَلاَ تَحْسَبَنَّ اللهَ غَافِلاً عَمَّا يَعْمَلُ الظَّالِمُونَ “Elə zənn etməyin ki, zalımların əncam verdikləri işlərdən Allahın xəbəri yoxdur.”

O ki, qaldı Şəhristaninin Hişamdan nəql etdiyi başqa bir məsələyə (Əlini (ə) –nəuzubillah– Allah bilməyinə), bu elə bir şeydir ki, ona bişmiş toyuğun da gülməyi gəlir. Hişamın məqamı o nisbətdən çox yüksəkdir və belə xürafi nisbətlər ona isnad verilə bilməz. Hüşamın “tövhid” barəsindəki fikirləri Allah-taalanı hər cür eyib və nöqsandan pak bilir. O, imamət və “vəsayət” barəsində söylədiyi mətləbində Rəsuli-əkrəmi (s) Əlidən (ə) üstün hesab edərək deyir: “Əli (ə) o həzrətin ümməti və rəiyyətindəndir. O, Peyğəmbərin (s) vəsisi, xəlifəsi və Allahın çox məzlum, hüququndan məhrum, düşmənə zorla təslim olmuş bir bəndəsidir ki, nə bir köməyi və nə də bir həmkarı vardı.”

Şəhristani bir tərəfdən Hişamın üsuli-dində çox dərrakəli olduğunu deyir, digər tərəfdən isə ona belə bir sözü (Əlinin (ə) –nəuzubillah– Allah olması) isnad verir. Belə bir isnad açıq-aydın ziddiyyət deyilmi? Belə bir xürafi sözü Hişam kimi ağıllı bir adama necə nisbət (isnad) vermək olar? Xeyr, bu bir zülmdür ki, onu yalnız Əhli-beytə bağlananlar haqqında rəva görürlər.

Bunlardan əlavə İmam Kazim (ə), İmam Rza (ə), İmam Cavad (ə), İmam Hadi (ə), İmam Əskərinin (ə) dövründə də çoxlu əsər və kitablar yazılmışdır ki, böyük əhəmiyyət kəsb edirlər. Mühəqqiq Helli “Mötəbər” kitabında bu barədə belə yazır: “İmam Cavadın (ə) şagirdləri arasında Hüseyn ibn Səid, onun qardaşı Həsən, Əhməd ibn Məhəmməd ibn Əbu Nəsr Bəzənti, Əhməd ibn Məhəmməd ibn Xalid Bərqi, Şazan, Əbülfəzl Əma, Əyyub ibn Nuh, Əhməd ibn Məhəmməd ibn İsa və bir çox başqalarının adını çəkmək olar... İndi bizim aramızda geniş yayılan hədislərə əsasən, onların elm və biliyinin nə qədər geniş olduğu tamamilə aşkar olur.”

Mən deyirəm: Bərqinin kitablarının 100-dən çox olduğunu bilməyiniz sizə kifayət edər. Bəzəntinin geniş bir kitabı “Camei-Bəzənti” adı ilə məşhurdur. Hüseyn ibn Sədinin isə 30-a yaxın kitabı vardır.

Bu məktubda adı çəkilən altı imamın şagirdlərinin təlif etdiklərinin adlarını gətirmək mümkün deyildir. Buna görə də sizə ravilərin avtobioqrafiyası qeyd olunmuş “təracim” kitablarına müraciət etməyi məsləhət görürəm. Burada onlardan bəzilərinin adlarını qeyd edirəm: Məhəmməd ibn Sinan, Əli ibn Məhziyar, Həsən ibn Məhbub, Həsən ibn Məhəmməd ibn Səmaə, Səfvan ibn Yəhya, Əli ibn Yəqtin, Əli ibn Fəzzal, Əbdür-Rəhman ibn Nəcran, Fəzl ibn Şazan (təkcə onun 200 kitabı vardır), Məhəmməd ibn Ümeyr, Əhməd ibn Məhəmməd ibn

İsa (onun özü İmam Sadiqin (ə) əshabından olan 100 nəfərdən rəvayət nəql edir), Məhəmməd ibn Əli ibn Məhbub, Təlhə ibn Təlhə ibn Zeyd, Əmmar ibn Musa Sabati, Əli ibn Nöman, Hüseyn ibn Abdullah, Əhməd ibn Abdullah ibn Məhrəvan (ibn Xanə kimi məşhurdur), Sədəqə ibn Münzir Qummi və öz kitabını İmam Sadiqə (ə) göstərmiş, Übeydullah ibn Əli Hələbi İmam (ə) onun kitabını təsdiq etdikdən sonra (həmişə) onu yaxşılıqla yad edərək buyurarmış: "Heç onların (əhli-sünnətin) belə bir kitabı vardırmı?" Öz kitabını İmam Rzaya (ə) göstərmiş Abdullah ibn Səid, Əbu Əmr Təbib eləcə də, Yunis ibn Əbdür-Rəhman (o da öz kitabını İmam Həsən Əskəriyə (ə) göstərmişdi) belələrindəndirlər.

Şiə sələflərinin şərhi-halını tədqiq edən, Hüseyn (ə) övladlarından olan doqquz imamın hər birinin əshabının halı və kitabları ilə tanış olanlar əmin olarlar ki, Əhli-beyt imamlarının məzhəbi tamamilə sağlamdır. (Yəni eynilə Peyğəmbərin sünnəsinə əsaslanır). Bu zaman füru və üsulumuzun, yalnız Allah rəsulunun Əhli-beytindən mənimsənilməsi həqiqətini inadkar, cahil, ya da axmaq adamdan başqa heç kəs inkar etməz. الْحَمْدُ لِلَّهِ الَّذِي هَدَانَا لِهَذَا وَمَا كُنَّا لِنَهْتَدِيَ لَوْلَا أَنْ هَدَانَا اللَّهُ Vəssalam.

***"Ş"***

# *YÜZ ON BİRİNCİ MƏKTUB*

<u>1</u> <u>Cəmadiül-Əvvəl</u> <u>1330</u>

***Həqiqətinn təsdiqi.***

Artıq sizin üsuli-din və fürui-dində Əhli-beyt imamlarının getdiyi yolda olmanıza şəhadət verirəm. Həqiqətən, bu işi yaxşı aşkar edib batində olan sirləri üzə çıxardın. Beləliklə, bu barədə şəkk-şübhəyə düşmək, yalnız həlakətə yuvarlanmaqdır. Mən bu məktubu da diqqətlə oxuduqdan sonra onda ciddi iradlar axtararkən daha, irad tapa bilmədiyim üçün son dərəcə heyrətləndim. Mən bu lətif və gözəl mehin, hər yeri bürüyən müşklü ətrin (mənə) həyat bağışlayan mənbəyini aradım. Mən əvvələr şiələr haqqında yalançıların yürütdüyü nadürüst xəbərlərə araşdırmadan inandığımı və səhvimi boynuma alıram. Amma mütəal, qadir Allah sizinlə görüşmək səadətini mənə nəsib etdikdə, hidayətə qovuşaraq, qaranlıqları işıqlandıran bir çıraq tapdım. Sizinlə olan bəhslərdən sonra nəhayət, öz arzu və istəklərimə çatdım. Allah-Taala məhz, bu görüşün nəticəsində nə böyük bir neməti mənə inayət etdi!!! الحمد لله رب العالمين

***“S”***

# *YÜZ ON İKİNCİ MƏKTUB*

2 Cəmadiül-Əvvəl 1330

***Hidayət bu yolun nəticəsidir.***

Mən sənin hidayət yolunda möhkəm inamına şəhadət verirəm, ondan xəbərdar və ona çox yaxınsan. Qolunu çırmalayıb, yorulmadan təhqiq və bəhsə başladın və qərq oldun. Öz axtarış və təhqiqində çox diqqət və maraq göstərməklə, mübahisənin əsl incəliklərini alt-üst edib, zahiri batin ilə tutuşdurdun. Belə ki, onun mahiyyət və həqiqətindən xəbərdar olmaq istəyərkən, bu yolda qövmün təəssübü, şəxsi qərəzlər sənə və sənin anlamına mane ola bilmədi. Ümidvaram ki, bu səbir və dözümünün qalası heç zaman dağılmasın. Allaha həmd-şükür edirəm ki, bizləri hidayətə qovuşdurdu. Məhəmməd (s) və Ali-Məhəmmədə (ə) salam və salavat olsun! Vəssalam.

***"Ş"***

Bu kitab verilən məktublar əsasında Allahın köməyi ilə Əbdül-Hüseyn Şərəfüddin Musəvi Amili tərəfindən sona çatdı. Ümidvaram ki, Allah onunla böyük kərəmi ilə müamilə edib, onu bağışlayacaq.[1]

[1] Allaha çox şükürlər olsun ki, bu kitabın haşiyəsi də sona yetdi. Verilən mənbə və izahlar kitabın nöqsanlarını aradan qaldırır. Buna diqqət yetirənlər sözümü təsdiq edəcəklər.

Haşiyələrin tamam olduğu günlə, kitabın çap olunduğu gün (1355-ci ilin rəcəb ayında) bir vaxta düşüb. Bu haşiyələr kitabın müəllifi, İslam dininin kiçik xidmətçisi, imamiyyə şiə məzhəbinin xadimi Əbdül-Hüseyn ibn Şərif Yusif ibn Şərif Cavad ibn Şərif İsmayıl ibn Şərif Məhəmməd ibn Şərif Məhəmməd ibn Şərif İbrahim yəni Şərəfüd-din ibn Şərif Zeynəlabidin ibn Əli Nurəddin ibn Nurəddin Əli ibn Hüseyn Musəvi Amilinin qələmi ilə yazılmışdır. Allah-təala onların hamısını öz lütf və mərhəməti ilə bağışlasın. Vəl-həmdulillahi əvvələn və axirən və səlləllahu əla Muhəmmədin və Alihi və səlləm.

Mündəricat


EY KİTABIM! .......... 3
KİTABIN MƏŞHUR MÜƏLLİFİNİ TANIYAQ .......... 3
HƏYATI .......... 3
CƏBƏL-AMİLƏ SƏFƏRİ .......... 4
MÜSTƏMLƏKƏÇİLİKLƏ MÜBARİZƏ .......... 4
İSLAM DÜNYASINDAKI MÖVQEYİ .......... 5
ONUN YARADICILIQ HƏYATI .......... 5
ƏSƏRLƏRİ .......... 5
MƏHV OLUNMUŞ QİYMƏTLİ KİTABLARI .......... 6
ƏXLAQİ SƏCİYYƏLƏRİ .......... 7
SƏFƏRLƏRİ .......... 7
MÜQƏDDİMƏ VƏ İTHAF .......... 8
BU KİTAB NƏ ÜÇÜN VƏ NECƏ YAZILDI? .......... 8
BİRİNCİ MƏKTUB .......... 9
6 ZİLQƏDƏ 1329 .......... 9
1. SALAM VƏ DUA .......... 9
2. MÜBAHİSƏYƏ İCAZƏ .......... 9
İKİNCİ MƏKTUB .......... 10
6 ZİLQƏDƏ 1329 .......... 10
1. DUA VƏ SALAMA CAVAB .......... 10
2. MÜBAHİSƏYƏ İCAZƏ .......... 10
BİRİNCİ BƏHS .......... 11
***DİNİ RƏHBƏRLİK*** .......... 11
***MƏZHƏBDƏ İMAMƏT*** .......... 11
ÜÇÜNCÜ MƏKTUB .......... 12
7 ZİLQƏDƏ 1329 .......... 12
1. NƏ ÜÇÜN ŞİƏ, MÜSƏLMANLARIN YEKDİL CÜMHUR MƏZHƏBLƏRİNƏ TABE DEYİL (ARDINCA GETMİR)? .......... 12
2. BU GÜN HƏMİŞƏKİNDƏN DAHA ÇOX BİRLİYƏ MÖHTACIQ. .......... 12
3. PƏRAKƏNDƏLİYİ YALNIZ CÜMHUR MƏZHƏBLƏRİ İLƏ BİRLƏŞMƏKLƏ ARADAN QALDIRMAQ OLAR .......... 12
“S” .......... 12
DÖRDÜNCÜ MƏKTUB .......... 13
8 ZİLQƏDƏ 1329 .......... 13
1. ŞƏRİ DƏLİLLƏR ƏHLİ-BEYT MƏZHƏBİNƏ TƏQLİD ETMƏYİ (TABE OLMAĞI) VACİB HESAB EDİR. .......... 13
2. CÜMHUR MƏZHƏBLƏRİNƏ TƏQLİD ÜÇÜN BİR DƏLİL YOXDUR. .......... 13
3. MÜSƏLMANLAR İLK ÜÇ ƏSRDƏ CÜMHUR MƏZHƏBLƏRİNİ TANIMIRDILAR .......... 13
4. BÜTÜN ƏSRLƏRDƏ HƏR KƏSİN İCTİHADA İMKANI VARDIR. .......... 13
5. PƏRAKƏNDƏLİYİ ƏHLİ-BEYTİN EHTİRAMINI SAXLAMAQLA BİRLƏŞDİRMƏK OLAR .......... 13
“Ş” .......... 15
BEŞİNCİ MƏKTUB .......... 16
9 ZİLQƏDƏ 1329 .......... 16
1. DEYİLƏNLƏRƏ ETİRAF. .......... 16

2. MÜFƏSSƏL DƏLİLİN TƏLƏBİ. ..... 16
“S” ..... 16
ALTINCI MƏKTUB ..... 17
12 ZİLQƏDƏ 1329 ..... 17
1. ƏHLİ-BEYTİN ARDINCA GETMƏYİN VACİBLİYİNƏ DAİR DƏLİL. ..... 17
2. ƏMİRƏL-MÖMİNİN (Ə) ƏHLİ-BEYT MƏZHƏBİNƏ DƏVƏT EDİR. ..... 17
3. İMAM ZEYNƏLABİDİNİN (Ə) BU BARƏDƏ SÖZLƏRİ. ..... 17
YEDİNCİ MƏKTUB ..... 20
13 ZİLQƏDƏ 1329 ..... 20
1. QURAN VƏ SÜNNƏDƏN DƏLİLİN TƏLƏBİ. ..... 20
2. ƏHLİ-BEYTİN SÖZLƏRİNƏ ƏSASLANMAQ “DÖVRLƏ” NƏTİCƏLƏNİR. ..... 20
“S” ..... 20
SƏKKİZİNCİ MƏKTUB ..... 21
15 ZİLQƏDƏ 1329 ..... 21
1. İŞARƏ ETDİYİMİZDƏN QAFİL DEYİLİK. ..... 21
2. “DÖVR”DƏ SƏHV NƏTİCƏ. ..... 21
3. SƏQƏLEYN HƏDİSİ. ..... 21
4. SƏQƏLEYN HƏDİSİNİN MÜTƏVATİRLİYİ (ŞÜBHƏSİZLİYİ) ..... 21
5. ƏHLİ-BEYTƏ ARXALANMAYAN ŞƏXS YOLUNU İTİRMİŞDİR (AZMIŞDIR). 21
6. ONLARIN NUHUN GƏMİSİNƏ, “HİTTƏ QAPISI”NA BƏNZƏDİLMƏSİ VƏ ÜMMƏTİ DİNİ İXTİLAFDAN QORUMALARI. ..... 21
7. BURADA ƏHLİ-BEYTDƏN MƏQSƏD KİMLƏRDİR? ..... 21
8. NƏ ÜÇÜN ONLAR NUHUN GƏMİSİNƏ VƏ “HİTTƏ QAPISI”NA OXŞADILIBLAR? ..... 21
“Ş” ..... 25
DOQQUZUNCU MƏKTUB ..... 26
17 ZİLQƏDƏ 1329 ..... 26
BU HAQDA DAHA ÇOX HƏDİSİN TƏLƏBİ. ..... 26
“S” ..... 26
ONUNCU MƏKTUB ..... 27
19 ZİLQƏDƏ 1329 ..... 27
BİR SIRA BAŞQA HƏDİSLƏR. ..... 27
“Ş” ..... 31
ON BİRİNCİ MƏKTUB ..... 32
20 ZİLQƏDƏ 1329 ..... 32
1. XATIRLANMIŞ AYDIN HƏDİSLƏRDƏN HEYRƏTƏ GƏLİŞ. ..... 32
2. CÜMHURUN İNANDIQLARI İLƏ BU RƏVAYƏTLƏRİN UYĞUN GƏLMƏSİNDƏN QORXU. ..... 32
3. QURANİ-KƏRİMİN AYƏLƏRİ İLƏ DƏLİLLƏR GƏTİRİLMƏSİ XAHİŞİ. ..... 32
“S” ..... 32
ON İKİNCİ MƏKTUB ..... 33
22 ZİLQƏDƏ 1329 ..... 33
QURAN AYƏLƏRİNDƏN DƏLİLLƏR. ..... 33
“Ş” ..... 42
ON ÜÇÜNCÜ MƏKTUB ..... 44
23 ZİLQƏDƏ 1329 ..... 44

VERİLƏN QİYASIN (MÜQAYİSƏ) NƏTİCƏSİ AYƏLƏRİN ŞƏNİ-NÜZULU HAQQINDA SÖYLƏNİLƏN RƏVAYƏTLƏRİN ZƏİFLİYİNİ GÖSTƏRİR. ... 44
“S” ... 44
ON DÖRDÜNCÜ MƏKTUB ... 45
24 ZİLQƏDƏ 1329 ... 45
1. YERSİZ ETİRAZA CAVAB. ... 45
2. BELƏLƏRİ ŞİƏLİKDƏN AGAH DEYİLDİR. ... 45
3. ŞİƏNİN İMTİYAZI ODUR Kİ, HƏDİSDƏ YALAN DANIŞMAĞI QƏTİ HARAM BİLİR. ... 45
“Ş” ... 46
ON BEŞİNCİ MƏKTUB ... 47
25 ZİLQƏDƏ 1329 ... 47
1. HAQQIN PARILTISI. ... 47
2. SÜNNƏ ƏHLİNİN SÜBUTLARININ TƏFSİRİ HAQQINDA XAHİŞ VƏ ŞİƏ RƏVAYƏTÇİLƏRİNİ QƏBUL ETMƏLƏRİ. ... 47
“S” ... 47
ON ALTINCI MƏKTUB ... 48
2 ZİLHİCCƏ 1329 ... 48
100 NƏFƏR ŞİƏ RƏVAYƏTÇİSİ SÜNNƏ ƏHLİNİN RƏVAYƏTÇİLƏRİ ARASINDA. ... 48
1. ƏBAN İBN TƏĞLİB İBN RİBAH, KUFİ QARİSİ. ... 48
2. İBRAHİM İBN YƏZİD İBN ƏMR İBN ƏSVƏD İBN ƏMR NƏXƏİ KUFİ. ... 48
3. ƏHMƏD İBN MÜFƏZZƏL İBN KUFİ HƏFRİ. ... 49
4. İSMAİL İBN ƏBAN ƏZDİ KUFİ BƏRRAQ, BUXARİNİN “SƏHİH”DƏ USTADIDIR. ... 49
5. İSMAİL İBN XƏLİFƏ MULLAİ KUFİ, KÜNYƏSİ ƏBU İSRAİLDİR VƏ BUNUNLA MƏŞHURDUR. ... 49
6. İSMAİL İBN ZƏKƏRİYYA ƏSƏDİ XƏLƏQANİ KUFİ. ... 49
7. İSMAİL İBN İBAD İBN ABBAS TALİQANİ ƏBÜL-QASİM, “SAHİB İBN İBAD” ADI İLƏ MƏŞHURDUR. ... 50
8. İSMAİL İBN ƏBDÜR-RƏHMAN İBN ƏBU KƏRİMƏ, SÜDƏYY ADI İLƏ MƏŞHUR OLAN MÜFƏSSİR. ... 51
9. İSMAİL İBN MUSA FƏZARİ KUFİ. ... 51
10. TƏLİD İBN SÜLEYMAN KUFİ ƏRƏC. ... 51
11. SABİT İBN DİNAR, ƏBU HƏMZƏ SÜMALİ ADI İLƏ MƏŞHURDUR. ... 52
12. SÜVEYR İBN ƏBU FAXTƏ ƏBU CƏHM KUFİ, ƏBU TALİBİN QIZI ÜMMÜ HANİNİN QULAMI. ... 52
13. CABİR İBN YƏZİD İBN HARİS CÖFİ KUFİ. ... 52
14. CƏRİR İBN ƏBDÜL-HƏMİD ZƏBBİ KUFİ. ... 53
15. CƏFƏR İBN ZİYAD ƏHMƏR KUFİ. ... 53
16. CƏFƏR İBN SÜLEYMAN ZƏBİ BƏSRİ ƏBU SÜLEYMAN. ... 53
17. CƏMİ İBN ÜMEYRƏ İBN SƏLƏBƏ KUFİ TEYMİ TEYMULLAH. ... 54
18. HARİS İBN HƏSİRƏ ƏBU NÖMAN ƏZDİ KUFİ. ... 54
19. HARİS İBN ABDULLAH HƏMDANİ. ... 55
20. HƏBİB İBN ƏBU SABİT ƏSƏDİ KAHİLİ KUFİ. ... 56
21. HƏSƏN İBN HƏYY. ... 56
22. HƏKİM İBN ÜTEYBƏ KUFİ. ... 57

23. HƏMMAD İBN İSA CUHƏNİ, “CÖHFƏ”DƏ QƏRQ OLMUŞDUR. ...................... 58
24. HƏMRAN İBN ƏYƏN, ZÜRARƏNİN QARDAŞI. ................................................ 58
25. XALİD İBN MÜXƏLLƏD QƏTVANİ ƏBU HEYSƏM KUFİ. ............................... 58
26. DAVUD İBN ƏBU OVF ƏBÜL-CƏHAF. ............................................................ 59
27. ZÜBEYD İBN HARİS İBN ƏBDÜL-KƏRİM YAMİ ƏBU ƏBDÜR-RƏHMAN. ... 59
28. ZEYD İBN HÜBAB ƏBÜL-HƏSƏN TƏMİMİ KUFİ. ............................................ 60
29. SALİM İBN ƏBÜL-CƏD ƏŞCƏİ KUFİ. ÜBEYD, ZİYAD, İMRAN VƏ MÜSLİM QARDAŞLARI OLUB, ATASI ƏBÜL-CƏDDİR. ......................................................... 60
30. SALİM İBN ƏBU HƏFSƏ İCLİ KUFİ. .................................................................. 61
31. SƏD İBN TƏRİF İSKAF HƏNZƏLİ KUFİ. ............................................................ 61
32. SƏİD İBN ƏŞVƏ. ........................................................................................... 62
33. SƏİD İBN XEYSƏM HİLALİ. .............................................................................. 62
34. SƏLƏMƏ İBN FƏZL ƏBRƏŞ, REY ŞƏHƏRİNİN QAZİSİ. ................................... 62
35. SƏLƏMƏ İBN KÜHEYL İBN HƏSİN İBN KADİH İBN ƏSƏD XƏZRƏMİ, KÜNYƏSİ ƏBU YƏHYADIR. ......................................................................................... 62
36. SÜLEYMAN İBN SÜRƏD XÜZAİ KUFİ. ............................................................. 63
37. SÜLEYMAN İBN TƏRXAN TEYMİ BƏSRİ, QEYSİN MÖVLASI, RƏHBƏRİ, ETİMADLI VƏ GÖRKƏMLİ ŞƏXSLƏRDƏN BİRİDİR. ............................................. 63
38. SÜLEYMAN İBN QƏRM İBN MƏA ƏBU DAVUD ZƏBBİ KUFİ. ...................... 64
39. SÜLEYMAN İBN MEHRAN KAHİLİ ƏMƏŞ KUFİ. ............................................. 64
40. ŞƏRİK İBN ABDULLAH İBN SƏNAN İBN ƏNƏS NƏXƏİ KUFİ, QAZİ (HAKİM) VƏ İMAM. ........................................................................................................ 65
41. ŞÖBƏ İBN HƏCCAC ƏBÜLVƏRD ƏTKİ, VASİT ƏHLİ, BƏSRƏ SAKİNİ, KÜNYƏSİ ƏBU BƏSTAM. ........................................................................................ 67
42. SƏSƏƏ İBN SUHAN İBN HƏCƏR İBN HARİS ƏBDİ. .......................................... 67
43. TAVUS İBN QEYSANİ XÜLANİ HƏMƏDANİ YƏMANİ ƏBU ƏBDÜR-RƏHMAN. ................................................................................................................ 68
44. ZALİM İBN ƏMR İBN SÜFYAN ƏBÜL-ƏSVƏD DUƏLİ. .................................... 69
45. AMİR İBN VAİLLƏ İBN ABDULLAH İBN ÖMƏR LEYSİ ƏBU TÜFEYL. ......... 69
46. İBAD İBN YƏQUB İSLAMİ RƏVACİNİ KUFİ. .................................................... 70
47. ABDULLAH İBN DAVUD ƏBU ƏBDÜR-RƏHMAN HƏMƏDANİ KUFİ. ........... 71
48. ABDULLAH İBN ŞƏDDAD İBN HAD (HAD – ÜSAMƏ İBN ƏMR İBN ABDULLAH İBN CABİR İBN BƏŞİR İBN ƏTVARƏ İBN AMİR İBN MALİK İBN LEYSDİR) KUFİ ƏBÜL-VƏLİD. ...................................................................................... 71
49. ABDULLAH İBN ÖMƏR İBN MƏHƏMMƏD İBN ƏBAN İBN SALEH İBN ÜMEYR QUREYŞİ, LƏQƏBİ MÜŞKDANƏ, KUFƏ ƏHLİDİR. .................................. 71
50. ABDULLAH İBN LƏHYƏƏ İBN ÜQBƏ HƏZRƏMİ, HAKİM VƏ MİSİR ALİMİ. ........................................................................................................................ 71
51. ABDULLAH İBN MEYMUN QƏDDAH, MƏKKƏ ƏHLİ, İMAM CƏFƏR SADİQİN (Ə) SƏHABƏLƏRİNDƏNDİR. ................................................................... 72
52. ƏBDÜR-RƏHMAN İBN SALEH ƏZDİ ƏBU MƏHƏMMƏD KUFİ. ..................... 72
53. ƏBDÜR-RƏZZAQ İBN HƏMMAM İBN NAFE HİMYƏRİ SƏNANİ. .................. 72
54. ƏBDÜL-MƏLİK İBN ƏYƏN, ZÜRARƏNİN QARDAŞI. ....................................... 74
55. ÜBEYDULLAH İBN MUSA ƏBƏSİ KUFİ, “SƏHİH” KİTABINDA BUXARİNİN USTADI. .................................................................................................................. 75
56. OSMAN İBN ÜMEYR ƏBU YƏĞZAN SƏQƏFİ KUFİ BƏCƏLİ. ONA OSMAN İBN ƏBU ZƏRƏ, OSMAN İBN QEYS VƏ HƏMİD DƏ DEYİRLƏR. .......................... 76

57. ƏDİ İBN SABİT KUFİİ. ........ 76
58. ƏTİYYƏ İBN SƏD İBN CƏNADƏ UFİ ƏBÜL-HƏSƏN KUFİ, MƏŞHUR TABEİNLƏRDƏNDİR. ........ 76
59. ƏLA İBN SALEH TEYMİ KUFİ. ........ 77
60. ƏLQƏMƏ İBN QEYS İBN ABDULLAH NƏXƏİ ƏBU ŞİBL, YƏZİDİN OĞULLARI ƏSVƏD VƏ İBRAHİMİN ƏMİSİ. ........ 77
61. ƏLİ İBN BƏDİMƏ. ........ 78
62. ƏLİ İBN CƏD ƏBÜL-HƏSƏN CÖVHƏRİ BAĞDADİ MÖVLA BƏNİ HAŞİM. ... 78
63. ƏLİ İBN ZEYD İBN ABDULLAH İBN ZƏHİR İBN ƏBU MƏLEYKƏ İBN CƏZAN ƏBÜL-HƏSƏN QÜRƏŞİ TEYMİ BƏSRİ. ........ 78
64. ƏLİ İBN SALEH, HƏSƏN İBN SALEHİN QARDAŞI. ........ 79
65. ƏLİ İBN QÜRAB ƏBU YƏHYA FƏZARİ KUFİ. ........ 79
66. ƏLİ İBN QADİM ƏBÜL-HƏSƏN XÜZAİ KUFİ. ........ 79
67. ƏLİ İBN MÜNZƏR TƏRAİFİ. ........ 79
68. ƏLİ İBN HAŞİM İBN BƏRİD ƏBÜL-HƏSƏN KUFİ XƏZZAZ AİZİ. ........ 80
69. ƏMMAR İBN RUZEYQ KUFİ. ........ 80
70. ƏMMAR İBN MÜAVİYƏ YA İBN ƏBU MÜAVİYƏ, ONA İBN XƏBBAB, BƏZƏN İBN SALEH DUHƏNİ BƏCƏLİ KUFİ DƏ DEYİLİR. KÜNYƏSİ ƏBU MÜAVİYƏDİR. ........ 80
71. ƏMR İBN ABDULLAH ƏBU İSHAQ SƏBİİ HƏMDANİ KUFİ. ........ 81
72. OVF İBN ƏBU CƏMİLƏ BƏSRİ ƏBU SƏHL, ƏSLİ “ƏRABİ” OLMAMASINA BAXMAYARAQ ƏRABİ ADI İLƏ MƏŞHURDUR. ........ 81
73. FƏZL İBN DÜKEYN. ........ 81
74. FÜZEYL İBN MƏRZUQ ƏĞƏR RƏVASİ KUFİ ƏBU ƏBDÜR-RƏHMAN. ........ 82
75. FİTR İBN XƏLİFƏ HƏNNAT KUFİ. ........ 82
76. MALİK İBN İSMAİL İBN ZİYAD İBN DİRHƏM ƏBU QƏSSAN KUFİ NƏHDİ. 83
77. MƏHƏMMƏD İBN XAZİM (ƏBU MÜAVİYƏ ADI İLƏ DƏ MƏŞHURDUR) ZƏRİR TƏMİMİ KUFİ. ........ 83
78. MƏHƏMMƏD İBN ABDULLAH ZƏBBİ TƏHANİ NİŞABURİ ƏBU ABDULLAH HAKİM, HAFİZ VƏ HƏDİSÇİLƏRİN İMAMI VƏ 1000-DƏN ARTIQ KİTABIN MÜƏLLİFİ. ........ 84
79. MƏHƏMMƏD ÜBEYDULLAH İBN ƏBU RAFE MƏDƏNİ. ........ 84
80. MƏHƏMMƏD İBN FÜZEYL İBN QƏZVAN ƏBU ƏBDÜR-RƏHMAN KUFİ. .... 84
81. MƏHƏMMƏD İBN MÜSLİM İBN TAİFİ. ........ 85
82. MƏHƏMMƏD İBN MUSA İBN ABDULLAH FİTRİ MƏDƏNİ. ........ 85
83. MÜAVİYƏ İBN ƏMMAR DƏHNİ BƏCƏLİ KUFİ. ........ 85
84. MƏRUF İBN XƏRRƏBUZ KƏRXİ. ........ 86
85. MƏNSUR İBN MÖTƏMƏR İBN ABDULLAH İBN RƏBİƏ SİLMİ KUFİ. ........ 86
86. MİNHAL İBN ƏMR, TABEİNLƏRDƏN OLUB, KUFƏ ƏHLİ VƏ KUFƏNİN MƏHŞUR ŞİƏLƏRİNDƏNDİR. ........ 87
87. MUSA İBN QEYS HƏZRƏMİ ƏBU MƏHƏMMƏD. ........ 87
88. NƏFİ İBN HƏSİR ƏBU DAVUD NƏXƏİ KUFİ HƏMDANİ SƏBİİ. ........ 88
89. NUH İBN QEYS İBN RİBAH HƏDANİ VƏTAHİ, ONA BƏSRİ DƏ DEYİLİR. ... 88
90. HARUN İBN SƏD İCLİ KUFİ. ........ 88
91. HAŞİM İBN BƏRİD İBN ZEYD ƏBU ƏLİ KUFİ. ........ 88
92. HÜBEYRƏ İBN BƏRİD HİMYƏRİ. ........ 89
93. HİŞAM İBN ZİYA ƏBU MİQDAM BƏSRİ. ........ 89

94. HÜŞAM İBN ƏMMAR İBN NƏSİR İBN MEYSƏRƏ ƏBÜL-VƏLİD. ONA ZƏFƏRİ DƏMƏŞQİ DƏ DEMİŞLƏR. ... 89
95. HÜŞAM İBN BƏŞİR İBN QASİM İBN DİNA SƏLMİ VASİTİ ƏBU MÜAVİYƏ. 90
96. VƏKİ İBN CƏRRAH İBN MƏLİH İBN ƏDİY. KÜNYƏSİ OĞLU SÜFYAN RƏVASİNİN ADI İLƏDİR (YƏN, ONA ƏBU SÜFYAN DEYİRLƏR) VƏ QEYS QEYLAN QƏBİLƏSİNDƏNDİR. ... 90
97. YƏHYA İBN CƏZZAR ƏRƏNİ KUFİ, ƏMİRƏL-MÖMİNİNİN (Ə) SƏHABƏLƏRİNDƏNDİR. ... 91
98. YƏHYA İBN SƏİD QƏTTAN ƏBU SƏİD MÖVLA İBN TƏMİM BƏSRİ, ÖZ ZAMANININ HƏDİS YAZANLARINDAN OLUB. ... 91
99. YƏZİD İBN ƏBU ZİYAD KUFİ ƏBU ABDULLAH MÖVLA BƏNİ-HAŞİM. ... 91
100. ƏBU ABDULLAH CƏDƏLİ. ... 92
"Ş" ... 93
ON YEDDİNCİ MƏKTUB ... 94
3 ZİLHİCCƏ 1329 ... 94
1. BƏHS EDƏNİN LÜTFÜ VƏ MEHRİBANLIĞI. ... 94
2. SÜNNƏ ƏHLİNİN ŞİƏNİN ETİMADLI ŞƏXSLƏRİNDƏN DƏLİL GƏTİRMƏKDƏ HEÇ BİR MANEƏNİN OLMAMASINA DAİR ONUN İZAHATI. ... 94
3. ƏHLİ-BEYT HAQQINDA ALLAHIN AYƏLƏRİNƏ ONUN İMANI. ... 94
4. ONUN QEYD OLUNAN DƏLİLLƏR ƏSASINDA QİBLƏ ƏHLİNİN FİKİRLƏRİNİN BU QƏDƏR FƏRQLİ OLDUĞUNA HEYRƏT ETMƏSİ. ... 94
"S" ... 94
ON SƏKKİZİNCİ MƏKTUB ... 95
4 ZİLHİCCƏ 1329 ... 95
1. ONA MEHRİBANLIĞINA GÖRƏ TƏŞƏKKÜR. ... 95
2. QİBLƏ ƏHLİ HAQQINDA DEDİKLƏRİNDƏ SƏHV. ... 95
3. ÜMMƏTİN RƏHBƏRLƏRİ ƏHLİ-BEYTDƏN ÜZ DÖNDƏRMİŞLƏR. ... 95
4. ƏHLİ-BEYT İMAMLARI (HEÇ BİR DƏLİLİ NƏZƏRƏ ALMADAN) BAŞQALARINDAN AŞAĞI SƏVİYYƏDƏ DEYİLDİR. ... 95
5. HANSI ƏDALƏTLİ MƏHKƏMƏ ONLARA ARXALANANLARIN YOL AZMALARINA HÖKM VERƏ BİLƏR? ... 95
"Ş" ... 96
ON DOQQUZUNCU MƏKTUB ... 97
5 ZİLHİCCƏ 1329 ... 97
1. ƏDALƏTLİ MƏHKƏMƏLƏR ƏHLİ-BEYTƏ ARXALANANLARIN YOLDAN AZMALARINA HÖKM VERMİRLƏR. ... 97
2. ONLARIN MƏZHƏBİNƏ ƏMƏL ETMƏK, (ŞƏRİ CƏHƏTDƏN) ÖHDƏDƏ OLAN İŞİN YERİNƏ YETİRİLMƏSİNİ TƏLƏB EDİR. ... 97
3. BƏZƏN DEYİLİR Kİ, ONLAR "TƏBƏİYYƏT" OLUNMAĞA DAHA LAYİQDİRLƏR. ... 97
4. XİLAFƏT "NƏSSLƏRİNİN" (RƏVAYƏTLƏR) TƏLƏBİ. ... 97
"S" ... 97
İKİNCİ BƏHS ... 98
**PEYĞƏMBƏRİN (S) XİLAFƏTİNİN ÜMUMİ RƏHBƏRLİYİ** ... 98
İYİRMİNCİ MƏKTUB ... 99
9 ZİLHİCCƏ 1329 ... 99
1. "NƏSS"LƏRƏ XÜLASƏ İŞARƏ. ... 99

2. “YÖVMÜL-İNZAR” “NƏSS”İ. ............ 99
3. SÜNNƏ ƏHLİNDƏN BU “NƏSS”İ NƏQL EDƏNLƏR VƏ YAZANLAR. ............ 99
“Ş” ............ 100
İYİRMİ BİRİNCİ MƏKTUB ............ 101
10 ZİLHİCCƏ 1329 ............ 101
BU “NƏSSİN” (HƏDİSİN) SƏNƏDİ BARƏSİNDƏ ŞÜBHƏ. ............ 101
“S” ............ 101
İYİRMİ İKİNCİ MƏKTUB ............ 102
12 ZİLHİCCƏ 1329 ............ 102
1. BU HƏDİSİN SƏNƏDİNİN DOĞRU OLMASI. ............ 102
2. NƏ ÜÇÜN ONDAN ÜZ DÖNDƏRMİŞLƏR? ............ 102
3. ONLARI TANIYAN ŞƏXS ONLARIN ÜZ ÇEVİRMƏSİNDƏN TƏƏCCÜBLƏNMƏZ. ............ 102
“Ş” ............ 103
İYİRMİ ÜÇÜNCÜ MƏKTUB ............ 104
14 ZİLHİCCƏ 1329 ............ 104
1. HƏDİSİN SÜBUTUNA ONUN İNAMI. ............ 104
2. HƏDİS “MÜTƏVATİR” OLMAYAN SURƏTDƏ ONDAN DƏLİL GƏTİRMƏYƏ ƏSAS YOXDUR. ............ 104
3. BU HƏDİS XÜSUSİ XİLAFƏTƏ DƏLALƏT EDİR. ............ 104
4. BU HƏDİS NƏSX OLUNMUŞDUR (HÖKMÜ DƏYİŞİLMİŞDİR). ............ 104
“S” ............ 104
İYİRMİ DÖRDÜNCÜ MƏKTUB ............ 105
15 ZİLHİCCƏ 1329 ............ 105
1. BU HƏDİSDƏN DƏLİL GƏTİRMƏYİMİZ ÜÇÜN ƏSAS. ............ 105
2. XÜSUSİ XİLAFƏT “İCMA” ŞƏKİLDƏ RƏDD OLUNMUŞDUR. ............ 105
3. BURADA NƏSX OLUNMA MÜMKÜN DEYİLDİR. ............ 105
“Ş” ............ 105
İYİRMİ BEŞİNCİ MƏKTUB ............ 106
16 ZİLHİCCƏ 1329 ............ 106
1. ONUN BU “NƏSS”Ə İMANI. ............ 106
2. ƏLAVƏ XAHİŞ. ............ 106
“S” ............ 106
İYİRMİ ALTINCI MƏKTUB ............ 107
17 ZİLHİCCƏ 1329 ............ 107
1. ƏLİNİN (Ə) FƏZİLƏTLƏRİNƏ DƏLALƏT EDƏN ONDAN ÇOX DOĞRU “NƏSS” VAR Kİ, O HƏZRƏTDƏN SAVAYI HEÇ KİMDƏ OLMAMIŞDIR. ............ 107
2. NƏ ÜÇÜN ONA İSTİNAD EDİRİK. ............ 107
“Ş” ............ 109
İYİRMİ YEDDİNCİ MƏKTUB ............ 110
18 ZİLHİCCƏ 1329 ............ 110
MƏNZİLƏT HƏDİSİNİN SƏNƏDİNƏ ŞÜBHƏ. ............ 110
“S” ............ 110
İYİRMİ SƏKKİZİNCİ MƏKTUB ............ 111
19 ZİLHİCCƏ 1329 ............ 111
1. “MƏNZİLƏT” HƏDİSİ ƏN QƏTİ XƏBƏRLƏRDƏNDİR. ............ 111
2. BU HƏQİQƏTİ BİLDİRƏN ŞAHİDLƏR. ............ 111

3. SÜNNƏ ƏHLİNDƏN BU HƏDİSİ NƏQL EDƏNLƏR. ........ 111
4. AMİDİNİN ŞÜBHƏSİNİN SƏBƏBİ. ........ 111
“Ş” ........ 113
İYİRMİ DOQQUZUNCU MƏKTUB ........ 114
20 ZİLHİCCƏ 1329 ........ 114
1. HƏDİSİN SƏNƏDİ HAQQINDA DEYİLƏNLƏRİN TƏSDİQİ. ........ 114
2. HƏDİSİN ÜMUMİLİYİNƏ ŞÜBHƏ. ........ 114
3. ONUN DƏLİLİNDƏ ŞÜBHƏ. ........ 114
“S” ........ 114
OTUZUNCU MƏKTUB ........ 115
22 ZİLHİCCƏ 1329 ........ 115
1. ƏRƏB DİLLİLƏR HƏDİSİN MƏFHUMUNUN ÜMUMİ OLDUĞUNU HÖKM EDİRLƏR. ........ 115
2. ONUN MÜƏYYƏN BİR YERƏ AİD OLMASI SÖZÜNÜN DOĞRU OLMAMASI. ........ 115
3. ONUN, DƏLİL OLMAMASI FİKRİNİN BATİLLİYİ. ........ 115
“Ş” ........ 116
OTUZ BİRİNCİ MƏKTUB ........ 117
22 ZİLHİCCƏ 1329 ........ 117
HƏDİSİN BAŞQA YERLƏRDƏ İŞLƏNMƏSİNƏ MİSAL GÖSTƏRİLMƏSİ XAHİŞİ. ........ 117
“S” ........ 117
OTUZ İKİNCİ MƏKTUB ........ 118
24 ZİLHİCCƏ 1329 ........ 118
1.ÜMMÜ-SÜLEYM İLƏ GÖRÜŞ. ........ 118
2. HƏMZƏNİN QIZININ ƏHVALATI. ........ 118
3. PEYĞƏMBƏR ƏLİYƏ SÖYKƏNƏN VAXT. ........ 118
4. İLK QARDAŞLIQ PEYMANI. ........ 118
5. İKİNCİ QARDAŞLIQ PEYMANI. ........ 118
6. QAPILARIN BAĞLANMASI ZAMANI. ........ 118
7. PEYĞƏMBƏR ƏLİ İLƏ HARUNU İKİ AYDIN ULDUZ KİMİ TƏSVİR EDİR. ........ 118
“Ş” ........ 121
OTUZ ÜÇÜNCÜ MƏKTUB ........ 122
25 ZİLHİCCƏ 1329 ........ 122
NƏ VAXT VƏ HARADA ƏLİ İLƏ HARUN İKİ ULDUZ KİMİ TƏSVİR OLUNMUŞDUR? ........ 122
“S” ........ 122
OTUZ DÖRDÜNCÜ MƏKTUB ........ 123
27 ZİLHİCCƏ 1329 ........ 123
1. “ŞÜBBƏR”, “ŞÜBEYR” VƏ “MÜŞƏBBİR” GÜNÜ. ........ 123
2. QARDAŞLIQ ƏQDİ GÜNÜ. ........ 123
3. QAPILARIN BAĞLANMASI GÜNÜ. ........ 123
“Ş” ........ 127
OTUZ BEŞİNCİ MƏKTUB ........ 128
27 ZİLHİCCƏ 1329 ........ 128
BAŞQA “NƏSS”LƏRİN XAHİŞİ. ........ 128
“S” ........ 128

OTUZ ALTINCI MƏKTUB ... 129
29 ZİLHİCCƏ 1329 ... 129
1 İBN ABBASIN HƏDİSİ. ... 129
2. İMRANIN HƏDİSİ. ... 129
3. BÜREYDƏNİN HƏDİSİ. ... 129
4. “ON XÜSUSİYYƏTLƏR” HƏDİSİ. ... 129
5. ƏLİNİN HƏDİSİ. ... 129
6. VƏHƏBİN HƏDİSİ. ... 129
7. İBN ƏBU ASİMİN HƏDİSİ. ... 129
“Ş” ... 131
OTUZ YEDDİNCİ MƏKTUB ... 132
29 ZİLHİCCƏ 1329 ... 132
“VƏLİ” MÜŞTƏRƏK (OMONİM) SÖZDÜR. ONUN DƏQİQ MƏNASINI MÜƏYYƏNLƏŞDİRƏN HƏDİS VARMI? ... 132
“S” ... 132
OTUZ SƏKKİZİNCİ MƏKTUB ... 133
30 ZİLHİCCƏ 1329 ... 133
1. “VƏLİ” SÖZÜNÜN BƏYANINDAN MƏQSƏD. ... 133
2. BU MƏNANI SÜBUT EDƏN ƏLAMƏTLƏR (DƏLİLLƏR). ... 133
OTUZ DOQQUZUNCU MƏKTUB ... 134
30 ZİLHİCCƏ 1329 ... 134
VİLAYƏT AYƏSİNDƏN BƏHS ETMƏK XAHİŞİ. ... 134
“S” ... 134
QIRXINCI MƏKTUB ... 135
2 MƏHƏRRƏM 1330 ... 135
1.“VİLAYƏT” AYƏSİ VƏ ONUN ƏLİ HAQQINDA NAZİL OLMASI. ... 135
2. ONUN NAZİL OLMASININ SƏBƏBLƏRİ. ... 135
3. ONA DƏLİLLƏR GƏTİRMƏK. ... 135
“Ş” ... 136
QIRX BİRİNCİ MƏKTUB ... 137
3 MƏHƏRRƏM 1330 ... 137
İMAN GƏTİRƏNLƏR SÖZÜ CƏM HALINDADIR, NECƏ TƏK HALA AİD OLA BİLƏR? ... 137
“S” ... 137
QIRX İKİNCİ MƏKTUB ... 138
4 MƏHƏRRƏM 1330 ... 138
1. ƏRƏB “MÜFRƏD”İ (TƏK) CƏM HALINDA İŞLƏDİR. ... 138
2. BU MƏSƏLƏ ÜÇÜN SÜBUTLAR. ... 138
3. İMAM TƏBƏRİNİN DEDİKLƏRİ. ... 138
4. ZƏMƏXŞƏRİNİN DEDİKLƏRİ. ... 138
5. MƏNİM DEDİKLƏRİM. ... 138
“Ş” ... 139
QIRX ÜÇÜNCÜ MƏKTUB ... 140
4 MƏHƏRRƏM 1330 ... 140
AYƏLƏRİN MƏFHUMUNU (SİYAQ) “VƏLİ” SÖZÜNÜ “MÜHİBB” VƏ BUNA OXŞAR SÖZLƏRİN MƏNASINA DƏLALƏT ETDİYİNİ GÖSTƏRİR. ... 140
“S” ... 140

QIRX DÖRDÜNCÜ MƏKTUB ... 141
5 MƏHƏRRƏM 1330 ... 141
1. AYƏNİN MƏFHUMU “NƏSİR” VƏ ONA BƏNZƏR SÖZLƏRİN MƏNASINA DƏLALƏT ETMİR. ... 141
2. AYƏNİN MƏFHUMU DƏLİLLƏR İLƏ MÜXALİF OLA BİLMƏZ. ... 141
“Ş” ... 142
QIRX BEŞİNCİ MƏKTUB ... 143
6 MƏHƏRRƏM 1330 ... 143
KEÇMİŞDƏKİLƏRİN ƏMƏLLƏRİNİN DOĞRU OLMASINA İNAM ÜÇÜN TƏFSİR MƏCBURİYYƏTİNDƏ. ... 143
“S” ... 143
QIRX ALTINCI MƏKTUB ... 144
6 MƏHƏRRƏM 1330 ... 144
1. KEÇMİŞDƏKİLƏRİN ƏMƏLLƏRİNİN DOĞRU OLMASINA İNAM ÜÇÜN “TƏVİL” LAZIM DEYİLDİR. ... 144
2. “TƏVİL” MÜMKÜN DEYİLDİR. ... 144
“Ş” ... 144
QIRX YEDDİNCİ MƏKTUB ... 145
7 MƏHƏRRƏM 1330 ... 145
TƏSDİQEDİCİ “NƏSS”LƏRİN TƏLƏBİ. ... 145
“S” ... 145
QIRX SƏKKİZİNCİ MƏKTUB ... 146
8 MƏHƏRRƏM 1330 ... 146
1. SÜBUT ÜÇÜN QIRX HƏDİS ... 146
“Ş” ... 153
QIRX DOQQUZUNCU MƏKTUB ... 154
11 MƏHƏRRƏM 1330 ... 154
ƏLİNİN (Ə) FƏZİLƏTLƏRİNƏ ETİRAF. ... 154
ONUN FƏZİLƏTLƏRİ XİLAFƏTƏ VƏSİYYƏT ÜÇÜN SƏBƏB DEYİLDİR. ... 154
“S” ... 154
ƏLLİNCİ MƏKTUB ... 155
13 MƏHƏRRƏM 1330 ... 155
İMAMIN İMAMƏTƏ LAYİQ XÜSUSİYYƏTLƏRİNİN İSTİDLALI. ... 155
ƏLLİ BİRİNCİ MƏKTUB ... 156
14 MƏHƏRRƏM 133 ... 156
BU DƏLİLLƏRİN MÜXALİFİ (İNKAR EDƏNİ) VARDIR. ... 156
“S” ... 156
ƏLLİ İKİNCİ MƏKTUB ... 157
15 MƏHƏRRƏM 1330 ... 157
ZİDDİYƏTLİ İDDİANIN CAVABI. ... 157
“Ş” ... 157
ƏLLİ ÜÇÜNCÜ MƏKTUB ... 158
16 MƏHƏRRƏM 1330 ... 158
“QƏDİR” HƏDİSİNİN TƏLƏBİ. ... 158
“S” ... 158
ƏLLİ DÖRDÜNCÜ MƏKTUB ... 159
18 MƏHƏRRƏM 1330 ... 159

"QƏDİR" HƏDİSİNİN BİR HİSSƏSİNƏ İŞARƏ. 159
"Ş" 161
ƏLLİ BEŞİNCİ MƏKTUB 162
19 MƏHƏRRƏM 1330 162
MÜTƏVATİR HƏDİS OLMADAN NECƏ İSTEDLAL ETMƏK OLAR? 162
"S" 162
ƏLLİ ALTINCI MƏKTUB 163
22 MƏHƏRRƏM 1330 163
1. TƏBİİ QANUNLAR "QƏDİR" HƏDİSİNİN TƏVATÜRÜNÜ TƏLƏB EDİR. 163
2. ALLAHIN ONA İNAYƏTİ. 163
3. RƏSULULLAH(S)İN ONA İNAYƏTİ. 163
4. ƏMİRƏL-MÖMİNİN(Ə)IN ONA İNAYƏTİ. 163
5. HÜSEYNİN İNAYƏTİ. 163
6. DOQQUZ İMAMIN İNAYƏTİ. 163
7. ŞİƏLƏRİN ONA İNAYƏTİ. 163
8. SÜNNİLƏRİN TƏRİQİYLƏ "QƏDİR" "NƏSS"İNİN TƏVATÜRÜ. 163
"Ş" 168
ƏLLİ YEDDİNCİ MƏKTUB 169
25 MƏHƏRRƏM 1330 169
1. "QƏDİR" HƏDİSİNİN TƏVİLİ. 169
2. BU MƏTLƏBLƏRİN QƏRİNƏ VƏ ŞAHİDİ. 169
"S" 169
ƏLLİ SƏKKİZİNCİ MƏKTUB 170
27 MƏHƏRRƏM 1330 170
1. "QƏDİR" HƏDİSİNİN TƏVİLİ MÜMKÜN DEYİLDİR. 170
2. TƏVİLƏ" QƏRİNƏ"YAZMAQ BOŞBOĞAZLIQ VƏ FİTNƏKARLIQDIR. 170
"Ş" 172
ƏLLİ DOQQUZUNCU MƏKTUB 173
28 MƏHƏRRƏM 1330 173
1. HƏQİQƏT AŞKAR OLDU. 173
2. ŞÜURLU ŞƏKİLDƏ HƏQİQƏTDƏN UZAQLAŞMAQ. 173
"S" 173
ALTMIŞINCI MƏKTUB 174
30 MƏHƏRRƏM 1330 174
HƏQİQƏTDƏN UZAQLAŞMAĞIN MÜMKÜNSÜZLÜYÜ. 174
"Ş" 175
ALTMIŞ BİRİNCİ MƏKTUB 176
1 SƏFƏR 1330 176
ŞİƏ TƏRİQİ İLƏ GƏLİB ÇATMIŞ "NÜSUS"UN TƏLƏBİ. 176
"S" 176
ALTMIŞ İKİNCİ MƏKTUB 177
2 SƏFƏR 1330 177
QIRX HƏDİS. 177
"Ş" 181
ALTMIŞ ÜÇÜNCÜ MƏKTUB 182
3 SƏFƏR 1330 182
1. ŞİƏ "NƏSS"LƏRİ HÖCCƏT DEYİLDİR. 182

2. NƏ ÜÇÜN YALNIZ ŞİƏLƏR BU HƏDİSLƏRİ NƏQL ETMİŞLƏR? ..................... 182
3. QEYRİ-ŞİƏ TƏRİQİNDƏN OLAN HƏDİSLƏR GÖSTƏR. ..................... 182
“S” ..................... 182
ALTMIŞ DÖRDÜNCÜ MƏKTUB ..................... 183
4 SƏFƏR 1330 ..................... 183
1. BİZ BU “NÜSUS”U SİZİN XAHİŞİNİZƏ GÖRƏ VERDİK. ..................... 183
2. SÜNNİLƏR QARŞISINDA BİZİM HÖCCƏTİMİZ ONLARIN SƏHİH “NÜSUS”UDUR. ..................... 183
3. AMMA BU HƏDİSLƏRİN ZİKR EDİLMƏMƏSİNİN SƏBƏBİ. ..................... 183
4. VƏRASƏTİN “NƏSS”İNƏ İŞARƏ. ..................... 183
“Ş” ..................... 184
ALTMIŞ BEŞİNCİ MƏKTUB ..................... 185
5 SƏFƏR 1330 ..................... 185
SÜNNİ TƏRİQİYLƏ “VƏRASƏT” HƏDİSİNİN TƏLƏBİ. ..................... 185
“S” ..................... 185
ALTMIŞ ALTINCI MƏKTUB ..................... 186
5 SƏFƏR 1330 ..................... 186
ƏLİ PEYĞƏMBƏRİN (S) VARİSİDİR. ..................... 186
“Ş” ..................... 187
ALTMIŞ YEDDİNCİ MƏKTUB ..................... 188
6 SƏFƏR 1330 ..................... 188
“VƏSAYƏT” BƏHSİ. ..................... 188
“S” ..................... 188
ALTMIŞ SƏKKİZİNCİ MƏKTUB ..................... 189
9 SƏFƏR 1330 ..................... 189
“VƏSAYƏT” “NÜSUS”U. ..................... 189
“Ş” ..................... 191
ALTMIŞ DOQQUZUNCU MƏKTUB ..................... 192
10 SƏFƏR 1330 ..................... 192
“VƏSAYƏT”İ İNKAR EDƏNLƏRİN DƏLİLİ. ..................... 192
“S” ..................... 192
YETMİŞİNCİ MƏKTUB ..................... 193
11 SƏFƏR 1330 ..................... 193
1. VƏSİYYƏTİ İNKAR ETMƏK OLMAZ. ..................... 193
2. VƏSİYYƏTİN İNKARINA SƏBƏB. ..................... 193
3. İNKAR EDƏNLƏRİN DƏLİL GƏTİRDİKLƏRİ RƏVAYƏTLƏR HÖCCƏT DEYİLDİR. ..................... 193
4. AĞIL VƏ VİCDAN VƏSİYYƏTƏ HÖKM EDİR. ..................... 193
“Ş” ..................... 197
YETMİŞ BİRİNCİ MƏKTUB ..................... 198
10 SƏFƏR 1330 ..................... 198
NƏ ÜÇÜN “ÜMMÜL-MÖMİNİNİN” HƏDİSİNDƏ PEYĞƏMBƏRİN (S) ZÖVCƏLƏRİNİN ƏN YAXŞISINA ETİRAZ EDİRSƏN? ONUN SƏBƏBİ NƏDİR? 198
“S” ..................... 198
YETMİŞ İKİNCİ MƏKTUB ..................... 199
12 SƏFƏR 1330 ..................... 199
1. O, PEYĞƏMBƏRİN ZÖVCƏLƏRİNİN ƏN YAXŞISI DEYİLDİ. ..................... 199

2. ONLARIN ƏN YAXŞISI "XƏDİCƏ"İDİ. ... 199
3. AYİŞƏNİN HƏDİSİNƏ ETİRAZIN QISA ŞƏRHİ. ... 199
"Ş" ... 200
YETMİŞ ÜÇÜNCÜ MƏKTUB ... 201
13 SƏFƏR 1330 ... 201
AYİŞƏNİN HƏDİSİNDƏN İMTİNANIN SƏBƏBİNİN TƏFSİLATI. ... 201
"S" ... 201
YETMİŞ DÖRDÜNCÜ MƏKTUB ... 202
15 SƏFƏR 1330 ... 202
1. AYİŞƏNİN HƏDİSİNDƏN İMTİNANIN SƏBƏBLƏRİNİN TƏFSİLİ. ... 202
2. AĞIL "VƏSAYƏT"Ə HÖKM EDİR. ... 202
3. "PEYĞƏMBƏRİN (S) ONUN (AYİŞƏNİN) YANINDA ÖLMÜŞDÜR" – İDDİASINA QARŞI SƏNƏD VARDIR. ... 202
"Ş" ... 205
YETMİŞ BEŞİNCİ MƏKTUB ... 206
17 SƏFƏR 1330 ... 206
1. ÜMMÜL-MÖMİNİNƏ ATİFƏ (DAXİLİ HİSSLƏR) HAKİM DEYİLDİR. ... 206
2. "HÜSN VƏ ƏQLİ QƏBAHƏT"Ə YER YOXDUR. ... 206
3. ÜMMÜL-MÖMİNİNİN DEDİKLƏRİNİN ZİDDİYYƏTİ HAQQINDA. ... 206
"S" ... 206
YETMİŞ ALTINCI MƏKTUB ... 207
19 SƏFƏR 1330 ... 207
1. O, ATİFƏ VƏ HİSSƏ QAPILIRDI. ... 207
2. "HÜSN VƏ ƏQLİ QƏBAHƏT"İN SÜBUTU ... 207
3. SƏHİH XƏBƏRLƏR ÜMMÜL-MÖMİNİNİN DEDİKLƏRİNƏ ZİDDİR. ... 207
4. ÜMMÜ-SƏLƏMƏNİN HƏDİSİ AYİŞƏNİN HƏDİSİNDƏN İRƏLİDİR. ... 207
"Ş" ... 211
YETMİŞ YEDDİNCİ MƏKTUB ... 212
20 SƏFƏR 1330 ... 212
NƏ ÜÇÜN ÜMMÜ-SƏLƏMƏNİN HƏDİSİ (ZİDD OLAN SURƏTDƏ) ÜSTÜNDÜR? ... 212
"S" ... 212
YETMİŞ SƏKKİZİNCİ MƏKTUB ... 213
22 SƏFƏR 1330 ... 213
ÜMMÜ-SƏLƏMƏNİN HƏDİSİNİN DEYİLƏNLƏRDƏN BAŞQA ƏSAS ÜSTÜNLÜYÜNÜN SƏBƏBLƏRİ. ... 213
"Ş" ... 215
YETMİŞ DOQQUZUNCU MƏKTUB ... 216
23 SƏFƏR 1330 ... 216
İCMA "SİDDİQ"İN XİLAFƏTİNİ QƏBUL EDİR. ... 216
"S" ... 216
HƏŞTADINCI MƏKTUB ... 217
28 SƏFƏR 1330 ... 217
İCMA KAMİL OLMAMIŞDIR. ... 217
"Ş" ... 219
HƏŞTAD BİRİNCİ MƏKTUB ... 220
28 SƏFƏR 1330 ... 220

ARTIQ İCMA İXTİLAFDAN SONRA BAŞ TUTDU. .... 220
“S” .... 220
HƏŞTAD İKİNCİ MƏKTUB .... 221
30 SƏFƏR 1330 .... 221
NƏ İCMA BAŞ TUTDU, NƏ DƏ ÇƏKİŞMƏ ARADAN QALXDI. .... 221
“Ş” .... 224
HƏŞTAD ÜÇÜNCÜ MƏKTUB .... 225
2 RƏBİƏL-ƏVVƏL, 1330 .... 225
“NƏSS”İN MÜQABİLİNDƏ SƏHABƏNİN ONDAN İMTİNASI NECƏ MÜMKÜNDÜR? .... 225
“S” .... 225
HƏŞTAD DÖRDÜNCÜ MƏKTUB .... 226
5 RƏBİƏL-ƏVVƏL, 1330 .... 226
1. “NƏSS”İN SÜBUTU VƏ ONLARIN ƏMƏLİNİ DÜZGÜNLÜYƏ YOZMAĞI BİRLİKDƏ CƏMLƏŞDİRMƏK. .... 226
2. İMAMIN ÖZ HÜQUQUNU QAYTARMAQDAN ƏL ÇƏKMƏSİNİN SƏBƏBİ. .... 226
“Ş” .... 228
HƏŞTAD BEŞİNCİ MƏKTUB .... 229
7 RƏBİƏL-ƏVVƏL, 1330 .... 229
“NƏSS”Ə BOYUN ƏYMƏDİKLƏRİ HALLARIN TƏLƏBİ. .... 229
“S” .... 229
HƏŞTAD ALTINCI MƏKTUB .... 230
8 RƏBİƏL-ƏVVƏL, 1330 .... 230
1.CÜMƏ AXŞAMININ MÜSİBƏTİ. .... 230
2. PEYĞƏMBƏRİN (S) ONLARA ƏMR ETDİKDƏN SONRA (BU İŞDƏN) ƏL GÖTÜRMƏLƏRİNİN SƏBƏBİ. .... 230
“Ş” .... 233
HƏŞTAD YEDDİNCİ MƏKTUB .... 234
9 RƏBİƏL-ƏVVƏL, 1330 .... 234
HƏQİQƏTDƏN ÜZR VƏ BƏHANƏ İLƏ SAPINMA. .... 234
“S” .... 235
HƏŞTAD SƏKKİZİNCİ MƏKTUB .... 236
11 RƏBİÜL-ƏVVƏL 1330 .... 236
BELƏ “ÜZRXAHLIQ” QƏBUL DEYİLDİR. .... 236
“Ş” .... 238
HƏŞTAD DOQQUZUNCU MƏKTUB .... 239
14 RƏBİÜL-ƏVVƏL 1330 .... 239
1. BU ÜZRXAHLIĞIN SƏHV OLMASINA ETİRAF. .... 239
2. BAŞQA HALLARIN DA İSTƏNİLMƏSİ. .... 239
“S” .... 239
DOĞSANINCI MƏKTUB .... 240
17 RƏBİÜL-ƏVVƏL 1330 .... 240
ÜSƏMƏNİN SƏRİYYƏSİ (BAŞÇILIĞI ALTINDA DÖYÜŞ). .... 240
“Ş” .... 242
DOĞSAN BİRİNCİ MƏKTUB .... 243
19 RƏBİÜL-ƏVVƏL 1330 .... 243
1. ÜSAMƏNİN SƏRİYYƏSİNDƏ BAŞ VERƏN HADİSƏLƏRİN YOZUMU. .... 243

2. BU ORDUDAN BOYUN QAÇIRANLARIN LƏNƏTLƏNMƏSİ BARƏDƏ BİR HƏDİSİN MÖVCUD OLMAMASI. ........ 243
“S” ........ 244
DOĞSAN İKİNCİ MƏKTUB ........ 245
22 RƏBİÜL-ƏVVƏL 1330 ........ 245
1. ONLARIN BƏHANƏLƏRİ SÖYLƏDİKLƏRİMİZLƏ ZİDD DEYİLDİR. ........ 245
2. ŞƏHRİSTANİDƏN NƏQL ETDİYİMİZ MƏTLƏB, MÜSNƏD (SƏNƏDLİ) HƏDİSDƏ GƏLMİŞDİR. ........ 245
“Ş” ........ 246
DOĞSAN ÜÇÜNCÜ MƏKTUB ........ 247
23 RƏBİÜL-ƏVVƏL 1330 ........ 247
BAŞQA HALLARIN DA İSTƏNİLMƏSİ. ........ 247
“S” ........ 247
DOĞSAN DÖRDÜNCÜ MƏKTUB ........ 248
25 RƏBİÜL-ƏVVƏL 1330 ........ 248
“MARİQİLƏR”İN ÖLDÜRÜLMƏSİNƏ DAİR PEYĞƏMBƏRİN (S) FƏRMANI. ........ 248
“Ş” ........ 249
DOĞSAN BEŞİNCİ MƏKTUB ........ 250
26 RƏBİÜL-ƏVVƏL 1330 ........ 250
“MARİQİ”NİN ÖLDÜRÜLMƏSİNİN YOZUMU. ........ 250
“S” ........ 250
DOĞSAN ALTINCI MƏKTUB ........ 251
29 RƏBİÜL-ƏVVƏL 1330 ........ 251
BU YOZUMA CAVAB. ........ 251
“Ş” ........ 251
DOĞSAN YEDDİNCİ MƏKTUB ........ 252
30 RƏBİÜL-ƏVVƏL 1330 ........ 252
BÜTÜN HALLARIN İSTƏNİLMƏSİ. ........ 252
“S” ........ 252
DOĞSAN SƏKKİZİNCİ MƏKTUB ........ 253
3 RƏBİÜS-SANİ 1330 ........ 253
1. HALLARDAN BİR HİSSƏSİ. ........ 253
2. BAŞQA HALLARA İŞARƏ. ........ 253
“Ş” ........ 253
DOĞSAN DOQQUZUNCU MƏKTUB ........ 254
5 RƏBİÜS-SANİ 1330 ........ 254
1. ONLAR BÜTÜN (SAYDIĞINIZ) HALLARDA ÜMUMUN MƏSLƏHƏTİNİ ÜSTÜN BİLMİŞLƏR. ........ 254
2. BAŞQA HALLARIN İSTƏNİLMƏSİ. ........ 254
“S” ........ 254
YÜZÜNCÜ MƏKTUB ........ 255
8 RƏBİÜS-SANİ 1330 ........ 255
1. BƏHSİN ƏTRAFINDAN XARİC OLMA. ........ 255
2. XAHİŞİN YERİNƏ YETİRİLMƏSİ. ........ 255
“Ş” ........ 256
YÜZ BİRİNCİ MƏKTUB ........ 257
10 RƏBİÜS-SANİ 1330 ........ 257

NƏ ÜÇÜN İMAM (ƏLİ) “SƏQİFƏ” GÜNÜ XİLAFƏT VƏ “VƏSAYƏT” “NƏSS”İNƏ İSTİNAD ETMƏDİ? ..... 257
“S” ..... 257
YÜZ İKİNCİ MƏKTUB ..... 258
11 RƏBİÜS-SANİ 1330 ..... 258
1. “SƏQİFƏ” GÜNÜ İMAMIN ÖZ HAQQINI MÜDAFİƏ ETMƏSİNƏ MANEÇİLİK. ..... 258
2. MANEÇİLİYİN OLMASINA BAXMAYARAQ İMAMIN VƏ DOSTLARININ HƏMİN “NƏSS”LƏRİ YADA SALMALARI. ..... 258
“Ş” ..... 259
YÜZ ÜÇÜNCÜ MƏKTUB ..... 260
12 RƏBİÜS-SANİ 1330 ..... 260
İMAMIN VƏ DOSTLARININ DƏLİL GƏTİRMƏLƏRİ BARƏDƏ BƏHS. ..... 260
“S” ..... 260
YÜZ DÖRDÜNCÜ MƏKTUB ..... 261
15 RƏBİÜS-SANİ 1330 ..... 261
1. İMAMIN (Ə) DƏLİL GƏTİRMƏSİ HALLARINDAN BƏZİSİ. ..... 261
2. HƏZRƏT ZƏHRANIN (Ə.H) DƏLİL GƏTİRMƏSİ. ..... 261
“Ş” ..... 264
YÜZ BEŞİNCİ MƏKTUB ..... 265
16 RƏBİÜS-SANİ 1330 ..... 265
BƏHSİN YEKUNLAŞDIRILMASI TƏLƏBİ. ..... 265
“S” ..... 265
YÜZ ALTINCI MƏKTUB ..... 266
18 RƏBİÜS-SANİ 1330 ..... 266
1. İBN ABBASIN DƏLİLİ. ..... 266
2. HƏSƏN (Ə) VƏ HÜSEYNİN (Ə) DƏLİLLƏRİ. ..... 266
3. SƏHABƏDƏN OLAN ŞİƏ BÖYÜKLƏRİNİN DƏLİLLƏRİ. ..... 266
4. ONLARIN PEYĞƏMBƏRİN (S) VƏSİYYƏTİNDƏN DƏLİL GƏTİRMƏLƏRİNƏ İŞARƏ. ..... 266
“Ş” ..... 268
YÜZ YEDDİNCİ MƏKTUB ..... 269
19 RƏBİÜS-SANİ 1330 ..... 269
VƏSİYYƏTİ HARDA VƏ NƏ ZAMAN XATIRLAMIŞLAR? ..... 269
“S” ..... 269
YÜZ SƏKKİZİNCİ MƏKTUB ..... 270
22 RƏBİÜS-SANİ 1330 ..... 270
SÜBUTUN VƏSİYYƏT İLƏ GƏTİRİLMƏSİ. ..... 270
“Ş” ..... 277
YÜZ DOQQUZUNCU MƏKTUB ..... 278
23 RƏBİÜS-SANİ 1330 ..... 278
ŞİƏNİN HƏM ÜSULDA, HƏM DƏ FÜRUDA ƏHLİ-BEYTƏ TABE OLMAĞINA İRAD TUTANLARA CAVAB İSTƏMƏK ..... 278
“S” ..... 278
YÜZ ONUNCU MƏKTUB ..... 279
29 RƏBİÜS-SANİ 1330 ..... 279

1. ƏHLİ-BEYT İMAMLARI TƏRƏFİNDƏN ŞİƏ MƏZHƏBİ “MÜTƏVATİR” SURƏTDƏ TƏSDİQ OLUNMUŞDUR. .......... 279
2. SƏHABƏNİN ZAMANINDAN BƏRİ ELMLƏRİN YARANMASI VƏ İNKİŞAFINDA ŞİƏNİN QABAQCILLIĞI. .......... 279
3. TABEİN VƏ ONLARDAN SONRAKI ZAMANLARDA ŞİƏ YAZIÇILARI.......... 279
“Ş” .......... 287
YÜZ ON BİRİNCİ MƏKTUB.......... 288
1 CƏMADİÜL-ƏVVƏL 1330 .......... 288
HƏQİQƏTİNN TƏSDİQİ.......... 288
“S” .......... 288
YÜZ ON İKİNCİ MƏKTUB .......... 289
2 CƏMADİÜL-ƏVVƏL 1330 .......... 289
HİDAYƏT BU YOLUN NƏTİCƏSİDİR.......... 289
“Ş” .......... 289